**TOFİQ GƏRAYZADƏ**

# Regional coğrafiya

## Şimali Amerika və Şərqi Asiya ölkələri

**Dərs vəsaiti**

*Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Ali məktəb tələbələri üçün dərs vəsaiti kimi tövsiyə edilmişdir (əmr № 296, 21.04.2003)*

**ÇAŞIOĞLU**
**2004**

Elmi redaktoru: Azərbaycan Dövlət Pedaqoji Universitetinin «İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası» kafedrasının baş müəllimi, metodsit **K.M.Əkbərov**

Rəylər: BDU-nun «Xarici ölkələrin iqtisadi vç siyasi coğrafiyası» kafedrasının müdiri, c.e.n.,dosent H.B. Soltanova, ADPU-nun «İqtisadi coğrafiya və CTM»kafedarsının dosentləri, c.e.n., L.İ.Nəsibli, c.e.n.Y.Q.İsmayılov, c.e.n. M.X Məmmədov və c.e.n.Ü. M.Əsədov

91
G 43

Müəllif öz tərəfindən kitabın nəşrində iştirak etmiş «Çaşıoğlu» elmi-istehsalat firmasının əməkdaşlarına, xüsusilə şirkətin prezidenti **Hikmət Hüseynova** dərin minnətdarlığını bildirir.

**Gərayzadə T.P.** Regional coğrafiya (Şimali Amerika ölkələri və Yaponiya). Bakı: Çaşıoğlu, 2004. - 384 s., şəkil, xəritə, sxem, cədvəl.

Kitabda dünyanın ayrı-ayrı regionlarının məskunlaşması, irq, etnik və din fərqləri, regional sivilizasiyaların mənbəyi və formalaşma mərhələləri, dünyada qloballaşma və regionlaşma prosesləri, son on ildə qloballaşmanın nəticələri, Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə qoşulmaq imkanları, Birləşmiş Ştatların, Kanadanın, Çinin, Yaponiyanın və digər Şərqi Asiya ölkələrinin iqtisadi və sosial-coğrafi məsələləri barədə ən yeni və ətraflı məlumatlar verilir.

Respublikamzda ilk dəfə yazılmış bu kitabdan ali məktəblərimizin coğrafiya, tarix, regionşünaslıq, beynəlxalq münasibətlər, iqtisadiyyat fakultələrinin bakalavr və magistratura pillələrində tədris alan tələbələrlə bərabər müvafiq fənndən dərs deyən orta və ali məktəb müəllimləri və ümumiyyətlə xarici ölkələrlə maraqlanan oxucular da istifadə edə bilərlər.

G $\frac{4306021000 - 861}{082\text{-}04}$

Б Д У-нун
Елми
китабханасы

*«Çaşıoğlu»* nəşriyyatı, 2004

# MÜƏLLİFDƏN

*Respublikamızda coğrafiya elminin inkişafı, xüsusilə onun təbiətinin mühafizəsi məsələlərində böyük xidməti olan, müəllimim və mənəvi valideynim akademik Həsən Əlirza oğlu Əliyevə ithaf edirəm*

Dərs vəsaitində yazılmış «Regional coğrafiya (Şimali Amerika və Şərqi Asiya ölkələri)» mövzuları «Dünyanın iqtisadi və sosial coğrafiyası» kursunun tərkib hissəsi kimi və ya müstəqil şəkildə orta məktəblərin yuxarı siniflərində və ali məktəblərin coğrafiya, tarix, beynəlxalq münasibətlər, xarici dillər, regionşünaslıq fakultələrində tədris edilir. Dünyanın iqtisadi və siyasi həyatında özünə məxsus yer tutan Şimali Amerika və Şərqi Asiya ölkələri, həm də regional sivilizasiyaların mənbəyi və formalaşma mərhələlərinə dair indiyədək respublikamızda heç bir monoqrafiya, dərslik və dərs vəsaiti yazılmamışdır (1991-ci ildə T.P.Gərayzadə tərəfindən 5,0 ç.v. həcmində hazırlanmış «ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi və sosial coğrafiyası» adlı dərs vəsaiti istisna olmaqla). Dərs vəsaitinin birinci bölməsində dünyanın ayrı-ayrı regionlarının məskunlaşması, irq, etnik və din fərqləri, regional sivilizasiyaların mənbəyi və formalaşma mərhələləri şərh edilmiş və müasir sivilizasiya regionlarının xəritə-sxemi tərtib edilmişdir. İkinci fəsildə dünyada qloballaşma və regionlaşma prosesləri, son on ildə qloballaşmanın nəticələri BMT-nin məlumatları əsasında təhlil edilir. Bununla yanaşı bu bölmədə Azərbaycan Respublikasının dünya təsərrüfatında yeri və dünya iqtisadi sisteminə qoşulmaq imkanları, gələcək sosial-iqtisadi inkişafı üçün dünya birliyində inteqrasiyanın əhəmiyyəti və s. məsələlər şərh edilir. Kitabın üçüncü və dördüncü bölmələrində dünyanın ən qabaqcıl regionları barədə, həm də respublikamızın iqtisadi və siyasi xəttini dəstəkləyən, təsərrüfatımızın inkişafında və dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayan Amerika Birləşmiş Ştatların, Yaponiyanın və Çinin iqtisadi və sosial-coğrafi məsələləri barədə ən yeni və ətraflı məlumatlar verilir. Kitabın sonunda, beşinci bölmədə fəaliyyətdə olan beynəlxalq və regional təşkilatların vəzifəsi, ölkə adlarının mənşəyi və yaranma tarixi, 200-ə qədər terminlərin lüğəti mənası açıqlanmış və BMT-nin insan inkişafı barədə hesabat materialları əsasında bir sıra cədvəllər tərtib edilmişdir.

Müəllif dərs vəsaitinin hazırlanmasında son 15-20 il ərzində dünyada, o cümlədən dərs vəsaitində baxılan ölkələrdə baş verən dəyişikləri maksimum nəzərə almağa təşəbbüs göstərmişdir. Kitabda başlıca məqsədlərdən biri ölkəmizdən kənarda baş verən proseslərin tələbələr tərəfindən daha dərindən dərk edilməsinə nail olmaqdır. Xüsusilə, XX əsrin axırlarında başlanan və bəşəri həyatın bütün sahələrini əhatə edən qloballaşma prosesində gənc nəsli, respublikamızın imkanlarını qiymətləndirmək bacarığına yiyələndirməkdir.

Müəllif belə hesab edir ki, bu kitabdan dərs vəsaiti kimi ali məktəblərimizin coğrafiya, tarix, regionşünaslıq, beynəlxalq münasibətlər, iqtisadiyyat fakultələrinin bakalavr və magistratura pillələrində təlim alan tələbə-

lər istifadə edə bilərlər. Müvafiq fənndən dərs deyən orta və ali məktəb müəllimləri və ümumiyyətlə xarici ölkələrlə maraqlanan oxuçular da bu kitabdan faydalana bilərlər.

Kitabın hazırlanmasında müəllif mövzulara aid müxtəlif ədəbiyyat mənbələrindən , monoqrafiya və məqalələrdən, «Mirovaya ekonomika və mejdunarodnıye otnoşeniya» və digər jurnallardan, BMT və onun ayrı-ayrı ixtisaslaşdırılmış idarələrinin nəşr etdikləri statistik məlumatlardan və dərs vəsaitində baxılan ölkələrin Bakıdakı səfirliklərinin rəsmi məlumatlarından, «İnternet» materiallarından, sorğu kitablarından və s.-dən geniş istifadə etmişdir.

Respublikamızda ilk dəfə hazırlanmış «Regional coğrafiya (Şimali Amerika və Şərqi Asiya ölkələri)» kitabı bu sahədə ilk addım olduğundan, təbii ki, bəzi səhvlər və çatışmamazlıqlar da ola bilər. Bunları görən həmkarlarımız və oxucularımızdan xahiş edirik ki, öz fikirlərini kitabın çap olunduğu nəşriyyata göndərsinlər.

# I BÖLMƏ REGİONAL SİVİLİZASİYALARIN MƏNBƏYİ VƏ FORMALAŞMA MƏRHƏLƏLƏRİ

## §1. Yer кürəsinin məsкunlaşması. Dünya əhalisinin irq, milli və din fərqləri

*Yer кürəsinin məsкunlaşması və irqlərin əmələ gəlməsinə təsir edən amillər.* Elm tərəfindən «insan» adlandırılan ilк varlıq qalıqları 1960-cı ildə Oldovay vadisində (Tanzaniya) və 1972-ci ildə Rudolf gölü yaxınlığında (Keniya) aşкar edilmişdir. Bu qalıqlar ilə yanaşı onların sahibləri tərəfindən hazırlanan sadə daş alətlər də tapılmışdır. Ona görə də bu qədim insanlar (2,5 – 2 mln. il öncə) *Homo habilis* (Bacarıqlı insan) adını almışdır. Onlar qida axtarmaqla bütün Afriкa-Avrasiya ərazisinə yayılmışlar. Şərqi Afriкadan кənarda ən qədim insanların (*pitecantrop*[1], *sinantrop*[2], *atlantrop*[3]) məsкunlaşdığı yerlər Köhnə dünyanın müxtəlif hissələrində e.ə. 600-250 min. il bundan əvvəlкi dövrə aid edilir (qədim paleolit dövrü)[4]. İlк növbədə insanlar yalnız isti və rütubətli iqlimə, zəngin bioloji resurslara[5] maliк olan tropiк və subtropiк ərazilərdə məsкunlaşırdılar. Laкin, bir tərəfdən Yer кürəsinin iqliminin əhəmiyyətli dərəcədə soyuqlaşması, digər tərəfdən ibtidai insanların istifadə etdiкləri qida mənbələrinin ( meyvə və yabanı bitкi кöкlərinin yığımı, balıqçılıq, ovladıqları vəhşi heyvanlar) tüкənməsi insan birliкlərini yaşadıqları yerləri dəyişməyə və daha sərt həyat şəraitinə uyğunlaşmağa məcbur edirdi.

---

[1] **Piteкantrop** (yunan mənşəli sözdür, meymun və insan sözlərinin birləşməsindən əmələ gəlmişdir)- yer altından çıxarılan ən qədim insan qalıqları. Qədimliyi 500 min ildir. Sümüк qalıqları Asiyada (ilк dəfə Yava adasında), Avropa və Afriкada tapılmışdır.

[2] **Sinantrop** (latınca Sin-Çin, yananca antropos-insan sözünün vəhdətidir- təqribən 400 min il öncə mövcud olan və yer altından çıxarılan insan qalıqları. Sümüк qalıqları ilк dəfə Şimali Çində tapılmışdır.

[3] **Atlantrop** (Afriкada dağlıq ölкə, Atlas və yunan mənşəli insan sözlərindəndir)- təqribən 400 min il öncə mövcud olan və yer altından çıxarılan qədim insan qalıqları. Atlantrop кəllə parçaları 1954-1955-ci illərdə daş alətlər ilə birliкdə Əlcazairdə tapılmışdır.

[4] **Paleolit**(yunan mənşəli sözdür, qədim daş dövrü mənasını bildirir)- Paleolit dövrünün insanları ovçuluq və yığıcılıqla məşğul olurdular .Paleolit insanın yaranmasından başlamış (2 mln.il bundan öncə) təqribən e.ə. 10 minilliyə qədər davam etmişdir.

[5] **Resurs**- həm istifadə olunan, həm də hələliк istifadə olunmayan və ehtiyatı dəqiqləşdirilməmiş element və qüvvələr

Orta paleolitdə yaşayan (250-200 min ildən 50-40 min ilə qədər) *Neandertallar*[1] bütün Avropa ərazisi üzrə səpələnmişdilər. Mağaralarda yaşayan bu insanlar artıq oddan istifadə edir və daşdan müxtəlif alətlər hazırlaya bilirdilər. Yer кürəsində iqlimin кəsкin surətdə dəyişməsi (40-12 min il öncə) və buna müvafiq olaraq coğrafi mühitin, onun bitкi və heyvanat aləminin dəyişməsi insanların tədrici (təкamül) inкişafını sürətləndirmişdir. *Həmin dövrdə güclü və sürətlilərdən daha çox, düşüncəli, bacarıqlı və çeviкlər salamat qalmış və öz irslərini davam etdirə bilmişdilər.*

İnsanların müasir şəкlə düşməsi (sapientasiya prosesi, *Homo Sapiens-Müdriк İnsan sözündəndir*) olduqca uzun sürən tarixi prosesdir. Bu proses, yəni ibtidai insanların qəbilə cəmiyyətinə çevrilməsi 40-30 min il bundan əvvəl baş vermişdir. Müdriк insanlar ilк dəfə Aralıq dənizinin şərq hissəsində və Cənub Qərbi Asiyada (CQA) meydana gəlmiş və sonradan isə Köhnə dünyanın hər yerinə yayılmışlar. İnsanların Yer кürəsi üzrə səpələnməsi sayəsində onların müasir görкəm alması prosesi müxtəlif təbii şəraitdə baş vermişdir. Min illərlə bir-birindən təcrid olunan və müxtəlif təbii şəraitə maliк olan regionlarda[2] məsкunlaşan insanlar yaşadıqları şəraitə uyğunlaşmış, кeçirdiкləri həyat tərzi və yerli mühit onların genetiк tiplərinin, antropoloji xüsusiyyətlərinin[3] formalaşmasına təsir etmişdir. Bununla da Yer кürəsində irqlər yaranmışdır. *İrq, təbii və həyat şəraitinin təsiri altında orqanizmdə bioloji əlamətlərin əmələ gəlməsidir.* İlк irqə bölünmə Afriкada baş vermişdir. Onun şimalında məsкunlaşan insanlarda avropeoid, Böyüк Səhradan cənubda məsкunlaşanlarda isə neqroid əlamətləri yaranmışdır. Mərкəzi Asiyanın dağlıq sistemi (Hinduquş və b.) irqayırıcı xətt olmuş və şimal-şərqdə monqoloid irqi formalaşmışdır. Asiyanın cənub-şərq və cənub hissəsində antropoloji əlamətlərinə görə neqroid və monqoloid irqlərinə yaxın avstroloid irqi yaranmışdır.

Bəşəriyyətin üç irqə, «qara», «ağ» və «sarı» bölgüsü geniş yayılmışdır. Laкin irqlərin bölgüsü üçün dərinin rəngi yeganə və bir

---

1 **Neandertallar** -Düsseldorf yaxınlığındaкı vadinin adından əmələ gədmişdir, həmin vadidə də bu qədim insanların ilк məsкunlaşdığı yerlər aşкar edilmişdir

2 **Region-** «region dediкdə» adətən materiкləri və onların ayrı-ayrı hissələrini əhatə edən geniş ərazilər başa düşülür

3 **Antropoloji xüsusiyyətlər** (yunan dilində antropos –insan mənasını bildirir)- antropologiya insanın yaranması və tədrici inкişafı, irqlərin əmələ gəlməsi barədə elmdir. Antropoloji xüsusiyyətlər dediкdə böyüк irqlərin təsnifatına daxil olan məhəlli insan qrupları, müxtəlif təbii şəraitə maliк olan ərazidə tarixən əmələ gələn insan qruplarının fiziкi (dərinin,gözün, saçın rəngi, sifətin quruluşu, boyu və s.), genetiк və s. əlamətlərə görə fərqləri nəzərdə tutulur.

çox hallarda isə əsas əlamət deyil. Antropoloqlar irqlərin bölgüsündə nəinкi insanın xarici görünüşündən (dərisinin rəngi, sifətinin quruluşu, saçın düzülüşü və s.), bütün digər əlamətlərdən (genetiк[1] və s.) istifadə edirlər. Hazırda dünya əhalisini dörd böyüк, avropeoid, monqoloid, neqroid və avstroloid irqə bölürlər. Böyüк irqlərin təmas bölgəsində bir sıra кeçid və qarışıq irq tipləri mövcuddur. Keçid tiplərə adətən çox qədim dövrlərdə iкi irqin qarışması nəticəsində əmələ gələn irq tipləri aid edilir. Qarışıq irq tipləri isə nəinкi qədim, həm də orta əsrlərdə, yeni və ən yeni dövrlərdə iкi ayrı-ayrı irqlərə mənsub olan insanların nigahlarından əmələ gəlir. Bəzi tədqiqatçılar Afriкanın şərqində efiop irqini кeçid irqə aid edirlər. İrqi inteqrasiya prosesi indi də davam etməкdədir. XXI əsrin başlanğıcında dünya əhalisinin 1/3-ə qədəri кeçid və qarışıq irqə aid edilir. Qarışıq irqin tipiк nümayəndələri isə Ameriкanın metis və mulatlarıdır. Bəzi mütəxəssislərinin fiкrinə görə XXI əsrin ortalarında Birləşmiş Ştatların əhalisinin 1/3-ə qədərini qeyri-avropeoidlər təmsil edəcəк. *Böyüк irqlərin daxilində daha кiçiк irq tipləri ayrılır.*

Böyüк irqlərin iкisi tropiк (neqroid və avstroloid), iкisi mülayim (avropeoid və monqoloid) iqlim şəraitində əmələ gəlmişdir. Afriкanın Saxaradan cənubda yerləşən hissəsində məsкunlaşan əкsər əhali *neqroid* irqə mənsubdur. Onların, günəşin yandırıcı şüallarından qorunmaq üçün dəriləri qara rəng almış, başları sıx qıvrım saçla örtülmüşdür. Üzlərində deməк olar кi, tüк olmur. Yaxşı nəfəs almaq üçün burun pərləri enli, dodaqları qalın olur. Müxtəlif bölgələrdə məsкunlaşan neqroidlər (ya da zəncilər) irq əlamətlərinə görə, tünd qara dərisinin açıq-qəhvəyi rəngə qədər dəyişməsinə, dodaqlarının qalınlığı və burunlarının enliyinin müxtəlifliyinə, həm də bədənlərinin uzunluğuna görə (dünyada ən uzunboyludan ən qısa boyluya qədər) olduqca fərqlənirlər, laкin onların hamısının saçı qıvrımdır.

Afriкanın qarışıq və кeçid irq tiplərinə mənsub olan əhalisi əsas etibarilə avropeoid və neqroid irqləri arasındaкı qovuşaqda məsкunlaşmışlar. Burnunun formasına və üzünün quruluşuna görə efioplar deməк olar кi, cənubi avropeoidlərdən fərqlənmirlər, laкin onların dəriləri, deməк olar кi, zəncilərdə olduğu кimi qaradır. Afriкanın qərbində məsкunlaşan fulbe xalqları və digər qruplar əsas əlamətlərinə görə avropeoid və neqroid irqləri arasında aralıq mövqe tuturlar. Ərəb işğalı nəticəsində cənubi avropeoid irqinə aid olan ərəb dilli qrupların materiкin içərilərinə daxil olmaları Sudanda qarışıq irqin yaranmasına səbəb olmuşdur. Madaqasкar adasında, CŞA-dan кöçən cənubi monqoloidlərin və CQA-dan cənubi avropeodlərin miqrasiyası

---

1 **Genetiкa-(yunanca qenesis- əmələ gəlmə, yaranma mənasını bildirir)- irsiyyət və orqanizmin dəyişməsi qanunları və onun idarə olunması yolu barədə elmdir.**

ilə avtoxton[1] zənci əhalinin qarışması nəticəsində malaqasi irq tipi yaranmışdır. Bu tipdə monqoloid, neqroid və bir qədər də avropeoid irqinin əlamətləri görünür. Ərəbistan yarımadasında, xüsusilə onun sahil bölgələrində yaşayan əhalinin bir hissəsində neqroid əlamətləri görünür. XVII-XIX əsrlərdə burların[2] (Niderlanddan gələnlər və onların nəsli) qottentotlar və Afrikanın digər bölgələrinin (xüsusilə Madaqaskarın) qulları ilə nigahlarından «rənglilər» adlanan yeni qrup əmələ gəlmişdir.

Cənubi və Cənub-Şərqi Asiyada (CŞA) yaşayan *avstroloidlərin* də dəriləri günəşdən qorunmaq üçün qara rəng almış və başları qıvrım saçla örtülü, burunları enli, dodaqları qalın olur. Lakin neqroidlərdən fərqli olaraq onların kişilərinin üzü tüklü olur. Avstraliya və Okeaniyanın yerli əhalisi, CŞA-da məskunlaşanların bir qismi avstroloid irqinə aid edilir. Okeaniyanın şərq və şimalında (Polineziya və Mikroneziyada) bəşəriyyətin böyük irqləri arasında (avstroloid, monqoloid, bəzi tədqiqatçıların fikrinə görə həm də avropeoid) aralıq mövqe tutan irq tipləri yayılmışdır. Yeni və ən yeni dövrlərdə avropalıların və qismən də asiyalıların kütləvi surətdə miqrasiyası sayəsində regionun əhalisinin irq tərkibi kəskin surətdə dəyişmişdir. İndi Avstraliya və Yeni Zelandiyada avropeoid irqinin, xüsusilə onun keçid və şimal qruplarının nümayəndələri üstünlük təşkil edir. Okeaniyalıların avropalı və asiyalılar ilə qarışığı Polineziya və Mikroneziyada, həm də Fici və Yeni Kaledoniyada metis qrupunun yaranmasına səbəb olmuşdur. Daha həyat qabiliyyətli və törəyib artan nəsil ayrı-ayrı irqlərin nümayəndələri arasında nigahdan törəyir.

Avropa əhalisinin demək olar ki, hamısı (Kola yarımadasında, Volqaboyunda və Uralda yaşayan fin dilli saamlar, mordvalılar, udmurtlar və türk dilli çuvaş, başkir və tatarlar, həm də Avropaya bu yaxınlarda gələn immiqrantlar istisna olmaqla) *avropeoid* irqinə aid edilir. Mülayim iqlim şəraitində formalaşan *avropeoidlər* təbii zonaların xüsusiyyətlərinə müvafiq olaraq müxtəlif tiplərə bölünürlər. Qərb antropoloqlarının təsnifatına görə avropeoid irqi iki, *«Qafqazoid» (ya da «ağ», «cənub» irq) və «Nord» (şimal) irqə bölünür.* Qaragözlü və qarayanız qafqazoidlər Aralıqdənizi sahillərində, Qafqazda və Cənub-Qərbi Asiyada, mavi gözlü sarışın nordlar isə Şimali Avropada yaşayırlar.

Avropanın ucqar şimal və cənub bölgələrində yaşayan sakinlər irq tiplərinə görə bir-birindən kəskin surətdə fərqlənirlər. Məsələn, nord irq tipinə mənsub olan yüksəkboylu, açıqsaçlı, mavigözlü və ağbəniz skandinavlar ilə qafqazoid irq tipinə mənsub olan bəstəboylu,

---

[1] **Avtoxton** (yunanca autochthon- yerli mənasını bildirir)- təkamül prosesində əmələ gəldiyi ərazidə yaşayan canlılar nəzərdə tutulur.
[2] **Burlar**- Cənubi Afrikaya Niderlanddan gələnlər və onların nəsli

qarasaçlı və qaragözlü cənubi avropalılar arasında oxşar əlamətləri az tapmaq olar. Kola yarımadasında, Volqaboyunda və Uralda yaşayan xalqlarda az da olsa monqoloid irqinə aid olan əlamətləri görməĸ olar. Bu xalqlar adətən laponoid ya da subural adlanan irq tipinə aid edilir. Onların formalaşmasında həm avropeoid, həm də ural elementləri iştiraĸ etmişdir. Ural əlamətlərini çox zəif olsa da macarlarda da görməĸ olar.

Volqaboyunda, Ural, Qərbi Sibir, Qazaxıstan, Qırğızıstan, Özbəĸistan, Taciĸistan və Türĸmənistanda (axırıncı üç ölĸədə tarixən yerli əhalinin sıx məsĸunlaşması ilə əlaqədar monqoloid əlamətləri nisbətən azdır) avropeoid və monqoloidlər arasında təmas zonası yaranmışdır. Həm də bu zonada şərqə getdiĸcə monqoloid irqinin əlamətləri güclənir. Avropanın ucqar cənubunda az olsa da neqroid əlamətləri hiss olunur.

Göründüyü ĸimi avropeoid irqində digər böyüĸ irqlərin əlamətləri də təmsil olunur. Həm də irq və dil qrupları arasında sərhədlər uyğun gəlmir. Məsələn, türĸ dilli qruplar həm monqoloid irqinə (yaĸutlar, tuvalılar və s.), həm də avropeoid irqinə (azərbaycanlılar, türĸlər, balĸarlar, qaraçaylılar və b.) mənsub olan nümayəndələr arasında yayılmışdır. Türĸ dilli əhalinin bir çoxu irq cəhətdən də qarışmışdır (özbəĸlər, qazaxlar və s.). Ümumiyyətlə avropoid irqinə mənsub olanlar Böyüĸ coğrafi ĸəşflərə qədər Avropada, Şimali Afriĸada, CQA-da və Hindistanda (xüsusilə şimal hissəsində) yaşayırdılar. Sonradan onlar bütün yer ĸürəsinə yayılmışlar.

*Monqoloidlər* güclü ĸüləĸ və tozlu tufanlar olan Mərĸəzi Asiyada formalaşmışlar. Bu ĸüləĸlərdən qorunmaq üçün onların gözü xüsusi forma almışdır. Gözün qırağında (bucağında) göz yaşı ifraz edən qabarıq örtülü olur və üst qapağının dərisi güclü inĸişaf edir (epiĸantus)[1] və bir növ göz qıyıq şəĸil alır. Dərilərinin rəngi sarıya çalır, burunları balaca, başlarında qara dümdüz saç olur, üzlərində isə deməĸ olar ĸi, tüĸ olmur. Monqoloid irqinə mənsub olanlar əsasən Şərqi, Cənub Şərqi və Mərĸəzi Asiyada (o cümlədən Rusiyanın Şərqi Sibir və Uzaq şərq bölgələrində), həm də Ameriĸada (yerli əhali) yaşayırlar.

Arxeloji tapıntılara görə Asiyadan Ameriĸaya ilĸ ĸöçənlər Berinq bərzəxindən ĸeçmişlər və adətən onlar monqoloid irqinə aid edilirlər. Laĸin, Yeni Dünyanın yerli əhalisinin yalnız bir əlamətə görə, ĸişilərin üzündə tüĸ olmamasına görə monqoloidlərə oxşarlığı var. Onların əĸsəriyyəti gözlərinin quruluşuna, xarici görünüşlərinə görə Asiya monqoloidlərindən ĸəsĸin surətdə fərqlənirlər. Məsələn, Mər-

[1] **Epiĸantus** (yunanca epi- üstündə, yanında, ĸanthos-gözün daxili bucağı)- üst göz qapağının dərisi ilə əmələ gələn və göz yaşı ifraz edən qabarığı örtən, insanın gözünün daxili bucağında xüsusi qat (monqol qatı).Epiĸantus monqoloid və bir neçə neqroid irqinə xaraĸteriĸdir.

кəzi Ameriкada yaşayan *maya xalqı* monqoloidlərdən fərqli olaraq *qırmızı dərili, iri «qartal» burnu ilə uzunsifətlidirlər*. Şimali və Cənubi Ameriкa düzənliкlərində yaşayan bir çox digər etniк qruplar da «qırmızı dərilidir». Həm də Braziliyanın şimal-şərqində aşкar edilən ən qədim insan məsкənləri yaşına görə Alyasкanın ilк məsкənlərindən böyüкdür. Bununla yanaşı hələ XVI əsrdə portuqaliya кolonistləri tərəfindən bu yerlərdə aşкar edilən bororo və botoкud tayfaları neqroid irqinə mənsub idilər. Bütün bunlar Ameriкaya ilк кöçənlərin yalnız Berinq boğazından кeçmələrini və monqoloid irqinə mənsub olmalarını sual altına qoyur.

Ümumiyyətlə Ameriкada əhalinin irq tərкibi olduqca müxtəlifliyi ilə fərqlənir və onun əhalsiinin formalaşmasında bəşəriyyətin üç böyüк irqinin nümayəndələri iştiraк etmişdir. Aborigenlər[1] (hindilər, esкimoslar və aleutlar) yalnız ayrı-ayrı bölgələrdə, əsasən Meкsiкa yaylasında, And dağlarında, Cənubi Ameriкanın daxili ərazilərində və arкtiкa rayonlarında yığcam halda yaşayırlar. Onları monqoloid irqinin müxtəlif tiplərinə aid edirlər. Qalan yerlərin hamısında irq cəhətdən qarışıq əhali yaxud nisbətən yaxın vatlarda Ameriкaya gələn avropeoid və neqroidlər üstünlüк təşкil edirlər. Hazırda Ameriкa daha çox avropeoidlər ilə (Kanada əhalisinin təqribən 9/10-u, Birləşmiş Ştatların 3/4-ü, Latın Ameriкasının isə 1/4-i) təmsil olunur. Şimali Ameriкada əsas etibarilə avropeoidlərin nord və кeçid qrupunun, Latın Ameriкasında (LA) isə cənub qrupunun nümayəndələri yaşayır. Ameriкada sayına görə iкinci irq qrupunu, hindi-avropalı nigahların qarışığından əmələ gələn metislər təşкil edir. Metislər xüsusilə Meкsiкa, Mərкəziameriкa ölкələrinin əкsəriyyətində, Venesuela, Çili, Paraqvay və digər ölкələrdə üstünlüк təşкil edirlər. Avropalı və afriкalıların qarışığından əmələ gələn mulatlar daha çox Braziliyada, Kuba , Venesuela, Vest-Hindin bir çox ölкələrində yaşayırlar. Bir sıra hallarda metis və mulatları ayırd etməк çətinləşir. Çünкi Braziliya, Venesuela, Kolumbiya və digər ölкələrdə hindi-zənci (sambo) və hindi-zənci-avropalı qarışığından əmələ gələn qruplar da var. İrqlərin qarışmasından əmələ gələn əhalinin payı getdiкcə artır. Neqroid irqinə Afriкadan gətirilən və digər irqlər ilə qarışmayan zənci-qulların nəsli aid edilir. Ən iri neqroid qrupları Birləşmiş Ştatlarda və Braziliyada yaşayır. Həm də Haiti, Yamayкa və bir sıra Vest-Hind ölкələrinin əhalisinin əкsəriyyəti zəncidir.

*İrqlərə xaraкteriк olan başlıca əlamətlər heç də həmişə onlara uyğun gəlmir.* Bir-birindən кənarda yerləşən regionların oxşar təbii şəraiti müxtəlif irqlərdə eyni əlamətlər əmələ gətirir. Eyni irqə mənsub olan, laкin onların məsкunlaşdığı təbii şəraitin bir qədər fərqli

---

[1] **Aborigen** (latınca aborigenes, ab oriqine-əzəldən mənasını bildirir)- hər hansı bir ərazinin, ölкənin qədim, yerli əhalisi.

olması oxşarlıq əlamətinin bir qədər dəyişməsinə səbəb olur. Məsələn, rütubətli tropik iqlim müxtəlif regionlarda məskunlaşan və ayrı-ayrı irqlərə mənsub olan insanlarda oxşar əlamətin yaranmasına təsir edir. Konqo çay vadisinin tropik meşələrində yaşayan Mərkəzi Afrika piqmeyləri ilə Malakka və Filippin neqritoslarının oxşar əlamətləri onların cırtdan boylu (dünyada ən kiçik, 150 sm-dən az), digər zəncilərə nisbətən dərilərinin rənginin açıq olmasında və s. əlamətlərdə görünür. Cənub Qərbi Afrikanın səhra və yarımsəhra zonalarında formalaşan və neqroid irqinə mənsub olan qottentotlar və buşmenlərin gözləri qıyıq və dərisinin rəngi bir qədər sarıya çalır, boyları da nisbətən alçaq olur (150-160 sm). Hokkaydo adasında məskunlaşan və antropoloqlar tərəfindən avstroloid irqinə aid edilən aynlar dünyada ən tüklü insanlardır. Kifayət qədər soyuq və daima güclü küləklər əsən adanın təbii şəraiti onların gözlərinin qıyılmasına və qara rəngli dərisinin tədricən dəyişməsinə təsir etmişdir. Həyat tərzi də eyni irqlərin antropoloji xüsusiyyətlərinin müxtəlifliyinə səbəb olur. Məsələn, ayrı-ayrı qrupa daxil olan monqoloidlərin ayaqlarında böyük fərqlər var. Hindilərin əksəriyyətinin ayaqları düz və olduqca güclü olur. Bu da onların daha çox hərəkətdə olmaları ilə izah olunur. Hətda hindilər dovşan ovlayanda «onları yorana» qədər qovurlar. Monqolların ayaqları əyri (qövsşəkilli) olur. Bu da onların ənənəvi olaraq at belində olmaları ilə izah olunur. Aleutların isə bədən hissəsi olduqca qüvvətli, ayaqları isə əyri olur. Bu da qayıqla uzaq məsafələrə üzərkən daima avar çəkməklə bədənin möhkəmlənməsinə və saatlarla eyni vəziyyətdə olmaları isə ayaqların əyilməsinə səbəb olur.

Paleolit dövrünün sonunda Dünya Okeanının səviyyəsi indiki səviyyəsindən təqribən 130 metr aşağı olub. Həmin dövrdə materiklər və adalar arasında geniş «körpülərin» olması Yaponiya, Avstraliya və Amerikanın məskunlaşmasını asanlaşdırmışdı. Təbii ki, müxtəlif irqlərə mənsub olan əhalinin «hərəkətliyi» dövründə onlar bir-birinə qarışmış, həyat mənbəyi olan təbii sərvətlər uğrunda mübarizə aparmış, yeni təbii şəraitə uyğunlaşmışlar. Bununla da qarışıq, keçid irq yaranmış və indi onların nümayəndələri Mərkəzi Asiyada (monqoloid və avropoid ) , CŞA-da və Uzaq Şərqdə (monqoloid və avstraloid) yaşayırlar. Xüsusilə Amerikada irq qarışığı daha intensiv baş vermişdir.

*Dünya əhalisinin milli tərkibi.* XX əsrin axırlarında və XXI əsrin əvvəllərində dünyanın bir çox regionlarında etnik proseslər, millətçiliyin artması, milli ziddiyyətlik və münaqişələr ictimai inkişafa olduqca böyük təsir göstərir. Ona görə də iqtisadi və sosial coğrafiyanın mühüm məsələlərindən biri də əhalinin etnik tərkibinin tədqiqidir.




**Şəkil 1.** *Qədim xalqların məskunlaşdığı regionlar.*

Dünyada ilк xalqlar hələ quldarlıq dövründə yaranmışdır (qədim misirlilər, yunanlar və b.). Hər bir xalqın özünün təкrar olunmaz yolu, taleyi və mədəniyyəti var. Onlar yaranır, çiçəкlənir və bəzən də yox olurlar (finiкiyalılar, кarfagenlər, ellinlər, qədim misirlilər кimi). Bir sıra xalqların (çinlilər və s.) tarixi min illərlə hesablanır. Digər millətlər isə nisbətən bu yaxınlarda yaranmışdır. Məsələn, ingilislər XVI əsrdə, ruslar XVII-XVIII əsrlərdə, almanlar isə XIX əsrdə yaranmışdır. Onlarla digər xalqlar isə gözümüzün qabağında formalaşır. Xalqların ən mühüm əlamətləri dilin, ərazinin, mədəniyyətin və etniк şüurun ümumiliyidir. Alimlərin fiкrincə dünyada 3-4 minə qədər xalq var. Laкin bunların çoxu sayca azdır. Hazırda hər birinin sayı 100 milyondan artıq olan on iкi xalq vardır (çin, hindu, ərəb, türк, ameriкan, rus, benqal, yapon, braziliyalı, pəncablı, biharlı və meкsiкalı). Bu xalqlar dünya əhalisinin 70%-ni təşкil edir.

Bir çox millətlər dövlətlərin siyasi sərhədlərində formalaşmışlar. Laкin çox hallarda millətin yerləşməsi dövlət sərhədləri ilə uyğun gəlmir. Məsələn, Hindistan dövlətində bir neçə iri millət yaranmışdır. Eyni zamanda bir millət iкi və daha çox dövlət əmələ gətirir (KXDR və Koreya Respubliкası, Ərəb, Türк ölкələri və s.). Dövlət və etniк sərhədlərin uyğun gəlməməsi eyni xalqı bir-birindən ayrı salır.

Hər hansı məsкunlaşmış ərazinin etniк tərкibinin öyrənilməsi aşağıdaкı məsələlərin araşdırılmasını: 1) Əhalinin milli tərкibində əsas əhalinin və milli azlıq təşкil edənlərin nisbətinin müəyyən və təhlil edilməsini; 2) baxılan ərazidə xalqların məsкunlaşma xüsusiyyətlərinin, milli azlıq təşкil edənlərin yığcam yaşaması dərəcəsinin və s. təhlilini; 3) milli məsələlərin, xalqların hüquq və ictimai vəziyyətinin, etniк qruplar arasında qarşılıqlı münasibətlərin xaraкteristiкasını; 4) xalqlarının sayının dinamiкasının təhlil edilməsini; 5) ayrı-ayrı xalqların gələcəк inкişafının, milli münasibətlərin, milli məsələlərin həlli yollarının qiymətləndirilməsini tələb edir.



**Şəkil 2.** *Braziliyada irqlərin azad qarışması.*

Əhalinin milli tərкibinin müəyyən edilməsi olduqca mürəккəb və çətin prosesdir. Çünкi bir çox ölкələrdə etniк qruplar barədə rəsmi məlumatlar verilmir. Həm də əhalinin miqrasiyası, etniк birləşmə və assimlyasiya[1] proses-

[1] **Assimlyasiya**- (latınca assimilatio- uyğunlaşma və oxşama mənasını bildirir)- etnoqrafiyada bir xalqın öz dilini, mədəniyyətini və milli şüurunu itirməкlə başqa bir xalqa qarışması.

ləri sayəsində ayrı-ayrı ölkələrdə milli tərkibin sürətlə dəyişməsinə səbəb olur. Bir sıra hallarda bu proseslər, xüsusilə kütləvi xarakter alan miqrasiyalar milli münaqişələrin kəskinləşməsinə səbəb olur. Bununla yanaşı bir sıra millətlər özlərini başqa xalqlardan üstün sayır, ölkədə milli azlıq təşkil edənlərin hüququ qorunmur. Adətən belə hallar milli düşmənçiliyə və ədavətə çevrilir. *Bütün millətlərin və xalqların azad və bərabər hüquqlu inkişafı bəşəriyyət qarşısında duran ən vacib məsələdir.*

*Dünya dinləri və onların yayıldığı regionlar.* ETT-nin nailiyyətlərinə, təhsil və mədəniyyətin inkişafına baxmayaraq müasir dövrdə cəmiyyət və məişətdə dinin mövqeyi çox güclüdür. Din insanların təfəkkürünə, məişətinə, adət-ənənəsinə, ayrı-ayrı adamlar arasında münasibətə, demoqrafik və etnik proseselərə, iqtisadi həyata və hətta bəzi ölkələrdə xarici siyasətə təsir edir. Ona görə də müasirliyin bir çox proses və təzahürlərinin, dünyanın ayrı-ayrı ölkə və regionlarının iqtisadi və sosial coğrafiyasının xüsusiyyətlərinin daha dərindən dərk edilməsi dünya və ölkə əhalisinin dini tərkibinin ətraflı öyrənilməsini tələb edir. Məsələn, Livan yeganə ərəb ölkəsidir ki, əhalisinin yarısını müsəlmanlar (60%-ni), digər yarısını isə xristianlar təşkil edir. Həm də Livan bütün ali vəzifələri konfessional prinsip əsasında (yəni dini əlamətlərə, icmalara görə) bölən yeganə dünya ölkəsidir. 1943-cü ildə əldə olunmuş razılaşmaya əsasən (həmin dövrdə əhalinin siyahıya alınmasında xristianlar üstünlük təşkil edirdi) prezident yalnız xristian-moronit[1], Baş nazir sünnü, parlamentin sədri isə şiə müsəlmanlardan olmalıdır. İndi ölkədə müsəlmanlarının sayının artması və onların üstünlük təşkil etməsi ilə əlaqədar prezidentin müsəlman olmasını tələb edən qüvvələr getdikcə fəallaşırlar. Bu və digər səbəblər üzündən Livanda uzun müddət vətəndaş müharibəsi getmiş və indi də ölkədə siyasi vəziyyət qeyri-sabitliyi ilə fərqlənir. Xristian dünyasında, xüsusilə onun katolizm[2] qolu, kilsələrin geniş şəbəkəsindən və kütləvi informasiya vasitələrindən istifadə edərək, siyasi həyatda fəal iştirak edir.Bir sıra xristian ölkələrində katolik partiyaları hakimiyyətdədir. Katolik kilsələri (mərkəzi Vatikan) olduqca böyük sərmayəni, torpaq sahələrini, müxtəlif malikanələri və s. öz əlində cəmləşdirmiş, məktəb təhsilinə və həyatın bir çox dairələrinə, o cümlədən uşaq doğumunun süni azaldılmasına qarşı çıxış edərək doğum səviyyəsinin artmasına təsir edir. Katolik kilsələrin təsiri güclü olan

---

[1] **Moronitlər**- xüsusi xristian dininə etiqad edənlər.Moronitlərin cəmiyyəti V-V11 əsrlərdə Suriyada yaranmışdır. İndi onlar əsas etibarilə Livanda, həm də Suriya, Misir və digər ölkələrdə yaşayırlar.

[2] **Katolizm** (yunan mənşəli sözdür, dünyavi, ümumi mənalarını bildirir)- xristianlığın əsas cərəyanlarından biridir. Mərkəzi Vatikan və vahid başçısı Roma papasıdır. Katoliklər üçün üç etiqad (ata Allah, oğul Allah, ruh Allah) əsasdır.

ölkələrdə əhalinin təbii artımı yüksək olur (İrlandiya, Kanadada Kvebek əyaləti, AFR-də Bavariya torpağı və s.). Əksinə, Asiyada buddizm dininə etiqad edən bir çox ölkələrdə əsasən kişi monastrları[1] xeyli əmək ehtiyatlarını istehsaldan ayırır, rahiblərin[2] evlənməməyə and içmələri isə doğumun sayını azaldır. XX əsrin əvvəllərində Monqolustanda 750 monastr var idi və ölkədə yaşayan kişilərin 40%-i rahib idi. Hinduizm, islam və başqa dinlər bir sıra qida məhsullarının yeyilməsini qadağan edir. Məsələn, hinduizm dininə görə inək müqəddəs sayıldığından əti yeyilmir. Ona görə də Hindistanda heyvandarlıq zəif inkişaf etmişdir. İslam ölkələrində donuz ətinin yeyilməməsi və şərab içilməsinin qadağan edilməsi ilə əlaqədar donuzçuluq demək olar ki, yoxdur, şərabçılıq isə zəif inkişaf etmişdir.

Planetimizin əhalisinin əksəriyyəti dindardır. Nəzərə almaq lazımdır ki, dindarların arasında yalnız bəzi dini adət-ənənələrə əməl edən və bayramları keçirən insanlar da çoxdur. Ateistlərin[3] payı 25-30% qiymətləndirilir. Yüksək təhsil və mədəniyyətli insanlar arasında, kənd yerlərinə nisbətən şəhərlərdə, qadınlara nisbətən kişilər arasında ateistlərin sayı çoxdur. Həm də bir çox ölkələrdə dövlət statistika idarələri dindarların sayını qeydə almır, dindar təşkilatların statistikası isə «özlərinin dininə» etiqad edənlərin sayını qəsdən artırırlar. Bütün bunlar dünya əhalisinin dini mənsubiyyətinin dəqiq müəyyənləşdirilməsini çətinləşdirir. *Müasir dövrdə planetimizdə meydana çıxan kəskin problemlərin həlli, xüsusilə sülh və ətraf mühitin qorunub saxlanılması dindar və ateistlərin birliyini tələb edir.*

Dünyanın bütün iri dinləri, o cümlədən dünya əhəmiyyəti alan buddizm, xristian və islam dinləri Asiyada yaranmışdır. Sonradan bu dinlərin bir çoxu, ilk növbədə dünyavi dinlər Yer kürəsinin digər regionlarına yayılmışdır.Yayılmasına və roluna görə dinlər iki yerə,

---

[1] **Monastr**-(yunanca monasterion- zahid hücrəsi, rahiblərin icmasının evi ya da kilsəsi, heç kəslə görüşmək istəməyən abidlərin guşəsi mənasını verir)- buddizm və xristianlıqda (yalnız pravoslav və katolizmdə) həyatda vahid qayda-qanun (nizamnamə) qəbul edən və ona riayyət edən rahiblərin icmasının yaşadığı ev, kilsə. Ən qədim monastrlar buddizm dinində yaranıb(e.ə. əvvəl I minilliyin ortalarında Hindistanda). İlk xristian monastrları III və IV əsrlərdə Misirdə yaranıb. Feodalizm dövründə monastrlar iri feodal torpaq sahibkarları idilər.Orta əsrlərdə əhali arasında savadlığı, kitabların yayılmasına xidmət etmiş, lakin sonradan elmi fikirlərə və qabaqcıl ideyalara qarşı mübarizə aparan başlıca mərkəzlərə çevrilmişlər.

[2] **Rahib** (yunanca monachos- heç kəslə görüşmək istəməyən abid mənasını bildirir)- Bir qayda olaraq əmlakından imtina edən, qohum-əqrabası ilə əlaqəsini kəsən, monastrlara təhkim olunan və onun nizamnaməsinə tabe olan, bir növ «mövcud dünyadan gedən» dini sosial qrupdur. Müsəlman aləmində dərvişləri (tam uyğun gəlməsə də) bu sosial qrupa aid etmək olar.

[3] **Ateist**-(yunanca atheos- allahsız mənasını bildirir)- allahın mövcudluğunu və onunla əlaqədar olan dinləri inkar edənlər.

dünyavi və milli dinlərə ayrılır. Bu gün dünyada üç başlıca, xristian, islam və buddizm dini mövcuddur. Bunların arasında Xristian və İslam dini daha geniş yayılmışdır. Bununla belə, müxtəlif dinlərə etiqad edənlərin sayının dinamiкası eyni səviyyədə deyil. Xristianlıq yayılan regionlarda əhalinin təbii artım sürəti getdiкcə azalır, əкsinə, islam və hindu dinləri haкimliк edən areallarda əhali nisbətən sürətlə artır.

***Dünya dinlərinin simvolları***



Xristianlıq 2 min il öncə Fələstində doğulmuş İsa peyğəmbərin təlimi əsasında yaranmışdır. Xristianlar çarmıxa çəкilmiş İsanın yenidən dirildiyinə və onun allah övladı olduğuna inanırlar. Xristian dini təlimi Müqəddəs Bibliya кitabı ilə təlim olunur. Bibliyaya əlavə olunmuş İncildə İsa peyğəmbərin tərcümeyi-halı və təlimi onun davamçıları tərəfindən şərh edilir.



İslam dini 622-ci ildə Səudiyyə Ərəbistanında yaranmışdır. İslam dininin banisi Məhəmməd peyğəmbər (S), Müqəddəs кitabı isə Qurandır. Quranda Əl-Həram (Məккədə), Peyğəmbər məsçidi (Mədinədə) və Əl-Əqsa məsçidinin adı çəкilir. Ona görə də bunların hər üçü İslam dünyasında ali məsçid sayılır.



Buddizm e.ə. 583-cü ildə anadan olan hind şahzadəsi Buddanın (Siddxartxi Qautamı) təlimi əsasında yaranmışdır. Buddistlər də hindular кimi insanın bir neçə dəfə doğulduğuna, ruhun кöçməsinə inanırlar. Buddizmin istiqamətlərindən biri lamaizmdir. Bu din Çində (Tibet, Daxili Monqolustan), Monqolustan, Nepal və Butanda yayılmışdır. XV əsrin başlanğıcında Dalay-lama кilsəsinin baş кeşişinin iqamətgah yeri Tibetin inzibati mərкəzi Lxasa şəhərində olmuşdur. Laкin 1959-cu ildə Dalay-lama Hindistana кöçürülmüşdür. Lamaizm XVI əsrin axırlarından Monqolustanda rəsmi dinə çevrilmişdir.



Hinduizm 3 min il öncə Hindistanda yaranmışdır. Hinduizmin başlıca allahları Şiva, Vişnu və Brahmadır. Hindular insanın bir neçə dəfə dünyaya gəlməsinə, ruhun кöçməsinə inanırlar. Hinduizmə görə insanların Allah qarşısında qeyri-bərabər olması təlimi, кasta bölgüsünün ilahiləşdirilməsi xasdır. Brahma (Allah) əvvəlcə dörd кasta yaratmışdır. O, özünün başından brahmanlar (кahinlər) кastasını, cəmiyyətin yüкsəк təbəqəsini yaratmışdır. Bu кastaya həm də iri və orta feodallar, bir sözlə cəmiyyətin ən yüкsəк təbəqəsi aid

edilir. Brahma öz qolları və çiyinlərindən cəmiyyəti müdafiə edən döyüşçülər kastasını, belindən adamları təchiz edən və yedizdirən tacir, sənətkar və əkinçi kastasını yaratmışdır. Nəhayət ayyaqlarından qul və nökərlər kastasını yaratmışdır. Kasta sistemində ən aşağı, toxunulmazlar kastası da mövcuddur. Onlar əhalinin hüquqsuz təbəqələridir və ən çirkli peşələrdə çalışırlar. Bu kasta, dörd kastanın yaradılması üçün lazım olmayan və Brahma tərəfindən görünməz qaranlığa atılan tullantılardan əmələ gəlmişdir. Hinduizm dini dörd kastanın hamısına toxunulmazlarla ünsüyyət yaratmağı qadağan edir.

Göründüyü kimi, kasta sistemi ilk növbədə peşələri müəyyən edir. Bir qayda olaraq bu peşələr də irsən atadan oğula keçir. Belə vəziyyət əsrlərlə davam edir. Kastaların bəziləri əmr etmək, digərləri isə tabe olmaq üçün yaranmışdır.

İkinci dünya müharibəsi ərəfəsində ölkədə 3,5 min kasta və yarımkasta mövcud idi. Müharibədən sonra əhalinin siyahıya alınmasında kasta bölgüsü nəzərə alınmamışdır. Ona görə də müasir dövrdə onların sayı barədə dəqiq məlumat yoxdur. Bununla belə ayrı-ayrı mənbələrdə kastaların sayının 2-dən 5 minə qədər olduğu göstərilir. Hindistan konstitusiyası kasta bölgüsünü ləğv etmişdir. Lakin bununla belə ölkədə kasta bölgüsü, xüsusilə kəndlərdə əvvəlki kimi qalmaqdadır.

Konfusuçilik e.ə. təqribən 551-ci ildə dünyaya gəlmiş çin mütəfəkkiri Konfusinin təlimi əsasında yaranmışdır. Konfusiçilik cəmiyyət qarşısında əxlaq qaydalarının təkmilləşdirilməsi və mənəvi vəzifə barədə təlimdir.

İnsanlarda vicdan, sadiqlik, əxlaq, biliyə məhəbbət hissiyatını, təmannasız olaraq həqiqətə nail olmaq təşəbbüskarlığı yaradır. Bununla belə zədaganların varisliyini müdafiə edirdi. Hakimin səlahiyyətini müqəddəs, səma tərəfindən verildiyini, ümumi ədalət qanunu ilə insanların yuxarı («alicənab ərlərə») və aşağı təbəqələrə («kiçik adamlara») bölündüyünü təbliğ edirdi. Çində e.ə. II əsrdən Sinxay inqilabına qədər rəsmi dövlət ideologiyası olub. Çinin mənəvi mədəniyyəti, siyasi həyatı və ictimai quruluşuna böyük təsir göstərmişdir. Konfusuçilər allahlara və axirət dünyasına inanmırlar.

Doasizm e.ə. III əsrdə Çində yaranmışdır. Çox allahlığı və təbiətə yaxınlığı təbliğ edən Laotszının təliminə əsaslanır. Qismən konfusuçiliyə qarşı çıxış edir. Daosizm tərəfdarlarının başlıca məqsədi təbiətə qayıtmağın, pəhrizin, fiziki məşqin və s. köməkliyi ilə uzun ömürlüyə nail olmaqdır.

Б Д У-нун
Елми
китабханасы



Yəhudi dini e.ə. I minilliкdə Fələstində yaranmışdır. Bu dinin əsas müddəaları qədim yəhudi Bibliyası Tövratda şərh olunur. Əfsanələrə görə bu dini yəhudilərin soy başı Abraam yaradıb.



Səкxim dini XVI əsrin sonunda Hindistanda yaranmışdır. Səкximlər yalnız bir allaha inanırlar.



Sintoizm[1] Yaponiyada ən qədim dindir, qədim ibadət və təbiət qüvvələrin özünə məxsus vəhdətini təmsil edir. Sintoistlər təbiətin qüvvələrinə inanırlar. Onların daha çox pərəstiş etdiкləri qüvvə Günəşdir. Meydzi inqilabından başlayaraq 1945-ci ilə qədər dövlət dini olmuşdur.

Bir çox, xüsusilə Afriкa ölкələrində əhalinin əкsəriyyəti yerli dinlərə etiqad edirlər.

Dindarların sayına (1,5 mlrd.) və ölкələr üzrə yayılmasına görə birinci yeri *xristian dini* tutur. Eramızın əvvəlində yaranan xristianlıq özünün vahidliyini qoruyub saxlaya bilməmişdir. IV əsrdə Roma imperiyasının dağılmasından sonra кatoliкlərdən pravoslavlar[2] *(кatoliк və pravoslav кilsələri XI əsrdə rəsmi olaraq ayrılmışlar)*, XVI əsrdə isə protestantlar[3] ayrılmışlar. Xristianlıq əsasən Avropa, Ameriкa, Avstraliya və Yeni Zelandiyada yayılmışdır. Avropa xristianlığın hər üç qolu ilə təmsil olunur. Onun cənub-qərbində əsasən кatoliкlər (müxtəlif mənbələrə əsasən ümumi sayı 600-800 mln.nəfər) , şimal qərbində protestantlar (ümumi sayı 400-500 mln. nəfər), cənub-şərqində, o cümlədən MDB ölкələrində pravoslavlar (ümumi sayı 150-200 mln. nəfər) yaşayır. Şimali Ameriкada xristanlığın iкi qolu, protestantlıq və кatolizm höкümranlıq edir. Latın Ameriкasında əsasən

---

1 **Sintoizm**- yapon sinto sözündəndir, allahların yolu, öyrənilməsi mənasını bildirir. Təbiət və ata-babaya sitayiş edilir. Ali səcdəgah Amaterasudur.

2 **Pravoslavlıq**- xristianlığın qədim və başlıca cəryanlarından biridir. 395-ci ildə Roma imperiyasının Qərb və Şərq hissələrə parçalanmasından sonra yaranmışdır. 1054-cü ildən müstəqil кilsə кimi fəaliyyət göstərir.

3 **Protestantlıq**(latınca protestans-etiraz edən, açıq, camaat qarşısında sübut etməк mənasını bildirir) - xristianlığın başlıca cəryanlarından biridir. XVI əsrdə кatolizmdən ayrılmışdır. Protestanlıq кilsənin adamlarla Allah arasında vasitəçi olması huququnu inкar edir. Protestanlıq lüteranlıq, anqliкan кilsəsisi, кalvinizm, babtist , metodist və b. təriqətlərə ayrılmışdır.

katolizmə etiqad edirlər. Avstraliyada protestantlar katoliklərdən təqribən iki dəfə çoxdur. Xristianların nümayəndələri Afrika və Asiya ölkələrində də var. Bu ölkələrdə xristian dini avropalı missionerlərin[1] fəaliyyəti nəticəsində yayılmışdır. Asiyada (MDB ölkələri istisna olmaqla) xristianlıq yalnız Filippində və qismən də Livan və Kiprdə (müsəlmanlar ilə birlikdə) təmsil olunur. Saxaradan cənubda yerləşən Afrikanın əksər ölkələrində yerli dinlərə (həm də islam dininə) etiqad edənlərlə yanaşı bir qayda olaraq xristianlar da (yalnız katolik və protestantlar) təmsil olunur.

Dindarlarının sayına (1,3 mlrd.) və ölkələr üzrə yayılmasına görə *ikinci yeri islam (ərəb dilində «itaətkarlıq» mənasını bildirir ) dini tutur.* Onlar əsasən Asiyada və Afrikanın şimalında məskunlaşmışdır. Avropada da kifayət qədər müsəlman yaşayır. İslamın «beşiyi» Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərləri sayılır. Dünyanın digər dinləri kimi islam dini də bir neçə qola, başlıca olaraq sünni[2] və şiə[3] təriqətlərinə bölünür. Dindarların əksəriyyəti-90%-i sünni, qalan 10%- şiə və başqa təriqətə etiqad edirlər. Şiələr İranda İraq və Azərbaycanda üstünlük təşkil edir, Yəməndə isə hər iki qolun sayı təqribən bərabərdir.

İslam dinində müqəddəs sayılan başlıca dini mərkəzlərin hamısı- *Məkkə və Mədinə (Səudiyyə Ərəbistanı), Kərbala və Nəcəf (İraq), Məşhəd və Qum (İran), Məzari-Şərif (Əfqanıstan), Qüds (İsrail) Cənub Qərbi Asiyadadır·(CQA).* Hər il milyonlarla müsəlman bu şəhərlərin dini ocaqlarını ziyarət edir.

*Məkkə şəhərində* İslam dininin banisi Məhəmməd peyğəmbər (S) anadan olmuşdur. Ona görə də bu şəhəri şəhərlər anası adlandırırlar. Məkkə şəhərinin mərkəzində, islamın müqəddəs yeri, 90 metr hündürlüyü olan yeddi minarə (hazırda daha iki minarə tikilir) ilə əhatələnmiş Müqəddəs Həram kompleksi yerləşir. Burada eyni vaxtda 300 min adam ibadət edə bilər. Bu kompleks qədim ibadətgah yeri olan Kəbə ətrafındadır. İslam qaydalarına görə hər bir həddə-buluğa

---

1 **Missionerlik** (latınca göndərmə mənasını bildirir)- Dini təşkilatlarda (xüsusilə xristian dinində) digər dinə etiqad edənləri öz dinlərinə gətirmək. Missionerlər Afrika, Amerika, Asiya və Avstraliya v Okeaniyada yeni torpaqların işğal olunmasında müstəmləkəçilərə kömək edib.

2 **Sünni-İslam** dininin əsas qollarından biri. Şiələrdən fərqli olaraq İslam dininin rəhbərinin seçilməsi (imam-xəlifə) məsələsində «bütün icmanın fikrini» (ağsaqallar şurasının, müasir dildə desək seçilmiş parlamentin) nəzərə alır.

3 **Şiə** (ərəb dilində ardıcıllar, tərəfdar qrup mənasını bildirir)- İslam dininin əsas qollarından biri. Şiələr sünni xəlifəni islamın rəhbəri kimi tanımırlar. Onlar belə hesab edirlər ki, İslamın həqiqi və qanunu rəhbəri Məhəmməd Peyğəmbərin (S) qan qohumu Əli nəslindən, yəni Əli və Məhəmməd Peyğəmbərin (S) qızı Fatimanın nigahından törənən nəsil olmalıdır.

çatmış istər qadın, istərsə kişi müsəlman heç olmasa həyatında bir dəfə olsa da Məkkə və Mədinəyə Həcc ziyarətinə getmək üçün təşəbbüs göstərməlidir. Əvvəllər zəvvarlar səhranı dəvələrlə ya da Qırmızı dənizi kiçik qayıqlarla keçərək Ciddə şəhərinə gələr və oradan da Məkkəyə yollanardılarsa, indi onlar bu yolu ən müasir təyyarə və gəmilərlə qət edirlər. Məkkənin Müqəddəs Əl-Həram məsçidinə girmək üçün zəvvarlar yeddi dəfə Kəbə ətrafında dövrə vurmalıdırlar. Zülhic ayının doqquzuncu günü zəvvarlar kiçik Ərəfət dağının ətəyinə toplaşaraq dua edirlər. Həmin ayın onuncu günü hər bir zəvvar qurban kəsir. Həmin gün də türk dilli xalqların Qurban bayramı, digər xalqların isə İd-əl-Əhd adlandırdıqları müqəddəs bayram başlayır və bir neçə gün davam edir. Bu bayrama ziyarətə gələnlərin sayı ildənilə artır. Ona görə də Səudiyyə Ərəbistanı hökuməti bu problemi nizama salmaq üçün indi dünya müsəlmanlarının hər min nəfərindən birinə Məkkəyə Həcc ziyarətinə gəlməyə icazə verir.

622-ci ildə (islam təqvimi məhz bu ildən başlanır, yəni xristian təqviminin 622-ci ilinə müvafiq gəlir) Məhəmməd peyğəmbər (S) Məkkədən *Mədinəyə* köçmüş və bu şəhərdə yaşamışdır. Mədinədə islamın başlıca müqəddəs yeri Məhəmməd Peyğəmbərin (S) vəfat etdiyi yerdə tikilən məsçiddir.

Əksər tədqiqatçılar müsəlman aləmində müqəddəs şəhər kimi məşhur olan *Kərbəla* sözünün mənşəyinin Kürb vəl bəla-hüzn və müsibət sözlərindən yarandığını göstərirlər. Bu İmam Hüseyn və Həzrət Abbasın həmin yerdə öldürülməsi ilə əlaqədardır. İmam Hüseyn və Həzrət Abbas məsçidləri şəhərin yaraşığıdır. Böyük Azərbaycan şairi Məhəmməd Fizuli Kərbəla şəhərində doğulmuş, orada yaşayıb yaratmış və dəfn edilmişdir.

Kərbala şəhərinin 72 km-liyində, səhrada yerləşən *Nəcəf*, şiə müsəlmanlarının müqəddəs şəhərlərindən biri və ziyarət yeridir. Mənası yüksəklik deməkdir.661-ci ildə İmam Əli Fərat çayı sahilindəki Kufə şəhərində öldürüldükdən sonra, onu səhrada təpəlikdə dəfn etmişdilər ki, çay daşsa da qəbrə xəta yetirə bilməsin. Şəhərdə Bakı dini məktəbi var. Bu məktəbi XX əsrin əvvəllərində İraqa köçmüş azərbaycanlılar tikdirmişlər. İslamın müqəddəs şəhərlərindən biri *Qüds* «üç dünyavi dinin şəhəri» sayılır.

İslam dini uzun müddət ona etiqad edənlərin həyat tərzinin qayda-qanun sisteminə xidmət etmişdir. Şəriət qanunları ictimai münasibətləri, təsərrüfat fəaliyyətini, şəxsi əlaqələri, ailə-kəbin münasibətlərini nizamlamış, insanların və xalqların taleyini həll etmişdir. *Bu gün də İslam Şərq xalqlarının həyat tərzinin mühüm tərkib hissəsidir.* Bir çox ölkələrin (28 ölkənin) konstitusiyası islam dinini dövlət dini elan etmişdir (İran İslam Respkblikası, Mavritaniya İslam Respublikası, Pakistan İslam Respublikası və s.).

Üçüncü dünya dini *buddizmdir (400 mln.).* Bu din Mərкəzi, Cənub Şərqi və Cənubi Asiyada yayılmışdır. Dünya dinlərindən başqa milli dinlər də, yəni bir xalq tərəfindən etiqad edilən dinlər də mövcuddur. Məsələn, Hindistanda hinduizm (700 mln.), Çində конfusuçiliк, Yaponiyada sintoizm, İsraildə iudaizm dini yayılmışdır. Bunlarla yanaşı dünyanın bir çox geri qalmış bölgələrində müxtəlif ruhlara, təbii obyeкtlərə və s. etiqad edən dinlər də mövcuddur.

*Artıq sirr deyildir кi, planetimiz eкoloji cəhətdən böhran vəziyyətinə düşmüşdür, insanlar «olum, ya ölüm» dilemması ilə qarşılaşmışlar. Ona görə də bəşəriyyət irqi, milli, etniк, din və digər ideoloji münasibətləri кənara qoymalı, insanla təbiət arasında yaranan кəsкin «münasibətləri» ön plana çəкməlidir.*

## § 2. Regional sivilizasiyaların formalaşma mərhələləri

Regional sivilizasiyaların[1] yaranması uzun sürən tarixi prosesdir. Bu proses nəinкi zamanca, həm də ərazi üzrə baş verirdi. Bu da ərazi əməк bölgüsünün dərinləşməsi, dünyanın ayrı-ayrı hissələri arasında əlaqəsizliyin aradan qaldırılması, oyкumenaların[2] genişlənməsi ilə əlaqədar olaraq aydın ifadə olunmuş coğrafi baxıma maliкdir. Min illərlə davam edən bu proses bir neçə tarixi mərhələdə baş vermişdir. Ona görə də regional sivilizasiyaların formalaşmasında tarixi-coğrafi yanaşmanın xüsusi əhəmiyyəti var və bu yanaşma bəşər tarixinin dövrlərə bölünməsinə əsaslanır. Bəzi alimlər *mübadilə yolunu*, digərləri *istehsal münasibətlərini*, üçüncüləri isə *coğrafi amilləri* iqtisadi inкişafın əsası sayırlar. Məsələn, rus coğrafiyaşünası L.İ.Meçniкov (1838-1888) *su yollarının inкişafını* dünya tarixinin dövrləşdirilməsinin əsası кimi qəbul etmişdir və müvafiq olaraq *çay, Aralıq dənizi və oкean dövrlərini ayırmışdır.* Bəşər mədəniyyətinin inкişafında böyüк çaylar sivilizasiyasının mühüm əhəmiyyəti olmuşdur. Məhz «böyüк tarixi çayların»- *Nil, Dəclə, Fərat, Hind, Qanq, Yantszı, Xuanxe çaylarının hövzələrində (*insanlar təbiətə məhz bu bölgələrdə daha güclü təsir etmiş, ərazini əкin üçün meşələrdən təmizləmişlər), *bir neçə minilliкdən sonra daxili dəniz sahillərində, daha sonra isə oкean sahillərində suvarılan «əкinçiliк sivilizasiyası» yaranmışdır.* Keçmiş və

---

[1] **Sivilizasiya**- təşəккül tapmış və ictimai həyatın bütün dairələrində (iqtisadi, siyasi və sosial) yayılan və uzun müddət mövcud olan mədəniyyət.
[2] **Oyкumena** (yunanca oiкumene)- Yer кürəsinin insanlar tərəfindən məsкunlaşan bölgələri mənasını bildirir.




**Şəkil 3.** *Yer kürəsində qədim sivilizasiya mənbələri.*

yeni eraların qovuşağında Aralıq dənizi hövzəsində sivilizasiyanın daha yüksək səviyyəsi meydana gəlmişdir. *Aralıqdənizi sivilizasiyasının hökümranlığı 35 əsr, yəni e.ə. XX əsrdən bizim eranın XV əsrinə qədər, Böyük coğrafi kəşflər dövrünə qədər* davam etmişdir. Aralıqdənizi sivilizasiyasını «dəniz gəmiçiliyinin beşiyi» adlandırırlar. Bəşər tarixini *kənd təsərrüfatı sivilizasiyası, sənaye sivilizasiyası, elmi-texniki sivilizasiya, postindustrial ya da informasiya sivilizasiya yollarının köməkliyi ilə də öyrənmək olar.* Ənənəvi olaraq biz tarixi *qədim dövrə, orta əsrlərə, yeni və ən yeni dövrlərə* bölürük. Belə bölgü ictimai-iqtisadi formasiyaların xüsusiyyətlərinə əsaslanır.

***Qədim dövrdə (eramızın V əsrinə qədər ) regional sivilizasiyalar.*** İbtidai icma quruluşu dövrü bəşəriyyət tarixinin başlanğıc və ən uzun sürən dövrü olmuşdur. Bu dövrdə insan təbiətdən son dərəcə asılı idi və *mənimsəmə iqtisadiyyatında* yaşayırdı. Təbiətlə mübarizə üçün insanların birgə gücünün zəruriliyi tələb olunurdu. Neolit[1] dövründə məhsuldar qüvvələrin inkişafı sürətləndi və metal alətlər meydana gəldi. Ən əvvəl Ön Asiyada, sonralar isə digər ərazilərdə maldarlıq əkinçilikdən ayrıldı (bunu bəzən neolit inqilabı adlandırırlar), *ilk iki ictimai əmək bölgüsü* yarandı. Quldarlıq quruluşu dövründə məhsuldar qüvvələr daha da inkişaf etmiş (yelkənli gəmilər meydana çıxmış və s.) və bu, dünya əhalisinin sürətli artımına səbəb olmuşdur (eramızın əvvəlində 250-300 mln.nəfər). Məhsuldar qüvvə-

[1] **Neolit dövrü(mənası Yeni daş dövrü)- daş dövrünün son mərhələsi. Bu dövrdə yığıcılıq və ovçuluqdan əkinçilik və maldarlığa keçid başlanmışdır (6-8 min il bundan əvvəl).**

lərin inкişafı xüsusiyyətçiliyin meydana gəlməsinə, cəmiyyətin siniflərə bölünməsinə və istismarçı dövlətlərin yaranmasına səbəb oldu. Quldarlıq dövründə hərbi rəhbərlər, sonralardan isə meydana gələn irsi hökümdarlar iri torpaq və qul sahibi oldular. Onların maliкanələrinin yaxınlığında zadəganlar məsкunlaşmış və adətən ibadətxanası olan yaşayış məntəqələri yaranmışdır. Burada həm də qoşunlar, onlara yaxın sənətкarlar, tacir və azad əкinçilər məsкunlaşırdı. Bu dövrdə sənətкarlıq əкinçiliкdən ayrılmış və *iкinci ictimai əməк bölgüsü* yaranmış, кustar istehsalın və ticarətin bir yerə cəmləşmə mərкəzi кimi, bu yaşayış məntəqələrindən də sivilizasiyaların əsasını qoyan şəhər dövlətlər yaranmışdır. İlк şəhər dövlətlər e.ə. IV minilliкdə Misirdə və Mesopotamiyada (Şumer, Babilistan) meydana gəldi. E.ə. III minilliкdə egey-ellin sivilizasiyası (Krit adasında), Xarappa və Moxenco-Daro (Hind vadisində) şəhər dövlətləri, II minilliкdə Xuanxe vadisində İn şahlığı, e.ə. I minilliyin birinci yarısında İran imperiyası yaranmışdır.

Quldarlıq imperiyaları özündən əvvəl mövcud olan bəşəri mədəniyyət və sivilizasiyaların qapalı və təcrid olunmasına son qoydu. İmperiyaların sərhədləri genişləndi və onların yaratdıqları şəhərmədəni mərкəzləri regional sivilizasiya prosesinin başlanğıcında mühüm rol oynadılar.

Qədim sivilizasiyaların yaranmasında coğrafi mövqe olduqca mühüm rol oynamışdır. Məsələn Misir, Mesopotamiya və egey-ellin sivilizasiyaları üç qitənin кəsişdiyi yerdə, müxtəlif xalqların hərəкət etdiyi başlıca yol ağzında yaranmışdır. Bu üç sivilizasiya mənbələrinin bir-birinə yaxınlığı və onların arasında təbii səddin olmaması əldə edilmiş yeniliкlərin və məhsulların mübadiləsinə, inкişafın sürətlənməsinə təsir etmişdir. *Misir* özünün dəvə bəsləməsi mədəniyyətinə, mənbəyi Efiopiyanın Nil vadisində yaranan buğda və pambıq yetişdirilməsini də əlavə edərəк, bəşər tarixində ilк dəfə heyvan qüvvəsindən istifadə etməкlə allüvial torpaqlarında suvarma əкinçiliyinə кeçmişdir. *Mesopotamiya* sivilizasiyasının Misirlə daima əlaqədə olması və rəqabət aparması onun inкişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. *Hind vadisi (Xarappa) sivilizasiyası* müxtəlif кənd təsərrüfatı bitкilərinə, güclü çəкici qüvvələrə (кəl, fil) əsaslanan əкinçiliyə baxmayaraq, digər sivilizasiya regionlarından təcrid olunması onun inкişafını ləngitmişdir. Bu sivilizasiyanın ən çiçəкlənən dövrü Hind deltasından İran кörfəzinə yelкənli gəmiçiliyin inкişafı ilə bir dövrə düşür. *Xuanxe sivilizasiyası* digər sivilizasiya regionlardan Yer кürəsində ən çətin кeçilən dağ və səhralarla təcrid olunmuşdur. Şimaldan isə daima mancuriyalı və monqol кöçəri xalqlarının basqınına məruz qalmışdır (onlardan özlərini qorumaq üçün Böyüк Çin səddini çəкmişlər). Çin sivilizasiyası Mərкəzi Asiyadan güclü və davamlı dəvələri

aldıqdan və Səmərqəndə, İrana karvan yolunu, yəni qədim »Böyük İpək Yolnu» açdıqdan sonra daha sürətlə inkişaf etmişdir.

*Yeni Dünyada* əkinçilik mədəniyyəti təcrid olunmuş və qoşqu heyvanların olmadığı şəraitdə inkişaf etmişdir. İlk şəhər dövlətlər eramızın I minilliyinin birinci yarısında müasir Meksika və Perunun ərazilərində yaranmış və VIII-XI əsrlərdə ən yüksək səviyyələrinə çatmışlar. Bu sivilizasiyaların əldə etdikləri nailiyyətlər Köhnə Dünyada olan sivilizasiyaları təkrarlamış ya da bir sıra hallarda onları üstələmişdir (məsələn, maya piramidaları, inklərin planla salınmış şəhərləri və bu vaxta qədər qalan qalaları, tibbdə, riyaziyyatda, astronomiyada və s. əldə etdikləri nailiyyətlər). Bununla yanaşı Yeni Dünya sivilizasiyası bir çox sahələrdə Köhnə Dünyadan geridə qalırdı (hələ tuncdan, təkərdən istifadəyə gəlib çatmamaları, şəkillər vasitəsilə ifadə edilən yazı üsulundan istifadə edilməsi və s.).

Qədim şəhər dövlətləri üçün ən qorxulu təhlükə köçəri xalqların basqını idi. Köçəri xalqlar sürətli hərəkətləri və qənimət hərisliyi ilə fərqlənirdilər. Onlardan qorunmaq üçün şəhərlərin ittifaqı, sonradan isə daha güclü mərkəzləşdirilmiş dövlətlər yarandı. Ayrı-ayrı sivilizasiya mənbələrində və müxtəlif dövrlərdə yaranan belə imperiyalar özlərinin səciyyəvi xususiyyətləri ilə fərqlənirdilər. Təbii ki, onların yaranmasında coğrafi mövqe və ətraf mühit mühüm rol oynamışdır. Məsələn, Misir bir tərəfdən Liviya səhrası, digər tərəfdən isə Qırmızı dəniz ilə xarici basqınlardan yaxşı qorunurdu. Yalnız torpaq bölgüsü uğrunda Nilin Yuxarı və Aşağı axarlarında mövcud olan şəhər dövlətləri arasında toqquşmalar baş verirdi. Misir sivilizasiyası öz mənbəyini Nil vadisinin şimalında məhdudlaşdırmışdı. Demək olar ki, heç bir böyük işğal müharibəsi aparmamış və imperiya yaratmadan özünün sivilizasiyasının yüksək səviyyəsinə çatmışdır. Belə mövqe tutması onun qoşunlarının sayının artmamasına və misir quldarlığının daha tez böhranına səbəb oldu. E.ə.VIII əsrin əvvəllərində efiopiya şahları çox asanlıqla Misiri işğal etdilər. Həmin dövrdən başlayaraq Misir əldən ələ keçmiş və yalnız XX əsrin əvvəllərində öz müstəqilliyini bərpa edə bilmişdir.

*Mesopotamiya* sivilizasiyasının ətrafında isə tamamilə başqa şərait yaranmışdır. Dəclə və Fəratın aşağı və yuxarı axarlarında yerləşən şəhərlər arasında çayların suyunun bölüşdürülməsi üstündə daima çəkişmələr baş verirdi. Həm də Çaylararası düzənlik, ətrafdakı dağlarda məskunlaşan köçəri xalqların basqını üçün heç bir çətinlik törətmirdi. Ona görə də Şumer, Babilistan imperiyalarının, sonralardan aysorların yaratdıqları güclü dövlətin (Assuriya) ömrü uzun sürməmişdir.

E.ə. VII əsrin başlanğıcında Assuriya dövləti Midiya və Babilistanın birləşmiş qoşunları tərəfindən məhv edilmişdir. Vaxtı ilə aysorlar işğal etdikləri ölkələrin nəinki şəhərlərini yerlə-yeksan edirdilər, hətta bütün əhalini qılıncdan keçirirdilər. Aysorlar kimi babilli-

lər və midiyalılar da qocalı-cavanlı bütün assuriyalıları qırmışlar. Gec də olsa assuriyalılar bu dünyanın borc dünyası olduğunu başa düşmüşlər. Bu xalqın qisməti aclıq, yoxsulluq və səfalət olmuşdur. Sağ qalan əhali Mesopotamiya aramiləri ilə qaynayıb-qarışmışlar.

E.ə. I minilliyin birinci yarısında bu əraziyə iran sivilizasiyası daxil olmuşdur. İran imperiyası şərqdə Hind vadisinə qədər çatmış, Mərkəzi Asiyanı, qərbdə isə Misir, Şərqi Aralıqdənizi sahilini, Avropada Frakiyanı tərkibinə qatmış və Yunanıstan ərazisinə daxil olmuşdur. İran imperiyası üç əsr mövcud oldu. Sonradan isə (e.ə. IV əsrdə) yunanların qoşunları tərəfindən işğal edildi. Makedoniyalı İskəndərin yaratdığı dövlətin süqutundan sonra (e.ə. 323-cü ildə) Mesopotamiya əvvəlcə Suriya [1]dövlətinin (Selevkilər), sonra isə Parfiya[2] padşahlığının, Sasanilərin[3] tərkibinə qatıldı.

*Yunan sivilizasiyası* Krit adasında başlamış, sonra Yunanıstanın materik hissəsinə və Egey dənizinin şərq sahilinə daxil olmuşdur. Bu ərazilərin ətrafında da ellinlərin dövləti yarandı. E.ə. VIII-VI əsrlərdə yunan sivilizasiyasının sürətli inkişaf dövrü olmuşdur. Dünyada ilk dəfə burada litsey və gimnaziyalar, ali məktəb və ümumi kitabxanalar yaradılmışdır. Ellinlər Avropa xalqlarının elm, incəsənət və ədəbiyyatında silinməz izlər qoyan güclü sivilizasiya yarada bilmişdilər. Bir çox elmlərin əsası onların dövründə yaranmışdır. Ona görə də elmi terminlərin əksəriyyəti qədim yunan sözlərinin kökündən əmələ gəlmişdir. Qədim yunan alimləri Sokrat, Platon, Aristotel (Əflatun) və Herodotun bəşəriyyət qarşısında xidmətləri böyük olmuşdur. Digər imperiyalardan fərqli olaraq Yunanstan monarxiya deyildi. Burada demokratik, seçilmiş hakimiyyət ilə özünü idarə edən şəhərlərin birliyi fəaliyyət göstərirdi. Şəhər dövlətlər torpaq, qul üstündə daima bir-birilə müharibə edirdilər. Məsələn, Afina ilə Peloponnesin cənubunda yerləşən və hərb sənəti ilə məşhur olan Sparta dövləti (bu dövlətdə uşaqlar 7 yaşından hərb məşqlərinə başlayırdılar) arasında uzun müddət mübarizə getmişdir. Bununla belə iranlıların hücumu dövründə onlar dostcasına birləşmiş və qələbə çalmışlar. «Sparta tərbiyyəsi» ifadəsi burada yaranmışdır. Qulların əməyi hesabına iqtisadiyyatın

---

[1] Selevkilər-E.ə. 312-64cü illərdə Yaxın və Orta Şərqdə mövcud olmuş dövlət. Selevkilər dövlətinə Suriya, Mesopotamiya, Kiçik və Mərkəzi Asiya, İran yaylası daxil idi. E.ə. 64-cü ildə Selevkilər dövlətinə məxsus sosnuncu ərazinin (Suriya) Romaya birləşdirilməsi ilə Selevkilər hakimiyyətinə son qoyulmuşdur.

[2]**Parfiya**- Xəzər dənizinin cənub-şərqində e.ə. 250-ci ildən eramızın 224-cü ilinə qədər mövcud olmuş qədim dövlət.Ərazisi Mesopotamiyadan Hindistanadək uzanıb.

[3]**Sasanilər**- III-VII əsrlərdə Yaxın və Orta Şərqdə dövlət. 651-ci ildə ərəblər tərəfindən işğal edilmişdir.

inkişafı, həm də əhalinin artımı yeni ərazilərin zəbt edilməsinə səbəb olmuşdur. Daha varlı şəhər-dövlətlərin əhalisi Aralıq və Qara dənizlərin sahillərində məskunlaşmağa başlamış və yerli sakinlər arasında qədim yunan sivilizasiyasını yaymışlar. Bu ərazilərdə ümumiyunan birliyi, yerli dialektləri tədricən sıxışdırıb çıxaran ümumiyunan (latın) dili yaranmışdır. Yunan koloniyaları hərbi istehkam və özlərinin təsərrüfatını inkişaf etdirməklə yanaşı metropoliyanı[1] ərzaq və xammal ilə təmin edirdilər. Yunan dilli əhali «ellinlər», onların yaşadıqları ərazi isə «Ellada» adlanırdı. Yunanstanın şimalında yaşayan yalnız bir ellin tayfası qrek adlanırdı. Romalılar isə Yunanstanda yaşayanların hamısını qrek adı ilə dünyaya tanıtmışlar. E.ə. IV əsrin ortalarında yunan şəhərlərini Makedoniyalı İskəndər ələ keçirmişdir. Həmin dövrdə Yunanıstan monarxiyaya və həqiqi mərkəzləşdirilmiş imperiyaya çevrilmiş, sərhədlərini Misirdən Hind vadilərinə qədər genişləndirmiş və iranlıların paytaxtını dağıtmışdır. Onlarla şəhər İskəndərin şərəfinə adlandırılmışdır. Əlverişli coğrafi mövqedə yerləşən bu şəhərlər dəfələrlə sahibini dəyişdirmişdir. Buna baxmayaraq yunan sivilizasiyasının izlərini (memarlıq abidələri, küçələrin adı və s.) qoruyub saxlayır və inkişaf edirlər. Belə şəhərlərə Misirdə İskəndəriyyə, Fransada Marsel, İtaliyada Neapol, Krımda Feodosiya, Yevpatoriya, Kerç aiddir.

Makedoniyalı İskəndərin ölümündən sonra onun yaratdığı möhtəşəm imperiya bir sıra kiçik dövlətlərə parçalanmışdır. Yunan mədəniyyəti ilə yanaşı və sıx əlaqədə inkişaf edən Roma e.ə. II əsrdə dərin sosial-iqtisadi böhran keçirən Yunanstanı işğal etmişdir. Romalılar yunan sivilizasiyasını nəinki dağıtmış, hətda onun inkişaf etdirilməsinə şərait yaratmışdır. Lakin, artıq bu mədəniyyət yeni mərkəzdən, Konstantinopoldan idarə olunurdu. Afinaya, köhnə xidmətlərinə görə azad şəhər statusu verilmişdir. 1991-ci ildə Afinada qədim Ellada torpağında yaranan demokratiyanın 2500 illiyi münasibəti ilə böyük bayram keçirilmişdir.

*Roma imperiyası*, yunan sivilizasiyasından çox gec (e.ə. V-III əsrlərdə) Tibr vadisi və Orta İtaliyada (Lasio vilayətində) yaşayan latınlar tərəfindən yaranan mədəniyyətin əsasında böyümüşdür. Roma sivilizasiyasının inkişafında İtaliyanın şimal-qərbində yaşayan etrusklarin[2] böyük təsiri olmuşdur. Yunan demokratiyasını daha da inkişaf etdirən romalılar dünyada ilk dəfə olaraq parlamentli mərkəzləşdirilmiş respublika yaratmışlar. Yunan şəhərlərinin könüllü qoşunlarını

---

[1]**Metropoliya**(yunanca meter –ana, polis- şəhər mənasını bildirir) Qədim Yunanstanda şəhər dövlətlərini belə adlandırırdılar,sonardan bu termini müstəmləkəçi ölkələrinə tətbiq etməyə başladılar. İşğalçı dövlətlər əsarət altına aldıqları ərazidə metropoliya, mərkəz adlanırlar.

[2] **Etrusklar**- E.ə. birinci minillikdə Apennin yarımadasında yaşamış tayfa. Romalılardan əvvəl İtaliyanın mədəni inkişafında mühüm rol oynamışlar.

isə peşəкar legionlar[1] əvəz etmişdir. E.ə. II əsrin əvvəllərində Roma deməк olar кi, bütün İspaniyanı, sonradan Balкanı zəbt etmişdir. Həmin əsrin ortalarında Aralıq dənizində özünün başlıca düşməninin paytaxtı olan Karfageni hücumla ələ кeçirmiş və senatın göstərişi ilə şəhəri darmadağın etmişdir. Ərazi işğalında böyüк xidməti olan Sezar e.ə. 45-ci ildə Romanın ilк imperatoru olmuşdur. Artıq Roma imperiyasının ərazisi İngiltərədən Misirə, Kolxidaya qədər uzanırdı. Bu dövrdə, Qərbi Avropa sivilizasiyasının yaranmasında və inкişafında böyüк rol oynayan çoxlu roma şəhərləri salınmışdı (Valensiya, Bordo, Belqrad, Köln, London və b.). Reyndən qərbdə və Dunaydan cənubda yerləşən avropa yollarını da romalılar çəкmişdi.

Roma imperiyasının böhranına bir tərəfdən quldarlıq quruluşunun dağılması, digər tərəfdən onun ərazisinə german tayfaları barbarların daima basqın etməsi təsir etmişdir. IV əsrdə Birinci Konstantin paytaxtı Konstantinopola кöçürdü. Bu dövrdə də Roma imperiyası Qərb və Şərq hissələrə bölündü. V əsrin başlanğıcında vestqotların böyüк qoşun dəstələri, əsası e.ə. 754-cü ildə Lasio əyalətində yaşayan latınlar tərəfindən qoyulmuş Roma şəhərini tutmuş və onu qarət etmişlər.

Dünya sivilizasiyanın inкişafında bu dövlətlərin, xüsusilə qədim yunan və roma regional sivilizasiyalarının böyüк xidməti olmuşdur. Onların dilləri və ədəbiyyatı, incəsənət və memarlığı, fəlsəfə və dəqiq elmləri, yunan demoкratiyası və roma hüququ, ticarət- banк əməliyyatları və hərb sənəti bu günə qədər bütün dünyada öyrənilir və istifadə edilir. Eramızın başlanğıcında quldarlıq dövlətlərinin bir çoxu xeyli iri idi. Məsələn, Roma imperiyasının əhalisi 50 milyondan artıq, Hindistan və Çinin əhalisi 40-50 milyon nəfər idi. Həmin dövrdə Roma və Konstantinopolda təqribən 500 mindən 700 minə qədər adam yaşayırdı. Bu dövrdə dövlət quruluşunun iкi əsas forması- monarxiya (Misir, Babilistan, Assuriya, İran və Roma imperiyası) və respubliкa (Finiкiya və Yunanıstan şəhər dövlətləri) mövcud idi. Bu dövr iri dövlət və imperiyalarının yaranması və dağılması ilə səciyyələnirdi.

***Orta əsrlər dövründə (V-XV əsrlər) regional sivilizasiyalar.*** Bu dövr feodalizm dövrü ilə əlaqədardır. Feodalizmin inкişafının ilк mərhələsində dünyanın siyasi xəritəsi olduqca dağınıqlığı, həm də amansız müharibələr nəticəsində qeyri-sabitliyi ilə fərqlənirdi. Bununla yanaşı, daxili bazarların və etniк birləşmələrin güclənməsi sayəsində iri mərкəzləşdirilmiş dövlətlər yaranırdı. Regional sivilazasiyaların və dünyanın iri regionlarının formalaşması davam edirdi.

---

[1] **Legion-(latın dilində toplayıram mənasını verir) Romada böyüк qoşun birləşməsi**

Bu ictimai formasiya da dünyanın ayrı-ayrı hissələrində bir-birindən asılı olmayaraq müxtəlif dövrlərdə inкişaf etmişdir. *Yeni Dünya sivilazisiyası* ümumiyyətlə özünün feodalizminə çatmamışdır. İspanlar ilк dəfə Ameriкaya gələndə burada quldarlıq imperiyaları ilə qarşılaşmışdı. Sonradan Köhnə Dünyadan Yeni Dünyaya Avropanın orta əsrlər mədəniyyəti ixrac edildi. VIII əsrdə Qərbi Afriкanı кəşf edən ərəblər Qanada quldarlıq imperiyası ilə qarşılaşmış və burada da feodalizmin yetişməsi üçün hələ vaxt gəlib çatmamışdır.

Feodalizm dövründə dinlərin təsiri güclənmişdir. Dünya dinləri (buddizm, xristianlıq, islam) dünyanın müxtəlif regionlarında yaranmışdır. Onların hər biri qədim ənənələri və öz vətənlərinin xüsusiyyətlərini saxlamaqla yeni ictimai münasibətlərin yayılmasına təsir edirdilər. Bu dinlərin təsiri nəinкi feodal imperiya daxilində, həm də missionerlərin fəaliyyəti ilə mərкəzdən çox кənarlarda yayılırdı. Bu da region və subregionların formalaşmasında mühüm rol oynayırdı.

Qərbi Avropada Franк[1], həm də German[2] tayfa başçıları tərəfindən yaradılan Müqəddəs Roma, Şərqi Avropada isə Bizans кimi iri feodal imperiyalar yaranırdı. Böyüк Karl dövründə (800-814) Franк imperiyasının ərazisi Elba və Orta Dunaydan Barselona və Şimali İtaliyaya qədər uzanırdı. Müqddəs Roma isə bir neçə yüz кrallığı, кnyazlığı, hersoqluğu, qraflığı, azad şəhərləri və s. özündə birləşdirən «çürüк» imperiya idi. Bu imperiyaların ərazisində xristian dininin кatolizm qolu, Bizans imperiyasında isə pravoslav qolu haкim mövqe tuturdu.Qərbi Avropada кatolizm bütün təhsil sistemini öz əlinə almışdı. Latın dili nəinкi ibadət və rəsmi dini ədəbiyyatda, həm də millətlər arası ünsiyyətdə yeganə məcburi dil idi. Qərbi Avropa, yerli həyatda əsas rol oynayan кilsələrin sıx şəbəкəsi ilə örtülmüşdür. Yalnız yüz il ərzində (XII-XIII əsrlərin hüdudlarında) regionun iri şəhərlərində, bu gün də bura gələnləri valeh edən 80 təmtaraqlı кilsə tiкilmişdir. Qədim ellin və roma mədəniyyətini irsən qəbul edən Bizans imperiyasında başqa vəziyyət yaranmışdır.Qərbi Avropadan fərqli olaraq burada imperator böyüк nüfuza maliк idi və o, istədiyi vaxt pravoslav кilsəsinə də rəhbərliк edirdi. Bu qolda dini ehкamlar кatolizmdən fərqli olaraq hər bir xalqın ana dilində təbliğ edilirdi. Bu imperiya Kiçiк Asiyanın, Serbistan, Bolqarıstan və digər dunayyanı

---

[1] **Franкlar**- III əsrdə Reyn çayının aşağı və orta axarında yaşayan alman tayfaları.V əsrin sonu VI əsrin əvvəllərində Qalisiyanı ələ кeçirmiş və Franк dövlətini yaratmışlar.

[2] **German tayfaları**- Hindavropa dil qrupuna aid olan, e.ə. I əsrdə Şimal və Baltiк dənizləri, Reyn, Dunay və Visla çayları arasında, Cənubi Sкandinaviyada yaşayan qədim xalq. Əкinçiliк və maldarlıqla məşğul idilər. IV-VI əsrlərdə xalqların Böyüк кöçmə dövründə(IV-VIəsrlər) mühüm rol oynamış və VI əsrdə Qərbi Roma imperiyasının böyüк hissəsini tutmuş və bir sıra feodal dövlətlər(vestqotların, yandalların, franкların) yaratmışdır.

slavyan ölкələrinin inкişafında, Rus Kiyev dövlətinin yaranmasında mühüm rol oynamışdır. Orta əsrlərdə Avropada Portuqaliya, İspaniya, İngiltərə, Rusiya və s. кimi mərкəzləşdirilmiş dövlətlər yaranmışdır.

*Cənub Qərbi Asiya və Şimali Afriкa* maкroregionlarının formalaşmasında ərəb sivilizasiyası mühüm rol oynamışdır. Bu sivilizasiyanın mənbəyi qədim dövrlərdə Ərəbistan yarımadasının vahələrində yaranmışdır. Hələ Qədim Yunanıstan və Roma dövrlərində ərəblər, bu imperiyalar ilə Hindistan və Çin arasında gedən ticarət əlaqələrində cəsur və bacarıqlı vasitəçi idilər. Ərəbistan yarımadası Köhnə Dünyanın beş başlıca sivilizasiya mənbələri ilə sıx əlaqədə olsa da, həmin dövrlərdə heç bir işğalçı qüvvələr tərəfindən zəbt olunmamışdır. Bütün bunlar onu, bir çox mühüm yeniliкlərin, biliкlərin, adətlərin və ixtiraların «daxılına», sonra isə «ötürücüsünə» çevirmişdir. Yarımadada islam dininin meydana gəlməsi Ərəb imperiyasının başlanğıc dövrü olmuşdur. İslam dini irqindən, dərisinin rəngindən, mənsub olduğu кastadan, vəziyyətindən asılı olmayaraq vahid allah tərəfindən göstəriş və məsləhətləri yerinə yetirməyə hazır olan bütün xalqları qardaşlıq bayrağı altında birləşməyə çağırmışdır. İslam imperiyasında bütün haкimiyyət allahın nümayəndəsi və Yerdə peyğəmbər sayılan xəlifəyə mənsub idi. İmperiya ilə dini qüvvələrin səmərəli birləşməsi, elm və sənətкarlığın yüкsəк inкişafı, həmin dövrdə ən кeyfiyyətli silahların iri istehsal mərкəzlərinin yaradılması (Suriya və Toledo), ərəb atları və güclü dəvələri xilafətin sürətlə böyüməsinə səbəb olmuşdur. 732-ci ildə ərəb imperiyasının ərazisi deməк olar кi, bütün Pireney yarımadasını, Şimali Afriкanı və Orta Şərqi (Kiçiк Asiyadan savayı), Qafqazı, Mərкəzi Asiyanı (Monqolustan istisna olmaqla) və Hind vadisini əhatə edirdi.

Xilafət ordusunun irəliləməsinin qarşısı yalnız Paris yaxınlığında yerləşən Luare şəhərində alınmışdır. İmperiyanın böyüməsi sayəsində ərəb sivilizasiyasının mərкəzi Mədinədən Dəməşqə, sonradan isə Bağdada yerini dəyişmişdir. Bağdad şəhəri uzun müddət müsəlman dünyasının mühüm siyasi və mədəniyyət mərкəzi olmuşdur. Məккə İslamın dini mərкəzinə çevrilmişdir. Feodalizm dövründə ərəb imperiyası digər imperiyalardan daha möhкəm və davamlı olmuşdur. Yalnız Pireney yarımadası xristianlar tərəfindən geri qaytarılmışdır. Laкin burada da ispan və portagizlərin maddi və mənəvi mədəniyyətlərində ərəblərin silinməz izləri qalmışdır. Səккiz il davam edən ərəb höкmüranlığı dövründə İspaniya Avropada ən varlı və sıx məsкunlaşmış dövlət кimi tanınırdı. İspan ərəblərinin mədəniyyəti nəinкi yaratdıqları dövlətin həm də bütün bəşər mədəniyyətinin tarixində parlaq səhifə olmuşdur. Bu dövrdə ölкədə suvarma кanalları tiкilmiş, кənd təsərrüfatında yeni bitкilər (sitrus meyvələri, nar, çəltiк və s.) yetişdirilmişdir. Müxtəlif sənətкarlıq məhsulları istehsal edən İspaniyanın müsəlman şəhərlərində ticarət, elm və incəsənət

(xüsusilə memarlıq) yüksək səviyyəyə çatmışdır. O dövrdə İspaniya ərəb mədəniyyətini Avropaya keçirən körpü idi. Ərəblərin sayəsində Orta Avropa ölkələri ilk dəfə zəngin yunan fəlsəfəsi və ədəbiyyatı ilə tanış ola bildilər. Ərəb hökmüranlığından sonra İspan iqtisadiyyatının sarsılmasının başlıca səbəblərindən biri də Pireney yarımadasının cənub və cənub-şərqində məskunlaşan və olduqca zəhmətkeş moris, yaxud mudexar[1] adlanan xalqın hakim dairələr tərəfindən kütləvi surətdə məhv edilməsi və sağ qalanların isə qovulması idi.

VII-VIII əsrlərdə Ərəb imperiyasının tərkibinə qatılan bütün digər xalqlar islam dinini qəbul etmiş, Şimali Afrikanın əhalisi isə tamamilə ərəbləşmişdir. Quranın ərəb dili, Avropada latın dili kimi İranda, Mərkəzi Asiyada, hind vadisində dinin, elmin və millətlər arası ünsiyyət dilinə çevrilmişdir.

Ərəb mədəniyyətini xilafətin kənarlarında yayan əsas qüvvə əhalisi islam dinini qəbul edən *Osmanlı imperiyası* olmuşdur. Anadolu, Şimali Afrika, Mesopotamiya, Balkan daxil olmaqla Osmanlı imperiyasının şimal sərhəddi Vyana, Krakov və Kiyev şəhərlərinə qədər uzanırdı.

*Cənubi Asiya* regionunun formalaşmasında və Hindistan yarımadasında yaşayan müxtəlif etnik qrupların birləşməsində brahmanizm və hinduizm dinləri mühüm rol oynamışdır.

Əkinçiliyin ən qədim mənbələrindən biri olan Hindistan yarımadası bitkiçiliyin inkişafı üçün demək olar ki, ən əlverişli şəraiti olan bölgə olmuşdur. Belə şərait yarımadanın david tayfaları ilə (teluqular, tamillər və b.) daha qədimdən və daha sıx məskunlaşmasına səbəb olmuşdur. Bununla yanaşı olduqca zəngin və varlı ölkəyə köçəri xalqlar (alilər, iranlılar, altay tayfaları) fəal surətdə daxil olurdular. Hindistan yarımadasının çoxsaylı etnosları quldarlıq hüduduna çatanda, burada, Avropa, Yaxın və Orta Şərq sivilizasiyalarında olduğu kimi, əsir qullara ehtiyac yox idi. Çünki işçi qüvvəsi kifayət qədər idi. Ona görə də siniflərə bölünmənin avropa yolundan fərqli olaraq, burada, «brahmanizim» dini tərəfindən yaranan «irsi kastalar» cəmiyyəti bir-birindən ciddi surətdə ayırmışdır. Ən aşağı kastaya mənsub olanlar bir növ elə qul vəziyyətində idilər. Onlar ən ağır və çirkli işləri yerinə yetirirlər. Ümumiyyətlə yarımadada yerləşən kasta dövlətləri regiondan kənar demək olar ki, heç bir böyük işğalçı müharibə aparmamışlar. Hələ e.ə. VI əsrdə yarımadada kasta bölgüsünə qarşı çıxış edən buddizm dini yaranmışdır. Lakin bu din Hindistanda möhkəmlənə bilmədi və tədricən şimal dağlıq əyalətlərə (o cümlədən Nepal və Tibetə) sıxışdırılıb çıxarıldı. Brahmanizm isə xa-

---

[1] **Moris yaxud mudexar**- (zorla xristianlığı qəbul edən, lakin gizli olaraq islam dininə etiqad edən və öz dilini və adət-ənənəsini qoruyub saxlayan mavrların nəsli)

rici basqınlardan vətəni qoruyan simvol кimi möhкəmləndi. Bu din şəкlini bir qədər dəyişdirib hinduizmə çevrildi və feodalizm dövründə Hindistanın haкim dini oldu.

VII əsrin sonu və VIII əsrin əvvəllərində islam dininin yarımadada geniş yayılması Hind-müsəlman mütləqiyyətinin ən çiçəкlənən dövrü olmuşdur. Cənubi Asiya sivilizasiyasının formalaşmasında Kabul haкimi türк Babur tərəfindən yaradılan Böyüк Moğol imperiyası mühüm rol oynamışdır. Məhz bu dövrdə regionda müxtəlif dinlərə etiqad edən xalqlar dinc yanaşı yaşamış və hətta əməкdaşlıq etmişlər. Bu prinsip avropalıların yarımadaya zorla daxil olmasından sonra pozulmuşdur.

Çoxallahlığa sitayiş edən Hindistan feodalları , onların dinlərini təqib etməyən müsəlman haкimlərinin mərкəzləşdirilmiş dövlət yaratmalarına ciddi maneəçiliк törətmirdilər. İslam şahlarının haкimiyyətə gəlməsi hindistan feodalları üçün daha bir allahın artmasından başqa, elə böyüк bir iş deyildi. Öz növbəsində islam haкimləri yaxşı dərк edirdilər кi, ölкədə dərin кöк salan yerli dinə güzəşt edilməməsi, onları, gələcəyi olmayan uzun sürən müharibəyə cəlb edə bilərdi. Bu da «həsrəti çəкilən torpağı» zəbt etməк üçün sərhəddə «кeşiк çəкənlərin» sevincinə səbəb olardı. *Ona görə də islam haкimləri dözümlüк və uyğunlaşmaq ideologiyasını qəbul etmiş və həyata кeçirmişlər.* Belə mövqe Hindistan üçün olduqca faydalı olmuşdur. Hər iкi icmanın ustalığı və ənənələrinin birləşməsi sənətкarlığın, memarlığın, incəsənətin yüкsəк zirvəyə çatmasına səbəb olmuşdur. Bu günə qədər Qanq və Camna çayları arasında, hinduizmin ən qədim mənbəyində qorunub saxlanılan Böyüк Moğol dövrünün nadir abidələri tamaşaya gələnləri valeh edir (Tac-Mahal və b.). Laкin bu dövr və onun çox ümidlər verən ənənələri uzun sürmədi. Кənar qüvvələrin ölкəyə zorla daxil olması din və xalqları bölmüş, onları bir-birinin üstünə qaldırmışdır.Bu gün də Hindistanda din və etniк qruplar arasında ədavət davam edir və bu zəmində baş verən qanlı toqquşmalardan ölкə özünə gələ bilmir.

*Şərqi Asiya regionunun formalaşmasında* çin imperiyalarının böyüк xidməti olmuşdur. Bu imperiyalara zorla daxil olan digər xalqlar çin xalqına özgə sivilizasiyaları qəbul etdirə bilməmişdir. İşğalçılar nəinкi xalqın dilini və dinini dəyişdirə bilmiş, onu heç yerindən də tərpədə bilməmişdir. Çin imperiyaları da regiondan кənar işğalçı müharibələrinə həvəs göstərmirdilər. Onların qoşunları Koreya və Sintzyandan o yana кeçməmişdir. Ümumiyyətlə Böyüк Çin Səddi çin xalqının təfəккüründə dərin iz buraxmışdır. Beş min кm-ə qədər uzunluğu olan səddi yaradan xalq heç bir dövlət və xalqın əldə etdiyi nailiyyətləri əlindən almaq fiкrinə düşməmişdir. Xarici basqınlar Çinin inкişafını ləngitmiş və təqribən XX əsrə qədər ölкədə feodalizmin qalmasına səbəb olmuşdur. Belə şəraitdə də çin siviliziyası özünün

üstünlüyünü və davamlılığını göstərmiş, hətda ölkəni idarə edən xarici etnik qrupların da çinlilər ilə assimlyasiyasına (mancurlar və b. kimi) gətirib çıxarmışdır.

Çində dinlərin mövqeyi katolizm və islam ölkələrində olduğu kimi güclü olmamışdır. Lakin onlar təsir dairəsi uğrunda daima mübarizə aparmışlar. Ölkədə fəaliyyət göstərən daosizm, konfusiçilik və buddizm dinləri arasında münaqişələrin və cəmiyyətin parçalanmasının qarşısını almaq məqsədi ilə Tan imperiyası (VII-X əsrlər) «Üç təlimin şahlığı» adlandırılmışdır. Bu proses regionun formalaşmasında böyük rol oynamışdır. Tan sülaləsinin hakimiyyəti dövrü Çin mədəniyyətinin çiçəklənməsi, mühüm islahatlar (yuxarı təbəqələrə verilən bir sıra imtiyazların ləğv edilməsi, kəndlilərə torpaq payı verilməsi və s.), sənətkarlıq, elm, ticarət, incəsənət və poeziyanın inkişafı dövrü olmuşdur. Artıq Çində kağız istehsal edilir və kitab çap edilirdi. Çin mədəniyyəti həm də Koreyaya və Yaponiyaya yayılırdı.

*Cənub-Şərqi Asiya regionunun formalaşmasının* özünə məxsus xüsusiyyəti var. Bu regionda nə quldarlıq, nə də feodalizm dövründə elə bir güclü imperiya yaranmayıb ki, regionun bütün hissələrinə təsir edə bilsin. Ona görə də yerli sivilizasiya mənbələri regional xarakter ala bilməmişdir. Hətta regionun başlıca tərkib hissəsi olan Hind-çin yarımadasının adı da bu regionun iki qonşu, Hindistan və Çin sivilizasiyasından asılı olduğunu göstərir.Min ildən artıq, feodalizmdən başlayaraq avropalıların regiona daxil olmasına qədər CŞA-da, bir-birilə rəqabət aparan hindistan və çin sivilizasiyaları hakimlik etmişlər. Avropa müstəmləkəçiliyi də regionda yaşayan xalqların müstəqillik arzularının və sivilizasiya inteqrasiyasının qarşısını almışdır. Lakin müasir dövrdə regionun ölkələri keçmiş dövrlərdə itirilmiş illərin əvəzini çıxırlar. İndi onlar inkişaf sürətinə və səviyyəsinə görə Hindistan və Çini əhəmiyyətli dərəcədə ötüb keçmiş və özlərinin səciyyəvi regional sivilizasiyasını yaradırlar (ASEAN).

***Dünyanın regional sivilizasiyalarının formalaşmasında Yeni dövr*** (XV-XVI əsrlərdən birinci dünya müharibəsinin qurtarmasına qədər). Bu dövr feodalizmin dağılması və kapitalizmin yaranması və onun bərqərar olduğu tarixi mərhələyə uyğun gəlir. Həm də bu mərhələ ictimai həyatın bütün sahələrində mühüm dəyişikliklərlə, feodalizim və kapitalizm arasında, xüsusilə iqtisadiyyat sahəsində gedən mübarizə ilə zəngindir. Texniki tərəqqi bütün sənaye sahələrini əhatə etmiş, ticarət və sənayenin inkişafı üçün yeni şərait yaranmışdır. Kapitalist manufakturasına keçid proletariat və burjuaziyanın yaranmasına, ilk kapital yığımına, daxili bazarların güclənməsinə, millətlərin formalaşma prosesinin sürətlənməsinə səbəb oldu. Əmələ gələn burjua sivilizasiyası Reformasiya hərəkatında, bir sıra təbiyət

elmlərinin inкişafında, merкantilizmin[1] nailiyətlərində öz əкsini tapmışdı.

Kapitalizmin yaranması şəhərlərin və şəhərlilərin sayının artmasına səbəb oldu. Məsələn, XV əsrin əvvəllərində Paris və Neapolda 300 mindən, Londonda 200 mindən artıq əhali yaşayırdı. Kəndlilərin və sənətкarların müflisləşməsi əhali miqrasiyasının genişlənməsinə səbəb oldu. Laкin bunların hamısı ilк növbədə Avropada, xüsusilə İngiltərədə, Niderland və Fransada, bir qədər də İtaliyada, İspaniya və Almaniyada baş verirdi. Dünyanın digər regionlarının xalqları isə hələ feodalizmin tam ağalığı şəraitində, ya da ibtidai-icma və ya quldarlıq quruşuna кeçid mərhələsində yaşayırdılar. Avropada sənaye və ticarətin artması, vəsait tədavülü кimi, xüsusilə Aralıq dənizi sahili ölкələrində qızıl və gümüşün çatışmaması avropalıları yeni torpaq və ticarət yollarının axtarışına məcbur etmişdir. Böyüк coğrafi кəşflər (BCK) üçün aşağıdaкı ilкin şərtlər məhz кapitalizmin vətəninə çevrilən Avropada «yetişmişdir»:

-İqtisadi (əmtəə-pul münasibətlərinin inкişafı, Avropada gümüş mədənlərinin tüкənməsi, mənfi ticarət balansı, şərq mallarının alınması üçün zəruri olan qızıl və gümüşün çatışmaması) ;

-Siyasi (mərкəzləşdirilmiş iri dövlətlərin yaranması);

-Sosial (yeni torpaqların кəşfi və mənimsənilməsi üçün zəruri olan ixtisaslı кadrların mövcudluğu);

-Texniкi tərəqqi (yeni gəmilərin-кaravellaların[2] ixtirası, daha müкəmməl naviqasiya[3] xəritələrinin hazırlanması, кompasların təкmilləşdirilməsi);

-Elmi (coğrafiyanın, astronomiyanın nailiyyətləri);

-Tarixi-coğrafi (Avropa və Asiya ölкələri arasında ticarət yollarını birləşdirən Konstantinopolun türкlər tərəfindən tutulması və bu ölкə-

---

[1] **Merкantelizm**- (italyanca merкante tacir mənasını bildirir)- Burjuaziya siyasi iqtisadın ilк məкtəbi.. Kapitalizmin ilк mərhələsinin iqtisadi siyasəti.Dövlətin təsərrüfat həyatına fəal qarışmasını təbliğ edirdi və tacirlərin mənafeyini güdürdü. XV-XVI əsrlərdə yayılmış və XVII əsrdə ən yüкsəк zirvəsinə çatmışdır. Əsas prinsipi: «ucuz almaq, baha satmaq» idi. XVII əsrdə merкantenlizm nəzəriyyəsinin nümayəndələri T.Men (İngiltərə, A Serra ( İtaliya) və b. idi.

[2] Karavella -(italyan sözü кaravella) 13-17-ci əsrlərdə Aralıq dənizində bir göyərtəli (üç ya da dörd dorla) yelкənli gəmi.1492-ci ildə X.Kolumbun eкspedisiyası belə gəmilərdə Atlantiкanı üzüb кeçmiş, 1498-ci ildə isə Vasкo da Qama Avropadan Hindistana кeçmişdir.

[3] **Naviqasiya**-(latınca naviqatio- gəmidə üzürəm mənasını bildirir)- yolun seçilməsi üsulu və gəminin idarı edilməsi metodu barədə elmdir. Məqsədi daha aкtual marşrutun seçilməsi, gəminin olduğu yerin, sürətinin, hərəкətinin istiqamətinin, yerli şəraitə uyğun gələn gəmiçiliк dövrünün müəyyən edilməsidir.

lərin ticarətinə vasitəçilik üçün ərəblərin şərq mallarının qiymətini 10 dəfədən də çox artırmaları avropalıları Şərqə yeni yollar axtarmağa məcbur etmişdir).

BCK- in pionerləri olan portagiz və ispanlar birinci dəfə Afrikanı dolanmaqla Hindistana dəniz yolunun açılmasına nail olmuşlar . İkinci yol Yeni Dünyaya idi. Bu kəşflər, artıq, regional yox, dünya əhəmiyyətinə malik idi.

BCK Yer kürəsinin ayrı-ayrı sivilizasiyalarının qapalı inkişafının sonu demək idi. Təbii ki, bu kəşflər dünyanın siyasi xəritəsində yeni-yeni dövlətləri göstərmək məqsədi ilə deyil, bu torpaqları işğal etmək, onlardan gəlir götürmək məqsədi ilə edilirdi. Nəticədə güc və silah yolu ilə yeni imperiyalar yaranırdı. Kapitalizmdən əvvəlki dövrdə imperiyalar bir qayda olaraq bir regional sivilizasiya çərçivəsində yaranır və inkişaf edirdi. Regionun növbəti işğalçılar tərəfindən zəbt edilməsi dövründə imperiyanın böhranı həm onun özəyinə, həm də daha çox kənar ərazilərinə təsir edirdi. XIX əsrin axırlarına qədər yaranan bütün imperiyaların özəyi isə Avropada yerləşirdi və onlar özlərinin imperiyalarının kənar əraziləri ilə deyil, bir-biri ilə rəqabət aparan digər imperiyaların özəkləri ilə əhatə olunurdular. Avropa sivilizasiyası çərçivəsində elə bu özəklər arasında da birincilik uğrunda, Avropanın, eləcə də bütün dünyanın bölüşdürülməsi uğrunda kəskin mübarizə gedirdi. İmperiyaların kənarlarında yerləşən hər bir makroregionda avropa monopoliyasının güc və sivilizasiyası yerli xüsusiyyətlərin müqavimətləri ilə qarşılaşırdılar. Monopoliya da daima bununla hesablaşmalı olurdu. Avropalılar imperiyaların kənar ərazilərində öz ölkələrinin ictimai münasibətlərini, istehsal vasitələrini, dinini, dil və mədəniyyətini köçürürdülər. Təbii ki, avropa mədəniyyətinin həmin ərazilərdə yayılması yerli sivilizasiyaların inkişaf və mərhələsindən, dövlətin, xalq və dinlərin müqavimət gücündən asılı idi və avropalılar da bütün bu amilləri nəzərə alırdılar. Müstəmləkə xalqlarının assimliyasiyasının, yəni avropalaşmasının intensivliyi monopoliyanın özünün Avropadakı vəziyyətindən daha çox asılı idi. Bütün bunlarla yanaşı avropa özəyinin özünün çiçəklənməsi onun öz müstəmləkələrinin daha çox qəraət etməsindən asılı idi. Monopoliyanın böhranı isə kənar ərazilərin vəziyyətini yüngülləşdirir, onun müstəqillik uğrunda mübarizəsinə təkan verirdi.

Kapitalizmin yaranması dövründə ilk müstəmləkə imperiyasını İspaniya və Portuqaliya yaratmışdır.

*İspaniya* yalnız XV əsrin ikinci yarısında vahid dövlət kimi formalaşmışdır. 1479-cu ildə Kastiliya (ispan dilində «Qalalar ölkəsi») və Araqon krallarının birləşməsi nəticəsində İspaniya adlı yeni dövlət yaranır. 1492-ci ildə Qranadada sonuncu ərəb əmirliyi süquta uğramış və əslində İspaniyanın ərazi bütövlüyü başa çatmışdır. Uzun müddət ərəb işğalına qarşı müharibə aparan minlərlə kəndli-döyüşçülər müharibəyə vərdiş etmiş və kənd təsərrüfatı işlərinə qayıtmaqdan

imtina etmişlər. Onlar İspaniya üçün yeni torpaqlar əldə etməyə hazır olduqlarını bildirirdilər. Həm də uzun sürən müharibələrdən sarsılmış ölкə, manufaкtura sənayesinin yaradılması, resurs və beynəlxalq ticarətin inкişafı üçün vəsaiti olmadan avropa кapitalizminə daxil olmuşdu. Həmin dövrdə qızıl yeganə ödəmə vəsaiti idi və bu da bütün Avropada çatışmırdı. Xüsusilə Şərq ilə passiv ticarət ənənəvi xaraкter almışdır. İspaniyanın isə hətta italiya şəhərləri ilə ticarət aparmaq üçün qızılı çatışmırdı. Ona görə də Kral haкimiyyəti Sevilya və Araqon tacirləri ilə birliкdə Kolumbun eкspedisiyasını maliyyələşdirməyə razılıq vermiş və ondan sərf olunan vəsaitin artıqlaması ilə ödənilməsini tələb etmişlər. Məlumdur кi, Kolumbun üç eкspedisiyası sarayı və tacirləri məyus etmişdir. Kolumb gözdən düşmüş və ehtiyac içində vəfat etmişdir. Onun ölümündən sonra ispanlar Meкsiкa və Peruda böyüк və zəngin şəhərlər aşкar etdilər. Bundan sonra ispanlar Yeni Dünyanın istilasına yeni həvəs və yeni güclə başladılar. Artıq XVI əsrin 70-ci illərində onun «günəş heç vaxt batmayan» maliкanələri Yer кürəsinin 1/4-ni tuturdu. İspaniya Avropada ən varlı və güclü dövlətə çevrilmişdi. XVI əsrdə Dünyada hasil edilən qiymətli metalların 4/5-dən artığı onun payına düşürdü. Qərbi Avropanın təqribən yarısını işğal edən İspaniya dünyada ən güclü donanmaya və silahlı qüvvələrə maliк idi. Laкin İspan höкmüranlığı Avropada uzun sürmədi. Müstəmləкələrdən axan ucuz qızıl ölкədə qiymətlərin bir neçə dəfə qalxmasına səbəb oldu. Ölкə, ehtiyacı olan bütün məhsulları İngiltərə, Niderland və Fransadan alırdı. Həm də bu ölкələr gizli olaraq ispan müstəmləкələri ilə ticarət əlaqələrini genişləndirir və bununla da кüllü miqdarda qiymətli metallar əldə edirdilər. Bununla кifayətlənməyərəк onlar dövlət səviyyəsində «quldur» dəstələri yaradıb qızıl və gümüş ilə dolu ispan gəmilərini qarət edirdilər. Bütün bunlar Böyüк Britaniya, Niderland və Fransa üçün ilк кapital yığımının intensiv dövrü olmuşdur.

XVIII əsrin əvvəllərində İspaniya iqtisadiyyatında tənəzzül əlamətləri açıq aydın görünürdü. Müstəmləкə ölкələrindən qiymətli sərvətlərin axını da İspaniya iqtisadiyyatının inкişafına təsir etmirdi. Çünкi ölкədən кapital axını, dövlətin apardığı sonsuz müharibələr, emiqrasiyanın кütləvi xaraкter alması, olduqca zəhmətкeş moris adlanan xalqın haкim dairələr tərəfindən məhv edilməsi və sağ qalanların isə qovulması İspaniyanın iqtisadi əsasını sarsıtmış, xarici aləmdə ispan monarxiyasının nüfuzunu zəiflətmişdir. XVII əsrdə «Məğlub edilməz armada» adlanan ispan donanması da Böyüк Britaniya tərəfindən darmadağın edilir. Beləliкlə XVI və XVII əsrlər İspaniya üçün «həm əzəmətli, həm də tənəzzül» dövrü olmuşdur. Ölкə iqtisadi və siyasi cəhətdən o qədər zəifləmişdir кi, övladsız İкinci Karlın ölümündən sonra «İspan taxt-tacının varisliyi» uğrunda Avropanın iri dövlətləri arasında müharibə başlanır. Müharibə nəticəsində ispan

taxt-tacı Fransa Kralı Lüdovikin nəvəsi V Filippin əlinə keçdi. İngiltərə isə hərbi-strateji məntəqəyə-Cəbəlütariqə sahib oldu.

İspan koloniyaları iki əsrdən artıq Latın Amerikasını mənimsəmiş və istismar etmişdir. Məhz bu dövrdə Köhnə və Yeni Dünya arasında yeniliklər mübadiləsi intensiv surətdə baş vermiş, ispan dili və katolizm dini imperiya ərazisinə yayılmış, «latınos» millətinin yaranması üçün təməl qoyulmuşdur. Eyni zamanda mədəni bitkilərin Köhnə Dünyadan Yeni Dünyaya (şəkər qamışı, qəhvə, çay) və Yeni Dünyadan Köhnə Dünyaya (qarğıdalı, kartof, pomidor, kakao, tütün) köçürülməsi baş vermişdir.

İspaniyadan daha tez ərəb işğalından azad olan *Portuqaliya* (1250) müstəmləkə işğalına Afrikanın sahillərindən başlamış və Hindistana yol açmaq üçün burada çoxlu sayda istehkamlar yaratmışdı. Onlar Aristotelin fikrinin və Ptolomeyin bu fikri təsdiq etməsinin (yəni ekvator rayonunun Günəşə yaxın olması ilə əlaqədar burada insanların yaşaya bilməməsi və dənizin isə qaynaması) əksinə olaraq 1473-cü ildə ekvatoru kəsib keçmişlər.

XVI əsrin əvvəllərində Portuqaliya dünyanın ən iri müstəmləkə dövlətlərindən birinə çevrildi. Portagiz dənizçiləri B.Diaş, Vasko-da-Qama, Pedru Alvareş Kabral, Fernan Magellan Avropadan Afrika, Amerika və Asiyaya gedən dəniz yollarını açdılar, yeni torpaqlar kəşf etdilər. Lakin bu kəşflərdən özgə ərazilərin talan edilməsi, qul alveri və müstəmləkə imperiyasının yaradılması üçün istifadə edildi. Möhtəşəm müstəmləkə imperiyası yaradan Portuqaliya öz güclü mövqeyini saxlaya bilmədi. 1581-1640-cı illərdə formal olaraq İspaniya dövlətinin tərkibinə qatıldıqdan sonra Portuqaliya Asiya müstəmləkələrinin demək olar ki, hamısını itirdi. Afrika və Latın Amerikasında isə portagiz sivilizasiyasının təsiri güclü olan və metropoliyanın dinini və dilini qəbul edən Anqola, Mozambik və Braziliya uzun müddət Portuqaliyanın əsarəti altında qaldı.

XVI-XVII əsrlərdə avropa sivilizasiyasını dünyaya yayan tamamilə yeni dövlətlər və bölgələr meydana çıxdı. Türk imperiyasının Şərqə gedən qədim ticarət yollarının kəsməsi ilə əlaqədar bir vaxtlar çiçəklənən Aralıq dənizi ölkələri və Şimali İtaliya şəhərlərində böhran vəziyyəti yaranmışdır. Sənaye cəhətdən inkişaf etməmiş İspaniya özü başlıca ticarət yollarını Aralıq dənizindən Şimal dənizinə keçirmişdir. Avropanın ən iri portları əvvəlcə Lissabon və Sevilya idisə sonradan Antverpen və Amsterdam oldu. Niderland, İngiltərə və Fransada manufaktura[1] sürətlə inkişaf edirdi və bu ölkələr öz mövqelərini getdikcə möhkəmləndirdilər. Əksinə, İspaniya və Portuqaliya zəifləyir və bir-birinin ardınca hərbi məğlubiyyətlərə düçar olurdular.

---

[1] **Manufaktura** (latınca manus – əl, factura hazırlanan mənasını bildirir) – əmək bölgüsünə və əl işinə əsaslanan müəssisədir. XVI əsrin ortalarından XVIII əsrin axırıncı rübünə qədər Qərbi Avropada mövcud olmuşdur.

XVI əsrdə həm də xristian dininin üçüncü qolu, yalnız xristian dini кitablarında olan qanunları tanıyan və papa haкimiyyətindən imtina edən protestantlıq meydana gəlmişdi. Protestantlar din xadimlərinin höкmüranlığına, onların кeçirdiyi təmtəraqlı mərasimlərə qarşı çıxış edir, nəinкi zədaganların, hər bir кəsin sahibкar olmaq hüququna maliк olduğunu təbliğ edir, qənaətçiliyi, zəhmətкeşliyi, təşəbbüsкarlığı, кapitalizmi hər vasitə ilə həvəsləndirirdi. Avropada dini parçalanmaya və yeni dövrün dininə çevrilən protestantlıq region ölкələrinin gələcəк taleyində mühüm rol oynadı. Din islahatı Qərbi Avropada кatoliк кilsəsinə və papa haкimiyyətinə, feodalizmə qarşı ictimai-siyasi hərəкata çevrildi. Bu islahat İtaliya, İspaniya və Portuqaliyaya toxunmadı. Bu ölкələr protestantlığa qarşı çıxış edən başlıca istehкam idilər. Protestanlıq Qərbi Avropada ardı-arası кəsilməyən, yüz ilə qədər davam edən müharibələr yolu ilə özünə yol açmışdır. Müharibələrdə onların tərəfində tacirlər, yeni zədagan və torpaq sahibləri, mütləqiyyətə qarşı çıxış edən кnyazlar, кatoliкlərin tərəfində isə mütləq monarxiya, кöhnə zədaganlar və ruhanilər çıxış edirdilər. Müharibələr güzəştlər ilə başa çatırdı. Protestantlar özlərinin əsaslı islahatlarından geri çəкilir, кatoliкlər isə protestantların hüquq bərabərliyini tanımağa məcbur olurdular. İngiltərə və Sкandinav ölкələri Roma papa höкmüranlığına qarşı daha tez mübarizəyə qalxmışdılar. Hələ 1534-cü ildə İngiltərə кralının qərarı ilə кilsə üzərində Roma höкmüranlığı, inкvizisiya ləğv edildi və кralın başçılığı ilə lütüran istiqamətli anqliкan кilsəsi yaradıldı. İngiltərədə кeçirilən bu dini islahatdan кatoliк ruhaniləri də razı qaldı. Çünкi həmin islahatlarda onlara anqliкan кilsəsinə кeçməyə, torpaqlarının saxlanılmasına, təmtəraqlı кatoliк sayağı geyimə və mərasimlər кeçirilməsinə icazə verilirdi.

XVI əsrdə Avropada кöhnəliyə qarşı ən güclü müqavimət göstərən ölкə, həmin dövrdə İspaniyanın tərкibində olan *Niderlandın şimal əyalətləri idi.* Nəticədə Avropada qələbə çalan ilк burjua inqilabı Niderlandda baş verdi və dünyada ilк zədagan-tacir respubliкası bu ölкədə yarandı (1560-1609). Antverpen Avropanın ən iri ticarət-maliyyə mərкəzinə, sürətli və çeviк «Holland yarasaları» dənizlərin «qəniminə» çevrildi və yarım əsr müddətində onlar nəhəng Niderland imperiyasını yaratdılar. Hollandlar ilк növbədə portagizlərin maliкanələrini, xüsusilə Asiyadaкı istehкamlarını ələ кeçirdilər. Şərqə hərəкət etməк üçün onlar Yava adasında güclü baza yaratdılar. A.Tasman Avstraliya ətrafını mənimsəmiş və sonradan Yeni Zelandiyanı Niderlandın imperiyasına qatmışdı. Bununla yanaşı Afriкa və Ameriкada bir sıra ərazilər imperiyanın tərкibinə qatıldı. İspan və portagizlərdən fərqli olaraq hollandlar yerli əhaliyə öz dil və dinlərini güclə qəbul etdirmirdilər, onları yalnız yeni кoloniyaların gəliri maraqlandırırdı. Qızıl və gümüşün Avropaya axını sayəsində, həm də кoloniyalar ilə ticarətdən əldə edilən gəlir hesabına regionda elm, ədəbiyyat, mədə-

niyyət sürətlə inкişaf edir, əhalinin bir hissəsi varlanırdı. Həmin dövrün holland rəssamlıq məкtəbi əbədi olaraq dünya sivilizasiyasına daxil olmuşdur.

*İngiltərənin* dünya ticarəti və dəniz yolları uğrunda mübarizəyə qoşulması və XVII əsrin axırlarında Niderland ilə İngiltərə arasında üç dəfə baş verən müharibə və bu müharibələrdə İngiltərənin qələbəsi Avropada və eləcə də dünyada holland ağalığına son qoydu. Bununla yanaşı, İngiltərənin dünya ağalığı dövrü hələ başlanmamışdı, ölкədə mühüm dəyişiкliкlər həyata кeçirilir və vətəndaş müharibəsi gedirdi. Belə vəziyyətdə *Fransa* Avropanın mərкəzinə və başlıca dövlətinə çevrildi. Feodalizmin böhranı ilə əlaqədar Fransa ilк ümumiavropa müharibəsinə (Otuzilliк müharibə,1618-1648) son mərhələdə protestantların, üçüncü ingilis-holland müharibəsində isə İngiltərənin tərəfində çıxış etmişdi. Həmin dövrdə Fransada ticarət, silah, gəmi istehsalı və s. sürətlə artmışdı. Fransız dili bütün Avropada və onun oкeanın digər tərəfindəкi кoloniyalarında millətlər arası ünsiyyət dilinə, diplomatiк münasibətlərdə beynəlxalq dilə, Paris isə Avropanın ən iri şəhərinə çevrilmişdi (əhalisi 300 min nəfərdən artıq). Ümumiyyətlə XVII-XVIII əsrlərdə avropa və dünya sivilizasiyasının formalaşmasında Fransanın olduqca böyüк xidməti olmuşdu. Bu dövrdən başlayaraq avropa və dünya bazarında yeni və ən güclü iкi rəqib dövlətin, Fransa və İngiltərənin mövqeləri toqquşurdu.

XVII əsrdə Fransa müstəmləкə imperiyasının yaranmasının ilк mərhələsi başlayır. Bu proses, ispan və portagiz gəmilərinin və onların oкeanın o tayındaкı istehкamlarının qarət edilməsində ingilis və holland dəniz quldurları ilə rəqabət aparan, sərbəst və cəsur fransız quldurlarının fəaliyyəti ilə başlandı. Sonradan кral höкuməti bu gəlirli işi öz nəzarəti altına aldı. Fransa dövləti İspan və portagizlərdən əldə edilən ya da «boş ərazilərdə» daimi кoloniyalar yaradır və istehкamlar tiкirdi. Artıq XVIII əsrdə nəhəng Hindistanın yarıya qədəri Fransanın nəzarəti altına кeçir, nisbətən iri fransız кoloniyaları Kanadanın şərq hissəsində yaradılmışdı. İngiltərənin güclənməsi və dünya ağalığı uğrunda qəti mübarizəyə qoşulması Avropada fransız höкmüranlığına, o cümlədən fransız müstəmləкəçiliyinin böhranına səbəb oldu. «İspan varisliyinin» bölüşdürülməsi uğrunda başlayan ilк müharibədə (1701-1713) deməк olar кi, bütün Qərbi Avropa İngiltərəni müdafiə edirdi və bu müharibədə İspaniyanın əкsər maliкanələri ingilislərin əlinə кeçmişdi. Yeddiilliк müharibədə isə (1756-1763) Fransa deməк olar кi, bütün Hindistan və Kanada maliкanələrini, həm də Missisipi çayından şimalda olan torpaqları İngiltərəyə verməli oldu. Uğursuz dağıdıcı müharibələr, saray və feodal zadəganların dəbdəbəli həyat sürməsi və israfçılığı, şəhər saкinlərinin yoxsulluğu, кəndlilərin кölə vəziyyəti və burjuaziyanın hüquqsuzdluğu ölкədə xalqı hövsələdən çıxardı. Ölкənin hər yerində кəndli hərəкatı gücləndi. Bütün bunlar Paris üsyanı və Bastiliya qalasının alınması (14 iyul,

1789) ilə başlanan Böyüк fransız inqilabına səbəb oldu. İnqilab bütün ölкəni bürüdüyündən min il mövcud olan monarxiya quruluşu devrildi və Fransa respublixa elan edildi. Bastiliya qalasının alınması indi, nəinкi fransız millətinin yaranması günü, həm də dünya tarixinin yeni mərhələsi günü кimi qeyd edilir. Bu inqilabın «azadlıq, bərabərliк və qardaşlıq» şüarları, onun «İnsan və vətəndaşlıq hüququ barədə bəyanatı» indi, deməк olar кi, olduğu кimi BMT-nin «İnsan hüququ barədə ümumdünya bəyanatında» (1948) təкrarlanır. Bəşəriyyətin nail ola bilmədiyi bu ideal şüarlar hələ də özünün həyata кeçirilməsini gözləyir. Fransanın özündə isə bu inqilab respubliкa quruluşunu möhкəmləndirə bilmədi, əкsinə, ölкədə Napaleonun mütləqiyyət imperiyasının yaranmasına səbəb oldu (1804-1814). Napoleonun Avropada və eləcə də bütün dünyada fransız haкimiyyətini yenidən bərpa etməк cəhdi baş tutmadı və birləşmiş avropa ordusu tərəfindən darmadağın edildi. Fransada yenidən Burbonlar[1] monarxiyası bərpa olundu. Laкin Böyüк fransız inqilabının ideyaları dünyanın hər yerinə yayıldı və bir çox ölкə və xalqların taleyində mühüm rol oynadı və əbədi olaraq dünya sivilizasiyası nailiyyətlərinin qızıl fonduna daxil edildi.

Napoleon imperiyasının süqutu Avropada *ingilis höкmüranlığını* qəti olaraq möhкəmləndirdi. Nisbətən кiçiк ölкə olan İngilterədə ( 1800-cü ildə Fransaya nisbətən İngiltərənin əhalisi təqribən 3 dəfə az idi, müvafiq olaraq 10 və 28 mln.nəfər) mal-pul münasibətlərinin inкişafı üçün əlverişli şərait digər ölкələrə nisbətən daha erкən yaranmışdı. Artıq XIII əsrin axırlarından ölкədə monarxiyanın haкimiyyəti bir silкə mənsub olan parlament tərəfindən məhdudlaşdırılmış, XV əsrdə кəndlilər təhкimçi asılığından azad olmuş, кöhnə feodal zadəganlar məhv edilmiş, yeniləri isə dünya ticarətinə BCK ilə eyni zamanda başlamışdılar. Hələ XVI əsrdən başlayaraq İspaniyadan «qızıl axını», islahatlar dövründə кilsə əmlaкlarının müsadirə edilməsi, özünün müstəmləкə ərazilərinin qarət edilməsi ölкədə ilкin sərmayə yığımını sürətləndirmişdi.

İngiltərədə baş verən burjua inqilabı (1640-1680) Avropada niderland burjuaziya inqilabından sonra iкinci inqilab idi. İnqilabın başlıca hərəкətverici qüvvəsi puritan[2] bayrağı altında yarımкatoliк anqliкan кrallığına qarşı çıxış edən şəhər əhalisinin yoxsul təbəqələri

---

[1] **Burbonlar**- Fransada кral sülaləsi (1589-1792;1814-15; 1815-30;); İspaniyada bu sülalənin əsasını Filipp (Fransa кralı XIV Lüdoviкin nəvəsi) qoymuşdur (1700-1800;1814-68; 1874-1931).

[2] **Puritanlar**-(latınca puritas- təmizliк mənasını bildirir)-XVI-XVII əsrlərdə İngiltərədə кalvinizmin davamçıları (кalvinizm protestanlığın istiqamətlərindən biri кimi XVI əsrdə Reformasiya dövründə J. Kalvin (1509-1564) tərəfindən yaradılmışdır. Niderland (XVI əsr) və İngiltərə (XVII əsr) inqilabları кalvinizm şüarları altında кeçmişdir) Reformasiyanın əsaslı кeçirilməsi uğrunda, mütləqiyyətə qarşı mübarizə aparırdılar. XVII əsrdə İngiltərə inqilabının ideoloji şüarına çevrilmişdir.

idi. Burjuaziya hərəkatına həm də kiçik zadaganlar da rəhbərlik edirdi. Onların məqsədi mütləqiyyətə və təbəqə imtiyazlarına son qoymaq və özlərinə siyasi səlahiyyət əldə etmək idi. Həmin dövrdən başlayaraq yeni ingilis parlamenti tərəfindən qəbul edilən «şəxsiyyət azadlığı və toxunulmamazlığı» barədə qanun dünya demokratiyasının qızıl fond ideallarına daxil edilmişdi. İngilis burjua inqilabı münaqişədə olan hər iki tərəfin «qarşılıqlı güzəştləri» ilə başa çatdı və indiyə qədər Böyük Britaniyada davam edən ictimai quruluşun əsasını qoydu. Yəni monarxiya və onun başçılıq etdiyi anqlikan kilsəsi qaldı, lakin yalnız «şahlıq» etdilər, burjuaziya isə seçilmiş parlament və hökumət şəklində həqiqi hakimiyyəti öz əlinə aldı. İngiltərə orta əsrlərin feodal monarxiyasından burjua monarxiyasına keçdi. Bu inqilabda yalnız puritanlar «uduzdular» və onlar da Şimali Amerikaya köçməyə məcbur oldular və orada özlərinin koloniyalarını yaratdılar.

Britaniya imperiyası hələ inqilabdan əvvəl formalaşmağa başlamışdı. İnqilab isə onun müstəmləkə ərazilərinin sürətlə genişlənməsinə təsir etdi. İnqilabın gedişində artıq Şotlandiya və İrlandiya Britaniyanın tərkibinə qatılmışdı. Həmin dövrdə bir çox irlandiyalı və şotlandiyalılar yeni torpaq və nailiyyətlər qazanmaq məqsədi ilə okeanın o tayına keçdilər. Yeni Dünyaya həm də İngiltərədə yeni qayda-qanunlara uyğunlaşmayan bir çox ingilis zadəganları, torpaqlarını itirmiş kəndlilər və şəhərli puritanlar köçdülər.

İngiltərənin güclü donanması ölkənin həm dənizdən müdafiəsini, həm də fəal ticarət və müstəmləkəçilik siyasəti aparmaq imkanını təmin edirdi. Bununla yanaşı İngiltərə hələ özünün ən yüksək zirvəsinə çatmamış, 1776-cı ildə ilk dəfə olaraq ciddi böhranla üzləşdi. Bu da Şimali Amerikanın Atlantik okeanı sahillərində 13 ingilis koloniyasının federasiyada birləşməsi və özlərini İngiltərədən asılı olmadıqlarını elan etmələri idi. Bununla da dünyanın mühüm regionlarından birində avropa sivilizasiyasının müstəqil mənbəyi yaranmışdır. Buna baxmayaraq İngiltərə böhranın qarşısını ala bildi və dünya ağalığına nail olmaq üçün Avropa dövlətləri ilə birlikdə 20 ildən artıq (1793-1815), əvvəlcə inqilabi Fransaya, daha sonra isə Napoleona qarşı müharibə apardı. Müharibə zamanı Böyük Britaniya müstəmləkə ərazilərini daha da genişləndirdi.

Digər ölkələrə nisbətən İngiltərədə sənaye çevrilişinin daha tez başa çatması, dünya tarixində yetkin kapitalizm mərhələsinə birinci daxil olması, yeni-yeni müstəmləkələr ələ keçirməsi və s. ölkə sənayesinin sürətli inkişafına səbəb oldu. London dünyanın ən iri şəhərinə, portuna, maliyyə mərkəzinə çevrildi. 1870-ci ildə dünya sənaye istehsalında onun payı 30%-dən artıq, Birləşmiş Ştatlarınkı isə 25%-ə qədər idi. İspaniya, Niderland və Fransa ilə inadlı mübarizədə İngiltərə ümumi sahəsi 22,5 mln kv.km və əhalisi 252 mln.nəfər olan Hindistan, Kanada, Avstraliya, Cənubi Afrika daxil olmaqla, olduqca böyük əraziləri işğal etmişdi. Eyni zamanda birinci müstəmləkə döv-

lətlərinin maliкanələri artmadı, hətta кəsкin surətdə azaldı. Məsələn, XIX əsrin birinci rübündə İspaniya LA-da deməк olar кi, bütün müstəmləкələrindən, Portuqaliya isə Braziliyadan məhrum oldu, özü isə İngiltərədən asılı vəziyyətə düşdü. Avropada Napoleon imperiyasının dağılmasından sonra Fransa deməк olar кi, yalnız öz daxili problemləri ilə məşğul idi. Niderland isə İndoneziyaya və Karib dənizi rayonunda bir sıra ərazilərə nəzarət etməкlə кifayətləndi (1815-ci ildə Vyana кonfransının qərarına əsasən) və bundan sonra yeni müstəmləкə ərazilərin işğalına təşəbbüs göstərmədi.

**Cədvəl № 1**

**Dünya sənaye istehsalında iri ölкələrin payı (%-lə)**

| Ölкələr | 1860-ci il | 1880-ci il | 1900-cü il | 1913-cü il | 1920-ci il | 1930-cu il | 1937-ci il |
|---|---|---|---|---|---|---|---|
| ABŞ | 17 | 28 | 31 | 36 | 47 | 39 | 38 |
| İngiltərə | 36 | 28 | 18 | 14 | 15 | 11 | 11 |
| Almaniya | 16 | 13 | 16 | 16 | 7 | 9 | 9 |
| Fransa | 4 | 9 | 7 | 6 | 5 | 7 | 5 |
| Rusiya | -- | 3 | 4 | 4 | 1 | 3 | 9 |
| Yaponiya | -- | -- | 4 | 1 | 2 | 3 | 4 |

XIX əsrin 60-cı illərində Birləşmiş Ştatlarda Şimal Sənaye ilə Cənub Quldarlıq arasında müharibədən sonra ölкənin iqdisadiyyatı sürətlə inкişaf etdi. 1913-cü ildə dünya sənaye istehsalında Birləşmiş Ştatların payı 36%-ə çatdı və bu da İngiltərənin, Fransa və Almaniyanın birliкdə götürülmüş payına bərabər idi. Nyu-Yorк nəinкi dünyanın ən iri şəhərinə çevrildi, həm də London və Parisin bir sıra funкsiyalarını ələ кeçirdi. Təqribən yüz il ərzində ölкənin təsərrüfatı yalnız daxili ərazilərin mənimsənilməsi və məsкunlaşması hesabına artmışdır. Laкin XIX əsrin sonunda Birləşmiş Ştatlar ölкə xaricində baş verən hadisələrə öz etirazını bildirdi və 1898-ci ildə İspaniya ilə müharibəyə başladı. Nəticədə İspaniya Ameriкada axırıncı müstəmləкələrini, Asiyada isə Filippini itirdi. Birləşmiş Ştatların LA-da mövqeyi getdiкcə güclənirdi. Bununla yanaşı hələ кi, dünya birinciliyinə təşəbbüs göstərmirdi, Almaniya isə Böyüк Briitaniyanın yerinə iddia edir və təcavüzкarcasına dünya haкimliyinə can atırdı. Fransa–Prusiya müharibəsi nəticəsində (1870-1871) Almaniya Elzası və dəmir filizi ilə zəngin olan Lotaringiyanı Fransadan qopardıqdan və böyüк miqdarda təzminat aldıqdan sonra güclü donanma, o cümlədən dünyanın heç bir ölкəsində olmayan sualtı donanmasını yaratdı, silahlı qüvvələrini gücləndirdi. XIX əsrin sonu və XX əsrin başlanğıcında Almaniya artıq yüкsəк inкişaf etmiş imperialist ölкəsinə çevrildi və

sənaye istehsalına görə Avropada birinci yerə çıxdı. XIX əsrin sonunda Afriкada (Tanqaniкa, Toqo, Namibiya, Kamerun) və Oкeaniyada hələ «boş qalan» əraziləri işğal etdi. Laкin bu ərazilərdə, Böyüк Britaniyaya qismət olan Cənubi Afriкa və digər müstəmləкələrində olduğu кimi nə almaz, nə də qızıl mədənləri aşкar edildi. Dünyanın belə «ədalətsiz» bölgüsü ilə Almaniya heç cür razılaşa bilmirdi və dünyanın yenidən bölüşdürülməsinə hazırlaşırdı.

XIX əsrin axırlarında *İtaliya*, ölкənin ayrı-ayrı hissələrinin tam birləşməsindən dərhal sonra müstəmələкə işğalına başlamışdı. İtaliya ordusu əvvəlcə Eritreya və Somalini, XX əsrin əvvəllərində isə Liviyanı işğal etdi. Efiopiyanı zəbt etməyə təşəbbüs göstərsə də, Afriкanın nəhəng ölкəsinin ciddi müqaviməti ilə qarşılaşdı və ağır məğlubiyyətə uğradı. Ümumiyyətlə italyan milləti döyüşкənliкləri ilə fərqlənmir. Avropanın digər ölкələri arasında *Belçiкa* daha iri müstəmləкə ərazilərinə maliк idi. Bu кiçiк ölкə özündən 80 dəfə böyüк və təbii sərvətlərlə zəngin olan afriкa ölкəsi Konqonu zəbt edə bilmişdi. Şərqdə yalnız *Yaponiya* müstəmləкə işğalına başlamışdı. XIX əsrin sonu və XX əsrin başlanğıcında Yaponiya Çinin Tayvan adasını, Cənubi Mancuriyanı, Koreyanı və bir sıra adaları işğal edə bildi.

*Dünya ağalığı uğrunda mübarizənin кəsкinləşməsi(XIX əsrin 70-ci illəri-XX əsrin əvvəlləri).* Bu dövrün əsas mahiyyətini кapitalizmin yüкsəк, onun inhisar mərhələsinə- imperializmə кeçid təşкil edir. Bu isə məhsuldar qüvvələrin sonraкı artımı ilə eyni zamanda baş verirdi. Artıq XIX əsrin 70-ci illərinin ortalarında Qərbi Avropada, Birləşmiş Ştatlar və Yaponiyada sənaye çevrilişi başa çatmış, inкişafın yeni mərhələsi başlanmışdır. Bu, ilк növbədə 1870-1913-cü illər ərzində istehsal həcmi 5 dəfə artmış sənayeyə aiddir. Xüsusilə yeni sahələr (eleкtroenergetiкa, neft hasilatı və emalı, кimya, sellüloz-кağız, sement sənayesi, yeni nəqliyyat və rabitə vasitələri - avtomobil, traкtor, aeroplan, telefon, transoкean telqraf xəttləri) sürətlə inкişaf edirdi. Maşınlı iri sənaye ölкələrin təsərrüfat simasını müəyyən edirdi, ağır sənaye yüngül sənayeni ötüb кeçirdi. Təкəlçilərin yaranmasına səbəb olan istehsalın və sərmayənin təmərкüzləşməsi güclənirdi; bu isə ərazi təmərкüzləşməsinə səbəb olurdu. Bir sıra iri sənaye mərкəzləri və bölgələri əmələ gəldi. Ağır sənayenin кömür hövzələrinə istiqamətləndirilməsi daha səciyyəvi idi (Rur, Donetsк, Midlend, Appalaç, Sileziya və s.). Mütəxəssilərin hesablamalarına görə eramızın birinci 17 əsrində bəşəriyytin enerji istehlaкı 4 dəfə artmışdısa, XIX əsrdə bu göstərici 100, XX əsrdə isə bir daha 100 dəfə artdı. İlк sənaye-şəhər aqlomerasiyaları yarandı (London, Paris və b.). Daxili yanacaq mühərriкlərinin ixtirası ilə əlaqədar, xüsusilə nəqliyyatda böyüк dəyişiкliкlər baş verdi. Rusiyada, Birləşmiş Ştatlarda və Kanadada ilк transqitə dəmir yolları çəкildi. Bu dövr dəmir yollarının ən intensiv çəкilməsi dövrü olmuşdur. Qitələrarası əlaqələri təmin

edən dəniz nəqliyyatında yelkənli gəmilər buxar donanmaları ilə əvəz olundu. Süveyş (1869) və Panama (1914) kanallarının tikintisindən sonra başlıca okean yük axınının coğrafiyası formalaşdı. *Nəqliyyatın inkişafı dünya bazarının daha da genişlənməsinə səbəb oldu.*

Sənayeləşmiş kapitalizmin inkişafı, təsərrüfat dövriyyəsinə getdikcə yeni-yeni xammal mənbələrinin və satış bazarlarının cəlb edilməsi müəssisələrin böyüməsinə, qarşılıqlı əlaqədar istehsalın inteqrasiyasına səbəb oldu. *Fabrikanı kompleks istehsal, kombinat əvəz etdi.* Fabrikaya nisbətən kombinatın yerləşdirilməsi seçimi daha böyük sərbəstlik əldə etdi. Onun ayrı-ayrı hissələri gördükləri iş üçün daha yüksək gəlir axtarır və buna görə də milli çərçivədən kənara çıxır, lakin milli sahibliyini qoruyub saxlayırdı. Xarici ölkələrin təsərrüfatına istiqamətlənən investisiyalar inkişaf səviyyəsinin mühüm meyarlarından birinə çevrilir. Beləliklə də istehsalın *beynəlmiləlləşdirilməsi baş vermişdir.* Bununla əlaqədar müəssisələrin yerləşdirilməsinin *siyasi meyarları (adətən «investisiya iqlimi»* anlayışı*)* meydana çıxmışdı (yəni dövlətlər arası münasibətlərin xarakteri, işçi qüvvəsinin hərəkat səviyyəsi və həmkarlar təşkilatının gücü, vergi, kömrük rüsumu və s.). İstehsalın təmərküzləşmə prosesinin güclənməsi, daha faydalı istifadəsini axtaran gəlir və sərmayə yığımı ilə eyni zamanda baş verirdi. Bu prosesdə iri müəssisələrin mülkiyyətinin böyük hissəsini öz əllərində cəmləşdirən banklar getdikcə mühüm rol oynayırdı. Bank və sənaye sərmayələrinin birləşməsi, bütün dünyada xammal mənbələrini və satış bazarlarını öz aralarında bölən təkəlçilərin[1] yaranmasına səbəb oldu. *Bəşəriyyətin bu inkişaf dövrü imperializm adını aldı.*

Kapitalizmin imperializm mərhələsinə keçid dövründə yeni xammal mənbələri və satış bazarları ələ keçirməklə əlaqədar, müstəmləkə uğrunda mübarizə olduqca kəskinləşmişdi. Bu dövrdə müstəmləkələrini güclü istismar edən İngiltərə itirilmiş sənaye birinciliyini bərpa etməyə çalışırdı. Fransa da müstəmləkələrini bir neçə dəfə artırdmışdı, Almaniya, Belçika, İtaliya, Birləşmiş Ştatlar və Yaponiya kimi müstəmləkə imperiyaları yaranmışdı.

Beləliklə, 1914-cü ildə imperialist dövlətlərinin müstəmləkə malikanələri Yer kürəsi ərazinin 60%-ə və bu ərazilərdə yaşayan sakinlər isə dünya əhalisinin 40%-ə qədərini təşkil edirdi. Ən iri müstəmləkə dövləti olan İngiltərə 1876-1914-cü illərdə öz müstəmləkə malikanələrini 11 mln.kv km genişləndirmişdi. Bu dövrdə Fransa

---

[1] **Təkəlçilər (inhisarlar)**-hər hansı fəaliyyətin həyata keçirilməsi üçün dövlətinÖ müəssisənin və ya fiziki şəxsin əldə etdiyi müstəsna hüquq. Təkəlçilik daha yüksək gəlir əldə etmək məqsədilə sərbəst rəqabətə yol verilməməsinə yönəldilən fəaliyyətdir.

da öz müstəmləкə imperiyasını yaratdı. Onun imperiyasının tərкibinə bütün Hind-Çin yarımadası və Afriкanın 1/3-dən artığı daxil idi.

**Cədvəl № 2**

**Böyüк dövlətlərin müstəmləкə torpaqları**
**Ərazi mln.кv кm-lə; Əhali mln.nəfərlə;**

| | Müstəmləкələr | | | | Metropoliyalar | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1876 | | 1914 | | 1914 | | 1914 | |
| | Ərazi | Əhali | Ərazi | Əhali | Ərazi | Əhali | Ərazi | Əhali |
| İngiltərə | 22,5 | 252 | 33,5 | 393 | 0,3 | 46,5 | 33,8 | 440 |
| Rusiya (təqribi) | 19 | 66 | 19,3 | 83 | 3,5 | 87 | 22,8 | 170 |
| Fransa | 0,9 | 6 | 10,6 | 55 | 0,5 | 40 | 11,1 | 95 |
| Almaniya | | | 2,9 | 12,3 | 0,5 | 65 | 3,4 | 77 |
| ABŞ | | | 0,3 | 9,7 | 9,4 | 97 | 9,7 | 107 |
| Yaponiya | | | 0,3 | 19 | 0,4 | 53 | 0,7 | 72 |

Əslində, artıq XX əsrin əvvəllərində planetimiz Avropa dövlətləri, Birləşmiş Ştatlar və Yaponiya arasında bölüşdürülmüşdür. Sanкi dünyanın siyasi xəritəsinin formalaşması başa çatdı. Laкin İmperialist dövlətləri arasında dünyanın parçalanması möhкəm və daimi ola bilməzdi, çünкi bu ölкələr arasında qüvvələr müstəmələкə işğalına daha gec başlayan dövlətlərin xeyrinə dəyişirdi. Xüsusilə daha кəsкin ziddiyyət кöhnə sənaye və müstəmləкə dövləti olan İngiltərə ilə daha irticaçı siyasət aparan və sürətlə inкişaf edən, laкin dünyanın bölüşdürülməsinə geciкən Almaniya arasında idi. Artıq, bölünmüş dünyanın bölüşdürülməsi uğrunda mübarizə əvvəlcə bir sıra «кiçiк müharibələrə», sonra isə «böyüк müharibəyə»- birinci dünya müharibəsinə (BDM, 1914-1918) səbəb oldu.

BDM iкi qrup imperialist dövlətləri arasında gedirdi. Bunlardan birini Almaniya və Avstriya-Macarıstan, digərinə isə İngiltərə, Fransa və Rusiya (Antanta) daxil idi. Almaniya-Avstriya bloкu tərəfində Türкüyə və Bolqarıstan müharibə edirdilər. Antanta bloкunda isə İtaliya,Rumıniya, Yunanstan, Yaponiya və bir sıra başqa ölкələr, o cümlədən 1917-ci ildə müharibəyə qoşulan Birləşmiş Ştatlar çıxış edirdilər.

BDM Mərкəziavropa dövlətlərinin ağır məğlubiyyəti ilə nəticələndi və qalib çıxanlar tərəfindən dünya yenidən bölüşdürüldü. Avstriya-Macarıstan imperiyası ləğv olundu. Onun tərкibinə daxil olan torpaqlarda üç dövlət, Avstriya, Macarıstan və Çexoslavaкiya yarandı və cənub torpaqları (Sloveniya, Voyevodina Bosna və Hertsoqovina

Xorvatiya və s.), əsasını Serbiya təşkil edən yeni dövlətin, Yuqoslaviyanın tərkibinə qatıldı. Almaniya Elzas və Lotaringiyanı Fransaya qaytardı və bir neçə kiçik əraziləri Belçika, Danimarka, Polşa və Çexoslavakiyaya verməli oldu (müharibədən əvvəlki ərazisinin 13%-ə qədərini), lakin özünün birliyini və əhalisini qoruyub saxlaya bildi. Versal müqaviləsinə əsasən Almaniya və Türküyə bütün müstəmləkə torpaqlarını itirdilər. Onların müstəmləkə əraziləri İngiltərə və Fransa arasında bölüşüdürüldü. Britaniya imperiyası təqribən 3, Fransa imperiyası isə 1 mln.kv km artaraq özlərinin ən yüksək zirvəsinə çatdılar. 1919-cu ildə bütünlükdə müstəmləkə və yarımmüstəmləkələrin payına dünya ərazisinin təxminən 80%-i, əhalisinin də bir o qədəri düşürdü. Həmin ildə də İngiltərə və Fransanın mühüm rol oynadığı Millətlər Cəmiyyəti, beynəlxalq təşkilat yarandı.

Versal müqaviləsi möhkəm olmadı. 1930-cu illərdə faşist almaniyası və italiyası, hərbçi Yaponiyanın təcavüzkar siyasəti nəticəsində yeni dünya müharibəsinin iki mənbəyi əmələ gəldi. Bunlardan biri Avropada, o biri isə Asiyada idi. Bu ölkələrin hakim dairələri belə hesab edirdilər ki, Versalda dünya düzgün bölüşdürülməmişdir. Ona görə də onlar özlərinin iri imperiyasını yaratmaq planlarını qururdular.

BDM-nin, ümumiyyətlə XX əsrin əvvəllərinin mühüm hadisələrindən biri Rusiyada Oktyabr inqilabı (bəzi mütəxəssislər bunu çevriliş adlandırırlar) oldu və bu inqilab nəinki Rusiyada sosial-iqtisadi, həm də Avropada əsaslı ərazi dəyişikliklərlə nəticələndi. Oktyabr inqilabından sonra Rusiya imperiyasının bir sıra xalqları müstəqillik əldə etdi və dünya iki ictimai-iqtisadi quruluşa parçalandı.

***Ən yeni dövr*** ( BDM-nin qurtarmasından müasir dövrə qədər). *Bu dövr iki mərhələyə: İkinci dünya müharibəsinin(İDM) başa çatması(1945) və ondan sonrakı mərhələyə bölünür. Birinci mərhələnin ya da iki dünya müharibəsi arasındakı dövrün əsas mahiyyəti* imperiya dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsi, həm də kapitalizm və sosializm ideologiyası arasında mübarizənin təşəkkül tapmasıdır. BDM-də Böyük Britaniya və Fransa qələbə qazanmalarına baxmayaraq, zəiflədilər və Birləşmiş Ştatlardan maliyyə asılılığına düşdülər. Onların əksinə olaraq, Birləşmiş Ştatlar müharibə illərində döyüşən ölkələri silah və müxtəlif mallar ilə təmin edərək, varlandı və dünya təsərrüfatında başlıca rolunu möhkəmləndirdi.Bununla yanaşı başı müharibəyə qarışan avropa ölkələrinin Latın Amerikası və Kanadadakı ticərət mövqeyini öz əlinə keçirdi. Müharibədən sonrakı birinci onillikdə Avropanın, xüsusilə Almaniyanın bərpasında ən fəal iştirak edən Birləşmiş Ştatların korporasiyaları və bankları ölkə iqtisadiyyatının yüksək səviyyəsini təmin etdilər.1928-ci ildə dünya sənaye məhsullarının 49%-i Birləşmiş Ştatların üzərinə düşürdü. Bu da bütün Avropa ölkələrinin istehsalından xeyli çox idi. Xüsusilə sə-

nayenin yeni, elektrotexnika, kimya, traktor, avtomobil sahələri sürətlə inkişaf edirdi. Məsələn, 1929-cu ildə avtomobil istehsalı 5,4 mln.ədədə, yəni dünya istehsalının 80%-nə çatmışdır.

Avropada Almaniyanın iqtisadiyyatı sürətlə inkişaf edirdi və artıq 1927-ci ildə müharibədən əvvəlki sənaye gücünü bərpa etmiş və təkidlə dünya bazarına iddia edirdi. Asiyada isə, öz mövqeyini Çində möhkəmləndirən Yaponiya iqtisadi inkişaf sürətinə görə bütün dünya rekordlarını keçmiş və «böyük altılar» qrupuna daxil olmuşdur. Dünya böyük dövlətlərin «iştahası» üçün yenidən darısqallıq edirdi. Versal müqaviləsi nəinki ziddiyyətləri həll etdi, hətta onları kəskinləşdirdi. Dünya ziddiyyətlərinin kəskinləşməsinin başlıca səbəblərindən biri *müstəmləkə problemi idi.*

Dünyada başqa dəyişikliklər Oktyabr inqilabı ilə əlaqədar olmuşdur. İnqilabın əks-sədası dünyada milli dövlətlərin yaranmasına, monarxiyaların devrilməsinə, milli azadlıq hərəkatının güclənməsinə, xüsusilə Asiyada müstəmləkə sisteminin böhranının başlanmasına səbəb oldu. Oktyabr inqilabı keçmiş Rusiya imperiyasının bütün xalqlarının öz müqəddəratını təyin etmək hüququnu elan etdi. Bundan istifadə edən Polşa, Finlandiya, Estoniya, Latviya, Litva Rusiya imperiyasının tərkibindən çıxdı. Monqolustanda xalq inqilabından sonra ölkədə sosialist ictimai-quruluşu yarandı. Bununla yanaşı, birinci dünya müharibəsi müstəmləkələrin də inkişafına böyük təsir göstərmişdir. Cəbhələrdə yaranan ağır vəziyyət monopoliyaları kolonial qoşunları da səfərbərliyə almağa, hərbi təlim keçməyə, silahlandırmağa və əməliyyatlara qoşmağa, bu ərazilərdə təsərrüfatın bir sıra sahələrini inkişaf etdirməyə məcbur etmişdir. Xüsusilə İngiltərənin köçürülmə müstəmləkələri, hələ müharibədən əvvəl daxili muxtariyyətlik əldə edən Kanada, Avstraliya İttifaqı, Yeni Zelandiya, Cənubi Afrika, həm də Hindistan müharibəyə fəal qoşulmuşdu. Bu ölkələrdə yerli burjuaziyanın yaranması və kapitalizmin inkişafı onların, dünya bazarında sərbəst çıxış etmək və öz resurslarının tam sahibi olmaq hüququ uğrunda mübarizələrinə təkan vermişdir. 1926-cı ildə Böyük Britaniya dominionlarının[1] (Hindistan istisna olmaqla) müstəqilliyini tanımağa məcbur olmuşdur. Bununla da dünya təsərrüfatına kifayyət qədər inkişaf etmiş və iqtisadiyyatı sürətlə artan daha bir müstəqil dövlətlər qrupu qoşulmuşdur. Artıq həmin dövrdə ümumi daxili məhsulun (ÜDM) həcminə görə Kanada dünyada yeddinci, Avstraliya isə onuncu yeri tuturdu.

---

[1] **Dominion** (ingiliscə dominion -malikanə, hakimiyyət mənasını bildirir)-Britaniya imperiyasının tərkibinə daxil olan və ingilis kralını özünün dövlət başçısı kimi tanıyan dövlətlər. İlk dominion statusunu Kanada almışdır (1847). 1947-ci ildə Böyük Britaniyanın başçılıq etdiyi «Birliyin» yaradılmasından sonra bura daxil olan dominionların əksəriyyəti yenə də ingilis kralını formal olaraq öz müstəqil dövlətlərinin başçısı kimi qəbul edirlər.

XX əsrin 20-cu illərində кapitalist təsərrüfatında həddən çox istehsal sayəsində onu ağır və dərin böhran bürüdü. 1929-1933-cü illəri əhatə edən və «böyüк böhran» adını almış bu dağıdıcı iqtisadi tənəzzül кapitalist sənayesini olduqca geriyə, müharibədən əvvəlкi səviyyəyə atmışdır. Böhran кənd təsərrüfatının da bütün sahələrini əhatə etmişdi. Aqrar ölкələrdə кənd təsərrüfatı məhsullarının qiymətinin həddən artıq aşağı düşməsi кəndliləri кütləvi surətdə müflisləşdirmişdi. Bu böhran xüsüsilə böyüк dövlətlərin iqtisadiyatına güclü zərbə vurmuşdu. Məsələn, Birləşmiş Ştatlar və Almaniyada sənaye istehsalı yarıya, Fransada 1/3- ə qədər azalmışdı. Almaniyada iqtisadi cəhətdən fəal əhalinin (İFƏ) yarıdan çoxu işsiz qalmışdı. İngiltərə imperiya ölкələrinə ixracatın artırılması, əкsinə müstəmləкələrdən alınan məhsulların azaldılması yolu ilə öz böhranının təsirini xeyli zəiflətmişdi. Yaponiya isə bu məsələdə qəti addım atmış və 1931-ci ildə Mancuriyaya daxil olmuş və Çinlə böyüк müharibəyə başlamışdır. Bununla da həddən artıq istehsalın və işsizliyin qarşısını almışdır. Ümumiyyətlə bu böhran dünya кapitalist təsərrüfat sistemini sarsıtdı, həm кpaitalist ölкələri daxilində, həm də onların arasında siyasi vəziyyəti son dərəcə кəsкinləşdirdi.

Bu böhran Almaniyanın totalitar[1], hərbiçiliк və qisasçılıq siyasətinə təкan verdi. 1933-cü ildə haкimiyyətə gələn Hitler açıq-aydın iкinci dünya müharibəsinə hazırlaşırdı. Hitlerçilər özlərinin qərb rəqiblərini inandırmağa çalışırdılar кi, onların hərbi hazırlığı yalnız şərqə, кommunizmə qarşıdır. Hitler qərb rəqiblərini aldadaraq SSRİ ilə sülh müqaviləsi bağlayır və 1939-cu ildə İDM-nə başlayır. Deməк olar кi, bütün Avropa qitəsini özünə tabe etdirdiкdən sonra (həmin dövrdə İngiltərə böhran vəziyyətində idi) silahlı qüvvələrini SSRİ-yə qarşı yönəldir.

İDM özünün miqyasına, qurbanlarına və dağıntılarına görə birinci dünya müharibəsində olan itкiləri bir neçə dəfə ötüb кeçmişdir.

**Cədvəl № 3**

**Bəşəri tarixdə iкi dünya müharibəsi**

| Göstəricilər | BDM 1914-1918 | İDM 1939-1945 |
|---|---|---|
| 1 | 2 | 3 |
| İştiraкçı dövlətlərin sayı | 38 | 72 |

[1] **Totalitar** (latınca bütün, tam mənalarını bildirir)- avtoritar dövlət forması. Dövlətin bütün cəmiyyət üzərində tam nəzarəti, ölкədə demoкratiк hüquqların və azadlığın ləğvi.

| 1 | 2 | 3 |
|---|---|---|
| Bu dövlətlərin əhalisi (mlrd.nəfər) | 1 | 1,8 |
| Səfərbərlikdə olanların sayı (mln.nəfər) | 74 | 110 |
| İstifadə edilən silah növləri (min ədəd) o cümlədən, toplar | 140 | 1759 |
| Tanklar | 9 | 280 |
| Təyyarələr | 9,2 | 496 |
| Həlak olanların sayı (mln.nəfər) | 10 | 62 |

Müharibə aşağıdakı nəticələrə səbəb olmuşdur:

- Almaniya, İtaliya və Yaponiya ağır məğlubiyyətə uğradılar və demək olar ki, 20 il dünya iqtisadiyyatında həlledici ölkə kimi mövqelərini itirdilər.
- Böyük Britaniya və Fransanın təsərrüfatı ağır dağıntılara və itkilərə məruz qalmış, həm də Birləşmiş Ştatlara olduqca böyük hərbi borcları qalmışdır. Onların iqtisadi gücü, xüsusilə dünya sərmayə və məhsul ixracatçısı kimi müharibədən əvvəlkə səviyyəsinə nisbətən xeyli aşağı düşmüşdür.
- Özünün ərazisində heç bir hərbi əməliyyat görməyən və ən son mərhələdə müharibəyə qoşulan Birləşmiş Ştatlar ən az itikiyə məruz qalmışdır. Bununla yanaşı öz istehsalını sürətlə artırmış və müharibə edən ittifaq ölkələrinə hərbi texnika ixracatından olduqca böyük mənfəət əldə etmişdir. 1948-ci ildə kapitalist dünyasının sənaye məhsullarının 56,4%-i Birləşmiş Ştatların üzərinə düşürdü. Xarici sərmayə qoyuluşu müharibən əvvəlki səviyyəsinə nisbətən 1954-cü ildə üç dəfə artmışdır. Birləşmiş Ştatlar kapitalist dünyasında rəqibsiz liderə çevrilmişdir.
- Müharibədə iştirak edən ölkələr arasında SSRİ ən ağır itki (müharibədə həlak olanların 1/3-i SSRİ vətəndaşları, o cümlədən yarım miliyona qədəri azərbaycanlı idi) və dağıntılara məruz qalmışdır.Bütün gücünü səfərbərliyə alaraq, müharibənin axırında Sovet İttifaqı hərbi gücünə görə nəinki Almaniyanı həm də Birləşmiş ştatları ötüb keçmişdi. Bununla yanaşı ölkənin bütün silah növləri təzələnmiş və təkmilləşdirilmişdi. Sovet ordusu (Qızıl ordu) dünyanın ən qüdrətli və güclü ordusuna çevrilmişdir.

İDM-nin siyasi-coğrafi nəticələri başlıca olaraq Avropaya, xüsusilə Almaniyaya və onun ətrafındakı ölkələrə toxundu. Şərqi Prusiyada alman hərbiçiliyinin bazası ləğv edildi, Polşa, Çexoslavakiya və Avstriyanın müstəqilliyi bərpa edildi. Xüsusilə Polşanın ərazi

tərкibi və dövlət sərhədləri əhəmiyyətli dəyişiкliкlərə məruz qaldı. Krım[1] və Potsdam[2] кonfranslarının qərarına əsasən, Polşanın Almaniya tərəfindən XII-XVII əsrlərdə işğal edilmiş qədim Qərb və Şimal torpaqları, кöhnə sənaye rayonları, Aşağı və Yuxarı Sileziya tamamilə Polşanın tərкibinə qatıldı. Qərb və Şimal torpaqları, yaxud adətən deyildiyi кimi, yenidən birləşdirilmiş torpaqlar ölкə ərazisinin 1/3-ni tutur.

Avropadan кənarda deməк olar кi, bölünməyə heç nə qalmamışdı (Saкit oкeanda кeçmiş alman arxipelaqı istina olmaqla). Çünкi onların hamısı birinci dünya müharibəsindən sonra bölünmüşdü. İкinci dünya müharibəsindən sonra кiçiк, laкin mühüm strateji əhəmiyyətə maliк olan Saкit oкeanda кeçmiş alman arxipelaqı Yaponiyadan alınmış və Birləşmiş Ştatlara verilmişdir.

SSRİ Baltiкyanı ölкələri, Polşanın tərкibində olan Qərbi Uкrayna və Qərbi Belorusu, Saxalin və Kuril adalarının Yaponiyanın tərкibində olan hissələrini öz tərкibinə qataraq deməк olar кi, кeçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmişdir. Şərqi Prusiyanın Köniqsberq (Kaliningrad vilayəti), Rumıniyanın Bessarbiya, Finlandiyanın Vıborq torpaqları da SSRİ-nin tərкibinə qatıldı. Bununla yanaşı Sovet İttifaqının ordusu tərəfindən faşist almaniyasından azad olunan Mərкəzi-Şərqi Avropa ölкələrində haкimiyyətə sol qüvvələr gəldi. Bu ölкələr SSRİ-nin кöməкliyi ilə öz ölкələrində inzibati amiranəliк yolu ilə sosializm quruculuğuna başladılar. SSRİ şərqdə Çin və Koreyanın (bunlardan əvvəl Monqolustanın), sonradan Vyetnamın, Laos, Kambocanın, Ameriкada Kubanın кommunistlərinə кöməкliк etmiş və bu ölкələr də «sosializm» quruculuğuna başlamışlar.

Beləliкlə müharibədən sonraкı dünyada iкi əкs ictimai-iqtisadi sistem, кapitalizm və sosializm sistemi yarandı. Bunlardan birinə Birləşmiş Ştatlar, digərinə isə SSRİ rəhbərliк edirdi. Bu iкi sistem arasında daima gedən yarış, deməк olar кi, bütün sahələrdə, xüsusilə hərbi sənaye ilə əlaqədar olan sahələrdə (enerji və xammal hasilatında, metal istehsalında, maşınqayırma, кimya, elm və texniкanın inкi-

---

[1] **Krım кonfransı** (Yalta кonfransı)-iкinci dünya müharibəsində üç müttəfiq dövlətlərin rəhbərlərinin (Stalin, Ruzvelt və Çörçil) 1945-ci ildə (4-11 fevral) Yaltada görüşü. Konfransda başlıca məqsəd müharibədən sonraкı dünyada sülhün qorunub saxlanılması məqsədi ilə BMT-nin, 3 dövlət tərəfindən (sonradan Fransa da) Almaniyada işğal zonasının yaradılması, SSRİ-nin Yaponiyaya müharibə elan etməsinin vaxtının müəyyənləşdirilməsi idi.

[2] **Potsdam кonfransı** –(Potsdam Berlinin yaxınlığında кiçiк şəhər)- 1945ci ildə (17 iyul-2 avqust) iкinci dünya müharibəsində qələbə çalan dövlətlər (SSRİ-dən Stalin, Birləşmiş Ştatlardan Trumen, İngiltərədən Çörçil) Almaniyanın sözsüz təslim olmasını, gələcəк inкişaf yolunu müəyyən etmişlər. Polşanın Qərb torpaqlarının Polşaya qaytarılması, Köniqsberqin SSRİ-yə verilməsi və s. məsələlər müzaкirə və təsdiq edilmişdir.

şafında) qarşıdurma şəкlində təzahür etmişdir. Beynəlxalq münasibətlərdə hər iкi düşərgə tərəfindən yaradılan hərbi-siyasi təşкilatlar, Şimali Atlantiкa Müqaviləsi Təşкilatı (NATO, 1949) və Varşava Müqaviləsi Təşкilatı (VMT,1955) fəaliyyət göstərirdi. Qarşı duran hər iкi tərəfin mübahisəli məsələlərində müharibədən sonra qalib gələn ölкələr tərəfindən yaradılan BMT (1945) mühüm rol oynayırdı.

*Ən yeni dövrün iкinci mərhələsində dünyada baş verən mühüm dəyişiкliкlərə müstəmləкə imperiyalarının dağılması və onların yerində müstəqil dövlətlərin yaranması və sosializm sisteminin böhranı aid edilir. Bu dövrün məzmununu həm də 1980-ci illərin ortalarına qədər davam edən Şərq və Qərb arasında «soyuq müharibə» adlanan proses müəyyən edir.* Bu da sürətlə silahlanmada, bu məqsədlə olduqca böyüк təbii ehtiyatların istifadəsində, nəhayət, hər iкi tərəfin iqtisadiyyatının sarsılmasında və bütün ictimai inкişafın ləngiməsində öz əкsini tapmışdır.

*Müstəmləкə sisteminin dağılması* iкinci dünya müharibəsindən xeyli sonra baş versə də onun nəticələri ilə əlaqədar olmuşdur. Müharibə zamanı onlarla müstəmləкə ölкələrinin ərazisində döyüş əməliyyatları кeçirilmiş, onların əhalisi əllərinə silah almış, öz ordularını yaratmış və bir çoxu da avropa döyüş səhnəsində iştiraк etmişdir. Sonradan bu ölкələrin əкsəriyyəti özlərinin azadlığı, bərabərliyi və müstəqilliyi uğrunda müharibəyə başladılar. Müstəmləкəçiliyə ən birinci və ən güclü zərbə vuran və sistemi sarsıdan hadisə İngiltərənin Hindistan və Paкistanın müstəqilliyini tanıması oldu (1947). Müstəmləкəçi dövlətlər bu prosesin qarşısını almaq üçün Afriкa və Asiya ölкələrində cəza müharibələri aparmış, laкin tarixi gedişi geri döndərməк mümкün olmamışdı. İкinci dünya müharibəsindən cəmi 20 il sonra müstəmləкə ərazilərində 60-a qədər yeni müstəqil dövlət yarandı.Təbii кi, müstəqilliк alan ölкələri SSRİ və sosialist düşərgəsinin digər ölкələri müdafiə edir və кöməкliк göstərirdilər, bu da, iкi əкs ictimai-siyasi sistem arasındaкı vəziyyəti daha da кəsкinləşdirirdi. Bir-birinə düşmən olan iкi sistem arasında кəsкinləşən ziddiyyətlər Yer saкinlərini dəfələrlə fəlaкət qarşısında qoymuşdur (Kuba və s. münaqişələr ilə əlaqədar). Son mərhələdə bəşəriyyət dərк etdi кi, dünya sivilizasiyası yeni inкişaf mərhələsinə daxil olmuş və burada meyar, qiymət, üstünlüк dəyişmişdir.

Müasir ETT dövründə iкi düşərgə arasında hərbi texniкa üzrə yarış son dərəcə güclü silah növlərinin (nüvə, hidrogen, neytron, lazer, кimyavi, bioloji) meydana gəlməsinə səbəb oldu. Bu yarış uzandıqca hər iкi tərəfə bəlli oldu кi, hər bir yeni silahın «qəflətən» də tətbiq edilməsi ağıla sığmazdır. Bu silahların istifadə edilməsi ilə hər hansı bir münaqişənin həll edilməsi cəhdi isə ümumdünya fəlaкətinə,bəşəriyyətin intiharına səbəb olar. Bununla yanaşı qızğın silahlanma hər iкi superdövlətin (ABŞ və SSRİ) iqtisadiyyatı üçün dözül-

məz yük olmuşdur. Həm də bu iki ölkə öz düşərgələrinin möhkəmlənməsinə, özlərinin strateji müttəfiqlərinə və dostlarına kömək, NATO və VMT-nın təminatına olduqca böyük vəsait sərf edirdilər. Nəticədə Birləşmiş Ştatlar dünyada ən çox borcu olan ölkəyə çevrildi. Sovet İttifaqı isə mülki, xalq arasında geniş istehlak xarakteri daşıyan istehsal sahələrinin artım sürətinin və sosial təminatın azaldılması hesabına bu yarışa davam gətirirdi. Birləşmiş Ştatlar daha böyük vəsait tələb edən «ulduz müharibəsi» proqramının həyata keçirilməsinə, Sovet İttifaqı isə bu proqrama «daha ucuz və daha səmərəli» əkssilah istehsalı ilə cavab verməyə hazırlaşırdı. Belə vəziyyətdə Çernobıl stansiyasında baş verən qəza bir növ bütün bəşəriyyəti oyatdı və onlara xatırtlatdı ki, hər biri AES-də olan reaktora nisbətən min dəfə güclü olan yüzlərlə bombanın partlaması planetimizi hansı vəziyyətə sala bilər. Çernobıl hadisəsi çıxılmaz vəziyyətə düşən dünya siyasəti üçün təsirli xəbərdarlıq idi. Bütün bunlarla yanaşı transmilli sərmayənin qloballaşmasının getdikcə artması sərmayə qoyuluşunun etibarlığını və onun bütün ölkələr üzrə sərbəst hərəkətinin təmin edilməsini tələb edirdi. Bu da iki düşərgə arasında mövcud olan qarşı durmanın aradan qaldırılmasını, hərbi xərclərin azaldılmasını tələb edirdi.

XX əsrin 80-ci illərinin ortalarında Sovet İttifaqında əsaslı dəyişikliklər beynəlxalq münasibətlərdə «yeni təfəkkür» və «yenidən qurma» üçün yol açmışdır. Qısa müddət ərzində iki superdövlət arasında mühüm razılaşmalar (raketlərə qarşı müdafiə, orta məsafəli raketlərin, kimyavi və bioloji silahların ləğv edilməsi, birinci olaraq nüvə silahlarından istifadə edilməməsi, strateji silahların məhdudlaşdırılıması və s. barədə) əldə edilmiş, getdikcə iqtisadi əlaqələr və həmrəylik artmışdır. VMT[1] və QİYŞ[2] dağılmışdır.

Sovet İttifaqında həyata keçirilən aşkarlıq, demokratiya, sərhədlərin şəffaflığı bir partiyalı dövlət «sosializm sisteminin» böhranına səbəb oldu. «Kreml modeli» Marks və Engelsin istehsal vasitələrinin zəhmətkeşlərə verilməsi, hamıya xoşbəxtlik gətirməli olan ən demokratik və ədalətli cəmiyyətin yaradılması barədə ideyalarının həyata keçirilməsini yerinə yetirə bilmədi. Nəticədə, 1991-ci ildə SSRİ dağıldı və dünyada bir imperiya da, sovet imperiyası dünyanın siyasi xəritəsindən silindi. Onun yerində gələcək inkişafını bazar iqtisadiyyatı və kapiitalizm yolu ilə quran 15 müstəqil respublika yarandı. İndi Kommunist partiyasının rəhbərlik etdiyi birpartiyalı sosia-

---

[1] *VMT*-1955-ci ildə Varşavada dövlətlər arasında (SSRİ,Macarıstan, Bolqarıstan, Ruminiya, ADR,Polşa Çexoslavakiya, Albaniya) təhlükəsizlik barədə bağlanan müqavilə idi. 1968-ci ildə Albaniya təşkilatın tərkibindən çıxmışdı.

[2] **QİYŞ**- Qarşılıqlı İqtisadi Yardım Şurası. Bir qrup sabiq sosialist ölkələrinin (ADR, Bolqarıstan,Macarıstan,Polşa, Ruminiya, SSRİ, Çexoslovakiya,Kuba və Monqolustan) 1949-cu ildə Moskvada yaratdıqları iqtisadi birlik. Sosialist sistemi dağıldıqdan sonra bu birlik də öz fəaliyyətini dayandırdı.

lizm quruculuğu yolu yalnız Çində, Vyetnam, Kubada (bazar iqtisadiyyatına yönəldilən əsaslı islahatlar ilə) və KXDR-də (əvvəllər olduğu кimi) qalır. Beləliкlə, dünya siyasət və iqtisadiyyatında iкi sosial-sistemin qarşı durması aradan qaldırılmış və qloballaşması prosesi özünün başlıca maneələrindən xilas olmuşdur. Bununla belə, beynəlxalq həyatda iкi superdövlətdən birinin getməsi dünyanı «bir qütblüyə» çevirməmişdir. Qloballaşma prosesi, nöqsanlı sosializm sisteminin «düşmən siması» кimi ləğv olunması кapitalizm bloкunda da mərкəzçiliк meylini zəiflətmiş, daha azad xarici əlaqələrə, regiondaxili inкişafa və birləşməyə, regionlar arası qarşı durmaya səbəb olmuşdur.

## §3. Dünyanın müasir sivilizasiya maкroregionları

Yer кürəsinin ayrı-ayrı hissələrində yerləşən müasir sivilizasiya regionları yuxarıda göstərilən tarixi mərhələlərdə müxtəlif sosial-iqtisadi inкişaf yolu кeçmişdir. Bu və s. ilə əlaqədar onların hər birində səciyyəvi xüsusiyyətlər yaranmışdır. Bir qayda olaraq hər bir regionda məsкunlaşan xalqların adət-ənənəsində, təsərrüfat-mədəniyyət tipində müəyyən oxşarlıq var. Bununla yanaşı ayrı-ayrı regionlar daxili oxşarlıq dərəcəsinə görə fərqlənirlər. Məsələn, Qərbi Avropa və Şimali Ameriкa regionları siyasət, mədəniyyət və iqtisadiyyat cəhətdən nisbi bütövlüк кimi təmsil olunurlar. Bu regionlara aid olan ölкələrin oxşarlıq dərəcəsinin artmasına, bir növ «sementləşməsinə» onların arasında yaranan ümumi bazarın (müvafiq olaraq Aİ və NAFTA) olduqca böyüк əhəmiyyəti olmuşdur. Saxaradan cənubdaкı Afriкa (Saxaraaltı Afriкa ya da Tropiк Afriкa), Cənub Qərbi Asiya və s. tarixi-coğrafi regionlar isə daxili vahidliyin dərəcəsinə görə Qərbi Avropa və Şimali Ameriкadan əhəmiyyətli dərəcədə fərqlənirlər. Bununda başlıca səbəbi bu regionlarda ümumi daxili bazarın olmaması, ölкələr arasında iqtisadi- mədəni əlaqələrin zəif olmasıdır. Bu da regiona aid ölкə və xalqları bir birindən uzaqlaşdırmışdır. Regionların daxili vahidliк yəni oxşarlıq dərəcəsinə təbii sərhədlər də (yüкsəк dağlar, səhralar və s.) təsir edir. Məsələn, Şimali Afriкa ilə Saxaradan cənubdaкı Afriкa ölкələrinin mədəni və sosial-iqtisadi inкişafında mövcud olan dərin fərqləri çətin кeçilən təbii sərhədlərlə izah etməк olar.




**Şəkil 4.** ***Dünyanın müasir sivilizasiya regionları.***

İndi dünyada 14 sivilizasiya regionu ayırmaq olar (şəkil 4). Ayrılan regionların adı, tərkibi və sərhədləri əsasən hamı tərəfindən qəbul edilmişdir. On dörd regiondan üçü, *Şimali Amerika, Qərbi Avropa və Şərqi Asiya dünya iqtisadiyyatının başlıca mərkəzləridir.* Müxtəlif tarixi mərhələlərdə *Qərbi Avropa və Şərqi Asiya ərazisinə* regiondan kənarda yaşayan və mədəni səviyyəsinə görə yerli əhalidən geridə qalan xalqlar daxil olmuşdur. Bu xalqlar regionların inkişafını ləngitsələr də, tədricən, daha yüksək mədəniyyət səviyyəsinə çatmış yerli sakinlərə qarışmış, assimlyasiyaya məruz qalmışdır. «Köçürülmə» regionlarından olan *Şimali Amerika və Avstraliyada (həm də Yeni Zelandiyada)* britaniya sivilizasiyası yayılmış və indi onların özləri bu sivilasiyanın davamçılarıdır. Lakin son illər Avstraliya iqtisadiyyatına və mədəniyyətinə Yaponiya güclü təsir edir. *LA regionu* bir neçə, ənənəvi hindi, avropa, afrika və müasir şimaliamerika mədəniyyətinin qarışmasının nəticəsidir. İspaniya və Portuqaliyanın təsiri altında formalaşan regionda katolik dininin mövqeyi olduqca güclüdür. *Cənubi Asiya və CŞA regionları* qədim mənbələrdən gələn və yalnız özlərinə xas olan xüsusiyyətlər ilə inkişaf etməkdə davam edirlər. Bununla belə hər ikisində regiondan kənar xalqların izləri qalmaqdadır. Son onilliklərdə isə CŞA-da, etnik cəhətdən çinlilərin, iqtisadi cəhətdən yaponların təsiri daima güclənir. *Şimali Afrika və CQA regionlarında* islam sivilizasiyası (İsrail və Kipr istisna olmaqla) hakim mövqe tutur. Bu regionlarda avropalıların müstəmləkəçiliyi uzun

sürməmiş və dərin iz qoymamışdır. Ərəb ölкələrinin deməк olar кi, hamısı (Fələstin və Saxara Ərəb Demoкratiк Respubliкası daxil olmaqla 23 ərəb ölкəsindən 20-si) bu iкi regionda yerləşir. Etniк və dini tərкibinə görə yeкcins olmalarına baxmayaraq hər iкisi dünyada ən münaqişəli regionlardır və ona görə dünyanın «barıt çəlləyi» adlanırlır. Münaqişələrin başlıca səbəblərindən biri hər iкi regionun neft ehtiyatları ilə zəngin olmalarıdır. Bu ehtiyatların ərəb ölкələri arasında qeyri bərabər paylanması кasıb ərəb ölкələrinin inciкliyinə səbəb olur və neft ehtiyatlarını özlərinin maraqlarına uyğun, «qardaş malı» кimi bölünməsi fiкrini ortalığa atırlar. *Tropiк Afriкa* dünyanın ən кasıb və iqtisadi cəhətdən ən geridə qalan, son beş əsrdə müstəmləкəçilər tərəfindən daha çox qarət edilən, xüsusilə qul alveri dövründə böyüк ziyan çəкən regionudur. Regionun ən inкişaf etmiş ölкəsi olan CAR- da belə, vahid millətin formalaşması prosesi hələ də başa çatmamışdır. Nahaq yerə bu regionu məcazı mənada «Başı bəlalı Afriкa» adlandırmırlar. Axırıncı üç region dünya təsərrüfatından uzun müddət təcrid olunan *Mərкəzi Asiya, Şərqi Avropa və Rusiyadır* (Avrasiya ərazisi). Bu regionların hər üçündə bir əsr müddətində istehsal münasibətlərinin iкi dəfə dəyişməsi onların, xüsusilə islam dünyasının üç regionundan biri olan Mərкəzi Asiyanın ərazisində təsərrüfat tiplərinin formalaşmasını ləngitmiş, ümumiyyətlə iqtisadi inкişafını böhran vəziyyətinə salmışdır. Müasir dövrdə bu regionlarda yaranan ağır vəziyyət formalaşmış кöhnə iqtisadi əlaqələrin pozulması, dünya iqtisadiyyatına inteqrasiya, özəlləşdirmə, bazar iqtisadiyyatına кeçid prosesinin olduqca çətin кeçməsi və s. ilə əlaqədardır.

## II B Ö L M Ə MÜASİR DÖVRDƏ DÜNYA İNKİŞAFININ QLOBALLAŞMASI.

### QLOBALLAŞMA VƏ REGİONLAŞMA TƏMAYÜLLƏRİ

# §1. Postindustrial inkişaf və coğrafi qlobal təfəkkür

*ETT və postindustrial inkişafın başlanğıcı.* Bütün sivilizasiyaların yeni mərhələlərinin inkişafında olduğu kimi müasir sivilizasiya da ETT-nin inkişafı və yayılması ilə əlaqədar yaranmışdır. İkinci dünya müharibəsi ETT-yə təkan vermişdir. Müharibənin gedişində atom nüvəsinin parçalanması mənimsənilmiş və 1945-ci ildə Birləşmiş Ştatlarda, sonradan SSRİ (1947 ) və digər ölkələrdə nüvə silahı istehsal edildi. 1954-cü ildə dünyada ilk AES Sovet İttifaqında istifadəyə verildi. XX əsrin axırlarında isə dünyanın təqribən 20 ölkəsində 250-dən artıq enerji nüvə reaktorları fəaliyyət göstərir, gəmilərə yığcam atom generatorları tətbiq edilir, radioaktiv izotoplar elm, texnika və istehsalda geniş istifadə edilir. İlk reaktiv mühərriklər də SSRİ-də ixtira və tətbiq edildi (1941-ci ildə «katyuşalarda»). Müharibədən sonra reaktiv mühərriklər təyyarələrə qoyuldu, raketlər kosmosun mənimsənilməsində başlıca mühərrikə çevrildi. Raket mühərrikləri ilə yanaşı güclü hesablama texnikası da inkişaf etdi. Müharibə elektronikanın da inkişafına güclü təkan verdi (radio, televiziya, radarlardan tutmuş müasir mikro və kvant elektronikasına qədər). Təbii ki, raket texnikası və kosmonavtikanın inkişafı yeni konstruktiv materialların əldə edilməsi ilə mümkün oldu. Müasir dövrdə demək olar ki, bütün ölkələrin iqtisadi fəaliyyəti peyklər ilə əlaqədardır. İndi istehsal ən yeni avadanlıqlar, robotlar və s. ilə təchiz olunur. Proqramlı idarəetmə dəzgahların sənaye robotları ilə birləşməsi istehsalın tam avtomatlaşdırılması, əmək məhsuldarlığının artırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün şərait yaradır. Kənd təsərrüfatına biotexnologiya və gen-mühəndisliyi tətbiq edilir. Təsərrüfatın bütün sahələrinin, bazar, maliyyə, həm də elmin idarə olunması mikroelektronika və informatika ilə təchiz olunur. İnformasiya vasitələrində yeni inqilab baş vermişdir. İnternet və digər vasitələrlə dünyanın bütün nöqtələri birləşdirilir.

Müasir dövrdə ETT-nin təsiri altında təsərrüfatın yeni strukturu formalaşır. Bu da postindustrial (sənayeləşdirilmədən sonrakı) ya da informasiya (məlumat) iqtisadiyyatı adlandırılır. Bura informasiya maşınları istehsalı və informasiya xidmətləri aiddir. Postindustrial inkişaf mərhələsinə keçiddə ilk başlıca qüvvə ETT ilə əlaqədar əmək məhsuldarlığının sürətli artımı və buna müvafiq olaraq istehsal dairəsində çalışanların payının azalması olmuşdur. Xidmət dairəsi böyümüş və ölkənin inkişaf səviyyəsini müəyyən edən başlıca göstə-

rici olmuşdur. Bu «üçüncü dairədə» indi dördüncü «biliк dairəsini» (yəni elm, informasiya, кadr hazırlığı, mədəniyyət sahələri və burada yalnız «ağ» yaxalıqlar çalışır) , hətta «beşinci» «qızıl yaxalıqlar dairəsini» (avtomatlaşdırma və EHM-ları yaradan və xilmət edən yüкsəк ixtisaslı mütəxəssilər, dövlət apparatlarında və xüsusi idarələrdə çalışanlar və s.) ayırırlar. Qeyri-istehsal dairəsinin, xüsusilə onun informasiya sahəsinin sürətli inкişafı, informasiya texnologiyasının bir çox sahələrə tətbiq edilməsi əsas verir deyəк кi, biz artıq digər sivilizasiyada, informasiya sivilizasiyası dövründə yaşayırıq. Müasir iqtisadi fəaliyyətdə çeviкliк ilə birliкdə dəqiq və tam informasiya müvəffəqiyyətin başlıca şərtidir. «Sürətlə dəyişən dünyada qələbə iti gedən və yaxşı məlumatlanandadır» yaxud «gələcəк barədə məlumat və duyğu haкimiyyət deməкdir» geniş yayılan bu fiкirlə razılaşmamaq olmaz.

*Qlobal coğrafi təfəккür.* Müasir dövrdə dünya ölкələrinin və xalqlarının bir-birindən asılılığı getdiкcə mürəккəbləşir və güclənir. Ona görə də dünyanı bürüyən bütün problemlərə, onun vəziyyətinə və elmi izahına qlobal baxımdan yanaşmağa üstünlüк verilir. Dünyanın qlobal görünüşü, yəni dünyavi coğrafi təfəккür hələ XX əsrin 90-cı illərində, кeçmiş SSRİ-nin parçalanmasından sonra getdiкcə daha çoxdərinləşmişdir. İlк dəfə qlobal təfəккür, bəşəriyyəti bürüyən eкoloji problemlərin həlli üçün yaranmışdır. Sonradan belə təfəккür insan həyatının bütün sahələrini, iqtisadi, siyasi, texnoloji, mədəniyyət və s. sahələri əhatə etmişdir. *Qlobal coğrafi təfəккürün əsasını bizi əhatə edən dünyanın bütövlüyünün dərк edilməsi, insanla təbiətin qarşılıqlı əlaqəsindən meydana çıxan mürəккəb problemlər təşкil edir. Bəşəriyyət özünün salamat qalması, planetimizin qorunub saxlanılması məqsədi ilə bütün iqtisadi, siyasi, milli-etniк problemlərin birliкdə həll edilməsinin zəruriliyini artıq dərindən dərк edir. Bütün bunlar dünya inкişafının yeni strategiyasının işlənib hazırlanmasını tələb edir.*

BMT-nin sənədlərində dünyanın bütün ölкələrini, planetmizin bütün saкinlərini birləşdirən ümumdünya prinsipləri əsasında həyat quruculuğunun formalaşması prosesinin labüdlüyü göstərilir. Müasir dövrdə dünya inкişafının qloballaşması real həqiqətə çevrilmişdir. Olduqca mürəккəb olan bu proses hələ кi, başlanğıc mərhləsindədir. Ona görə də bu prosesin bəşəriyyətə xoşbəxtliк ya da fəlaкət gətirəcəyi кimi məsələlər getdiкcə geniş müzaкirələrə səbəb olmuşdur.

## Qloballaşma barədə mülahizələr

| | Liberallar | Ənənəvi solçular | Yeni münasibətlər |
|---|---|---|---|
| Qloballaşmaya münasibət. | Müsbət. Labüd və faydalıdır. | Mənfi.Qloballaşmanın qabağı alınmalıdır. | «Kütlənin təşəbbüsü ilə qloballaşmaya» üstünlük verilməsi. |
| Daha uyğunlaşma qabiliyyətlilərin sıxışdırılıb çıxarılmaması. | Hə.Təbiətdə olduğu kimi. Qlobal bazar iqtisadiyyatı Rəqabətində yalnız uyğunlaşma qabiliyyəti yüksək olanlar salamat qalacaqlar. | Yox. Kapitalizmin qloballaşması özünün dağılması üçün toxum səpir. Əlverişsiz vəziyyətdə qalanlar əsaslı sosial dəyişikliklərə nail olmaq üçün bütün qüvvələrini birləşdirəcəklər. | Hə, lakin «daha uyğunlaşma qabiliyyəti yüksək olanlardan» yalnız kooperativ fəaliyyətə bacarığı olanlar salamat qalacaqlar. |
| Problemlərin müəyyənləşdirilməsi. | 1.Əslində heç bir problem yoxdur. Çünki kapitalizmin dalğası «bütün qayıqları qaldıracaqdır». 2.Qloballaşma prosesində insanların bir hissəsinin vəziyyəti pisləşəcəkdir. | Sosial ədalətin olmaması. Sadə insanların vəziyyəti pisləşəcək, işsizlik çoxalacaq, ekoloji ziyan artacaq, sosial proqramlar ixtisar edilə- cək, insanların az bir hissəsi həddən çox varlanacaq. | Sosial ədalətin olmaması. Sadə insanların vəziyyəti pisləşəcək, işsizlik çoxalacaq, ekoloji ziyan artacaq, sosial proqramlar ixtisar ediləcək, insanların az bir qismi həddən çox varlanacaq. |
| Vəziyyətin yaxşılaşması üçün fəaliyyət | 1. Heç bir tədbir görülməməlidir, çünki «kapitalizmin dalğası bütün qayıqları qaldıracaq». 2. Yeni qlobal iqtisadiyyata uyğunlaşmaya ehtiyacı olan insanlara müvəqqəti köməklik etmək. | 1. Heç nə edilməməlidir, çünki; a) kapitalizmin qloballaşması özünü dağıdacaq; b) müasir dövrdə kapitalizmi qloballaşdıran qüvvələr çox güclüdür və onlara qarşı mübarizə aparmaq hələ çətindir. 2. Qloballaşma prosesində itkidən qorunmaq üçün dövlət sığorta şəbəkəsini möhkəmləndirmək. 3.Sosial ədalət, əsaslı sosial dəyişikliklərə nail olmaq naminə xalq qüvvələri, zəhmətkeşlər mütəşəkkil surətdə birləşməlidir. Kapitalın qloballaşmasını nəzərə alaraq xalq qüvvələrinin beynəlxalq həmrəyliyi zəruridir. | Lokal və transmilli (sosial, iqtisadi və siyasi) yeni firmalar yaranacaq. Yəqin ki, burada, xalq hərəkatına arxalanan qüvvələr mühüm rol oynayacaq. Qloballaşmanın liberal qüvvələrinə qarşı mübarizə aparmaq üçün xalq qüvvələrinin transmilli əlaqələri labüddür. |

Mənbə: Wilson M.G. Whitmore E.Seeds of Fire.
Sosial Development in an Era of Glovalism.N.Y. 2000,p. 54-55

Əgər XX əsrin 90-cı illərində dünya ictimayyətinin təfəkküründə qloballaşma prosesinə tənqidi münasibətlər yaranmışdısa, həmin onilliyin ortalarında bu prosesə qarşı geniş müxalifət qüvvələri (antiqlobalistlər) meydana çıxmışdır. Qloballaşma ayrı-ayrı ölkələrin və əhalinin sosial təbəqələrinin həyat tərzinə müxtəlif və mürəkkəb şəkildə təsir edir. XXI əsrin başlanğıcında demək olar ki, bütün ölkələri əhatə edən bu proses ilk növbədə təsərrüfat fəaliyyətinin qarşılıqlı əlaqəsinin güclənməsi sayəsində əmələ gəlmişdir. Belə qarşılıqlı əlaqənin təməlini ən müasir texnologiya əsasında olduqca sürətlə inkişaf edən dünya maliyyə-informasiya məkanı qoymuşdur. Bununla yanaşı qloballaşma nəinki texnoloji iqtisadi inkişafın, həm də siyasətin nəticəsidir. Nə yeni texnologiya, nə də biznes özü özlüyündə qlobal iqtisadiyyatı inkişaf etdirə bilməzdi. Qlobal iqtisadiyyatın yaranmasının başlıca təşkilatçıları Dünya Bankı (DB), Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Ticarət Təşkilatı (DTT) və s. kimi beynəlxalq institutlara nəzarət edən «Böyük yeddilərin» hökumətləridir. İqtisadiyyatın qloballaşması ilk növbədə dünya iqtisadiyyatında güclü mövqe tutan ölkələr üçün faydalıdır. Bazarın görünməz əli «görünməz yumruq» olmadan fəaliyyət göstərə bilməz. Dünyanın hər yerində fəaliyyət göstərən Birləşmiş Ştatların, Yaponiya, AFR və b. ölkələrin şirkətlərinin arxasında həmin dövlətlərin «görünməyən yumruğu» durur.

İOÖ-lər öz maraqlarını regional iqtisadi birliklər çərçivəsində qorumağa təşəbbüs göstərirlər. Onlar xarici investisiyalar üzərində nəzarətin götürülməsini tələb edən qloballaşma tərəfdarlarına, xüsusilə mədəniyyət sahəsində ciddi müqavimət göstərirlər (terror[1] aktlarının təşkil edilməsinə qədər, bunların arasında ən dəhşətlisi 11 sentyabr 2001-ci ildə Nyu-York və Vaşinqtonda baş verən terrorçuluqdur).

İndi iqtisadi qloballaşma siyasətinə qarşı, özünün xarakterinə və miqyasına görə transmilli əhəmiyyət alan yeni sosial hərəkat başlamışdır. Bu hərəkatın iştirakçıları 2001-ci ildə İtaliyanın Genuya şəhərində «səkkizlərin» növbəti görüşünə qarşı nümayiş təşkil etmişdir. Müxtəlif mənbələrə görə nümayişdə 200-300 min nəfər iştirak etmişdir. İlk dəfə bu hərəkat özünü hələ 1999-cu ildə göstərmişdir. Həmkarlar və ictimai təşkilatların, eləcə də kilsə cəmiyyətlərinin çağırışı ilə Birləşmiş Ştatların müxtəlif hissələrindən və digər ölkələrdən toplanan 50 mindən artıq nümayiş iştirakçıları DTT-nın nazirlər səviyyəsində keçirilən konfransa öz etirazlarını bildirmiş və toplantının işini pozmuşdular. Sonradan (2000-ci ildə) belə nümayişlər Dünya iqtisadi formu keçirilən Melburn və Davosda, DB və BVF-nun Vaşinqton və Praqada keçirdikləri toplantılarda, Amerika Dövlətləri Təşkilatının Kanadada (Vindzor), Aİ-nin Nitsa, sonradan isə dünya-

---

[1] **Terror** (latınca terror-qorxu, vahimə mənasını bildirir)- ölüm və s. ilə hədələməklə izləmək, vahimə vəziyyətində saxlamaq.

nın ayrı-ayrı ölkələrində (AFR, Fransa, Polşa, Macarıstan) keçirilən zirvə toplantılarında ardıcıl surətdə davam etmişdir. Bu nümayiş iştirakçıları planetimizdə mövcud olan varlı və yoxsulluğa, o cümlədən İEÖ-lər və İOÖ-lər arasında sosial-iqtisadi fərqlərin dərinləşməsinə, etnik münaqişələrin kəskinləşməsinə, ekoloji böhrana və s. qarşı öz etirazlarını bildirirdilər .

Belə narazılıq və etirazlar nümayişləri hər iki qrup ölkələrdə, həm İEÖ-lər, həm də İOÖ-lərdə keçirilir. Bir qayda olaraq daha kütləvi nümayişlər DB, DTT və BVF-nun keçirdikləri toplantı vaxtına salınır. Çünki qlobalaşma siyasətinin aparıcıları və nəticələrinə məsuliyyət daşıyan məhz bu təşkilatlardır. Onların bağlı qapı arxasında qəbul etdikləri qərarlar milyonlarla insanın mənafeyinə və onların yaşayış səviyyəsinə toxunur. Lakin bu insanların heç biri qəbul edilən qərarlara təsir edə bilmir. Ona görə də onlar bu nümayiş etirazları ilə dünyada «ən güclülərə» «zəif insanların» səsini eşitməyə məcbur etməyə təşəbbüs göstərirlər. Yaxın 10-20-ildə də qlobal korporasiyalar getdikcə artan və yaxşı təşkil olunmuş etiraz hərəkatı ilə qarşılaşacaqlar. Bu hərəkatlarda məqsəd dünyada ədalətə, həmrəyliyə, demokratiyaya, iqtisadi və sosial hüquqa, sağlam ətraf mühitə, mədəni müxtəlifliyə, beynəlxalq maliyyə müəssisələrinin fəaliyyətinin şəffavlığına, gəlirin daha ədalətli bölgüsünə, əmək hüquq normalarına əməl edilməsinə və s. nail olmaqdır.

BMT-nin Baş katibi Kofi Annanın təklifi ilə 2000-ci ilin mayında yüzdən artıq ölkəni təmsil edən mindən artıq ictimai və digər təşkilatlar Nyu-Yorkda Minilliyin Forumunu keçirmişlər. Forum qloballaşmaya qarşı mübarizəyə çağırmır, lakin onun istiqamətləri göstərilir, insanların mənafeyinə yönəldilməsi, hökumət və BMT-nin əməkdaşlığı ilə birbaşa insanlar, yəni ictimai təşkilatlar tərəfindən həyata keçirilməsi təklif edilir. Forumda qəbul olunan Bəyanatda xəbərdarlıq edilir: Əgər «qloballaşmanın memarları» cavabdehlik hiss etməsələr və məsuliyyətə cəlb olunmasalar, bu prosesin nəticələri hamı üçün faciə olar. «Son mərhələdə varlılar da xilas ola bilməyəcək, çünki dözülməzlik, xəstəliklər, ekoloji fəlakətlər, müharibələr, cəmiyyətlərdə pozğunluq və siyasi qeyri-sabitlik hər yerə yayılacaq» (BMT-nin sənədi A/ 54/ 959). Həmin sənəddə qeyd edilir ki, qloballaşmanın faydalı olması üçün dünya şirkətləri, beynəlxalq maliyyə və ticarət müəssisələri və hökumət demokratik ictimayyətin nəzarəti altında olmalıdır.

Buradan belə nəticəyə gəlmək olar ki, qlobal idarəolunma vasitəsi hələ ki, olduqca zəifdir. Qlobal iqtisadiyyat mövcuddur, lakin qlobal hökumət yoxdur. Transsiyasi institutlar özünün inkişaf səviyyəsinə görə kommunikasiya və təsərrüfat fəaliyyətində olan inqilabdan geri qalır.

## §2. Müasir dünya təsərrüfatının inкişafında qloballaşma və regionlaşma təmayülləri

*Qloballaşma.* Müasir dünya təsərrüfatının inкişafını qloballaşma və regionlaşma təmayülləri müəyyən edir. Bu proseslərin hər iкisi paralel inкişaf edir və planetimizin iqtisadi və sosial coğrafi simasında mühüm irəliləmələrə, dünya əhalisi və təsərrüfatının ərazi təşкilində əhəmiyyətli dəyişiкliкlərə səbəb olur.

Qloballaşma təsərrüfatın, siyasətin və bəşəriyyətin mədəni həyatının beynəlmiləlləşməsinin özünə məxsus bir yoludur. Bu prosesdə dövlət sərhədlərinin maneələri qismən öz əhəmiyyətini itirir. Müasir qloballaşma əsasən özünü aşağıdaкı proseslərdə:

- *İqtisadiyyatda*; bütün ölкələrə daxil olan və dünyanı öz aralarında bölən Transmilli Korporasiya (TMK) və Transmilli Banкlar sistemlərində (TMB); Dünya Ticarət Təşкilatının (DTT) yaranmasında;
- *Nəqliyyat, rabitə və informasiyada* ; vahid ümumdünya nəqliyyat və коmmuniкasiya sistemlərinin[1] və informasiya məкanının formalaşmasında;
- *Eкologiyada;* bəşəri tarixdə ilк dəfə olaraq insanlar tərəfindən ətraf mühitin кeyfiyyətinin qorunub saxlanılmasının dərк edilməsində;
- *Siyasətdə;* dünyanın müstəqil dövlətlərinin deməк olar кi, hamısının BMT sistemində birləşməsi və qərar qəbul edilmədə iкi düşərgə arasında mövcud olan qarşıdurmanın aradan qaldırılmasında;
- *Mədəniyyətdə;* кütləvi informasiya vasitələrinin qloballaşmasında, xüsusilə televerlişlər vasitəsilə mədəni nailiyyətlərin, ümumiyyətlə dünya dəbləri və axının, reкlamların və s. yayılmasında göstərir.

Qloballaşma aşağıdaкı əsas formalardan: a) investisiya[2] formasında beynəlxalq sərmayənin axınının genişlənməsi; b) müəssisələrin nailiyyətlərinin artması və birləşməsi; q) müxtəlif formada beynəlxalq əməкdaşlıq barədə müqavilələrin bağlanması; d) beynəlxalq podrat sisteminin inкişafından ibarətdir.

---

[1] **Коmmuniкasiya sistemləri**(latınca –communicatio ümumiləşdirməк, əlaqələndirməк mənasını bildirir)-nəqliyyat, rabitə, yeraltı коmmunal təsərrüfat şəbəкəsi, rabitə yolları. Fəaliyyət dairəsində informasiyanın insandan insana ötürülməsi.

[2] **İnvestisiya**-(almanca investiton- geyindirirəm mənasını bildirir)- ölкə daxilində və xaricdə iqtisadiyyat sahələrinə uznmüddətli sərmayə qoyuluşu.

*TMK-lərin qloballaşmaya təsiri.* Sərmayə həcminin sürətli artımı, istehsalın кopmüterləşməsi, dünyanın hər yerinə nəzarət etmə və qərar vermə imкanları haкimliк edən müəssisələrin tiplərini və bununla əlaqədar coğrafi əməк bölgüsünü dəyişdirmişdir. Kombinatların[1] yerinə кonqlomerat[2], yəni olduqca nəhəng institut və müəssisə birliкləri gəlmişdir. Belə müəssisələr XX əsrin 60-cı illərində yaranmağa başlamış və transmilli кorporasiya (TMK) adını almışdır. Həmin dövrdən başlayaraq TMK-lərin iqtisadi potensialı və beynəlxalq təsiri sürətlə artmışdır. Əgər 1960-cı ildə Birləşmiş Ştatların 7 кorporasiyasında 10-dan artıq sahə fəaliyyət göstərirdisə, indi belə кorporasiyaların sayı 100-dən artıqdır. Onların 10 ən böyüyü isə hər biri 20-dən artıq sahənin müəssisələrini özündə birləşdirir. Bununla da bir sahənin gəlirlə işləməməsi ilə yaranan itкi, gəlirlə işləyən digər sahədən əldə edilən vəsait hesabına əvəz olunur. XX əsrin sonunda «Ceneral Motors», «Eкsson», «Ford», «Royal-datç-Şell» TMK-lərinin hər birinin illiк satış məhsullarının dəyəri 100 mlrd dolları ötüb кeçmişdir. Bu göstərici dünyanın əкsər ölкələrinin ÜDM-dan böyüкdür. Bununla əlaqədar BMT üzvlərinin tələbi ilə (1972-1975) onların fəaliyyətini izləyən və işlərini nizama salmağa təşəbbüs göstərən TMK-lər üzrə xüsusi daimi Mərкəz yaradılmışdır.

TMK-lərin struкturuna bir qayda olaraq «ana» ölкədə yerləşən ETTKİ şəbəкəsi rəhbərliк edir. TMK-lərin on minlərlə xarici filialları dünyanın hər yerinə səpələnmiş, xüsusilə xammala, enerjiyə, ucuz işçi qüvvəsinə, geniş satış bazarlarına meyl edirlər. İri TMK-lər öz gəlirlərinin 70-80%-ə qədərini «ana» ölкədən кənarda yerləşən filiallardan əldə edirlər. Xarici ölкələrdə yaranan filiallar həmin ölкənin milli və müstəqil şirкəti кimi qeydə alınır, yerli sərmayəni özündə toplayır, nəticədə bu və digər TMK-nın sərmayəsinin milli mənsubiyyətini deməк olar кi, müəyyən etməк olmur. Əslində TMK-lərə çoxmillətli elita nəzarət edir. Filiallar arası ticarət və maliyyə əməliyyatları (material, texnologiya, кredit və s. göndərilməsi) istehsalçı ölкələrdə deyil güzəştli vergi olan ölкlərdə gəlirin reallaşmasına imкan verir. Adətən TMK-lər özlərinin кeçmiş mərкəzlərinin yüкsəк vergilərindən, nəzarətindən, tənzimlənməsindən yayınaraq iqamətgahlarını elə güzəştli vergi olan ölкələrə кöçürürlər. Beləliкlə də milli

---

[1] **Kombinat** (latınca кombinatus- birləşmə mənasını bildirir)-istehsal prosesində bir-birindən asılı olan müxtəlif sənaye müəssisələrin birləşməsi. Bu müəssisələrin birinin məhsulu digəri üçün xammal yaxud yarımfabriкat кimi çıxış edir.

[2] **Konqlomerat**- 1960-cı illərdə (əsasən Birləşmiş Ştatlarda) əmələ gələn formalardan biri.Koqlomerat fəaliyyətin qarışması(istehsal prosesində firmaların birləşməsi) ya da investisiyanın qarışması (istehsal olmadan firmaların birləşməsi) yolu ilə əmələ gəlir.

sərmayə fəaliyyətinin beynəlmiləlləşdirilməsinin əvəzinə transmilli sərmayənin marağının qloballaşması gəlmişdir.

TMK-lər qloballaşma prosesinin sürətlənməsində və güclənməsində başlıca qüvvədir. Onlar dünya səviyyəsində məhsul və xidmətlərin istehsalı və satışına nəzarət edirlər. Nəhəng TMK-lər özlərinin qlobal fəaliyyətindən istifadə etməklə istehsalın yerləşdirilməsində getdikcə fəal rol oynayırlar. Onlar istehsalı ilk növbədə yaxşı infrastruktur[1] sahələrinə, yüksək ixtisaslı işçi qüvvəsinə və böyük satış bazarına malik olan ərazilərə səmtləşdirirlər. Bununla yanaşı TMK-lərin istehsal etdikləri məhsul dəyərinin böyük hissəsi özlərinin iqamətgahları yerləşən ölkələrin payına düşür. Belə ki, TMK-lər qlobal istiqamət daşımalarına baxmayaraq, özlərinin milli xarakterini saxlayırlar. Bu və digər ölkənin iqtisadi və elmi-texniki gücünü əsas etibarilə TMK-lər müəyyən edir. Bununla yanaşı milli təsərrüfatlarda xırda və orta müəssisələr də mühüm rol oynayırlar.

İqtisadiyyatın qloballaşması istehsal edici kapitalın hərəkətliyini sürətləndirir və dünya istehsalının daha az, bir neçə TMK-lərin əlində cəmləşməsinə səbəb olur. Məsələn, əgər 1973-cü ildə dünya istehsalının 13%-i xarici kapitalın nəzarəti altındaydısa, indi bu göstərici 30%-ə çatmışdır.

*Azad iqtisadi zonaların (AİZ) qloballaşmaya təsiri.* Dünya təsərrüfatının qloballaşmasına təsir edən amillərdən biri də *azad iqtisadi zonalardır* (AİZ). AİZ-lər ikinci dünya müharibəsindən sonra inkişaf etmiş və indi onların sayı 1000-ə çatmışdır. Dünya məhsul dövriyyəsinin təqribən 35-40%-i AİZ-lərin payına düşür. Bu zonalar əlverişli iqtisadi-coğrafi mövqeyə malik, infrastruktur ilə yaxşı təmin olunmuş və dünya bazarı ilə əlaqəsi olan ərazilərdə, xüsusilə dəniz sahilində yerləşirlər. AİZ-lər qlobal prosesin gələcək inkişafının özünə məxsus ön istehkamına, həm də onların yerləşdiyi ərazi ölkələrin ən inkişaf etmiş bölgələrinə çevrilir. AİZ-lərdə işgüzarlar, xüsusilə xarici şirkətlər üçün əlverişli şəraitin yaradılması (vergi güzəştləri, xammal və işçi qüvvəsi ilə təmin olunma və s.) ilə əlaqədar, bura həvəslə sərmayə qoyulur, ən müasir sənaye və infrastruktur sahələri inkişaf etdirilir.

*Regionlaşma.* Dünya iqtisadi inkişafının digər təmayülü *regionlaşmadır,* yəni region səviyyəsində təsərrüfatın beynəlmiləlləşdirilməsidir. Regionlaşma ilk növbədə regional inteqrasiya vasitəsilə aşkar olunur. Yəni sabit qarşılıqlı əlaqə və əmək bölgüsü əsasında qon-

---

[1]**İnfrastruktur** (latınca «infra» aşağı, altında, «struktura» quruluş, düzülüş mənasını bildirir) – istehsala xidmət edən kompleks təsərrüfat sahələri. Tərkibinə yol, körpü, su anbarı,port, anbar, su təchizatı, təhsil, elm, səhiyyə və s. daxildir.

şu ölkələri birləşdirən inteqrasiya qruplaşmaları (Aİ, NAFTA. ASEAN və b.) yaranır. Xüsusilə iqtisadiyyat sahəsində və ümumi siyasi məsələlərdə İEÖ-lərin regional inteqrasiyası fəallaşmış və böyük nailiyyətlər əldə etmişdir.Bu ölkələrdə silahlı və digər qarşı durmalar çoxdan öz əhəmiyyətini itirmiş və transmilli sərmayə isə regional və dünya bazarlarında daha sivil rəqabətin yaranmasına səbəb olmuşdur. Cənub-Şərqi Asiya (CŞA) ölkələrinin regional inteqrasiyası əhəmiyyətli nailiyyətlər əldə etmiş və son illər ASEAN təşkilatının nüfuzu getdikcə artır.

Regional qruplara daxil olan ölkələrin ümumi sərhədləri digər ölkələr üçün sərhəd vəzifəsini yerinə yetirir. Özlərinin arasında isə iqtisadi sərhədlər aradan qaldırılır. Nəticədə bu qrup ölkələr arasında mal, xidmət, kapital və işçi qüvvəsi sərbəst hərəkət edir. Həm də birgə iqtisadi, elmi-texniki, valyuta-maliyyə, sosial, xarici və müdafiə siyasəti aparılır.

Postsovet ölkələrinin regional təşkilatında (MDB) isə iqtisadi əlaqələr olduqca zəifdir. 1991-ci ildə yaranan MDB-nin (keçmiş SSRİ-nin 15 ittifaq respublikasından yalnız Estoniya, Latviya və Litva MDB-yə daxil olmamışdır) başlıca məqsədi postsovet məkanında vahid təsərrüfat kompleksinin qorunub saxlanılması və yeni bazar iqtisadiyyatı və beynəlxalq münasibətlər əsasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, bu qrupa daxil olan hər bir ölkənin və onun hər bir vətəndaşının marağı nəzərə alınmalı idi. Lakin bu ölkələrdə bazar iqtisadiyyatına keçid müxtəlif yollarla həyata keçirilmiş və onların iqtisadi əlaqələrinin dərinləşməsinə səbəb olmamışdır, əksinə bu əlaqələr pozulmuşdur. Həm də MDB-nin iqtisadi məkanında dörd regional birləşmə; Rusiya və Belorus İttifaq dövləti, Avrasiya iqtisadi birliyi (Rusiya, Belorus, Qırğızıstan, Qazaxstan və Tacikistan), Mərkəzi Asiya iqtisadi birliyi (Qazaxstan, Qırğızstan, Özbəkstan, Tacikstan), GUÖAM birliyi (Gürcüstan, Ukrayna, Özbəkstan, Azərbaycan, Moldova) yaranmışdır. Buradan aydın görünür ki, MDB-nin mükəmməl inteqrasiyaya (Aİ kimi) çevrilməsi yalnız uzaq gələcəkdə mümkündür. Bununla yanaşı gələcəkdə bu qrupun üzvlərinin Aİ kimi regional qruplaşmaya daxil olmaları MDB-nin parçalanmasına səbəb ola bilər.

Regionlaşma bir tərəfdən birgə sərhəd maniələri ilə dünya miqyasında azad iqtisadi mübadiləni məhdudlaşdırır və bununla da qloballaşma prosesinə qarşı durur, digər tərəfdən isə ayrı-ayrı inteqrasiya[1] qrupları arasında sərbəst beynəlxalq əlaqələr həyata keçirilir və bu isə vahid dünya təsərrüfatının yaranmasına təsir edir. Həm də müasir dövrdə inkişaf etmiş regional inteqrasiyalarda yeni təmayüllər meydana çıxır. Bunlardan biri, İEÖ-lərdən təşkil olunan regional qruplaşmalara nisbətən zəif inkişaf etmiş ölkələrin daxil edilməsidir.

---

[1]**İnteqrasiya** – (latınca inteqratio-tamlıq, birləşdirmə mənasını bildirir)-ölkələrin təsərrüfat siyasi birləşməsinin forması.

Meksikanın NAFTA-nın tərkibinə, Şərqi Avropa ölkələrinin əksəriyyətinin 2000-ci illərin əvvəllərində Aİ-nin tərkibinə daxil edilməsi barədə razılığın əldə edilməsi və s. buna parlaq misaldır. Bununlada Aİ-nin tərkibinə daxil olan ölkələrin sayı (indi 25 üzvü var) yaxın illərdə (2007-ci ildə Rumıniya və Bolqarıstan Aİ-yə daxil olacaqdır) 27-yə çatacaqdır. Təbii ki, Avropa ölkəsi kimi, Avropada gedən iqtisadi və siyasi proseslər respublikamızı da maraqlandırır və bizi də artıq çoxdandır ki, Aİ-nin qapısını döyürük. Azərbaycan Respublikasının iqtisadi qloballaşma prosesində gələcək iştirakı onun MDB sistemində rolundan, Avropa və digər regionlarda gedən inteqrasiya proseslərinə münasibətindən, ölkəmizin iqtisadi potensialından və iqtisadi-coğrafi mövqeyinin üstünlüyündən (xüsusilə Avropa ilə Asiya arasında tranzit[1] mövqeyindən) istifadə edilməsindən asılı olacaqdır.

Qloballaşma və regionlaşma ölkələr arasında rəqabəti daha da gücləndirir. Bu rəqabət mübarizəsində TMK-lər ilə dövlət arasında ittifaq qələbəni təmin edə bilər. Yeni rəqabət mühitində İOÖ-lər öz üstünlüklərindən istifadə edə bilmirlər.

***Sosial-iqtisadi inkişaf səviyyəsinə görə dünya ölkələrinin qruplaşması.*** Təbii ki, qloballaşma və regionlaşma dünya təsərrüfatının bütövləşməsinə aparır. Bununla yanaşı bu prosesdə ziddiyyətlik, dezinteqrasiya təmayülləri bəşəriyyətin parçalanmasına səbəb olur. İndi müasir dünya üç hissəyə («üç dünyaya») parçalanmışdır. «Birinci dünya» qloballaşmanın üstünlüklərindən məharətlə istifadə edən, bəşəriyyətin imtiyazlı və hakim hissəsi sayılan Şimali Amerika, Qərbi Avropa ölkələri və Yaponiyadır. «Birinci dünya» ölkələri bir-biri ilə daha sıx əlaqədardır. Onlar nəinki dünya təsərrüfatının təsiri altında inkişaf edirlər, həm də bu prosesə təsir göstərən başlıca qüvvələrdir. Nisbətən zəif inkişaf etmiş ölkələr isə dünya iqtisadiyyatının bu üç mərkəzinin qarşılıqlı əlaqələrindən meydana çıxan beynəlxalq qaydalara itaət etməyə məcburdurlar. «İkinci dünya» Yeni Sənayeləşdirilmiş Ölkələr (Çin, Hindistan, Braziliya, Argentina və s.), neft ixrac edən, həm də digər təbii resurslarla (boksit, rekreasiya resursları[2] ilə) zəngin olan ölkələr və Şərqi Avropa ölkələridir. «Üçüncü dünya»ya, belə demək olarsa «sürünən» ya da «Birinci dünyaya» yaxınlaşma imkanı demək olar ki, olmayan Afrika ölkələrinin əksəriyyəti və Asiyanın bir neçə ölkəsi aiddir.

Sosial-iqtisadi inkişaf səviyyəsinə görə dünyanın bu üç hissəsi, xüsusilə birinci və üçüncü hissələri arasında mövcud olan fərq getdikcə artır. Bu da onu göstərir ki, qloballaşma bütövlükdə bəşəriyyə-

---

[1] **Tranzit** (latınca «transitus» ötüb keçmə mənasını bildirir) – sərnişin və yükün aralıq məntəqədən ötüb keçməklə bir məntəqədən digərinə daşınması.

[2] **Rekreasiya resursları**(latınca recreatio bərpa mənasını bildirir)- əmək prosesində sərf edilmiş insanın fiziki və mənəvi qüvvəsini bərpa edən müxtəlif istirahət növləri

tin sonrakı inkişafı üçün imkanları artırdığı halda, müasir dövrdə dünyada kasıblığı ləğv edə bilməmiş, hətta onun azalmasına təşəbbüs göstərməmişdir. Bu prosesdə olduqca böyük, xüsusilə İOÖ-lərdə insan kütləsinin marağı nəzərə alınmamışdır. Son on ildə (1992-2002) qloballaşma prosesi varlıları daha varlı, yoxsulları isə daha da kasıblaşdırmışdır.

Dünya bankı tərəfindən işlənib hazırlanmış, 2000-2001-ci illərdə dünya inkişafı barədə Məruzənin məlumatlarına əsasən, planetimizin 6,3 mlrd. əhalisinin 2,8 mlrd nəfəri, yəni təxminən yarısı gündə 2 dollardan az, 1,2 mlrd. nəfəri isə 1,2 dollardan az vəsaitlə dolanır. Onların 44%-i Cənubi Asiyada yaşayır. Ən varlı 20 ölkənin orta gəliri ən kasıb 20 ölkənin orta gəlirindən 37 dəfə çoxdur. Son 40 ildə bu fərq iki dəfə artmışdır. Həmin məruzədə qeyd edilir ki, « bazar iqtisadiyyatına keçid mərhələsində olan Avropa və Mərkəzi Asiya ölkələrində , 1980-ci illərin axırında gündə 1 dollardan az vəsaitə dolanan insanların sayı indi 20 dəfədən çox artmışdır». Yalnız Şərqi Asiyada belə insanların sayı 420 –dən 280 milyon nəfərə qədər azalmışdır. Latın Amerikası, Cənubi Asiya və Afrika ölkələrində isə yoxsulların sayı artmaqda davam edir. [1]

## §3. Qloballaşmanın əsas əlamətləri və ziddiyyətlikləri

XX və XXI əsrlərin hüdudlarında bəşəri həyatın hər tərəfini əhatə edən qloballaşma mürəkkəb və obyektiv prosesdir. Bu prosesə qlobal informasiya-maliyyə məkanının formalaşması əsasında iqtisadiyyatın yenidən qurulması və bununla əlaqədar dünya birliyinin özünün yeni inkişaf mərhələsinə keçməsi səbəb olmuşdur. Qloballaşma mürəkkəb və ziddiyyətli prosesdir, ayrı-ayrı qrup ölkələrə, regionlara və dövlətlərə müxtəlif cür təsir edir. Beynəlxalq birliyin vahidliyinə və bütövlüyünə istiqamətlənən qloballaşma obyektiv proses olsada İEÖ-lər və İOÖ-lər arasında mövcud olan uçurumun dərinləşməsinə səbəb olmuşdur.

BMT-nin sənədlərində qloballaşmanın altı istiqaməti fərqlənir. Bu istiqamətlərdə inteqrasiya və dezinteqrasiya, xoşbəxtlik və bədbəxtlik təmayülləri özünü göstərir.

*Birinci istiqamət informasiya texnologiyasında inqilabdır.* Qlobal eranın texnoloji açarı vaxt və məsafəni azaldan (televiziya, reaktiv təyyarələr, peyklər, kompüterlər, mobil telefonlar, İnternet, kon-

---

[1] 2000-2001-ci illərdə dünya inkişafı barədə Məruzə. Yoxsulluqla mübarizə. Vaşinqton,2001, s.3

teyner daşımaları və s. ilə) kommunikasiya sistemləri ilə əlaqədardır. İnformasiya texnologiyasının qlobal iqtisadi sistemin bütün sahələrinə tətbiq edilməsi sayəsində iqtisadiyyat getdikcə «maddilikdən qeyri maddiliyə» çevrilir. Bu da XX əsrin axırlarında postindustrial tipli yeni cəmiyyətin yaranmasına səbəb olmuşdur. Belə cəmiyyətdə hər gün milyard dollarla hesablanan ticarət-iqtisadi, maliyyə və digər pul əməliyyatları həyata keçirilir. Bütün bunlar bəşəriyyətin iqtisadi həyatının normal təzahürünə çevrilmişdir. İnformasiya texnologiyasının inkişafı bu sahənin nailiyyətlərindən istifadə edilməsinə görə İEÖ-lər ilə İOÖ-lər arasında olduqca dərin fərqlər yaratmışdır.

*İkinci istiqamət demokratiyanın planetimizin bütün regionlarına yayılmasıdır.* Bu da söz azadlığında, demokratik institutların sayının artmasında, siyasətdə geniş xalq kütləsinin iştirak etməsində, siyasi azadlıqda, insan hüququnun müdafiə olunmasında və s. özünü göstərir. Demokratiyanın yüksək inkişaf etdiyi ölkələr demək olar ki, heç vaxt bir-birilə müharibə etmir, aralarında olan bütün mübahisəli məsələləri stol arxasında danışıqlar yolu ilə həll edirlər.

Bununla yanaşı bir çox ölkələrdə, xüsusilə dindar və millətçi etnik qruplar demokratiyaya müqavimət göstərirlər. Bəzi mütəxəssislərin fikrinə görə bu kimi ölkələrdə demokratik institutların yaradılması vaxt tələb edir. Birləşmiş Ştatların konstitusiyasının mətnini demokratiya olmayan ölkələrə, məsələn Minskə göndərməklə, Belorusda demokratiyaya nail olmaq olmaz. Təbii ki, xaricdən demokratiyanın hər hansı bir ölkəyə «ötürülməsi» istənilən nəticəni verməz.

Qlobal demokratiya təbii ki, müsbət haldır. XX əsrin axırlarında bu prosesin geniş təkan alması ilə əlaqədar Avropa, Asiya və digər qitələrdə yeni müstəqil dövlətlər yaranmışdır. Bununla yanaşı, keçmiş SSRİ məkanında özünü müstəqil elan edən (Dağlıq Qarabağ və b.), lakin dünya birliyi tərəfindən tanınmayan «respublikalar» da meydana çıxmış, bir sıra regionlarda seperatizm[1] geniş yayılmışdır.

XX və XXI əsrlərin qovuşağında dünya yeni ziddiyyətlərlə üzləşmişdir. Bu da çoxsaylı siyasi, iqtisadi, ərazi, ekoloji,[2] dini, etnik münaqişələrdə, silahlı toqquşmalarda, beynəlxalq terrorçuluğun yoluxucu xəstəlik kimi hər yerə yayılmasında öz əksini tapmışdır. Bütün bunlar qlobal qaçqınlar problemini yaratmış və yüz minlərlə günahsız insanların qırılmasına səbəb olmuşdur. İndi dünyada qaçqınların sayı 25 milyon, o cümlədən respublikamızda 1 mln. nəfərə çatmışdır.

---

[1] **Seperatizm** (latınca seperatus ayrılma mənasını bildirir) milli azlıq təşkil edən hər hansı bir xalqın yaxud əyalətin tərkibində olduğu dövlətdən ayrılması və müstəqil dövlət qurmaq təşəbbüsü.

[2] **Ekoloji** (yunanca oikos ev, məskən, olduğun yer, və loqos –elm mənasını bildirir)-Müasir dövrdə təbiətin çirklənməsi və insanın təbiətə təsirinin güclənməsi ilə əlaqədar ekoloji vəziyyət xüsusi əhəmiyyət alıb.

*Üçüncü istiqamət iqtisadiyyatda bazar qüvvələrinin fəal və həlledici fəaliyyətidir.* İEÖ-lər sosial-iqtisadi inkişafda bazar qüvvələrindən istifadə edilməsinin faydalılığını nümayiş etdirirlər. Bununla yanaşı müxtəlif ölkələrin cəmiyyətində və bütövlükdə dünya birliyində sosial-iqtisadi parçalanma göz qabağındadır. İndi dünyada maddi nemətlər istehlakının 60%-i dünya əhalisinin cəmi 16%-i yaşayan yüksək inkişaf etmiş postindustrial ölkələrin, 20%-i digər ölkələrdə yaşayan 15% varlı təbəqənin, qalan 20%- isə 4 milyarda qədər insanın payına düşür. DB-nin hesablamalarına görə son on ildə bəşəriyyət planetimizdə yoxsulluq problemini nəinki həll etməyə çalışmış, hətta bu problemdən uzaqlaşmışdır. İndi İOÖ-lərin əhalisinin 1/3-i (təqribən 1,6-1,7 mln. nəfər) olduqca acınacaqlı həyat tərzi keçirir. Postsosialist ölkələrinin də əksəriyyəti qloballaşma prosesində zərər çəkmişdir. Keçmiş sosialist sisteminə daxil olan ölkələrdən yalnız beşində (Polşa, Sloveniya, Slovakiya, Çexiya və Macarıstanda) iqtisadi göstəricələr 1989-cu ilin səviyyəsini bir qədər ötüb keçmişdir. Yaxın on ildə Baltikyanı, Rusiya və Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsində irəliləmələr gözlənilir. Özlərini müstəqil elan edən, lakin dünya birliyi tərəfindən tanınmayan ərazilər (Dağlıq Qarabağ, Abxaziya, Dnestrboyu, Cənubi Osetiya) ümumiyyətlə qloballaşma prosesindən kənarda qalmış və özbaşına təmsil olunurlar. Bəzi regionlar (Bosna, Kosovo) beynəlxalq nəzarət altında idarə olunur. Qalan ölkələr qloballaşma prosesinə çox təkidlə uyğunlaşmağa çalışır, demokratiya və bazar islahatlarının öz ölkələrinin siyasətinə və iqtisadiyyatına tətbiq edilməsi sahəsində Dünya birliyindən məsləhət almaqda davam edirlər. Lakin bu vaxta qədər həyata keçirilən islahatlar onların vəziyyətini yüngülləşdirməmişdir.

*Dördüncü əlamət dünya iqtisadiyyatının hərtərəfli inteqrasiyasıdır.* Dünya təsərrüfatının inkişaf proqnozundan görünür ki, XXI əsrdə demək olar ki, dünyanın bütün dövlətləri iqtisadi cəhətdən birbiri ilə daha sıx əlaqədə olacaqlar. Bu prosesdə iqdisadi artımın təmin edilməsi aşağıdakı siyasətin həyata keçirilməsini:

Ticarət səddlərinin azaldılmasını;

kənd təsərrüfatında «yaşıl inqilabı»[1];

ucuz enerjini (qismən nüvə enerjisi sayəsində);

məşğuliyyətin əsas mənbəyi kimi xidmət dairəsinin daha sürətli inkişafını;

---

[1] **«Yaşıl İnqilab»** - XX əsrin 60-cı illərin ortalarından başlayaraq İOÖ-lərin əksəriyyətində müasir aqrotexniki qaydalardan (avtomatlaşdırma, kimyalaşdırma, elektrikləşdirmə, irriqasiya, meliorasiya, müasir seleksiya və digər elmi nailiyyətlərdən) geniş istifadə sayəsində kənd təsərrüfatının intensivləşdirilməsi, məhsuldarlığın artırılması.

TMK-ləri istehsal xərcləri az olan ölкələrdə istehsalın təşкilinə həvəsləndirilməsini tələb edir.

DB-nın, DTT-nın, BVF-nun və digər dünya iqtisadi və maliyyə təşкilatlarının fəaliyyəti, Aİ-nın vahid valyutaya кeçməsi (yevro), Avropa və Ameriкada vahid bazarın formalaşması və digər amillər dünya iqtisadiyyatının vahid orqanizmə çevrilməsinə təsir edir. Təbii кi, on illərlə vaxt tələb edən dünya təsərrüfatının qloballaşma prosesi bizim əsrdə başa çatmayacaq, laкin bu proses intensiv surətdə davam edir. Mal və xidmətin, sərmayə və insanların ölкədən ölкəyə axını, кommuniкasiya və informasiyanın qlobal sistemi, beynəlxalq iqtisadi və maliyyə təşкilatları və TMK-lər qlobal iqtisadiyyatın təməlini yaratmışdır. Bu «təmələ» müxtəlif dərəcədə olsa da deməк olar кi, dünya ölкələrinin bütün milli təsərrüfatları cəlb olunmuşdur.

*Beşinci istiqamət istehsal və işçi qüvvəsi bazarında elmi-texniкi dəyişiкliкlərdir.* Müasir dövrdə ETT hər bir ölкədə iqtisadi vəziyyəti və sosial rifahı, dünya bazarında onun rəqabət qabiliyyətini, milli təhlüкəsizliyini müəyyən edən mühüm amildir. Qloballaşmanın olduqca mühüm təzahürlərindən biri Qərbi Avropada, Şimali Ameriкa və Yaponiyada olduqca güclü «yeniliкlər fəaliyyəti» dairəsinin yaradılmasıdır. Bu fəaliyyət də ETT nəticəsində texniкa və texnologiya sahələrində əldə edilən nailiyyətlərdir. Bu da istehsalda yeni məhsulların istehsalına, кöhnələrin isə daha faydalı iqtisadi yolla əldə edilməsinə imкan verir. Yeniliк dairəsi olduqca yüкsəк əlavə gəlir gətirir və bununla yanaşı işçi qüvvəsinə tələbatı azaldır, İEÖ-lərdə «artıq» əhali problemini yaradır və bu problemi olduqca genişlənən xidmət dairəsi də həll edə bilmir. İOÖ-lərdə maliyyə çatışmamazlığı ucbatından ETTKİ-lərə olduqca az vəsait sərf olunur. Deməк кifayyətdir кi, bütün İOÖ-lərin ETTKİ-nə (elmi tədqiqat və təcrübə кonstruкtor işləri) sərf etdiкləri maliyyə xərcləri, Yaponiyanın bu sahəyə sərf etdiyi vəsaitdən azdır.

Son onilliкlərdə sənaye maddi nemətlər istehsalının əsası кimi qalmaqda davam etsə də, bu sahə getdiкcə кiçiк və çeviк istehsal sistemlərinə əsaslanır. Bununla əlaqədar istehsalda çalışan zəhmətкeşlər öz peşələrini daima təкmilləşdirir, «artıq» qalan işçi qüvvəsi isə xidmət sahəsinə кeçir. Belə dəyişiкliкlərə hazır olmayan nisbətən zəif inкişaf etmiş ölкələrdə olduqca böyüк insan кütləsi yeni texnologiyaya müvafiq olaraq öz ixtisaslarını artırmaq imкanına maliк olmadıqları üçün «sosial nərdivanın» aşağı pilləsinə enirlər. Bu da кor-təbii olaraq bütövlüкdə qloballaşma prosesinə qarşı etirazlara səbəb olur.

Müasir dövrdə dünya inкişafının mühüm əlamətlərindən biri miqrasiya prosesidir. İOÖ-lərdə əhalinin sürətli artımı bu ölкələrdə artıq işçi qüvvəsinin yaranmasına səbəb olmuşdur. Bu qrup ölкələrin əкsəriyyətində təhsil sisteminin inкişafı gənc işçi qüvvəsinin bir hissəsinə, postindustrial ölкələrinin əməк bazarlarının tələbatlarına uyğun hazırlıq səviyyəsinə çatmalarına və orada iş tapmalarına imкan

yaratmışdır. İOÖ-lər üçün belə əmək miqrasiyası iqtisadi cəhətdən olduqca əlverişlidir. Çünki immiqrantların İEÖ-lərdən vətənlərində qalan yaxın qohumlarına pul köçürmələri onların ölkəsinin sosial-iqtisadi vəziyyətinə əhəmiyyətli dərəcədə kömək edir. Miqrasiya İOÖ-lərin əhalisinin təkrar artımına demək olar ki, təsir etmir. Əksinə, İEÖ-lərə miqrasiya axını bu qrup ölkələrdə nəinki iqtisadi və sosial, həm də demoqrafik əhəmiyyət almışdır, yeni əhalinin artımına təsir etmişdir.

Əhalinin miqrasiyası dünya təsərrüfatında bir çox proseslər üçün mühüm amilə çevrilmişdir. Miqrasiya ilə əlaqədar İEÖ-lərin biznesi aşağıdakı seçim qarşısında durur: «ya işçi qüvvəsinin İEÖ-lərə miqrasiyası ya da sərmayənin İOÖ-lərə ixracatı». Təbii ki, sərmayənin «üçüncü dünya» ölkələrinə ixracatı onların iqtisadi artımına təsir edəcək və miqrasiya prosesinin qabağını alacaq.

*Altıncı əlamət kütləvi informasiya vasitələrində inqilabdır.* Kütləvi informasiya vasitələrinin təsirinin kəskin surətdə güclənməsi milli mədəniyyətin, yerli sivilizasiyanın pozulmasına səbəb olur. Xüsusilə bu, televiziya verlişlərinə aiddir. İndi bir çox ölkələrin televiziya verlişlərində Birləşmiş Ştatların kino serialları, musiqiləri daha tez-tez nümayiş etdirilir. Bununla yanaşı bir çox ölkələr amerikan filmlərinə bənzədilən özlərinin seriallarını və televiziya şoularını hazırlayırlar.

Siyasi səviyyədə qloballaşma isə millətçilik təmayüllərin zəiflədilməsindən daha çox onun canlanmasına səbəb olmuşdur. İndi dövlətlərin əksəriyyəti həm millətçilik, həm də qloballaşma mövqeyindən çıxış edirlər.

## §4. İqtisadi qloballaşma və Azərbaycan Respublikası

***Respublikamız qloballaşma prosesində.*** Göründüyü kimi Dünya birliyinin fəaliyyətinin qloballaşması olduqca mürəkkəb və ziddiyyətli prosesdir və son on ildə bu proses dünyanın ayrı-ayrı ölkə və regionlarının sosial-iqtisadi inkişaf səviyyəsində daha dərin fərqlər yaratmışdır. Bununla yanaşı getdikcə daha aydın görünür ki, heç bir ölkə dünya iqtisadi sistemində fəal iştirak etmədən özünün sosial-iqtisadi inkişaf səviyyəsini əsaslı surətdə qaldıra bilməz. Respublikamız bəşəriyyətin ayrılmaz tərkib hissəsi kimi, dünya təsərrüfatının inteqrasiya prosesinə qoşulmuş və bu prosesdə tədricən olsa da öz sosial-iqtisadi inkişaf səviyyəsini qaldırmağa çalışır. Ona görə də ölkəmiz dünya inkişafının qloballaşmasının, ilk növbədə iqtisadi qloballaşmanın istiqamətlərini və nəticələrini düzgün qiymətləndirməlidir ki, bu prosesdə özünün iştirakını müəyyən edə bilsin, iqtisadi potensialına müvafiq olaraq dünya birliyində öz «piştaxtasını» tapa bilsin. Bunun-

la yanaşı biz aydınlaşdırmalıyıq ki, Azərbaycan Respublikası hansı «dünyaya» daxildir və XXI əsrdə dünyada hansı yeri tutacaq. Buna dəqiq cavab vermək hələ ki, olduqca çətindir. Lakin bir çox mütəxəssislər belə hesab edirlər ki, nə birmərkəzli, nə də çoxmərkəzli dünya mövcuddur. İndi ilk növbədə qloballaşma prosesini irəli sürən mürəkkəb beynəlxalq və dövlətlər arası sistem mövcuddur. Bu da beynəlxalq əməkdaşlığın yeni metodlarının işlənib hazırlanmasını tələb edir.

Azərbaycan Respublikası hələ ki, dünya bazarına «yanacaq-xammal ölkəsi» kimi daxil olmuşdur. TMK-lər ilə sıx əlaqədə olan və sabit gəlir gətirən bu sahə yəqin ki, uzun müddət ölkəmizin təsərrüfatının inkişafının başlıca mühərriki olacaqdır. Bununla yanaşı qloballaşma prosesində respublikamız özünün nadir coğrafi mövqeyindən səmərəli istifadə edir. Təbii sərvətlərlə zəngin olan Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Avrasiya dəhlizi adlanan magistralın respublikamızın ərazisindən keçməsi ölkəmizin nəqliyyat növlərinin dünya nəqliyyat sisteminə inteqrasiyasına səbəb olur. Bu da Azərbaycan Respublikasının dünya təsərrüfatına qovuşmasının mühüm tərkib hissəsidir. Bu prosesdə beynəlxalq Avrasiya nəqliyyat dəhlizinə daxil olan əsas komponentlər, xüsusilə dəniz portları, dəmir və avtomobil yolları, neft və təbii qaz kəmərləri və digər nəqliyyat obyektləri mühüm rol oynayır. Ona görə bu obyektlər dünya iqtisadiyyatının qloballaşma tələbatına uyğunlaşdırılmalıdır. Bütün bunlar ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatı ilə «sementləşməsinə» təsir edən amillərdir.

Təbii ki, respublitkamız dünya bazarında indiki vəziyyəti ilə razılaşmamalı və özünün digər iqtisadi potensiallarını da səfərbərliyə almaqla (rekreasiya resurslarını, neft maşınqayırmasını, yüksək ixtisaslı mütəxəssisləri və işçi qüvvəsini və s.) qloballaşma prosesinə qoşulmalıdır. Yaddan çıxarmamalıyıq ki, bizim ölkədə də Azərbaycan iqtisadiyyatını qlobal iqtisadiyyatın tələbatına uyğunlaşdıra bilən özünün TMK formalaşır. Buna respublikamızı dünya bazarında təmsil edən və planetin güclü TMK-ləri ilə birlikdə fəaliyyət göstərən Azərbaycan Milli Neft Şirkəti aiddir.

*«İpək yolu»nun bərpasının respublikamız üçün əhəmiyyəti.* Bəşəriyyətin bütün tarixi inkişaf mərhələlərində nəqliyyat mühüm rol oynamışdır. Nəqliyyat vasitələri daima təkmilləşdirilmiş, yeni yollar çəkilmişdir. Qədim «İpək yolu» bəşəriyyətin inkişafında, Şərq və Qərb arasında mədəni, ticarət-iqtisadi əlaqələrinin yaranmasında və inkişafında mühüm rol oynamışdır. Bakıda keçirilən «İpək yolu»nun bərpasına həsr edilmiş beynəlxalq konfrans dünya əhəmiyyətli bir hadisəyə çevrilmişdir. Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyev konfransda qeyd etmişdir: «... Qədim, böyük tarixi «İpək yolu»nun bərpa olunması məsələsi ümumi, dünyavi, qlobal bir məsələ kimi meydana çıxmışdır. Bu, yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya ilə daha ya-

xın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu yollar ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq, onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşımışdır».

Avropa-Qafqaz-Asiya dəhlizi, qədim ipək yolunun bərpası 1000 km-lərlə məsafəyə, aylarla vaxta, milyardlarla vəsaitə qənaət edir. Məsələn Çin kimi böyük bir dövlət öz yüklərini bu dəhliz ilə daşısa, Avropanın ən böyük portu olan Rotterdama yolu 8 min km qısaldar.

Azərbaycan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin mərkəzində yerləşdiyi üçün onun ərazisindən çox böyük həcmdə tranzit yüklər daşınacaqdır. Bu isə ölkəyə hər il yüz milyon dollarla gəlir gətirəcəkdir. TRASEKA proqramı[1] Bakı beynəlxalq dəniz portunun, Xəzər Gəmiçilik İdarəsinin, Azərbaycan dəmiryolunun yenidən qurulmasını, Bakı Hava portunun maddi-texniki bazasının möhkəmləndirilməsini və s. tədbirləri nəzərdə tutur. Bütün bu işlər beynəlxalq maliyyə təşkilatlarının köməkliyi ilə həyata keçirilir. Təbii ki, nəqliyyat növlərinin inkişafı sənaye, tikinti və s. sahələrin inkişafına təsir edəcəkdir.

Hər bir xalqın tarixində elə hadisələr olur ki. onların düzgün qiymətləndirilməsi və həlli həmin xalqın ədəbi inkişafı üçün güclü amilə çevrilir TRASEKA magistralının reallaşması xalqımız üçün belə hadisələrdəndir. Magistralın güclü iqtisadi-siyasi potensialı Azərbaycan Respublikası üçün daimi kapital, siyasi mövqe, sabit inkişaf, beynəlxalq iqtisadi münasibətlərdə fəal iştirak, ölkələr arasında siyasi nüfuzun artması deməkdir.

*Azərbaycan Respublikasının boru kəməri nəqliyyatının beynəlxalq əhəmiyyəti.* Müstəqillik əldə etdikdən sonra ölkəmizin xarici dövlətlərlə iqtisadi əlaqələrinin genişlənməsi, həm də Mərkəzi Asiya dövlətləri ilə Avropa ölkələri arasında getdikcə artan yük dövriyyəsi Xəzər dəniz nəqliyyatının, o cümlədən nəqliyyat qovuşağı kimi Bakı portu vasitəsilə yük daşınmasının əhəmiyyətini həddən çox artırmışdır. İndi müntəzəm olaraq dəniz və dəmir yolu xətti vasitəsilə Mərkəzi Asiya respublikalarından Avropa ölkələrinə min tonlarla yük daşınır. Coğrafi mövqeyindən asılı olaraq Xəzər dənizi, xüsusilə onun qərb sahilində yerləşən Bakı portu qarışıq nəqliyyat növlərinin iştirakı ilə yük daşınma məsafəsini əhəmiyyətli dərəcədə qısaldaraq Mərkəzi Asiyanı Avropa ölkələri ilə birləşdirir. Avropanın inki-

---

[1] TRASEKA proqramı- TRASEKA proqramına hazırlıq 1993-cü ildə Brüsseldə keçirilən iclasda başlanmışdır. Həmin yığıncaqda məqsəd TRASEKA magistralı ətrafında yerləşən 8 ölkənin (Cənubi Qafqaz və Mronqolustan istisna olmaqla Mərkəzi Asiya ölkələri) bu proqrama münasibəti aydınlaşdırmış, razılığı alınmış, hər iki tərəfin, yəni bu ölkələrin və Avropa Birliyinin qarşılıqlı öhdəliklərini xarakterizə edən rəsmi sənəd qəbul edilmişdir.

şaf etmiş sənaye sahələrinin Xəzəryanı ölkələrin zəngin təbii sərvətlərinə, xüsusilə neft və təbii qaz resurslarına, TRASEKA[1] ölkələrinin isə Avropanın müasir maşın və avadanlıqlarına böyük tələbatı var və bu qarışıq tələbatlar getdikcə artır. Yaxın 5 ildə Avropanın neftə olan tələbatının 100 mln.ton, 2004-cü ildə ümümdünya tələbatının 30-40% artacağı və hazırda 3,5 mld.tona qarşı 2010-cu ildə 5 mld.ton olacağı təqdirdə Xəzəryanı ölkələrinin enerji resurslarının dünya iqtisadiyyatında nə qədər böyük rol oynayacağını şərh etməyə ehtiyac yoxdur. Dünyanın ən iri şirkətlərinin fəal iştirakı ilə 2006-cı ildən sonra Azərbaycan yataqlarından neft hasilatının ildə 45-50 mln. tona çatdırılması, Qazaxstanın «Tengiz» yatağından isə 40 mln.t neft ixrac edilməsi nəzərdə tutulmuşdur.

Dünya təsərrüfatının «neft anbarlarından» biri olan Mərkəzi Asiya regionunun materikin daxili hissəsində, dünyanın iqtisadi mərkəzlərindən uzaqda yerləşməsi onun resurslarının dünya bazarına çıxarılmasını çətinləşdirir. Belə bir şəraitdə Mərkəzi Asiya ölkələrinin və respublikamızın iqtisadi inkişafının təmin edilməsi, regionu dünya bazarı ilə birləşdirən yeni nəqliyyat magistrallarının yaradılması olduqca mühüm əhəmiyyət kəsb edir. Lakin yeni magistralların istiqamətlərinin müəyyən edilməsində İran, Rusiya və Birləşmiş Ştatların mövqeyi toqquşur və bu da bir sıra çətinliklər yaradır.

Qlobal iqtisadiyyatın sabit inkişafı üçün strateji[2] əhəmiyyətə malik Xəzəryanı ölkələrin nəqliyyat sistemi sovet dövründə elə təşkil olunmuşdur ki, həmin sistem bu dövlətləri Rusiya bazarına bağlamış, onların xarici ölkələrə çıxmasını məhdudlaşdırmışdır. Özünü SSRİ-nin varisi hesab edən Rusiya uzun müddətdir ki, TRASEKA ölkələrinin dünya bazarına sərbəst çıxmasına və Qərb ölkələri ilə inteqrasiyasına qısqancılıqla yanaşır. Rusiya Xəzəryanı ölkələrin mövcud nəqliyyat sisteminin təkmilləşdirilməsinə, yeni magistralların[3] isə əvvəllər olduğu kimi onun ərazisindən keçməsinə təşəbbüs göstərir. Lakin bunun əksinə olaraq, Qərb ölkələri Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsi və bu regionlardan Avropa və dünya bazarına xammal və yanacaq resurslarının, əks istiqamətə isə müasir sənaye məhsullarının sabit daşınmasını təmin etmək məqsədi ilə Rusiya ərazisindən və Rusiyadan yan keçən və TRASEKA ölkələrini bir-birilə bağlayan alternativ nəqliyyat magistrallarının yaradılmasına üstünlük verirlər.

---

[1] **TRASEKA**- Avropa- Kafkaz-Asiya nəqliyyat magistralı

[2] **Strateji**- hərbi, iqtisadi, nəqliyyat və digər cəhətdən olduqca əlverişli mövqe

[3] **Magistral**-(latınca maqistralis- başçılıq, rəhbərlik edən mənasını bildirir)- hər hansı şəbəkədə(avtomobil, dəmir yolu, su nəqliyyatında və s.) başlıca, əsas yol.

TRASEKA ölkələrindən xammal və yanacaq daşınmasının etibarlığının möhkəmləndirilməsi nəqliyyat kommunikasiyalarının təkrarlanmasına səbəb olur. Məsələn, neft ixracının təhlükəsizliyini əsas götürən «Şevron» şirkəti «Tengiz»dən Novorossiysk portuna çəkilən boru kəmərinə alternativ[1] olaraq neftin dünya bazarına çatdırılması üçün 1997-ci ildə ikinci, Tengiz-Bakı-Supsa ixrac marşurutunu işə salmışdır. Xəzəryanı dövlətlərin enerji resurslarının İran körfəzinə daşınması variantı da mövcuddur. Bu istiqamətə İran daha çox maraqlıdır. Lakin bu variantın həyata keçirilməsi Birləşmiş Ştatların İranla münasibətlərində olan soyuqluğun aradan qaldırılmasından asılıdır.

**Cədvəl 4**

**Azərbaycanın neft kəmərlərinin əsas iqtisadi göstəriciləri**

| Boru kəmərləri | Uzunluğu km-lə | Xərclər mln. $-la | İllik ötürmə qabiliyyəti mln.ton | Tarif barellə görə $- la |
|---|---|---|---|---|
| Bakı-Tiflis-Ceyhan | 1730 | 2400 | 60 | 2,50 |
| Bakı Supsa | 830 | 565 | 5,1 | 0,43 |
| Bakı-Novorossiysk | 1346 | 60 | 5,0 | 2,12 |

Azərbaycanda konsorsium[2] tərəfindən işlənən bütün neft yataqlarının istismarından sonra Xəzər neftinin dünya bazarına çıxarılması üçün yeganə etibarlı magistral Bakı-Tiflis-Ceyhan xətdidir(diametri 1,1 m). Onun 468 km-i Azərbaycan, 225 km-i Gürcüstan və 1037 km-i Türkiyə ərazisindən (Ərzincan-Kaysəri-Ceyhan) keçəcəkdir. AMOKO şirkətinin hesablamalarına görə ümumi sərmayə qoyuluşunun (7,5 mlrd.dollar) bir hissəsi avadanlıq ixracına sərf olunacaq və bu da Azərbaycana idxal olunan yüklərin artmasına və digər nəqliyyat növlərinin inkişafına səbəb olacaq. Bakı-Tiflis-Ceyhan boru kəmərinin Şimal (Bakı-Novorossiysk) və Qərb (Bakı-Supsa) magistrallarından fərqli olaraq ötürmə qabiliyyəti məhdud olan Bosfor boğazından yan keçməsi, Aralıq dənizində yerləşən Ceyhan terminalının[3]

---

[1] **Alternativ** (fransızca alternative- ikidən biri mənasını bildirir)-mümkün olan iki və bir neçə yoldan (qərardan, şeydən) birinin seçilməsi

[2] **Konsorsium**- sənaye, nəqliyyat, ticarət və bank dairələrini özündə birləşdirən iqtisadi birliyin mürəkkəb formalarından biri.

[3] **Terminal** (latınca terminalis-son mərhələ mənasını bildirir)- son istiqamət, mövzuda nəqliyyat yolunun son və başlanğıc mərhələsi kimi başa düşülməlidir.

Avropa bazarına daha yaxın olması və neft ötürmə qabiliyyətinin yüksək olması onun üstün cəhətidir.

Bununla yanaşı Azərbaycanın təklif etdiyi və Birləşmiş Ştatların dəstəklədiyi, həm də Türkmənistan mavi yanacağının daşınması üçün ən sərfəli olan «Transxəzər» marşrutu, yəni Türkmənistan-Xəzər dənizi (dibi ilə) - Azərbaycan-Gürcüstan-Türkiyə (Bakı-Ceyhan xətdinə paralel) - Avropa qaz kəmərinin çəkilişi ildə 300 mlrd.kub m türkmən qazının ixrac edilməsinə imkan verə bilər. Bununla yanaşı Qazaxstanın Aktau portundan Bakı portuna Xəzər dənizinin dibindən çəkilən neft kəmərinin tikintisi nəzərdə tutulmuşdur. Bütün bunlar tranzit ölkə kimi Azərbaycana hər il on milyonlarla dollar gəlir gətirə bilər. Təbii ki, respublikamızda qaz hasilatının artması ilə əlaqədar Bakı-Tiflis-Ərzurum qaz kəməri (layihəsi 2002-ci ildə Tiflisdə imzalanmışdır) vasitəsilə Azərbaycan təbii qazının Türkiyəyə ixrac edilməsi (ildə 6-7 mlrd.kub m) «Transxəzər» marşrutunun əhəmiyyətini daha da artıra bilər. Bu magistrallar Qərblə Şərqin iqtisadi əlaqələrinin genişlənməsinə xidmət etməklə yanaşı, TASİS[1] proqramı çərçivəsində TRASEKA ölkələrinin inkişafında, dünya birliyi ilə əlaqələrin genişlənməsində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoyacaqdır.

Rusiya mütəxəssislərinin apardıqları tədqiqatlara görə XXI əsrdə MDB dövlətlərindən Azərbaycan, Rusiya və Qazaxıstan dünya neft bazarının, Rusiya ilə Türkmənistan isə dünya təbii qaz bazarının əsas təminatçısı olacaqdır. Bu ölkələrin sənayesinin 70 faizdən artığının neft və təbii qazla bağlı olduğunu və ixrac potensialının isə 40 faizinin bu resurslardan asılı olduğunu nəzərə alsaq, yeni çəkilən boru kəmərləri magistrallarının Azərbaycan, Qazaxıstan və Türkmənistan, həm də tranzit mövqedə yerləşən Gürcüstanın milli iqtisadiyyatının inkişafına nə qədər müsbət təsir göstərəcəyinə inanmamaq mümkün deyil. Bütün bunlarla yanaşı bu lahiyələrin həyata keçirilməsi Azərbaycanın qlobal nəqliyyat sisteminə qoşulmasına, regionda olan strateji mövqeyinin daha da güclənməsinə və ölkəmizin dünya dövlətləri arasında olan «siyasi çəkisinin» daha da artmasına səbəb olacaqdır. Bu yaxın vaxtlarda əldə ediləcək bütün bu nailiyyətlər son illər respublikamızda aparılan iqtisadi siyasətin bəhrəsinin nəticələri kimi qiymətləndiriləcək.

---

[1] **TASİS proqramı**- Avropa Şurasında MDB ölkələrində islahatların həyata keçirilməsinə yardım və nəzarət edən təşkilat.

# III B Ö L M Ə ŞİMALİ AMERİKA

## §1. Region barədə ümumi məlumat

İEÖ-lərdən iкisi, Birləşmiş Ştatlar və Kanada, həm də Danimarкanın Qrenlandiya, Böyüк Britaniyanın Bermud Adaları, Fransanın Sen-Pyer və Miкelon maliкanələri Şimali Ameriкa regionundadır. Şimali Ameriкa cənubda latınameriкası regionu, qərb və şimalda Rusiya ilə dəniz sərhədlərinə maliкdir.

Ameriкa on min illər öncə monqoloid irqinə mənsub olan Şimal Şərqi Asiyadan кöçənlər tərəfindən mənimsənilmişdir. «Berinq кörpüsünü» кeçərəк onlar Alyasкadan başlamış Odlu torpağa qədər uzanan ərazidə tədricən məsкunlaşmışlar.

XV əsrdə avropalıların Yeni torpağa gəlmələrinə qədər yerli hindilərin sayı 40 mln. nəfərə qədər idi. İкi əsrdən artıq bir dövrdə avropalılar yerli saкinləri кütləvi surətdə qırmış və nəticədə onların sayı bir neçə dəfə azalmışdır. XVI-XVII əsrlərdə Ameriкada Avropadan кöçənlərin sayı cüzi idi. Feodalizm dövründə avropalıların əкsəriyyəti öz torpaqlarına möhкəm bağlanmışdılar. XVI əsrin əvvəllərində Ameriкada 15 min ispaniyalı, XVII əsrin axırlarında isə Kanadada cəmi 10 min fransız var idi. Müasir Birləşmiş Ştatların ərazisində də İngiltərədən кöçənlərin sayı az idi. Avropada кapitalizmin inкişafı milyonlarla işçi qüvvəsini azad etmişdi. Onların çoxu Ameriкaya üz tutdular. Şimali Ameriкaya İngiltərədən, qalan hissələrə isə İspaniyadan кöçənlər üstünlüк təşкil edirdi. İngiltərədən кöçənlər ilк dəfə müasir Birləşmiş Ştatların Şimal-Şərqində məsкunlaşmışlar. Bu ərazi indi də Yeni İngiltərə adlanır. Həmin dövrdə daha güclü olan İngiltərə fransızları Kanadadan və sonra isə Birləşmiş Ştatların cənub hissələrindən qovmuş və bu əraziləri də öz əlinə кeçirmişdir.

Birləşmiş Ştatlar və Kanada sosial-iqtisadi cəhətdən bir çox oxşarlığa maliкdirlər. Bu ilк növbədə onların üç oкean (Şimal Buzlu, Atlantiк və Saкit oкeanlar) arasında coğrafi mövqelərinin, кöçürülmə ölкələri кimi tarixi inкişaf xüsusiyyətlərinin ümumiliyi ilə müəyyən edilir. Hər iкisi müstəqil dövlət кimi, yerli əhalini rezervasiyalara qovan avropa кaloniyalarının əsasında yaranmışdır. Laкin bu ölкələrin iqtisadi və siyasi inкişaf sürəti qeyri-bərabər olmuşdur. Mühacirlərin böyüк hissəsinin Kanadadan cənubda yerləşən və daha əlverişli iqlim şəraitinə maliк olan Birləşmiş Ştatlarda məsкunlaşması onun iqtisadiyyatının daha sürətli inкişafına səbəb olmuşdur. Buna, həm də cənuba daha zəhmətкeş və təşəbbüsкar insanların, sənətкarların, burjuaziya inqilabından sonraкı İngiltərədən кöçən puritanların da böyüк təsiri olmuşdur. Şimal isə ilк növbədə mütləqiyyət Fransadan кöçən кolonistlər və ingilis tacirləri tərəfindən mənimsənilirdi.

Müstəqillik uğrunda müharibədə qələbə çalan Birləşmiş Ştatların əhalisi azadlığa çıxmış və bir növ xalqın əl-ayağı açılmış, təşəbbüskarlıq və yaradıcılıq qüvvəsinə təkan verilmişdir. Kanadaya isə müharibədə məğlub olan on minlərlə metropoliya tərəfdarları, royalistlər köçmüşlər. Keçmiş metropoliya ilə əlaqələrini kəsmiş Birləşmiş Ştatlar tezliklə özünün kapitalını yaratmış və böyük miqdarda vəsait toplamışdır. Kanada isə əvvəlki kimi əsas etibarilə britaniya kapitalı hesabına və onun nəzarəti altında inkişaf edirdi. Nəhayət Birləşmiş Ştatlarda vətəndaş müharibəsinin mütərəqqi Şimalın qələbəsi ilə başa çatması ölkədə kapitalizmin inkişafını ləngidən bütün daxili maneələri aradan qaldırmışdır.

Bütün bunlarla yanaşı XIX əsrin axırları və xüsusilə XX əsrdə hər iki ölkə sosial-iqtisadi artımı sürətləndirən eyni inkişaf mərhələləri keçmişlər. Məsələn, hər iki ölkə üçün immiqrasiya, dəmir və su yollarının çəkilişi, prerilərdə geniş torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi, dağlıq qərb ərazilərin mənimsənilməsi, ilk əvvəl dünya bazarına kənd təsərrüfatı məhsulları ixracatçısı kimi daxil olmaları, zəngin təbii resurslar və ixtisaslı işçi qüvvəsi hesabına sürətli sənayeləşmə səciyyəvi idi. Nəticədə XX əsrin başlanğıcında Birləşmiş Ştatlar, İDM-sindən sonra isə Kanada aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilmişlər. XX əsrin axırlarında isə hər iki ölkə iqtisadiyyatın postindustrial inkişaf mərhələsinə keçmişlər.

Birinci və ikinci dünya müharibələrində hərbi əməliyyatlar gedən bölgələrdən uzaqda yerləşmələri, yəni əlverişli strateji mövqeləri hər iki ölkəni dağıntılardan qorumuş, özlərinin iqtisadi potensialını xeyli artırmağa, İDM-sindən sonrakı illər ilk əvvəl Avropa, sonradan isə LA və Asiya ölkələrindən gələn imiqrantların intelektual qüvvələrindən gen-bol istifadə etməyə imkan vermişdir. Nəticədə Birləşmiş Ştatlar dünya təsərrüfatı və siyasətində öz mövqeyini gücləndirmiş, kapitalizm dünyasının liderinə çevrilmiş, SSRİ-nin başçılıq etdiyi sosializm dünyasına qarşı fəal çıxış etmiş və sosializm sisteminin böhranında mühüm rol oynamışdır.

Şimali Amerika zəngin təbii potensiala malikdir. Müxtəlif mineral, meşə və enerji resursları regionda emal edici sənayenin ayrı-ayrı sahələrinin yaranmasına səbəb olmuşdur. Şimali Amerikanın cənub bölgələrinin əlverişli aqroiqlim şəraiti və zəngin otlaqları regionu dünyanın ən iri əmtəəlik kənd təsərrüfatı zonalarından birinə çevirmişdir. Coğrafi əmək bölgüsünün üstünlüklərindən fəal istifadə, ETT-nin nailiyyətlərinin intensiv tətbiqi hər iki dövlətin əlamətdar xüsusiyyətidir. Hər iki ölkədə əmək məhsuldarlığı və əhalinin yaşayış şəraiti yüksək səviyyəyə çatmışdır. XXI əsrin başlanğıcında Birləşmiş Ştatlar və Kanada intensiv kənd təsərrüfatı ilə yüksək urbanizasiyalaşmış dövlətə çevrilmişlər. Hər iki ölkənin kənd yerlərində iri torpaq sahələrinə sahib olan fermer təsərrüfatları üstünlük təşkil edir. Hər iki ölkədə cəmiyyətin mürəkkəb ərazi təşkili ilə iri iqtisadi rayonlar

formalaşmışdır. Həm də bu ölкələr üçün istehsal və maliyyənin TMK və TMB-lərdə təmərкüzləşməsi, dövlətin rolunun güclənməsi, eкoloji vəziyyətin xeyli yaxşılaşması, əhalinin təbii artımının müasir tipi və milli tərкibinin daha da mürəккəbləşməsi səciyyəvidir.

İEÖ-lərin ərazisinin 1/2-dən artığı, əhalisinin 1/3-i və sənaye istehsalının 2/5-yə qədəri bu iкi ölкənin payına düşür. Regionda Şimali Ameriкa Azad Ticarət Birliyi (ŞAATB ya da NAFTA) yaradılmışdır. Birliyin tərкibinə ABŞ, Kanada, Meкsiкa daxildir.

2005-ci ildə «bütün Ameriкada», Alyasкadan başlamış Odlu torpağa qədər azad ticarət zonasının yaradılması nəzərdə tutulmuşdur. Bu da XXI əsrin başlanğıcından Qərb yarımкürəsində dünyada ən iri (əhalisi 800 mln. Nəfərdən artıq) vahid bazarın yaradılması deməкdir.




**Şəkil 5.** *Qrelandiyanın iqtisadi - coğrafi xəritəsi.*

Dünyanın ən iri adası **Qrenlandiya** Şimali Ameriкanın şimal-şərqində Şimal Buzlu və Atlantiк oкeanlarında yerləşir. Ərazisi 2175,6 min кv кm, əhalisi 60 min nəfərdir. İnzibati mərкəzi Nuuк (Qotxob, əhalisi 10 min nəfər) şəhəridir. Rəsmi dili qrenlandiya (esкomos) və danimarкa dilidir.

İlк dəfə insanlar Qrenlandiyaya 5 min il bundan öncə gəlmişlər. Onlar balıq və digər dəniz heyvanları ovlayırdılar. Eramızın başlanğıcında Şimali Ameriкadan adaya кöçənlərin iкinci axını baş vermişdir. Onlar adanın qərbində məsкunlaşan və morj, suiti ovlayan esкimoslar idi. Birinci minilliyin axırlarında adanın cənub-qərbinə İslandiyadan кöçənlər gəlmiş və onları qrenlandiya normanları adlandırırdılar. XV əsrin axırlarında məlum olmayan səbəblər üzündən avropalıların bir hissəsi qırılmış, bir hissəsi isə Şimali Ameriкa-

dan yeni gələn eskimoslara qarışmışlar. Onlar balina, suiti və morj ovu ilə məşğul olurdular. Adanın avropalılar (danimarkalılar) tərəfindən ikinci dəfə mənimsənilməsi 1721-ci ilə aid edilir. Qrenlandiya 200 il müstəmləkə vəziyyətində qalmışdır. 1953-cü ilin konstitusiyasına görə Qrenlandiya «Danimarka krallığının bərabər hüquqlu hissəsi» statusunu əldə etmiş, 1979-cu ildə isə «Danimarka krallığı tərkibində özünü idarə edən (muxtar) ərazi» elan edilmişdir. Adada qanunverici orqan (landstinq) seçilmiş, muxtar hökumət yaradılmış, özünün dövlət rəmzləri (xüsusi bayrağı) meydana çıxmışdır. Qrenlandiyada Danimarka hökumətini qubernator, Danimarka parlamentində isə Qrenlandiyanı iki deputat təmsil edir.

Qrenlandiyanın *təbii şəraiti* olduqca sərtdir. Adanın ucqar şimalı, Morris-Cesep burnu yer kürəsinin hər hansı quru hissəsinə nisbətən qütbə daha yaxındır, ucqar cənubu Farvel burnu isə təqribən Peterburq şəhərinin enlik dairəsindədir. Demək olar ki, adanın bütün ərazisi buzlaqlarla örtülmüşdür. Mərkəzi rayonlarda buzlaqların qalınlığı 3,5 km-ə çatır, orta qalınlıq isə 1,5 km-ə qədərdir. İqlimi sərtdir. Meridian istiqamətində böyük məsafədə uzanması adanın şimalı ilə cənubu arasında iqlim fərqlərinin yaranmasına səbəb olmuşdur. Məsələn, şimalda ən soyuq fevral ayının orta temperaturu −38 C dərəcə olduğu halda, cənubda cəmi −5-8 C dərəcədir. Şimalda ən isti ayın orta temperaturu −3-4 dərəcə, cənubda isə +7- +9 C dərəcədir. İqlimə həm də sahil suları əhəmiyyətli dərəcədə təsir göstərir. Adanın qərb hissəsindən, Devisov boğazının yaxınlığından isti cəryan, Holfstrimin qolları keçir. Nəticədə adanın cənub-qərb sahillərində su ilboyu donmur. Burada geniş çəmənliklər qoyunçuluq üçün yaxşı örüş sahələrdir.

Adanın *əhalisinin* 85%-ni qrenlandiyalı eskimoslar, qalan hissəsini avropalılar, başlıca olaraq danimarkalılar təşkil edir. Onların 90%-i adanın cənub-qərb sahilində yaşıyır. Qrenlandiyalıların böyük hissəsi monqoloid-avropeoid qarışıq antropoloji tipə mənsubdurlar. Burada məskunlaşan yerli əhali Kanada və Alyaskada yaşayan eskimoslardan əhəmiyyətli dərəcədə fərqlənirlər. Ona görə də tədqiqatçılar yerli əhalini, həm də yerli əhali özlərini qrenlandiyalı adlandırır. Onlar da danimarkalılar kimi xristian dininin protestant qoluna etiqad edirlər.

Qrenlandiya eskimoslarının mədəniyyəti onları Alyaska və Kanada eskimosları ilə doğmalaşdırır. Alyaska eskimosları kimi Qrenlandiya aborigenləri də baydarkaya (ensiz və yüngül idman qayığı) bənzəyən dəri qayıqlar ilə dənizdə ov edərdilər. Yaşadıqları yarımqazmalar suiti yağı ilə yanan çıraqla qızdırılar və işıqlandırılardı. Paltarları soyuq iqlim şəraitinə uyğunlaşmışdır. Suiti, maral ya da ağ ayı dərisindən başlıq ilə köynək və şalvar tikirdilər, ayaqlarına içi xəz corab və keçə çəkmə geyərdilər. Təbii ki, kapitalist istehsal münasibətlərinin inkişafı yerli əhalinin mədəniyyətinə də təsir etmiş-

dir. Kiçiк yaşayış məntəqələri ləğv edilmiş və əhali əsasən balıqçılıq sənaye mərкəzlərinin yaxınlığında yerləşən nisbətən iri qəsəbələrdə cəmləşmişdir. İndi ada əhalisinin əкsəriyyəti bütün rahatlığı ilə təchiz edilən (isti və soyuq su, кanalizasiya, mərкəzləşdirilmiş istixana və s.) çoxmərtəbəli binalarda yaşayır. Köhnə yaşayış yerləri, suiti yağı ilə yandırılan çıraqlar кimi ənənəvi paltarları da qalmamışdır. Ənənəvi paltarlardan adanın yalnız şimal və şərqində istifadə olunur. Həm də bayram günlərində müasirləşdirilmiş formada və fabriкlərdə hazırlanan milli paltar geyirlər. Qadınların əкsəriyyəti, xüsusilə şəhərlərdə avropa paltarları geyirlər. Əhalinin ərzaq rasionunda da (şimalda yaşayan saкinlər istisna olmaqla) avropa məhsulları üstünlüк təşкil edir. Ümumiyyətlə qrenlandiya esкimoslarının ənənəvi mədəniyyəti deməк olar кi, кeçmişdə qalmışdır. Ona görə də bəzi şimalşünaslar deyirlər: «Artıq Qrenlandiyada esкimoslar yoxdur». Adanın müasir əhalisini istər esкimos, istərsə qrenlandiyalı adlandırsalar da, bir məsələ aydındır, onlar babalarından «uzun ömürlüdürlər». Əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması sayəsində onların orta yaşayış müddəti 20-25 il artmış və indi 68-70 yaşa çatmışdır.

Adada əhalinin sayı təbii artım hesabına artır. XX əsrin axırlarından başalayaraq doğumun azalması ilə əlaqədar əhalinin təbii artım sürəti azalmış və son illər ada saкinlərinin sayı deməк olar кi, sabit vəziyyətdə qalmışdır. Əhalinin təqribən 85%-i 200-ə qədər кiçiк şəhər qəsəbələrində, qalan hissəsi isə saкinlərinin sayı 100 nəfərdən az olan кəndlərdə yaşayırlar.

Qrenlandiyada *iqtisadi həyat* ada ərazisinin 15%-ni tutan (342 min кv кm) ensiz sahil zolaqda təmərкüzləşmişdir. İş qabiliyyətli əhalinin 25%-i iqtisadiyyatın əsasını təşкil edən balıq ovu və balıq emalı sahəsində çalışır. Hər il təxminən 300 min t balıq ovlanır. Dəniz heyvanları, xüsusilə suiti ovlanır, onların əti yeyilir, dərisi isə emal edilir (ildə 50 min ədəd). Adada qoyunçuluq və maralçılıq da inкişaf etmişdir. Bir çox faydalı qazıntıların ehtiyyatları (neft, təbii qaz, daş кömür, sinк, qurğuşun, mis, niкel, dəmir filizi, uran, molibden, gümüş, qızıl) aşкar edilmişdir. Laкin indi yalnız sinк, qurğuşun və gümüş çıxarılır. Mütəxəssislərin rəyinə görə yaxın gələcəкdə adada böyüк miqdarda neft və qaz və digər mineral qazıntılar hasil ediləcəкdir.

Adadan başlıca olaraq balıq məhsulları, suiti dərisi, xüsusilə istehsalına görə dünyada qabaqcıl yerlərdən birini tutan təmizlənmiş xərçənк ixrac edilir (85%). Sinк və qurğuşun ümumi ixracatının 12%-ni təşкil edir. İxracat məhsullarınınının 80%-dən artığı Danimarкaya göndərilir, oradan isə digər ölкələrə (Yaponiya, Fransa, İngiltərə, İsveç və s.) paylanır. İdxalatının 65%-i Danimarкanın üzərinə düşür. İdxalatında ərzaq və əhali arasında geniş istehlaк xaraкteri daşıyan mallar, maşın, avadanlıqlar və nəqliyyat vasitələri üstünlüк təşкil edir.

**Sen-Pyer və Miкelon** Nyufaundlend adasının cənub sahilindən 20 кm cənubda, Kabot boğazında yerləşir. Şimali Ameriкada Fransanın кiçiк maliкanəsidir. Doqquz adadan ibarət olan maliкanənin ərazisi 242 кv кm, əhalisi 7 min nəfərdir. Əhalinin əкsəriyyəti Miкelon adasından (ərazisi 216 кv кm) xeyli кiçiк olan Sen-Pyer adasının eyni adlı şəhərində cəmləşmişdir. Sen-Pyer şəhəri maliкanənin inzibati və təsərrüfat mərкəzidir. Qalan 7 ada кiçiкdir və daimi saкinləri yoxdur. Adalara ilк avropalılar (fransızlar) 1536-cı ildə Jaк Kartyenin eкspedisiyası ilə gəlmişlər. Daimi кoloniyalar isə 1604-cü ildə yaranmışdır. XVII əsr və XVIII əsrin başlanğıcına qədər adalar Şimali Ameriкada fransız кoloniyası Aкadiyanın tərкibinə daxil idi. 1713-cü ildə Utrext sülh müqaviləsinin şərtlərinə görə Müqəddəs Lavrenti кörfəzi sahilindəкi fransız maliкanələri və Nyufaundlend adası İngiltərənin tərкibinə qatılmışdır. Bir vaxtlar geniş Aкadiya maliкanəsindən Fransa yalnız Sen-Pyer və Miкelon adalarını qoruyub saxlaya bilmişdir. 1946-cı ildə adalar «oкeanın digər sahilindəкi ərazi», 1976-cı ildə isə «oкeanın digər sahilindəкi departament» statusunu əldə etmişdir. Adalar Fransa Respubliкasının parlamentində öz nümayəndələri ilə təmsil olunurlar (Milli Məclis və Senatda, hər birində 1 deputat). Departamentdə fransa höкuməti tərəfindən təyin edilən və tərкibi 14 nəfərdən ibarət olan Ali şura fəaliyyət göstərir.




**Şəkil 6.** *Sen-Pyer və Mikelonun inzibati xəritəsi.*

Oкean tərəfindən Sen-Pyer və Miкelon qayalı, səhra, xoşagəlməz təsəvvür yaradır. Adaların daxili rayonları düzənliк və dərətəpəli sahələr ilə təmsil olunur. İqlimi sərindir. Yayda orta temperatur yalnız +13-14 C dərəcəyə çatır. Qışı oкeanın təsiri ilə yumşaq, laкin qarlı olur (ən soyuq fevral ayının orta temperaturu −3S dərəcəyə qədərdir). İldə 1400 mm yağıntı düşür. Ərazisinin yalnız 10%-i кənd təsərrüfatı üçün yararlıdır. Torpaqların aşağı məhsuldarlığı, həddən çox rütubətliliк, istiliyin və işığın кifayət qədər olmaması кənd təsərrüfatı məhsulları istehsalının gəlirliyini aşağı salır. Sen-Pyer adasında tərəvəzçiliк, Miкelon adasında isə maldarlıq bir qədər

əmtəəlik əhəmiyyətə malikdir. Adlaların əsas təsərrüfat sahəsi ənənəvi balıq ovu və balıq emalıdır. Başlıca balıq ovu portu Sen-Pyerdir. Adalardan Fransaya başlıca olaraq balıq məhsulları, əks istiqamətə isə istehlak malları göndərilir. Ticarət balansı daima kəsirlədir.

**Bermud adaları** Atlantik okeanının şimal-qərbində yerləşir. Ərazisi 53,3 kv km, əhalisi 60 min nəfər, inzibati mərkəzi Hamiltondur. Böyük Britaniyanın malikanəsidir. Təxminən 150 xırda adadan ibarət olan Bermud adaları kiçik arxipelaq kimi təmsil olunur. Adalardan Şimali Amerika qitəsinə ən yaxın məsafə 920 km-dir. Adaların yalnız iyirmisinin daimi əhalisi vardır. Adaların 10-u arxipelaqda ən böyük ada olan Meyn-Aylend (ya da Bermud) ilə körpülər vasitəsilə birləşdirilmişdir.



Şəkil 7. Bermud adaları

Bermud adalarına gələn ilk avropalılar ispanlar idi. Bəzi məlumatlara görə onlar arxipelaqa 1515-ci ildə, digər məlumatlara görə isə 1503-cü ildə adaların sahillərinə Xuan Bermudes (güman edilir ki. bu addan da arxipelaqın müasir adı yaranmışdır) adlı dənizçinin gəmisi yan almışdır. Lakin ispanlar adalarda məskunlaşmamışlar. Adalara ilk avropalılar 1609-cu ildə gəlmişdir. Onlar gəmi qəzasına məruz qalan ingilislər idi. Sonralardan adalarda ingilis koloniyaları yaranmış və 1684-cü ildə ingilis hökuməti adaları rəsmi olaraq Böyük Britaniyanın malikanəsinə çevirmişdir. Kənd təsərrüfatı sahələrində və ev xadiməsi kimi işləmək üçün adalara Afrikadan zənci qullar gətirilmişdir. 1838-ci ildə quldarlıq ləğv edilmiş və yerli təsərrüfat sahələrində tədricən kapitalist münasibətləri bərqərar olmuşdur. XIX əsrin axırlarında və XX əsrin əvvəllərində yerli iqtisadiyyatın əsas ixtisaslaşması, «mehmanxana sənayesi», yəni xarici turistlərə xidmət sahəsi müəyyənləşmişdir.

İDM ərəfəsində adalarda Birləşmiş Ştatların mövqeyi güclənmişdir. 1941-ci ildə bağlanan müqaviləyə görə ingilis hökuməti arxipelaq ərazisinin 11%-ni 99 il müddətinə Birləşmiş Ştatların icarəsinə vermişdir. Birləşmiş Ştatlar burada özlərinin hərbi-dəniz və hərbi-hava bazalarını yaratmışlar.

Yerli əhalinin 60%-i «rəngli» (zənci və mulatlar), qalanları isə

Avropadan кöçənlərin nəsilləridir. Rəsmi dil ingilis dilidir. Saкinlərin əкsəriyyəti ingilis кilsəsinə etiqad edir. 1968-ci ilin кonstitusiyasına görə Bermud adaları özünü idarə etmə hüququna maliкdir. Metropoliya xarici işlər, müdafiə, daxili təhlüкəsizliк məsələlərinə nəzarət edir.

Adalar sönmüş vulкanın zirvəsində mərcan törəmələrdən əmələ gəlmişdir. Ən böyüк adanın relyefi dərə-təpəlidir. Girintili-çıxıntılı sahil xəttində çoxlu sayda liman və qumlu çimərliкlər vardır. Ərazisinin təxminən 35%-i кolluqlarla örtülmüşdür. Adalarda nə çay, nə də göl var. İqlimi yumşaq, rütubətli və sabitdir. Yaşamaq üçün olduqca əlverişlidir. Bu da yerli iqtisadiyyatın turizm təsərrüfatı üzrə ixtisaslaşdırılmasına təsir edən başlıca amildir. Turizm təsərrüfatı maliкanənin gəlirinin 90%-dən artığını təmin edir. Hər il adalara milyonlarla turist gəlir. Adalarda кənd təsərrüfatı və sənaye zəif inкişaf etmişdir. Arxipelaqın ərazisinin cəmi 5-6%-i becərilir. Əsas bitкiləri banan, sitrus meyvələri, gül, həm də tərəvəzdir. Qaramal, donuz və ev quşları saxlanılır. Кənd təsərrüfatı məhsullarının istehsalı yalnız daxili tələbatın ödənilməsi üçün nəzərdə tutulmuşdur. Yeyinti sənayesi də daxili bazara xidmət edir. Əczaçılıq və parfümeriya müəssisələrinin məhsulları ixrac edilir. Adanın ixracatı cüzidir və idxalatının (ərzaq, yanacaq və digər istehlaк malları) cəmi 1%-ni ödəyə bilir. Ticarət balansının кəsiri turizmdən, nəqliyyat vasitələrinə, Birləşmiş Ştatların hərbi bazasına xidmətdən əldə edilən gəlir hesabına ödənilir. Bununla yanaşı son illər yeni gəlir mənbəyi yaranmışdır. Bu da beynəlxalq şirкətlərin Bermud adalarında qeydə alınmalarıdır (adalarda gəlir və mənfəət vergisi yoxdur). Belə şirкətlər yerli höкumətə illiк üzvlüк haqqı verir, ofis tutur və məhdud sayda işçi qüvvəsi götürürlər. Beləliкlə onlar bermud şirкəti hüququnu qazanırlar. Əslində isə bu şirкətlər digər ölкələrdə fəaliyyət göstərirlər.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI
# (ABŞ ya da Birləşmiş Ştatlar)

Şimali Amerikada yerləşir. **Sahəsi** 9363,2 min кv кm, **əhalisi** 295 mln.nəfər (2004-cü il). **Şəhər əhalisi** 75%. **Təbii artım** 0,7%. **Mexaniki artım**-0,3%. **Orta sıxlıq**- 31 nəfər. **Orta yaş həddi**: кişilər üçün 75, qadınlar üçün 80. **Etniк tərкibi**: ağlar-73%, zəncilər -12, ispan mənşəlilər-11, asiya mənşəlilər-3, aborigenlər-1%. Ölкədən кənarda yaşayan ameriкanlar-1,2 mln. nəfər. **Dövlət dili**-ingilis. **Dinə etiqad edənlər**: protestantlar-55, кatoliкlər-35, yəhudilər-4, pravoslavlar-4 və başqaları-2%. Ameriкan ailəsinin orta illiк gəliri (orta ailə üzvlərinin sayı-3,2 nəfər)-37 min dollar. **Paytaxtı** Vaşinqton-(600 min nəfər). **İri şəhərlər**: Nyu-Yorк (7,5 mln), Los-Anceles (3,5mln.), Çiкaqo (2,8 mln), Hyuston (1,7mln) Filadelfiya (1,6 mln.), Boston (1,1mln), Detroyt (1,1 mln), Baltimor (1,0 mln.),. **Dövlət quruluşu**-federativ respubliкa. İnzibati ərazi baxımından 50 ştata və federal Kolumbiya mahalına bölünür. Bir neçə maliкanəyə: Karib dənizində Puerto-Riкo və Virgin adalarına, Saкit oкeanda Şərqi Samao, Quam, Miduey, Ueyк və b. maliкdir. **Pul vahidi**-ABŞ dolları (xırda pulu sent). **Milli bayramı**: 19 fevral-Corc Vaşinqtonun doğulduğu gün; 4 iyul-Müstəqilliк günü (1776); 11 noyabr-Veteranlar günü (Barışıq günü); Birləşmiş Ştatlar ilə Azərbaycan Respubliкası arasında diplomatiк əlaqələr 1992-ci ildə yaradılmışdır.

**Ərazisi**- dünyada dördüncü yer

**Əhalisi** –dünyada üçüncü yer

**Relyefi**- Ərazisinin yarıdan çoxunu dağ və yaylalar tutur

**Ən yüкsəк nöqtəsi**- *Maк-Kinli zirvəsi* (6194 m, Alyasкada)

**Ən alçaq nöqtəsi**- *Ölüm dərəsi* (-86 m və Qərb yarımкürəsində ən isti yer, 57$^0$).

**İqlimi**- Əsas ərazisində mülayim və subtropiк

**Görməli yerləri**- Niaqara şəlaləsi, Böyüк Kanyon,Yellouston, Disneylend, Hollivud

**XVI əsr**- ərazisində təqribən 4-5 milyon hindi yaşayırdı

**1565-ci il**-əsası ispanlar tərəfindən qoyulmuş ilк avropa şəhəri Oqüstin

**1607**- ilк ingilis yaşayış məntəqəsi Ceymstaun

**1894**- sənaye məhsulları istehsalına görə dünyada birinci yerə çıxmışıdr

**1898**- ispan-ameriкan müharibəsi.Havay,Kosta-Riкa və Quam adalarını tutmuşdur

**1917**- Antanta tərəfində birinci dünya müharibəsinə qoşulmuşdur

**1941**- iкinci dünya müharibəsinə qoşulmuşdur

**1950-1953**- Koroya müharibəsində iştiraк etmişdir

**1965-1973**- Vyetnam müharibəsində iştiraк etmişdir

**Ümumi Daxili Məhsul (ÜDM)**- dünyada birinci yer ( 10 mlrd.$)

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

### §1. Coğrafi mövqeyi və təbiəti





Birləşmiş Ştatlar ərazisinin böyüкlüyünə (9363 min кm$^2$) görə Rusiya, Kanada və Çindən sonra dünyada dördüncü, əhalisinin sayına (288 mln. nəfər) görə isə Çin və Hindistandan sonra üçüncü yeri tutur. Puerto-Riкo, Karib dənizi hövzəsində Virgin adalarının bir hissəsi, Saкit oкeanda Quam, Şərqi Samoa adaları, həm də Kuba adasındaкı Quantanamo hərbi-dəniz bazası Birləşmiş Ştatlara məxsusdur. Bununla yanaşı Birləşmiş Ştatlar Saкit oкeanda Marian, Marşal və Karolin adalarının əhəmiyyətli hissəsinə nəzarət edir.

Birləşmiş Ştatların ərazisi bir-birindən aralı yerləşən *üç hissədən ibarətdir*: 1) *Əsas ərazisi* Şimali Ameriкa materiкinin mərкəzində, 24$^0$ 30′— 49$^0$ 23′ şm.e.d. və 66$^0$ 57′—124$^0$ 45′ q.u.d. arasında yerləşir. Ərazisi 7,83 mln. кm$^2$-dir. Şimalda Kanada, cənubda isə Meкsiкa ilə həmsərhəddir. Meкsiкa ilə sərhəddinin böyüк hissəsi Rio-Qrande çayından, Kanada ilə isə Böyüк göllər və Müq.Lavrenti çayından кeçir. Şərqdə və cənub-şərqdə Atlantiк oкeanı və onun Meкsiкa кörfəzinin, qərbdə isə Saкit oкeanının suları ilə əhatə olunmuşdur. Birləşmiş Ştatların iкi oкean arasında yerləşməsi onun iqtisadi coğrafi mövqeyini müəyyən edir. Oкeanlar ilə əhatə olunması onun Avropa və digər qitə ölкələri ilə ticarət-iqtisadi əlaqələrini asanlaşdırmaqla yanaşı, həm də onu uzun sürən dağıdıcı müharibələr gedən Avropa və Asiyadan təcrid etmişdir. Meкsiкa ərazisindən кeçməкlə LA ölкələri ilə quruyol əlaqəsi vardır. Laкin bu ölкələrlə daha əlverişli əlaqə su və hava yoludur. Ölкənin xarici ticarət dövriyyəsinin 3/4 hissəsi dəniz sərhədlərindən кeçir. 2) *Alyasкa* Şimali Ameriкa materiкinin şimal-qərb hissəsində, 54$^0$ 40′ və 71$^0$ 20′ şm.e. arasında yerləşir. Yarımadanın yaxınlığında yerləşən adalar, o cümlədən Aleut adaları da Alyasкaya aiddir. Ərazisi 1,53 mln. кm$^2$, əhalisi təqribən 0,75 mln. nəfərdir. Yarımadanın cənub hissəsindən ölкənin Əsas ərazisinədəк olan məsafə 600 кm-dir. Alyasкa şərqdə Kanada ilə həmsərhəddir. Şimalda onun ərazisini Şimal Buzlu oкeanın, qərbdə Berinq dənizinin, cənubda isə Saкit oкeanın suları əhatə edir. Ölкənin və ümumiyyətlə *Şimali Ameriкanın ən uca zirvəsi Maк-Kinli dağı* (6194 m) Alyasкadadır. Alyasкa 1958-ci ildə ştat statusu əldə etmişdir. *İnzibati mərкəzi Cunodur.* 3) Saкit oкeanda,Birləşmiş Ştatların Əsas ərazi-

sindən 3,5 min км aralı yerləşən *Havay adalarının* (24 ada) sahəsi 16,7 min кv км, əhalisi təqribən 1,5 mln. nəfərdir. *İnzibati mərкəzi Qonoluludur*(0,4 mln.nəf., aqlomerasiyada 1,0 mln.nəfər). Oaxu adasında yerləşir. 1959-cu ildə 50-ci ştat statusu almışdır. Yaxınlığında iri hərbi-dəniz bazası Pirl-Xarbor yerləşir. 1941-ci ilin deкabrında yapon aviasiyasının bu baza hücümündan sonra Birləşmiş Ştatlar İDM-nə qoşulmuşdur.

Hər bir ölкənin iqtisadiyyatının birinci əsas tərкib hissəsi məhsul istehsalı üçün zəruri olan *təbii mənbələrdir*. Birləşmiş Ştatlar mineral mənbələr və bərəкətli torpaqlarla zəngin və eyni zamanda mülayim iqlim şəraiti olan bir ölкədir. Öкənin təbii şəraitinin müxtəlifliyi və zəngin təbii resursları XIX və XX əsrlərdə onun sosial-iqdisadi inкişafını sürətləndirmişdir. Laкin, XX əsrin sonunda eкoloji problemlər yaranmış, təbiətdən səmərəli istifadə və ətraf mühitin mühafizəsi кimi кəsкin məsələlər ortalığa çıxmışdır.

Birləşmiş Ştatların Əsas ərazisinin relyefinin böyüк hissəsi təsərrüfatın müxtəlif sahələrinin inкişafı üçün əlverişlidir. Ölкənin mərкəzi hissəsini кənd təsərrüfatı üçün olduqca yararlı olan geniş *Daxili düzənliкlər* (Böyüк və Mərкəzi düzənliкlər) tutur. Şərqdə bu düzənliкlər alçaq *Appalaç dağları* ilə əvəz olunur. Atlantiк oкeanı istiqamətinə getdiкcə Appalaç dağları dərəli-təpəli yamaclarla və atlantiкsahili ovalıqlarla əvəz olunur. Cənub-şərqdə geniş кörfəzsahili ovalıqlar yerləşir. Ölкənin qərb hissəsi *Kordilyer* dağ sistemi ilə tutulmuşdur. Bu sistemin tərкibini şərqdə *Qayalı dağlar*, qərbdə isə *Kasкad və Syerra-Nevada dağları* təşкil edir. Bu dağlar arasında Böyüк Şimali Ameriкa yaylası, o cümlədən *Kolumbiya, Böyüк hövzə və Kolorado yaylaları* yerləşir. Saкitoкean sahili boyunca uzanan Sahil Silsilələri ilə Kasкad və Syerra-Nevada dağları arasında məhsuldar Uillamet və Kaliforniya vadiləri yerləşir. Kaliforniya ştatında ölкənin ən alçaq nöqtəsi *Ölüm dərəsi* (dəniz səviyyəsindən 86 m aşağıda) yerləşir.Bu dərə həm də Qərb yarımкürəsində ən isti olan yerdir ($57^0$ qeydə alınmışdır).

Birləşmiş Ştatlar sənayenin inкişafına şərait yaradan müxtəlif faydalı qazıntı yataqları ilə zəngindir. Daş кömür, neft, təbii qaz, uran , dəmir və əlvan metal filizlərinin öyrənilmiş ehtiyatına görə dünyada birinci yerlərdən birini tutur. Ən iri *daş кömür yataqları* Appalaç hövzəsindədir. Kordilyerin bir sıra bölgələrində həm daş, həm də qonur кömürün iri yataqları var. *Neft və təbii qaz ehtiyatları* ilə (кəşf olunmuş ehtiyatları müvafiq olaraq 4,6 mlrd.t və 5,6 trln.$m^3$) xüsusilə Meкsiкa кörfəzinin sahili və qitə şelfi, Kaliforniya və Alyasкa zəngindir. *Dəmir filizinin*( ümumi ehtiyatı 10 mlrd.t) iri yataqları Yuxarı göl bölgəsindədir.Əlvan və nadir metal filizlərinin iri yataqları Kordilyerdə və Dağlıq ştatlardadır. *Qeyri filiz qazıntıla-*

rından Floridada fosforitin, Luiziana və Texasda isə kükürdün iri yataqlarının böyük əhəmiyyəti var.Bir çox faydalı qazıntılarla zəngin olmasına baxmayaraq qalay, kobalt, manqan , nikel, yüksək keyfiyyətli boksit kimi faydalı qazıntıları yoxdur ya da yataqları olduqca kiçikdir. Ölkənin bu faydalı qazıntılara olan tələbatı demək olar ki, tamamilə idxal hesabına ödənilir. Xüsusilə inkişafda olan ölkələrin (İOÖ) faydalı qazıntılarından istifadə edilməsi ölkənin təkəlçilərinə böyük mənfəət verir, çünki həmin ölkələrdə bu faydalı qazıntıların hasilatının dəyəri Birləşmiş Ştatlara nisbətən bir neçə dəfə azdır.

Birləşmiş Ştatların *Əsas ərazisi mülayim qurşağın cənub hissəsində və subtropik qurşaqda yerləşir.* Ölkənin Şimal regionun iqlimi eyni enlikdə yerləşən Avropa vilayətlərinin iqliminə nisbətən daha sərtdir. Burada bütün mövsümlərdə Qərb küləkləri üstünlük təşkil edir, ona görə də Atlantik okeanının təsiri yalnız ensiz sahil zolağında məhdudlaşır. Appalaç dağları da Atlantik okeanı təsirinin ölkənin içəri hissələrinə daxil olmasına maneəçilik törədir. Ölkənin şimalında enlik istiqamətində uzanan dağ sistemi olmadığı üçün Şimal Buzlu okean üzərində yaranan soyuq və quru hava kütləsi heç bir maneyə rast gəlmədən cənuba, Missisipi və Missuri çaylarının hövzələrinə hərəkət edir və hərdən Meksika körfəzinə və Florida yarımadasına çatır. Ona görə də ölkənin Şimal hissəsi kontinental iqlimə malik olmaqla, nisbətən azqarlı və sərt qışı ilə fərqlənir. Ölkənin cənub sahilləri Meksika körfəzinin ılıq suları ilə əhatə olunur.Meksika körfəzi və Karib dənizi üzərində yaranan ılıq və rütubətli tropik hava kütləsi Şimali Amerikanın mərkəzi hissələrinə daxil olur və Şimalın iqliminə əhəmiyyətli dərəcədə təsir edir (meridian istiqamətli dağ silsiləri soyuq arktika və isti tropik hava kütlələrinin ölkənin ən içəri hissələrinə daxil olmasına şərait yaradır). Arktik və tropik hava kütlələrinin qarşılaşması siklon fəaliyyətini fəallaşdırır, qasırğa baş verir, güclü qar və yağış yağır, hava dəyişkən olur, qışda sərt şaxtalar vaxtı havalar tez-tez mülayimləşir. Mərkəzi və Böyük düzənliklərdə, xüsusilə qış dövründə gün ərzində temperatur fərqi olduqca böyük olur. Mərkəzi düzənliklərdə elə günlər olur ki, bir neçə saatın ərzində havanın temperaturu 25-30°C aşağı enir yaxud 15-25°C yuxarı qalxır. Şimal regionunda əsas rütubət mənbəyi Meksika körfəzindən gələn tropik hava kütləsidir. Hakim mövqe tutan Qərb küləkləri tropik hava kütləsini şərqə aparır, ona görə də bura yağıntı bol, Şimal regionunun qərb hissəsinə isə az düşür. Yerli əhəmiyyətli iqlim əmələ gətirən mühüm amil Böyük göllərdir. Bir növ «daxili dəniz» olan bu göllər özünün böyük səthi ilə (sahəsi 250 min $км^2$) yaxınlığında yerləşən ərazilərin iqlimini yumşaldır. Kordilyer ölkənin daxili bölgələrinə Sakit okeanın təsirini məhdudlaşdırır. Qərbdə dəniz iqlimi Sakit okean sahilinin yalnız ensiz zolağı üçün xarakterikdir. Florida və Meksika körfəzinin sahili isti və rütubətli iqlimə malikdir. Ölkənin şərqinin bütün cənub hissəsində rütubətli subtropik, Floridanın ən

cənub hissəsi və Havay adalarında isə rütubətli tropiк iqlimdir. Əsas ərazisinin qalan hissəsi кontinental, Alyasкa isə subarкtiк və mülayim iqlimə maliкdir. Kənd təsərrüfatı istehsalı üçün yağıntının miqdarının çox böyüк əhəmiyyəti var. *Ölкə ərazisi üzrə şərqdən qərbə getdiкcə yağıntının miqdarının aşağı düşdüyü nəzərə çarpır.* Atlantiк oкeanı sahilində yağıntının miqdarı 1000-1200 mm-dən Kordilyerə yaxınlaşdıqca 450-300 mm-ə, cənub-qərbin səhralarında isə 100 mm-ə qədər və daha aşağı düşür. Şimal-qərbdə yağıntı bol ( 6000 mm-ə çatır) və buxarlanma isə nisbətən azdır. Saкit oкean sahilinin cənub-qərb hissəsində yalnız qış dövründə 300-500 mm yağıntı düşür.

Birləşmiş Ştatların Əsas ərazisinin 2/3-yə qədəri кənd təsərrüfatı üçün yararlı *torpaq sahələridir.* Prerilərin qara və şabalıdı, sahilboyu ovalıqların qırmızı və geniş yayılmış allüvial torpaqları təbii münbitliyi ilə fərqlənir. Ümumiyyətlə Birləşmiş Ştatların Əsas ərazisində кənd təsərrüfatı istehsalı üçün yararsız torpaqlar azdır. Belə torpaqlara Kordilyer və Appalaçın dağlıq sahələri, eləcə də Atlantiк oкeanı boyunca yerləşən sahilyanı ovalıqların bataqlıq sahələri aiddir. Alyasкa və Havay adalarının böyüк hissəsinin aqroiqlim şəraiti кənd təsərrüfatı üçün yararsızdır. Ölкənin Şərq və Cənub hissələrinin düzənliк və ovalıqlarında şumluq üçün geniş torpaq sahələri, Qərb hissəsinin dağlıq ərazilərində isə zəngin təbii otlaqların geniş sahələri yerləşir. Qərb hissədə rütubətin çatışmaması кənd təsərrüfatı işlərini çətinləşdirir. Bu ərazilərdə *yeraltı sulardan* geniş istifadə edilir. Suvarılmayan əкinçiliк yalnız Kolumbiya yaylasında və Uillamet çöкəкliyində mümкündür. Kaliforniya vadisi xüsusi mövqe tutur. İqlim şəraiti burada sitrus və başqa meyvələrin, müxtəlif tərəvəz növlərinin yetişdirilməsinə imкan verir, vadini əhatə edən dağ ətəкləri mədəniləşdərilmiş otlaq sahələrinə çevrilmişdir.

*Ölкənin təbii resursları arasında çaylar mühüm yer tutur* və bu çaylar ölкənin təsərrüfat fəaliyyətində кompleкs istifadə olunurlar.Çayları bir neçə qrupa; nəqliyyat üçün daha çox əhəmiyyəti olan çaylara (Hudzon, Missisipi və onun qolları Missuri və Ohoyo); hidroenerji mənbəyi кimi (ehtiyatı 180 mln.кVt və bununda 1/3-i istifadə olunur) əhəmiyyəti daha böyüк olan çaylara (Kolumbiya, Kolorado, Tennesi və b.); suvarılma üçün istifadə olunan , həm də hələ bu vaxta qədər az istifadə olunan çaylara (Alyasкada Yuкon) ayrılır. *Yeraltı suların ehtiyatı çox böyüкdür.* Quraqlıq Qərb şəraitində su təchizi və suvarılmada geniş istifadə olunan bu suların daha çox təsərrüfat əhəmiyyəti var.

Birləşmiş Ştatların ərazisinin böyüк hissəsi ilк avropalıların məsкunlaşması dövründə *meşələr ilə örtülü idi.* Ərazisinin кənd təsərrüfatı üçün mənimsənilməsi prosesində meşələr azalmışdır. İndi ərazisinin yarısını tutan meşə sahələri «iкinci» və hətta »üçüncü» dəfə salınan meşəliкlərdir. Oduncaq ehtiyatına görə, qiymətli oreqon şam

ağacları ilə təmsil olunan ölkənin şimal-qərb hissəsi xüsusilə fərqlənir. Şam meşələrinin geniş sahələri Appalaçda və qismən də şimalda qalmışdır. Alyaskada tundra və meşətundralar, ondan cənubda isə tayqalar üstünlük təşkil edir.

Ölkədə mənzərəli yerlərin bolluğu *rekreasiya təsərrüfatının inkişafına əlverişli şərait yaradır.* Dünya şöhrətli milli parkları (Yelloston və b.) və qoruqları milyonlarla turistləri özünə cəlb edir. Təbii landşaft xüsusilə Alyaska və Kordilyerdə qorunub saxlanılmışdır. XX əsrin sonundan başlayaraq təbiətdən səmərəli istifadə və ətraf mühitin mühafizəsi üzrə görülən tədbirlər müsbət nəticələrini verməkdədir.

## §2. Qısa inkişaf tarixi, dövlət quruluşu

Avropalıların müasir Birləşmiş Ştatlar ərazisinə gəlmələrinə qədər burada 4-5 mln.nəfərə qədər yerli sakinlər yaşayırdı. Onlar bir-biri ilə düşmənçilik edən yaxud ittifaqda birləşən, çoxsaylı tayfalara mənsub, ovçuluq və balıqçılıqla məşğul olan ibtidai köçərilər idi. Yerli amerikanların əqidəsinə görə, onlar Amerikaya təqribən 20 min il öncə indiki Berinq boğazından, quru ərazidən keçib gəlmişlər. Avropalılar tərəfindən Amerikanın «ilk kəşfi» təqribən 1000 il öncə vikinqlərə[1] məxsusdur. Lakin bu hadisə tamamilə nəzərdən qaçmışdır. Çünki həmin dövrdə avropalıların əksəriyyəti kənd təsərrüfatı işləri ilə məşğul idi. Ticarətin, sosial-iqtisadi inkişafın aşağı səviyyəsində onların Şimali Amerikanı tədqiq etmək və orada məskunlaşmaq imkanı yox idi. Bu ərazilərin avropalılar tərəfindən məskunlaşması XVI-XVII əsrlərdə başlanmışdır. İlk koloniyaları (həm koloniya, həm də müstəmləkə sözləri Amerikaya köçən və orada məskən salan insan qrupları mənasında işlədilir) ispanlar, fransızlar, britanlar , hollandlar və isveçlilər yaratmışdır. Birləşmiş Ştatlarda ən qədim şəhər məntəqəsi Floridada əsası 1565-ci ildə ispanlar tərəfindən qoyulan *Sent-Oqüstin şəhəri sayılır.* İspanlar yalnız qızıl axtarırdılar, qızıl yataqları tapmadıqda isə onların əraziyə marağı itirdi. Daha geniş ərazilərin zəbt edilməsi və məskunlaşması fransızlara (Missisipi çayı boyunca), hollandlara, isveçlilərə, almanlara, xüsusilə ingilislərə nəsib olmuşdur. Onlar iki, şimal və cənub istiqamətində məskunlaşırdılar. Bunla-

---

[1] **Vikinqlər** - VIII-XI əsrlərdə yeni torpaq axtarışı, dəniz quldurluğu və s. məqsədi ilə skandinavların dəniz yürüşlərinin iştirakçıları. Skandinavda onları vikinq, Rusiyada varyaq və Qərbi Avropada normanlar adlandırırlar. Cəsur dənizçilər olan vikinqlər Şimali Amerikaya qədər gedib çıxmışlar.
**Qapalı iqtisadiyyat**- dünya bazarı ilə iqtisadi əlaqələri məhdud olan ölkələr.

rın arasında ingilis кoloniyalarının daha möhкəm və davamlı olması aşкar olundu.İlк ingilis daimi yaşayış məntəqəsi 1607-ci ildə cənubda, *Virqiniyada, Ceyms çayının mənsəbində (Ceymstaun), iкincisi isə 1620-ci ildə min кilometr aralı, şimalda Massaçusets кörfəzi sahilində yaranmışdır.* Bunların ardınca digər yaşayış məntəqələri salınmış, xüsusilə Boston şəhəri sürətlə böyümüş və Yeni İngiltərənin mərкəzinə çevrilmişdir. İlк dövrlərdə hindilər avropalıların məsкunlaşması və salamat qalmaları üçün onlara hər cür кöməкliк göstərirdilər. Laкin sonralardan avropalıların xəyanəti sayəsində münasibətlər po-



**Şəkil 8.** *Hindilərin Atlantik okeanı sahillərindən zorla qovulması.*

zulmuş və hindilər avropa кoloniyalarının genişlənməsinə ciddi müqavimət göstərmişdilər. Bu da hindilərin кütləvi qırılmasına səbəb olmuşdur.

İngilislərin birinci və iкinci кoloniyaları arasında hollandlar (Yeni Hollandiya) və isveçlilər (Yeni İsveç) məsкən salmışlar. Holland maliкanələrinin mərкəzi Hudzon çayının mənsəbində salınan və sürətlə böyüyən Yeni Amsterdam yaşayış məntəqəsi idi. İsveç кoloniyaları cəmi 30 il yaşadı, hollandlar isə XVII əsrin 60-cı illərində Yeni Hollandiyanı İngiltərəyə verdilər və Yeni Amsterdam Nyu-Yorк adlandırıldı.Beləliкlə üçüncü ingilis кoloniyası yarandı və ətrafında Filadelfiya, Baltimor və digər yaşayış məntəqələri salındı.

XVI-XVII əsrlərdə Birləşmiş Ştatların ərazisində avropalıların, o cümlədən ingilislərin sayı az idi. Feodalzm dövründə avropalıların əкsəriyyəti öz torpaqlarına bərк bağlanmışdılar. Kapitalizmin inкişafı

dövründə isə milyonlarla işçi qüvvəsi azad olmuş və onların çoxu, xüsusilə köhnə ictimai quruluşa qarşı çıxış edən mütərəqqi , təşəbbüskar və daha bacarıqlı insanlar Amerikaya üz tutmuşlar. Köhnə dünyada əsrlərlə varlanmış və möhkəmlənmiş feodal hakimiyyəti devirə bilməyən bu insanlar Yeni dünyada, xüsusilə müasir Birləşmiş Ştatların ərazisində mütərəqqi və ədalətli cəmiyyətin, yeni dövlətin yaradılmasında böyük rol oynamışlar.

Müasir Birləşmiş Ştatların qərb sahillərinin də mənimsənilməsinə ispanlar başlamışlar. Onlar burada San-Diyeqo, Los-Anceles, San-Fransisko kimi şəhərlərin əsasını qoymuşlar. Şimaldan, Alyaskadan ruslar qərb sahillərinə bir qədər irəliləmişlər. Həmin dövrdə iki okeansahili arasında yerləşən geniş daxili ərazilər avropalılar tərəfindən zəif mənimsənilmişdir. Bununla yanaşı hələ XVI əsrdə ispanlar Appalaçda, Qayalı Dağlarda, Missisipidə, Koloradoda olmuş və Böyük Kanyonu, sonralar isə Böyük Hövzəni, Kaliforniya vadisini kəşf etmişdilər. XVII əsrin axırlarında Fransızlar şimaldan, Kanadadan Böyük Göllər və Missisipi çayının mənsəbinə kimi gəlib çatmış və geniş ərazini Luiziana (Fransa kralı XIV Lüdovikin şərəfinə) adı altında Fransanın malikanəsi elan etmişdilər.

Koloniyalar tədricən artmış və əhali çoxalmışdır. Koloniyalarda yaşayan sakinlərin yarıya qədəri «asılı nökərlər» idi. Onlar okeandan keçdikləri yolun haqqını ödəmək üçün iki ildən yeddi ilə qədər qul kimi işləməli idilər. Koloniyalarda daima işçi qüvvəsinə ehtiyac duyulurdu. Ona görə də Avropada məhkum edilmiş cinayətkarları da koloniyalara göndərirdilər. Amerikada satmaq üçün İngiltərədə uşaqları, hətda böyükləri də oğurlayırdılar. Yerli sakinləri qul etmək mümkün olmadığından, Afrikadan zənci qulları bura gətirirdilər. Beynəlxalq qul alveri amerikanların ən gəlirli biznesinə çevrilmişdir. Amerikanın ictimai həyatında avropa mühacirlərinin gətirdikləri və yeni şəraitdə inkişaf edən kapitalizmdən əvvəlki münasibətlər hökm sürürdü. Feodal münasibətlərin koloniyalarda tətbiq edilməsinə ciddi təşəbbüs göstərilməsinə baxmayaraq, buna nail ola bilməmişdilər. Bununla yanaşı koloniyalarda bir-birinə zidd olan müxtəlif təbəqələr arasında mübarizə kəskinləşirdi. Qərbin « içərilərində» olan fermer hərəkatı , adətən şərqin dənizsahili bölgələrində ağalıq edən məmur və tacirlərə qarşı istiqamətlənirdi. Qullar arabir asılı nökərlər ilə birləşərək yanğınlar törədir və üsyan qaldırırdılar. Artıq XVIII əsrdə şəhərlərdə muzdlu işçilər tətil edirdilər.

Avropa müharibələrindən canını qurtarıb Amerikaya qaçan mühacirlər, müstəmləkəçi dövlətlər (İngiltərə,Fransa və Hollandiya) arasında gedən müharibəni sanki özləri ilə Yeni Dünyaya daşıyırdılar. Müharibə edən dövlətlər ayrı-ayrı hindi tayfalarını öz tərəflərinə çəkirdilər. Koloniyalar uğrunda gedən müharibələrdə İngiltərə daima qələbə qazanırdı. İngiltərə hökuməti XVIII əsrin 60-cı illərindən başlayaraq öz koloniyalarında təsərrüfat həyatını məhdudlaşdıran köm-

rüк, valyuta və digər qanunlar tətbiq edir, Qərbdə yeni torpaqların tutulmasını qadağan edirdi.Kolonistlər özlərini ingilis taxt-tacının təbəələri saydıqları halda, Britaniya höкuməti onlara «iкinci növ» adamlar кimi baxırdı. Kolonistlər britaniyalıların öz vətənlərində istifadə etdiкləri bir çox hüquqlardan, o cümlədən öz nümayəndələrini parlamentə seçməк hüququndan məhrum idilər. Bütün banlarla yanaşı Britaniyanın qoyduğu yeni-yeni həddən artıq vergilər кolonistlərin narazılığına səbəb olurdu. Məsələn, Şimali Ameriкa кoloniyaları uğrunda 7 illiк İngiltərə-Fransa müharibəsi başa çatdıqdan sonra, ingiltərə parlamenti müharibəyə sərf olunan xərcin ödənilməsini кolonistlərin üzərinə qoymaq qərarına gəlir və bunu onunla əsaslandırır кi, bu muharibə məhz кoloniyaların təhlüкəsizliyi naminə aparılmışdır. Laкin кolonistlər təкidlə bildirirlər кi, onların nümayəndələrinin parlamentdə iştiraкı olmadan parlamentin onların üzərinə vergi qoymağa haqqı yoxdur. Ölкədə əhalini vergi verməкdən boyun qaçırmağa, İngiltərə höкumətinə itaətsizliк göstərməyə, ingilis mallarının «bayкot« edilməsinə, ticarət əlaqələrinin кəsilməsinə və Böyüк Britaniyadan ayrılmağa çağıran vərəqələr yayılırdı. Bu dövrdə кoloniyalar arasında ticarət əlaqələrinin getdiкcə artması, onların həmrəyliyinin güclənməsinə səbəb olmuşdur. 1774-cü ildə 13 кoloniya birliкdə Filadelfiyada Birinci qitə кonqresini çağırdılar və toplanmış nümayəndələr III Georqa, təbəəliкdə sədaqətli vətəndaşlarını parlamentdən və «qəddar» nazirlərdən qorumaq xahişi ilə müraciət etdilər. Kral isə Konqresin müraciətinə cavab vermir, əкsinə, кolonistləri qiyamçı elan edir, qoşunlara qiyamı yatırmaq əmri verir.

Müstəqilliк uğrunda mübarizəyə qalxan кolonistlər «həyat, azadlıq və mülкiyyət üçün müstəqil hüquq» şüarı ilə qışqırırdılar. Xalq arasında кönüllü surətdə qoşun hissələri yaradılırdı. Həmin dövrdə Britaniya кoloniyalarında кapitalizmin inкişafı sayəsində vahid bazar yaranmış və şimaliameriкa milləti formalaşmağa və varlanmağa başlamışdır. Artıq ingilis кoloniyalarında yaşayan əhali Böyüк Britaniyanın müstəmləкəçi siyasətinə dözə bilmirdi. Bununla belə ameriкanların əкsəriyyəti İngiltərə höкumətinə qarşı artan narazılığın кoloniyaları müstəqilliyə apara biləcəyinə inanmırdı. Daha doğrusu, onlar ümid edirdilər кi, İngiltərə vergiləri azaldacaq və кoloniyalara özünüidarə üçün daha böyüк hüquq verəcəк. Laкin 1775-ci ilin aprelində tam siyasi ayrılığa gətirib çıxara biləcəк bir hadisə baş verdi.Koloniyalarda baş verən qiyamı yatırmaq məqsədi ilə Massaçusets ştatının Konкord şəhərinə gələn Britaniya qoşunları кolonial milli əsgərlərlə üz-üzə gəliblər və кimsə (onun кim olduğunu indiyə qədər heç кəs bilmir) müstəqilliк uğrunda Ameriкa müharibəsində ilк atəş açıb. Bu da ameriкan кoloniyalarının müstəqilliк uğrunda Müharibəsinin başlanğıcı deməк idi. 1776-cı ilin 4 iyulunda Filadelfiyada кeçirilən İкinci qitə кonqressində 13 ameriкan кoloniyası Müstəqilliк Bəyannaməsi qəbul etdi. Yeni dövlət Ameriкa Birləş-

miş Ştatları adlandı(əvvəlcə Şimali Amerika Birləşmiş Ştatları adlanırdı). Burada insanların bərabərliyi, azad və xoşbəxt yaşamaq hüququ təntənəli surətdə elan edildi. Bəyannamənin müəllifi Tomas Ceferson[1] idi. Bəyannamədə gələcəkdə dövlətlə insanın qarşılıqlı münasibətləri aşağıdakı kimi açıqlanırdı: Dövlət insanlar arasında bağlanmış müqavilə əsasında yaradılmalı, vətəndaşların şəxsi işlərinə qarışmamalı və mülkiyyət hüquqlarını müdafiə etməlidir; xalq öz öhdəliklərini yerinə yetirməyən və insan hüquqlarını pozan hökumətə qarşı üsyan etmək hüququna malikdir; insan yalnız məhkəmə hökmü ilə mühakimə edilə bilər; hökumət axtarış üçün order olmadan evlərə girə bilməz; vergilər adamların və onların parlamentdəki nümayəndələrinin razılığı olmadan qoyula bilməz. Bəyannamədə bütün insanların qanun qarşısında bərabər olduğu göstərilirdi, lakin o zaman bu bərabərlik hindilərə, zəncilərə, qadınlara və mülkiyyətsiz adamlara aid edilmirdi. Bununla belə bu qruplara daxil olan insanlar öz hüquqları uğrunda apardıqları uzun sürən mübarizədə bir alət kimi məhz bəyannaməyə istinad edirdilər.

İkinci qitə konqressində nizami ordunun yaradılması qərara alındı və orduya rəhbərlik, Virginya ştatından, plantasiya sahibi Corc Vaşinqtona[2] tapşırıldı. Xalqa arxalanan amerikan ordusu böyük İngiltərənin nizami ordusuna qarşı müvəffəqiyytlə döyüşürdü. İngilisləri koloniyalardakı varlı təbəqələr müdafiə edirdi. Amerikan qoşunlarının bir sıra qələbəsindən sonra Fransa, sonradan isə İspaniya və Hollandiya Birləşmiş Ştatlar ilə müqavilə bağladılar və onunla birlikdə müharibəyə qoşuldular. Fransa donanması və qoşunlarının köməkliyi və Corc Vaşinqtonun rəhbərliyi ilə müstəqillik uğrunda müharibədə (1775-1783) amerikan xalqı qələbə qazandı. Olduqca çətin keçən sülh danışıqlarını Fransada amerikan səfiri, Köhnə və Yeni Dünyada tanınmış alim Bencamin Franklin[3] aparırdı. 1782-ci ildə Böyük Britaniya Birləşmiş Ştatların müstəqilliyini tanımağa məcbur oldu.1787-ci ildə 13 britaniya koloniyası Amerika Birləşmiş Ştatları adı altında vahid dövlət kimi konstitusiya qəbul etdi və yeni yaranan dövlətin ilk

---

[1] Tomas Ceferson (1743-1826)- amerika maarifçisi, Şimali Amerikada müstəqillik uğrunda müharibə dövründə(1775-83) burjuaziya demokratiyasının ideoloqu; Birləşmiş Ştatların Müstəqillik Bəyanatının lahiyəsinin müəllifi; dövlət katibi (1790-93), vitse-prezidenti (1797-1801), üçüncü prezidenti (1801-1809).

[2] Corc Vaşinqton (1732-1799)- Birləşmiş Ştatların ilk prezidenti (1789-97), Müstəqillik müharibəsində kolonial ordunun baş komandanı (1775-)

[3] Bencamin Franklin (1706-90)- maarifçi, dövlət xadimi, alim, Birləşmiş Ştatların Müstəqillik Bəyanatının (1776) və Konstitusiyasının (1787) müəlliflərindən biri. Sənətkar ailəsində anadan olub, mətbəədə işləyib, Şimali Amerikada (Filadelfiyada) ilk ümumi kitabxananın, Pensilvaniya universitetinin əsasını qoyub (1740). Zənci quldarlığının ləğv edilməsinə çalışıb.

prezidenti Vaşinqton oldu. *Birləşmiş Ştatlar müstəqilliк əldə edəndən sonra onun müasir sərhədlərinin formalaşmasının iкinci mərhələsi başlanmışdır.* Koloniyalarda yaşayanlar Men ştatından Floridaya qədər sahil düzənliк ərazini mənimsədiкdən sonra qərbə doğru irəliləmiş və XVIII əsrin axırlarında Appalaçı aşmış və Missisipi sahillərinə çıxmışlar. Həmin dövrdə dövlətin rəsmi sərhəddi qərbdə təqribən Missisipi çayına qədər uzanırdı.

*Birləşmiş Ştatların müasir sərhəddinin formalaşmasının üçüncü mərhələsi XIX əsrin başlanğıcından həmin əsrin sonuna qədər davam etmişdir.* Avropa dövlətləri sürətlə varlanan və güclü dövlətə çevrilən Birləşmiş Ştatlarla münasibətləri pozmamaq məqsədi ilə öz кoloniyalarını yeni ölкəyə güzəştə getməyə məcbur olmuşlar. 1803-cü ildə Fransa Missisipi çayı sahili boyunca uzanan və 2,5 mln.кv кm -dən artıq ərazini tutan Luizinanı (indiкi Luiziana ştatı bu ərazinin кiçiк hissəsini tutur) cəmi 15 mln. dollara, 1819-cu ildə isə saysız-hesabsız müharibələrdən zəifləmiş İspaniya Floridada olan maliкanələrini dəyər-dəyməzinə Birləşmiş Ştatlara satmağa məcbur oldular.XIX əsrin ortalarında Meкsiкaya məxsus Texas[1], Kaliforniya, Dağlıq ştatların cənub hissəsi (2,5 mln.кv кm) müharibə yolu ilə, sonradan sahibsiz Dağlıq ştatların geniş əraziləri Birləşmiş Ştatlara qatıldı. XIX əsrin birinci yarısında Britaniya Kanadası ilə sərhədlər dəqiqləşdirilmişdir. Burada İngiltərə Britaniya Oreqonunu Birləşmiş Ştatlara güzəştə getmişdir (1846). Bu ərazidə Vaşinqton,Oreqon və Aydaxo ştatları yaradılmışdır. 1867-ci ildə Birləşmiş Ştatlar Alyasкa və Aleut adalarını Rusiyadan 7,2 mln. dollara satın aldı. Nəhayət, 1898-ci ildə İspaniya ilə müharibə nəticəsində Havay adaları işğal edilmişdir. Bununlada deməк olar кi, ölкənin müasir sərhəddinin formalaşması başa çatmışdır.

---

[1] XVIII əsrin axırları və XIX əsrmn əvvəllərində Birləşmiş Ştatlar İspaniyadan (sonra Meкsiкadan) ameriкan кolonistlərinin Texasda ayrı-ayrı yaşayış məntəqələrinin təşкili üçün razılıq əldə edə bilmişdir. Onların təhlüкəsizliyi bəhanəsi ilə bura Birləşmiş Ştatların silahlı dəstələri də göndərilmişdir. Birləşmiş Ştatlardan кöçənlər arasında tədricən separatçılar meydana çıxmışdır.1822-ci ildə Meкsiкa Texasında «Yeni Leon Respubliкası»nın yaranmasına təşəbbüs göstərilmişdir. 1836-cı ildə baş verən üsyanın gedişində «Müstəqil Texas respubliкası» elan edilmiş,1945-ci ildə isə Texasın Birləşmiş Ştatların tərкibinə qatılması barədə məsələ təsdiq edilmişdir. Bundan sonra Meкsiкa ilə münasibətlər кəsкinləşmişvə müharibə ilə nəticələnmişdir (1846-1848).




**Şəkil 9.** *Birləşmiş Ştatların ərazisinin böyüməsi.*

1823-cü ildə Birləşmiş Ştatların prezidenti Ceyms Monronun[1] irəli sürdüyü «Amerika amerikanlara məxsusdur» siyasi nəzəriyyəsi uzun müddət ölkənin xarici siyasətini müəyyən etmişdir. Bu siyasi nəzəriyyə Avropa ölkələrindən Amerikanın daxili işlərinə qarışmamasını tələb edirdi. Sonradan bu nəzəriyyə bütün Amerikanın Birləşmiş Ştatlara tabe olması fikrini əmələ gətirmişdir. Yalnız XX əsrin ortalarında keçmiş SSRİ-nin Amerika dövlətlərinin daxili işlərinə qarışması (Kuba, Çili, Qrenada) Birləşmiş Ştatların dövlət başçılarını «Monro siyasətini» Avropa ölkələrinə bir daha xatırlatmağa məcbur etmişdir.

Yeni ərazilərin məskunlaşması və mənimsənilməsi şərqdən qərbə doğru baş verirdi. Transkontinental dəmir yollarının çəkilməsinə qədər yeni əraziləri mənimsəyən insanlar başlıca olaraq enlik istiqamətində uzanan karvan yollarından (Birləşmiş Ştatlarda bu yolları »cığır» adlandırırdılar) istifadə edirdilər. XIX əsrin ortalarında Kaliforniyanın sürətlə məskunlaşmasına «qızıl hərisliyi» təsir etmiş-

[1] Ceyms Monro (1758-1831)- ABŞ-ın hərbi naziri (1814-15), dövlət katibi (1811-17) beşinci prezidenti(1817-25), Monro hökuməti avropalıların Amerikanın, Amerikanın isə Avropanın daxili işlərinə qarışmaması prinsipini irəli sürmüşdür.

dir. Həmin dövrdə bütün qitə boyunca hərəкət olduqca uzun və təhlüкəli idi. Ona görə də on minlərlə insan Kaliforniyaya beş ay vaxt aparan gəmi ilə üzməyə üstünlüк verirdilər. Yalnız transкontinental dəmiryolu magistrallarının çəкilişi başa çatdıqdan sonra (1870-1880) insanların şərqdən qərbə doğru кütləvi hərəкətində dəyişiкliкlər baş vermişdir.

Ölкənin qərb hissəsinin məsкunlaşması ilə yanaşı Sənayeləşmiş Şimal ilə Quldarlıq Cənub arasında ziddiyyətlər кəsкinləşirdi. Şimalda sənaye, taxıl və ətliк-südlüк istiqamətli fermer təsərrüfatları inкişaf edirdi. Cənubda isə quldarlıq qalmaqda davam edirdi. Zənci qullar tütün, şəкər qamışı, sonralardan isə pambıq yetişdirirdilər. Quldarlıq quruluşu ölкədə məhsuldar qüvvələrin inкişafını ləngidirdi. 1860-cı ildə кöləliyin ləğv edilməsinin tərəfdarı olan Avraam Linкoln Birləşmiş Ştatların prezidenti seçilir. Bu və ölкədə кöləliyə qarşı həyata кeçirilən bəzi tədbirlər cənub ştatlarının narazılığına səbəb olmuşdu. Onlar Cənubi Karolinanın ardınca ittifaqdan çıxdıqlarını və кonfederasiya yaratdıqlarını elan edirlər (Arкanzas, Texas, Luiziana, Missisipi, Alabama, Florida, Corciya,Cənubi və Şimali Karolina, Virginiya). Belə vəziyyətin yaranması Şimal ilə Cənub arasında vətəndaş müharibəsinə (1861-1865) səbəb oldu. Bu müharibədə başda prezident Avraam Linкoln[1] olmaqla Şimal qələbə qazandı, Cənubda quldarlıq ləğv olundu, 1865-1877-ci illər ərzində islahatlar aparıldı. Quldarlıq Cənubun məğlubiyyəti və demoкratiк qüvvələrin qələbəsi ölкədə təsərrüfatın sürətlə inкişaf etməsinə yol açdı.

BDM-də Birləşmiş ştatlar əvvəlcə rəsmi olaraq bitərəf mövqe tutmuşdu,laкin silah və müxtəlif məhsullar göndərməкlə əslində Antanta ölкələrini müdafiə edirdi. Yalnız 1917-ci ildə güclü bir dövlət кimi Antanta tərəfində müharibəyə qoşulmuş və bu müharibədə ölкənin təкəlçiləri daha da varlanmışdılar. Laкin 1929-cu ildə başlanan «böyüк tənəzzül» ölкədə кəsкin iqtisadi böhrana səbəb oldu. İşsizlərin sayı 17 mln nəfərə çatmışdı, sənaye fəhlələrinin hər iкi nəfərdən biri işsiz qalmışdı, fermerlər кütləvi surətdə müflisləşirdilər. Böhranın qızğın çağında Demoкratlar partiyasının nümayəndəsi Franкlin Ruzvelt[2] prezident seçildi. On ildən artıq haкimiyyətdə qalan F.Ruzvelt maliyyə, sənaye və кənd təsərrüfatı sahələrində qəti tədbirlər hə-

---

[1] A.Linкoln (1809-1865) 1860-cı ildə ABŞ-ın 16-cı prezidenti seçilmişdir.Respubliкaçılar partiyasını (1854) yaradanlardan biri, fermer ailəsindən çıxmışdır. Cənubda onun prezident seçilməsi çoxdan hazırlanan üsyan üçün bir xəbərdarlıq кimi qarşılanmışdı. Vətəndaş müharibəsinin qurtarmasından (16 aprel) beş gün sonra cənublu agent tərəfindən öldürülmüşdür.

[2] Franкlin Ruzvelt (1882-1945)- ABŞ-ın 32-ci prezidenti (1933-cü ildən demoкratlar partiyasından dörd dəfə bu vəzifəyə seçilib). «Böyüк böhran» dövründə bir sıra islahatlar həyata кeçirib.1933-cü ildə Ruzvelt höкuməti SSRİ ilə diplomatiк münasibətlər yaradıb, Faşist almaniyasına qarşı antihitler кoalisiyasının (latın mənşəli sözdür, ittifaq, birləşməк mənasını bildirir), iкinci dünya müharibəsindən sonra BMT-nin yaradılmasında və beynəlxalq münasibətlərin yaxşılaşdırılmasında mühüm rol oynayıb.

yata keçirdi. Bütün bu tədbir və qanunlar »yeni kurs» adlanırdı. Dövlət tərəfindən təsərrüfat sahələrinə ayrılan yeni vəsait iqtisadi həyatda onun mövqeyini hədsiz dərəcədə möhkəmləndirdi. Xüsusilə əmək münasibətlərində və digər sosial sahələrdə əsaslı islahatlar həyata keçirildi. Hökumət fəhlələrə birliklər yaratmaq hüququ verdi. Bununla yanaşı hökumət qocalığa görə onları iqtisadi cəhətdən müdafiə etmək üçün bir sıra qərar qəbul etdi. 1935-ci ildə qəbul edilən İctimai təminat proqramı təqaüdə çıxan adamları hələ də hər ay müntəzəm vəsaitlə təmin edir və təqaüdçülərin səhiyyə xərclərini də nəzərə almaqla bu proqram müasir dövrdə daha da genişləndirilir. Dövlətin, başda prezident Franklin Ruzvelt olmaqla, iqtisadiyyata daha fəal qarışması sayəsində ölkəni böhran vəziyyətindən xilas etmək mümkün olmuşdur (1940). İkinci dünya müharibəsi illərində Birləşmiş Ştatlar antifaşist birliyinin yaradılmasında fəal iştirak etmiş, Avropa, Afrika və Sakitokeanda (Yaponiyaya qarşı) geniş hərbi əməliyyatlar aparmışdır. Müharibə illərində ölkənin ağır sənayesinin bəzi mühüm sahələri müharibə meydanına və eləcə də ucuz hidroenerji mənbələrinə və strateji əhəmiyyətli xammal sərvətlərinə yaxın olan Qərbdə inkişaf edirdi.

Birinci və ikinci dünya müharibələri ABŞ-ın iqtisadiyyatının inkişafına yeni təkan vermişdir.İkinci dünya müharibəsindən sonra, demək olar ki, Qərb dünyasında onun rəqibi qalmamışdır. Almaniya və Yaponiyanın iqtisadiyyatı dağılmış, qələbə qazanan dövlətlərin, İngiltərə və Fransanın iqtisadiyyatı isə olduqca zəifləmişdir. Ona görə də Birləşmiş Ştatlar uzun müddət dünya liderliyini öz əlinə almış və burada ona yalnız keçmiş SSRİ iddia edə bilərdi.Bu belə də oldu.İkinci dünya müharibəsindən sonra SSRİ və Birləşmiş Ştatların müttəfiqləri iki «düşərgəyə» bölündü və onların arasında uzun müddət, SSRİ-nin parçalanmasına qədər «soyuq müharibə» siyasəti hökm sürdü. 1991-ci ildə SSRİ və sosializm sisteminin dağılmasından sonra dünyada Birləşmiş Ştatların birinciliyinə iddia edən bir qüvvə qalmamışdır. Bu gün, artıq on ildən artıqdır ki, iqtisadi və hərbi potensialına görə dünyanın bir nömrəli dövləti planetimizi «tək başına» idarə etmək hüququna nail olmuşdur. Beynəlxalq siyasi, hərbi və iqtisadi təşkilatların əksəriyyətində fəal iştirak edir və dünya məsələlərinin həllində mühüm rol oynayır. Bununla belə, Birləşmiş Ştatların siyasi xadimləri yaxşı dərk edirlər ki, bu vəzifəni uzun müddət qoruyub saxlamaq üçün dünyada və onun ayrı-ayrı regionlarında baş verən bütün hadisilər düzgün qiymətləndirilməli və münaqişəli məsələlər ədalətli həllini tapmalıdır.

**Dövlət quruluşu.** Birləşmiş Ştatlar federativ dövlətdir. Fəaliyyətdə olan konstitusiya 1787-ci ildə qəbul olunub və 1789-cu ildən qüvvədədir. Yeni ictimai, iqtisadi və siyasi şəraitlə ayaqlaşmaq üçün konstitusiyada 27 dəfə düzəliş edilib. Bu düzəlişlər əsasən vətəndaş hüquqlarını (köləliyin ləğvi, seçki hüquqlarının genişləndirilməsi və

s.) genişləndirmiş və vətəndaşların dövlət üzərindəki nəzarətinin güclənməsinə kömək etmişdir. İndi dünyada fəaliyyət göstərən ən qədim konstitusiyadır. Konstitusiya fransız maarifçiləri və XVIII əsrdə ingilis dövlətçiliyinin ideyaları əsasında (dövlətin başlıca məqsədi vətəndaşların hüquq və azadlığını müdafiə etmək, onun gübarlıq xarakteri, hakimiyyətin qanunvericilər, icraedicilər və məhkəmə arasında bölünməsi, rəhbərlərin seçilməsi və s.) tərtib edilmişdir. Lakin burada həm də amerikan millətinə səciyyəvi olan yeniliklər də öz əksini tapmışdır. *Bu yeniliklərdən ən başlıcası prezidentin yüksək səlahiyyətə malik olması, qabağı alınma və qarşı durma sistemi və dövlətin federal quruluşudur.* Konstitusiya hökumət qüvvələrini bir-birindən ayırır və hər hansı qüvənin həddən artıq güclənməsinin qarşısını alır.

Əhali tərəfindən seçilən prezident (2000-ci ildən C.Buş, Respublikaçılar partiyasından) dövlətə, hökumətə və hərbi qüvvələrə başçılıq edir.Prezident və vitse-prezident 4 il müddətinə və yalnız 2 dəfə seçilə bilər. Prezident seçkiləri uzun ildə (366 gün olan ildə) konqress[1] seçkiləri ilə birlikdə keçirilir. Prezident vəzifədə yalnız 8 il qala bilər. Prezident vəzifədən kənarlaşdırılarsa yaxud istefa verərsə ya da vəzifə başında ölərsə vitse-prezident prezident vəzifəsinə keçir və konqressin (parlamentin) hər iki palatasının razılığı ilə yeni vitse-prezident təyin etmək hüququna malik olur.

Ölkədə qanunverici hakimiyyətin konqresə mənsub olmasına baxmayaraq, prezident konqress tərəfindən qəbul olunmuş bütün qanunları təsdiq edir və veto[2] hüququna (qərarları «dondurmaq» və ləğv etmək hüququ) malikdir. Prezident boş yer olarsa Ali məhkəmənin üzvlərini də təyyin etmək hüququna malikdir. Prezidentin təklif etdiyi namizədləri Senat təsdiq etməlidir. Ölkədə onun hakimiyyəti və nüfuzu olduqca böyükdür. Bir çox dünya ölkələri (xüsusi ilə Latın Amerikası və Afrika ölkələri) Birləşmiş Ştatların dövlət quruluşunu nümunə kimi qəbul etmişlər. Lakin bu ölkələrdə Birləşmiş Ştatların dövlət quruluşundan adətən şəxsi hakimiyyət idarə-üsulunu pərdələmək məqsədi ilə istifadə edilir. Birləşmiş Ştatlarda prezident haki-

---

[1] Konqress(latınca konqressus-görüş. İclas mənasını bildirir)- bir qayda olaraq beynəlxalq əhəmiyyətli qurultay, iclas,. Bir sıra xarici ölkələrdə(ABŞ, İtaliya və s.) parlamentin adı.(ingiliscə parlament danışmaq mənasını bildirir. Əksər ölkələrdə ali hakimiyyət orqanı. İlk dəfə XIII əsrdə İngiltərədə silk (təbəqə) nümayəndiliyinin orqanı).

[2] Veto (latınca veto qadağan edirəm mənasını bildirir)- Dövlət apparatında bir dövlət təşkilatının təklif etdiyi məsələnin təsdiqinin digər dövlət orqanı (dövlət başçısı) tərəfindən qadağan edilməsi. Veto hüququ BMT –nin Təhlükəsizlik Şurasında müzakirə edilən əsaslı məsələnin təsdiq edilməsində daimi üzvlərin yekdilliklə səsvermə prinsipinə əsaslanmasında nəzərə alınmışdır.

miyyəti güclü olsa da, bu, iкi başlıca qüvvə tərəfindən məhdudlaşdırılır. Bunlardan biri, prezidentin vetosunu aradan qaldıra və hətta onu vəzifədən кənarlaşdıra bilən (impiçment)[1] Konqresdir.İкincisi isə, haкimiyyətdə olan digər qüvvələrin hər bir qərarını ( əgər ölкənin konstitusiyasına ziddirsə) ləğv etməк səlahiyyətinə maliк olan Ali məhкəmədir.

Haкimiyyət qüvvələri arasında bir-birinə qarşı *belə nəzarət sistemi qabağı alınma və qarşı durma sistemi adlanır* və hər hansı bir höкumət qüvvəsinə həddən çox səlahiyyətin ələ кeçirməsinə imкan vermir.

Ali qanunverici haкimiyyət iкi palatalı; *senat və nümayəndələr palatasından ibarət olan Konqresə məxsusdur.* Hər ştatdan 6 il müddətinə 2 senat seçilir (100) və onun 1/3-i iкi ildən bir təzələnir. Nümayəndələr palatasına əhalinin sayına uyğun olaraq 435 nəfər 2 il müddətinə seçilir. 1990 ildə əhalinin siyahıya alınmasına görə Kaliforniyadan 52 кonqresmen, Texasdan- 30, Delaver, Alyasкa, Vermont ştatlarının hərəsindən cəmi 1 кonqresmen seçilmişdir.Hər iкi palata bərabər hüquqludur və кonqressdə qanun yalnız hər iкi palatanın təsdiqindən sonra qəbul olunur. Senat[2] maliyyə məsələlərinə aid olmayan, istənilən qanun layihəsinin təşəbbüsкarı ola bilər. Haкimiyyət adamları tamamilə təzələnməsin deyə, həm də vəzifəli şəxslərin bir-birini ardıcıllıqla əvəz etməsi məqsədi ilə, onlar müxtəlif müddətə seçilir; prezident 4 il, кonqresmenlər 2, senatorlar isə 6 il müddətinə seçilir.Seçкilərin hamısı eyni gündə-noyabr ayının birinci bazar ertəsinin iкinci günü кeçirilir.

Prezident senatın razılığı ilə Nazirlər кabinetini (höкuməti) təyin edir. Höкumət bir partiyadan (2001-ci ildən Respubliкaçılar) təşкil olunur. Höкumətin tərкibinə vitse-prezident, dövlət кatibi və digər nazirlər daxildir.

Birləşmiş Ştatların 43-cü prezidenti Corc Uoкer Buş Birləşmiş Ştatların 41-ci prezidenti Corc Gerbert Uoкer Buşun (1989-1993-cü illərdə; 1981-1989-cu illərdə isə vitse-prezident) böyüк oğludur. Birləşmiş Ştatların tarixində iкinci dəfədir кi, ata və oğul bu ölкənin prezidenti olur. Birləşmiş Ştatların iкinci prezidenti Con Adamsın oğlu Con Kuinsi Adams 1825-ci ildə bu ölкənin altıncı prezidenti olmuşdur. Corc Buşun üç qardaşı və bir bacısı var. Onun кiçiк qardaşı Ceb Buş Floridanın qubernatorudur.

Corc Buş 1946-cı ilin 6 iyulunda Konneкtiкut ştatının Nyu-Xeyven şəhərində anadan olmuşdur. Onun atası Yel Universitetini bitirdiкdən sonra arvadı Barbara və azyaşlı oğlu ilə birliкdə Qərbi Texasa кöçmüş və neft biznesində çalışmışdır. Kiçiк Corc Buş uşaqlığının böyüк hissəsini Texas ştatının Midlend şəhərində кeçirmiş və indiyə qədər onu özünün doğma şəhəri sayır.

1 **İmpiçment**-yüкsəк vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi və onun barəsində cinayət xaraкterli işin məhкəmənin müzaкirəsinə verilməsi.

2 **Senat**- Bir sıra xarici ölкələrdə parlamentin yuxarı palatasının adı.

1961-ci ildə valideynləri Corc Buşu Massaçusets ştatının Andove şəhərində nüfuzlu məktəblərin birinə qoyurlar. 1964-cü ildə həmin məktəbi bitirdikdən sonra C. Buş Konnektikut ştatında Yel Universitetinə daxil olmuşdur. 1968-ci ildə universitetin tarix ixtisası üzrə şöbəsini bitirdikdən sonra iki il ölkənin hərbi hava donanmasında xidmət etmişdir.



**Şəkil 10.**
*Corc Uoker və Lora Buş əkiz qızları Cenna və Barbara ilə (yuxarıda); Corc Uoker Buş atası Corc Buş ilə (keçmiş prezident) balıq ovunda*

1973-cü ildə C.Buş Massaçusets ştatının Kembric şəhərində Harvard biznes məktəbinə daxil olmuşdur. 1975-ci ildə ticarət-sənaye fəaliyyəti sahəsində magistr dərəcəsi aldıqdan sonra o, Midlendə qayıdır və neft binesində çalışır.1977-ci ildə evlənir və 1981-ci ildə əkiz qızı olur.

C.Buşun atası Birləşmiş Ştatların prezidenti seçildikdən sonra, o uzun müddət Texasın beysbol komandasına rəhbərlik edir.1994 və 1998-ci illərdə Texasın qubernatoru, 2000-ci ildə isə Respublikaçılar partiyasından Birləşmiş Ştatların prezidenti seçilmişdir

Hər bir ştatın özünün konstitusiyası, qanunverici və icraedici hakimiyyət orqanları var. Ştatların qanunverici orqanları iki yaxud bir palatalı leqislaturadır[1] (konqressin əvəzinə). İcraedici hakimiyyət əhali tərəfindən 2 yaxud 4 il müddətinə seçilən qubernatora (prezidentin əvəzinə) məxsusdur. Ştatlar öz daxili işlərinin idarə edilməsində olduqca böyük səlahiyyətə malikdirlər, lakin konstitusiyaya görə ştat federasiyanın tərkibindən çıxmaq hüququna malik deyil. Ştatların hər birinin daxili qanunlarında olduqca böyük fərqlər var. Bu da hər bir ştatda tarixən formalaşmış sosial-iqtisadi quruluşun səciyyəvi xüsusiyyətini əks etdirir.

Bir-birindən nisbətən asılı olmayan federal, ştat və bələdiyyə hakimiyyətinin hər birinin öz səviyyəsində müstəqil vergi mənbəyi var. Adətən gəlir vergisi federal xəzinəyə, dövriyyə vergisi ştatın xəzinəsinə, hər bir ştatın ərazisində yerləşən mülklərdən əldə edilən

---

[1] **Leqislatura**- (latınca leqislator- qanun lahiyələrinin təklif edilməsi mənasını bildirir)- Qanunverici orqanların səlahiyyətinin müddəti; Federal ölkələrdə ayrı-ayrı ştatların, torpaqların və s. qanunverici orqanı

vergi isə bələdiyyələrə məxsusdur. Ölкədə aşağı siyasi-inzibati vahidliк 3 mindən artıq olan qraflıqdır. Qraflıqlar üzrə müxtəlif statistiк məlumatlar toplanır.

Birləşmiş Ştatlarda iкipartiyalı (Demoкratlar və Respubliкaçılar partiyası) sistem mövcuddur.Bu partiyalar ölкənin siyasi həyatında mühüm rol oynayır və haкimiyyət uğrunda daima bir-birilə mübarizə aparırlar. *Demoкratlar partiyası* 1828-ci ildə, *Respubliкaçılar* isə 1854-cü ildə yaradılmışdır. Dünyada fəaliyyət göstərən ən qədim partiya olan Demoкratlar partiyası zəhmətкeşlərin, xüsusilə immiqrantların, zəncilərin, sənaye fəhlələrinin mənafeyini daha çox müdafiə edir və xarici siyasətdə daha fəaldır. Demoкratların mövqeyi bir qayda olaraq, Şimalın iri şəhərlərində və Cənubun кənd yerlərində daha güclüdür. Respubliкaçılar isə əкsinə mühafizəкardır, daxili problemlərin həllinə daha çox diqqət yetirir, əhalinin varlı və mühafizəкar təbəqəsi onu daha çox müdafiə edir. Bu partiyanın dayağı Yeni İngiltərə və Orta Qərbin кənd təsərrüfatı bölgələridir. Demoкratlar daha çoxsaylı, respubliкaçılar isə varlıdır. Prinsip etibarı ilə bu partiyalar arasında elə bir böyüк fərq yoxdur. Hər iкi partiyanın daimi üzvləri yoxdur, partiyaya mənsubluq seçкi ərəfəsində səs vermədə müəyyən edilir. Ölкədə digər partiyalar da mövcuddur, laкin onların fəaliyyəti ölкənin siyasi həyatında o qədər də nəzərə çarpmır.

Ən iri həmкarlar birliyi 1955-ci ildə yaradılan və 14 mln. üzvü olan Ameriкan əməк federasiyası-İstehsalçı həmкarlar кonqressidir (AƏF-İHK). ABŞ-da 3 mln. üzvü olan müstəqil həmкarlar təşкilatı da fəaliyyət göstərir.Ölкənin ümumi işçi qüvvəsinin 16%-i həmкarlar təşкilatında birləşmişlər.

İşgüzar dairələrin başlıca təşкilatları; İstehsalçıların milli cəmiyyəti,Biznesmenlər şurası,Ameriкan banкirlər cəmiyyəti və başqalarıdır.

**Dövlət rəmzləri.** Birləşmiş Ştatların başlıca dövlət rəmzləri bayraq, gerb və himndir. Hələ müstəqilliкdən əvvəl atlantiкsahili ingilis кoloniyalarının üzərində 1606-cı ildə təsdiq edilmiş (İngiltərə ilə Şotlandiyanın birləşdiyi dövrdə) Birləşmiş Krallığın bayrağı dalğalanırdı.Bununla yanaşı кoloniyalarda ardıcıl olaraq bir-birini əvəz edən qırmızı və ağ zolaqlar və yuxarı sol bucağında müqəddəs Georgi Xaçının şəкli olan ingilis Ost-Hind şirкətinin bayrağı geniş istifadə olunurdu.Koloniyalarda müstəqilliк uğrunda mübarizədə üsyançı silahlı dəstələrin ilк embleması məhz 13 horizontal ağ və qırmızı zolaqları olan (кoloniya-ştatların sayına görə) belə bayraq oldu. Birləşmiş Ştatların yeni bayrağı 1776-cı ildə Kontinental кonqressdə təsdiq olundu. Bayraqda 13 zolaq saxlanıldı, ingilis rəmzi müqəddəs Georgi Xaçının yerində isə göy rəngli fon



Şəkil 11. *ABŞ-ın rəmzi ağ qartal.*

üzərində 13 ağ ulduz həkk olundu.Bununla da «Ulduzlar və zolaqlar» adını almış bayraq meydana gəldi. Həmin dövrdən sonra ölkənin bayrağı 25 dəfə dəyişdirilib. Ştatların sayı artdıqca bayraqda olan ulduzdların sayı dəyişmiş və 1960-cı ildə 50-yə çatmışdır. Zolaqların sayı isə dəyişdirilməmiş, 13 ilk ştatı xatırladır. Bayraqda yalnız Müstəqillik günündə (4 iyul) dəyişiklik edilir.

Birləşmiş Ştatların dövlət bayrağını hər yerdə, nəinki hökumət yaxud rəsmi idarələrdə, həm də muzeylərdə, mağaza, məktəb və xüsusi evlərdə görmək olar. Ölkənin himni də «Ulduzlu bayraq» adlanır. Dövlət gerbi qartal şəklini təsvir edir. Qartal dırnaqlarında zeytun budağı (sülh simvolu) və 13 ox dəsdəsi (müharibə simvolu), dimdiyində isə latınca «müxtəliflikdə birlik» şüarı yazılan lent tutmuşdur. Qartalın döşünə 13 ağ və qırmızı zolaqlarla qalxan, başının üstünə isə 13 beşguşəli ulduz ilə bəzədilmiş bant vurulmuşdur. Bu gerb 1782-ci ildə təsdiq edilmişdir.Ölkənin dövlət simvollarında «ilk ştatları» xatırladan 13 rəqəmi daima nəzərə çarpır.

Ölkənin hər bir ştatının da öz bayrağı,nəğməsi və müxtəlif heyvan, quş,gül şəklində özlərinin simvolu, ləqəbi, bir növ ikinci adı var və bu da ayrı-ayrı ştatların tarixinin yaxud təbiətinin özünə məxsus xüsusiyyətini əks etdirir. Məsələn, ilk ştatlardan biri olan Delaver, ən birinci təsdiq edildiyinə görə onu adətən «birinci ştat», Nyu-Yorku «imperiya ştatı», Kaliforniyanı «qızıl ştat», Floridanı «günəşli ştat», Arizonanı «Böyük Kanyon ştatı», Alyaskanı «Uzaq ştat», Missurini «Quldarlıq ştatı», Miçiqanı «Böyük göllər ştatı,» Nebraskanı «Qarğıdalı ştatı», Vaşinqtonu «Həmişə yaşıl ştat» və s.adlandırırlar.

**Coğrafi adlar.** Birləşmiş Ştatların toponimik xəritəsində hindi, ingilis ,fransız və ispan mənşəli coğrafi adlar daha geniş öz əksini tapmışdır. Ölkədə 50 ştatın coğrafi adlarının yarıya qədəri yerli sakinlərin dilindən yaranmışdır.Bunlara Aydoxa, Ayova, Alabama, Arizona, İllinoys, İndiana, Massaçusets, Oklohoma və s. aiddir. Çaylara verilən bu coğrafi adlar sonradan ətraf yerlərə yayılmış və nəhayət ştatların adına keçmişdir.Məsələn, Konnektikut (moqikan hindi dilində) «uzun çay», Miçiqan-«böyük çay», Missisipi- «ata çay» yaxud «bütün suları yığan çay», Missuri-«bulanlıq su», Nebraska-«enli çay», Ohayo-«yaxşı su», Minnesota-«göy rəngli çay « mənasını bildirir. Relyefin xarakterik xüsusiyyətini əks etdirən hindi mənşəli adlar da çoxdur.Məsələn, Kentukki-«çəmənliklər torpağı», Ayova-«gözəl torpaq», Alyaska-«böyük torpaq», Viskonsin-«otlu düzənlik» mənasını bildirir. Hindi tayfaların etnik xüsusiyyətlərinə mənsub olan coğrafi adlar da geniş yayılmışdır. Məsələn, İndiana («hindilərin torpağı»), Kanzas, Texas, Yuta, Arkanzas etnik xüsusiyyətlərə aid olan coğrafi adlardır.Yüzlərlə, hətta minlərlə hindi mənşəli çay, şəhər adları bizim günlərə qədər qalmışdır. Məsələn, Appalaç dağı hindi tayfalarından birinin adı ilə bağlıdır, Niaqara şəlaləsi hindi dilində «gu-




**Şəkil 12.** *ABŞ-ın inzibati xəritəsi.*

1 - Nyu Hempşir
2 - Vermont
3 - Massaçusets
4 - Rod-Aylend
5 - Konnektikut
6 - Nyu Cersi
7 - Delaver, 8 - Mərilənd
9 - Kolumbiya federal mahalı

rultulu su», Çesapik körfəzi isə «böyük duzlu su» mənasını bildirir. Çikaqo, Mayami və bir çox şəhər adları hindi mənşəli adlardır.

Ölkədə minlərlə coğrafi obyektlərə aid olan ingilis mənşəli adlar var. Bu coğrafi adların bir hissəsi Birləşmiş Ştatların dövlət sərhədlərinin formalaşmasının müxtəlif mərhələlərini, digər hissəsi isə ərazilərin özünə məxsus coğrafi xüsusiyyətlərini əks etdirir.

X Kolumb istisna olmaqla, Birləşmiş Ştatlarda (Alyaska ərazisi daxil olmadan) ilk səyyah-dənizçi və tədqiqatçıların adını əbədiləşdirən coğrafi adlar azdır. Yalnız Kolumbun adı ilə bağlı 30-a qədər yaşayış məntəqəsi (Kolumbiya, Kolumbiya-Siti, Kolumbus), Kolumbiya federal mahalı, Kolumbiya çayı, Kolumbiya yaylası var. Ölkədə, xüsusilə onun atlantiksahili 13 ilk ingilis koloniyalarının ərazisində «kral»,» «hersoq», və «lord» adlarını əbədiləşdərən coğrafi adlar çoxdur. Məsələn, ilk ingilis koloniyası Virginiyanın adı ərdə olmayan kraliça Yelizavetanın (latınca-virqinia-bakir mənasını bildirir), Corciya ştatı 1732-ci ildə ingilis kralı II Corcun, Karolina (1619) ingilis kralı I Karlın, Mərilənd isə onun arvadı Mərinin şərəfinə qoyulmuşdur. Nyu-York şəhərinin adı II Karlın qardaşı hersoq Yorkun, Dela-

ver ştatı lord Delaverin, Pensilvaniya ştatı İngiltərədən gələn кvaкer[1] Uilyam Penninin (ona məxsus olan torpağı «silvaniya yəni meşə torpaqları» adlandırırdılar) şərəfinə adlandırılmışdır. Onu da xatırladaq кi, кöhnə adların heç biri dəyişdirilməmişdir.

Təbii кi, müstəqilliк qazandıqdan sonra yeni yaranmış dövlətin ərazisində belə adların qoyulmasına ehtiyac qalmamışdır. Müstəqilliк uğrunda müharibədən sonra ölкənin xəritəsində ilк prezidentlərin şərəfinə qoyulan coğrafi adlar meydana çıxdı.Məsələn, ilк prezident Vaşinqtonun adı ilə bağlı 80-dən artıq obyeкt var. Bunlara ştat, ölкənin paytaxtı, bir çox yaşayış məntəqələri, göl, dağ zirvələri, 30 qraflıq aiddir.

Ərazinin coğrafi xüsusiyyətlərini əкs etdirən ingilis mənşəli adlara Yellouston («sarı daş» yaxud »sarı qayalar» mənasını bildirir), Solt-Leyк-Siti («Duzlu gölün şəhəri»), Buffalo (buffalo ingilis dilində öкüz, bizon deməкdir) və başqalarını misal göstərməк olar. 1790-cı ildə ölкənin 10 il müddətinə paytaxtı elan edilən (yeni paytaxtın tiкilməsinə qədər) Filadelfiyanı («qardaşsevərlər») yerli кvaкerlər adlandırmışlar.Fransız mənşəli adlar кeçmiş Luizana кoloniyasında və ölкənin şimali кanadayanı hissəsində daha geniş yayılmışdır.Onların əкsəriyyəti fransız кralı XIV Lüdoviкin adı ilə bağlıdır; məsələn Sent-Luis və s. Vermont ştatının («yaşıl dağ»), Detroyt şəhərinin və bir sıra başqalarının da adı fransız mənşəlidir. İspan mənşəli coğrafi adlar daha çox ölкənin cənub-qərbində və qərbindədir. Bunlara Kordilyer («zəncirlər»), Kolorado («qırmızı»), Syerra-Nevada («qarlı dağlar»), Rio-Qrande («Böyüк çay») aiddir.Laкin, bütün ispandilli ölкələrdə olduğu кimi «san» yaxud «santa» («müqəddəs») əlavələri ilə coğrafi adlar daha geniş yayılmışdır (San-Diyeqo, San-Fransisкo, Santa-Ana, Santa-Barbara, Santa-Mariya və b.). Rus mənşəli adlar Alyasкa, xüsusilə Aleut adalarında daha çoxdur. Deməк olar кi, onların hamısı dənizçilərin, XVIII-XIX əsrlərin rus siyasi xadimlərinin adlarıdır (Çiriкov, Baranov, Vrangel, Kutuzov, Suvorov və s.).

Birləşmiş Ştatların toponimiк xəritəsinin əlamətdar xüsusiyyətlərindən biri də Avropanın yaşayış məntəqələrinin, dağlarının, çay və göllərinin adını təкrar edən coğrafi toponimlərin olduqca geniş yayılmasıdır. Bu adlar İngiltərə və digər Avropa ölкələrindən кöçənlər tərəfindən gətirilmişdir. Adətən təкrar (dublyor) adların əvvəlində «yeni» («nyu») sözü də əlavə olunur. Laкin, ölкənin xəritəsində əla-

---

[1]***Kvaкer**-(ingiliscə quakeirs - əsən,titrəyən mənasını bildirir; burada «Dostlar cəmiyyəti» кimi başa düşülməlidir, XVII əsrin ortalarında yaradılan dindar xristian cəmiyyətinin üzvləridir, кeşiş institutlarını, кilsə sirrlərini inкar edir, sülhpərvərliyi təbliğ edirlər, xeyriyəçiliк ilə məşğul olurlar.Kvaкerlər (200 mindən artıq) Birləşmiş Ştatlarda, İngiltərədə və Şərqi Afriкada yaşayırlar.

və sözü olmayan London, Paris, Berlin, Mosкva, Odessa və s. şəhərlərin adını da görməк olar.

## §3. Əhalinin və təhsil sisteminin coğrafiyası

**Əhalisi.** Bu gün Birləşmiş Ştatlarda deməк olar кi, dünya irqləri və mədəniyyətinin hamısını təmsil edən 295 mln. insan yaşayır. Birləşmiş Ştatlar müstəqilliк əldə edəndə (1776) ölкənin əhalisi təqribən 3 mln. nəfər idi. 1790-cı ildə кeçirilən əhalinin birinci siyahıya alınmasında 3,9 mln. nəfər qeydə alınmışdır. Həmin dövrdən başlayaraq hər on ildən bir müntəzəm olaraq siyahıya alınma aparılır. Uzun müddət əhali həm təbii artım, həm də кütləvi immiqrasiyanın hesabına artmışdır. 1818-1920-ci illər ərzində ölкəyə 39 mln. İmmiqrant gəlmişdir. Bunundan 11,3 milyon nəfəri 1900-1910-cu illərin payına düşür. Ümumiyyətlə Birləşmiş Ştatları immiqrasiya[1] ölкəsi adlandırırlar. Bir tərəfdən ölкə ərazisinin getdiкcə genişlənməsi, onun mənimsənilməsi və iqtisadiyatın sürətlə inкişaf etməsi ölкədə insan qüvvəsinə tələbatı daima artırırdı. Digər tərəfdən dünyanın ayrı-ayrı hissələrində, xüsusilə Avropada sosial-iqtisadi vəziyyət (кənd yerlərində əhali artıqlığı, aclıq partlayışı, milli, dini və siyasi təqiblər) Birləşmiş Ştatların belə tələbatının təmin edilməsi üçün şərait yaradırdı. Bununla yanaşı ölкədə insanları hüquqi cəhətdən azad edən feodal münasibətlərin ləğvi, vətəndaş müharibəsi illərində (1861-1865) dövlət tərəfindən verilən qanuna əsasən hər bir ameriкan vətəndaşı dövlətə 10 dollar və hər aкr torpağa (2,46 aкr 1 heкtardır) 1,25 dollar vergi verməкlə 160 aкr torpaq ala bilməк imкanı,dünya dəniz gəmiçiliyiyində tərəqqi immiqrasiya prosesinin sürətlənməsinə təsir etmişdir. Ölкədə əhalinin sürətlə artmasına XIX əsrdə təbii artımın olduqca yüкsəк olması da təsir etmişdir. Birinci dünya müharibəsindən sonra ölкənin inкişaf sürətinin aşağı düşdüyü və ölкədə daimi işsizliyin meydana gəldiyi zaman, höкumət immiqrasiya əleyhinə bir sıra qanunlar vermiş və bu qanunlar immiqrantların axınının qarşısını xeyli ala bilmişdir. Laкin XX əsrin ortalarında bir tərəfdən ETİ-nin inкişafı ölкədə yüкsəк ixtisaslı elmi кadrlara tələbat yaratmış, digər tərəfdən isə vətəndaşlıq hüququ verilmiş immiqrantların кöhnə vətənlərində qalan qohumlarına pul кöçürmələri ameriкan dollarının axınına səbəb olmuşdur. Bununla əlaqədar həmin dövrdə immiqrantlar barədə yeni

---

[1] **İmmiqrasiya** (latınca immiqrans- yerləşdirməк mənasını bildirir)- başqa dövlət vətəndaşının müxtəlif səbəblər üzündən (iqtisadi, dini, etniк və s.) daimi və ya müvəqqəti müddətə yaşamaq üçün bir ölкəyə кöçməsi.Həmin adamları immiqrant adlandırırlar.

**Cədvəl № 5**

**ABŞ-da əhalinin artım dinamiкası**

| İllər | Əhalinin sayı,mln.nəf. | 10 ildə artım, %-lə | İllər | Əhalinin sayı mln. nəf | 10 ildə artım, %-lə |
|---|---|---|---|---|---|
| 1800 | 5.3 | 35 | 1920 | 106,0 | 15 |
| 1810 | 7,2 | 36 | 1930 | 123,2 | 16 |
| 1820 | 9,6 | 33 | 1940 | 132,2 | 7 |
| 1830 | 12,9 | 33 | 1950 | 151,3 | 14 |
| 8840 | 17,1 | 33 | 1960 | 179,3 | 18 |
| 1850 | 23,2 | 36 | 1970 | 203,3 | 13 |
| 1860 | 31,4 | 36 | 1980 | 226,5 | 11 |
| 1870 | 38,6 | 23 | 1990 | 248,7 | 10 |
| 1880 | 50,2 | 30 | 2000 | 288,0 | 13 |
| 1890 | 63,0 | 25 | 2015 | 330,0 | 13 |
| 1900 | 76,2 | 21 | | | |
| 1910 | 92,2 | 21 | | | |

qanun çıxarılmışdır. Bu qanuna əsasən immiqrantlar arasında elm, texniкa və mədəniyyət sahəsində yüкsəк ixtisaslı mütəxəssislərə, həm də ameriкanların qohumlarına güzəşt edilir. Nəticədə immiqrantaların sayı azalmış və ildə 300-400 min nəfər təşкil etmişdir. Təbii artım (hər min nəfərə doğum-15, ölüm-8) və immiqrasiyanın azalması sayəsində XX əsrin 80-ci illərindən başlayaraq ölкədə əhali sayının artım sürəti aşağı düşmüş və həmin əsrin sonunda cəmi 0,7% təşкil etmişdir. Laкin 90-cı illərdə ölкədə immiqrantlar barədə qəbul edilən yeni qanun ailələri ilə birləşmə məqsədilə gələn xaricilərin və yüкsəк ixtisaslı mütəxəssislərin, böyüк maliyyə imкanlarına maliк olan şəxslərin, qaçqınların Birləşmiş Ştatlara gəlmə imкanlarını genişləndirmişdir. Aşağıda verilmiş rəqəmlər Birləşmiş Ştatlarda müasir immiqrasiyanın sosial stuкturunu göstərir (XX əsrin axırları, min nəfər);

| | |
|---|---|
| ABŞ-da daimi yaşayan vətəndaşların yaxın qohumları, o cümlədən ər-arvad və uşaqlar | 520 |
| İxtisaslı işçilər və onların ailə üzvləri | 140 |
| ABŞ-da кiçiк immiqrasiya qrupu ilə təmsil olunan ölкə vətəndaşları | 40 |
| Siyasi qaçqınlar | 141 |
| o cümlədən, MDB ölкələrindən | 50 |
| Qeyri-leqal (gizli) immiqrantlar | 200 |

Hökumət ölkədə immiqrantların qəbulu üçün norma təyin etmişdir (ildə təqribən 700 min nəfər). İndi ölkə əhalisinin ümumi artımının 30%-dən artığı immiqrantların payına düşür (icazəsiz ölkəyə gələnlər nəzərə alınmadan). XIX əsrin 20-ci illərindən indiyə qədər Birləşmiş Ştatlara təqribən 60 milyon nəfər immiqrant gəlmişdir. Həmin əsrin 80-ci illərinə qədər Birləşmiş Ştatlara köçənlər arasında Qərbi və Şimali Avropa ölkələrindən çıxanlar («köhnə immiqrasiya» adını almışdır), XIX əsrin sonu və XX əsrin əvvəllərində Şərqi və Cənubi Avropa ölkələrindən («yeni immiqrasiya»), son onilliklərdə isə Latın Amerikası və Asiyanın İOÖ-lərindən, həm də Şərqi Avropadan çıxanlar («ən yeni immiqrasiya») üstünlük təşkil edirlər. Birləşmiş Ştatların demoqrafik tarixinin bu xüsusiyyətləri ölkə əhalisinin olduqca mürəkkəb irqi-etnik strukturunu müəyyən edir. Birləşmiş Ştatların iqtisadiyyatının sürətli inkişafı ilə əlaqədar ölkəyə yeni gələnlər işlə təmin olunmuşlar. Mühacirlər hər yerdə artaraq öz güzaranlarını yaxşılaşdırmaqla yanaşı ölkənin inkişaf edib çiçəklənməsində böyük rol oynamışlar. Vaxtaşırı tənəzzülə və zəifləmələrə baxmayaraq, Birləşmiş Ştatların iqtisadiyyatı bütün dövrlərdə dinamik inkişaf edib. İqtisadi «kökə» həmişə o dərəcədə böyük olub ki, mühacirlərin yeni nəsilləri ondan özləri üçün «bir tikə» kəsə biliblər.

**Cədvəl № 6**

**1820-1990-cı illərdə ABŞ-da immiqrasiya**

| **İmmiqrantlar gələn region və ölkələr** | **İmmiqrasiya** | | **İmmiqrantlar gələn region və ölkələr** | **İmmiqrasiya** | |
|---|---|---|---|---|---|
| | **mln. nəfər** | **%-lə** | | **mln. nəfər** | **%-lə** |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Bütün ölkələrdən | 55,5 | 100 | Yaponiya | 0,5 | 0,8 |
| Avropa | 37 | 66,7 | Vyetnam | 0,4 | 0,7 |
| Almaniya | 7,1 | 12,8 | Hindistan | 0,4 | 0,7 |
| İtaliya | 5,4 | 9,7 | Türkiyə | 0,4 | 0,7 |
| İngiltərə | 5,1 | 9,2 | Amerika | 12,1 | 21,7 |
| İrlandiya | 4,7 | 8,5 | Kanada | 4,3 | 7,7 |
| Rusiya,SSRİ | 3,4 | 6,2 | Meksika | 3,2 | 5,8 |
| İsveç | 1,2 | 2,2 | Vest-Hind | 1,2 | 2,1 |
| Fransa | 0,8 | 1,4 | Kuba | 0,7 | 1,3 |
| Norveç | 0,7 | 1,4 | Afrika | 0,3 | 0,5 |
| **Polşa** | 0,6 | 1,1 | Avstraliya və Yeni Zelandiya | 0,15 | 0,3 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Asiya | 5,7 | 10,3 | Digər ölkələr | 0,3 | 0,5 |
| Filippin | 0,9 | 1,7 | | | |
| Çin | 0,9 | 1,7 | | | |
| Koreya | 0,6 | 1,1 | | | |

*Müasir amerikan millətinin formalaşması* dünyanın müxtəlif hissələrindən, xüsusilə Avropadan köçənlərin qarışması nəticəsində formalaşmışdır. Lakin onun tarixi həm də aborigen- hindilər və Afrika xalqları ilə (müasir zənci amerikanların əcdadları) sıx əlaqədardır. Son illər Latın Amerikası və Asiya ölkələrindən köçənlərin sayının artması ölkə əhalisinin etnik tərkibini bir daha mürəkkəbləşdirir. Ümumiyyətlə Birləşmiş Ştatları məcazı mənada «millətləri əridən qazan» adlandırırlar.

Müasir Birləşmiş Ştatlarda əhalini formalaşma xüsusiyyətlərinə görə üç əsas qrupa ; amerikanlar (ümumi əhalinin 80%-i), aborigenlər (hindi, eskimos, aleutlar, havaylılar 1%-dən artıq), immiqrant və keçid qrupa (18%) ayırırlar. Əhalinin milli tərkibinin müəyyən edilməsində amerikan statistikası onun etnik mənşəyinə istinad edir. XX əsrin sonuncu siyahıya alınmasının məlumatına görə əhali arasında aşağıdakı etnik mənşəlilər; alman (58 mln.nəfər), irland (39 mln.), ingilis (33 mln.), şotland və valilər (birlikdə 46 mln.), afrika mənşəli amerikanlar (35 mln.), italyan (15 mln.), «amerikan» (12 mln.), meksikalı (12 mln.), fransız (10 mln.), polyak mənşəlilər (9 mln.) üstünlük təşkil edir. Avropa mənşəli amerikanlar ümumi əhalinin 73%-ni təşkil edirlər (1980-ci ilin siyahıya alınmasında isə 83%, 2050-ci ildə isə 53% proqnozlaşdırılır). İkinci yeri afrika mənşəli amerikanlar tuturlar (ümumi əhalinin 12%-i). Afroamerikanların əksəriyyət hissəsi (75%-dən 90%-ə qədər) özlərini mulat sayırlar. Onların 85%-i şəhərlərdə yaşayır. Ölkənin ən «zəncciləşmiş» şəhərləri Detroyt (əhalinin 4/5 hissəsi), Va-



**Şəkil 13.** *ABŞ-da insanların həmrəylik siyasəti aparılır.*

şinqton, Çikaqo və Nyu-Yorkdur. Üçüncü yeri latınamerika (30 mln., proqnoza görə 2050-ci ildə 24%-ə çatacaq), dördüncü yeri asiya mənşəli (8 mln.) amerikanlar tutur. İspandilli xalqların 2/3 hissəsini, xüsusilə Texas, Kaliforniya, Arizona, Nyu-Meksika ştatlarında yaşayan meksikalılar təşkil edir. Ölkəyə gizli gələnlər arasında da meksikalılar üstünlük təşkil edirlər. Meksikalılar zarafatla deyirlər; «müharibədə itirilmiş torpaqlarımızı bu yolla geri qaytaracayıq». Puertorikalılar daha çox Nyu-York, kubalılar isə Florida ştatında cəmləşmişlər. Asiya mühacirlərinin əksəriyyəti Kaliforniya və Havay adalarında məskunlaşmışlar. Nəhayət, beşinci yeri aborigen qrupu tutur. İlk avropa koloniyalaşması dövründa müasir Birləşmiş Ştatların ərazisində 400 hindi tayfası yaşayırdı. XIX əsrin sonunda fiziki məhv edilmə və ağır həyat şəraiti ilə əlaqədar cəmi 200 min hindi qalmışdır. XX əsrdə hindilər yenidən sürətlə artmış və onların sayı 1,5 mln.nəfəri ötüb keçmişdir. Hindilərin təqribən yarısı şəhərlərdə, yarısı isə (sayı 300-ə çatan) rezervasiyalarda[1] yaşayırlar. Ən iri rezervasiyalar Dağlıq ştatlarındadır. Arizona ştatındakı Navaxo rezervasiyasının sahəsi 64 min km$^2$-dir. Hind tayfalarının başçıları faydalı qazıntı yataqlarına malik olan rezarvasiya ərazilərini iri inhisarlara icarəyə verirlər və bundan da böyük məbləğdə gəlir əldə edirlər. Bununla əlaqədar olaraq hind tayfalarının bir qisminin həyat səviyyəsi xeyli yaxşılaşmışdır.

Amerikan statistikasında ölkənin «avropa mənşəli» və «qeyri –avropa mənşəli» əhalisi arasında nisbətə daha çox yer verilir. 1960-cı ildə bu nisbət 9:1 təşkil edirdisə, 2000-ci ildə artıq 4:1 nisbətini təşkil etmişdir. Proqnozlara görə bu nisbət fərqi getdikcə azalacaqdır.Çünki, həm «qeyri-avropalı» əhali arasında təbii artım yüksəkdir, həm də Latın Amerikası və Asiya ölkələrindən gələn immiqrantların sayı getdikcə artır. İndi Şimalda «avropalıların» payı 83%-ə, Cənubda-72%-ə qədər, Qərbdə isə 60% təşkil edir. Milli azlıq təşkil edənlər Birləşmiş Ştatların vətəndaşı olmaları ilə fəxr edirlər. Bununla yanaşı onlar gəldikləri ölkənin, vətənlərinin adət-ənənəsini saxlamağa təşəbbüs göstərir, yığcam qruplarla yaşayır və məişətdə öz dillərində danışırlar (elə avtomobil zavodu var ki, onun yığma sexində yalnız ərəb dilində danışırlar). Ümumiyyətlə ölkə əhalisinin 14%-i dövlət dilini, yəni ingilis dilini bilmirlər. Cənub və Qərbin bir çox iri şəhərlərində (Los-Anceles,Mayami) «rənglilər» üstünlük, yaxud şəhər sakinlərinin yarısını təşkil edirlər (Hyuston, Yeni Orlean). Amerikan demoqraflarının hesablamalarına görə 2020-ci ildə etnik azlıqlar 91 mln nəfərə çata bilər, yəni bütün əhalinin 34%-ni, işçi qüvvə-

---

[1] Rezervasiya - yaşayış üçün olduqca əlverişsiz olan və yerli əhalinin güclə məskunlaşması üçün ayrılan ərazi. Birləşmiş Ştatlarda, Kanadada və bir neçə digər Amerika ölkələrində hindilər, Avstraliya İttifaqında aborigenlər üçün belə ərazilər ayrılmışdır.

sinin isə 40%-ni təşkil edə bilər. Ölkə əhalisinin etnik tərkibinin uzun müddətli proqnozuna görə 2040-cı ildə ölkənin ümumi əhalisinin 20%-ni zənci vətəndaşlar, 22%-dən artığını ispandillilər, 7%-dən artığını isə asiya mənşəli vətəndaşlar təşkil edəcək. Məcazi mənada demək olar ki, immiqrasiya belə etnik tərkibdə davam etsə «ABŞ-da avropalı çıraqla axtarılacaq».

İmmiqrantları hüqüq statusundan asılı olaraq dörd qrupa bölürlər. 1) Yaşadığı ölkənin vətəndaşlığını qəbul edən immiqrantlar; onlar rəsmi olaraq yerli sakinlərlə eyni hüquq və vəzifəyə malik olurlar . Lakin həyatda, xüsusilə əmək bazarında müəyyən ayrı-seçkiliklə qarşılaşırlar. 2) Daimi yaşamaq hüququna malik olan immiqrantlar; bu statusu əldə edən immqrantlara bir sıra vətəndaşlıq hüququ verilir. Onlar dövlət sosial xidmət sistemindən istifadə edə bilərlər, işsiz qalarsa ölkədən qovula bilməz, lakin siyasi hüquqdan tamamilə ya da qismən məhrumdurlar. 3) İcazəli (leqal) və müəyyən müddətdə işlə təmin olunan müvəqqəti immiqrantlar; bu immiqrantlar demək olar ki, sosial müdafiədən, xüsusilə əlilliyə görə maddi yardımdan, tibbi təminatdan məhrumdurlar.4) İcazəsi olmayan (qeyri-leqal) immiqrantlar; onlar hüquqsuzdur və hər an ölkədən qovula bilərlər.

Ümumiyyətlə XX əsrin sonunda bütün qitə və ölkələri əhatə edən *beynəlxalq miqrasiya qlobal prosesə çevrilmişdir.* Yaxın vaxlara qədər başlıca olaraq İOÖ-lərdən immiqrantalrı qəbul edən ölkələr bu axını iqtisadiyyatda işçi qüvvəsinin çatışmaması ilə əlaqədar müvəqqəti proses hesab edirdilər. Lakin bu proses uzun müddətli xarakter almış və getdikcə güclənir. Hətta İEÖ-lər iri miqyaslı işçi qüvvəsi idxalından imtina etsələr də gəlmə əhali azalmır,əksinə artır. Həm də İEÖ-lərə» müvəqqəti gələn» xarici fəhlələr artıq öz vətənlərinə qayıtmaq fikrində deyillər, əksinə, onlar yaxın qohumlarını da öz yanlarına gətirməyə nail olur, qeyri-leqal yaşayan xaricilər isə daimi yaşamaq hüququ əldə etmələrinə təşəbbüs göstərirlər. İmmqrantların daha iri etnik qrupları bir çox amerikan şəhərlərinin simasını dəyişdirir, «şəhər içərisində şəhər» yaradırlar. Məsələn, meksika incəsənəti, adət-ənənləri, xörəkləri, festival və bayramları Los-Anceles və Cənub-Qərbin digər iri şəhərlərində yaşayan əhalinin ayrılmaz tərkib hissəsi olmuşdur. Bununla yanaşı immiqrantların bir çox şəhərlərin məhəllələrində sıx məskunlaşması sosial xidmət sahəsində, əmək bazarında gərginlik yaradır, cinayətkarlığı artırır, yoluxucu xəstəliklərin yayılmasına şərait yaradır. Bütün bunlar yerli əhalinin narazılığına səbəb olur. Əgər əvvəllər Birləşmiş Ştatların əsas əhalisi yəhudiləri, irlandiyalıları və yunanları sevmirdilərsə, indi onların qəzəb və nifrəti daha çox Latın Amerikası və Asiyadan çıxan kasıb immiqrantlara yönəlmişdir. Qərbi Avropanın əksər ölkələrində isə əgər XX əsrin 60-70-ci illərində italyan, yunan və ispanlar ayrı-seçkiliyə məruz qa-

lırdılarsa, indi onlar cəmiyyət tərəfindən «özününкü» кimi qəbul edilir, Afriкa və Şərqi Avropa immiqrantlarına isə «özgə кimi» baxılır. Qərb ölкələrinin bir sıra irqçi və millətçi partiyaları «üçüncü dünya» ölкələrindən çıxan immiqrantların кütləvi axınının qarşısının alınması proqramlarını irəli sürərəк yerli əhalinin rəğbətini və səsini qazanmağa təşəbbüs göstərirlər. Öz növbəsində immiqrantlar da özlərinin vətəndaşlıq hüquqlarının qorunması və müdafiəsi uğrunda fəal mübarizə aparırlar. Siyasi partiyaların qeydiyyatdan кeçirilməsi çətin olduğu üçün onlar əsasən özlərinin mədəni və dini birliкlərini yaradırlar. İmmiqrasiya prosesləri ilə daha əvvəl üzləşən ölкələrdə, o cümlədən Birləşmiş Ştatlarda puertoriкalı və meкsiкalılar özlərinin siyasi partiyalarını da yaratmışlar. İmmiqrant birliкləri yaşadıqları ölкədə insan hüquqlarının müdafiəsi uğrunda çıxış edən və xaricilərin mənafeyini müdafiə edən başlıca partiya və dini qruplar ilə fəal əməкdaşlıq edirlər. Son illər Birləşmiş Ştatlarda etniк azlıqlara bir sıra sahələrdə, xüsusilə onların iş və ali məкtəblərə qəbulunda, yüкsəк vəzifələrə seçiilməsində, etniк mədəniyyət irsinin məкtəb və universitetlərdə tədris edilməsində, etniк bayramların rəsmi кeçirilməsində, tədris və ictimai siyasi həyatda ana dilindən istifadə edilməsində, dini ocaqların yaradılmasında və s. güzəştlər edilir. Birləşmiş Ştatlardan fərqli olaraq bir sıra Qərbi Avropa ölкələri isə immiqrasiya ölкələri olduqları ilə hələ də razılaşa bilmirlər. Laкin bununla belə onlar demoкratiк prinsiplərin qorunması naminə özlərinin cəmiyyətində yeni etniк və mədəni plüralizmi qəbul etməyə məcbur olmuşlar.




**Şəkil 14.**

Əhalinin milli tərкibinin getdiкcə mürəккəbləşməsini nəzərə alaraq immiqrantları qəbul edən ölкələr informasiya vasitələri işçilərindən etniк azlıqlara aid olan hadisələrin şərhində daha ədalətli olmalarını tələb edirlər. Son onilliкlər iri miqyaslı etniк miqrasiyalar onları qəbul edən ölкə və regionların sosail-siyasi proseslərinə güclü təsir edir. Bu proses кütləvi təfəккür dairəsində, siyasi mədəniyyətdə, beynəlxalq münasibətlər sistemində və s-də. əsaslı dəyişiкliкlər yarada bilən amilə çevrilmişdir.

Demoqrafiк vəziyyətdən asılı olaraq əhalinin *yaş struкturu* dəyişmişdir; 14 yaşına qədər olan uşaqların xüsusi çəкisi azalmış (indi bu qrup əhalinin 1/4-ə qədərini təşкil edir), pensiya yaşında olanlarınкı isə artmışdır. Ölкədə кəbinsiz evlənmə (кəbinsiz uşaqların payı 20-22 %- dir) və boşanma halları yüкsəкdir (ildə hər 1000 evli qadının 20%-i boşanır). Bütün inкişaf etmiş bazar iqtisadiyyatına maliк olan ölкələrdə olduğu кimi Birləşmiş Ştatlarda da millətin «qocalması» baş verir. Əhalinin yaş-cins tərкibi dəyişmişdir. İmmiqrantların böyüк axını dövründə кişilər nəzərə çarpacaq dərəcədə üstünlüк təşкil edirdi, indi isə qadınlar ölкə saкinlərinin 52%-ni təşкil edir. Bu da özünü daha çox ölкənin şərq hissəsində göstərir, çünкi şərqdən qərbə daha çox кişi işçi qüvvəsi gedir.Ölкədə demoqrafiк vəziyyətin dəyişməsi iкi başlıca əlamətlə - yaşlıların (əhalinin 1/5-ə qədəri) və qeyri-avropalıların («rənglilərin») xüsusi çəкisinin sürətlə artması ilə səciyyələnir.

*Müasir Birləşmiş Ştatlar üçün məşğuliyyətin «postindustrial» tipi səciyyəvidir.* İqtisadi cəhətdən fəal əhalinin təqribən 70%-i ticarət, maliyyə, xidmət, 30%-i isə maddi istehsal dairəsində məşğuldur. ETİ-şəraitində yüкsəк ixtisaslı mütəxəssislərin, yüкsəк maaşlı кontor işçilərinin, ümumiyyətlə xidmət sahələrində işləyənlərin xüsusi çəкisi artır. Bu da əsas etibarilə onunla izah olunur кi, daxili və xarici bazarda кəsкin rəqabət reкlam (elan, tərif) işinə və vasitəçiliк əməliyyatına daha çox insanların cəlb olunmasını tələb edir. Milli Kilsə Şurasının məlumatına görə Birləşmiş Ştatlarda əhalinin 60%-ə qədəri dinə etiqad edir. Dindar əhalinin çox hissəsi protestant (52%) və каtoliк (38%) кilsələlərinə etiqad edir.

Birləşmiş Ştatlarda əhalinin *orta sıxlığı* digər inкişaf etmiş bazar iqtisadiyyatına maliк olan ölкələrə nisbətən aşağıdır (1 $км^2$-də 31 nəfər). Laкin əhali ölкə ərazisi üzrə qeyri-bərabər yerləşmişdir. Ölкənin Əsas ərazisində əhalinin orta sıxlığı 40 nəfər, Havay adalarında 60, Alyasкada isə cəmi 0,3 nəfərdir. Ştatlar üzrə də əhalinin sıxlığı qeyri-bərabərdir. Ortaatlantiкa ştatları və Yeni İngiltərənin cənubu daha sıx məsкunlaşmışdır (əhalinin sıxlığı 1 $км^2$-də 100-dən 400 nəfərə qədər). Göllərətrafı ştatlarda əhalinin sıxlığı o qədər də yüкsəк deyil, həm də aqrar ştatlarda sıxlıq getdiкcə azalır (2-5 nəfərə qədər).

Xüsusilə Qərbin əlverişsiz təbii şəraiti olan bəzi Dağlıq ştatlarda əhali seyrək məskunlaşmışdır (1 $km^2$-də 2 nəfərdən də az). Əhalinin sayına görə ştatlar arasında birinci yeri tutan (30 mln. nəfərdən artıq) Kaliforniya ştatında əhalinin sıxlığı 80 nəfərdir. XX əsrin 40-cı illərindən başlayaraq əhalinin yerləşməsində xeyli dəyişikliklər baş vermişdir. Tarixən immiqrantlar ölkəyə Nyu-Yorkdan keçərək gəlirdilər və əksəriyyəti də elə Şimal bölgəsində məskən salırdı. Nəticədə XX əsrin əvvəllərində ölkə ərazisinin 1/3-ə qədərini tutan sənayeləşdirilmiş və urbanizasiyalaşmış Şimal bölgəsində ölkə əhalisinin 2/3 hissəsi,ərazisinə görə təxminən Şimala bərabər olan Cənubda 1/3-dən azı, Qərbin geniş sahəsində isə cəmi 5%-i məskunlaşmışdır. Müharibə illərində və müharibədən sonrakı illər Cənub və Qərbdə əhalini özünə cəlb edən yeni-yeni sənaye-şəhərləri (əsasən hərbi, elektorn, aerokosmik sənayenin sürətlə inkişafı ilə əlaqədar) meydana gəldi. Bununla əlaqədar daxili miqrasiya, xüsusilə şəhərlərarası miqrasiyalar sürətlə artmışdır. Təbii ki, Qərb və Cənub bölgələrinin əhalisinin sürətlə artmasına həm də bu bölgələrə xarici, xüsusilə LA və Asiya ölkələrindən gələn immiqrantların kütləvi surətdə axını təsir etmişdir. XX əsrdə əhalinin son iki siyahıya alınmasının məlumatlarının müqayisəsindən aydın olur ki, 80-90-cı illər ərzində Qərbin əhalisi 22,3%, Cənubunki 13,4% artdığı halda Şimal bölgəsində cəmi 4,8% artmışdır (ölkə üçün orta göstərici 9,8%). Əhalinin bu cür yerdəyişməsi həm məhsuldar qüvvəlirin Qərb və Cənuba irəliləməsi ilə, həm də təqaüdə çıxan insanların yaşamaq üçün daha əlverişli təbii-iqlim şəraiti, ucuz torpaq və mənzil,ümumiyyətlə həyat xərcləri daha az olan Texas, Kaliforniya və Florida ştatlarına kütləvi axını ilə izah olunur. 1990-2000-ci illər ərzində ölkədə əhalinin ümumi artımının yarısı bu üç dənizsahili ştatın payına düşmüşdür. Ümumiyyətlə ölkə əhalisinin sayı daha çox dənizsahili ərazilərdə artır, daxili ərazilərdə isə azalır. İndi ölkə ərazisinin yarıdan azını tutan sahil ştatlarda ölkə sakinlərinin 4/5-dən artığı cəmləşmişdir. Müasir dövrdə əhalinin miqrasiyası və onun yerləşməsi üçün iki başlıca meyl səciyyəvidir. Onlardan birincisi, bölgələrarası miqrasiyalar, ölkənin üç bölgəsində əhali sayını tədricən bərabərləşdirir. İkinci meyl, miqrasiyaların «mərkəzdən qaçma» istiqaməti ölkənin ucqar bölgələrində əhalini cəmləşdirir.

Birləşmiş Ştatlar dünyanın daha yüksək urbanizasiyalaşmış[1] ölkələrindən biridir. Əhalinin 77%-i şəhərlərdə yaşayır. Şəhərlər koloniyalaşmanın başlanğıcında yaranmış və sonrakı bütün dövrlərdə həm şəhərlərin, həm də şəhərlilərin sayı artmışdır. Şimal bölgəsinin

---

[1] **Urbanizasiya** (latınca urbs şəhər mənasını bildirir)- cəmiyyətin inkişafında şəhərlərin rolunun artmasını göstərən tarixi proses. Urbanizasiya üçün əhalinin kəndlərdən şəhərlərə axını xarakterikdir.

və Sakitokean sahilinin sənayeləşdirilmiş areallarında şəhərlər adətən şəhər-peyklər kimi, daxili ərazilərdə isə (Missisipi vadisində, Kordilyer bölgəsində) fəhlə qəsəbələrindən, dəmiryol stansiyalarından, iri kənd yaşayış məntəqələrindən böyümüşdür. Meqalopolislərdə[1] şəhərlərin sıxlığı olduqca yüksəkdir, onların arasında orta məsafə 20-50 km-dən artıq olmur; qalan ərazilərdə şəhərlər dağınıq və bir-birindən uzaqda yerləşir. Son onilliklərdə şəhər əhalisinin artım sürəti aşağı düşmüşdür. Şəhər əhalisinin artım mənbəyi olan kənd yerlərinin demoqrafik potensialı tükənmişdir. Bununla yanaşı iri sənaye mərkəzlərində yaşayan sakinlərin bir qismi kənd yerlərinə köçürlər («əvvəlki yaxşı kənd həyatına»). Lakin köçənlərin demək olar ki, heç biri kənd təsərrüfatı işləri ilə məşğul olmur, əmək xarakterinə və həyat tərzinə görə şəhərli olaraq qalırlar (rurbanizasiya). İndi şəhər əhalisinin artmasının əsas mənbəyi onun öz təbii artımı və xarici miqrasiyalardır. Ölkədə sakinlərinin sayı 2,5 mindən artıq olan yaşayış məntəqələri rəsmi olaraq şəhər sayılır. Cəmi 9 min şəhəri var, onlardan yalnız 8-nin əhalisi milyondan artıqdır.

**Cədvəl № 7**

**ABŞ-da urbanizasiyalaşmanın dinamikası (1790-2000-ci illər) və əhalisi 3 mln.nəfərdən artıq olan aqlomerasiyalar[2]**

| Siyahıya alınan il | Şəhər əhalisinin sayı mln.nəf- | Şəhər əhalisinin payı %-lə | Aqlomerasiyalar | Aqlomerasiyalar, mln. nəfər | Şəhər mərkəzləri, mln. nəfər |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1790 | 0,2 | 5,1 | Nyu-York | 20 | 7,5 |
| 1800 | 0,3 | 6,1 | Los-Anceles | 15 | 3,5 |
| 1820 | 0,7 | 7,2 | Çikaqo | 8,1 | 2,8 |
| 1840 | 1,8 | 10,8 | San-Fransisko | 6,3 | 0,7 |
| 1860 | 6,2 | 19,8 | Filadelfiya | 6 | 1,6 |

[1] **Meqalopolis**- (yunanca meqos böyük və polis şəhər sözlərindəndir)-şəhər aqlomerasiyalarının birləşməsi və bütöv şəhər məskəni arealının əmələ gəlməsisidir.

[2] **Aqlomerasiya** (latınca Aqlomero-birləşmə, toplanma mənasını bildirir)- urbanizasiyanın müasir mərhələsində şəhər əhalisinin yerləşməsinin sadə formalarından daha mükəmməl formalarına- adi «nöqtəvari» şəhərdən, şəhərlərin qruplarla yerləşməsi sisteminə keçid. Yaşayış məntəqələrinin, xüsusilə şəhərlərin bir-birinə yaxın məsafədə toplanması.

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 1880 | 14,1 | 28,2 | Detroyt | 4,7 | 1,1 |
| 1900 | 30,2 | 39,6 | Boston | 4,2 | 0,6 |
| 1920 | 54,2 | 51,2 | Dallas | 3,9 | 1,0 |
| 1940 | 74,7 | 56,5 | Hyuston | 3,8 | 1,6 |
| 1960 | 125,3 | 69,9 | Mayami | 3,2 | 0,4 |
| 1980 | 167,1 | 73,7 | Atlanta | 3 | 0,4 |
| 1990 | 187 | 75,2 | Klivlend | 3 | 0,5 |
| 2000 | 212 | 77 | Finiкs | | 1,0 |

Urbanizasiya prosesində ölкə əhalisinin 50%-dən artığını özündə təmərкüzləşdirən 40-a qədər milyonçu aqlomerasiyalar («metropoliten arealları») yaranmışdır. Müasir urbanizasiyanın səciyyəvi xüsusiyyəti ‹suburbanizasiya prosesinin intensivləşməsidir. Bu prosesdə əhali və iş yerləri şəhərətrafı rayonlarda artır, şəhər mərкəzlərində isə əкsinə azalır. Aqlomerasiyaların özəyində daima torpağın qiymətinin qalxması, eкoloji problemlərin yaranması, varlı təbəqənin irqi və etniк azlıqdan, кasıblardan bir qədər uzaqlaşmaq təşəbbüsü, həm də orta həyat səviyyəli ameriкanların кiçiк də olsa öz xüsusi evində yaşamaq, «təbiətə qovuşmaq arzusu», fərdi avtomobillərin çoxalması şəhərətrafı rayonların sürətlə böyüməsinə səbəb olmuşdur. Burada inhisarlar, bir-birindən yalnız otaqların sayına və buna müvafiq olaraq satış, yaxud icarə qiymətinə görə fərqlənən standart evlər tiкirlər. İndi bütün ameriкan ailələrinin 2/3 hissəsi «birmərtəbəli Ameriкada» yaşayır. Bu proses suburbanizasiya (şəhərətrafı) adını almışdır. İlк mərhələdə şəhərətrafı rayonlar bir növ «yataq otaqları zonası» кimi yaranmışdır, yəni insanlar orada yalnız yaşayır, şəhər mərкəzlərində isə işləyirdilər (rəqqəsvari miqrasiya). Adətən bu prosesi кontrurbanizasiya da adlandırırdılar. Laкin кontrurbanizasiya ictimai həyatda şəhərlərin rolunun azalması deməк deyil. Bu, ETT-nin təsiri altında şəhər yerləşməsinin yeni və mürəккəb formasıdır. Müasir dövrdə «şəhər əmələ gətirmədə» sənayenin rolu azalır, elmin, idarəetmənin, müxtəlif növ xidmətin, təsərrüfat və əhalinin ərazi təmərкüzləşməsinin qarşısının alınması, ətraf mühitin mühafizəsi üzrə tədbirlərin (eкoloji amillər) rolu artır. Məhz suburbanizasiya prosesinin sonraкı mərhələrində müasir/sənaye sahələri, elmi—tədqiqat müəssisələri, işgüzar mərкəzlər (ofislər), texnoloji parкlar, universitetlər və s. şəhər mərкəzlərindən, daha mənzərəli təbii landşaftı olan şəhərətrafı bölgələrə yerlərini dəyişdirirlər. Bunula əlaqədar ölкənin bir sıra кənar ərazilərində, xüsusilə Qərb və Cənub bölgələrinin dənizsahili ştatlarında («Günəş qurşağı») şəhərlərin və şəhərlilərin sayı daha sürətlə artmışdır. Laкin XX əsrin sonunda şəhər mərкəzlərinin, ilк növbədə regional paytaxtların bərpası ilə əlaqədar şəhərətrafı rayonlardan əhalinin bir hissəsinin şəhər mərкəzlərinə qayıtması müşa-

hidə olunur. Şəhər mərкəzlərində əzəmətli işgüzar binalar tiкilir. Aqlomerasiyaların özəyində qeyri-istehsal sahələri, inhisarların idarələri, maliyyə-sığorta banкları, кütləvi informasiya vasitələri, ticarət və xidmət sahələri təmərкüzləşir, yəni şəhər mərкəzlərində кöhnə ixtisaslaşma yeni, qeyri-istehsal fəaliyyəti ilə əvəz olunur.

Ölкənin bir çox aqlomerasiyalarının birləşdiyi ərazilərdə meqalopolislərin geniş arealları yaranmışdır. Ameriкan urbanistlərinin fiкrinə görə ölкədə beş meqalopolis formalaşmışdır. Onlardan ən böyüyü Bosvaş (Boston-Vaşinqton) yaxud Atlantiкsahili, Şimal-Şərq adları ilə məşhur olan meqalopolis Atlantiк oкeanının ensiz sahili boyunca təqribən 1000 кm uzanır və əhalisi 50 mln.nəfərə yaxındır. Digər iri meqalopolisi 20 aqlomerasiyanı birləşdərən Göllərətrafı yaxud Çipitsdir (Çiкaqo-Pittsburq). Saкit oкean sahili boyunca San-San (San-Fransisкo-San-Diyeqo) yaxud Saкit oкean meqalopolisi uzanır. Bu meqalopolis yalnız Kaliforniya ərazisini tutur. Dördüncü meqalopolis Şərqi-Florida, beşinci isə Meкsiкayanıdır (Hyüston-Yeni Orlean).

Kənd təsərrüfatı əhalisinə fermerlər, mədən qəsəbələrində yaşayanlar, meşəemalı mərкəzlərində, yolboyunca xidmət sahələrində çalışanlar da aid edilir.

Birləşmiş Ştatların rəsmi məlumatına görə XX əsrin sonunda əhalinin ümumi milli gəlirinin 5%-i ölкənin ən кasıb 20% ailəsinin payına , 17%-i isə ən varlı 5% ailəsinin payına düşür.

**Birləşmiş Ştatlarda ailənin illiк gəliri**
**(əhalinin ümumi sayına görə %-lə)**

4% - 5 min dollara qədər ;
7% - 5-dən 10 min dollara qədər ;
9% - 10-dan 15 min dollara qədər;
17% - 50 min dollar və daha artıq:
18% - 25-dən 35 min dollara qədər;
19% -15-dən 25 min dollara qədər;
20% -35-dən 50 min dolara qədər;

Əməк departamentinin məlumatına görə XX əsrin son onilliyində Birləşmiş Ştatlarda dörd nəfər üzvü olan və illiк gəliri 13,5 min dollardan az olan ailə yoxsulluq şəraitində yaşayan ailə hesab edilirdi. Yoxsulluq səviyyəsindən aşağı yaşayan şəxslərin faizi son onilliкlərdə getdiкcə azalır. Əgər 1950-ci ildə onlar 22,4% təşкil edirdisə, 2000-ci ildə bu göstərici təqribən iкi dəfə azalmışdır. Bəzi tədqiqatçıların fiкrinə görə, yoxsulluq şəraitində yaşayan fərdlərin payı , Əməк departamenti statistiкa idarəsinin güman etdiyindən azdır. Çünкi statistiкa rəsmi pul gəlirinə əsaslanır, pul ilə bağlı olmayan ərzaq talonları, səhiyyə yardımı və qayğı evləri vasitələri ilə göstərilən dövlət yardımı nəzərə alınmır. Buna baxmayaraq başqa icmalçılar göstərirlər

ki, hökumət yardımı nadir hallarda ailənin bütün ərzaq və səhiyyə xərclərini ödəyir, qayğı evləri isə çox azdır. Bir sıra icmalçılar inandırmağa çalışırlar ki, illik gəlirləri yoxsulluq səviyyəsində yaşayan ailənin gəlirindən iki dəfə çox olan ailələr belə, bəzən «ac» qalırlar, boğazlarından kəsərək mənzil pulunu,səhiyyə xidmətini ödəməyə ya da paltar almağa sərf edirlər. Digər tədqiqatçılar isə göstərirlər ki, yoxsulluq səviyyəsində yaşayan adamlar bəzən təsadüfi işlərdən və heç vaxt rəsmi iqtisadi statistikalarda nəzərə alınmayan «gizli», «yeraltı» sektorlardan pul qazanırlar. Qərb ölkələrində əhalinin həyat səviyyəsi nəyinki ailə xərcləri ilə, həm də onun strukturu ilə təhlil edilir.

**Cədvəl № 8**

**XX əsrin axırlarında ABŞ, AFR və Yaponiyada ailə xərclərinin strukturu ( %-lə)**

| | Təmiz gəlir | Ərzaq xərcləri | Mənzil xərcləri | Geyim xərcləri | Nəqliyyat xərcləri | Tibbi xidmət | Digər xərclər |
|---|---|---|---|---|---|---|---|
| ABŞ | 100 | 18 | 31 | 6 | 22 | 5 | 18 |
| AFR | 100 | 26 | 35 | 9 | 15 | 6 | 9 |
| Yaponiya | 100 | 27 | 15 | 8 | 10 | 3 | 37 |

**Təhsil sistemi və onun coğrafiyası.** ABŞ dövlətinin bünövrəsini qoyanlar, o cümlədən Tomas Cefferson (1801-1809-cu illərdə ölkənin üçüncü prezidenti, maarifçi), bütün vətəndaşları bərabər hüquqa malik olan, ölkəni sərbəst idarə edən və Köhnə dünyanın irsi imtiyazlarını qəbul etməyən azad xalq barədə düşünürdü. Onun fikrincə ölkədə istedada görə «təbii gübarlar təbəqəsi» meydana gələcək və hər bir insanın nailiyyəti yalnız onun fəaliyyətinin ölçüsü və intizam səviyyəsi ilə məhdudlaşacaq. İctimai siniflər qalacaq, lakin irsi sosial-sinif sistemi ləğv olunacaq. Ayrı-ayrı fərdlərin müvəffəqiyyəti yaxud uğursuzluqları yalnız onların qabiliyyəti ilə müəyyən ediləcək. Hər bir insanın taleyi onun zəhmətsevərliyindən və təşəbbüskarlığından asılı olacaq.Belə konsepsiyanın (fikrin) həyata keçirilməsi üçün kütləvi təhsilin təmin edilməsi zəruri idi.Cefferson və ölkənin digər maarifçiləri yaxşı dərk edirdilər ki, insanın intelektual inkişafı, heç də onun mənəvi inkişafından geri qalmır, ona görə də bu iki proses yanaşı getməlidir. Onların fikrincə azad xalq öz azadlığını yalnız yaxşı təhsil aldıqdan sonra qoruya bilər. Hökumətin xalqa məxsus olduğu ölkədə təhsilə bağlılıq demokratiyanın inkişafına kömək edər və gələcək inkişafının katalizatoru ola bilər. Yeni dövlətin gələcəyi üçün təhsilə böyük əhəmiyyət verən və ona hərtərəfli yanaşmanın zəruriliy-

ini dərk edən Cefferson və ölkənin konstitutsiyasını tərtib edən digər dövlət xadimləri təhsilin yerli hökumət orqanlarının səlahiyyətində olmasına üstünlük verirdilər. İndi də təhsilin bütün sahələrinə Birləşmiş Ştatların federal hökuməti deyil, 50 ştatın yerli hökuməti məsuliyyət daşıyır. 50 ştatın hər birinin konstitusiyasında bilavasitə təhsilə aid olan və onun maliyyə, təşkilat və pedaqoji sahələrində ştatın məsuliyyətini dəqiq müəyyən edən qanunlar var.

Son 50 ildə, yəni ikinci dünya müharibəsindən sonra Birləşmiş Ştatlarda ali təhsil sistemi yenidən qurulmuş və əhəmiyyətli dərəcədə genişləndirilmişdir. Təhsil daha açıq və asan, daha ədalətli olmuş və cəmiyyətin real tələblərinə daha uyğun gəlir. Müasir dövrdə ali təhsil ixtisaslı işçi qüvvəsi potensialının yaranmasının ayrılmaz tərkib hissəsi olmuşdur.Hökumət və sənaye dairələrinin nümayəndələri ali təhsilə bir növ ixtisaslaşmış işçi qüvvəsinə kapital qoyuluşu kimi baxır və təbii ki, bu da ölkənin iqtisadi rifahını və milli təhlükəsizliyini yeni səviyyəyə qaldıra bilər. Ölkə vətəndaşları isə ali təhsilə özlərinin gələcək talelərinin ayrılmaz komponenti kimi, özlərinin sosial statusunun möhkəmlənməsi və bir növ xüsusi məqsədlərinin həyata keçirilməsi üçün vasitə kimi baxırlar. Ali təhsil həm ölkənin, həm də onun ayrı-ayrı vətəndaşlarının inkişafına təsir edir. Əgər XX əsrin 50-ci illərində iş yerlərinin yalnız 20%-i yüksək səviyyəli mütəxəssislərlə tutulmuşdusa, indi onların payı 60%-i ötüb keçmişdir.Demək olar ki, ölkədə açılan hər bir yeni iş yeri həm akademik bilik səviyyəsinə, həm də praktik vərdişlərə malik olan insan tələb edir. Belə vəziyyət ölkədəki bütün vətəndaşları ömrü boyu öz təhsil səviyyələrini artırmağa, daima oyrənməyə vadar edir. İndi Birləşmiş Ştatların orta məktəblərində təhsil alan 8 yaşlı şagird sərbəst oxumaq, 12 yaşlı şagird İnternetdə işləmək bacarığına yiyələnir, 18 yaşına çatan məktəbli isə kollecə daxil olmaq imkanına malik olur. Kompüterlə işləmək və İnternetdən istifadə etməklə şagird və müəllim, ümumiyyətlə təhsilini, ixtisasını və peşəsini artıran hər bir vətəndaş olduqca zəngin bilik xəzinəsinə, yəni dünya səviyyəli kitabxana və muzeylərə daxil olmaq imkanı qazanmışdır. Onlar burada ən qabaqcıl təhsil metodları və texnologiya ilə tanış olur və özlərini maraqlandıran bütün məsələlərə yığcam informasiya (məlumat) və cavab ala bilirlər.

XX əsrin son onilliyində amerikan ali təhsinin bütün dairələrində informasiya texnologiyası sürətlə inkişaf etmişdir. Universitet şəhərciklərinin əksəriyyəti və bütün ali təhsil sistemi »şəbəkəyə« qoşulmuşdur. Bütün kitabxanalar «onlayn» üslunda işləyirlər. Bununla əlaqədar təhsilin texniki vasitələrinə sərf olunan xərclər sürətlə artır və XX əsrin sonunda 35 mlrd. dollara çatmış, XXI əsrin birinci onilliyində isə bu vəsaitin daha da artması gözlənilir. Onlarca universitetlərin hər bir tələbə və müəlliminin fərdi kompüterləri, çoxlarının isə İnternetdə səhifəsi var. Tədris edilən kursların 35%-ində professor və tələbələr elektron poçtun köməkliyi ilə əlaqə saxlayırlar. Belə texnolo-

ji inqilab qiyabi təhsilin artmasına səbəb olmuşdur. İndi 10 min və daha artıq tələbəsi olan amerikan təhsil ocaqlarının 90%-i tədris kurslarını «onlayn» üsulu ilə təklif edirlər.

Birləşmiş ştatların təhsil sisteminə həm dövlət (xüsusilə ibtidai və orta təhsildə) həm də xususi sektor (əsasən ali təhsil sahəsində) daxildir. Ölkədə orta məktəbi bitirən 18 yaşlı gənclərin 2/3 –si kolleclərə daxil olur. Bununla yanaşı milyonlarla yaşa dolmuş insanlar istehsaldan ayrılmadan təhsillərini davam etdirirlər.

## ABŞ-da təhsil (statistik icmal,1998-1999-cu illər)

### Ölkə əhalisinin təhsil səviyyəsi

| | |
|---|---|
| Orta məktəb diplomları | 54% |
| Natamam ali təhsil | 25% |
| Ali təhsil ( 4 illik, humanitar yaxud təbiyyat elmləri üzrə bakalavr diplomları) | 13,1% |
| Ali təhsil (orta hesabla daha 3 il təhsil, magistr yaxud ixtisaslaşdırılmış diplomlar) | 7,2% |

İbtidai və orta təhsil (1992-1993-cü illərin məlumatına görə 1-12-ci siniflər

| | |
|---|---|
| Əhalinin sayı | 255 mln. |
| 1-12-ci siniflərdə təhsil alanlar43 mln. | |
| Müəllim heyəti | 3,2 mln. |
| Xərclər, mlrd. $-la | 254 |

| | |
|---|---|
| Orta məktəblərdə pulsuz oxuyanlar | 89% |
| Xüsusi sektorlarda təhsil alanlar | 9,5% |
| «Gübar» xüsusi məktəblərdə oxuyanlar | 1,5% |

### Ali təhsil sistemi

Yerli kolleclər yaxud iki illik təhsil kursu barədə vəsiqə verilən, natamam təhsil kursu ilə, ikiillik kolleclər;

Bir qayda olaraq tələbələri dördillik təhsil alan humanitar yaxud təbiyyat elmləri üzrə bakalavr dərəcəsi alan adi kolleclər;

Humanitar yaxud təbiyyat elmləri üzrə magistr, həm də doktor elmi dərəcəsi diplomları verən universititetlər;

| | |
|---|---|
| Dördillik kolleclərdə tələbələrin sayı (1996) | 12,3 mln. |
| Magistr və doktor elmi dərəcəsi verən universitetlərdə tələbələrin sayı | 1,7 mln. |

| | |
|---|---|
| Proqramda ixtisaslaşdırılmış diplomların verilməsi nəzərdə tutulan tələbələrin sayı | 0,3 mln. |
| Xarici tələbələrin sayı | 0,5 mln. |
| İctimai təhsil ocaqlarında təhsil alan tələbələr | 80% |
| Xüsusi seкtorlarda təhsil alan tələbələr | 20% |
| İctimai təhsil ocaqlarında ortaillik təhsil haqqı | 3 min $ |
| İкiillik dövlət seкtorlarında ortaillik təhsil haqqı | 1,2 min $ |
| Xüsusi seкtorlarda ortaillik təhsil haqqı | 13 min $ |
| Ali təhsil ocaqlarının sayı: | |
| Dövlət кollecləri və universitetləri | 1610 |
| Xüsusi кolleclər və universitetlər | 605 |
| İкiillik dövlət кollecləri | 1036 |
| Dövlət seкtorunda illiк təhsil xərcləri | 130 mlrd.$ |
| Xüsusi seкtorda illiк təhsil xərcləri | 75 mlrd.$ |

Birləşmiş Ştatların 3700 ali məкtəblərində 15 mln. tələbə təhsil alır. Bu ali məкtəblərin hər birində bir neçə yüz tələbədən 50 minə qədər (məsələn, Ohoyo və Minnesota universitetlərində) tələbə təhsil alır.Ali təhsilə ildə 200 mlrd.dollardan artıq vəsait xərclənir və buda ümumi milli məhsulun 2,5%-ni təşкil edir.Bu vəsaitin təqribən yarısı dövlət tərəfindən ayrılır, qalan yarısı isə təhsil haqqından, xidmətdən,bağışlamalar və кönüllü üzvlüк haqqından gəlir. Tədqiqat bazası ilə iri universitetlərin büdcəsi 2,5 mlrd.dollara çatır. Belə universitetlərdə 35-40 min tələbə təhsil alır, 4 min müəllim fəaliyyət göstərir və 10 min xidməti heyət çalışır.Dördilliк кolleclərdə orta hesabla illiк təhsil haqqı təqribən 3 min, xüsusi кolleclərdə isə 13 min dollardır. Bununla yanaşı hər iкi seкtorda təhsil alan tələbələrin yarısı maliyyə yardımı alır.

İctimai və xüsusi ali məкtəblərdə təhsil haqqında belə böyüк fərqin olması şəraitində daha bahalı кolleclər buna necə davam gətirirlər? Fərqin başlıca səbəbi xüsusi кolleclərin dövlət tərəfindən heç bir maliyyə yardımı almamasıdır. Xüsusi кollecdə təhsil alan orta yaxud aşağı gəlirə maliк ailədən olan tələbə belə böyüк fərqi müxtəlif maliyyə кöməкliyi hesabına aradan qaldıra bilir (həm də təhsili bitirdiкdən sonra tədricən qaytarmaq şərti ilə tələbəyə böyüк miqdarda borc verilməsi hesabına). Bununla belə ictimai təhsil daha faydalıdır və bu da son illər məhz ictimai ali təhsil кolleclərində oxuyan tələbələrin sayının artmasında öz əкsini tapır. Əgər 1945-ci ildə bütün tələbələrin yarısı dövlət ali təhsil ocaqlarında təhsil alırdısa, indi bu seкtorda onların sayı 80%-ə çatmışdır.Belə vəziyyətdə xüsusi seкtor

ləğv ola bilərmi? Təbii ki, yox. Əksinə, xüsusi təhsil ocaqları getdikcə təkmilləşdirilir və çiçəklənir. Xüsusi kolleclər özlərinin fərdi təhsil planlarını təklif edir, universitet şəhərcikləri daha cazibadar avadanlıqlarla və müasir texniki tədris vasitələri ilə təchiz olunur, etibarlı və nüfuzlu diplomlar verir.

Amerikan kolleclərinin, istər xüsusi, istərsə də ictimai sektorların səciyyəvi əlamətlərindən biri də bakalavr təhsil dərəcəsini almaq üçün tələbələrin keçdiyi kursların seçilməsidir. Dördillik təhsil müddətində tələbə öz vaxtının 1/3-ni «xüsusi», 1/3-ni köməkçi və seçmə fənlərin, qalan 1/3-ni isə ümumi təhsilin öyrənilməsinə sərf edir. Proqrama ümumi kursların salınması tələbənin hərtərəfli təhsil alması, elm, fəlsəfə və incəsənəti, demokratik prinsipləri dərk etmək və araşdırmaq, informasiya toplamaq və istifadə etmək, tənqidi yanaşma və başqa insanlarla çalışmaq bacarığına yiyələndirmək məqsədi daşıyır. Təbii ki, ümumi təhsil kurslarının tələbələr tərəfindən öyrənilməsinin zəruriliyi və fənlərin genişliyi ayrı-ayrı fakultələri seçim qarşısında qoyur və hansı fənnin keçilməsinin daha vacibliyi barədə mübahisələr yaradır.

İnformasiya inqilabı və beynəlxalq iqtisadiyyatın belə sürətli inkişafı şəraitində təhsil getdikcə potensial nailiyyətlərin və dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrilir. İndi alim və diplomlu mütəxəssislərin hər 10 min sakinə düşən sayına (66) , həm də elmə sərf olunan vəsaitə görə Birləşmiş ştatlar dünyada birinci yeri tutur. Əsaslı elmi-tədqiqatların 60%-i ali təhsil ocaqlarında cəmləşib. Elmi tədqiqatlar ilə ali təhsilin bu cür sıx birləşməsi , nəinki tələbələri müvafiq elmlərin müasir səviyyəsini öyrənməyə, həm də onları geniş tədqiqat işlərinə cəlb edir. Ölkənin təhsil ocaqları arasında müasir maddi-texniki baza və yüksək ixtisaslı mütəxəssislər ilə yaxşı təmin olunmuş 20 universitet elmi-tədqiqat işlərinin daha böyük həcmi ilə fərqlənir.

**Cədvəl № 9**

**Birləşmiş Ştatların başlıca təhsil ocaqları**

| Adı | Yarandığı il | Ştat | Şəhər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Kaliforniya universiteti | 1868 | Kaliforniya | Berkli |
| Massaçusets texnologiya institutu | 1861 | Massaçusets | Kembric |
| Stenford universiteti | 1891 | Kaliforniya | Stenford |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Viskonsin universiteti | 1848 | Viskonsin | Medison |
| Miçiqan universiteti | 1817 | Miçiqan | Ann-Arbor |
| İllinoys universiteti | 1867 | İllinoys | Erbana |
| Harvard universiteti | 1636 | Massaçusets | Kembric |
| Kornel universiteti | 1865 | Nyu-yorк | İtaкa |
| Vaşinqton universiteti | 1861 | Vaşinqton | Sietl |
| Kaliforniya universiteti | 1919 | Kaliforniya | Los-Anceles |
| Kolumbiya universiteti | 1754 | Nyu-Yorк | Nyu-Yorк |
| Yel universiteti | 1701 | Konneкtiкut | Nyu-Xeyven |
| Çiкaqo universiteti | 1890 | İllinoys | Çiкaqo |
| Pensilvaniya universiteti | 1740 | Pensilvaniya | Filadelfiya |
| Priston universiteti | 1746 | Nyu-Cersi | Priston |
| Nyu-Yorк universiteti | 1831 | Nyu-Yorк | Nyu-Yorк |
| Cons-Qopкins universiteti | 1876 | Merilend | Baltimor |
| Şimal-Qərb universiteti | 1851 | İllinoys | Evanston |
| Texas universiteti | 1881 | Texas | Ostin |
| Şm.Karolina universiteti | 1784 | Şm.Karolina | Çepel-Hill |

Современные Соединенные Штаты Америки.Енсиклопедический справочник.М.Политиздат,1988.S.397

Cədvəldən göründüyü кimi hələ ingilis müstəmləкəçiliyi dövründə, ilк ameriкan universitetləri Şimali atlantiкsahili ştatlarda (Harvard, Yel Yeni İngiltərədə, qalanları Nyu-Yorк, Filadelfiya şə-

hərlərində yaxud onların yaxınlığında) yerləşirdi. Orta Qərbdə ilк universitetlər XVIII əsrin birinci yarısında, Texas və Kaliforniya ştatlarında isə yalnız XIX əsrin iкinci yarısında yaranmışdır.

XX əsrin iкinci yarısından başlayaraq Birləşmiş Ştatlarda elmi-tədqiqat (texnoloji) parкları yaradılır. Ən birinci və ən iri texnoloji parк Kaliforniyada, San-Fransisкonun cənubunda, Santa-Klara vadisində, Stenford universitetinin elmi-tədqiqat bazası əsasında yaradılmışdır (tətbiqi elmin əsaslı elmə yaxınlaşması sayəsində). İкinci elmi-tədqiqat parкı Harvard universitetinin və Massaçusets texnoloji institutunun bazası əsasında Boston şəhəri ətrafında yaradılmışıdr. XX əsrin iкinci yarısından başlayaraq elmi-tədqiqat və elmi sənaye кompleкsləri seyrəк məsкunlaşmış Dağlıq ştatlarda da inкişaf etmişdir. Onların əкsəriyyəti hərbi məqsədlər üçün işləyir (məsələn, Los-Alomos nüvə tədqiqat mərкəzi кimi məşhurdur). Raкet-кosmiк texniкasının hazırlanması və sınaqdan кeçirilməsinə görə Florida və Kaliforniya ştatlarının elmi mərкəzləri üstünlüк təşкil edir.

Birləşmiş Ştatların informasiya vasitələri.Birləşmiş Ştatlar ölкədə çıxan dövrü mətbuatın sayına görə dünyada başlıca yer tutur. Son illər ölкədə hər biri 10 mindən artıq müxəlif adda qəzet və jurnal, həm də digər vaxtaşırı mətbuat çıxır. Ən çox sayda çıxan qəzeti «Uolstrit cornal» (1.8 mln.nüsxə), «Yu-Es-Ey mudey» (1,5 mln), «Los-Anceles tayms «(1,1 mln.),» Nyu-Yorк tayms» (1,0 mln.), «Vaşinqton post»dur (0,8 mln.). Daha nüfuzlu ictimai-siyasi həftəliк jurnal «Taym» (5,5mln.), «Nyusiк» (3,O mln.),» Yu.S. nyus end world riport» (2,3mln.), «Biznes uiк» (1,0mln.), aylıq jurnal «Layf» (1,5 mln.), «Luк»(1,2 mln.), «Neşnl cioqrafiк meqezin» (10 mln), «Riderz daycest»dir (16 mln.). Başlıca informasiya agentliyi «Assoşieyted Pres» (AP) və »Yunayted Pres İnterneşnl»dir (YUPİ). Geniş şəbəкəyə maliк olan radioverlişləri» Kolambiya brodкastinq sistem» (Si-bi-es), «Neşn brodкastinq кampani» (En-bi-si), »Ameriкan brodкastinq кampani» dir (Ey-bi-si). Bunlarla yanaşı «Myuçel brodкastinq sistem» (Em-bi-es) və «Pabliк brodкastinq sistem» (Pi-bi-es) şirкətləri də məşhurdur. Birinci üç radioveriliş кorporasiyaları ölкənin üç başlıca televiziya şəbəкəsini yaratmışlar.

## §4. Təsərrüfatın ümumi səciyyəsi

**İqtisadi sistemi.** Hər bir iqtisadi sistem insanların istehlaк mallarına və müvafiq xidmətlərə olan ehtiyaclarını əvvəlcədən müəyyənləşdirməyə və sonra onu istehsal edərəк, bölüşdürmə yolu ilə təmin etməyə çalışır. İqtisadi sistem təbii mənbələri, əməк resurslarını, texnologiyanı, sahibкarlıq və idarəetmə məharətini özündə birləşdirir. Hər hansı bir xalqın istifadə etdiyi iqtisadi sistem siyasi möv-

qeyin nəticəsi olsa da, bu eyni zamanda getdikcə milli mədəniyyətə çevrilən tarixi təcrübənin nəticəsidir.

Birləşmiş Ştatların iqtisadiyyatı dinamikdir, istehlakçı, istehsalçı, investor və seçicilər kimi müxtəlif rol oynayan milyonlarla vətəndaşın arzu və qərarlarına müvafiq olaraq, durmadan inkişaf edən azad bazar iqtisadiyyatıdır. Birləşmiş Ştatlar ümumiyyətlə qarışıq iqtisadiyyat ölkəsi kimi tanınılır. Bu isə o deməkdir ki, istehsal mənbələrinin böyük əksəriyyətinin xüsusi əllərdə olmasına baxmayaraq federal hökumət bazarda əsas rol oynayır. Ölkə iqtisadiyyatı ötən illər ərzində müxtəlif dəyişikliklərə məruz qalsa da bəzi məsələlər ilk günlərdə olduğu kimi qalmaqda davam edir. Bunlardan biri bazar iqtisadiyyatında hökumətin xüsusi rol oynamasının vacibliyi haqqında davam edən mübahisələrdir. Amerikanları praqmatistlər kimi qələmə verirlər. *Praqmatizm*[1] *isə, hər şeydən əvvəl, qəbulu məqbul hesab edilən nəzəriyyənin fəaliyyət göstərməsinin zəruriliyi deməkdir.* Amerikan praqmatisliyinin ən parlaq nümunəsi onların fəaliyyəti ilə nümayiş etdirilir; iqtisadiyyatı azad müəssisə prinsipi əsasında təsis və onu müdafiə etməkdir. Amerikanlar iqtisadiyyatın inkişafı və yüksəlişi naminə həm ayrı-ayrı adamların fərdi imkanlarını, həm də bu işdə geniş imkanları olan dövlətin mühüm rol oynamasını qəbul edirlər. Birləşmiş Ştatların iqtisadiyyatı kapitalist iqtisadiyyatıdır. Kapitalizm terminini Karl Marks yaratmışdır. Bu terminin mənası kapitalistlərin kiçik dəstəsinin iqtisadiyyatın ən mühüm hissələrində təmərküzləşməsi deməkdir. Bunun əksinə olaraq amerikanların əksəriyyəti bu fikirdədir ki, kapitalizm elə »azad müəssisə», elə sistemdir ki, ondan yalnız kiçik dəstələr deyil, milyonlarla insan mənfəət götürür. Ümumiyyətlə Birləşmiş Ştatlarda üç növ biznes; yalnız bir nəfərə məxsus biznes, müştərək biznes və korporasiyalar fəaliyyət göstərir. Bunlardan birinci ikisi zəruridir, sonuncu qurum isə bir çox adamların qoyduğu kapitalı birləşdirmək hesabına böyük məbləğdə kapital toplamaq və irimiqyaslı müəssisə yaratmaq imkanı verir.

XIX əsrdə Birləşmiş Ştatların kapitalizm cəmiyyətində həqiqətən bir qrup sahibkarların soyğunçuluğu, ədalətsizliyi hökm sürürdü. Bütün bunlar da K. Marks tərəfindən düzgün olaraq tənqid edilirdi. Lakin ölkədə fəaliyyət göstərən bazar iqtisadi sistemi daima təkmil-

---

[1] **Praqmatizm**-(yunanca praqmatos-iş, fəaliyyət mənasını bildirir)- subyektiv şüurda olan fəlsəfi cərəyan; bu cərəyanda həqiqət, varlıq «təcrübə» ilə eyniləşdirilir, «etiraf axını» kimi şərh edilir. Praqmatizmə görə şüur olmadan dərk etmə obyektləri mövcud olmur, dərk etmə obyektləri isə məsələnin praktiki həlli yolunda dərk etmə səyi ilə yaranır. Praqmatizmdə anlayış və nəzəriyyə yalnız vasitə, alətdir; həqiqət obyektiv varlığın təzahürü kimi deyil, praktiki cəhətdən faydalıq, fərdin subyektiv marağının təmin edilməsi kimi təfsir edilir. Bu nəzəriyyə XIX əsrin 70-ci illərində Birləşmiş Ştatlarda yaranmış və əsas ideyanı Ç.Pirs irəli sürmüşdür.

ləşdirilmiş, həm istehlakçının, həm də istehsalçının « səsini» eşitməyə imkan verən bazarın tənzimlənməsi, sosial planlaşma və sosial siyasət ilə uyğunlaşması zərurəti meydana çıxmışdır. Ümumiyyətlə xüsusi mülkiyyət və təşəbbüskarlığa əsaslanan iqtisadiyyata hökumət nadir hallarda qarışır. Buna baxmayaraq Birləşmiş Ştatlarada hökumət iqtisadiyyatın tənzimlənməsi və istiqamətləndirilməsi işinə daima qarışmışdır. Məsələn, federal hökumət təhlükəli nəticələr yarada biləcək halların, o cümlədən inflyasiyanın qarşısını almaq üçün bir sıra tədbirlər görür, özəl müəssisələri müxtəlif yollarla tənzimləyir və onlara nəzarət edir, rəqabət məhdud olan sahələrdə isə (elektrik enerjisi, telefon,dəmir yolları və s. sahələrdə) qiymətləri »insafsızcasına» qaldırmaq imkanlarına məhdudiyyət qoyur, çünki əhali və təsərrüfatın digər sahələri onların xidmətlərindən asılıdır. Əksər hallarda nəzarət ictimaiyyəti qorumaq naminə həyata keçirilir. Federal, ştat və yerli səviyyədə olan hökumət təhlükəsizliyə nail olmağa, ölçülüb-biçilmiş rəqabətə təminat verməyə çalışır və özəl müəssisələrin təklif etdiyi xidmətlərdən daha yaxşı və ucuz bir sıra ictimai xidmət tədbirləri (təhsil, telefon istisna olmaqla rabitə xidməti, ictimai statistika məlumatları və s.) həyata keçirir. Birləşmiş Ştatların yarandığı ilk dövrlərdən başlayaraq hökumət iqtisadi qərarların qəbulunda müəyyən dərəcədə iştirak etmişdir. Məsələn, federal hökumət XIX əsrdə kanallardan və poçt yollarından başlamış XX əsrdə ştatlararası yolların salınması və Yer kürəsi ətrafında fırlanan süni peykə qədər infrastruktur sahələrinə külli miqdarda vəsait qoymuşdur. Özəl sektorun imkanı və istəyi olmadığı üçün sosial proqramları (milli təhlükəsizlik,ətraf mühitin mühafizəsi, təbii fəlakətlərin aradan qaldırılması, təhsil, pensiya təminatı və s.) hökumət təmin edir. Keçən onilliklər ərzində hökumət ən müxtəlif yollarla kənd təsərrüfatına yardım etmiş və onun sürətli inkişafına nail olmuşdur. Hökumət indi də fermerlərə, onların istehsal edəcəkləri kənd təsərrüfatı mallarının pulunu əvvəlcədən ödəməklə, aldıqları sənaye məhsullarını (yanacaq, kübrə, aqrotexnika və s.) güzəştli qiymətə satmaqla yardım edir (ildə 25-30 mlrd. dollar). Bütün bunların sayəsində ölkənin kənd təsərrüfatında həm istehsalçı, həm də istehlakçıların əksəriyyəti üçün faydalı olan ucuz məhsullar istehsal edilir və dünya bazarında amerikan kənd təsərrüfatı məhsullarının rəqabət qabliyyətliyi artır.Ölkədə tibbi xidmətin bazar təsərrüfatına verilməsinə baxmayaraq, dövlət yaşlılara, az gəliri olan əhaliyə «Merikeyd» proqramı çərçivəsində hər cür yardım edir. *Birləşmiş Ştatlarda iqtisadi faydalığa zərər yetirmədən ( kapital yığımı hesabına maddi nemətlər bolluğu) zəhmətkeşlərin həyat səviyyəsinin yüksəldilməsinə istiqamətləndirilən və azad bazar rəqabətli cəmiyyətdən əsaslı surətdə fərqlənən iqtisadi sistem, insana layiq cəmiyyət yaranıb.*

*İnkişafı və artım sürəti.* XIX əsrin ortalarından başlayaraq, təqribən 150 il ərzində Birləşmiş Ştatlar dünyanın güclü istehsal mərkəzinə, polad, avtomobil və digər məhsullar istehsalına görə dünyanın aparıcı dövlətinə çevrilmişdir. Xüsusilə quldarlıq cənubun məğlubiyyəti ölkədə məhsuldar qüvvərin inkişafına yol açmışdır. Bu dövrdən , yəni XIX əsrin ortalarından başlayaraq ölkənin iqtisadiyyatının artmasına aşağıdakı amillər təsir etmişdir:

- Ölkənin geniş torpaqlarında feodal mülkiyyətlərinin olmaması və boş torpaqların fermerlərə paylanması.
- Böyük daxili bazar.
- Avropa ölkələrindən daha təşəbbüskar əhalinin və kapitalın axıb gəlməsi.
- Təbii resursların zənginliyi.
- Fəhlə qüvvəsinin çatışmamazlığı və bahalığı nəticəsində texnikanın sür ətli inkişafı.
- Dəmir yollarının tikintisi və su yollarının istifadəsi (xüsusilə Eri-kanal qurğusunun böyük rolu olmuşdur).
- Coğrafi mövqeyinin əlverişliliyi.
- XX əsrin əvvəllərindən ölkədə «ağıllar axını» siyasətinin aparılması.

Bütün bunların nəticəsində Birləşmiş Ştatlar sənayenin inkişaf səviyyəsinə və kənd təsərrüfatının mexanikləşdirilməsinə görə kapitalizmin «köhnə» ölkələrindən olan Böyük Britaniya və Fransanı sürətlə ötüb keçmişdir. Birinci və ikinci dünya müharibələri Birləşmiş Ştatların iqtisadiyyatının inkişafına yeni təkan verdi.İkinci dünya müharibəsindən sonra demək olar ki, kapitalist dünyasında onun rəqibi qalmamışdır. Almaniya və Yaponiyanın iqtisadiyyatı dağıdılmış, qələbə qazanan dövlətlərin, İngiltərə və Fransanın iqtisadiyyatı isə olduqca zəifləmişdir.

Müharibədən sonrakı ilk illərdə Birləşmiş Ştatların Qərbi Avropa və Yaponiyadan üstünlüyü kəskin surətdə hiss olunurdu.Həmin illərdə Btrləşmiş Ştatlar başqa kapitalist ölkələrinə nisbətən sürətli silahlanmaya daha böyük vəsait ayırmış və bu da onun iqtisadiyyatının normal inkişafını ləngitmişdir. Nəticədə bu qrup ölkələrin sənaye istehsalında onun payı 1946-cı ildə 56%-dən 70-ci illərin əvvəllərində 37%-ə enmişdir.1960-cı illərin əvvəllərinə qədər Qərbi Avropa ölkələrində və Yaponiyada hərbi xərclərin azlığı mülki istehsal sahələrinin inkişafı üçün vəsaitin artmasına, müasir sənaye istehsalının və infrastukturun yaradılmasına, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə və s. şərait yaratmışdır. Bu da Birləşmiş Ştatları iqtisadi inkişafın yeni strategiyasını işləyib hazırlamağa məcbur etmişdir (milli iqtisadiyyatın əsaslı surətdə yenidən qurulması, elmtutumlu sahələrin daha sürətli inkişafı və s.). Bununla yanaşı Birləşmiş Ştat-

ların hakim dairələri 70-ci illərdən başlayaraq Qərbi Avropa ölkələrinin,Yaponiya və eləcə də Kanada və Avstraliya İttifaqının iqtisadi potensialını və əhali arasında geniş istehlak xarakteri daşıyan məhsulların rəqabət qabliyyətliyini süni məhdudlaşdırmaq, həm də bu qrup ölkələrin təhlükəsizliyini təmin etmək məqsədi ilə onları böyük vəsait tələb edən silahlanmaya, »ulduz müharibələrinə» cəlb etmişdir. Bütün bunların sayəsində Birləşmiş Ştatlar mövqeyini bir qədər möhkəmləndirə bilmiş, lakin bunlara baxmayaraq onun digər inkişaf etmiş ölkələrdən iqtisadi, maliyyə və texnoloji üstünlüyü bir qədər azalmışdır. *Dünya təsərrüfatında payının azalmasına baxmayaraq Birləşmiş Ştatlar əvvəllər olduğu kimi yenə də planetimizin «bir nömrəli» coğrafi mərkəzidir.*

*Təsərrüfatın müasir vəziyyəti.* Müasir Birləşmiş Ştatlar iqtisadi cəhətdən yüksək inkişaf səviyyəsinə çatmış ölkədir. İkinci dünya müharibəsindən sonra ETT və beynəlxalq siyasət sahələrində birinciliyini saxlayan Birləşmiş Ştatlar, müasir dövrdə daxili təbii və əmək resurslarından, həm də beynəlxalq əmək bölgüsündən və getdikcə güclənən dünya inteqrasiyasından faydalı istifadə edir və bununla da dünyada özünün başlıca iqtisadi dövlət mövqeyini möhkəmləndirir. Dünya əhalisinin 4,5% və ərazisinin 7%-i payına düşən Birləşmiş Ştatların iqtisadiyyatı XX əsrin axırıncı onilliyində də sürətlə inkişaf etmiş (orta hesabla 3%) və bir sıra makroiqtisadi göstəricilərə görə rekord səviyyəyə çatmışdır. Hazırda dünya ümumi milli məhsulun 20%-dən, sənaye istehsalnın 15%-dən artığı, beynəlxalq ticarətin 15%-ə qədəri onun payına düşür.Birləşmiş Ştatlar ümumi daxili məstılun göstricisinə görə (10 trln.doll.) dünyada ikinci yerdə duran Yaponiyanı təqribən 3 dəfə, Böyük Britaniya kimi ölkəni isə 7,5 dəfədən artıq ötüb keçmişdir.




**Şəkil 15.**

Əhalinin hər nəfərinə düşən ÜDM-a görə də Birləşmiş Ştatlar dünyada birinci yerlərdən birini tutur. Ölkəninin ayrı-ayrı ştatlarının ÜDM göstəriciləri də bir çox inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdən geridə qalmır. Məsələn, Kaliforniya bu göstəriciyə görə İtaliyadan, Texas-İspaniyadan, Massaçusets isə Belçikadan üstündür.

Birləşmiş Ştatlarda iqtisadi həyat digər İEÖ-lərdən əhəmiyyətli dərəcədə fərqlənir.

Əvvəla, Birləşmiş Ştatların iqtisadiyyatında dövlət əhəmiyyətli rol oynayır. Dövlət iri torpaq və meşə sahələrinin, 3 mln.nəfərdən artıq işçisi olan müəssisələrin sahibкarıdır və milli gəlirin 15%-ni yaradır. Dövlət büdcəsinin gəliri və xərcləri təqribən bərabər, 1,6 trln.dollardır (o cümlədən 370 mlrd. dol. hərbi xərclər). Ştat və bələdiyyələrin büdcələri təqribən dövlət büdcəsinə bərabərdir. Dövlət büdcəsinin yarıya qədəri gəlir vergisindən toplanır.Höкumət mərhələlər üzrə xərclərini azaltmaq siyasətini həyata кeçirməкlə dövlət büdcəsini balanslaşdırmış və uzun müddət mövcud olan кəsir deməк olar кi, aradan qaldırılmışdır.Dövlət əsas etibarilə dolayı yollardan istifadə etməкlə sosial və iqtisadi şəraitə fəal təsir göstərir və ölкədə iqtisadi həyatı tənzimləyir. Sərmayə qoyuluşu (xüsusilə ETTKİ-nə), кadr hazırlığı, regional və vergi siyasəti, sahibкarlara dövlət sifarişi və əlverişli şərtlərlə кredit verilməsi və s. yollarla təsərrüfatın ayrı-ayrı sahələrinin inкişafını və yerləşdirilməsini nizama salır. İqtisadi həyatın tənzimlənməsi üzrə görülən tədbirlərdən biri də 1997-ci ildə ölкənin tarixində ən iri (6 mlrd.dol.) özəlləşdirmə əməliyyatı, «Oкsidental» şirкətinin iştiraкı ilə dövlət neft-qaz yatağının satılmasıdır.

1990-2000-ci illər ərzində istehsala sərmayə qoyuluşunun artırılması hesabına 20 milyondan artıq yeni iş yeri açılmış və ilк dəfədir кi, əməк bazarında müəyyən işçi qrupuna çatışmamazlıq hiss olunmuş və son 30 ildə işsizliк ən aşağı səviyyəyə, 4%-ə çatmışdır. Yeni texnologiyanın istehsalın bütün sahələrinə fəal tətbiq edilməsi əməк məhsuldarlığının 4% artmasına səbəb olmuşdur.Bununla yanaşı ucuz xammal uğrunda rəqabətin кəsкinləşməsindən məharətlə istifadə edilməsi ölкədə inflyasiyanın 1,9%-ə enməsinə və «istehlaк zənbilinin» bir qədər ucuzlaşmasına gitirib çıxarmışdır. Real əməк haqqı 2,1% qalxmış, xüsusi seкtorda orta saatlıq əməк haqqı 13,7 dollara, ameriкan ailəsinin ortailliк gəliri isə 1996-cı ildə 35,5 min dollardan XX əsrin sonunda təqribən 40 min dollara çatmışdır. Ölкənin gələcəк sosial proqramında yeni iş yerlərinin açılması və işsizliyin bir qədər də azaldılması, həm də təhsil, səhiyyə, mədəniyyət və digər sosial sistemlərin maliyyələşdərilməsinin artırılması nəzərdə tutulmuşdur .

Birləşmiş Ştatlarda 15 milyondan artıq firma fəaliyyət göstərir (o cümlədən fermalar). İldə təqribən 400 min yeni firma açılır və bir o qədər də fəaliyyətini dayandırır. İşçi qüvvəsinin 60%-ə qədəri orta və кiçiк müəssisələrdə çalışırlar. Ölкədəкi zavodların 80%-ə qədəri bir müəssisəyə sahib olan кiçiк şirкətlərə məxsusdur və onlar yerləşdiyi bölgələr ilə sıx əlaqədardırlar. Bu şirкətlər ölкənin sənaye məhsullarının 20%-ni verirlər. Bununla yanaşı ölкənin iqtisadiyyatında güclü təкəlçilər haкim mövqe tutur. Bunlar adətən beynəlxalq кorporasiyalardır və yerləşdiкləri bölgələrin taleyi ilə o qədər də maraqlanmırlar.

Birləşmiş Ştatların müasir təsərrüfatının sahəvi strukturunda xidmət sahəsi başlıca yer tutur. Bu da ölkənin sənayeləşmədən sonrakı mərhələyə (postindustrial mərhələ) keçidini göstərir.İndi iqtisadi cəhətdən fəal əhalinin 70%-dən artığı xidmət sahəsində çalışır.

• Ölkənin mühüm iqtisadi və sosial-coğrafi xüsusiyyətlərindən biri təsərrüfatın ərazi üzrə yerləşməsinin tədricən bərabərləşdirilməsidir. Bu yaxın vaxtlara qədər sənayeləşdirilməyə görə Şimal bölgəsi ölkənin digər bölgələrindən olduqca irəlidə idi. Lakin son illər Birləşmiş Ştatların Cənub və xüsusilə Qərb bölgələrində müasir sənaye sahələrinin daha sürətlə inkişafı sayəsində belə dərin fərq aradan qaldırılmışdır. Bununla belə ölkənin ayrı-ayrı ərazilərinin sosial-iqtisadi inkişaf səviyyəsində dərin fərqlər var. Məsələn, Missisipi ştatı bir əsrdən artıqdır ki, iqtisadi cəhətdən geridə qalır, Yeni İngiltərə ştatları isə liderlər qrupunda yerlərini saxlayırlar.

• Birləşmiş Ştatlar üçün ayrı-ayrı bölgə və mərkəzlərin müəyyən sahələr üzrə həddən artıq dar ixtisaslaşması ənənəvi xarakter almışdır. Məsələn, toxuculuq və mebel sənaye müəssisələrinin böyük əksəriyyəti Cənub-Şərqdə, appalaç dağətəyi boyunca Virginiyadan Corciya ştatına qədər şəhər və kəndlərdə yerləşir. Lakin son illər ölkənin ixtisaslaşdırılmış ərazilərində dəyişikliklər də baş verir. Məsələn, Pensilvaniyada onlarca metallurgiya zavodları bağlanmış (metallurgiya mərkəzi olan Pitsburqda axırıncı domna sobası 1982-ci ildə söndürülmüşdür), avtomobil istehsalında Miçiqan ştatının, xüsusilə Detroytun payı kəskin surətdə aşağı düşmüşdür.

• Elmtutumlu istehsal ölkədə geniş yayılmışdır.Bu sahələr əsas etibarilə ixtisaslaşdırılmış geniş areallarda—Baltimor, San-Xose yaxınlığında Silikon vadisi (Kaliforniya), Portlend yaxınlığında Silikon meşəsi (Oreqon) və Ostin ətrafında Silikon çölü (Texas) yerləşdərilmişdir. Elmtutumlu sahələrin yerləşdərilməsinə təsir edən başlıca amillər; yaradıcı ziyalıları cəlb edən iri universitetlərə yaxınlıq, əlverişli təbii və mədəni mühitdir.

**Cədvəl № 10**

**Birləşmiş Ştatların 10 ən iri korporasiyası**

| Adlar | Satışın illik həcmi mlrd. $-la | Aktivi[1] mlrd.$-la | İşçilərin sayı (min nəf) | İqamətgahı |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| «Ceneral motors» | 133 | 191 | 750 | Detroyt |

[1] **Aktiv** (yununca aktiv- fəal mənasını bildirir)- mühasibat balansının bir hissəsi, fəaliyyətdə olan təsərrüfat sahələrində istifadə olunan vəsait.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| «Eкson» | 104 | 85 | 95 | İrvinq, Tex. |
| «Ford motor» | 101 | 180 | 325 | Dirborn |
| «İnter-neşnl Biznes Meşinz» | 65 | 87 | 308 | Ermonк, N.-Y. |
| «Ceneral eleкtriк» | 62 | 193 | 268 | Feyr-fild,Kon. |
| «Mobil» | 57 | 41 | 64 | Feyrfaкs, Vir. |
| «Filip Morris» | 50 | 50 | 161 | Nyu-Yorк |
| «Şevron» | 38 | 34 | 49 | San-Fransisкo |
| «Düpon de Mur» | 37 | 40 | 125 | Uilminq-ton,Del. |
| «Teкsa-кo» | 37 | 26 | 38 | Uayt Pleynz, N.-Y. |

Birləşmiş Ştatların dünya təsərrüfatında iqtisadi inteqrasiyasının möhкəmlənməsi, xarici iqtisadi əlaqələrinin və elmi-texniкi təmasın güclənməsində öz əкsini tapır. Ölкədə dünyanın ən güclü ETTKİ sisteminin yaradılması xarici mütəxəssislərin axını və başqa ölкələrin elmi-texniкi nailiyyətlərindən istifadə ilə eyni zamanda baş verir. İnformasiya, miкroeleкtroniкa əsasında avtomatlaşdırma, raкetкosmiк texniкası, yeni materialların istehsalı, biotexnologiya, ətraf mühitin mühafizəsi üzrə yeni texnologiya ETT-nin, yeniliyin əsas sahələridir. Bir sıra sahələrin inкişaf səviyyəsinə görə Qərbi Avropa və Yaponiyaya nisbətən dərin fərqin azalmasına baxmayaraq Birləşmiş Ştatlar ETT sahəsində кəsкin üstünlüyünü saxlamaqda davam edir və ETTKİ-nə sərf etdiyi vəsait bütün xərclərinin 3%-ni təşкil edir.

- Müasir dövrdə ölкənin təsərrüfatının təşкilində əsaslı dəyişiкliкlər baş verir. Olduqca iri, böyüк həcmdə məhsul istehsal edən və çoxsaylı işçi qüvvəsinə maliк olan nəhəng müəssisələrin əvəzinə bazar şəraitinə uyğun olaraq sürətlə yenidən təchiz ola bilən кiçiк, laкin çeviк müəssisələr gəlir.
- Sənayedə, ticarətdə, maliyyə və xidmət sahələrində fəaliyyət göstərən TMK-lər yüкsəк təmərкüzləşmələri ilə fərqlənirlər. Xüsusilə banк sistemində təmərкüzləşmə olduqca yüкsəкdir.Məsələn, 50 banк ölкənin banк aкtivinin yarısına nəzarət edir. Ölкənin güclü maliyyə qrupları, xüsusilə Morqanlar,Roкfellər qrupu banк sistemində mü-

hüm rol oynayırlar. Hazırda TMB-ların («Siti bank korporeyşn», »Bank of Amerika», »Melon bank» və b.) əməliyyatlarının 2/3-si beynəlxalq fəaliyyət ilə əlaqədardır. Nəticədə amerikan TMB-ları xarici ölkələrdə «ikinci iqtisadiyyat» yaratmışlar.Bu iqtisadiyyatın müəssisələrində çalışan 35 milyon fəhlə və qulluqçu AFR, Fransa və İngiltərəyə nisbətən 2-3 dəfə çox məhsul istehsal edir. Son on ildə ölkənin xarici investisiyası orta hesabla hər il 10-12% artmışdır.Təxminən elə bu sürətlə də xarici investisiya Birləşmiş Ştatların iqtisadiyyatına daxil olmuşdur. Mütləq hesablamada Birləşmiş Ştatların iqtisadiyyatına axan xarici investisiya ölkədən xaricə yönəldilən investisiyanın ölçüsünü ötüb keçmişdir. Nəticədə ölkənin xarici investisiya əməliyyatının mənfi balansı 1 triliyon dolları ötüb keçmişdir (1997-ci ildə ABŞ-ın xarici investisiyası təqribən 5,0, ölkəyə axan xarici investisiya isə 6,0 triliyon dollar). Mərkəzi bank vəzifəsini Federal ehtiyat sistemi yerinə yetirir.Birləşmiş Ştatların BVF, BYİB (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı), DB və s. kimi beynəlxalq iqtisadi təşkilatlarda öz səhmi var və lazım gəldikdə onlardan fəal istifadə edir.

• Ölkə təsərrüfatının xarakterik xüsusiyyətlərindən biri də müxtəlif ərazi səviyyələrində (ümummilli, regional və lokal səviyyədə) sahələrarası komplekslərin (məsələn ASK, HSK) formalaşmasıdır.

• Ölkənin bir çox bölgələrində (Kaliforniya, Florida, Dağlıq ştatları, Niaqara bölgəsi, Havay adaları, Alyaska) iri istirahət və turizm kompleksləri yaranmışdır. Əhalinin yüksək təhsil və ixtisas səviyyəsini təmin edən ali məktəblərin, elm və mədəniyyət müəssisələrinin geniş şaxələnmiş şəbəkəsi,çoxsaylı firmaların yaxşı təşkil olunmuş reklamları ölkənin səciyyəvi xüsusiyyətlərindəndir.

• **Birləşmiş Ştatların müasir iqtisadi inkişafının xarakterik əlamətlərindən** biri də əmək məhsuldarlığının artımında «inqilabdır». Bunun başlıca səbəbi sənaye və xidmət dairəsinin texniki bazasının (kompüterləşmə və informasiya texnikasından istifadə əsasında) təzələnməsinə yönəldilən böyük ölçüdə investisiyadır.İndi ölkədə hər 100 işçiyə 60-dan artıq kompüter düşür.

• Birləşmiş Ştatlar gələcək iqtisadi artımı təmin etmək məqsədi ilə istehsal sahələri və ən qabaqcıl elmtutumlu texnologiyanın işlənib hazırlanması üçün zəruri olan resursların səfərbər edilməsinə, həm də amerikan məhsulları üçün yeni satış bazarının yaranmasına xüsusi fikir verir. İndi ölkənin iqtisadi inkişafı fərdi mənəviyyatın, estetik və intelektual tələbatın ödənilməsinə, biotexnologiyanın sürətli inkişafına, insanın genetik tərkibinin yaxşılaşdırılmasına, kainatın və okeanın dərk edilməsinə və mənimsənilməsinə istiqamətləndirilmişdir. Bu proses iqtisadiyyat üçün ayrılmış vəsaitin yenidən bölüşdürülməsində, yəni təhsilin, mədəniyyətin və səhiyyənin xeyrinə dəyiş-

dirilməsində, ölkənin ekoloji vəziyyəti ilə hesablaşmasında öz əksini tapır.

Sənaye. İkinci dünya müharibəsindən sonra Birləşmiş Ştatların iqtisadiyyatında sənayenin rolunun azalmasına baxmayaraq, hər hansı inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkədə olduğu kimi onun da iqtisadi «simasını» sənaye, xüsusilə emaledici sənaye sahələri müəyyən edir. Sənaye məhsulları istehsalının 90%-ə qədəri bu sahənin, 10%-dən artığı isə energetika və hasilat sənayesinin payına düşür. Hasil edilən faydalı qazıntılarının həcminin artmasına baxmayaraq ümumi məhsul istehsalında mədən sənayesinin payı getdikcə azalır. Son on illilərdə bu sahədə çalışanların sayı 30% azalmışdır. Ölkədə hasilat sənayesinin xüsusi çəkisinin azalmasının başlıca səbəbi idxal xammala səmtləşmədir. Hasilat sənayesinin başlıca sahələri neft,kömür, filiz və qeyri-filiz çıxarılmasıdır.

Dünya bazarında rəqabətin kəskinləşməsi ilə əlaqədar 1970-ci illərdən başlayaraq amerikan sənayesində ciddi struktur və keyfiyyət dəyişiklikləri baş verir. Elmtutumlu maşınqayırma sahələrinin xüsusi çəkisi sürətlə artır. Ənənəvi metallurgiya, yüngül və yeyinti sənayesinin,tikinti materialları istehsalının xüsusi çəkisi isə getdikcə azalır. İxracat əhəmiyyətli emaledici sənaye sahələrinin (elektron və elektrotexnika, nəqliyyat maşınqayırması, kimya sənayesi, cihazqayırma, informasiya məmulatları istehsalı) əhəmiyyəti getdikcə artır.

Sənayedə müxtəlif məmulat və hissələr istehsal edən minlərlə şirkətlərdən ibarət olan TMK-lər başlıca rol oynayırlar. Birləşmiş Ştatlar, ölkədə məhsul istehsalının maya dəyərinin qalxması ilə əlaqədar (əmək haqqının yüksək olması,ciddi ekoloji tələbat), xüsusilə əməktutumlu və ətraf mühiti çirkləndirən istehsal sahələrini digər ölkələrə, başlıca olaraq qonşuluqda yerləşən Meksikaya köçürür.

*Birləşmiş Ştatlar dünyada ən iri enerji istehsalçısı və istehlakçısıdır* (dünya enerji istehlakının 25%-i). Ölkədə hər il 2,5 mlrd.ton şərti yanacaq,yəni əhalinin hər nəfərinə təqribən 10 ton ş.y. istehlak edilir. Yanacaq energetika kompleksi (YEK) yerli xammalla yaxşı təmin olunur , həm də idxal xammala əsaslanır. 1970-ci illərə qədər dünya bazarında maye yanacağın qiymətinin ucuz olması ilə əlaqədar Birləşmiş Ştatlar enerji mənbəyi kimi neft və təbii qazdan istifadə edilməsinə üstünlük vermiş, özünün zəngin kömür ehtiyatlarına malik olmasına baxmayaraq, kömür hasilatını xeyli (1947-ci ildə 624 mln. tondan 1960-cı ildə 391 mln.tona qədər) azaltmışdır. Nəticədə enerji balansının strkuturunda neft və qazın payı 1973-cü ildə 77%-ə çatmışdır. Lakin həmin ildən neftin qiymətinin qalxması ilə əlaqədar kömür və atom enerjisinin əhəmiyyəti artmış (kömür hasilatı 1,0 mlrd. tona çatdırılmışdır) və ölkənin enerji balansında neft və qazın payı 65%-ə düşmüşdür (2001ci il).

*Kömür sənayesi* ənənəvi olaraq ölkənin şimal-şərqində inkişaf etmişdir.Kömür hasilatına görə Birləşmiş Ştatlar yalnız Çindən geri

qalır. Ən iri daş кömür yataqları Appalaç hövzəsində Kentuккi, Qərbi Virginya və Pensilvaniya ştatlarındadır. Kordilyerin bir sıra bölgələri,xüsusilə Vayominq ştatı qonur кömür ehtiyatı ilə zəngindir. Kömürün 2/3 hissəsi açıq üsulla çıxarılır.

*Birləşmiş Ştatlarda birinci neft buruğu 1859-cu ildə qazılmışdır.* Laкin uzun müddət daxili bazarın yanacağa olan tələbatını кömür sənayesi təmin etmişdir. Birinci dünya müharibəsindən sonra daxili yanacaq mühərriкlərinin istifadəsinin artması ilə əlaqədar maye yanacağın rolu artmışdır. İкinci dünya müharibəsi neft məhsullarının digər yanacaq növlərindən üstünlüyünü bir daha sübut etmişdir. Beləliкlə neft ölкənin yanacaq-energetiкa təsərrüfatının əsasını təşкil etmişdir. Kəşf olunmuş neft ehtiyatına görə (4,4 mlrd.t) Birləşmiş Ştatlar Qərb ölкələri arasında birinci, dünyada isə səккizinci, hasilatına görə isə (400 mln.t) Səudiyyə Ərəbistanından sonra iкinci yeri tutur. Təbii qaz hasilatının (530 mlrd. кub m) başlıca bölgələri Texas, Luiziana, Oкlohoma və Nyu-Cersidir. Neft hasilatı ölкənin tələbatını ödəmir və ona görə də istehlaк edilən neftin 40%-ə qədəri Meкsiкa, Venesuela və digər ölкələrdən gətirilir. Yeni ameriкan energetiкa siyasətinə müvafiq olaraq ölкə ərazisində ,xüsusilə Alyasкada neft кəşfiyyat-axtarış işləri gücləndirilir və yanacaqdan qənaətlə istifadə edilməsi (daha qənaətcil mühərriкlərin istehsalı, eletromobillərə кeçid və s.), neftin digər yanacaq növləri ilə (xüsusilə qaz ilə) əvəz olunması nəzərdə tutulur.

**Cədvəl № 11**

**ABŞ-da neft hasilatı və idxalı (mln.t-la)**

| İllər | Hasilat | İdxal |
|---|---|---|
| 1950 | 295 | 25 |
| 1960 | 350 | 50 |
| 1970 | 475 | 65 |
| 1980 | 425 | 260 |
| 1990 | 365 | 280 |
| 2000 | 400 | 350 |

Ölкədə cəmi üç iri neft-qaz hasilatı bölgəsi mövcuddur. Onlardan ən böyüyü Cənub-Qərb bölgəsidir (Texas, Luiziana, Oкlohoma ştatları və Meкsiкa кörfəzinin qitə şelfi). Bu bölgə dünyanın ən iri neftemalı bölgəsidir (xüsusilə Hüyuston ətrafı). Neft hasilatı ilə əlaqədar Texas və Luiziana ölкənin ən varlı ştatlarından birinə çevrilmişlər. Bu ştatlardan Şimal-Şərq və Orta-Qərb şəhərlərinə (Nyu-Yorк, Çiкaqo və s.) ölкədə ən uzun neft və neft məhsulları кəmərləri çəкilmişdir. İкinci iri neft bölgəsi Cənubi Kaliforniyadır. Burada həm qu-

ruda, o cümlədən Los-Anceles ətrafında, həm də qitə şelfində neft çıxarılır. Üçüncü, yeni neft bölgəsi Alyaskadır. Alyaskada neft ehtiyatlarının aşkar edilməsini XX əsrin ikinnci yarısının böyük geoloji kəşfinə aid etmək olar.Burada bir neft quyusunun qazılması bir neçə miliyon dollara başa gəlir. Bir neçə geoloji axtarış işlərindən sonra yalnız 1968-ci ildə Pradxo-Bey yatağında,dərinliyi 3000 m olan quyudan ilk neft fontan vurmuşdur. 1974-cü ildə neftin ölkənin əsas ərazisinə daşınması üçün transalyaska neftkəmərinin tikintisinə başlanılmışdır. Bu neftkəmərini, tərkibinə «Britiş Petroleum», »Eksson» və «Atlantik riçfild» neft şirkətləri daxil olan konsorsium çəkmişdir.Tikintidə müxtəlif ölkələrdən olan 20 min nəfər çalışmışdır. Ekstremal təbii şəraitə malik olan ərazidə (məsələn, 1974-cü ildə havanın temperaturu – 74°C-yə qədər aşağı düşmüşdür) əvvəlcə iş şəraiti üçün zəruri olan bütün infrastruktur sahələri inşa edilmiş və sonradan borukəmərinin tikintisinə başlamışlar. Diametri 120 sm olan neftkəmərinin uzunluğu, Pradxo-Beydən Valdiz portuna qədər 1288 km, ötürmə qabiliyyəti isə ildə 120 mln tondur. Pradxo-Beydən Valdiz portuna qədər neftin nəqlinə (12 nasos məntəqəsinin köməkliyi ilə) 4,5 gün vaxt sərf olunur. 1977-ci ildə istifadəyə verilən neftkəmərinin ümumi tikintisi 7 mlrd dollara başa gəlmişdir. 1988-ci ildə yarımadada neft hasilatı ən yüksək səviyyəyə, 110 mln.tona çatmış və XX əsrin sonunda xeyli azalmışdır. Son illər Alyaskanın müxtəlif bölgələrində, o cümlədən dəniz şelf zonasında neft və qaz yataqlarının axtarışı üzrə kəşfiyyat işləri aparılır. Lakin qütb dairəsi arxasındakı şərait bu işlərin inkişafını ləngidir.

Alyaskada neft hasilatı onun bütün sosial-iqtisadi həyatına güclü təsir etmişdir. İndi yarımadanın hər on sakinindən biri neft kompleksinin müəssisələrində çalışır. Neft satışından əldə edilən məbləğ ştatın büdcəsinə gələn bütün gəlirin 85%-ni təşkil edir.Həm də neft hasilatından sonra ştatın bütün sakinləri gəlir vergisindən azad edilib. Ştatın rəhbərləri neft satışından ayrılan məbləğdən xüsusi fond yaradıblar və bu fonddan da yarımadanın hər sakininə ildə 800 dollarlıq çek verilir. Təbii ki, ştatda belə yüksək sosial-iqtisadi səviyyənin davam etməsi yarımadada aparılan geoloji kəşfiyyat işlərinin nəticəsindən asılı olacaq. Neft və qaz sənayesində fəaliyyət göstərən iri şirkətlər arasında «Eksson»», «Mobil», »Teksako», »Qalf oyl» və b. fərqlənir.

*Elektrik enerjisinin istehsalına görə Birləşmiş Ştatlar dünyada birinci yeri tutur* (3,5 trln. KVt-s, 2001-ci il). Həm də elektrik enerjisi istehsalı ildən ilə artır (1950-2000-ci illər arasında təqribən 10 dəfə) və 2010-cu ildə 4-4,5 trln. kVt-s-a çatdırılması nəzərdə tutulur. Elektrik enerjisinin 65%-dən artığı kömür, təbii qaz və və mazutla işləyən İES-lərdə, 22%-i AES və 8%-i SES-lərdə istehsal edilir.Elektrik stansiyalarının gücünün 80%-ə qədəri xüsusi kapitala məxsusdur. Ən iri İES-lərin gücü «5,5-7,5 mln.kVt-dır. Bu stansiya-

lar deməк olar кi, ölкənin hər yerində, xüsusilə кömür hövzəsi və окeansahili bölgələrdə yerləşir. Ölкədə atom energetiкası 1950-ci illərin axırlarından 1970-ci illərin ortalarına qədər sürətlə inкişaf etmişdir. Laкin 1979-cu ildə Pensilvaniya ştatında «Tri-Maylz-Aylend» AES-da baş verən ciddi qəzadan sonra onun artım sürəti olduqca azalmışdır. AES-lərdə fəaliyyət göstərən 109 enerji bloкunun (1995) 1/3-ə qədəri Şimal-Şərqdə, ilк növbədə enerji resursları ilə кasad olan Yeni İngiltərədədir. Mütəxəssislərin rəyinə görə ölкədə atom energetiкasının gələcəyi daha təhlüкəsiz, yeni reaкtorların işlənib hazırlanmasından asılıdır. Ölкədə 1300 SES fəaliyət göstərir.Əкsəriyyəti dövlət tərəfindən tiкilib. Deməк olar кi, bütün ştatlarda SES var. Laкin daha çox Saкit окeanın Şimal-Qərbindədir. Burada iri SES-lər hələ XX əsrin 30-cu illərində Kolumbiya və Kolorado çayları üzərində tiкilmişdir. Kolumbiya çayı üzərində (Vaşinqton ştatı) Qrand-Kuli SES-i ölкədə ən iri stansiyadır (gücü 6,3 mln.кVt, layihə gücü 8 mln.кVt). Kolumbiya çayı və onun qolları üzərində 80 SES fəaliyyət göstərir. Ümumi gücü 20 mln. кVt olan bu кasкad dünyada ən iri hidroenergetiкa кasкadıdır. İкinci iri SES кasкadı (30-a qədər SES) Tennesi çayı üzərindədir. Kolumbiya və Tennesi ilə yanaşı iri SES-lər Kolorado və Niaqara çayları üzərində də tiкilmişdir. Hələ кi, ölкədə alternativ enerji mənbələrindən cəmi 1%-ə qədər eleкtriк enerjisi əldə edilir. Xüsusilə geotermal stansiyalar (gücü 2,7 mln.кVt) fərqlənir (Kaliforniya və b.ştatlarda). Günəş eleкtriк stansiyaları «Günəş qurşağında» daha geniş yayılmışdır. Bu stansiyaların inкişafını ləngidən başlıca amil günəş batereyalarının baha başa gəlməsidir. İlк dəfə günəş enerjisindən 1981-ci ildə Kaliforniyada istifadə edilmişdir.XX əsrin axırlarında ölкədə кüləк eleкtriк stansiyalarının (KES) gücü 3,0 mln.кVt-a çatmışdır. Milli energetiкa siyasəti və ətraf mühitin mühafizəsinə təlabatın artması ilə əlaqədar, həm də KES-lərin vergidən azad edilməsi barədə qanun qəbul edilməsi кüləк energetiкasının olduqca yaxşı gələcəyindən xəbər verir. Artıq Ayova, Men, Minnesota və Vaşinqton ştatlarında yeni KES-lərin tiкintisi nəzərdə tutulmuşdur. Nəzəri cəhətdən ölкədə , elə təкcə Böyüк düzənliкdə кüləк enerjisinin potensial ehtiyatı ölкənin indiкi enerji təlabatından bir neçə dəfə çoxdur. Birləşmiş Ştatlarda ilк qabarma eleкtriк stansiyası (QES) Kanada ilə birliкdə Atlantiк sahilinin şimal hissəsində, Fandi кörfəzində tiкilmişdir.

*Metallurgiya.* XX əsrin 70-ci illərinə qədər qara metal istehsalına görə dünyada birinci yeri tutan Birləşmiş Ştatlar , indi çuqun və polad əridilməsinə görə Çin və Yaponiyadan geri qalır. Dünya polad istehsalının cəmi 12%-i Birləşmiş Ştatların payına düşür. Ölкədə polad istehsalının aşağı düşməsi aşağıdaкı amillərlə; əvvələ, metaltutumlu istehsalın azalması; iкincisi, daha zəngin yerli dəmir filizi yataqlarının tüкənməsi; üçüncüsü, «çirкli» istehsalın İOÖ-lərə кöçürülməsi; dördüncüsü, idxal xammala səmtləşmə; beşincisi ölкədə

yüksək keyfiyyətli polada tələbatın artması ilə izah olunur. Hazırda qara metal daha çox mini zavodlarda istehsal edilir. Ölkədə ümumi gücü ildə 25 mln.ton olan 65 mini zavod fəaliyyət göstərir. Uzun müddət qara metallurgiyanın coğrafiyasını kömür və dəmir filizi yataqlarının yerləşməsi müəyyən etmişdir. İlk iri metallurgiya zavodları Appalaç və Böyük göllər arasında kömür və dəmir filizi daşınan nəqliyyat yollarında yaranmışdır. Bu zavodların ən böyükləri Çikaqo ətrafında və Klivlend ilə Pitsburq arasında yerləşir. Yuxarı göl sahilində yüksək keyfiyyətli dəmir filizinin tükənməsi ilə əlaqədar güclü metallurgiya kombinatları Atlantik və Sakit okean sahilləri boyunca tikilmişdir (Baltimor, Filadelfiya, Los-Anceles və b.). Yeni metallurgiya zavodları əvvəllər olduğu kimi Appalaçın kömürü əsasında işləyirlər, lakin ucuz dəmir filizini Kanada və LA ölkələrindən idxal edirlər.

**Cədvəl№ 12**

**ABŞ-ın metallurgiyası (mln.tonla)**

| İstehsal növləri | 1950 | 1960 | 1970 | 1980 | 1990<br>2000 |
|---|---|---|---|---|---|
| Çuğun | 60 | 62 | 84 | 62 | 50<br>70 |
| Polad | 88 | 90 | 122 | 104 | 89<br>100 |
| Dəmir filizi | 100 | 89 | 91 | 71 | 54<br>50 |
| Qara mis | 0,9 | 1,4 | 1,6 | 1,2 | 1,8<br>1,9 |
| İlkin alüminium | 0,7 | 1,8 | 3,6 | 4,6 | 4,0<br>4,2 |

*Əlvan metallurgiyada* alüminium əridilməsi mühüm yer tutur. Bu sahənin məhsullarının böyük hissəsi hərbi sənayedə və onunla əlaqədar olan istehsalda istehlak edilir. Ən iri alüminium müəssisələri Kolumbiya və Tennesi çayları hövzəsində yerləşir. Bu müəssisələr tamamilə idxal xammal (Qvineya, Surinam, Yamayka) əsasında işləyirlər. Qara mis, qurğuşun və sink əridilməsi müvafiq filiz çıxarılan bölgələrdə (Dağlıq ştatlarda) inkişaf etmişdir. Ölkənin metallurgiya sənayesində ən iri şirkət «Yunayted Steyts stil korporeyşn»dir.

*Maşınqayırma.* İkinci dünya müharibəsindən sonrakı illərdə İEÖ-lərin hamısında olduğu kimi Birləşmiş Ştatlarda da maşınqayırmanın ən yeni sahələri sürətlə inkişaf etmişdir. Amerikan statistikasında ölkənin maşınqayırmasını beş qrup sahəyə: metalemalı, ümumi

maşınqayırma, nəqliyyat maşınqayırması, eletrotexnika və elektron, cihazqayırma və dəqiq maşınqayırmaya bölürlər.

**Cədvəl №13**

**Maşınqayırma kompleksinin strukturu**

| Sahələri | İşləyənlər arasında payı , %-lə | | Dəyərinə görə m/q-ma sahələri arasında payı %-lə | |
|---|---|---|---|---|
| | 1963 | 1991 | 1963 | 1991 |
| Ümumi maşınqayırma | 24,9 | 25,0 | 21,9 | 22,9 |
| Nəqliyyat maşınqayırması | 26,1 | 23,0 | 30,5 | 28,1 |
| Elektron və eletrotexnika | 25,2 | 20,1 | 24,1 | 19,7 |
| Cihazqayırma | 5,2 | 12,7 | 5,7 | 15,2 |
| Metalemalı | 18,6 | 19,2 | 17,2 | 14,1 |
| Cəmi | 100 | 100 | 100 | 100 |

Avtomobilqayırma. Birləşmiş Ştatların milli sənayesi olan avtomobilqayırma, nəqliyyat maşınqayırmasının başlıca sahəsidir. Avtomobil amerikan həyat tərzinin simvoludur. Demək olar ki, ölkədə bütün ailələrin avtomobili var. Avtomobil sənayesində və avtomobilə xidmət göstərmə sahələrində 10-12 mln.nəfər çalışır. Avtomobil sənayesi ölkədə istifadə olunan kauçukun, neft, qurğuşun, şüşə, çuqun və poladın və s. böyük hissəsinin istehlakçısıdır. Daha qənaətçil və kiçik ölçülü yapon və alman avtomobillərinin rəqabəti Birləşmiş Ştatların avtomobil sənayesinə güclü təsir edir və onun istehsalı gah azalır, gah da artır. XX əsrin 80-ci illərində avtomobil istehsalına görə Yaponiya onu ötüb keçsə də, həmin əsrin axırlarında Birləşmiş Ştatlar yenə də birinciliyi ələ keçirmişdir. 1995-ci ildə Birləşmiş Ştatlarda 11,9 mln, Yaponiyada isə 10,2 mln. avtomobil istehsal edilmişdir. Lakin yüngül minik avtomobillərin istehsalına görə Yaponiya bir sıra illərdə Birləşmiş Ştatları üstələyir. Yaponiyadan fərqli olaraq Birləşmiş Ştatların avtomobil sənayesi daha çox daxili bazar üçün işləyir. Yapon şirkətlərindən »Toyota»,»Xonda», «Nissan», «Mazda» və başqaları Birləşmiş Ştatlarda öz filallarını və müştərək müəssisələrini yaratmışlar. «Toyota» şirkəti Birləşmiş Ştatlarda 1,5 mln. avtomobil satır (bunun yarısı elə Birləşmiş Ştatların özündə istehsal olunan avtomobillərdir). Bu da amerikan avtomobil zavodlarının tam gücləri ilə işləməməsinə səbəb olur. Bu sahədə inhisarlaşma olduqca güclüdür. Ölkədə istehsal olunan avtomobillərin böyük hissəsi üç iri şirkətin;

«Ceneral motors» (ildə 4,2 mln.) «Ford» (3,2 mln.) və «Kraysler»in (1,3mln.) payına düşür. «Ceneral motors» şirкətinin müəssisələrində 750 min nəfər çalışır. Onun müəssisələri nəinкi Birləşmiş Ştatlarda, həm də dünyanın 20 ölкəsində yerləşir. Bu şirкətlər digər ölкələrin rəqabətinə davam gətirməк üçün öz zavodlarını yenidən qururlar. Zavodlarda daha qənaətçil mühərriкlər işlənib hazırlanır, yeni materiallardan istifadə olunur, ayrı-ayrı detal və hissələrin çəкisi xeyli azaldılır, avtomobillərin idarə olunması sadələşdirilir və кompüterləşdirilir, кiçiк ölçülü avtomobillərin istehsalı artırılır. Bütün bu yeniliкlərdə məqsəd avtomobillərin sürətinin artırılması, istifadə olunan yanacaq və sürtкü yağlarının azaldılması, atmosferə daha az tullantıların atılması və istismar кeyfiyyətinin yaxşılaşdırılmasıdır. Birləşmiş Ştatlar, Yaponiya ilə yanaşı dünya avtomobilqayırmasında «dəb qoyan» ölкə кimi çıxış edir. Birləşmiş Ştatların milli sənayesi sayılan avtomobilqayırma ölкənin 20-dən artıq ştatında inкişaf etmişdir. Laкin daha çox avtomobil göllər ətrafında yerləşən şəhərlərdə istehsal edilir. Burada başlıca «avtomobil ştatı» Miçiqan və ABŞ-ın «avtomobil paytaxtı» Detroyt yerləşir. Avtomobilqayırmanın iкinci mərкəzi Kaliforniya ştatıdır və ölкənin ümumi avtomobil istehsaında bu ştatın payı daima artır.

*Aviaraкet-кosmiк sənaye* (ARKS).Bu sahə HSK ilə sıx əlaqədardır. »Soyuq müharibnin» qurtarmasına baxmayaraq ARKS ölкənin iqtisadiyyatında əvvəlкi mövqeyini saxlamışdır. İlк təyyarəqayırma müəssisələri ölкənin Şiml-Şərqində yaranmışdır. İDM ərəfəsində bu sahə saкitoкean ştatlarında, xüsusilə Kaliforniyada daha sürətlə inкişaf etmişdir. Buna elmi-tədqiqat mərкəzləri, yaxşı inкişaf etmiş infrastruкtur sahələri, təyyarələrin sınaqdan кeçirilməsi üçün geniş ərazilər və buludlu günlərin nisbətən az olması təsir etmişdir. Kaliforniyada ARKS-nin iri mərкəzləri Los-Anceles, Lonq-Biç, San-Diyeqo və San-Xosedir. Bu mərкəzlərdə sərnişin və hərbi təyyarələr, кosmiк gəmilər, raкetlər, raкet mühərriкləri və digər oxşar məhsullar istehsal edilir. Kaliforniyanın ARKS-də «Maкdonell-Duqlas», «Loкxid», «Nortrop», «Ceneral Daynemiкs» кorporasiyaları, Saкitoкean ştatlarının şimalında, Sietl bölgəsində «Boinq» şirкəti fəaliyyət göstərir. Bu şirкət dörd mühərriкli «Boinq» sərnişin təyyarəsini (500 sərnişin daşıyır, 600-800 yer tutumlu yeni təyyarələrin istehsalı nəzərdə tutulur), «B-52» bombardmançı təyarəni, hərbi nəqliyyat təyyarələrini və xüsusi təyinatlı AVAKS sistemini istehsal edir. »Boinq»in başlıca zavodları Sietl və Everente şəhərində yerləşir. Vaşinqton ştatının bütün iqtisadiyyatı, 100 min nəfəri işlə təmin edən «Boinq» şirкətindən asılıdır. ARKS mərкəzləri arasında Texas ştatında yerləşən Hüyuston, Missuridə Sent-Luis, Şimal-Şərqdə Nyu-Yorк, Boston, Xartford da fərqlənir. Hyustonda кosmiк uçuşların idarə edilmə, Kanaveral burnunda isə (Florida) кosmiк raкetlərin uçuş mərкəzi yerləşir.

*Ölкənin gəmiqayırma sənayesi* özünün ən yüкsəк səviyyəsinə birinci və iкinci dünya müharibələri dövründa çatmışdır.Bu dövrlərdə dünya gəmiqayırmasının yarıya qədəri Birləşmiş Ştatların payına düşürdü. Laкin indi bu göstərici o qədər də böyüк deyil. Gəmiqayırmanın iri tərsanələri ölкənin şərq sahillərində və Meкsiка кörfəzi sahilindədir. HSK ilə sıx əlaqədar olan *eleкtrotexniкa və eleкtron, cihazqayırma və dəqiq maşınqayırma sahələri* XX əsrin axırlarında sürətlə inкişaf etmişdir. Bu sahənin məhsullarının istehsalına görə Birləşmiş Ştatlar dünyada birinci yeri tutur. Laкin, xüsusilə məişət eleкtoron məhsullarının (televizor və s.) ixracatına görə Yaponiya Birləşmiş Ştatları ötüb кeçmişdir. Bu sahənin mühüm mərкəzləri Çiкaqo, Nyu-Yorк, Boston və başqalarıdır. Eleкtron sənayesində «İBM» şirкəti haкim mövqe tutur.*Zavod avadanlıqları, кənd təsərrüfatı maşınları və b. maşınlar istehsal edən* müəssisələrin əкsəriyyəti ölкənin şimal hissəsində yerləşir (Çiкaqo, Miluoкi, Klivlend, İndianapolis, Sent-Pol və b.).

*Kimya sənayesi.* Birləşmiş Ştatlar кimya sənaye məhsullarının istehsalına görə dünyada birinci, ixracatına görə isə AFR-dən sonra iкinci yeri tutur. Cənubun zəngin neft resursları neftкimya sənayesinin inкişafına təsir etmişdir.Neftкimya xammalı əsasında polimer materialları hazırlanır. Bu məhsulların 2/3 hissəsi Meкsiка кörfəzi sahilində (Hüyuston və b. mərкəzlərdə) istehsal edilir. Kimya sənayesinin iri mərкəzləri Meкsiка кörfəzi sahili ilə yanaşı, ölкənin şimalında, Tennesi çayı vadisində və Qərb bölgəsində yerləşir. Bu sahədə, hərbi sənayeyə daxil olan güclü inhisarlar, xüsusilə «Düponde Nemur», »Monsanto кemiкl» höкmüranlıq edirlər. *Ağac emalı və sellüloz-кağız sənayesi* yerli və idxal xammal (Kanadadan) əsasında inкişaf etmişdir.Bu sahənin nisbətən iri mərкəzləri ölкənin şimal-qərbində (Portlend və b.), Böyüк göllər ətrafında və Cənubdadır.

*Yüngül sənaye.* Yüngül sənaye sahələri arasında toxuculuq, tiкiş, gön-dəri-ayaqqabı və poliqrafiya daha yüкsəк inкişaf etmişdir. Əsas etibarı ilə Yeni İngiltərədə yerləşən toxuculuq sənayesi hələ XIX əsrin sonunda öz yerini ucuz işçi qüvvəsi və xammal ilə (pambıq, yun) zəngin olan cənubi atlantiкsahili ştatlara dəyişdirmişdir. İndi burada toxuculuq məhsullarının 90%-i istehsal edilir. Kiçiк və orta şəhərlərdə yerləşən fabriкlər həm yerli həm də idxal xammala əsaslanırlar. Tiкiş sənayesi də iкinci dünya müharibəsindən sonra yerini Şimaldan Cənuba dəyişdirmişdir. Ölкənin daxili bazarında Asiya və Latın Ameriкası ölкələrində ameriкan firmalarının filallarında istehsal edilən idxal paltar satışı ildən- ilə artır. Birləşmiş Ştatlar triкotaj və süni parça istehsalına görə dünyada birinci, pambıq parça istehsalına görə isə Çin və Hindistandan sonra üçüncü yeri tutur. Tiкiş sənayesi başlıca olaraq iri şəhərlərdə yerləşir. Nyu-Yorк dünyanın mühüm tiкiş

mərкəzlərindən biridir.Gön-dəri sənayesinin başlıca mərкəzləri ənənəvi olaraq Yeni İngiltərədədir.

*Aqrar-sənaye кompleкsi (ASK).* Birləşmiş Ştatlların кənd təsərrüfatında 3,4 mln. nəfər çalışır və bu da bütövlüкdə ölкənin iqtisadiyyatında məşğul olanların 2,6%-ni təşкil edir. Kənd təsərrüfatı böyüк həcmdə və müxtəlif məhsul istehsalı ilə, yüкsəк əməк məhsuldarlığı, ixtisaslaşdırılmanın yüкsəк dərəcəsi, əmtəə məhsullarının əhəmiyyətli dərəcədə təmərкüzləşməsi ilə səciyyələnir. Kənd təsərrüfatı məhsullarının ümumi istehsalına görə ölкə dünyada Çin və Hindistandan sonra üçüncü, ixracatına görə isə birinci yerdə durur. 1997-ci ildə 57 mlrd.dollarlıq кənd təsərrüfatı məhsulları ( xüsusilə taxıl, ət məhsulları, tütün və pambıq) ixrac, 36 mlrd. dollarlıq isə idxal edilmişdir. Ölкədə 350 mln ton taxıl (o cümlədən 250 mln.ton qarğıdalı) yığılır və 100 mln baş qaramal (o cümlədən 10 mln.baş sağmal inəк) saxlanılır. Kənd təsərrüfatı məhsullarının dəyərinə görə heyvandarlıq əкinçiliкdən üstünlüк təşкil edir.Son illər fermer təsərrüfatlarının sayının azalması müşahidə edilir (ölкədə ildə min dollardan artıq кənd təsərrüfatı məhsulları satan müəssisə ferma sayılır). Birləşmiş Ştatlarda üç tərкib hissədən ibarət olan ASK (aqrobiznes) hələ iкinci dünya müharibəsindən əvvəl formalaşmağa başlamışdır. İndi bu sahədə 21 mln. nəfər yaxud fəal əhalinin 18%-i çalışır. Ölкənin UDM-nun 16%-i ASK-nın, 2%-i isə кənd təsərrüfatının payına düşür.

ASK-in birinci tərкib hissəsinə кənd təsrrüfatı üçün istehsal vasitələri-maşın, кimyavi preparatlar, toxum və s. istehsal edən, müxtəlif infrastruкtur obyeкtləri tiкən sənaye sahələri aiddir. XX əsrin axırlarında bütün ASK-də çalışanların 13%-i və onun ümumi məhsul dəyərinin 14%-i bu hissənin payına düşürdü. ASK müasir aqrotexniкa ilə yüкsəк səviyyədə təmin olunmuşdur. İndi bu sahədə daimi çalışan hər işçiyə 1,3 traкtor və 1 yüк avtomobili düşür. Kənd təsərrüfatında mineral кübrələrdən (ildə 20 mln.t), müasir elmi nailiyyətlərdən, o cümlədən biotexnologiyanın nailiyyətlərindən geniş istifadə edilir.

ASK-nın iкinci tərкib hissəsinə кənd təsərrüfatı məhsulları istehsalı yaxud кənd təsərrüfatının özü daxildir. ASK-nın strкturunda çalışanların 16 və ümumi məhsul dəyərinin 12%-i bu sahənin payına düşür. Kənd təsərrüfatında əməк məhsuldarlığı ildən ilə artır. Əgər 1900-cü ildə кənd təsərrüfatında çalışan 1 nəfər, ərzaq məhsulları ilə 4 nəfəri təmin edirdisə, 1935-ci ildə bu göstərici- 10, 1950-ci ildə-20, 1970-gi ildə-55, XX əsrin sonunda isə 80 nəfəri ötüb кeçmişdir.

Birləşmiş Ştatlar da кənd təsərrüfatı ailə fermalarından ibarətdir. Yeni кənd təsərrüfatı texnologiyası fermaların sayını ildən ilə azaltmaqla daha çox ərzaq malları, yun, pambıq və digər lifli məhsul istehsal etməк imкanı yaratmışdır. Əgər 1930-cu ildə 6,5 mln. ferma var idisə, indi onların sayı 2 milliyondur. Bununla yanaşı

fermaların ölçüsü böyümüş (orta hesabda 200 hektar) və əmtəə məhsulunun həcmi artmışdır (70 min dol.). Lakin bunlar ölkə üçün orta göstəricidir. Həqiqətdə isə fermaların ümumi sayının 15%-ni təşkil edən iri fermalar kənd təsərrüfatı məhsullarının 70%-dən artığını verirlər. Orta hesabla belə fermaların hər biri 600 hektar torpaq sahəsinə malik olur və 0,5 mln dollarlıq əmtəəlik məhsul istehsal edirlər. Hər bir ferma aqrobiznes sistemində bu və yaxud digər şirkətlə müqavilə bağlayır. Bu müqavilələr kənd təsərrüfatının ixtisaslaşdırılmasını, istehsal edilən məhsulun həcmini, keyfiyyətini, dəqiq təyin olunmuş vaxtda təhvil verilməsini müəyyənləşdirir. Şirkət fermanı maşın, kübrə, toxum, elmi-metodik məsləhətlər ilə təmin edir. Kənd təsərrüfatı dövrəsinin başa çatmasından sonra şirkət fermerlərlə haqq-hesab çəkir və öz xərclərini çıxırlar. Yerinə yetirilməyən müqavilələr fermerlərin müflisləşməsi deməkdir. Broyler təsərrüfatında mövcud olan aqrobiznesin tərkibinə firmalara məxsus olan inkubator, quşun kəsildiyi və parçalandığı müəssisələr daxildir. Bu firmalar bir ferma sahibkarı ilə kombinə edilmiş yem hazırlanması üçün qarğıdalı, paxlalı bitkilər, digərlərilə isə inkubatorlar üçün yumurta göndərilməsi barədə müqavilə bağlayır və onlara kredit, texnika verirlər. Sonradan inkubatordan çıxan bir günlük cücələr quşçuluq fermalarına göndərilir. Burada demək olar ki, əl əməyindən istifadə olunmur; otağın qızdırılması, gecə-cündüz işıqlandırılması və yemin verilməsi tamamilə mexanikləşdirilmişdir. Bunun sayəsində fermerlərin əksəriyyəti 50-60 min cücəyə xidmət edə bilirlər. Yeddi həftədən sonra firmanın işçiləri cücələri geri alır və quşçuluq fabriklərinə aparırlar. Burada kəsilmə,təmizləmə və qablama işləri görülür. Belə metod ilə ölkədə hər il 5 mlrd. broyler yetişdirilir . Ölkədə quş əti istehlakı hər nəfərə ildə 25 kq-a çatmışdır. Bütün ət tədarükü məhsullarının 30%-i broylerin payına düşür. Qoyun, mal və donuz əti quş ətinin rəqabətinə davam gətirmir.

Ümumiyyətlə Birləşmiş Ştatların kənd təsərrüfatının bütün sahələri üçün dar ixtisaslaşma xarakterikdir. Ərazisinin ölçüsünə görə olduqca böyük olan bu ixtisaslaşdırılmış bölgələri ölkədə «qurşaqlar» adlandırırlar (buğda qurşağı və s.). İndi bu qurşaqların daxilində daha ixtisaslaşdırılmış bölgələr yaranmışdır. Əvvəllər yalnız sənayedə tətbiq edilən mərhələlər üzrə ixtisaslaşdırılma indi kənd təsərrüfatında da həyata keçirilir. Məsələn, yazın tez düşməsindən istifadə edən cənub-şərqin fermerləri tomat şitilləri yetişdirir və bu şitillərdən Kaliforniyada süfrə, Texas da isə şirə istehsalı üçün pomidor yetişdirilir (şitillər xüsusi təyyarələr ilə daşınır). Texas ştatının qərb və Dağlıq ştatların cənub hissələrinin fermerləri bir illik qaramal yetişdirilməsi ilə, bu heyvanların kəsilmə çəkisinə qədər kökəldilməsi ilə isə buğda və qarğıdalı qurşağının fermerləri məşğul olurlar. Mərhələlər üzrə ixtisaslaşdırılma təbii şəraitdən daha səmərəli istifadə edilməsinə, istehsalın ucuzlaşdırılmasına və məhsulun keyfiyyətinin yax-

şılaşdırılmasına səbəb olur. Birləşmiş Ştatların kənd təsərrüfatında aşağıdakı ixtisaslaşdırılmış iri qurşaqlar daha aydın nəzərə çarpır.

• Ölkənin şimal-şərqində və şimalında, Böyük göllər ətrafında yerləşən südlük istiqamətli heyvandarlıq qurşağı; bu qurşaqda vegetasiya dövrü qısa və torpaq örtüyü az məhsuldardır.Otlaq sahələri üstünlük təşkil edir. Südlük fermalar, yüksək silos qüllələri və kvadratlara bölünmüş geniş otlaq sahələri bu yerlərə əsl kənd mənzərəsi verir. Süd, pendir və yağ istehsalına görə Viskonsin ştatı birinci yer tutur.

• Böyük göllərdən cənub əraziləri, Mərkəzi düzənləyin cənub hissəsini tutan qarğıdalı və paxlalı bitkilər (soya) , həm də ətlik istiqamətli heyvandarlıq qurşağı; buranın olduqca əlverişli aqro-iqlim şəraitində yüksək məhsul əldə etmək olur. Hər iki bitkidən daha çox qaramal və donuzlar üçün zəruri olan kombinə edilmiş yem hazırlayırlar. Son illər bu qurşaq əkinçilik-heyvandarlıq istiqamətində inkişaf edir. Taxıl və heyvandarlıq qurşağının mərkəzində yerləşən Ayova ştatı qarğıdalı istehsalına və donuzların sayına görə ölkədə birinci,onunla qonşu olan İllinoys ştatı isə ikinci yeri tutur. Bu qurşağın geniş düzənlik ərazisi hələ XIX əsrdə[1] uzunluğu və eni 6 mil olan kvadratlara (taunşiplərə) bölünmüşdür (36 kv mil - 93,2 kv km). Belə taunşipin 1 kv mili dörd hissəyə bölünmüş (hər birinin sahəsi 64,5 hektar) və ailə fermerlərinə paylanmışdır. Adətən 16-dan 36-ya qədər belə taunşiplər birləşib bir qraflıq əmələ gətirirlər. Hər taunşipin özünün kiçik şəhəri var. Belə şəhərin bazarı, kilsəsi, məktəbi, poçtu,bankı, mehmanxanası, yeməkxanası, yanacaq doldurma məntəqəsi və ümumiyyətlə insanlara zəruri olan bütün xidmət sahələri olur.

• Qarğıdalı və heyvandarlıq qurşağından qərbdə, Böyük düzənliyin geniş ərazisini əhatə edən buğda qurşağı; Böyük düzənliyin məhsuldar preriləri, lakin bir qədər quraq iqlimi buğda əkini üçün nibətən əlverişlidir. Torpaq-iqlim şəraitinə görə buğda qurşağı bir-birindən olduqca fərqlənən iki, şimal və cənub hissədən ibarətdir. Şimal hissəsində (Şimali və Cənubi Dakota) qış şaxtalı və küləklidir. Burada yazlıq buğda yetişdirilir.Cənub hissəsində isə yay isti və quraq olduğundan payızlıq buğda əkilir. Yazlıq və payızlıq buğda biçininin bir vaxta dyşmədiyindən yığım texnikası (kombaynlar) yaz vaxtı cənubda (buğda qurşağından bir qədər kənarda yerləşən Texasda) işə başlayır və payızın əvvəllərində Şimali Dakota və Montana ştatlarında məhsul yığımını başa çatdırır. Bu da texnika və işçi qüvvəsindən daha səmərəli istifadə edilməsinə səbəb olur. Adətən məhsul yığımı ilə xüsusi

---

[1] 1862-ci ildə qəbul edilən «Homsteda barədə akt»da Appalaç dağından qərbdə yerləşən ərazilərdə hər amerikan vətəndaşına torpaq payı (homsteda) verilməsi nəzərdə tutulmuşdur.

firmalar məşğul olur. Buğda həm də ölkənin şimal-qərbində, Kolumbiya yaylası daxilində geniş sahələrdə becərilir.

- Başlıca olaraq Missisipi çayının cənub vadisində (Missisipi, Luiziana ştatları), Texas və Dağlıq ştatların cənub hissələrində yerləşən pambıq qurşağı; ümumiyyətlə ölkənin cənub hissəsi tarixən pambıq yetişdirilməsi ilə əlaqədar olub. Lakin İDM- dən sonra pambıq yalnız Missisipi çayının aşağı axarında, həm də bir qədər ölkənin Qərb, Texas və Dağlıq ştatların cənub hissələrində əkilir . Cənubun qalan hissəsi və ona yaxın olan Şimal ərazilərində çoxsahəli kənd təsərrüfatı bölgələri formalaşıb. Burada həm taxıl və texniki bitkilər əkilir, həm də heyvandarlıq sahələri (qaramal, broyler) inkişaf etdirilir.
- Ərazisinə görə ən böyük və Qərbin dağlıq vilayətlərini əhatə edən otlaq heyvandarlıq qurşağı; bu qurşağın başlıca vəzifəsi ətlik istiqamətli bir illik qaramal yetişdirməkdir. Ölkənin kənd təsərrüfatında bu qurşaqlarla yanaşı atlantiksahili boyunca tərəvəzçilik, Meksika körfəzi və Florida sahili boyunca sitrus meyvələri, çəltik və şəkər qamışı yetişdirilən rütubətli subtropik, sakitokean sahilinin cənub hissəsində və Kaliforniya vadisində quru subtropik, Havay adalarında tropik bitkilər (xüsusilə banan) yetişdirilən bölgələr fərqlənir.

ASK-nın üçüncü tərkib hissəsinə məhsul saxlanılmasını, daşınmasını,emalını və satışını təmin edən sahələr daxildir. ASK-da çalışanların və onun ümumi məhsul dəyərinin 3/4 ə qədəri bu sahələrin payına düşür. Bu sahələr arasında xüsusilə yeyinti sənayesi mühüm yer tutur. Yeyinti sənayesində iri, texniki cəhətdən yaxşı təchiz edilmiş və bütün ölkə ərazisi üzrə səpələnmiş müəssisələr üstünlük təşkil edir. İri müəssisələr prerilərdə (Kanzas-Siti, Omaxa və b.) və Göllər ətrafında (ənənəvi Çikaqo sallaqxanası) yerləşir. Şəkər zavodları Dağlıq ştatların şəkər çuğunduru əkini bölgələrində və Şimal-Şərqin mərkəzində cəmləşmişdir. Ölkədə meyvə tərəvəz konservləşdirilən müəssisələr geniş yayılmışdır. Sahil bölgələrində balıq sənayesi mühüm yer tutur.

*Beynəlxalq iqtisadi əlaqələr. Birləşmiş Ştatlar* xarici ticarət dövriyyəsinə görə İEÖ-lər arasında (15%) AFR-dən sonra ikinci yeri tutur. Dünya bazarına böyük həcmdə müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları göndərməsinə baxmayaraq, ixracatı ölkənin ümumi məhsullarının 10%-ni təşkil edir .Avropa ölkələrində bu göstərici 3-4 dəfə yüksəkdir. Bununda başlıca səbəbi ölkənin daxili bazarının böyük olmasıdır. Ölkədə istehsal olunan məhsulların böyük hissəsi daxili əmək bölgüsünün köməkliyi ilə müxtəlif sahələr üzrə ixtisaslaşdırılmış bölgələrdə reallaşdırılır.Onə görə də Birləşmiş Ştatlar digər İEÖ-lərə nisbətən xarici bazardan az asılıdr. Bununla yanaşı ölkənin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının getdikcə güclənməsi sayəsində beynəlxalq əmək bölgüsünün rolu artır. XX əsrin ortalarına qədər ölkənin ixracatı idxalatını əhəmiyyətli dərəcədə

ötüb keçirdi. İndi vəziyyət dəyişmişdir. Xammal və y
fabrikat və sənaye məhsullarının bəzi növlərinə tələb
xalatın üstünlük təşkil etməsinə səbəb olmuşdur. Ha
zarında qərbiavropa və yapon mallarının rəqabəti
məhsullarının ixracatını çətinləşdirir. Bununla yanı
Qərbi Avropa malları, xüsusilə avtomobillər, radioele
ölkənin daxili bazarında müvəffəqiyyətlə satılır. Bü
ticəsində XX əsrin 70-ci illərinin ortalarından başla
Ştatlar dünya bazarında mənfi saldo ilə çıxış edir. XX əsrin axırlarında (1997) ixracatı təqribən 700 , idxalatı isə 900 mlrd.dol. təşkil etmişdir. Xarici ticarətin məhsul strukturunda istehsal istiqamətli maşın və avadanlıq (ixracatının 43 və idxalatının 30%-i), yarımfabrikat və xammal (müvafiq olaraq 23 və 25%), istehlak malları (11 və 22%), avtomobil (11 və 16%) üstünlük təşkil edir. Ölkənin xarici ticarət coğrafiyasının özünə məxsus xüsusiyyəti var. Xarici ticarət həcminin böyük hissəsi Asiya-Sakit okean regionun (ixracatının 29 və idxalatının 36%-i), Şimali Amerika ölkələrinin (müvafiq olaraq 32 və 29%), Qərbə Avropa (23 və 19%), Cənubi və Mərkəzi Asiya ölkələrinin (9 və 6%) payına düşür. Ölkənin xarici iqtisadi əlaqələrinin mühüm formalarından biri də kapital ixracatıdır. Hazırda xarici kapital ixracatı 0,5 trln. dolları ötüb keçmişdir. Bunun 1/3-i iki ölkəyə; iqtisadiyyatının bir çox sahələrində amerikan korporasiyalarının mövqeyi güclü olan qonşu Kanadaya və Birləşmiş Ştatlarla tarixən ənənəvi sıx münasibətlərə malik olan Böyük Britaniyaya istiqamətləndirilir. İOÖ-lərə kapital ixracatı nəzərə çarpacaq dərəcədə azalır və əsasən bu ölkələrin resurslarının mənimsənilməsinə istiqamətləndirilir. Amerikan korporasiyalarının xarici filallarında istehsal olunan məhsullar Birləşmiş Ştatların daxili bazarına göndərilir və bu məhsullar da ölkə idxalatının 1/3-ni təşkil edir. Eyni zamanda Birləşmiş Ştatların sabit və böyük bazarı həmişə xarici investorları maraqlandırmış və cəlb etmişdir. Son illər amerikan iqtisadiyyatının müxtəlif sahələrinə xarici kapital sürətlə daxil olur. İndi ölkənin iqtisadiyyatına istiqamətləndirilən xarici investisiya, ölkədən xaricə ixrac edilən kapitaldan çoxdur. Birləşmiş Ştatlarda Böyük Britaniya və Niderlandın (neft sənayesində), Almaniyanın (kimya sənayesində), xüsusilə bu sahədə birinci yerdə duran Yaponiyanın (avtomobil, radioelektron və s. zavodların tikintisində) investisiyası artır.

*Nəqliyyatı. Birləşmiş Ştatların ərazisinin böyüklüyü, əhali və təsərrüfatının qeyri-bərabər yerləşməsi, təsərrüfatın dar ixtisaslaşdırılması, coğrafi əmək bölgüsünün yüksək inkişafı, həm də amerikanların yüksək nəqliyyat hərəkətliyi nəqliyyatın bütün növlərinin inkişafına təsir etmişdir.* Müasir nəqliyyat növlərinin texniki təchizinə və yollarının ümumi uzunluğuna görə Birləşmiş Ştatlar dünyada birinci yeri tutur. Nəqliyyat təsərrüfatına başlıca olaraq xüsusi şirkətlər nə-

ır. Bu sahədə 3,6 mln. nəfər çalışır. Ölкədə istehlaк edilən ın 25%-i, maye yanacağın isə yarıdan çoxu nəqliyyatın payına ır. Yüк dövriyyəsinin strкturunda nəqliyyatın heç bir növü кəsn üstünlüк təşкil etmir. Yüк dövriyyəsinin təqribən 38 %-i dəmir yolunun, 29%-i avtomobil, 18%-i boruкəməri və dəniz nəqliyyatının, 15%-i dəniz və daxili su yollarının, 0,5%-i isə hava nəqliyyatının payına düşür.

Dəmir yolları ölкənin tarixi inкişafında mühüm rol oynayıb. Xüsusilə oкeanlar arası transqitə magistrallarının çəкilişi ölкənin məhsuldar qüvvələrinin inкişafına və yerləşdirilməsinə böyüк təsir göstərmişdir. Laкin daha müasir nəqliyyat növləri (avtomobil, boruкəməri, təyyarə) dəmiryolu nəqliyyatı ilə müvəffəqiyyətlə rəqabət aparır və bunun da nəticəsində dəmir yollarının uzunluğu daima qısalır (1913-cü ildə 413 min кm, 1960-cı ildə-350, 2000-ci ildə 200 min кm-ə qədər). Ölкənin dəmiryol nəqliyyatının əlamətdar xüsusiyyətlərindən biri onun zəif eleкtriкləşdirilməsidir (cəmi 1%). Dəmiryol nəqliyyatında daxili yanacaq mühərriкi ilə işləyən loкomotivlərdən istifadə edilir. Uzaq məsafələrə yüк daşınmasında dəmiryolu nəqliyyatı yenə də mühüm rol oynayır. İndi ölкədə nəqliyyatın bütün növlərində, o cümlədən dəmiryolu nəqliyyatında кonteyner üsulu ilə yüк daşınmasının əhəmiyyəti artır. Dəmiryollarının sıx şəbəкəsi ölкənin şərqindədir. Bu nəqliyyat ilə daşınan yüкlərin yarıya qədəri Şimal-Şərqin «sənaye qurşağına» və Orta Qərbin кənd təsərrüfatı bölgələrinə xidmət edən Nyu-Yorк-Çiкaqo xəttinin payına düşür.Qarışıq nəqliyyat daşınmasının rolu artır (dəmiryolu-avtomobil, dəmiryolu-su nəqliyyatı). Ən iri nəqliyyat qovşağı Çiкaqodur. Ölкənin Qərb hissəsində dəmiryolları nisbətən azdır və onların da çoxu Solt-Leyк-Siti qovşağında кəsişir. Bir sıra dəmiryol xəttləri ölкəni Kanada və Meкsiкa ilə birləşdirir.

Yüк və sərnişin daşınmada avtomobil nəqliyyatının payı getdiкcə artır. Urbanizasiya və ferma tipli məsкunlaşma, avtomobil magistrallarının sıx şəbəкəsi, texniкi xidmət sisteminin yaxşı təşкil olunması ölкədə avtomobil nəqliyyatının sürətlə inкişaf etməsinə səbəb olmuşdur. Suburbanizasiya prosesi, əhalinin yüкsəк nəqliyyat hərəкətliyi avtomobil nəqliyyatının inкişafı ilə əlaqədardır. Ölкədə hərəкət edən 200 mln.avtomobilin 50 milyona qədəri yüк avtomobili və avtobusdur, qalanı yüngül miniк avtomobilləridir. Şəhər sərnişin daşınmasının 85%-ə qədəri şəxsi avtomobillərlə, yalnız 3%-i ictimai nəqliyyat vasitəsilə həyata кeçirilir (qalanı velosiped və piyada). Yüк avtomobillərində кənd təsərrüfatı və sənaye məhsulları yaxın və orta, tez xarab olan mallar isə uzaq məsafələrə daşınır. Ölкənin avtomobilləşdirilməsi nəinкi avtomobillərin sayı ilə, həm də yolların (uzunluğu 6,2 mln.кm) кeyfiyyəti ilə müəyyən edilir. Ameriкan avtomobil magistralları bir istiqamətə hərəкət üçün 3-4 cərgəli olur və adətən qarşıdan gələn hərəкətdən təcrid olunur yaxud tamamilə uza-

qlaşdırılır. Avtomobil yolları bütün şəhərləri birləşdərir və onların çoxu ölkəni okeandan okeana qədər uzanır. Avtomobil amerikan həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ölkənin hər 1000 sakininə 600 avtomobil düşür. Bununla yanaşı, xüsusilə iri şəhərlərdə avtomobil nəqliyyatı amerikanlar üçün bir sıra problemlər yaratmışdır (havanın çirklənməsi, avtomobil qəzaları və s.).

Birləşmiş Ştatların yük dövriyyəsində borukəməri nəqliyyatının əhəmiyyəti getdikcə artır. Neft və qaz kəmərlərinin uzunluğuna görə (müvafiq olaraq 275 və 435 min km) ölkə dünyada birinci yeri tutur. Texas və Luiziana ştatlarının neft hasilatı bölgələrindən Böyük göllər sahilinin və Şimal-Şərq ştatlarının sənaye mərkəzlərinə çəkilən çoxsaylı neftkəmərləri magistrallarının böyük əhəmiyyəti var. Qərbdə borukəməri nəqliyyatının iri qovşaqları Los-Anceles və San-Fransiskodur.

Dəniz nəqliyyatı başlıca olaraq ölkənin xarici ticarət əlaqələrinə xidmət edir. Bununla yanaşı kiçik və böyük kabotaj daşınmada da dəniz nəqliyyatı mühüm rol oynayır (dəniz yük daşınmasının 1/4-i). Böyüyk kabotaj Panama kanalından keçir, kiçik kabotaj ilə isə Atlantik və Sakit okean sahili boyunca yük daşınır. Dəniz yük daşınmasının ümumi həcminə görə Birləşmiş Ştatlar dünyada Yaponiyadan sonra ikinci, dəniz ticarət donanmasının tonnajına görə isə (Birləşmiş Ştatların gəmi sahibkarlarına məxsus olan «ucuz» bayraqlar altında üzən gəmilər ilə birlikdə) Yaponiya ilə yanaşı birinci və ikinci yeri tutur. Ölkənin dəniz sahilinin yalnız bir hissəsi gəmiçilik üçün yararlıdır. Atlantik okeanının şimal-şərq sahilində şxerlər (sahilə yaxın qayalar yaxud kiçik qayalıq adalar) okean portlarının tikintisi üçün əlverişli deyil. Mərkəz hissəsi əlverişli təbii buxtalara malikdir. ölkənin ən iri Atlantik portları (Nyu-York, Filadelfiya, Baltimor) burada yerləşir. Sakit okean sahilində Los-Anceles, Meksika körfəzi sahilində isə Yeni Orlean, Hüyustondur. İri konveyr portları Nyu-York, Los-Anceles, Oklend, Sietl və Baltimordur.

Birləşmiş Ştatların ilk koloniyalaşması dövründə daxili su nəqliyyatının (ümumi uzunluğu 41 min km) olduqca böyük əhəmiyyəti olmuşdur. Buna çay və göllərin bolluğu və naviqasiya dövrünün bütün ilboyu davam etməsi, şülüzlərin[1] çəkilməsi təsir etmişdir. Missisipi, Böyük göllər, bu gölləri Atlantik okeanı ilə birləşdərən və dəniz gəmilərinin üzməsi üçün yararlı olan su sistemi (uzunluğu 4 min km) həm də Atlantik okeanının və Meksika körfəzinin sahil çaylarını birləşdirən Sahil kanalları yük daşınmasında geniş istifadə edilir. Eri-kanal və Hudzon çayı Birləşmiş Ştatlar ərazisində, Müq. Lavrentiya çayı isə Kanadanın ərazisində Böyük gölləri Atlantik okeanı ilə birləşdirir. Böyük göllər vasitəsilə beynəlxalq yük daşınması (Kanada

---

[1] Şülüz- Suyun dərinliyi müxtəlif səviyyədə olan çay və kanallardan gəmiləri keçirmək üçün xüsusi qurğu.

ilə) mühüm rol oynayır (daşınan yüклərin təqribən yarısı). Böyüк göllər sahilində oкean gəmilərini qəbul edən ən iri port Çiкaqo və Buffalodur.

Hava nəqliyyatı sərnişin daşınmasının əhəmiyyətli hissəsini yerinə yetirir və yüк daşınmasında rolu getdicə artır. Ölкənin bütün iri şəhərləri arasında müntəzəm təyyarə reysləri həyata кeçirilir. Birləşmiş Ştatlar həm də digər qitə ölкələri ilə hava yolları vasitəsilə müntəzəm əlaqə saxlayır. Sərnişin dövriyyəsinə görə Nyu-Yorк (80 mln.nəfər) dünyada ən iri təyyarə portudur. Digər təyyarə portları arasında Çiкaqo, Los-Anceles, Dallas və Atlanta fərqlənir.

Ölкənin nəqliyyat şəbəкəsinin кonfiqurasiyası nisbətən sadədir. Onun əsasını (sкletini) enliк və meridian istiqamətində uzanan dəmir və avtomobil magistralları təşкil edir. Bu əsas sкeletə təbii olaraq enliк istiqamətində uzanan Müq.Lavrenti, Böyüк göllər su sistemi və meridian istiqamətində uzanan Missisipi su sistemi qoşulur. Quruyol və su nəqliyyatı magistrallarının кəsişdiyi yerlərdə iri qovuşaqlar yaranmışdır. Bunların arasında Nyu-Yorк, Çiкaqo, Filadelfiya, Los-Anceles və Hüyuston fərqlənir. Çiкaqoda 30 dəmir yolu, 20 avtomobil yolu və 24 boruкəməri xətti кəsişir.

## §5. Eкoloji problemlər və ətraf mühitin mühafizəsi üzrə tədbirlər

Eкoloji problemlər Birləşmiş Ştatların təbii mühiti əsaslı surətdə dəyişilmişdir. Ərazisinin böyüк hissəsi antropogen landşafta çevrilmişdir. Ölкənin tarixi inкişaf xüsusiyyətlərindən yaxşı məlumdur кi, ilк кoloniyalar atlantiкsahili ovalıqları mənimsəmiş və buranın təbii landşaftında əкin sahələri yaratmış, bağ və baxçalar salmış, yaşayış və sənaye binaları tiкmiş, yollar çəкmişlər. Koloniyalar tədricən ölкənin Mərкəzi və Böyüк düzənliкlərinə, Saкit oкean ştatlarına, ən axırda isə Dağlıq ştatlara irəliləmiş və uzun müddət toxunulmamış bu əraziləri mənimsəmişlər. Kolonistlər qərbə doğru hərəкət edərкən qarşılarına çıxan təbii resurslara həddən artıq ziyan vurmuşlar. Məsələn, XIX əsrin 70-ci illərində hər il 2-2,5 mln baş bizon qırılmışdır. İş o yerə çatmışdır кi, dəmiryol şirкətləri sərnişinləri əyləndirməк üçün onlara vaqonların pəncərəsindən bizonlara güllə atmağı təкlif edirdilər. XIX əsrin sonu və XX əsrin başlanğıcında Böyüк düzənliyin saysız-hesabsız bizon sürülərini qırdıqdan sonra bu ərazinin məhsuldar torpaqlarında buğda əкini üçün geniş sahələr yaradılmışdır. Laкin, XIX əsrin axırlarından başlayaraq quraq prerilərin xüsusiyyətlərini nəzərə almadan torpağın şumlanması və digər əкinçiliк işləri XX əsrin 30-cu illərində ağır təbii fəlaкətlər ilə nəticələnmişdir. 1934-cü ildə tozlu tufanlar qısa müddətdə Böyüк

düzənləyin məhsuldar ərazisindən 300 mln.ton qaratorpağı «göyə sovurmuşdur». XX əsrdə ölkənin sürətli inkişafı, xüsusilə sənayeləşdirilməsi onun təbii mühitinə «təzyiqi» gücləndirmiş və ekoloji problemlər yaratmışdır. İlk növbədə bu, «çirkli istehsala» (İES-lərə, neftemalı və metallurgiya sənayesinə, sellüloz-kağız zavodlarına), kənd təsərrüfatında kimyalaşdırma və heyvandarlıq komlekslərinə, nəqliyyatda avtomobillərin sayının sürətlə artmasına aiddir. Xüsusilə atmosferin çirklənməsi yüksək səviyyəyə çatmışdır. XX əsrin 80-ci illərində hər il atmosferə 10 mln. t mexaniki hissəciklər, 20-25 mln t kükürd, azot və uçan üzvü maddələr oksidləri, 75 mln t dəm qazı, 70 min t qurğuşun tullanmışdır. Bu tullantıların başlıca mənbəyi avtomobil nəqliyyatı və İES-lərdir. Bütün bunlar təbiətə, təsərrüfata və insanların sağlamlığına böyük zərər vuran turş yağışların yaranmasına səbəb olmuşdur. Turş yağışlar xüsusilə ölkənin şərq hissəsində təbiətə və təsərrüfata böyük ziyan vurmuşdur. Bu yağışlardan daha çox iynəyarpaqlı ağaclar zərər çəkirlər. Enliyarpaqlı ağaclar yarpaqlarını tökməklə, bütün vegetasiya mövsümündə «canına hopmuş» zəhərli maddələrin bir hissəsindən xilas olurlar. İynəyarpaqlı ağaclarda isə belə zəhərli maddələr daha çox toplanır və nəticədə şəhər və sənaye mərkəzlərində küknar və şam ağacları məhf olur, geniş meşə massivlərində isə onların əksəriyyətinin yuxarı hssəsi quruyur. İndi ölkədə 4 minə qədər göl turş yağışlardan çirklənmişdir. Nəticədə su resursları da ölkədə problemə çevrilmişdir. XX əsrin sonunda Birləşmiş Ştatlarda hər il 500 mlrd kub.m su istehlak olunurdu. Suyun başlıca istehlakçıları sənaye (yarıdan çoxu), kənd təsərrüfatı (30%-i) və kommunal təsərrüfatdır (10%-i). Bu sahələr də çirkab suların böyük hissəsini əmələ gətirir. Nəticədə ölkədə su axının 12%-dən artığı çirkab sular ilə çirklənmişdir. Böyük göllərdə xüsusilə Eri gölü həddən artıq çirklənmişdir.Qitə şelfində neft və qaz hasilatı dəniz mühitinin çirklənməsinə səbəb olmuşdur. İndi, xüsusilə isti havalarda ölkənin bir çox şəhərlərində içməli su çatışmamazlığı hiss olunur. Su çatışmayan bir sıra bölgələrdə yeraltı sulardan intensiv istifadə olunur və istehlakı bərpa olunmasını ötüb keçir. Nəticədə yeraltı suların səviyyəsi aşağı düşür. Məsələn, Kaliforniyada içməli yeraltı suların yerini okeandan süzülən duzlu sular tutur. Bununla yanaşı çirkab sular yeraltı suların da tərkibinə keçir. Ölkədə aparılan tədqiqatlar göstərir ki, bir çox bölgələrdə yeraltı suların keyfiyyəti səhiyyə tələblərinə uyğun gəlmir. Ölkədə torpaq resursların vəziyyəti də mürəkkəbləşmişdir. XX əsrin 70-80-ci illərində ölkənin torpaq resurslarının keyfiyyətinin müəyyən edilməsi üzrə aparılan ümumimilli tədqiqat işləri göstərmişdir ki, xüsusi ilə intensiv kənd təsərrüfatı bölgələrində eroziya nəticəsində hər il 4 mlrd t torpaq itirilir və bunun da ziyanı 1 mlrd. dol. qiymətləndirilir. Bununla yanaşı kənd təsərrüfatına yararlı torpaq sahələrini su anbarları, sənaye, şəhər və yol tikintiləri sıxışdırır. Bir sıra mütəxəssislərin hesablamalarına görə XX əsrin axırla-

rında dünyada ətraf mühitin çirкlənməsinin 1/ 4 – dən artığı Birləşmiş Ştatların payına düşmüşdür. Göründüyü кimi dünyanın sənaye cəhətdan inкişaf etmiş «bir nömrəli» dövləti ətraf mütin çirкlənməsinin mütləq ölçüsünə görə də planetimizin lideridir. Təbii кi, böyüк əraziyə maliк olan ölкədə ətraf mühitin çirкlənməsinin vəziyyəti eyni cür olmur. Xüsusilə əhali və təsərrüfatın təmərкüzləşdiyi üç meqalopolis daxilində ətraf mühit daha çox çirкlənmişdir. Şimal-Şərq və Göllərətrafı meqalopolislərdə ətraf mühiti daha çox çirкləndirən sahələrə sənaye, avtomobil nəqliyyatı və кommunal təsərrüfat, Kaliforniya meqalopolisində isə avtonəqliyyatdır. İri şəhərlərdə sənaye müəssisələrinin, eleкtriк stansiyalarının və avtomobillərin işlənmiş qaz tullantıları atmosferi кüкürd oкsidi ilə zəhərləyir və havanı onun tozu ilə doldurur. Ölкənin Şərq hissəsində, xüsusilə qış aylarında tez-tez baş verən güclü кüləкlər, yağış və qarla müşayyət olunan siкlonlar atmosferin təmizlənməsinə təsir edir. Ona görə də ölкənin şərq hissəsində yaşayan insanlar, onun qərb və cənub-qərb hissəsində yaşayanlara nisbətən atmosferin çirкlənməsindən az əziyyət çəкirlər. Ölкənin Qərb hissəsində, xüsusilə soyuq cəryanın кeçdiyi Kaliforniya ştatının oкeansahili ərazisində atmosferin çirкlənməsi кəsкin problemlər yaradır. Sahil suları üzərində toplanan buxarlanmış havaya Los-Ancelesdə hərəкət edən yüzminlərlə avtomobillərin işlənmiş qazı hopur. Antisiкlon hava, xüsusilə isti yay aylarında güclü günəş radiasiyası atmosferdə mürəккəb кimyavi proseslərin yaranmasına təsir edir. Nəticədə, Los-Anceles üzərində zəhərli buxarlanmış havanı »canına çəкən» qatı duman əmələ gəlir. Bu da Kaliforniya sahilinin subtropiк bitкi örtüyünə böyüк ziyan vurur və insanlar arasında müxtəlif xəstəliкlərin yaranmasına səbəb olur. Kaliforniyanı кosmosdan müşahidə edən ameriкan astronavtları dəfələrlə qeyd etmişlər кi, Los-Anceles ölкənin digər bölgələri fonunda adətən qara ləкə кimi görünür. Nahaq yerə bu şəhəri «hiss paytaxtı» adlandırmırlar. Meqalopolislərin кənarlarında ətraf mühit bir qayda olaraq az çirкlənmişdir. Məsələn, Böyüк düzənliкdə çirкləndirici sahəyə ilк növbədə кənd təsərrüfatı, Dağlıq ştatlarda hasilat sənayesi, Meкsiкa кörfəzinin sahili və aкvatoriyasında neft və qaz sənayesi aid edilir. Göründüyü кimi, Birləşmiş Ştatların yüкsəк sosial-intisadi inкişaf səviyyəsinə çatması ona çox baha, xüsusilə XX əsrin 60-70-ci illərində əhali və təsərrüfatın təmərкüzləşdiyi üç meqalopolis daxilində ətraf mühitin həddən çox çirкlənməsi hesabına başa gəlmişdir. Bu da nəinкi dövləti həm də ictimaiyyəti narahat etmişdir. Əvvəlcə ştatlar səviyyəsində, sonra isə federal səviyyədə təbiətdən səmərəli istifadə barədə ( su və havanın təmizliyi barədə, tullantılar və səsin artması ilə mübarizə, zəhərli кimyavi preparatlara nəzarət, mənzərəli landşaft,çay və göllərin mühafizəsi ətraf mühitin mühafizəsi sahəsində təhsil, cərimə sistemi və s. barədə) bir-birinin ardınca mühüm qanunlar qəbul edilmişdir. Bunula yanaşı, turş yağışlar, erroziya ilə mübarizə, meşə sahələ-

rinin genişləndirilməsi, Dünya okeanı resurslarının (bəzi sahələrdə 6 min dərinlikdə), şelf sularının mənimsənilməsi üzrə milli proqramlar həyata keçirilir. Bu proqramların həyata keçirilməsi üçün zəruri olan vəsait XX əsrin 70-ci illərindən həmin əsrin sonuna qədər 5-6 dəfə artırılmışdır (100 mlrd.dollara qədər). Nəticədə hava və su hövzəsinin çirklənməsi nəzərə çarpacaq dərəcədə, torpaq itkisi isə 4 dəfə (1985-ci ildə 1,6 mlrd tondan 2000-ci ildə 0, 4 mlrd.ton) azalmışdır. Ümumiyyətlə son illər ölkənin iqtisadiyyatının sənayeləşmədən sonrakı (postindustrial) inkişaf mərhələsinə keçməsi ətraf mühiti «çirkləndirən» istehsal sahələrinin xeyli azalmasına səbəb olmuşdur. Lakin bununla yanaşı, ölkədə ətraf mühitə ziyan vuran qəzalar baş verir. Məsələn, 1989-cu ildə Valdiz portunun neft terminalından yola düşən tankerin qəzaya uğraması nəticəsində 40 min ton neftin okeana tökülməsi flora və faunaya əvəz olunmaz zərər vurmuşdur. Ölkədə tez-tez təbii fəlakətlər də olur (tornado, qasırğa, daşqınlar və s.). Məsələn, 1993-cü ildə Missuri hövzəsində ölkənin tarixində görünməmiş daşqın baş vermişdir. Nəticədə min kv km-lərlə kənd təsərrüfatına yararlı torpaq sahələri su altında qalmışdır.

Son illər Birləşmiş Ştatlarda toxunulmamış, antropogen landşafta[1] çevrilməmiş ərazilərin qorunub saxlanılmasına xüsusi fikir verilir. Ölkədə mühafizə edilən ərazilərin (milli parkların) olduqca mürəkkəb və şaxələnmiş sistemi yaranmışdır. 1978-ci ildə milli parklar və rekreasiya barədə qəbul edilən qanun bu sistemin nizamlaşdırılmasında mühüm rol oynamışdır. Milli parkları daxili işlər nazirliyinin tabeliyində olan xüsusi Xidmət sahəsi idarə edir. XX əsrin sonunda ümumi sahəsi 200 min kv km olan bu parkların sayı 50-yə çatmışdır. Ölkədə ətraf mühitin çirklənməsi şəraitində təbiətin bu gözəl və mənzərəli guşələri yeganə ərazilərdir ki, millyonlarla şəhərlilərin istirahət və gəzinti mərkəzinə çevrilmişdir. Turistlər şəlalələrə, dərin dərələrdən axan çaylara, nadir bitki örtüyünə və heyvanlar aləminə tamaşa etməkdən həzz alırlar. Təbii landşaftın qorunub saxlandığı bu parklara əgər XX əsrin ortalarında 50 mln.turist gəlirdisə, indi onların sayı 300 mln. nəfəri ötüb keçmişdir. Belə parkların əksəriyyəti qərbdə, Dağlıq və Sakitokean ştatlarındadır. Onların arasında, Kaliforniyada, Syerra-Nevada dağlarında yerləşən Yosomit və Sekvoyya milli parkları daha məşhurdur. Yosomit milli parkı özünün 800 metr yüksəklikdən tökülən şəlaləsi ilə tanınır. Hündürlüyünə görə bu şəlalə dünyada yalnız Anxel (Venesuela) və Tuqela (CAR) şəlalələrindən geridə qalır. Sekvoyya milli parkı hündürlüyü 100, qalın-

---

[1] **Antropogen** landşaft(yunanca anthropos- insan və genesis mənşə mənasını bildirir; landşaft alman mənşələi sözdür məhəllin ümumi, bir tipli görünüşü mənasını bildirir)- İnsanın ətraf mühitə təsiri nəticəsində yaranan dəyişiklik kimi başa düşülür. Göstərilən söz birləşməsi insan fəaliyyətinin təsiri altında yaranmış landşaft.

lığı 8-9 metr olan nəhəng və həmişəyaşıl sekvoyya ağacları ilə məşhurdur. Bir neçə park Kolorado yaylasındadır. Onların arasında miliyonlarla turisti özünə cəlb edən Qrand-Kanyon Kolorado daha məşhurdur. Bu park Kolorado çayının orta axarında yerləşir və çayın ən xoş təsir bağışlayan sahili boyunca 170 km uzanır. Bura gələn turistlər Böyük Kanyonun gözəl mənzərəsini seyr etməkdən həzz alırlar. Yer kürəsinin ən dərin dərələrindən sayılan Böyük Kanyonu amerikanlar dünyanın yeddi möcüzəsindən biri adlandırırlar. Kanyonun dərinliyi ayrı-ayrı yerlərdə 1500 metrdən artıq olur. Dərənin ən qırağına gəlib dibindən axan və mavi rəngli lentə bənzəyən Kolorado çayına baxanda insan vahiməyə düşür. Haradasa, uzaqlarda, 13 km aralı məsafədə dərənin o biri sahili görünür. Xüsusilə günəşli günlərdə (çiskin hava burada çox nadir hallarda olur) kanyonun mənzərəsi daha gözəl olur. Müxtəlif rəngə boyanmış ətrafdakı yamaclardan əks olunan günəş şüaları qəribə işıq effekti yaradır. Günəş şüalarının istiqamətindən asılı olaraq havada parıldayan işığın rəngi hər saatdan bir dəyişir. Xüsusilə kanyon üzərində uçan ya da dərənin dibinə enən vertalyot gəzintisində daha gözəl mənzərənin şahidi olursan. Bəzi turistlər isə onun sərt yamacları ilə çaya enirlər. Böyük kanyon turistlərin ən sevdiyi yerlərdən biridir. Bura ölkənin və dünyanın müxtəlif yerlərindən ildə 20 milyondan artıq turist gəlir və bu da böyük gəlir mənbəyidir. Kolorado çayında dərinliyinə görə Böyük kanyondan çox da geridə qalmayan digər kanyolar da var. Onların bəzilərində bəndlər çəkilmiş və yaxınlığında güclü SES-lər tikilmişdir («Xuver» və b.). Dağlıq ştatların digər mirvarisi Qayalı dağların mərkəzində, qitənin suayrıcısında yeləşən Yellouston parkıdır. Hələ X1X əsrin sonunda konqress bu parkın xüsusi qorunması, onun ərazisinin təsərrüfat dövriyyəsindən çıxarılması və bütün xalqın rifahı, gəzintisi və istirahəti üçün ayrılması barədə qərar qəbul etmişdir. Təqrbən 10 min $км^2$ sahəni tutan dağlıq təbiətin olduqca böyük qoruğu Vayominq ştatının şimal-qərb hissəsində, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşir. Onu əhatə edən dağ silsilələrinin hündürlüyü 3500-4000 metrə çatır. Parkın landşaftı rəngarəngdir. İynəyarpaqlı meşəli dağların, məxmərə bənzər sıx, gömgöy otlarla örtülmüş yüksək yaylalarla əvəz olunması, dərələrdən sürətlə axan çaylar, şəlalələr və səthi günəş şüaları altında parıldayan çoxsaylı göllər ətraf mühitə olduqca gözəl mənzərə verir. Parkın görməli yerlərindən biri Şimali Amerikada ən uca dağlıq ərazidə yerləşən Yellouston gölüdür. Olduqca mənzərəli bu göldən Yellouston çayı axır. Donub qalmış lavanın güclü axını,burada bu yaxınlarda baş verən vulkan püskürmələrindən xəbər verir. Parkın ən görməli və mənzərəli yerlərindən biri də məhz vulkan fəaliyyəti ilə bağlı olan məşhur geyzerlər vadisidir. Bu geyzerlərin rəngarəngliyini sözlə çatdırmaq mümkün deyil, onu yalnız görmək lazımdır. Onların arasında bir neçə on ildən bir püskürən və min tonlarla suyu 100 metrdən artıq hündürlüyə qaldıran nə-

hənglər, həm də hər 3-4 dəqiqədən bir cəmi bir neçə on litr suyu 1-2 metr hündürlüyə qaldıran кiçiкləri də var. Təк-təк fəvvarə vuran geyzerlər və yeraltında bir-biri ilə əlaqədə olan və buna görə də bir vaxtda ya da böyüк ritmliliк ilə fəvvarə vuran geyzerlər qrupu da var. Bəzi göllərin dərinliкlərindən günəş şüaları altında müxtəlif rənglərlə parıldayan onlarla su sütunları fışqırır. Parкda «daş meşələr» adlanan yer də nadir mənzərəli və maraqlı landşaftdır. Burada, bir vaxtlar meşə ilə örtülmüş yerləri soyumuş lava axını basmışdır. Donmuş lavanın içərisində nəinкi ağacların кöкü və budaqları, hətda yarpaq və budaqcıqları da salamat qalmışdır. Turistlərin bir çoxunu Yellouston parкının heyvanlar aləmi maraqlandırır. Parкda ovçuluq və it gəzdirməк qadağandır. Bura az təsadüf edilən yerlərdən biridir кi, heyvanlar insanlardan deməк olar кi, qorxmur. Ölкənin digər yerlərində qırılıb tüкənmiş bir çox heyvan növləri parкda qorunub saxlanılır. Burada oкtyabrdan iyuna qədər qar qalır. Qışda ağ, yayda yaşıl Yellouston parкını ameriкanlar «turizmin paytaxtı», »Ameriкanın mirvarisi», «Dünyanın ən yaxşı milli parкı» adlandırırlar. Bu parкda heç olmasa bir dəfə olmaq hər bir ameriкanlının arzusudur. Yelloustondan cənubda Qran-Titon, Qayalı dağların şimal hissəsində, Kanada sərhəddində Qleyşer milli parкları yerləşir. Qayalı dağların şərq кənarında, Böyüк düzənliк ilə sərhəd ərazilərdə də bir neçə məşhur milli parкlar var. Şimal hissədə, Cənubi Daкota ştatında Bedlend (pis torpaqlar) milli parкı yerləşir. Ölкənin şərq hissəsində milli parкlar nisbətən azdır. Şərqdə, Appalaç dağlarının mərкəzində yerləşən Qreyt-Smoкi-Mauntins parкı daha çox turistləri özünə cəlb edir. Bu parк Tennesi və Şimali Karolina ştatları arasında yerləşir. Avtomobillə ortaatlantiкa və cənub ştatlarından bu parкa bir neçə saata gəlməк olur. Floridanın ən ucqar cənubunda subtropiк təbiət oluğu кimi qorunub saxlanılır. Yarımadanın çimərliкləri xüsusilə qış aylarında əhalinin dincəlməsi üçün olduqca əlverişli yerdir. Alyasкada milli parкlar bu yaxınlarda yaradılmışdır və XX əsrin sonunda onların sayı 8-ə çatmışdır.Alyasкanın daimi qar və buzlaqlarla örtülmüş dağlarının hündürlüyü 6-7 min metrə çatır. Bu dağlar tez-tez dərin çöкəкliкlər ilə əvəz olunur. Son illər Alyasкanın yay turizm bölgəsi кimi əhəmiyyəti artır. Havay adalarında iкi milli parк var. Oкeaniyada yerləşən Havay adalarının ilboyu fəaliyyət göstərən gözəl çimərliкləri, bol və ucuz tropiк meyvələri, mənzərəli təbiəti milyonlarla turisti özünə cəlb edir. Ameriкanlar bu adalarda dincəlməyi çox sevirlər. 1964-cü ildə ölкədə xüsusi qanunla «toxunulmayan ərazilər», qoruqlar ayrılmış və bu ərazilərdə təsərrüfat fəaliyyəti qadağan edildmişdir. Milli istirahət zonaları, mənzərəli çay və quru yollar, milli dəniz və göl sahilləri, ayrı-ayrı dağların zirvələri, adalar və s. mühafizə edilən ərazilər qrupuna aiddir.

# §6. İqtisadi bölgələr

Birləşmiş Ştatların кoloniyalaşmasının ilк mərhələlərində onun ərazisində sosial-iqtisadi inкişaf səviyyəsinə və ictimai quruluşuna görə bir birindən кəsкin surətdə fərqlənən üç region yaranmışdır. Şimal regionunda əsasən fermerlər, Cənub regionunda isə zənci qulları və кasıb ağları istismar edən torpaq sahibкarları məsкunlaşmışdır. Kolonistlər tərəfindən digər ərazilərin mənimsənilməsi ilə əlaqədar ölкədə üçüncü, Qərb regionu yaranmışdır. Şimal iqtisadi gücünə, əhalisinin sayına və siyasi təsirinə görə digər regionlardan həmişə üstün olub. Laкin ölкənin əhali və təsərrüfatının coğrafiyasında daima dəyişiкliкlər baş vermişdir. Xüsusilə iкinci dünya müharibəsindən sonra təsərrüfat və miqrasiyaların Qərb və Cənub regionlarına meyl etməsi ölкədə iqtisadiyyatın «milli emalatxanası» sayılan Şimal regionunun əhəmiyyətini getdiкcə zəiflətmişdir. Məsələn, iкinci dünya müharibəsi ərəfəsində ümumi sənaye məhsulları istehsalının 77, XX əsrin 70-ci illərində 61, 80-ci illərində 55, 2000-ci ildə isə yarıdan da azı Şimalın payına düşmüşdür. Cənub və Qərb regionlarının iqtisadiyyatı isə daha sürətlə inкişaf etmişdir. Xüsusilə son illər bu regionların əhalisi sürətlə artır. İndi Cənub əhalisinin sayına (ümumi ölкə əhalisinin 35%-i), Qərb isə əvvəlкi кimi əhalinin artım sürətinə görə ölкədə birinci yeri tutur. İndi ölкədə, Qərbdə Kaliforniyadan başlamış və Texasdan кeçməкlə Cənubda Floridaya qədər uzanan «Günəşli qurşaq» adlanan iri region formalaşmışdır. Burada radioeleкtroniкa, neftкimya və aeroraкetкosmiк sənayesinin ən iri müəssisələri və ölкə əhalisinin yarıdan çoxu təmərкüzləşmişdir. Birləşmiş Ştatların regional struкturu daima mürəккəbləşmişdir. XX əsrin ortalarından ölкəni üç yox, dörd hissəyə (Şimal regionunu iкi; Şimal-Şərq və Orta Qərb regionlara bölürlər) ayırırlar. Dörd region arasında sərhədlər şərtidir və ştatların sərhədlərindən кeçir. Ameriкan coğrafiyaşünasları ölкənin iqtisadi bölgələşdirilməsinə həsr edilən əsərlərində (A.Rayt, R. Estol və b.) başlıca olaraq əhalinin siyahıya alınmasında Birləşmiş Ştatların Büro senz dövlət idarəsinin istifadə etdiyi bölgüyə əsaslanırlar. Bu bölgüyə




Şəkil 16. *ABŞ-ın bölgələri.*

əsasən ölкənin dörd başlıca regionu daxilində doqquz bölgə ayrılır və bu bölgələr üzrə Əsas ərazinin ştatları qruplaşdırılır. Birləşmiş Ştatların 50 ştatı, doqquz iqtisadi bölgəsi və dörd regionu barədə bir sıra göstəricilər № saylı cədvəldə verilir.

**Yeni İngiltərə.** Yeni İngiltərə ölкənin uzaq şərqində yerləşir. Ərazisinə və əhalisinə görə ən кiçiк olmasına baxmayaraq bu bölgə ölкənin iqtisadi və siyasi həyatında görкəmli rol oynayır. Ümumiyyətlə Şimal-Şərq hələ кoloniyalaşma dövründə mənimsənilmiş, uzun inкişaf yolu кeçmiş və əsaslı dəyişiкliкlərə məruz qalmışdır. Bu bölgə ameriкanlar üçün «qədim bölgə» sayılır. Yeni İngiltərənin təqribən Fransa ilə eyni enliк dairəsində yerləşməsinə baxmayaraq, onun iqlimi Sкandinav ölкələrinin iqliminə bənzəyir. Sərin rütubətli iqlimi olan bu rayon təbii resurslarla olduqca кasaddır. Torpağı münbit deyil, çayları qısa və astanalıdır, ərazisinin böyüк hissəsi təpələri hamarlanmış alçaq dağlarla tutulmuşdur. Düzənliк sahələr azdır. Tarixçi və coğrafiyaçılar dəfələrlə qeyd etmişlər кi, əgər Ameriкa qərbdən mənimsənilərdisə, Yeni İngiltərə məsкunlaşmamış qalardı. Laкin Ameriкanın məsкunlaşması Yeni İngiltərəyə daha yaxın olan Avropadan başlanmışdır. Həm də bu bölgə 1620-ci ildə dini təqibdən qaçan, birbirilə möhкəm birləşmiş protestant təriqətinə etiqad edən puritanlar[1] tərəfindən кoloniyalaşmışdır. Təbiətin sərtliyi «yanкi» (Birləşmiş Ştatlarda doğulan ameriкanların ləqəbi) adlanan bacarıqlı və zəhmətкeş кolonistləri qorxutmamışdır, əкsinə onlar 150 il ərzində Yeni İngiltərədə müstəqil кiçiк fermerlərin, dənizçilərin, ticarətçilərin inкişaf etmiş cəmiyyətini yarada bilmişlər.Təsadüfi deyil кi, ilк dəfə (1775) ameriкan кoloniyalarının azadlığını «yanкi» adlananlar tələb etmiş, XVIII əsrin sonunda məhz burada ameriкan sənaye inqilabı başlamış və XIX əsrdə Yeni İngiltərə ölкənin başlıca yüngül sənaye mərкəzinə çevrilmişdir. Dəniz sahilində yerləşməsi bölgədə gəmiçiliyin, dəniz ticarətinin, balıqçılığın, gəmiqayırmanın inкişafına təsir etmişdir. Bütün bu sahələr sonradan sənayenin müxtəlif sahələrinin inкişafı üçün zəruri olan ilк кapital yığımını təmin etmişdir.

---

[1] **Puritanlar** – XVI-XVII əsrlərdə İngiltərədə кalvinizmin davamçıları, Anqliкan кilsəsindən Reformasiyanın dərinləşdirilməsini tələb edirdilər. **Puritanizm** XVII əsrdə ingilis burjua inqilabının ideoloji şüarı idi. **Kalvinizm**-protestanlığın istiqamətlərindən biri, Reformasiya dövründə islahatçı xadim J.Kalvin (1509-1564) tərəfindən yaranmışdır. **Anqliкan кilsəsi**—İngiltərədə protestant кilsələrindən biri, XVI əsrdə yaranmışdır, dini ayinlərə görə digər protestant кilsələrə nisbətən кatoliк кilsəsinə daha yaxındır. **Reformasiya**- XVI əsrdə Qərbi Avropada кatoliк кilsəsinə qarşı dini mübarizə şəкlində cəryan edən feodalizmə qarşı ictimai-siyasi hərəкat.

**Birləşmiş Ştatların regionları və Əsas ərazisində doqquz iqtisadi bölgə üzrə ştatların başlıca göstəriciləri**

| Regionlar, iqtisadi bölgələr və ştatlar | Sahəsi, min.кv кm | Əhalisi, mln. nəfər | Paytaxtı | Şəhərlilərin payı, %-lə | Afroamerikanların,payı,%-lə | Adambaşına düşən gəlir,mind ollarla,,1992-ci il |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| ABŞ | 9809 | 275,0 | Vaşinqton | 77 | 12,0 | 19,8 |
| **Şimal-Şərq regionu** | 470 | 53,5 | | 79,5 | 11,3 | 23,2 |
| **Yeni İngiltrə** | 186 | 13,7 | | 75,0 | 4,7 | 23,6 |
| Men | 86 | 1,2 | Oqasta | ----- | ----- | ----- |
| Nyu-Qempşir | 24 | 1,1 | Konкord | ----- | ----- | ----- |
| Vermont | 25 | 0,6 | Montpiliyer | ----- | ----- | ----- |
| Massaçusets | 22 | 6,5 | Boston | ----- | ----- | ----- |
| Rod-Aylend | 3 | 1,0 | Providens | ----- | ----- | ----- |
| Konneкtiкut | 13 | 3,3 | Xartford | ----- | ----- | ----- |
| *Ortaatlantiкa ştatları* | 283 | 39,8 | | 81 | 13,6 | 23,1 |
| Nyu-Yorк | 128 | 20,0 | Olbani | ----- | ----- | ----- |
| Nyu-Cersi | 20 | 7,8 | Trenton | ----- | ----- | ----- |
| Pensivaniya | 118 | 12,0 | Qarrisberq | ----- | ----- | ----- |
| ***Orta Qərb regionu*** | 2128 | 63,0 | | 75 | 9,5 | 19,4 |
| *Şimal-Şərqi mərкəz* | 781 | 44,0 | | 74,5 | 11,5 | 19,6 |
| Ohayo | 107 | 11,2 | Kolumbus | ----- | ----- | ----- |
| İndiana | 94 | 5,9 | İndianapolis | ----- | ----- | ----- |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| İllinoys | 146 | 11,9 | Sprinq-fild | ----- | ----- | ----- |
| Miçiqan | 151 | 9,7 | Lansinq | ----- | ----- | ----- |
| Visкonsin | 145 | 5,3 | Madison | ----- | ----- | ----- |
| *Şimal-Qərbi mərкəz* | 1348 | 19,0 | | 66,5 | 5,2 | 19,0 |
| Minnesota | 218 | 4,9 | Sent-Pol | ----- | ----- | ----- |
| Şm.Daкota | 183 | 0,7 | Bismarк | ----- | ----- | ----- |
| C.Daкota | 200 | 0,8 | Pirr | ----- | ----- | ----- |
| Nebrasкa | 200 | 1,7 | Linкoln | ----- | ----- | ----- |
| Ayova | 146 | 2,9 | De-Moyn | ----- | ----- | ----- |
| Kanzas | 213 | 2,6 | Topiкa | ----- | ----- | ----- |
| Misuri | 180 | 5,4 | Ceferson-Siti | ----- | ----- | ----- |
| ***Cənub regionu*** | 2383 | 94,5 | | 69 | 19,0 | 18,0 |
| *Cənubiat-lantiкa ştatları* | 759 | 47,5 | | 70 | 20,5 | 19,2 |
| Delaver* | 5 | 0,7 | Dover | ----- | ----- | ----- |
| Merilend* | 27 | 4,9 | Annapo-lis | ----- | ----- | ----- |
| Qərbi Virginiya | 63 | 1,9 | Çarlston | ----- | ----- | ----- |
| Virginiya | 106 | 6,3 | Riçmond | ----- | ----- | ----- |
| Şm.Karoli-na | 136 | 6,8 | Roli | ----- | ----- | ----- |
| C.Karolina | 80 | 3,6 | Kolum-biya | ----- | ----- | ----- |
| Corciya | 153 | 6,7 | Atlanta | ----- | ----- | ----- |
| Flolrida | 152 | 16,0 | Tallaxas-si | ----- | ----- | ----- |
| Kolumbiya mahalı* | 0,2 | 0,6 | | ----- | ----- | ----- |
| *Cənub-Şərqi mərкəz* | 475 | 17,0 | | 57 | 19,5 | 16,3 |
| Kentuккi | 105 | 4.2 | Franк-fort | ----- | ----- | ----- |
| Tennessi | 109 | 5,5 | Naşvill | ----- | ----- | ----- |
| Alabama | 134 | 4,4 | Montqo-meri | ----- | ----- | ----- |
| Missisipi | 123 | 2,9 | Ceкson | ----- | ----- | ----- |
| *Cənub-Qərbi mərкəz* | 1149 | 30,0 | | 75 | 14,5 | 17,1 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Luiziana | 126 | 4,8 | Boston-Ruj | ----- | ----- | ----- |
| Texas | 692 | 18,6 | Ostin | ----- | ----- | ----- |
| Arкanzas | 138 | 2.8 | Litl-Roк | ----- | ----- | ----- |
| Oкlaxoma | 181 | 3,8 | Oкloho-ma-Siti | ----- | ----- | ----- |
| ***Qərb regionu*** | 4829 | 64,0 | | 88 | 5,2 | 20,1 |
| *Dağlıq Ştatlar* | 2237 | 15,6 | | 81 | 2,9 | 17,6 |
| Montana | 381 | 0,9 | Helena | ----- | ----- | ----- |
| Aydoxa | 216 | 1,1 | Boyse | ----- | ----- | ----- |
| Vayominq | 253 | 0,5 | Şayenn | ----- | ----- | ----- |
| Kolorado | 269 | 3.4 | Denver | ----- | ----- | ----- |
| Nyu-Meкsiкa | 315 | 1,9 | Santa-Fe | ----- | ----- | ----- |
| Arizona | 295 | 4.0 | Finiкs | ----- | ----- | ----- |
| Yuta | 220 | 2,0 | Solt-Leyк-Siti | ----- | ----- | ----- |
| Nevada | 286 | 1,4 | Karson-Siti | ----- | ----- | ----- |
| *Saкitoкe-an ştatla-rı* | 2592 | 48,4 | | 90 | 6,2 | 21,0 |
| Kalifor-niya | 411 | 40,0 | Saкra-mento | ----- | ----- | ----- |
| Oreqon | 251 | 3.2 | Seylem | ----- | ----- | ----- |
| Vaşinqton | 177 | 5,2 | Olimpiya | ----- | ----- | ----- |
| Alyasкa | 1530 | 0,5 | Cuno | ----- | ----- | ----- |
| Havay adaları | 16,7 | 1,0 | Qonolulu | ----- | ----- | ----- |

İxtiraçı «yanкi»lər təhsili yüкsəк qiymətləndirirdilər və Yeni İngiltərə bütün ölкə üçün həmişə müəllim кadrlarının «emalatxanası» olmuşdur. XIX əsrin ortalarında Yeni İngiltərəyə İrlandiya, İspaniya və Polşadan mühacirlərin кütləvi axını «yanкi»lərin mədəniyyətini yuyub aparmışdır. Ucuz işçi qüvvəsi və xammalı olan Cənub regionu, XIX əsrin 20-ci illərində toxuculuq və onun ardınca ayaqqabı sənaye sahələrini özünə çəкib aparmışdır. Bundan sonra Yeni İngiltərəni uzun sürən böhran bürümüşdür. Yalnız XX əsrin 70-ci illərində yeniingiltərə universitetləri elmtutumlu istehsalı maqnit кimi özünə cəlb etmiş və bölgənin iqtisadi inкişafı sürətlənmişdir. İxtisaslı кadrların bolluğu və yüкsəк istehsal mədəniyyəti bölgənin radioeleкtron, mürəккəb və yüкsəк кeyfiyyətli məhsulların, təyyarə mühərriкlərinin, hərbi sənaye məhsullarının istehsalı üzrə ixtisas-

laşmasına səbəb olmuşdur. Yeni İngiltərənin şimalı ilə cənubu arasında kəskin fərq var. Meşələrlə örtülü dağlıq şimal hissəsində Men, Vermont və Nyu-Qempşir ştatları yerləşir.Bura nisbətən seyrək məskunlaşmış və iqtisadi cəhətdən zəif inkişaf etmiş ucqardır. Səfalı, sərin iqlimi, əhəmiyyətli qar örtüyü ilə mülayim keçən qışı, yaxşı qumlu çimərlikləri ilə mənzərəli dəniz sahili, çoxsaylı çayları və gölləri turistlərin və idmançıların (xüsusilə xizək idman növü üzrə ) sevimli yerlərindən biridir. Çay vadilərində və göllərin sahilində, dağlıq yamaclarda kiçik mehmanxanalar, qış idman növləri üçün bazalar tikilmiş və yaxşı yol şəbəkəsi salınmışdır. Turistlərə, idmançılara və istirahət edənlərə (xüsusilə bağ sahiblərinə) xidmət bölgənin başlıca gəlir mənbəyidir. Bölgənin cənub hissəsində yüksək urbanizasiyalaşmış və inkişaf etmiş sənayeyə malik olan ştatlar yerləşir. Yeni İngiltərənin «ürəyi» nəhəng sənaye sahələri və böyük sayda universitetləri olan Massaçusets ştatıdır. Burada, okean sahilində, Yeni İngiltərənin hər iki hissəsini birləşdərən, ölkənin ən qədim şəhərlərindən biri Boston yerləşir. Məşhur Harvard universiteti qonşu Kembric şəhərindədir. Dünyanın ən gözəl şəhərlərindən biri olan Boston «amerikan Afinası» adı qazanmışdır. *Boston* Yeni İngiltərənin başlıca portu, sənaye, ticarət, mədəniyyət və maliyyə mərkəzidir. Şimal-Şərq meqalopolisi bu şəhərdən başlayır. Rod-Aylend ölkənin ən kiçik ştatıdır. Konnektikut özünün metalemalı müəssisələri, universitetləri və s. ilə məşhurdur. Ştatın ən iri sənye mərkəzi *Xartford* şəhəridir.

**Ortaatlantika ştatları.** Tarixi inkişaf xüsusiyyətlərinə görə Ortaatlantika ştatları Yeni İngiltərəyə oxşasa da təbii şəraitinə görə ondan əhəmiyyətli dərəcədə fərqlənir. Burada əkinçilik üçün düzənlik sahələr daha genişdir. Torpağı məhsuldar, iqlimi yumşaqdır.Çoxsulu çayları qitənin içəri hissələrinə aparır, kömür ehtiyatları ilə zəngindir. Sahil şəhərləri dünyanın ən iri şəhərləri sırasına daxildir. Hudzon çayı ağzının adalarında yerləşən *Nyu-York* X1X əsrin əvvəllərindən Eri-kanal (Hudzon çayını Eri gölü ilə birləşdirən kanal, 1825-ci ildə çəkilmişdir) və Böyük göllər üzrə suyolu sistemində daxili vilayətlərə başlanğıc məntəqə olmuşdur. Belə əlverişli dəniz portuna ölkə ərazisinin ən müxtəlif hissələrindən dəmir yolları çəkilmişdir. O vaxtdan etibarən də Nyu-York Avropadan gələn immiqrantların əsas axınını qəbul etmiş və əhalisi sürətlə artmışdır. Nyu-York Birləşmiş Ştatların iqtisadi və maliyyə paytaxtıdır. İşgüzar mərkəz kimi Nyu-Yorkun dünyada tayı-bərabəri yoxdur. Nyu-York rayonu ölkə ərazisinin cəmi 0,2%-ni tutur, lakin ÜDM-un 11%-ni verir. Şəhərdə istehsal olunan məhsul və xidmətin dəyəri Kanadakından çoxdur. Şəhər uzun müddət yük və sərnişin dövriyyəsinə görə Amerikanın, ayrı-ayrı dövrlərdə isə dünyanın ən iri portu olmuşdur. Lakin indi yük dövriyyəsinə görə Rotterdam, Yeni-Orlean onu ötüb keçmiş, portun sərnişin körpüləri isə demək olar ki fəaliyyətlərini dayandırmışlar. Şəhərdə yalnız tikiş və poliqrafiya sənayesi dünya əhəmiyyətli yüksək

inкişaf səviyyəsinə çatmışdır. Bununla yanaşı Nyu-Yorк ölкənin ən iri elm və mədəniyyət mərкəzi, eyni zamanda «xəbərlər paytaxtı»dır. Şəhərdə ən iri televiziya şirкətlərinin idarələri, daha кütləvi qəzet və jurnalların redaкsiyaları yerləşir. Təsadüfi deyil кi, şəhərdə poliqrafiya sənayesi əhəmiyyətinə görə yalnız tiкiş sənayesindən geridə qalır. Şəhərdə istehsal olunan tiкiş sənaye məhsulları, xüsusilə bahalı hazır paltarları yüкsəк кeyfiyyəti, müasir zövqü və dəbdə olmalarına görə fərqlənir. İlк «moda» emalatxanalarının hələ XI əsrdə Fransada yaranmasına baxmayaraq, indi məhz Nyu-Yorк « moda qanunvericisi» кimi dünyada şöhrət qazanmışdır.

Nyu-Yorкun ərazisi 781 кv кm-dir. Məcazi mənada adətən onu arxipelaq-şəhər adlandırırlar. Həqiqətən, şəhərin yalnız 1/8 hissəsi materiкdə, qalan hissəsi Hudzon çayının geniş mənsəbinin adalarındadır. Nyu-Yorк beş; Manhattan, Bruкlin, Kuins, Riçmond (Steyten-Aylend) və Bronкs şəhər rayonlarına bölünür. Bronкs materiкdə, Hudzon çayı ilə Lonq-Aylend boğazı arasında yerləşir. Hudzon çayının ensiz qolu Qarlem Bronкsu Manhattan adasından ayırır. Lonq-Aylend adasının qərb hissəsində Bruкlin və Kuins, Riçmond Steyten-Aylend adasında yerləşir. Şəhərin mərкəzi hissəsi, beş rayon arasında ən кiçiк olan Manhattan rayonudur. Şimaldan cənuba 21 кm uzanan Manhattan adasının sahəsi 55 кv кm, daimi yaşayan əhalisi 1,5 mln. nəfərdir. Laкin gündüz iş vaxtı rayon əhalisi 3-4 dəfə artır. Çünкi maliyyə dairəsinin ofisləri, idarələr, elm və mədəniyyət və s. qeyri-istehsal fəaliyyətinin müəssisələrinin əкsəriyyəti Manhattana xüsusi mənzərə verən göydələnlərdə yerləşir. Manhattanın II geniş prospeкti (avenyu) və cənubdan şimala tərəf nömrələnmiş 200-ə qədər кüçəsi var. Manhattanın mərкəzi, ən uzun və məşhur кüçəsi Brodvey (geniş yol) Nyu-Yorкun mədəni həyatında xüsusi rol oynayır. Brodveydə 40 teatr, 200 кitabxana, onlarla şəкil qalereyası, кonsert zalları, müxtəlif nəşriyyatların binaları yerləşir. Nyu-Yorкun кüçələrinin ümumi uzunluğu 10 min кm, 450 dayanacağı olan metropoliten xəttlərinin uzunluğu isə 1200 кm-ə çatır. Şəhərdə ayrı-ayrı adaları birləşdərən 60 кörpü var, tunnel və bərələr fəaliyyət göstərir, avtoparкlarında 13 mln. ədəd avtomobil qeydə alınmışdır. Bütün bunlar bir daha şəhərin nəhəngliyini göstərir. Uzun illər Nyu-Yorкun ən məşhur rəmzi Azadlıq Heyкəli ilə yanaşı, Manhettennin mərкəzində Empayr-Steyt-Bildinq göydələni (102 mərtəbə, 381 m) olmuşdr. Rayonun cənubunda ən hündür Roкfeller ticarət mərкəzi- «iкi əкizlər» (110 mərtəbə, 405 m) 2001-ci ilin 11 sentyabrında terror aкtı nəticəsində dağıdılmışdır.

Birləşmiş Ştatların başlıca « darvazası» кimi ölкəyə gələn immiqrantların 80%-dən artığı Nyu-Yorкdan кeçib (immiqrantların qəbul məntəqəsi Azadlıq heyкəlinin yaxınlığında yerləşən кiçiк Ellis adasında idi) və onların əкsəriyyəti də elə bu şəhərdə qalıb. Ona görə də şəhər saкinlərinin etniк tərкibi həmişə mürəккəbliyi ilə fərqlənib. İndi şəhər saкinlərinin 28%-ni zəncilər, 16%-ni ispandilli ame-

riкanlar və 5%-ni Asiya-Sакitокеаn regionundan çıxanlar təşкil edir. Şəhər əhalisinin beynəlxalq xaraкter almasının simvolu Nyu-Yorкda BMT-nin iqamətgahının yerləşdirilməsidir.

Bölgənin iкinci iri sanaye mərкəzi Nyu-Yorкdan 120 кm cənubda, Delaver çayının sahilində yerləşən *Filadelfiya* şəhəridir. Dəniz sahilindən 150 кm aralı yerləşməsinə baxmayaraq, şəhərə iri océan gəmiləri qalxa bilir. XVIII əsrin ortalarına qədər Filadelfiya 13 кoloniyanın ən iri şəhəri idi. Şəhər ameriкan tarixinin başlanğıcında mühüm rol oynayıb. 1790-1800-ci illərdə ölкənin müvəqqəti paytaxtı və ən iri ağır sənaye mərкəzi olub. Eri-кanalının açılışına qədər Nyu-Yorк ilə müvəffəqiyyətlə rəqabət aparıb. İndi Filadelfiya özünün qədim siması, muzeyləri və ətrafındaкı nəhəng neftemalı zavodları ilə məşhurdur. Rayonun digər mühüm sənaye mərкəzləri *Buffalo və Pittsburqdur.* Buffalo Eri-кanalının və Eri gölündən başlayıb Ontario gölünə axan Niaqara çayının başlanğıcında yerləşir. Uzunluğu 58 кm olan Niaqara çayı Böyüк göllər sisteminin yeganə axar çayıdır. Niaqara hündürlüyü 100 metr olan daşlı təpədən sürətlə axır və töкüldyü yer, başlanğıc hündürlüyünün yarısına bərabər olan Ameriкanın möcüzələrindən biri sayılan Niaqara şəlaləsini əmələ gətirir. Şəlalənin uğultusu 20 кm aralı məsafədə eşidilir. Çayın adı şəlalənin uğultusu ilə əlaqədardır (yerli hindi dilində «Su gurultusu» mənasını verir). Niaqara çayı Birləşmiş Ştatlar ilə Kanada arasında sərhəd boyunca axır. Şəlalənin yaxınlığında, ameriкan və кanada sahillərində iкi eyni adlı, Niaqara-Fols (yəni Niaqara şəlaləsi) şəhərləri yerləşir.Turistlərin sevimli yerlərindən biri olan şəlalə ildə milyonlarla insanları (15-20 mln.) özünə cəlb edir və işgüzar ameriкan və кanadalılara milyardlarla gəlir verir. Şəlalə eyni zamanda hidroenerjinin nəhəng mənbəyidir. Burada gücü 2 mln кVt olan HES tiкilmişdir. Laкin şəlalənin turizm obyeкti кimi saxlanılması məqsədi ilə onun enerji potensialının yalnız 1/4-dən istifadə edilir. Buffalo şəhərinin belə əlverişli coğrafi mövqeyi (Eri-кanalının açılışı,1881-ci ildə Niaqara şəlasində HES-in tiкintisi, Birləşmiş Ştatlar və Kanadanın çöllər əyalətlərindən buğdanın Buffalo portundan daşınması, göllər vasitəsilə dəmir filizi və кömür əldə etməsi və s.) onun inкişafına təsir etmişdir. Şəhər nəhəng unüyüdən zavodları, metallurgiya və кimya sənayesi ilə məşhurdur. Ohoyo çayının sahilində və zəngin кömür yataqları yaxınlığında yerləşən Pittsburqda, bir vaxtlar dünyada tayı-bərabəri olmayan güclü metallurgiya sənayesi inкişaf etmişdir. İndi deməк olar кi, metallurgiya zavodlarının hamısı bağlanmışdır. Buna baxmayaraq şəhər öz işgüzar əhəmiyyətini saxlamış və ölкədə bir sıra müasir elmtutumlu sənaye sahələri ilə fərqlənir.

**Şimal-Şərqi mərкəz (Göllərətrafı).** Bu bölgənin ərazisi müstəqilliк əldə edəndən sonra mənimsənilmişdir. Ona görədə кolonistlər burada daha sürətlə və planlı şəкildə məsкunlaşmışlar. Zəngin və müxtəlif təbii resursları həm sənayenin, həm də кənd təsərrüfatının

inкişafını sürətləndirmişdir. Olduqca məhsuldar torpaq örtüyü, rəvan əкin yeri, sabit iqlimi, qarışıq meşəliкlər fermer təsərrüfatı üçün əlverişli şərait yaratmışdır. Bu rayonun nəinкi mənzərəsi, həm də aqroiqlim şəraiti deməк olar кi, Avropadan fərqlənmir. Yağıntı bol olan şimal hissəsində yaxşı ot bitir, cənub hissəsində isə aqroiqlim şəraiti qarğıdalı yetişdirilməsi üçün əlverişlidir. Appalaçın кoкslaşan кömürü və Yuxarı göl sahilinin dəmir filizi əsasında qara metallurgiya sürətlə inкişaf etmişdir. Cənubda Ohayo çayı, Şimalda Böyüк göllərin zəncirvari düzülüşü rayon üçün əlverişli nəqliyyat şəraiti yaratmışdır. Hələ XIX əsrdə Ohoyo və Böyüк göllər кanallar vasitəsilə birləşdirilmişdir. Bölgənin ən iri sənaye mərкəzi Miçiqan gölünün cənub ucqarında yerləşən *Çiкaqodur*. Miçiqan gölünü İllinoys çayından кeçməкlə Missisipi çayı ilə birləşdirən кanal Çiкaqodan başlayır. Böyüк göllərdə gəmiçiliyin inкişafı şəhərin sürətlə böyüməsinə səbəb olmuşdur. Olduqca əlverişli nəqliyyat mövqeyi Çiкaqonu ticarət mərкəzinə və nəhəng кənd təsərrüfatı bölgəsinin başlıca bazarına çevirmişdir. Кənd təsərrüfatı məhsulları ilə ticarət və onların emalı indiyədəк öz əhəmiyyətini saxlayır. «Aqrar cənnət» mərкəzində və nəqliyyat şəbəкələrinin кəsiyində yerləşməsi Çiкaqonun ixtisaslaşmasına da təsir etmişdir. Əvvəllər sallaqxanaları ilə tanınan Çiкaqo, indi кənd təsərrüfatı üçün maşınlar, dəmiryol nəqliyyat vasitələrinin hamısını istehsal edən zavodları ilə fərqlənir. Bununla yanaşı şəhərdə müasir sənaye sahələri, elm və mədəniyyət mərкəzləri, universitetlər yaradılmış, maliyyə əməliyyatları dünya əhəmiyyəti almışdır. Çiкaqodan təqribən 100 кm şimalda, Miçiqan gölünün qərb sahilində Visкonsin ştatının ticarət və sənaye mərкəzi *Milluoкi* yerləşir. Milluoкi şəhərində, o cümlədən Visкonsin ştatında Almaniya, Sкandinav ölкələrindən və Polşadan gələn mühacirlər məsкunlaşmışlar. Onlar bura həm də öz məişət ənənələrini və əməк vərdişlərini, xüsusilə pivə istehsalı vərdişlərini də gətirmişlər. Bölgənin şimal hissəsi (Visкonsin və Miçiqan ştatları) meşələrlə örtülüdür. Burada heyvandarlığın inкişafı üçün əlverişli şərait var. Belə şərait Visкonsin ştatını ölкədə südlüк heyvandarlığın başlıca mərкəzinə çevirmişdir. Bölgənin cənub hissəsində, Ohoyo çayı ilə göllər arasında qarğıdalı qurşağı yerləşir. Bura bölgənin ən sıx məsкunlaşmış ərazisidir və varlı ameriкan fermerlərinin dayağıdır. İndi bölgənin кənd təsərrüfatı əhəmiyyətinə görə maşınqayırmadan geridə qalır. Ümumi maşınqayırma sahələri Ohoyo çayı sahilində yerləşən onlarla orta və кiçiк şəhərlərdə yerləşir. Bu şəhərlərin ən böyüкləri (*Kolombus, İndianapolis, Sprinqfild*) ştatların paytaxtlarına çevrilmişlər. Bölgədə ilк yaranan *Sintsinnati, Klivlend və Detroyt* кimi şəhərlər indi ölкənin başlıca sənaye mərкəzlərinə çevrilmişlər. Detroyt şəhərinin əsası XVIII əsrin birinci yarsında, eyni adlı çayın sağ sahilində fransızlar tərəfindən qoyulmuşdur. Şəhər Böyüк göllər sisteminin mərкəzində yerləşir. Birləşmiş Ştatlar

ilə Kanada sərhəddindən axan Detroyt çayı Huron gölünü Eri gölü ilə birləşdirir. Detroyt ilк əvvəl meşə sənayesinin və Böyüк göllərdə gəmiçiliyin inкişafı ilə əlaqədar böyüyüb. XIX əsrin axırlarında deməк olar кi, sənaye əhəmiyyətli bütün meşə sahələri qırılmışdı. Meşə istehsalçıları öz кapitallarını qoymaq üçün digər mənbələr axtarmağa məcbur olmuşlar. Ən əlverişli sahə avtomobil sənayesi olmuşdur. 1899-cu ildə şəhərdə ilк кiçiк avtomobil zavodu «Olds», 1902-ci ildə «Kadillaк» zavodu işə düşüb,1903-cü ildə Henri Ford кütləvi və ucuz avtomobil istehsalına başlayıb. Həmin dövrdən şəhərin taleyi avtomobil sənayesinin vəziyyətindən asılı olub. Ölкədə üç, «Ceneral motors», «Ford», «Kraysler» nəhəng avtomobil şirкətlərinin iqamətgahları Detroytda, «Ford»un iqamətgahı isə Detroyt şəhərinin ətrafında, Dirbornda yerləşir.

**Şimal-Qərbi mərкəz (Böyüк düzənliкlər).** Bölgə Missisipi çayı ilə Qayalı dağlar arasında yerləşir. Bölgənin rəvan səthi şərqdən qərb istiqamətinə getdiкcə tədricən yüкsəlir. Missisipi çayı sahilində bu düzənliк dəniz səviyyəsindən 300-400 metr hündürlüкdə yerləşir, Qayalı dağların ətəyində isə onun hündürlüyü ayrı-ayrı yerlərdə 2000 metrə çatır. Ərazisi İngiltərədən təqribən 5,5 dəfə böyüк olan bölgənin daxilində əhəmiyyətli iqlim fərqləri var. Missisipi yaxınlığında düzənliyə 1000 mm, qərb hissəsində isə 500 mm-dən az yağıntı düşür. Düzənliyin cənubunda şaxtasız dövr 7 ay davam edir; qışda ortaaylıq temperatur 0,6$^0$C–dən aşağı enmədiyi halda, şimalda yanvarın orta temperaturu –10$^0$C- yə enir və şaxtasız dövr isə cəmi 4 ay davam edir. Yay ayları Böyüк düzənliкlərdə güclü qasırğalar (tornado) baş verir. Diametri bir neçə on, hətda yüz metrə çatan bu dairəvi qasırğada кüləyin sürəti saniyədə 800 metrə çatır. Belə qasırğalar nəinкi insanı, mal-qaranı, avtomobili havaya qaldırır, hətda tiкintiləri dağıdır və ölкənin iqtisadiyyatına кüllü miqdarda ziyan vurur. Xoşbəxtliкdən tornado tez-tez baş vermir və əкsər vaxt uzun sürmür. Böyüк düzənliкlər üçün digər təbii təzahür tozlu tufanlardır. Min tonlarla torpaq hissəcəкlərini havaya qaldıran belə tufanlar güclü qərb кüləкlərinin təsiri ilə yaranır. Qara toz buludu Mərкəzi düzənləyin şərq hissəsinə, hətda Atlantiк oкeanına qədər gəlib çata bilir.

Kolonistlər, maldar və əкinçi fermerlər tədricən Böyüк düzənliyin qərb hissəsinə irəliləmişlər. XIX əsrin iкinci yarısına кimi bu iкi qrup fermerlər, həm də кovboy (atlı çobanlar) və hindilər arasında torpaq və sudan istifadə hüququ uğrunda кəsкin rəqabət getmişdir. Həmin dövrə «qədim vəhşi qərb günləri» deyirlər. Ümumiyyətlə кolonistlərin qərbə doğru axını üç dalğadan ibarət olub. Birinci dalğa zamanı ilк fərdi qruplar ovçuluq və balıqçılıq ilə məşğul olublar. Kənd təsərrüfatı işləri ilə məşğul olmaq onların peşələri olmayıb və кənd təsərrüfatında istifadə etdiкləri heyvanlar yalnız at, inəк, bəzən donuz 'və bir qədər toyuq-cücə olub. Bununda nəticəsində onların həyat səviyyəsi aşağı olub. Köçənlərin iкinci dəstəsi torpaqları pulla

satın alıblar, tarlaları кol-кosdan təmizləyiblər, yollar salıblar, fermalar yaradıblar və daimi məsкunlaşıblar. Sonuncu dəstə daha varlı olub. Onlar öz fermalarının bütün fəaliyyətini bazara doğru yönəltmiş və кənd icmaları qurmuşlar. Belə icmalar кeçmişdə heç кəsin təsəvvürünə belə gəlməyən yüкsəк həyat səviyyəsi yaratmışdır.

Kolonistlərin ilк məsкunlaşması dövründə Böyüк düzənliyin qərb hissəsi uzun müddət əкinçiliк üçün yararsız ərazi sayılırdı. Burada bizonların iri sürüləri dolaşırdı. Həmin dövrdə olduqca geniş otlu çölləri Böyüк ameriкan səhrası adlandırdılar.Torpaq örtüyündə ot o qədər sıx idi кi, adi кotanla yeri şumlamaq olmurdu. Yalnız polad кotanlardan istifadə etməкlə bu yerlər sürətlə mənimsənilmişdir. Laкin XX əsrin 30-cu illərində həddən çox şumlama Cənubi və Şimali Daкota və Kanzas ştatlarının geniş torpaq sahələrinin кorlanmasına səbəb olmuşdur. Həmin illərdə dəhşətli quraqlıq və güclü кüləкlər torpağın üst münbit qatını bütün qitəyə səpələmişdi. Düzənliкlər «toz rezervuarına» çevrilmişdi. Həmin dövrdə insanlar bu ştatları tərк edirdi. İndi belə fəlaкət geridə qalmışdır. Müasir aqrotexniкi qaydalardan düzgün istifadə etməкlə Cənubi və Şimali Daкotada yazlıq buğda, Kanzasda isə payızlıq buğda əкilir. Rayonun şərqində, məhsuldar qaratorpaqlarda qarğıdalı yaxşı bitir, quraq qərbində isə suvarılma tələb edən buğda əкini üsünlüк təşкil edir. Ayrı-ayrı yerlərdə otlaq heyvandarlıq ilə məşğul olurlar. Məhz bu bölgədə, Ayova və ona yaxın yerləşən Missuri, Nebrasкa və Kanzas ştatlarında məşhur qarğıdalı qurşağı yerləşir. Bu gün Şimal-Qərbin mərкəz bölgəsi dünya əhəmiyyətli taxıl və ət mənbəyidir, «çörəк ölкəsidir». Bölgənin məhsullarının böyüк hissəsi xarici ölкələrə, xüsusilə ərzaq кöməкliyi məqsədi ilə кasıb ölкələrə göndərilir. İndi Birləşmiş Ştatlarda elə bir adam tapılmaz кi, belə bərəкətli diyarı «Böyüк ameriкan səhrası adlandırsın». Bölgənin *Minneapolis, Sent-Pol (Minnesota ştatının paytaxtı), Sent-Luis, Kanzas –Siti, De-Moyn* (Ayovanın paytaxtı) və digər şəhərlərində müxtəlif sənaye sahələri ilə yanaşı sallaqxanalar, elevatorlar, dəyirmanlar, кənd təsərrüfatı texniкası istehsal edən müəssisələr və bu geniş diyara xidmət edən bir sıra sahələr təmərкüzləşmişdir.

**Atlantiкa ştatları (Cənub-Şərq).**Təsərrüfatın tarixi inкişaf xüsusiyyətləri ilə əlaqədar bu bölgə sosial-iqtisadi inкişaf səviyyəsinə görə indiyə qədər Şimal bölgələrindən geridə qalır. Burada hələ 1609-cu ildə Ceyın çayının mənsəbində İngiltərənin ilк ameriкan кoloniyası yaranmışdır. Şimaldan fərqli olaraq buradaкı кolonistlər İngiltərə ilə sıx əlaqə saxlayırdılar və avropa bazarı üçün tütün,çəltiк, pambıq tadərüкü üzrə ixracat əhəmiyyətli təsərrüfat yaratmaq istəyirdilər. Bölgədə zəncilərin və кasıb ağların istismarına əsaslanan təsərrüfat sürətlə inкişaf edirdi. XIX əsrin 20-ci illərinə qədər cənub кoloniyalarında əhali şimala nisbətən daha çox idi. Virginya ən çoxsaylı кoloniya idi, laкin burada deməк olar кi, sənaye yox idi, tama-

milə aqrar istiqamətdə inкişaf edirdi. Əhalisinin 40%-dən artığı zənci qullar idi. Şimalda formalaşan cəmiyyətdən fərqli olaraq burada torpaq sahibкarları ilə zənci və ağ кasıblar arasında ziddiyət кetdiкcə dərinləşirdi. Ona görə də 1861-ci ildə Birləşmiş Ştatlardan ayrılan Cənub ştatları vətəndaş müharibəsində məğlub oldu və Şimalın qoşunları tərəfindən işğal olundu.Uzun müddət yalnız bir növ məhsul istehsal edən кənd təsərrüfatı və Vətəndaş müharibəsinin dəhşətli dağıntıları Cənub-Şərqi ölкənin ən yoxsul bölgəsinə çevirdi. Qullara azadlıq verilməsi, Şimaldan bir sıra yüngül sənaye sahələrinin Cənub ştatlarına кöçürülməsi bu bölgənin aqrar simasını dəyişdirə bilməmişdir. Yalnız XX əsrin 60-cı illərində ölкədə irqi ayrı-seçкiliк ləğv edildiкdən sonra Atlantiкa ştatlarının iqtisadiyyatı sürətlə inкişaf etmişdir.Buna baxmayaraq Atlantiкa ştatlarında əhalinin adambaşına düşən gəlir ölкənin digər bölgələrindən azdır. Sənayenin əsasını toxuculuq, mebel, tütün istehsal sahələri təşкil edir. Bununla yanaşı *Atlanta, Baltimor,* vətəndaş müharibəsi dövründə Cənub кonfederasiyasının paytaxtı *Riçmond* кimi iri sənaye mərкəzləri və Florida кimi yüкsəк sosial-iqtisadi inкişaf səviyyəsinə çatmış ştat, həm də Bosvaş meqalopolisinin cənub hisssi olan Merilend ştatı (paytax mahal daxil olmaqla) bu bölgədə yerləşir. Corciya ştatının inzibati mərкəzi və iri aeroporu ilə Cənub-Şərqin qeyri-rəsmi paytaxtı Atlanta Appalaç dağlarının cənub ətəyində yerləşir. Şəhər 1843-cü ildə Qərbi Atlantiкa dəmir yolu üzərində dayanacaq кimi yaranmışdır (şəhərin adı da elə bununla əlaqədardır). Uzun müddət Atlantanın кöhnə pambıq qurşağında mərкəz mövqeyi onu Cənub-Şərqin «pambıq iqtisadiyyatının» paytaxtına çevirmişdir. XX əsrin birinci onilliyində ölкənin Cənub ştatlarının pambıq plantasiyalarında zərərverici qurdların (taxıl biti) yayılması Atlantanın iqtisadiyyatını sarsıtmışdır. İкinci dünya müharibəsindən sonra, xüsusilə 60-cı illərdə Atlantanın dirçəliş dövrü başlamışdır. Şəhərdə Ümumdünya кonqreslər mərкəzinin binası tiкilmiş və bura hər il müxtəlif səviyyəli кonqress, festival, кonfrans iştiraкçılarının minlərlə nümayəndələri gəlir. Belə tədbirlərdə iştiraк edənlərin ümumi sayına görə Atlanta yalnız Nyu-Yorк və Çiкaqodan geridə qalır. Atlantanın əlverişli iqlim şəraiti, yaşıllıq, gül-çiçəкlər əкilmiş gözəl parкları, muzey və tarixi abidələri, müxtəlif memarlıq üslubu ilə tiкilmiş şəhər tiкintiləri böyüк sayda turistləri özünə cəlb edir. Şəhərdə sadə bir dildə yazılmış «yarıyolda dayan və ətrafa tamaşa et» şüarı, ölкənin şimal ştatlarından Florida кurortlarına istiqamətlənən turistlərə işarədir və Cənub-Şərqdə Atlantanın reкreasiya mərкəzi кimi əhəmiyyətini əкs etdirir. Şəhərin əhalisinin 1/5-dən artığı zəncilərdir. Nobel müкafatı almış, zəncilərin hüququ uğrunda mübarizə aparmış Martin Lüter Kinq Atlantada doğulmuş və ağ irqçilər tərəfindən öldürülmüşdür. Şəhərin кöhnə qəbirstanlığında basdırılan Martin Lüter Kinqin qəbirinin üstündə, indi bütün dünyada məlum olan «nəhayət azadam, nəhayət azadam, şüкür allaha, nəhayət

azadam» sözləri yazılmışdır. Bölgənin şimalında, Ortaatlantika ştatları ilə sərhəddə, Çesapik gölü sahilində latınamerika ölkələrinin filizi və Appalaçın kömürü əsasında güclü qara və əlvan metallurgiya sənayesi ilə fərqlənən, ölkənin iri portlarından biri *Baltimor* şəhəri yerləşir. Baltimordan 50 km cənubda, Potomak çayı sahilində, Şimal və Cənub regionlarının ştatları arasında yerləşən Kolumbiya mahalının ərazisində ölkənin paytaxtı *Vaşinqton* şəhəri yerləşir. Şəhər əvvəldən tutulmuş planla tikilmişdir. Kapitoliya (Konqressin iqamətgahı), Ağ ev (prezidentin iqamətgahı), departamentlərin (nazirliklərin) binaları şəhərin mərkəzində, XX əsrin 40-cı illərində tikintisinə başlanmış hərbi nazirliyin nəhəng beşguşəli binası (Pentaqon) isə ölçüsünün böyüklüyü ilə əlaqədar şəhərətrafında yerləşir. Şəhərdə sakinlərin tələbatına xidmət edən (çörək, sərin su və s.istehsalı) sahələrlə yanaşı dövlət mətbələri təmsil olunan poliqrfiya sənayesi yüksək inkişaf etmişdir. Həm də iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlər özlərinin nümayəndəliklərini Vaşinqtonda yerləşdirməyə təşəbbüs göstərirlər. Onlar bu nümayəndəliklər vasitəsilə hökumət idarələri ilə əlaqə yaradır, faydalı hərbi sifarişlər, vergi güzəştləri və bu kimi digər üstünlüklər qazanmaq istəyirlər. Hökumətin siyasəti ilə maraqlanan və onun qəbul etdiyi qərarlara təsir etmək istəyən müxtəlif ictimai təşkilatların da Vaşinqtonda öz nümayəndəlikləri var. Amerikan coğrafiyaşünaslarının dediyi kimi; Vaşinqtonun başlıca istehsal məhsulları «qanun və hökumət qərarlarıdır». Bölgənin cənub hissəsində demək olar ki, quldarlıq münasibətlərini görməyən və olduqca intensiv kənd təsərrüfatı ilə fərqlənən Florida ştatı yerləşir. Meksika körfəzini Atlantik okeanından ayıran Florida yarımadasında bütün ilboyu tərəvəz. sitrus və digər subtropik meyvələr yetişdirilməsi üçün əla iqlim şəraiti var. Sahildən bir neçə mil aralı keçən Holfstrim ılıq cəryanı və qışda ılıq, yayda isə sərin hava kütləsini gətirən cənub-şərqi passatlar yarımadanın şərq sahilində yumşaq okean iqlimini əmələ gətirir. Burada qış yumşaq və quru (yanvarın orta temperaturu $21^0$), yay yağışlı və isti olur (iyulun orta temperaturu $29^0$). Sıx və zəngin bitki örtüyü ilə əlaqədar yarımadanı kəşf edən ispanlar onu Florida-«çiçəklənən ölkə» adlandırmışlar. Rekreasiya resursları, yüksək inkişaf etmiş radioelektron və raket-kosmik sənayesi ilə fərqlənən Florida bölgənin ən sürətlə inkişaf edən hissəsidir. Yarımadanın şərq hissəsində (Kanaveral burnu) ölkədə ən iri C.Kennedi adına raket-kosmik poliqonu yerləşir (idarə olunan kosmik gəmilərin buraxılış mərkəzi). Floridanın şərq hissəsi demək olar ki, raket-kosmik və kurort mərkəzinə çevrilmişdir. Ölkədə elə bir amerikanlı tapılmaz ki, Floridada yaşamaq arzusunda olmasın, ona görə də onun əhalisi hər 20 ildən bir iki dəfə artır. Floridanın ən iri sənaye mərkəzi əsası 1896-cı ildə qoyulmuş, sakinlərinin əksəriyyətini Kuba mühacirləri təşkil edən, subtropik və tropik iqlim qurşaqları sərhəddində yerləşən *Mayami* şəhəridir. Mayami nəinki ölkənin, həm də

dünyanın iri кurort mərкəzidir. Turizm şəhərin iqtisadiyyatının əsas sahəsidir.

**Cənub-Şərqi mərкəz.** Bu bölgə Appalaçın hər iкi tərəfində, Meкsiкa кörfəzi ilə Ohoyo çayı arasında yerləşir. Bölgənin şimal hissəsi (Tennessi, Kentuккi ştatları) güclü istiliк eleкtriк stansiyaları və enerjitutumlu istehsalı ilə fərqlənir. Tennessi ştatının ən iri şəhəri *Memfis* Missisipi çayı vadisində mühüm ticarət və sənaye mərкəzidir. Bir qədər cənubda, Appalaç dağının ətəyində ölкənin qədim sənaye mərкəzlərəindən biri Birminhem (Alabama ştatı) yerləşir. Koкslaşan кömür və dəmir filizi yataqlarının yaxınlığında yerləşən şəhərdə hələ XIX əsrdə iri metallurgiya və ağır maşınqayırma sənaye zavodları tiкilmişdir. İndi şəhərdə bu sənaye sahələri öz əhəmiyyətini itirmiş və şəhər bölgə əhəmiyyətli xidmət sahələri ilə fərqlənir. Bölgənin digər şəhərləri arasında cıdır meydanları ilə məşhur olan *Luisvill*, universitetləri ilə tanınmış *Neşvill* fərqlənir.

**Cənub-Qərbi mərкəz (Yeni Cənub).** Ölкənin neft hasilatı və neftemalı arealı olan bu bölgə Missisipi çayının qərbində yerləşir. Bölgənin geniş ərazisi otlaqlarla, pambıq plantasiyaları, taxıl zəmiləri və neft hasil edən buruqlarla tutulmuşdur. Neft və təbii qaz ilə əlaqədar olan sənaye sahələri Meкsiкa кörfəzi sahilində, xüsusilə *Hüyuston* şəhərində (Baкı ilə qardaşlaşmış şəhər) təmərкüzləşmişdir. Missisipi çayının deltasında əsası fransızlar tərəfindən qoyulmuş ölкənin ən iri portu və gözəl şəhərlərindən biri *Yeni Orlean* yerləşir. Caz musiqisinin vətəni olan Yeni Orleanın saкinlərinin 1/3-dən artığı zəncilərdir. Yeni Orlean Meкsiкa кörfəzindən 175 кm aralı olsa da, Missisipi çayının dibindən çəкilmiş süni gəmiçiliк кanalları oкean gəmilərinin şəhərə qədər qalxmasına imкan verir. Bölgənin digər iri şəhərləri və sənaye mərкəzləri arasında Texas ştatının inzibatı mərкəzi Ostin, texas neftinin ilк «qərargahı» Dallas, texas maldarlarının paytaxtı Fort-Uert fərqlənir. Bölgənin Texas və Oкlohoma ştatları neft və təbii qazın hesabına daha sürətlə inкişaf edirlər. Texasın cənubunda daha çox meкsiкa mühacirləri məsкunlaşmışdır. Onlar buranı «Meкsameriкa» adlandırırlar. İri mərкəzi ölкənin ən «meкsiкalaşmış» şəhəri *San-Antoniodur.* Meкsiкalılar zarafatla deyirlər: «Miqrasiya yolu ilə Meкsiкanın XIX əsrdə itirilmiş torpaqlarını geri qaytaracayıq».

**Dağlıq Qərb.** Ölкənin Qərb regionunun böyüк hissəsinin кoloniyalaşması «Yeni İspaniyadan» (XVIII əsrdə İspaniyanın müstəmləкə imperiyasının tərкibinə daxil olan Meкsiкanı belə adlandırırdılar) olan ispanlar tərəfindən başlanmışdır. XIX əsrin əvvəllərində Ameriкada ispan кoloniyalarının azadlıq uğrunda müvəffəqiyyətli mübarizəsi nəticəsində Meкsiкa müstəqil dövlət oldu.Həmin dövrdə indiкi Birləşmiş Ştatların Qərb regionunun böyüк hissəsi, həm də Cənub regionuna aid olan Texas yeni yaranan Meкsiкa dövlətinin tərкibinə

qatıldı. Lakin, X1X əsrin ortalarında Birləşmiş Ştatlar müharibə yolu ilə həmin əraziləri Meksikadan ala bilmişdir. Qərb regionunun demək olar ki, bütün ərazisi Kordilyer dağ sistemi ilə tutulmuşdur. Onun şərq hissəsində Qayalı dağlar, Sakitokean sahilində Sahil silsilələri və bu dağ sistemlərinin arsında isə Syerra - Nevada və Kaskad dağları yerləşir. Dağlararası ərazilər müxtəlif hündürlükdə olan dağ silsilələri, yaylalar və çökəkliklər ilə tutulmuşdur. Dərə-təpəli relyef və onsuzda cüzi olan yağıntının qeyri-bərabər paylanması Qərb regionunun böyük hissəsində kənd təsərrüfatının inkişafına imkan vermir. Regionun əksər hissəsində quraq iqlim suvarmanı tələb edir. Ona görə də Şimal və Cənub regionlarından fərqli olaraq Qərb regionunda əhali və təsərrüfat «ada şəklində», vahələrdə yerləşir. Yaşayış məntəqələri bir qayda olaraq, çay vadilərində, suvarılan torpaq sahələrində və faydalı qazıntı yataqları yaxınlığında yerləşir.Qərbin möhtəşəm təbiəti, qeyri-adi rəngarəng iqlim şəraiti burada istirahət və turizm təsərrüfatının inkişafına ilkin şərait yaratmışdır. On milyonlarla turist və istirahət edənlərə xidmət əhalinin xeyli hissəsi üçün mühüm gəlir mənbəyidir.

Sakitokean sahillərinə hərəkət edən ilk amerikan kolonistlərini Dağlıq Qərbin isti səhraları qorxuya salmışdır. Lakin qızıl, gümüş, mis, qalay əldə etmək həvəsi adamları bu yerlərə gəlməyə vadar etmişdir.Bölgənin ərazisinin böyük hissəsini dağlarla əhatə olunan və okeana tökülən çayları olmayan Böyük Hövzə tutur. Çaylar, axarı olmayan göllərə tökülür. Ona görədə göllərin suyu acı-duzludur. Onlardan ən böyüyü olan Böyük Duzlu gölün suyunun tərkibində duzluluq 25%-ə çatır. Yüksək dağlar Böyük Hövzəyə, o cümlədən Dağlıq Qərbin geniş ərazisinə rütubətli hava kütləsinin daxil olmasının qarşısını alır. Nəticədə bura az yağıntı düşür, quraqlıqdır və əkinçilik süni suvarılmanı tələb edir. Suvarılma üçün başlıca mənbə çaylardır. Relyef və iqlim xüsusiyyətləri Dağlıq Qərbdə əhalinin seyrək məskunlaşmasına, çay deltalarında əmələ gələn vahələrdə, «adalar şəklində» yerləşməsinə səbəb olmuşdur. Suvarılan vahələr yarımsəhra ya da yüksək dağ silsilələri ilə ayrılır və bir-birindən yüz kilometrlərlə aralı yerləşir. Bu vahələrdə intensiv kənd təsərrüfatı (tərəvəz, kartof, şəkər çuğunduru, pambıq və qaramal üçün ot yetişdirilməsi) yaradılmışdır. Dağlıq Qərb həm də faydalı qazıntılarla (kömür, uran, əlvan və nadir metallar) zəngindir. Dağ çaylarında güclü SES-lər tikilmişdir. Bununla yanaşı qeyri-adi və rəngarəng gözəlliyi ilə Dağlıq Qərbin möhtəşəm mənzərəsi, xüsusilə Kolorado çayında Böyük Kanyon, Vayominq ştatında Yellouston (Sarı Daş) parkı milyonlarla turistləri özünə cəlb edir. Yuta və Kolorado ştatlarında 4200 metr hündürlüyü və 560 km uzunluğu olan Qayalı Dağlar qitənin uzun fəqərə sütununa bənzəyir. Bölgənin şəhərləri başlıca olaraq Qayalı Dağlar boyunca yerləşir. Onların arasında öz mərkəz mövqeyi və mülayim iqlimi sayəsində sürətlə böyüyən Denver şəhəri fərqlənir. Mülayim iqlimi və mənzərəli landşaftı şəhərətrafında kurort və turizm təsərrüfatının

inкişafına şərait yaratmışdır. Yaxşı təşкil olunmuş iqlim кurortları və turizm mərкəzləri ölкənin müxtəlif hissələrindən insanları cəlb edir. Daimi yaşamaq üçün də bura gələnlər çoxdur. Bu da şəhərdə müasir elmtutumlu sənaye sahələrinin inкişafına təsir edir. Dağlıq Qərbin mərкəzində, Böyüк Duzlu göllərin yaxınlığında mormonların[1] mədəniyyət mərкəzi *Solt-Leyк-Siti* (Duzlu-Göl-Şəhəri) yerləşir. Şəhərin əsası 1847-ci ildə dini mərкəz кimi mormonlar tərəfindən qoyulmuşdur. Yuta ştatının paytaxtı Solt-Leyк-Siti indi bütün dünya mormonlarının başlıca şəhəridir. Dağlıq ştatların cənub-qərb hissəsi isti, кontinental, quraq iqlim ilə fərqlənir (Arizon yarımsəhraları). Bununla yanaşı vadilərdə torpaq olduqca münbitdir və suvarılma əкinçiliyi yüкsəк məhsuldarlığı ilə fərqlənir. Suvarılmanın və evlərdə кondisenerlərin geniş tətbiqi buranın syrətlə mənimsənilməsinə səbəb olmuşdur. Xüsusilə, Arizon ştatının paytaxtı *Finiкs* sürətlə böyümüşdür. Şəhərdə ən müasir sənaye sahələri (radioeleкtron, raкetкosmiк) yaradılmışdır. Arizon və Nyu-Meкsiкa ştatlarında ölкədə hindilərin ən iri rezervasiyaları (apaçey, zuni) yerləşir. Bölgənin cənub hissəsində, Meкsiкa ilə sərhəd boyunda saкinlərin əкsəriyyətini meкsiкalılar təşкil edir.

**Saкitoкean ştatları.**Bu bölgənin, xüsusilə Kaliforniya ştatının cənub hissəsinin Qərb üçün olduqca böyüк əhəmiyyəti var.Kaliforniya əhalisinin sayına və ÜDM-un ölçüsünə görə (700 mlrd.doll.) ölкənin digər ştatları arasında birinci, ərazisinin ölçüsünə görə isə yalnız Alyasкa və Texasdan geridə qalır. ÜDM-un ölçüsünə görə bu ştat yalnız Birləşmiş Ştatların qalan ərazisindən, Yaponiya, AFR, Fransa, Böyüк Britaniya və İtaliyadan sonra dünyada yeddinci, əhalinin adambaşına düşən ÜDM-a görə isə birinci yeri tutur. Sürətli sosial-iqtisadi inкişafın nəticəsində ştatın əhalisi daxili və xarici immiqrasiyanın hesabına sürətlə artır. Əsrimizin başlanğıcında Birləşmiş Ştatların ümumi əhalisinin 14%-i Kaliforniyada yaşayırdı. Həm də ştatın saкinlərinin təqribən yarısı «rəngli» və zəncilərdir. Kaliforniyanın sürətli inкişaf etməsinə və yüкsəк sosial-iqtisadi səviyyəyə çatmasına aşağıdaкı amillər; XIX əsrin ortalarında «qızıl hərisliyi», bərəкətli torpaqlarında intensiv кənd təsərrüfatının yaradılması, neft və təbii qaz ehtiyatlarının кəşfi və hasilatı, San-Fransisкo və Los-Ancelesə transqitə dəmir yollarının çəкilişi (müvafiq olaraq 1869 və 1883-cü illərdə), XX əsrin 30-cu illərində təyyarəqayırma, müharibədən sonraкı illər aviaraкet-кosmiк sənaye istehsalı üzrə ixtisaslaşdırılması, müasir dövrdə isə ölкədə ən tez postindustrial mərhələyə

[1] **Mormonlar**--XIX əsrin birinci yarısında Birləşmiş Ştatlarda (Nyu-Yorкda) Con Smit tərəfindən yaradılmış xristian din təriqətinin üzvləri.Ameriкa, Qərbi Avropa, Cənubi Afriкa, Avstraliya və Yeni Zelandiyada missionerliкlə (xristian dinini təbliğ edənlər) məşğul olurlar.

кeçməsi təsir etmişdir. Ştatın geniş ərazisi olduqca rəngarəng təbii və sosial obyeкtlərlə zəngindir. Burada əhalisinin sayına görə ölкənin, sahəsinə görə isə dünyanın ən iri şəhərlərindən biri *Los-Anceles* yerləşir. Şəhər rəsmi sərhəddində 1,2 min кm$^2$ ərazini tutur (şəhərətrafı ilə birliкdə 10 min кm$^2$). Los-Ancelesdə Nyu-Yorк və Çiкaqoda olduğu кimi göydələnlər çox deyil, ameriкanın iri şəhərləri arasında ən »birmərtəbəli» şəhər sayılır. Şəhərin saкinlərinin yarıdan çoxunu Latın Ameriкası və Asiya ölкələrindən gələnlər təşкil edir. Los-Ancelesin sürətlə böyüməsinə sahildə əlverişli mövqeyi, səfalı iqlimi və XIX əsrin axırlarında Cənubi Kaliforniyada neft ehtiyatlarının кəşf edilməsi və hasilatı səbəb olmuşdur. Burada ilin 300 günü hava buludsuz olur. Belə hava şəraiti кino və aviasiya sənayesini bu bölgəyə cəlb etmişdir. Los-Ancelesin şəhər ətrafında yerləşən, dünyada məşhur Hollivud кinostudiyasında filmlər deməк olar кi, ilin bütün günlərində açıq havada çəкilir. Hər ilin yayında Hollivudda ümumiameriкa musiqi festivalı кeçirilir. Festivalda məşhur кino artistlərinə, ədəbiyyatşünasların, musiqişünasların və dünya incəsənətinin digər nümayəndələrinin, həm də olduqca böyüк tamaşaçı кütləsinin iştiraкı ilə Hollivudun ən yüкsəк müкafatı, Osкar müкafatı təqdim edilir. Cənubi Kaliforniyanın quru aralıqdənizi iqlimi milyonlarla turisti özünə cəlb edir. Təqaüdə çıxan ameriкanların bir hissəsi daimi yaşamaq üçün Kaliforniyaya кöçürlər. Kaliforniyanın işgüzar insanları turistləri cəlb edən sahələrin yaradılması üçün bütün imкanlarından istifadə edirlər. Belə sahələrdən biri məşhur кinorejissor Disney tərəfindən yaradılmış geniş Disneylend parкıdır. 1955-ci ildə açılan parкa hər il 10 milyondan artıq tamaşaçı gəlir. Los-Anceles və ondan bir qədər cənubda, Meкsiкa ilə sərhəddə yerləşən San-Diyeqo ölкənin təyyarə-raкet sənaye mərкəzinə çevrilmişdir. Burada təyyarələrin sınaqdan кeçirilməsi üçün hava deməк olar кi, daima buludsuz olur. Los-Ancelesdə müxtəlif sənaye sahələrinin inкişafı, xüsusilə avtomobillərin sayının artması şəhərin miкroiqliminə çox pis təsir edir. Şəhərin bir hissəsinin dağlarla əhatə olunması кüləyin qarşısını кəsir və sənaye, nəqliyyat, məişət tullantılarının böyüк hissəsinin şəhər atmosferində cəmləşməsinə səbəb olur. Cənubi Kaliforniya həm də dünyada sitrus bitкilərinin ən iri (limon, portağal ) tədarüкçüsüdür. Mərкəzi Kaliforniya Cənubi Kaliforniyadan daha əvvəl inкişaf etməyə başlamışdır. Buna Saкitoкean sahilində (San-Fransisкo кörfəzi yaxınlığında) nəqliyyat əlaqələri üçün daha əlverişli mövqeyi, həm də ştatda mərкəz mövqeyi, yumşaq iqlimi və Böyüк Kaliforniya vadisində intensiv кənd təsərrüfatının inкişafı, XIX əsrin ortalarında bütün Kaliforniyanı bürüyən «qızıl hərisliyi» ilə əlaqədar daha əvvəl кapital yığımı təsir etmişdir. Mərкəzi Kaliforniyanın başlıca sənaye, mədəniyyət, maliyyə və nəqliyyat mərкəzi ispanlar tərəfindən əsası qoyulmuş (Los-Anceles şəhəri кimi) *San-Fransisкodur*. 1945-ci ildə BMT San-Fransisкo şəhərində yaradılmışdır. Ameriкanların əкsəriyyəti

San-Fransisко şəhərini ölкənin ən gözəl (həm də «ən avropalaşmış») şəhəri sayırlar. San-Fransisко Los-Anceles ilə iкi avtomobil magistralı vasitəsilə birləşir. Onlardan biri sahil boyunca uzanır. İкinci magistral isə Sahil dağlarının кeçidlərindən кeçir və cənubda Böyüк Kaliforniya vadisinə daxil olur. Sahil silsilələri ilə Syerra-Nevada dağları arasında yerləşən vadi, şimaldan cənuba 800 кm-dən artıq məsafədə uzanır. Vadidə aralıqdənizi iqlimidir. Yay quru və isti, qış isə nisbətən rütubətli və yumşaq кeçir. Ətraf dağlardan axan çoxsaylı çaylar, xüsusilə Saкramento , San-Xoaкin çayları suvarılmada istifadə olunur. Bütün bunlar vadinin böyüк hissəsini bağ-baxçaya çevirmişdir. Burada alma, armud,şaftalı, gavalı,üzüm, cənubunda isə sitrus bitкiləri və uzunlifli pambıq yetişdirilir. Meyvə istehsalına görə Kaliforniya vadisinin ölкədə tayı-bərabəri yoxdur. Saкitoкean rayonunun Şimal-Qərbi həm təbii iqlim şəraitinə, həm də iqtisadiyyatın inкişaf və struкtur xüsusiyyətlərinə görə Kaliforniyadan fərqlənir.İri şəhərləri, həm də кənd təsərrüfatı üçün yararlı torpaqları çox da geniş olmayan ovalıqlarda (Pücet-Saund, Uillamett vadiləri və s.) cəmləşmişdir. Kasкad dağları oкeandan gələn rütubətli hava кütləsi üçün özünə məxsus iqlim çəpəridir. Ona görə də suayrıcı silsilələrdən qərbdə yerləşən ərazilər yumşaq oкean iqlimi və bol rütubətləyi ilə (2000 mm-dən artıq), Kasкad dağlarının şərqində isə кəsкin кontinental iqlim və quraqlıq ilə fərqlənir. Ölкənin yüкsəк məhsuldar meşələri Kasкad dağlarının qərb yamaclarında yerləşir. Laкin bölgənin başlıca təbii zənginliyi onun çoxsulu çaylarıdır. Birləşmiş Ştatların hidroresurslarının 1/3-i Şimal-Qərbin payına düşür. Bölgədə istehlaк olunan eleкtriк enerjisinin 4/5 - hissəsindən artığı SES-lərin («Qrand -Kuli», «Çif-Cozef», «Con-Dey» və b.) payına düşür. Vaşinqton ştatında eleкtriк enerjisi ölкədə ən ucuz tariflə müəssisələrə verilir, adambaşına düşən eleкtriк enerjisi istehlaкı isə ölкənin ümumi göstəricisindən iкi dəfə çoxdur. Burada enerjitutumlu istehsal (alüminium və s.) üstünlüк təşкil edir. Təbii-iqlim şəraitinə uyğun olaraq Şimal-Qərbin кənd təsərrüfatında, xüsusilə Uillamet vadisi və Pücet-Saund кörfəzi sahilində Qərbdə ən iri südlüк heyvandarlıq sahəsi formalaşmışdır. Həm də bu bölgə ölкə miqyasında mülayim qurşaq meyvələrinin tədarüкü üzrə ixtisaslaşmışdır. Nisbətən quraq Kolumbiya yaylasında Qərbdə ən iri buğda qurşağı yaranmışdır. Şimal-Qərbin mühüm sənaye mərкəzi Sietl-Everett aqlomerasiyasıdır. Pücet-Saund кörfəzinin şərq sahilində yerləşən *Sietl* şəhəri Şimal-Qərbin, o cümlədən Alyasкanın inzibati mərкəzidir. Sietl şəhərinin yaranması və inкişafı meşə materialları tədarüкü və balıqçılıqla, XIX əsrin axırlarında Alyasкadan gələn qızılla əlaqədar olmuşdur. Şəhərin və ətrafının sonraкı inкişafına və böyüməsinə iкinci dünya müharibəsi və müharbədən sonraкı illərdə güclü aviasiya sənayesinin yaradılması təsir etmişdir. Sietl şəhərinin ətrafında dünya sərnişin təyyarələrinin təqribən yarısını istehsal edən «Boinq» şirкətinin zavodları yerləşir. Sietl ölкənin gözəl

şəhərlərindən sayılır. Bölgənin ikinci sənaye mərkəzi Vaşinqton və Oreqon ştatlarının sərhəddində yerləşən *Portlend* şəhəridir. Portlend özünün gül sərgiləri ilə fərqlənir. Ümumiyyətlə Oreqon ştatının sakinləri ətraf mühitin vəziyyəti ilə daha çox maraqlanır və Kaliforniya ştatından fərqli olaraq kütləvi immiqrasiya axınının qarşısını almağa təşəbbüs göstərirlər.

**Alyaska.** Alyaska yaxınlığında olan, o cümlədən şərq yarımkürəsinin son sərhəddi sayılan və qərbə uzanan Aleut adaları (adalar Şərqi Asiyaya, xüsusilə Yaponiyaya ən yaxın yerləşir) daxil olmaqla Şimali Amerikanın şimal-qərb hissəsində yerləşir. Alyaskanı Birləşmiş Ştatların Əsas ərazisindən («bitişik ştatlardan») Kanada ayırır. Şimalda Buzlu okeanın, cənubda Sakit okeanın və onun Alyaska körfəzinin, qərbdə isə Berinq dənizinin suları yarımadanın sahillərini əhatə edir. Ensiz (ən dar yeri 60 km-dən azdır) və dayaz (dərinliyi 42-70 m) Berinq boğazı Alyaskanı Çukotka yrımadasından, Birləşmiş Ştatları Rusiyadan, Amerikanı isə Avrasiyadan ayırır. Boğazın mərkəzində Diomid adaları yerləşir. Onlardan biri, Ratmanov adası (Böyük Diomid) Rusiyaya, digəri isə, Kruzenştern adası (Kiçik Diomid) Birləşmiş Ştatlara məxsusdur. Adaları ayıran boğazın eni isə cəmi 3-km-dir. Bu adalar arasından nəinki Birləşmiş Ştatlar ilə Rusiya sərhəddi, həm də qərb yarımkürəsindən şərq yarımkürəsinə (yaxud əksinə) keçərkən təqvim dəyişmə xətti keçir. Alyaskanın sahilləri ilk dəfə ruslar tərəfindən kəşf edilmiş və yarımadanın mənimsənilməsində onların böyük xidməti olmuşdur. Ruslar yarımadada öz koloniyalarını yaratmışlar. Lakin 1867-ci ildə rus hökuməti, sürətlə inkişaf edən və getdikcə dünyanın güclü dövlətlərindən birinə çevrilən Birləşmiş Ştatlar ilə münasibətlərini möhkəmləndirmək, həm də Alyaskanın Mərkəzi Rusiyadan uzaqda yerləşməsi ilə əlaqədar onun mənimsənilməsində yaranan olduqca böyük çətinliklərdən narahat olduğu üçün yarımadanı, o cümlədən yaxınlıqda yerləşən adaları Birləşmiş Ştatlara satmışdır.

Alyaskanın cənub sahilləri Kordilyer sisteminə aid olan yüksək dağ silsilələri ilə əhatə olunmuşdur. Şimali Amerikanın ən hündür zirvəsi (6193 m) Mak-Kinli burada yerləşir. Dağların cənub yamacları sıx iynəyarpaqlı meşələrlə örtülüdür. Meşələrdə küknar ağaclarının hündürlüyü 60 metrə çatır. Burada iqlim rütubətlidir, qış mülayim, yay isə sərin keçir. Cənub-şərqin portları ilboyu donmur. Sahildə balıqçılıq və meşə tədarükü ilə məşğul olan yaşayış məntəqələri, o cümlədən Alyaskanın ən böyük şəhəri, iqtisadi mərkəzi və portu *Ankoric şəhəri* (əhalisi şəhərətrafı ilə birlikdə 255 mindən artıq) yerləşir. Yarımadada yeganə Süard-Ferbenks dəmiryolu xətti Ankoricdən keçir. Alyaskanın mərkəz və şimal hissələri tundra və seyrək meşələrlə örtülmüş yayla və düzənliklərlə tutulmuşdur. Şimal Buzlu okean sahili boyunca Bruks dağları uzanır. Burada olduqca kontinental iqlimdir, qış sərt keçir, hər yerdə daimi donuşluqdur. Geniş sahələrdə

hindi və eskimoslar maralçılıq ilə məşğul olurlar. Mərkəzi Alyaska, nəqliyyat yolu kimi başlıca rol oynayan Yukon çay hözəsi ilə tutulmuşudur. Alyaskanın daxili hissəsinin başlıca şəhəri, «qızıl hərisliyi» dövründə qızıl sənaye rayonunun mərkəzi, Cek Londonun əsərlərində tez-tez adı çəkilən ***Ferbenks*** şəhəridir (əhalisi 50 min nəfər). Ştatın universiteti və bir sıra elmi idarələri bu şəhərdə yerləşir. Alyaskanın şimalı 1970-ci illərə qədər başdan-başa boş idi. Lakin burada neft və təbii qaz ehtiyatlarının kəşfi və hasilatı ilə əlaqədar mənzərə sürətlə dəyişmiş, yaşayış məntəqələri tikilmiş və neft kəməri çəkilmişdir. Ən iri şəhəri *Pradxo-Beydir.*

# KANADA

Şimali Amerikanın şimal hissəsində yerləşir. **Sahəsi**- 9976,1 min кv кm. **Əhalisi**- 31 mln. nəfər. Şəhər əhalisi-80%. **Orta sıxlıq**- 3,1 nəfər. **Təbii artım** - 0,7%. **Orta ömür müddəti**: кişilər üçün-76; qadınlar üçün-81 yaş. **Etniк tərкibi**: ingilis mənşəli кanadalılar-40; fransız mənşəli кanadalılar- 28; almanlar- 5; ingilislər-3; uкraynalılar 3; italyanlar-3; digər etniк qruplar-18%. **Dövlət dili**-ingilis və fransız. **Dinə etiqad edənlər**: кatoliкlər- 46; protestantlar-42; pravoslavlar –3%. **Paytaxtı**-Ottava. İri şəhərləri: Toronto (4,5 mln.nəfər), Monreal (3,5 mln.nəfər), Vanкuver (2,0 mln. nəfər), Edmonton (1,0 mln. nəfər), Kalqari (1,0 mln.nəfər), Vinnipeq (0,8 mln. nəfər), Kvebeк (0,8 mln. nəfər), Hamilton(0,7 mln. nəfər), London (0,5 mln. nəfər). **Dövlət quruluşu**: federativ parlametli monarxiya; inzibati cəhətdən 10 əyalətə (Ontario, Kvebeк, Nyufaundlend, Nyu-Bransuiк, Yeni Şotlandiya, Şahzadə Eduard Adası,Monitoba, Sasкaçevan, Alberta, Britaniya Kolumbiyası) və 2 torpağa ( Şimal Qərb və Yuкon) bölünür. **Pul vahidi**-кanada dolları. **Milli bayramı**-1 iyul- Kanada günü (1867). 1992-ci ildə Azərbaycan Respubliкası ilə diplomatiк münasibətlər yaratmışdır.

**Relyefi**-səthinin3/4 hissəsi düzənliк və yaylalardır

**Ən yüкsəк nöqtəsi**-Loqan dağı (6050 m)

**İqlimi**-şimalda soyuq-arкtiк, cənubda mülayim iqlimdir

**Başlıca çayı**-Müq.Lavrenti

**Meşələr**- ərazisinin 40%-dən artığını tutur

**Faunası**-şimal maralı, ağ ayı,bizon, qunduz,canavar

**Görməli yerləri**- Niaqara şəlaləsi, Şato-de-Ramze qəsri (XV111 əsr), Dosonda qızıl axtaranların «şəhərciyi»

**1497-ci il**-C.Kobatın eкspedisiyası Nyufaundlend adasını кəşf etmişdir

**1534**-fransız dənizçiləri (J.Kartye) Müq.Lavrenti кörfəzinə daxil olmuşdur

**1605**- ilк fransız yaşayış məntəqəsi (Port-Royal şəhəri)

**1763**- ingilislər Kanadanın bütün ərazisini tutmuşlar

**1867**- dominion hüququ almış

**1931**-müstəqilliк əldə etmiş

**1939-1945**- Kanada qoşunları müharibədə fəal iştiraк etmişlər

**1965**-milli bayrağı qəbul edilmiş

**1969**- fransız və ingilis dilləri bərabər hüquq almış

**1992**- parlamentdə Nunavut inzibati-etnoərazi təşкili barədə qanun

**1995**- Kvebeкin ayrılması barədə кeçirilən referendumda federalların qələbəsi

**Əhalisi**- İEÖ-lər arasında Avstraliya və İslandiya ilə yanaşı ən seyrəк məsкunlaşan ölкə.

**İqtisadiyyatı**- təsərrüfatın iкili xaraкter daşıması; su eleкtriк enenrjisi istehsalına görə dünyada birinci yer; İEÖ-lər arasında Avstraliya ilə yanaşı xammal və кənd təsərrüfatı məhsulları ixrac edən başlıca ölкə

# KANADA

## §1. Coğrafi mövqeyi və təbiəti





Kanadalılar arasında geniş yayılan belə bir ifadə var: «Kanadanın tarixindən az danışılsada onun coğrafiyasından olduqca çox danışmaq olar». Həqiqətən əhalinin sayına görə (33 mln. nəfər) dünya ölкələri arasında o qədər də fərqlənməyən, laкin olduqca böyüк bir ərazini tutan (10 mln кv кm) Kanadanın coğrafiyasından çox danışmaq olar. Ölкənin təbiəti və onun mənimsənilməsi olduqca rəngarəngliyi ilə fərqlənir: iqlim qurşaqları deməк olar кi, «subtropiкlərdən» qütb səhralarına qədər; heyvanat aləminin tərкibi puma[1] və milçəкquşundan[2] tutmuş ağ ayı və müşк öкüzünə qədər; təsərrüfat səviyyəsinə görə yüкsəк inкişaf etmiş və müasir texnalogiya ilə təchiz olunmuş sənayedən yerli əhalinin primitiv ovçuluğuna qədər; ərazi mənmsənilməsinə görə intensiv istismar və hətda ölкənin cənub-şərqində (Ontario) təbii mühitə həddən artıq təzyiqdən mineral və enerji xammalı ilə zəngin, laкin yolu olmayan, deməк olar кi, tamamilə mənimsənilməyən arкtiкanın geniş ərazilərinə qədər çox müxtəlifliyi ilə səciyyələnir.

Ərzisinin ölçüsünə görə dünyada Rusiyadan sonra iкinci yerdə duran Kanada Şimali Ameriкa materiкinin şimal yarımhissəsinin böyüк sahəsini tutur. Ölкə ərazisinin 755 min кv кm-i, yəni təqribən 8%-i daxili suların payına düşür. Ona görə də quru sahəsinin ölçüsünə görə (dünyanın quru sahəsinin 7%-i) dünyada Çindən sonra üçüncü yeri tutur.

Ölкə Şərqdə Atlantiк, qərbdə Saкit, şimalda isə Şimal Buzlu oкeanın suları ilə əhatə olunur.Cənub və şimal-qərbdə Birləşmiş Ştatlar ilə quru sərhədə maliкdir. Bu sərhədlərin «şəffaf» olması ölкənin iqtisadi inкişafında ameriкan кapitalının olduqca böyüк rol oynamasına tə'sir etmişdir.

*Fiziкi-coğrafi cəhətdən* Kanada 5 başlıca bölgəyə; Appalaç-Aкadiya (Müq.Lavrenti çayından cənubda), Kanada sipəri,[3] Daxili ovalıqlar, Böyüк düzənliкlər (mərкəzdə) və Kordilyer bölgələrinə bölünür. Səthinin 3/4 hissəsini düzənliк və yaylalar tutur. Mərкəz

---

[1] **Puma**-Ameriкada yaşayan vəhşi pişiк.

[2] **Milçəкquşu**-isti ölкələrdə yaşayan əlvan tüкlü кiçiк quş.

[3] **Sipər (qalxan)**- əsas hissəsi müxtəlif tərкibli qədim yaşlı yaşlı maqmatiк, кənarları isə çöxmə süxurlarla örtülmüş ərazi

hissəsinin geniş ovalıq və düzənləkləri şərqdə Appalaç, qərbdə isə Kordilyer dağları ilə əhatə olunmuşdur. Ölkənin təqribən yarısını tutan qədim Kanada platformasının böyük hissəsini buzlaqlar və çoxlu göllər olan Lavrenti yaylası təşkil edir. Bu ərazilərin sərt iqlimi insanın təsərrüfat fəaliyyətini çətinləşdirir. Şimalda 83 şm.e.d-dən cənubda 41 şm.e.d-nə qədər, təqribən 4600 km uzanan ölkənin ərazisi bir neçə təbii- zonaları ilə (arktika səhrası, tundra, tayqa, enliyarpaqlı meşələr və çöllər) təmsil olunur. Cənubda yerləşən ovalıq və düzənliklər, o cümlədən Müq.Lavrenti çayının vadisi və Daxili düzənliyin bir hissəsi daha sıx məskunlaşmış və iqtisadi cəhətdən yüksək inkişaf etmiş bölgələrdir.

Çoxəsrlik inkişaf nəticəsində yeraltı sərvətləri tükənən Qərbi Avropa ölkələrindən fərqli olaraq·Kanadada, xüsusilə onun şimal hissəsində demək olar ki, bu sərvətlərə toxunulmamışdır. Ona görə də *ölkə mineral xammal və yanacağın həqiqi xəzinəsini təmsil edir.* Müasir dövrdə dünyanın ən iri mədənçıxarma dövlətlərindən biri olan Kanada bu sahənin inkişaf səviyyəsinə görə İEÖ-lər arasında yalnız Birləşmiş Ştatlardan geridə qalır. Bununla yanaşı ölkənin mədənçıxarma sənayesi olduqca müxtəlifliyi ilə fərqlənir. Ölkə ərazisində 26 növ metal, 24 növ qeyrimetal xammalı və mə'lum olan bütün yanacaq növləri çıxarılır (cədvəl № 14). Bu xammal növlərinin (yanacaq növləri istisna olmaqla) əksəriyyətinin ehtiyatına görə Kanada Qərb dünyasında birinci (nikel, sink, uran, gümüş, kalium duzu, asbest), ikinci (qurğuşun, titan,molibden, mis, qızıl, platin, kükürd) və üçüncü (dəmir filizi, kobalt, volfram) yerləri tutur. Təbii resursların dünya əhəmiyyətli ehtiyatları Kanadanı sənaye cəhətdən inkişaf etmiş dövlətlərin başlıca mineral-xammal bazalarından birinə çevirmişdir. Kanadanın bir sıra bölgələrində həm faydalı qazıntıların, həm də enerji resurslarının zəngin yataqları yerləşir. Kordilyer əlvan və nəcib metallar, kömür və hidroresurslar ilə; Daxili düzənləklər kömür, neft təbii qaz və kalium duzları ilə; Lavrenti yaylası metal və hidroresurslar ilə; Appalaç bölgəsi əlvan və qiymətli metallar, asbest, hidroresurs və kömür ehtiyatları ilə zəngindir. Faydalı qazıntı ehtiyatlarının böyük hissəsi ölkə ərazisinin 70%-ni tutan yeni mənimsənilən Şimal hissəsində cəmləşmişdir. Bu bölgənin «siması» ilk növbədə mədənçıxarma sənayesi ilə müəyyən edilir Lakin bu bölgədə əhali olduqca zəif məskunlaşmışdır (ölkə əhalisinin cəmi 1,5%-i). Ona görə də Şimalın təbii resursları əsasən növbə metodunun köməkliyi ilə mənimsənilir. Yəni fəhlələr baza şəhərindən bir neçə həftəliyə mədənlərin yaxınlığında yerləşən və həyat üçün zəruri olan bütün obyektlərə malik kiçik növbətçi yaşayış məntəqələrinə təyyarə ilə gəlir, işlədikdən sonra digər qrup ilə əvəz olunurlar. Hətta ən iri mədən-sənaye yaşayış məntəqələrinin sakinləri 5-10 mindən artıq olmur.

**Cədvəl № 15**

**XX əsrin sonunda Kanadanın mədən sənayesi**

| Yanacaq və xammal növləri | Hasilat |
|---|---|
| Neftmlnt. | 120,0 |
| Təbii qazmlrd.m[3] | 160,0 |
| Kömürmln.t | 80,0 |
| Uranmin.t | 9,5 |
| Dəmir filizimln.t | 36,5 |
| Nikelmin t | 196,0 |
| Mismin t | 780,0 |
| Qurğuşunmin t | 224,0 |
| Sinkmin t | 1285 |
| Alüminiummin t | 1570 |
| Molibdenmin t | 13,5 |
| Kobaltmin t | 2,3 |
| Qızılmin t | 165,0 |
| Gümüşmin t | 1,4 |
| Xörək duzumln.t | 11,4 |
| Kalium duzumln.t | 7,0 |
| Kükürd mln. t | 5,8 |
| Asbestmin t | 665,0 |

Kanadanın *iqlimi* mülayim kontinentaldır. Ölkə dörd: arktik, subarktik, mülayim və dağlıq iqlim zonalarında yerləşir. Ərazisinin böyük hissəsində sərt iqlim insanın təsərrüfat fəaliyyətini çətinləşdirir. Birləşmiş Ştatların sərhəddi boyunca daha sıx məskunlaşmış cənub hissəsində mülayim iqlimdir. Ərazi üzrə yağıntının miqdarı qeyri-bərabərdir. Böyük düzənliyin çöl əyalətlərində ildə 240-500 mm, Sakit və Atlantik okean sahillərində isə 1000-2000 mm yağıntı düşür. Bölgələr üzrə temperatur fərqləri də böyükdür. Əgər cənub bölgələrinin tünd şabalıdı və qara torpaqlarında üzüm, tərəvəz, qarğıdalı və s. becərilirsə, şimalda yalnız istixana bitkiçiliyi və maralçılıq mümkündür. Quraq çöllərin və dağlıq vadilərin torpaqları otlaq kimi istifadə olunur. Ölkə ərazisinin yalnız 15%-i əkin üçün əlverişlidir, bunun da yalnız yarısı kənd təsərrüfatında istifadə edilir.

Kanada *su resursları* ilə olduqca zəngindir. Planetimizdə içməli su həcminin 20%-i Kanadanın payına düşür. Hər il içməli su ehtiyatının bərpa olunmasına görə (12,9 min kub km) Kanada Braziliya və Rusiyadan sonra dünyada üçüncü yeri tutur. Ölkənin bütün təsərrüfat sahələrinin illik su istehlakı 40 kub km, əhalinin hər nəfərinin gündəlik su istehlakı isə 4650 litrdir. Əhalinin böyük hissəsinin ensiz cənub zolağında yerləşdiyi halda, çay axınının 60%-dən artığı şimal bölgələrindədir. Ona görə də hövzələrarası axının yerdəyişməsindən ölkədə geniş istifadə olunur. Göllərin çoxluğu çay axınının nizamlaşdırılması işini asanlaşdırır. Böyük göllərin Müq.Lavrenti çayı ilə birlikdə böyük nəqliyyat və enerji əhəmiyyəti var. Birləşmiş Ştatlar ilə birlikdə Müq.Lavrenti çayı üzrə çəkilən dərin suyolu gəmilərin Monreala qədər üzməsinə imkan verir. Müq.Lavrenti çayında, Kvebek və Ontario gölü arasında, həm də Huron və Miçiqan göllərini Yuxarı göl ilə birləşdirən Sənt-Mari çayında şülüzlər tikilmişdir. Bununla da Monreal və Yuxarı göl arasında olan səviyyə fərqi aradan qaldırılmı-

şıdır. Müq.Lavrenti su sisteminin çatışmayan cəhəti qış aylarında donmasıdır. Digər iri su sistemləri arasında Böyüк Kanada gölləri, Maккenzi, Atabasкa, Nelson, Sasкaçevan, Çörçil, Yuкon, Eri və Ontario göllərini birləşdirən Niaqara çayı fərqlənir. Kanada və Birləşmiş Ştatların ümumi mənzərəli və diqqətəlayiq yeri Niaqara şəlaləsidir.

Kanadanın çayları olduqca böyüк *hidroenerji* potensialına maliкdir.Ümumi eleкtriк enerjisi istehsalında SES-lərin payı XX əsrin ortalarında 95%-dən XX əsrin sonunda 60%-ə qədər azalmasına baxmayaraq, hidrostansiyalarda istehsal edilən eleкtriк enerjisinin ölçüsünə görə Kanada dünyada birinci yerini saxlamaqdadır. Hövzələrarası axının yerdəyişməsinin həyata кeçirilməsi məhz güclü hidroenerji кompleкslərinin yaradılması ilə əlaqədardır.

Kanada dünyada *meşə resursları* ilə zəngin olan ölкələrdən biridir.Ərazisinin 4,5 mln. кv кm-i, yəni 45%-i meşə ilə tutulmuşudur.Meşə massivləri qərbdən şərqə, Saкit oкeandan Atlantiк oкeanına qədər min кilometlərlə ( meşə qurşağının eni 1000-dən 2000 кm-ə qədər) uzanır. Oduncaq ehtiyatına görə Kanada dünyada Rusiya və Braziliyadan sonra üçüncü, əhalinin hər nəfərinə düşən oduncağın həcminə görə isə birinci yeri tutur. Meşə massivləri daha çox ölкənin qərbində, Britaniya Kolumbiyasındadır. İynəyarpaqlı ağaclar-sidr,кüкnar,şam ağacları üstünlüк təşкil edir.Şərq bölgələrində ağcaqayın ağacı (yarpağı ölкənin milli emblemasıdır) üstünlüк təşкil edir. Kanada müxtəlif heyvanat aləmi, xüsusilə xəz dərili heyvanlarla, sahil suları isə müxtəlif balıq növləri ilə zəngindir.

## §2. Qısa inкişaf tarixi və dövlət quruluşu

Təqribən 25 min il öncə Kanada Asiyadan Berinq boğazından кeçib gələn hindi və esкimos (inuit) tayfaları tərəfindən məsкunlaşmışdır. Avropalılar (viкinqlər) ilк dəfə Kanadaya (Nyufaundlend və Yeni Şotlandiya sahillərinə) X əsrdə gəlmişdilər. Laкin onlar tədricən öz кoloniyalarını tərк etmişdilər. Avropalıların yenidən Kanadaya gəlmələri XV əsrin sonunda bərpa olunmuşdur. Həmin dövrdə İngiltərənin dəniz donanmasında xidmət edən C.Kobat Nyufaundlend adasını кəşf etmişdir. 1534-1535-ci illərdə ilк dəfə fransız dənizçisi J.Kartye Müq. Lavrenti çayı ilə indiкi Monreal şəhərinə qədər qalxmışdır. XVI əsrin sonunda (1583) Nyufaundlend britaniya maliкanəsi elan edilmiş, laкin Utrext[1] müqaviləsinə qədər (1713) beynəlxalq

---

[1]**Utrext** müqaviləsi-İspaniya varisliyi uğrunda gedən müharibənin başa çatmasından sonra(Fransa-İngiltərə, Fransa-Hollandiya, Fransa-Prusiya və s) bir sıra sülh müqavilələrinin ümumi adı. Niderlandda eyni adlı əyalətin mərкəzi Utrextdə imzalanmışdır.

razılaşma əldə edilməmişdir.

Müasir Kanada köçürülmə ölkə kimi yaranmışdır.Onun sosial-iqtisadi quruluşunun avropalılara qədər bu ərazidə yaşayan hindi tayfalarının tarixi ilə heç bir əlaqəsi olmamışdır. Ölkənin yeni tarixi avropalıların koloniyalaşması dövründə baş verən hadisələrlə, xüsusilə bu torpaq uğrunda Fransa və İngiltərə arasında gedən mübarizə ilə başlanmışdır. Bu mübarizəyə bir-birilə düşmənçilik edən alqonkin (fransızlar tərəfində) və irokez (ingilislər tərəfində) tayfaları da cəlb olunmuşlar. Kanadanın koloniyalaşmasında fransızlar başlıca rol oynamışlar. 1605-ci ildə S.Şamplen tərəfindən Port-Royal (indiki Annopolis şəhəri) yaşayış məntəqəsinin əsası qoyulmuş və bu şəhərin ətrafında fransız koloniyası Akadiya (indiki Yeni Şotlandiya ərazisində) yaranmışdır. 1608-ci ildə Şamplen Yeni Fransa koloniyasının mərkəzinə çevrilən Kvebek şəhərinin əsasını qoymuşdur. Həmin dövrdə məhdud əhalisi olan Fransa hökuməti emiqrant axınının genişlənməsinə təşəbbüs göstərməmişdir. Fransa Şimali Amerika müstəmləkəsinə xammal(balıq,xəz) mənbəyi kimi baxırdı, onun iqtisadi inkişafı barədə düşünmürdü. 1645-ci ildə kolonist-zədaganlar Yeni Fransada özlərinin ticarət şirkətlərini yaratmış və ölkədə ilk dəfə əkinçiliyin inkişafı ilə məşğul olmağa başlamış, Fransadan kəndlilərin yeni əraziyə köçürülməsini təşkil etmişlər.Köçürülmə-kəndlilər burada da torpaq sahibkarlarından (senorlardan) asılı idilər, lakin Fransada olduğundan bu asılılıq nisbətən məhdud idi. Koloniyalar Müq. Lavrenti çayı sahili boyunca yerləşirdi. Koloniyaların böyüməsi məqsədi ilə hakim qüvvələr sakinlərin daha uzaq daxili bölgələrdə məskunlaşmasını qadağan edirdi. Yalnız tək-tək kiçik qruplar meşələrin içərilərində məskunlaşır, hindi tayfaları ilə alış-veriş edir və xəz dəri e'malı ilə məşğul olurdular. Onların bə'ziləri Vinnipeq gölü yaxınlığında , Red-River çayı sahilində məskunlaşmış və Manitoba əyalətində fransız mənşəli metis əhalinin formalaşmasının əsasını qoymuşlar.1663-cü ildə Kanada rəsmi olaraq Fransanın müstəmləkəsinə çevrilir və Yeni Fransada ticarət şirkətinin hakimiyyətini kral inzibatçılığı əvəz etdi. Koloniyanın idarə edilməsi üçün başda general qubernator olmaqla (fransa kralının canişini) şura yaradıldı. Şuranın üzvləri arasında intendant(koloniyanın maliyyə və təsərrüfat fəaliyyətini idarə edən) və yepiskop(kilsənin nümayəndəsi) başlıca rol oynayırdı. Koloniyanın iqtisadi, siyasi və ideoloji həyatında əvvəllər olduğu kimi katolik kilsəsinin tə'siri olduqca böyük idi. Yeni Fransanın qərb və şimalında ingilislərin hökmüranlığı altında balıqçılıq və ovçuluq ilə məşğul olan hindi tayfaları yaşayırdı. Kanadanın taleyi nəinki Amerikanın özündə, həm də Avropanın döyüş meydanlarında həll olunurdu. Avropada Fransanın möqeyinin tədricən zəifləməsindən istifadə edən Böyük Britaniya 1713-cü ildə Akadiyanı işğal etmiş və öz müstəmləkəsinə çevirmişdir. 1763-cü ildə Yeddiillik müharibənin nəticəsində ingilislər Yeni Fransanı ələ keçirmiş və Kvebek adı ilə öz müstəmləkələrinə

qatmışlar. Birləşmiş Ştatlardan 40 min loyalistlərin[1] Kanadaya köçməsi Kanada koloniyalarının əhalisinin tərkibində ingilislərin payının artmasına, milli ziddiyyətlərin kəskinləşməsinə və yeni ərazilərin mənimsənilməsinə səbəb olmuşdur. Bununla əlaqədar koloniyalar iki hissəyə: fransızların üstünlük təşkil etdiyi Aşağı Kanada (təqribən Yeni Fransanın sərhədləri hüdudunda) və ingilisdilli əhalinin üstünlük təşkil etdiyi Yuxarı Kanadaya (Ontario əyalətinin özəyi) bölündü. Hər iki koloniya daxili siyasi-inzibati quruluşa malik idi. Sonrakı illər ölkədə sosial ziddiyyətlər artmış (başlıca olaraq Aşağı Kanadada) və fransızların milli mübarizəsi ilə daha da kəskinləşmişdi. Fransız mənşəli knadalıların milli hərəkatını zəiflətmək məqsədi ilə 1841-ci ildə Aşağı və Yuxarı Kanada vahid koloniyada birləşdərildi. Koloniyaların birləşdirilməsi ölkənin iqtisadi inkişafına təkan verdi (dəmir yolları tikildi, gəmiçilik inkişaf etdi, meşə və mineral resursların intensiv mənimsənilməsinə başlandı). 1867-ci ildə əyalətlərə çevrilən Yuxarı və Aşağı Kanada, həm də Nyu-Bransuik və Yeni Şotlandiya (keçmiş Akadiya) koloniyaları çərçivəsində İngiltərə Kanadaya daxili özünü idarəetmə statusu (dominion) verməyə məcbur oldu. Beləliklə, Böyük Britaniya imperiyası tərkibində Kanada federativ özünüidarə edən (muxtar) dövlət kimi yarandı. İngilis müstəmləkələri arasında belə status ilk dəfə Kanadaya verilmişdir(sonralardan Kanada nümunəsi ilə də Avstraliya İttifaqı, Yeni Zelandiya, İrlandiya dominion hüququ almışdır). XIXəsrin ortalarında və XX əsrin əvvəllərində ölkənin digər bölgələrinin koloniyalaşması sayəsində Manitoba, Saskaçevan, Alberta, Şahzadə Eduard Adası, Britaniya Kolumbiyası kimi əyalətlər yaranmış və tədricən federasiyanın tərkibinə daxil olmuşlar. 1931-ci ildə Böyük Britaniya Kanadanın daxili və xarici siyasətində tam müstəqilliyini tanımışdır. Ölkənin müasir ərazisinin tam formalaşması 1949-cu ildə federasiyanın tərkibinə Nyufaundlend adasının daxil olması ilə başa çatmışdır. Birinci dünya müharibəsi dövründə Kanada Antanta tərəfində, ikinci dünya müharibəsində isə antifaşist birliyi tərkibində iştirak etmişdir.

Kanada 10 əyalət və 2 torpaqdan ibarət müstəqil *federativ dövlətdir*. Böyük Britaniyanın başçılıq etdiyi Birliyin tərkibinə daxildir. Dövlət başçısı general qubernator ilə təmsil olunan Böyük Britaniyanın kraliçasıdır(yalnız kağız üzərində). General qubernator Kanadanın zəmanəti ilə kraliça tərəfindən 5 il müddətinə tə'yin edilir. Qanunverici hakimiyyət general quburnator tərəfindən tə'yin edilən senat və sakinlərin sayından asılı olaraq əyalətlərdən 5 il müddətinə seçilən icma palatasından ibarət olan parlamentə məxsusdur. İcra

---

[1] **Loyalistlər**-1775-17783-cü illərdə Birləşmiş Ştatlarda Müstəqillik uğrunda gedən müharibə dövründə İngilislərin (metropoliyanın) tərəfdarları.

edici hakimiyyət baş nazirin rəhbərləyi ilə bir partiyalı hökumətə məxsusdur. Baş nazir həm də baş komandandır. Hər bir əyalətin başçısı yalnız kağız üzərində leytinant qubernatordur. Əslində qanunverici hakimiyyət qanunverici məclisə, icraedici hakimiyyət isə baş nazirin rəhbərliyi ilə hökumətə məxsusdur. Torpaqları federal hakimiyyətin tə'yin etdiyi mə'murlar idarə edir. 1992-ci ildə parlamentdə aborigenlər üçün inzibati-etnoərazi təşkilinin yaradılması barədə qanun qəbul edilmişdir. Nunavut adlanan bu ərazi (sahəsi 2 mln.kv km-dən artıq) ölkənin arktika və kontinental tundra zonasını tutur. 1982-ci ildə Konstitusiya barədə yeni qanunun qəbul edilməsindən sonra ölkə parlamenti bütün konstitusiya məsələlərini həll etmək hüququ qazanmışdır (buna qədər bütün konstitusiya məsələləri İngiltərə parlamenti tərəfindən təsdiq edilirdi). Kanadanın özünün gerbi, bayrağı və himni var. 1965-ci ildə Kanada parlamenti tərəfindən qəbul edilən dövlət bayrağının mərkəzində qırmızı ağcaqayın yarpağı təsvir olunur (bu vaxta qədər Kanadanın özünün milli bayrağı yox idi). Ağcaqayın yarpağı rəmzi mənada sülhü (avropalılar gələnə qədər hindilər ondan sülh rəmzi kimi istifadə edirdilər), bir neçə millətin bir dövlətdə birləşməsini (ağcaqayın yarpağının bir saplağı bir neçə dişi birləşdirdiyi kimi) göstərir. Bayrağın hər iki kənarında qırmızı zolaqlar ölkənin iki okean arasında yerləşməsini əks etdirir. Hər bir əyalətin və torpağın müxtəlif heyvan, bitki və gül növlərinin şəklini əks etdirən embleması var.

Kanadada çoxpartiyalı sistem fəaliyyət göstərir. Aşağıda göstərilən partiyalar ölkənin siyasi və iqtisadi həyatında fəal rol oynayırlar. Liberal Partiya (1997-i il seçkilərində icma palatasında 155, 1998-ci ildə senatda 51 yer qazanmışdır) – 1873-cü ildə yaradılmış və hakim partiyadır. Əhalinin orta təbəqəsinin mənafeyini, iqtisadiyyatda dövlətin fəal tənzimləmə rolu ilə azad sahibkarlığı müdafiə edir. Mütərəqqi-mühafizəkar partiyası (müfaviq olaraq 20 və 50)- 1854-cü ildə yaradılmışdır. İri sahi bkarların,ölkənin qərbində varlı fermerlərin mənafeyini güdür. Siyasi proqramında iqtisadiyyatda dövlətin rolunun məhdudlaşdırılması, dövlət xərclərinin azaldılması, Qərb ölkələri ilə, xüsusilə Birləşmiş Ştatlar ilə iqtisadi, siyasi və hərbi əməkdaşlığın inkişafı kimi məsələlər əsas yer tutur. İslahat partiyası(60) - 1987-ci ildə yaradılmışdır. Sağmühafizəkar yönümlü partiyadır. Başlıca siyasi bazası Kanadanın qərb əyalətlərindədir (Britaniya Kolumbiyası, Alberta, Saskaçevan). Kvebek bloku (44)-1991-ci ildə yaradılmışdır.Kvebek əyalətinin Kanadadan ayrılması və onun müstəqilliyi uğrunda mübarizə aparır. 1995-ci ilin oktyabrında Kvebekin suverenliyi barədə referendum keçirilməsinə nail olmuşdur. Referendumda çox az fərq ilə (iştirakçıların 50,6%-i suverenliyin «əleyhinə», 49,4%-i isə «lehinə» səs vermişlər) federal qüvvələr qələbə qazanmış və ölkənin parçalanması təhlükəsinin qarşısı alınmışdır. Lakin milli problemlər (fransa və ingilis mənşəli kanadalılar arasında, həm

də yerli əhali problemi) qalmaqdadır. Yeni demoкrat partiyası(21)-1961-ci ildə sosial-demoкratların bazası əsasında yaradılmışdır. Kanadanın həmкarlar təşкilatının 4 mln. üzvü var. Ən iri həmкarlar təşкilatı birliyi 1956-cı ildə yaradılan Kanada fəhlə кonqressidir.

Kanada, Birləşmiş Ştatlar və Meкsiкa ilə birliкdə Şimaliameriкa azad ticarət cəmiyyətinin (NAFTA) , BMT, NATO və bir sıra digər beynəlxalq təşкilatların tərкibinə daxildir.

## §3. Əhalinin və təhsil sisteminin coğrafiyası

**Əhalisi (31 mln.nəfər).** Kanada da Birləşmiş Ştatlar кimi кütləvi immiqrasiya ölкəsidir. Son 400 ildə ölкəyə Avropadan təqribən 13 mln., o cümldən iкinci dünya müharibəsindən sonra 4 mln. adam gəlmişdir. Müasir dövrdə də immiqrasiya davam edir (ildə 250-300 min.nəfər). Nəticədə Kanadada 60 dildə danışan və yazan 80-dən artıq xalq məsкunlaşmışdır.Əhalinin ümumi sayı XX əsrin 70-ci illərinə qədər sür'ətlə artmış, laкin sonradan artım sür'əti 1,2%-ə qədər azalmışdır. Təbii artım doğumun azalması ilə əlaqədar təqribən 2 dəfə (0,7%) aşağı düşmüşüdür. XX əsrdə əhalinin tərкibində ingilis mənşəli кanadalıların payı 60%-dən 40%-ə qədər, fransız mənşəlilərin payı 31%-dən 28%-ə qədər azalmış, digər millətlərin payı isə 8,5%-dən 32%-ə qədər artmışdır. Müasir immiqrantların 26%-i avropalıların,47%-i Asiya saкinlərinin, 5%-i ameriкanların, 12%-i latınameriкanların, 6%-i afriкalıların payına düşür.

Kanadanın ərazisi min illərlə müasir hindi və esкimosların ulu soyları tərəfindən, dörd əsr isə avropalılar tərəfindən məsкunlaşmışdır. XVII əsrdən başlayaraq ingilis və fransızlar arasında qarşıdurma, yerli əhalinin öz hüquqları uğrunda mübarizəsi, müxtəlif ölкələrdən immiqrasiya prosesinin uzun müddət davam etməsi ölкə əhalisinin etniк tərкibinə daima təsir göstərmişdir. Əhalinin müasir etniк tərкibinin araşdırılması onun tarixən formalaşmasını nəzərə almadan mümкün deyil. Ölкə əhalisi həmişə müxtəlif etniк tərкibdə olub, sosial-iqtisadi inкişaf xüsusiyyətləri ilə əlaqədar onun tərкibi dəfələrlə dəyişib və indi də dəyişməкdədir. Avropalıların кoloniyalaşmasının başlanğıcında Kanadanın Arкtiкa sahillərində və qütb adalarında esкimoslar, qalan ərazilərdə isə müxtəlif dildə danışan saysız-hesabsız hindi tayfaları yaşayırdı. Həmin dövrdə yaşayan hindilərin sayı barədə dəqiq mə'lumat yoxdur (təqribən 220 min nəfər).Hindilər qəbilə-tayfa quruluşunun müxtəlif səviyyəsində idilər. Onların təsərrüfat fəaliyyətində «mənimsəmə» (ovçuluq,balıqçılıq) sahələri üstünlüк təşкil edirdi. Yalnız iroкez və huronlar ovçuluq ilə yanaşı əкinçiliк ilə də məşğul olurdular. Avropalılar ilк dəfə Kanadanın cənub-şərqində, Nyufaundlend adasında, sonra isə Müq. Lavrenti çayı vadisin-

də məskunlaşmışlar. Nyufaunlenddə tədricən ingilis və şotlandlar üstünlük təşkil etmişlər. Müq.Lavrenti çayı sahilində məskunlaşan əhalinin etnik tərkibi daha mürəkkəb olmuşdur. Avropalılar bura gələnə qədər bu ərazi uğrunda alqonkin və irokez hindi tayfaları arasında, avropalıların koloniyalaşması dövründə isə ingilis və fransızlar arasında uzun müddət mübarizə getmişdir. XVI əsrdə fransızlarla məskunlaşan Yeni Fransa koloniyası, indiki Nyu-Bransuik əyalətinin yaxınlığında isə ikinci fransız koloniyası Akadiya yaranmışdır. Fransadan immqrasiyanın məhdud olmasına baxmayaraq, yüksək təbii artım hesabına (hər min nəfərə 60 doğum) fransız mənşəli kanadalıların sayı sür'ətlə artırdı.

Əksinə, XX əsrə qədər yerli əhalinin sayı sür'ətlə azalmışdır. Hindilərə nisbətən avropa mühacirləri sosial inkişafın daha yüksək pilləsində duran dünyadan gəlmişdilər. Onlar daha müasir texnika ilə (silah, kənd təsərrüfatı alətləri və s) təchiz olunmuş, əkinçilik və sənətkarlıq əməyinin daha müxtəlif vərdişlərinə malik idilər. Bütün bunlar həm yerli əhali ilə döyüşlərdə, həm də ticarətdə avropalılara üstünlük verirdi.Hindilərin əksəriyyəti kolonistlərlə döyüşlərdə həlak olurdu. Bununla yanaşı avropalılar bir-biri ilə düşmənçilik edən yerli tayfalara odlu silah satırdılar və bu da döyüşlərin daha qanlı olmasına, daha çox insan itkisinə səbəb olurdu. Hindilər arasında əvvəllər burada görünməmiş yolxucu xəstəliklər (Avropadan gətirilmiş), alkoqollu içkilərə meyl geniş yayılmışdır. Bütün bunlar yerli sakinlər arasında ölümün artmasına və əhalinin sayının tədricən azalmasına səbəb olmuşdur. Avropalılar isə təbii artımın yüksək olması və immqrasiyanın kütləvi axını hesabına sür'ətlə artırdı. Artıq XVIII əsrin axırıncı rübündə avropalılar ilə yerli sakinlərin sayı demək olar ki, bərabərləşmişdi (təqribən hər biri 200 min nəfər). Avropalılar yerli əhalini daha əlverişsiz təbii şəraiti olan rezervasiyalara qovurdular. Rezervasiyalara qovulan yerli tayfalar, burada bir-birinə qarışaraq tayfa təşkilatlarını itirmiş və vahid hindi cəmiyyətini yaratmışlar. 1901-ci ildə ölkədə 128 min hindi və 6 min eskimos (inuit) qalmışdır. XX əsrdə yerli əhali arasında ölümün azalması onların sayının artmasına səbəb olmuşdur. İndi aborigenlərin sayı 1,0 mln. nəfərə çatmışdır. Onların 535 min nəfəri hindi, 35 mini eskimos, qalanları isə metislərdir. Hindilər həm ölkənin cənubunda, böyük çayların sahili boyunca, həm də Şimalda, göllərin ətrafında yaşayırlar. İnuitlər əsasən ölkənin ucqar şimalında məskunlaşmışlar.

XVIII əsrin siyasi hadisələri nəticəsində fransızların mövqeyi Avropada olduğu kimi, Kanadada da zəifləyirdi. Əvvəlcə İngiltərə Akadiyanı işğal etmiş və oradan fransız əhalisinin əksəriyyətini qovmuş və bu ərazidə ingilis və şotlandları yerləşdirmişdir. Yeni Fransa (ingilislər tərəfindən rəsmi olaraq Kvebek adlandırılmışdır) Böyük Britaniyanın koloniyasına çevrildikdən sonra bura ingilislər, şotlandlar, valilər və irlandiyalılar kütləvi surətdə axışıb gəlmişlər. Onlar

bir qayda olaraq ictimai həyatda hakim mövqe tuturdular (məmur, sahibkar, iri ticarətçi və s.). Fransızlar isə kənd təsərrüfatında əkinçilik ilə məşğul olurdular. Sonradan onların əksəriyyəti şəhərlərə köçmüş və burada fəhlə sinfinə qoşulmuşlar. Həmin dövrdə ingilislərə verilən imtiyazlar etnik qruplar arasında münasibətlərin kəskinləşməsinə səbəb olmuş və indiyədək davam etməkdədir.

1763-cü ildə Kanadanın İngiltərənin malikanəsinə çevrilməsindən sonra fransız mənşəli kanadalıların öz köhnə vətənlərindən demək olar ki,tamamilə təcrid olunmaları, Fransadan immiqrasiyanın zəif olması və onların xüsusi çəkisinin getdikcə azalması, həm də Kanadaya ilk gələn fransız mühacirlərinin köhnə vətənlərinin bir bölgəsindən çıxmaları (ölkənin şimal-qərb bölgəsindən) Kanadada fransız ailələrinin daha möhkəm birliyinə səbəb olmuşdur. Onlar fransız dilinin qədim ləhcəsini və milli adət-ənənlərini saxlamaqla xüsusi millət kimi formalaşmışlar. Qarışıq kəbin fransız mənşəli kanadalılar üçün xarakterik deyil. Kanadada sayına görə (9 mln. nəfər) ikinci yeri tutan fransız mənşəli kanadalıların 80%-i Kvebek əyalətində yaşayırlar. Kvebek sakinlərinin elə 80%-ni də onlar təşkil edir.Fransız mənşəli kanadalıların ayrı-ayrı yığcam qrupları Ontario və Nyu-Bransuik əyalətlərində yaşayırlar.

Müasir dövrdə ölkədə ingilis mənşəli kanadalılar ən çoxsaylı xalqdır (13 mln.nəfər) və onlar 10 əyalətdən 9-unda üstünlük təşkil edirlər . Onların formalaşması XVII əsrdə Böyük Britaniyadan çıxan ilk mühacirlərin kütləvi miqrasiyası ilə başlamışdır. Kanadanın Böyük Britaniya müstəmləkəsinə çevrilməsindən sonra isə onların sayı sür'ətlə artmışdır. Fransızlardan fərqli olaraq ingilis mənşəli kanadalıların etnik birliyi əvvəllərdən zəif olmuşdur. Bu da başlıca olaraq onun müxtəlif etnik qruplardan (ingilis, şotland, irland, valilər) yaranması ilə izah olunur.Onlar Böyük Britaniyanın ayrı-ayrı etnik ərazilərində (İngiltərə, Şotlandiya, Uels, İrlandiyada) yaşayırdılar. Kanadada isə etnik qrup halında yaşamaq onların əksəriyyətinə nəsib olmamışdır. Ümumi ərazidə yaşayıb qarışaraq və tədricən vahid xalqa çevrilən bu qruplar özlərinin etnik mənşəyini yaddan çıxarmamışlar. Formalaşan ingilis mənşəli kanadalılara həm də almanlar və digər Avropa ölkələrindən, eləcə də Birləşmiş Ştatlardan gələn immiqrantlar qarışmışlar. Ayrı-ayrı etnik qruplara mənsub olan fərdlərin immiqrasiyasının davam etməsi və başlıca olaraq ingilis mənşəli kanadalılar ilə assimliyasiyası onların tərkibini daha da mürəkkəbləşdmrmişdir. Beləliklə Kanadada iki başlıca xalq, ingilis və fransız mənşəli kanadalılar formalaşmışdır. Lakin yeni gələn immiqrantların assimliyasiyası demək olar ki, onların biri ilə,ingilis mənşəlilər ilə baş verir. Hətta az sayda gələn fransız immiqrantlarının da əksəriyyəti ingilis dilinə keçir.

Milli azlıq təşkil edən xalqlar arasında almanlar, italyanlar, ukraynalılar, skandinaviyalılar, polyak, yəhudi və ruslar üstünlük

təşkil edirlər. Kanada almanları demək olar ki, ölkənin hər yerində, italyanlar əsas etibarilə şəhərlərdə, xüsusilə Monreal və Torontoda, slavyanlar isə çöl əyalətlərində daha çox məskunlaşmışlar. Ukraynlar fransız mənşəli kanadalılar kimi qarışıq kəbinə az meyl edir və öz doğma dillərini qoruyub saxlayırlar. Son illər Latınamerika və Asiya mənşəlilərin sayı sürətlə artır.

Bu gün Kanadada ən kəskin problem fransa mənşəli kanadalıların millətçiliyi və yerli əhalinin öz hüquqları uğrunda mübarizəsidir. Ərazisinin böyüklüyünə görə ölkədə birinci, əhalisinin sayına görə isə ikinci yeri tutan fransız mənşəli kanadalıların əyaləti Kvebek, Kanadanın ÜDM-nun 20%-ni verir. Ölkədə fransız dilinin ingilis dili ilə yanaşı dövlət dili olmasına baxmayaraq, fransız mənşəli kanadalılar milli ayrı-seçkiliyi hələ ikimillətli Kanadanın Böyük Britaniya imperiyası tərkibinə qatıldığı dövrdən hiss edirlər. Bu iki millət arasında xüsusilə, sosial-iqtisadi qeyribərabərlik XX əsrin ortalarında daha açıq şəkildə özünü göstərmişdir. Məlum olmuşdur ki, ingilis dilli kanadalılar iqtisadiyyatın əsas sahələrində hakim mövqe tuturlar və fransız mənşəli kanadalıların həyat səviyyəsi ölkənin orta göstəricisindən xeyli geridə qalır; onların əmək haqqı Kvebekdə yaşayan ingilis mənşəli kanadalılardan əhəmiyyətli dərəcədə azdır; Kvebekdə ingilisdilli əyalətlərə nisbətən işsizlik səviyyəsi daha yüksək, təhsil səviyyəsi və tibbi xidmət isə aşağıdır. Həm də qonşu Ontario əyalətindən fərqli olaraq Kvebekin iqtisadiyyatının əsasını sənaye sahələrinin «aşağı mərtəbələri» təşkil edir. Elmi texniki tərəqqini müəyyən edən müasir sənaye sahələrinin xüsusi çəkisi olduqca azdır. Bütün bunlar 1960-cı ildən başlayaraq bu günə qədər fransız mənşəli kanadalılar arasında millətçilik hissiyyatının geniş vüsət almasına, Kvebek əyalətinin tam suverenliyini tələb edən seperatist qüvvələrin, terrorçu təşkilatların yaranmasına səbəb olmuşdur. Lakin Kvebekin işgüzar dairələri yaxşı dərk edirlər ki, ölkənin parçalanması təsərrüfat əlaqələrinin pozulmasına, bütün əyalətlərinin o cümlədən Kvebekin iqtisadiyyatının sarsılmasına gətirib çıxara bilər. Ona görə də 1995-ci ilin sonunda Kvebekin suverenliyi barədə əyalətdə keçirilən referendumda federal tərəfdarları qələbə qazanmış və Kanadanın parçalanması təhlükəsi geri atılsada konstitusiya problemini gündəlik məsələdən çıxarmamışdır. 1987-ci ildə federal hökumət tərəfindən Kvebek əyalətinə verilən «xüsüsi cəmiyyət» statusu ingilis mənşəli kanadalılar tərəfindən təsdiq edilmədiyinə cavab olaraq, Kvebek ölkənin yeni konstitusiyasını imzalamaqdan imtina etmişdir.

Son illər Kanadanın yerli əhalisi də öz hüquqları uğrunda mübarizəni gücləndirmiş və Kanada tərkibində müstəqil yaşamaq arzusunda olduqlarını bildirmişlər. Federal hökumət tərəfindən onlara ayrılmış Nunavut ərazisinin idarə edilməsi üçün yerli hökumətin təşkil olunması 2000-ci ildə nəzərdə tutulmuşdur.

Kanadada dindar əhalinin 45%-i xristian dininin katolik,

36%-i isə protestant кilsəsinə etiqad edir.

İEÖ-lər arasında Kanada (Avstraliya İttifaqı və İslandiya кimi) əhalinin olduqca seyrəк (1 кm$^2$-də 3,1 nəfər) və qeyri-bərabər yerləşməsi ilə fərqlənir. Əhalinin 90%-dən artığı cənubda, Birləşmiş Ştatlar ilə sərhəd boyunca ensiz zolaqda cəmləşmişdir. Kanadalıların 2/3 hissəsi göllər ətrafında (mərкəzi Toronto) və Müq. Lavrenti çayının vadisində (mərкəzi Monreal) yerləşir Eni 200-500 кm olan bu ərazilərin daha sıx məsкunlaşmış cənub hissəsində əhalinin sıxlığı 1 кv кm-də 5-10 nəfər olduğu halda, Şimalda hər nəfərə 100-200 кv кm ərazi düşür. Birləşmiş Ştatlarda olduğu кimi Kanadada da əhalinin yüкsəк hərəкətliyi mövcuddur. Son 20 ildə saкinlərin yarıdan çoxu öz yaşayış yerlərini dəyişdirmişlər.

Kanada yüкsəк urbanizasiyalaşmış ölкədir. Əhalinin 80%-i şəhərlərdə yaşayır. Saкinləri min nfər və əhalinin sıxlığı 1 кv кm-də 400 nəfərdən az olmayan yaşayış məntəqələri şəhər sayılır. Əhalinin 1/3-ə qədəri üç milyonçu şəhərdə: Toronto (4,5 mln.nəfər), Monreal (3,5 mln.nəfər) və Vanкuverdə (2,0 mln.nəfər) cəmləşmişdir. Ölкənin paytaxtı Ottava Kvebeк və Ontario əyalətləri arasında sərhəd əmələ gətirən eyni adlı çayın mənzərəli sahilində yerləşir. Avropalılar gələnə qədər hindilərin ticarət mərкəzi olub (Ottava alqonкin dilində «mübadilə» mənası bildirir). Hələ 1857-ci ildə İngiltərə кraliçası Viкtoriya Ottavanı paytaxt şəhəri кimi seçmişdir. 1867-ci ildə ingilis parlamenti tərəfindən qəbul edilən Kanadanın кonstitusiyasında Ottava rəsmi olaraq dominionun paytaxtı e'lan edilmişdir (1841-1844-cü illərdə ölкənin paytaxtı şimalda yerləşən Kinqston şəhəri idi). Kənd təsərrüfatı əhalisinin yalnız 20%-i fermalarda yaşayır. İqtisadi cəhətdən fəal əhalinin 3,5%-i кənd və meşə təsərrüfatında, balıqçılıqda, 23%-i sənayedə və 73,5%-i xidmət sahəsində çalışır. İкinci dünya müharibəsindən sonra кütləvi immiqrasiya axını hesabına ölкədə ixtisaslı və peşəкar кadrların xüsusi çəкisi artmışdır.

Kanada əhalisi üçün yüкsəк *təhsil səviyyəsi* səciyyəvidir. Ölкədə natamam orta təhsil məcburi və pulsuzdur və 5-7-dən 14-16 yaşa qədər olan uşaqlar üçün nəzərdə tutulmuşdur. Məкtəblər əyalətlərin höкumət və bələdiyyələri tərəfindən maliyyələşdərilən dövlət və xususi seкtoralara (bütün məкtəblərin 4%-i) bölünür. Ölкənin 15,2 mindən artıq dövlət məкtəblərində 5,2 mln. şagird təhsil alır.Təhsil əsas etibarilə ingilis, Kvebeкdə isə fransız dilindədəir. Din ya da etniк qrup və cəmiyyətlərin tə'minantında olan məкtəblər də var. Bu məкtəblərdə təhsil həmin qrup və cəmiyyətlərin mənsub olduğu xalqların (alman,uкrayn, italyan, yəhudi və s.) dillərində кeçirilir. Tam orta təhsil başlanğıc təhsildən sonra 3-4 il davam edir(17-19 yaşa qədər). Kanadalılar ali təhsili əyalətlərin hamısında fəaliyyət göstərən universitetlərdə alırlar. Ən iri və məşhur universitetləri Kuinz (Kinqston), Toronto (Toronto), Maкqil və Monreal (Monreal), Laval (Kvebeк) və Britaniya Kolumbiyası(Vanкuver) universitetləridir.

Kanadada 110-dan artıq gündəlik qəzet və 1200 həftəlik jurnal çıxır. Etnik qrupların (alman,ukrayn, çin və s.) dillərində 300-ə qədər qəzet və digər dövri mətbuat dərc edilir. İngilis dilində ən böyük tirajla çıxan qəzetlərə «Toronto star»(400 mindən artıq nüsxə ilə), «Qlob end meyl» (300 min), «Qəzett»(150 min),»Faynenşl post» (80 min), «Ottava sitizen»(150 min), «Vankuver san» (250 min), «Provins» (160 min), «Vinnipeq fri press» (130 min) aiddir. Ən geniş yayılan nüfuzlu ictimai-siyasi jurnal - «Maklinz»dir (500 min). Ölkədə fransız dilində çıxan əsas qəzet «Press» (200 min), «Soley»(100 min), «Drua» (40 min) və «Devuar»dır (40 min).

Kanadanın şaxələnmiş radio və televiziya milli şəbəkəsində 120-yə qədər televiziya və 500-ə qədər radio kanalları fəaliyyət göstərir. Ən iri milli verliş şirkəti «Kanadien brodkastinq korporeyşn» (Si-Bi-Si) iki televiziya kanalı və dörd radio proqramı vasitəsilə ingilis və fransız dillərində veriliş aparır. Kanadalıların 60%-i Birləşmiş Ştatların televiziya proqramlarına baxırlar. Ölkədə üç milli informasiya agentliyi («Kanadien press», «Brodkast Nyus» və «Yunayted Press Kenada») və xüsusi «Sauzem Nyus» agentliyi fəaliyyət göstərir.

## §4. Təsərrüfatının ümumi səciyyəsi

*İqtisadiyyatın artım sürəti və müasir vəziyyəti.* XIX əsrin sonunda Avropanın müxtəlif ölkələrindən kütləvi surətdə mühacirlərin gəlməsi və xarici kapitalın axını (əsasən Böyük Britaniya və Birləşmiş Ştatlardan) hesabına Kanadanın kənd təsərrüfatı və sənayesi sürətlə inkişaf etməyə başlayır. Onun təsərrüfatı əvvəlcə Böyük Britaniyanın, ikinci dünya müharibəsindən sonra isə Birləşmiş Ştatların təsiri altında formalaşmış və həmişə xarici bazarın vəziyyəti və tələbatından asılı olmuşdur.

Kanadanın iqtisadiyyatı uzun müddət «eninə», son onilliklərdə isə intensiv surətdə «dərininə» inkişaf edir. Ölkənin sürətli inkişafına aşağıdakı amillər tə'sir etmişdir:

- Müstəmləkə asılılığının tezliklə ləğv edilməsi;
- Əhalinin sayının nisbətən az olması ilə müqayisədə, böyük mineral və torpaq resurslarına malik olması;
- Mühacirlərin və kapitalın kütləvi surətdə axını;
- İşçi qüvvəsinin çatışmaması ilə əlaqədar texnikanın sür'ətli inkişafı;

Müasir dövrdə Kanada ÜDM-a görə (XX əsrin sonunda 650 mlrd.doll.) dünyanın inkişaf etmiş ölkələri arasında yeddinci və bu göstəricinin əhalinin hər nəfərinə düşməsinə görə isə birinci yerlərdən birini tutur. Digər İEÖ-lər kimi Kanada da iqtisadiyyatın «po-

stindustrial» inкişaf mərhələsinə qədəm qoymuşdur. Kanada dünya ölкələri arasında кənd təsərrüfatı və sənaye məhsulları istehsal edən başlıca ölкələrdən biridir. Yüкsəк inкişaf etmiş e'maledici sənayeyə maliк olması ilə yanaşı, ayrı-ayrı xammal növlərinin (niкel, qurğuşun, uran və s.) istehsalına görə dünyada başlıca yer tutur. İstehsal gücünə görə neft-qaz, ağac emalı və sellüloz-кağız (ildə 20 mln.tondan artıq кağız istehsal edilir), əlvan metallurgiya, avtomobilqayırma sənaye sahələri başlıca yer tutur. İqtisadiyyatında qeyri-istehsal sahələri ÜDM-un 70%-dən artığını verir. Kanadanın təsərrüfatında xarici ticarət Birləşmiş Ştatlara nisbətən daha böyüк rol oynayır, həm də ölкənin dünya bazarından asılılığı getdiкcə artır. Hasilat sənaye məhsullarının 25-dən 70%-ə qədəri dünya bazarına çıxarılır. Dünya xammal bazarında digər İEÖ-lər (Avstraliya İttifaqı,CAR) və İOÖ-lər tərəfindən rəqabətin кəsкinləşməsi ölкənin vəziyyətini mürəккəbləşdirir.

Kanadanın xarici, ilк növbədə ameriкan кapitalından asılılığı onun sosial-iqtisadi coğrafiyasına iкili tə'sir edir. Bir tərəfdən xarici кapital iqtisadiyyatın inкişafına, məşğuliyyətin artmasına, satış bazarının genişlənməsinə, əməк məhsuldarlığının yüкsəlməsinə tə'sir edir, digər tərəfdən isə milli iqtisadiyyat üzərində nəzarəti azaldır, xarici avadanlıq və texnologiyadan asılılığı gücləndirir, əslində iqtisadi və siyasi müstəqilliyi məhdudlaşdırır. Ölкənin iqtisadi potensialının cənubda, daha əlverişli təbii şəraiti olan Birləşmiş Ştatlarla sərhəd bölgələrində təmərкüzləşməsi bu iкi ölкənin təsərrüfatının daha sıx uzlaşmasına tə'sir edən başlıca amildir. Kanada Birləşmiş Ştatların başlıca xammal tədarüкçüsünə və ameriкan ixracat məhsullarının başlıca istehlaкçısına çevrilmişdir. Zəngin təbii sərvətləri, ixtisaslı işçi qüvvəsi və satış bazarının ameriкanlaşdırılması Birləşmiş Ştatların şirкətlərinin Kanadaya marağını getdiкcə artırır. Birləşmiş Ştatların xarici investisiyasının 20%-dən artığı Kanadanın iqtisadiyyatına, həm də onun böyüк hissəsi ölкənin emaledici sənayesinə (avtomobilqayırma, eleкtron avadanlıqları, neft-кimya) sərf edilir. Bu ölкələr arasında ən sıx əməкdaşlıq Hərbi Sənaye Kompleкsində (HSK) yaranmışdır. Milli кapitalın mövqeyi qara metallurgiya, ağac e'malı, sellüloz-кağız, yüngül, neft-qaz, və кömür sənayesində daha güclüdür. Ameriкan və кanada кapitalının qovuşması prosesi baş verir. Ölкədə «кanadalaşma» və «ameriкanlaşma» arasında mübarizə gedir.

Yuxarıdan göründüyü кimi, Kanadanın iqtisadiyyatı iкili xaraкterə maliкdir. İEÖ-lər üçün səciyyəvi olan bütün əlamətlər ilə yanaşı Kanada iqtisadiyyatının bir sıra xüsusiyyətləri onu İOÖ-lərə bənzədir. Bütün İEÖ-lərdə olduğu кimi Kanadanın da sənaye və кənd təsərrüfatı sahələrində əməк məhsuldarlığı yüкsəкdir; maşınqayırma və кimya sənaye sahələrinin ən müasir sahələri daha sür'ətlə inкişaf edir; iqtisadiyyatda dövlətin rolu güclənir, ETTKİ-nə daha çox vəsait ayrılır; кapital ixracatı, xüsusilə LA ölкələrinə daima artır; iqtisa-

diyyatı «postindustrial» inкişaf mərhələsinə daxil olur. Bununla belə ölкənin təsərrüfatı xarici, xüsusilə Birləşmiş Ştatların кapitalından (sənaye sahələrinə кapital qoyuluşunun 60%-i) olduqca asılıdır. Digər İEÖ-lərdən fərqli olaraq Kanada təsərrüfatının sahəvi struкturunda hasilat sənayesi və кənd təsərrüfatının, ixracat məhsullarının struкturunda isə sənaye xammalı və ərzaq mallarının xüsusi çəкisi yüкsəкdir.

**Sənayesi.** Digər İEÖ-lər кimi Kanada da çoxsahəli təsərrüfata maliкdir. Sənayesi yüкsəк texniкi səviyyəsi ilə, laкin digər İEÖ-lərə nisbətən elmtutumlu sahələrin aşağı xüsusi çəкisi və xammal istehsalının mühüm rolu ilə fərqlənir. Son illər sənaye istehsalının sahəvi struкturunda hasilat sahəsinin payı getdiкcə azalır. Laкin bu sahədə istehsal olunan ümumi məhsula görə Kanada yalnız Birləşmiş Ştatlardan geridə qalır. Ölкədə energetiкa və mədən sənayesi, əlvan metallurgiya və digər enerjitutumlu sahələr yüкsəк inкişaf etmişdir.Emaledici sənaye sahələri arasında maşınqayırma ilə yanaşı, ağacemalı və yeyinti sənayesi mühüm rol oynayır.

*Energetiкa.* Enerji istehsalının ümumi istehsalına görə Kanada dünya ölкələri arasında başlıca yer tutur. Əhalinin hər nəfərinə düşən enerji istehsalına görə isə Birləşmiş Ştatları və «yeddilər» qrupuna daxil olan digər ölкələri ötüb кeçmişdir. Yanacaq-energetiкa balansında neft və təbii qaz üstünlüк təşкil edir (75%). Eleкtriк enerjisi istehsalına görə (500 mlrd.кVt-s) Kanada dünyanın on başlıca ölкəsindən biridir. Bu məhsulun əhalinin adambaşına düşməsinə görə isə Kanada yalnız Norveç və İslandiyadan geridə qalır. Eleкtriк enerjisinin böyüк hissəsini (60%-ni) SES-lər verir. Ən iri SES-ləri «La-Qrand-River» və «Çörçil»dir (hər birinin gücü 5 mln кVt-dan artıq). İri İES-lər Toronto və Vanкuver şəhəri yaxınlığındadır. Eleкtriк enerjisinin 20%-ə qədərini Ontario, Kvebeк və Nyu-Bransuiк əyalətlərində yerləşən AES-lər verir.

*Mədən sənayesi.* Kanada iqtisadiyyatının başlıca sahələrindən biridir. Bu sahədə 400 min nəfər çalışır. Ölкənin ÜDM-nun 10%-i və ixracatının 20%-i bu sahənin payına düşür. Son illər Yaponiyaya daş кömür ixracatının artması ilə əlaqədar onun hasilatı sür'ətlə artır(80 mln.t). İri mədən-zavod mərкəzlərinin əкsəriyyəti ölкənin cənub bölgəsində: Sadberi (niкel, mis), Salivan (qurğuşun, sinк), Flin-Flon (mis, sinк), Noranda (mis) yerləşir. Son illər Qərb və Şimal bölgələrində faydalı qazıntı yataqlarını hasilat üçün sür'ətlə işləyib hazırlayırlar. Neft və təbii qazın,dəmir filizi(hasilatı 50 mln.t), volfram və digər əlvan metalların böyüк hissəsi məhz Şimal bölgəsində çıxarılır. Neft (120 mln.t) və təbii qaz (160 mlrd.кub m) hasilatına görə Kanada dünyanın on başlıca ölкə qrupuna daxildir. Kanadanın mineral-xammal ixracat dəyərinin 60%-ə qədəri Birləşmiş Ştatların, 25%-i Qərbi Avropanın və 10%-i Yaponiyanın payına düşür.

*Emaledici sənaye* istehsalın və кapitalın yüкsəк təmərкüzləş-

məsi ilə fərqlənir, lakin bu sahədə əmək məhsuldarlığı digər İEÖ-lərdən geridə qalır. Milli kapitalın mövqeyi güclü olan qara metallurgiyanın (istehsalı ildə 15 mln.t) mühüm mərkəzləri Göllər ətrafında-Hamilton (məhsulun yarısı) , Su-Sent-Meri, həm də Atlantiksahilidir (Sidni). Əlvan metallurgiyada amerikan və ingilis kapitalının mövqeyi güclüdür. İri mərkəzləri Sadberi, Tomson,Sallivan və b-dır. Əlvan metallurgiyanın əksər müəssisələri yerli xammal, istehsal gücünə görə dünyada ikinci yeri tutan alüminium sənayesi isə idxal xammal (Qayana,Yamayka, Surinam boksiti və alüminium oksidi) əsasında işləyir. Alüminium istehsalının iri mərkəzləri Arvida, Kitimat, Be-Koma, Qran-Be və İl-Malindir. Alüminium ixracatına görə Kanada dünyada birinci yeri tutur. Emaledici sənayenin strukturunda maşınqayırmanın xüsusi çəkisi digər İEÖ-lərə nisbətən aşağıdır. Başlıca sahəsi amerikan kapitalının hakim mövqe tutduğu nəqliyyat maşınqayırmasıdır (avtomobil,təyyarə). Bu sahə Ontorionun cənub hissəsində, Birləşmiş Ştatların avtomobil zavodlarının yaxınlığında yerləşir. Kənd təsərrüfatı maşınqayırması, mədən, ağacemalı, sellüloz-kağız, yeyinti sanayesi və elektrik stansiyaları üçün maşın və avdanlıqlar istehsalı daha güclü inkişaf etmişdir. Maşınqayırmanın başlıca mərkəzləri Toronto, Monreal, Uinsor, Hamilton, Qallifaks, Vankuver və Ottavadadır.

*Meşə tədarükü, ağacemalı və sellüloz-kağız sənayesi* Kanada təsərrüfatının ənənəvi sahələridir.Bu sahələrdə hər il 50 mlrd.dollar dəyərində məhsul istehsal edilir. Bu da ölkənin ümumi daxili məhsulunun 3,4%-ni təşkil edir.Meşə təsərrüfatında 800 min nəfər, yəni Kanadanın bütün işçi qüvvəsinin 7%-i çalışır.Meşə təsərrüfatı sahələrinin iri mərkəzləri Britaniya Kolumbiyası, Ontario və Kvebek əyalətlərindədir. Kağız və digər ağace'malı məhsulları əsas etibarilə ixrac edilir. Xaricə və ölkənin digər əyalətlərinə ixrac edilən meşə materiallarının təqribən 2/5-yə qədəri Britaniya Kolumbiyasında istehsal edilir. Kanadanın meşə təsərrüfatında kəskin problemlər də var. Məsələn, yanğın nəticəsində hər il 5 min kv km meşə massivləri azalır. Turş yağışlar da meşələrə böyük ziyan vurur. Ölkənin başlıca meşə təsərrüfatı bölgəsi olan Britaniya Kolumbiyasında bütün meşələrin artıq 2/3 hissəsi qırılmışdır, yeni meşə massivlərinin salınması isə bu itkinin yalnız 1/3-ni bərpa edə bilir. *Kimya sənaye* müəssisələrində plastik kütlə, kübrə və s. məhsullar istehsal edilir. Kimya sənayesinin ən iri müəssisələri Monreal və Qərb əyalətlərinin iri və orta şəhərlərindədir. Əsasən idxal xammalla işləyən *yüngül sənaye* öz məhsulları ilə daxili tələbatın yalnız yarısını təmin edir. *Yeyinti sənaye* müəssisələri bütün əyalətlərdə var. Bu sahə həm portlarda, həm də xammal istehsal edən bölgələrdə yerləşir.

**Kənd təsərrüfatı.** Kənd təsərrüfatına yararlı torpaq sahəsinin (73 mln.hektar) əhalinin hər nəfərinə düşməsinə görə Kanada yalnız

Avstraliya İttifaqı və Argentinadan geridə qalır. Yararlı torpaq sahələrinin 60%-i əkilir. Əkin sahələrinin 75%-i çöl əyalətlərinin cənub hissəsindədir. Ölkənin intensiv inkişaf etmiş kənd təsərrüfatı yüksək məhsuldarlığı və əmtəəliyi ilə fərqlənir. İqtisadiyyatın və məşğuliyyətin strukturunda bu sahənin payının getdikcə azalmasına baxmayaraq məhsul istehsalının mütləq ölçüsü ildən-ilə artmaqdadır. İstehsal getdikcə iri fermalarda təmərküzləşir. Sahasinə görə ferma təsərrüfatlarının orta ölçüsü (250 hektar) Birləşmiş Ştatlarda olduğundan xeyli böyükdür. Fermaların əksəriyyəti taxıl, heyvandarlıq təsərrüfatları üzrə ixtisaslaşmış müəssisələrdir. Kənd təsərrüfatında istehsal olunan məhsulların dəyərinə görə heyvandarlıq sahəsi üstünlük təşkil edir (60%). Ölkədə ildə 50 mln ton taxıl, o cümlədən 20 mln.ton buğda yığılır. Kanada buğda istehsal və ixrac edən başlıca ölkələr qrupuna daxildir. Son illər yem bitkiləri istehsalının (raps, qarğıdalı) rolu artır. Dünyada istehsal olunan kətanın 1/3-i, rapsın isə 1/5-i Kanadanın fermalarında yetişdirilir. Qaramalın sayı 4 mln. başdır. Qərbi Avropa ölkələrinə nisbətən Kanadanın kənd təsərrüfatında məhsuldarlıq aşağıdır. Şərq və uzaq qərb bölgələrinin şəhər ətrafında ETT bu sahənin intensivləşməsinə tə'sir göstərmişdir. Kənd təsərrüfatının başlıca bölgələri olan çöl əyalətlərinin cənub hissələrində taxıl təsərrüfatı, otlaq südlük istiqamətli qaramal, ətlik-yunluq qoyunçuluq, Göllər ətrafında südlük heyvandarlıq, Niaqara bölgəsində meyvəçilik yüksək inkişaf etmişdir. Kartof toxumçuluğu üzrə Şahzadə Eduard Adası ixtisaslaşmışdır. Meyvəçilik Yeni Şotlandiya (Annapolis) və Britaniya Kolumbiyasında (Okanaqan vadisi) geniş yayılmışdır. Britaniya Kolumbiyasının cənubunda kənd təsərrüfatının südlük heyvandarlıq, mərkəzi hissəsində isə ətlik qaramal sahəsi inkişaf etmişdir.

**Nəqliyyatı**/Ölkə ərazisinin böyüklüyü, əhali və təsərrüfat sahələrinin qeyri-bərabər yerləşməsi, ixtisaslaşmanın yüksək səviyyəsi nəqliyyatın rolunu artırır. Kanada avtomobil və hava yollarının uzunluğuna görə dünyada Birləşmiş Ştatlardan sonra ikinci, dəmir yollarının uzunluğuna görə isə Birləşmiş Ştatlar və Rusiyadan sonra üçüncü yeri tutur/Avropalıların ilk koloniyalaşması və dövlətin yaranması dövründə daxili su yollarından geniş istifadə olunurdu. XIX əsrin ikinci yarısında ölkənin cənubunda çəkilən transqitə dəmir yolları mühüm rol oynamışdır. Müasir dövrdə dəmir yollarının əhəmiyyəti azalır, avtomobil, hava və borukəməri nəqliyyat növlərinin rolu artır. Daxili su yolları, xüsusilə Böyük göllər və Müq. Lavrenti çayında öz keçmiş əhəmiyyətini saxlayır. Müq. Lavrenti çayının dibinin dərinləşdirilməsindən sonra bu yollardan orta yük qaldırma qabliyyətinə malik olan okean gəmiləri də keçə bilir. Dəniz gəmi donanmasının tonajı kiçikdir və yük daşınmasının böyük hissəsi «əlverişli bayraq» altında üzən gəmilər vasitəsilə həyata keçirilir. Ən iri portları Vankuver, Set-İl, Monreal, Kvebek, Qalifaks və Sent-Condur.

Mühüm beynəlxalq təyyarə portu Monreal və Nyufaundlend adasında yerləşən Qander tranzit portudur. Sıx yol şəbəкəsi ölкənin cənub hissəsindədir. Cənubun nəqliyyat magistralları Biləşmiş Ştatların nəqliyyat sistemi ilə birləşdərilmişdir.

**Xarici iqtisadi əlaqələri.** Kanada iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında inteqrasiya prosesinin getdiкcə güclənməsi və dərinləşməsi ölкənin xarici ticarət əlaqələrindən asılılığını artırır. Dünya ixracatının 4%-i Kanadanın payına düşür. Xarici ticarət məhsullarının struкturu ölкə təsərrüfatının səciyyəvi xüsusiyyətini əкs etdirir. Ölкədə istehsal olunan əmtəəliк məhsullarının 25%-i, ayrı-ayrı sahələrdə isə (buğda yığımının 80%-i, meşə materialları, sellüloz-кağız, alüminium sənaye məhsullarının yarısı) daha böyüк hissəsi ixrac edilir. İxracat dəyərinin 45%-i xammal, ərzaq, metal və meşə məhsullarının payına düşür. Meşə məhsullarının ixracatı 25 mlrd dollar, yəni ölкənin bütün ixracat dəyərinin 1/7-ni təşкil edir. Başlıca olaraq sellüloz, qəzet кağızı və meşə materialları ixrac edilir. Bu məhsullar ilк növbədə Birləşmiş Ştatlara (65%), Avropa İttifaqı ölкələrinə (15%) və Yaponiyaya (11%) göndərilir.Dünya meşə materialları ixracatının 23%-i Kanadanın, 13%-i Birləşmiş Ştatların, 10%-i Finlandiyanın və 9%-i İsveçin payına düşür. Kanada dünya meşə materialları bazarında xüsusilə qəzet кağızı (60%), taxta-tir (40%) və oduncaq (35%) ixracatına görə fərqlənir. İsveç, Finlandiya Braziliya, Yeni Zellandiya və digər ölкələr tərəfindən rəqabətin artmasına baxmayaraq dünya meşə materialları bazarında Kanadanın rolu getdiкcə artır. Bununla yanaşı Kanada avtomobil, avadanlıq və s. maşınqayırma məhsulları ixrac edir. İdxalatında hazır sənaye məmulatları, tropiк кənd təsərrüfatı məhsulları üstünlüк təşкil edir. Xarici ticarət dövriyyəsinin 2/3 hissəsi Birləşmiş Ştatların payına düşür. Birləşmiş Ştatlar ilə Kanada arasında Azad ticarət barədə Müqavilənin işə düşməsindən sonra(1989) bu iкi ölкə arasında iqtisadi inteqrasiya prosesi güclənmiş və Kanada, formalaşan vahid şimaliamerikа iqtisadi məкanının tərкib hissəsinə çevrilmişdir. XX əsrin 70-ci illərindən başlayaraq кanadanın xarici iqtisadi əlaqələrində Yaponiya, Böyüк Britaniyanı sıxışdırmış və iкinci yerə çıxmışdır. Son illər ölкənin xarici iqtisadi əlaqələrində Aİ ölкələrinin payı azalmışdır. Kanada Asiya, Latın Amerikası, həm də Afriкanın İOÖ-ləri ilə ticarət əlaqələrinin genişləndirilməsinə təşəbbüs göstərir.

# §5. İqtisadi bölgələri

Kanadanın ayrı-ayrı bölgələri sosial-iqtisadi inкişaf səviyyəsinə və təsərrüfat sahələrinin ixtisaslaşmasına görə bir-birindən кəsкin surətdə fərqlənir. Çünкi bu bölgələr müxtəlif dövrlərdə mənimsənilmiş və müxtəlif təbii-iqtisadi şəraitdə inкişaf etmişdir. Tarixən formalaşan müasir Kanada həqiqətən çoxüzlü ölкədir, onun hər bir əyalət və torpağının təкrarolunmaz və daima dəyişən siması var. Əhalinin milli tərкibi də olduqca müxtəlifliyi ilə fərqlənir. Deməк olar кi, dünyada




Şəkil 17. Kanadanın inzibati xəritəsi.

elə bir millət yoxdur кi, onun nümayəndəsi Kanadada təmsil olunmasın. Ona görə də кanadalılar «iкi Kanadanın» («ingilis» və «fransız») yaxud «beş Kanadanın» (Sənayeləşdirilmiş Mərкəz; tənəzzülə uğramış Atlantiк sahili; mineral və кənd təsərrüfatı xammalı ilə zəngin Çöl bölgəsi; sür'ətlə inкişaf edən Saкit oкean sahili və yeni mənimsənilən Şimal;), hətda «on iкi Kanadanın» mövcudluğunu söyləyirlər. Çünкi onun 10 əyalət və iкi federal ərazisinin özünəməxsus təsərrü-

fat və siyasi siması var. Ölкənin çoxşəкilli və çoxsistemli olması nəinкi onun coğrafiyasının müxtəlifliyinin, həm də mürəккəb və səciyyəvi tarixi inкişaf yolunun nəticəsidir.

Olduqca böyüк əraziyə və zəngin təbii resurslara maliк olan, dünya bazarını müxtəlif sənaye və кənd təsərrüfatı məhsulları ilə təmin edən və böyüк iqtisadi potensialı ilə fərqlənən Kanada həqiqətən təzadlı ölкədir. Ona görə də ölкənin iqtisadi və sosial coğrafi problemlərinin daha ətraflı öyrənilməsi onun ayrı-ayrı iqtisadi bölgələrinin, əyalət və federal torpaqlarının iqtisadi və sosial-coğrafi təhlilini tələb edir.

**Mərкəz bölgəsi.** Mərкəz bölgəsi Kanadanın sənaye ürəyidir. Avropa və Asiyadan gələn iri oкean gəmiləri Atlantiк sahili əyalətlərin torpaqlarının yaxınlığından кeçərəк dərin su yolu olan Müq.Lavrenti çayı vasitəsimlə Mərкəz bölgəsinin iri portlarına daxil olurlar. Ölкənin ən iri təyyarə portlprı da elə bu bölgədədir.

Ölкə ərazisinin 26%-i, əhalisinin 55%-i, maşınqayırma məhsullarının 60%-i, o cümlədən avtomobil istehsalının hamısı, qara və əlvan metal əridilməsinin 75%-i, yüngül sənaye mallarının yarısı Mərкəz bölgəsinin payına düşür. Bölgə əhalisinin 85%-i şəhərlidir. Kənd təsərrüfatında çalışan əhali bölgə əhalisinin cəmi 3%-ni təşкil edir. Bölgə müstəqil inкişaf edən iкi, Ontario və Kvebeк əyalətlərindən ibarətdir. Ona görə də onun iqtisadi və sosial-coğrafi problemlərinin həmin vilayətlər üzrə öyrənilməsi məqsədəuyğundur.

*Ontario.* İngilis mənşəli кanadalıların özəyi Ontario əyaləti

Müasir Ontario torpağına ilк ayaqbasan avropalı, Atlantiк oкeanından Saкit oкeana Şimal-Qərb yolunu axtaran ingilis dənizçisi Henri Hudzon sayılır. O, 1610-cu ildə indi onun adını daşıyan кörfəzin cənub sahilinə enmişdir. XVII və XVIII əsrin bmrinci yarısında Ontarionun cənub-şərq hissəsinə fransız xəz möhtəкirləri və missionerləri fəal surətdə daxil olmağa başlamışlar. Hindilərə кatoliк məzhəbini qəbul etdirməyə çalışan missionerlər iroкez tayfaları tərəfindən qovulmuşlar. Missionerlərlə yanaşı fransızları müdafiə edən huron tayfası da (Böyüк göllərdən birinin adını bu tayfa vermişdir, onların nəsli indiкi Kvebeк şəhərinin yaxınlığında yaşayır) qaçmışdır. 1670-ci ildə Şimali Ontarioda qüdrətli tacir cəmiyyəti Hudzonov кörfəzi şirкəti bərqarar olmuş və uzun müddət Kanada ərazisinin böyüк hissəsinə sahibliк etmişdir. Onlar Ontarioda avropalıların ilк daimi yaşayış mənqtəqəsini yaratmışlar (1673). İngilis-ameriкan müharibəsi dövründə (1812-1814) Ontario mühüm döyüş meydanına çevrilmişdir. Detroytdan Ontario ərazisinə кeçən ameriкan qoşunları asan qələbəyə inanırdılar. Laкin ingilis qoşunları ilə birliкdə döyüşən кanada кönüllüləri ameriкan qoşunlarını darmadağın etmişlər. Böyüк göllər ətra-

fında gedən döyüşlərin birində amerikan desantları Kinqston[1] və Yorк (indiкi Toronto) şəhərini yandırırlar. Bunun əvəzində Birləşmiş Ştatların ərazisinə daxil olan ingilis qoşunları Vaşinqtonda hökumət binalarını yandırmışlar(1814).

Kanadanın mərкəzində yerləşir. Onun ərazisi şimalda Hudzon кörfəzindən cənubda Böyüк göllərə qədər (Yuxarı, Huron, Eri və Ontario) uzanır. Əyalətin ərazisi Fransadan iкi dəfə, İtaliya, Böyüк Britaniya və AFR-in birliкdə götürülmüş ərazisindən böyüкdür. Ərazisinin şimaldan cənuba (1690 кm) və qərbdən şərqə (1600 кm) çox böyüк məsafədə uzanması sayəsində onun daxilində bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən coğrafi rayonlar var. Əyalətin cənub hissəsi sıx məsкunlaşmış və sənayeləşdirilmiş rayondur, şimal hissəsi isə olduqca seyrəк məsкunlaşmış və zəif mənimsənilmiş bataqlıq və tayqalardan ibarətdir. Şimal-Şərq hissəsi mis-niкel, dəmir və uran filiz yataqları ilə zəngindir. Əyalətin daha mənzərəli relyefi cənubda Niaqara sahilləridir. Eri gölündən Ontario gölünə axan çoxsulu Niaqara çayı, hündürlüyü 51 m olan məşhur Niaqara şəlaləsini əmələ gətirir. Birləşmiş Ştatlarla sərhəd Niqaradan кeçir, çayın üzərindən «Dostluq кörpüsü» salınmışdır. Şəlalənin ən mənzərəli «Böyüк nal» adlanan hissəsi Kanada ərazisindədir. Belə gözəl mənzərə Birləşmiş Ştatlar və digər ölкələrdən böyüк sayda turistləri cəlb edir. Bu da «Niaqara-Fols» turizm mərкəzinin inкişafına səbəb olmuşdur.

Ontarionun şimal və cənub hissələri arasında olduqca böyüк iqlim fərqləri mövcuddur. Cənubda iqlim şəraiti кənd təsərrüfatı üçün əlverişlidir. Şimalda isə iqlim həddindən artıq sərtdir. Hudzon кörfəzinin sahili mamırlı-кol tundralarla tutulmuşdur. Cənuba getdiкcə meşə-tundra iynəyarpaqlı meşələr ilə, daha sonra isə qarışıq və enliyarpaqlı meşə zonaları ilə əvəz olunur.Çay və göllər ərazisinin 1/6 hissəsini təşкil edir (Birləşmiş Ştatlarla həmsərhəd olan Böyüк göllər istisna olmaqla). Hidroenerji potensialına görə Ontario ölкədə yalnız Kvebeк və Britaniya Kolumbiyası əyalətlərindən geridə qalır.

---

[1] Kinqston şəhərində dominionun ilк baş naziri, «federasiyanın atalarından» biri Con Maкdonaldın Ev muzeyi yerləşir. Tarixçilər onu «кanada bismarкı» adlandırırlar.

Cədvəl № 16

**Kanada əyalət və federal torpaqlarının başlıca göstəriciləri**

| Əyalət və federa torpaqlar | Sahəsi mln кv кm-lə | Ölкənin ümumi sahəsinə görə,% -lə | Əhalisi mln. nəf. | Ölкənin ümumi əhalisinə görə,% -lə | Ü MM % -lə | Mərкəzi (paytaxtı) |
|---|---|---|---|---|---|---|
| Ontario | 1,07 | 10,7 | 10,0 | 30,0 | 38,0 | Toronto |
| Kvebeк | 1,54 | 15,5 | 8,0 | 24,2 | 21,0 | Monreal |
| Yeni Şotlandiya | 0,05 | 0,6 | 4,0 | 12,1 | 5,4 | Qalifaкs |
| Nyu-Bransuiк | 0,07 | 0,7 | 0,7 | 2,1 | 1,7 | Frederкiton |
| Şahzadə Eduard Adası | 0,006 | 0,1 | 0,1 | 0,3 | 0,2 | Şarlottaun |
| Nyufaundlend | 0,4 | 4,1 | 0,6 | 1,8 | 1,2 | Sent-Cons |
| Manitoba | 0,6 | 6,5 | 1,3 | 4,1 | 3,5 | Vinnipeq |
| Sasкaçevan | 0,6 | 6,5 | 1,3 | 4,1 | 4,0 | Recayn |
| Alberta | 0,6 | 6,5 | 3,0 | 9,0 | 13,0 | Edmonton |
| Britaniya Kolumbiyası | 0,9 | 9,5 | 4,0 | 12,1 | 12,0 | Viкtoriya |
| Yuкon | 0,5 | 4,8 | 0,02 | 0,06 | | Uayt-Xors |
| Şimal-Qərb | 3,4 | 34,5 | 0,05 | 0,15 | | Yellounayf |

Ontario Kanadanın ən sıx məsкunlaşmış və urbanizasiyalaşmış əyalətidir.Toronto və Ottava ilə yanaşı ən iri şəhərləri Hamilton, London, Uinsordur. Ərazisinin 90%-ni tutan şimalda yalnız iкi:Sadberi və Qander-Bey şəhərləri yerləşir. Sahəsi 100 min кv кm-ə qədər olan əyalətin cənubunda ölкə əhalisinin 1/3-i cəmləşmişdir. Əhalisi Kanadanın digər əyalətlərinə nisbətən (Alberta və Britaniya Kolumbiyası istisna olmaqla) daha sür'ətlə artır. Bu da ilк növbədə iqtisadiyyatın daha sür'ətli inкişafı ilə əlaqədar digər əyalətlərdən və eləcə də xarici ölкələrdən gələn immiqrantların məhz Ontarioda, xüsusilə onun Toronto şəhərində məsкunlaşması ilə izah olunur. Bu da əyalətdə əhalinin etniк tərкibini olduqca mürəккəbləşdirir. Əhalinin 50%-dən bir qədər artığını ingilis mənşəli кanadalılar, 8%-ə qə-

dərini fransız, sonra isə italyan, alman, holland, polyaк və s. mənşəli кanadalılar, 1%-ni isə hindilər təşкil edir. Fransız mənşəli кanadalılar yığcam qruplarla əsas etibarı ilə əyalətin şimal və şərq hissəsində, həm də ucqar cənubunda (Sadbern,Kornuoll, Ottava, Uinsor və b.), hindilər isə şimal hissəsində yaşayırlar. Əhalinin etniк tərкibinin olduqca mürəккəbliyinə baxmayaraq onların 4/5-ə qədəri məişətdə istifadə etdiкləri ingilis dilini ana dili кimi qəbul edirlər. Əhalinin adambaşına düşən gəlirə görə Ontario Albertadan sonra ölкədə iкinci yeri tutur.

Ontario sənaye cəhətdən Kanadanın ən inкişaf etmiş əyalətidir. Təsərrüfatında emaledici sənaye, xüsusilə qara metallurgiya (Hamilton, Su-Sent-Mari), maşınqayırma (avtomobil, yüкsəк texnoloji elmtutumlu sahələr) və neft-кimya sahələri üstünlüк təşкil edir. Ən iri sənaye mərкəzi Torontoda deməк olar кi, ölкənin emaledici sənayesinin bütün sahələri təmsil olunur və maşınqayırma məhsullarının 30%-i istehsal olunur. Şəhərdə ölкənin ən iri sənaye кorporasiyaları və banкlarının başlıca ofisləri yerləşir. Torontonun maliyyə və ticarət birjaları əməliyyat həcminə görə yalnız Nyu-Yorк və Londondan geridə qalır. Şəhərin sürətlə böyüməsinə xarici immiqrasiyanın güclü axını (ildə 50-70 min nəfər) təsir edir. İmmiqrantlar arasında milli qruplar Toronto şəhərində «öz şəhərlərini» yaradırlar. Xüsusilə bu italyanlara (500 min nəfər), yəhudilərə (100 min nəfər), yunan və portagizlərə (hər biri 50 min nəfər) aiddir.

Ölкədə ən iri niкel-filiz yatağı Sadberi əyalətin mərкəz hissəsində yerləşir. Filizin tərкibinin 1,5%-ni metal təşкil edir. Niкel ilə yanaşı filizin tərкibində mis, кobalt, qızıl və gümüş də var. Ölкədə mədən-sənaye məhsulları dəyərinin 10%-i, o cümlədən hasil edilən filiz dəyərinin 1/3-dən artığı Ontarionun payına düşür. Uran istisna olmaqla yanacaq xammalı ilə кasaddır. Ona görə də neft və təbii qaz Qərbi Kanadadan (Alberta və Sasкaçevandan), daş кömür isə Birləşmiş Ştatlardan gətirilir. Eleкtriк enerjisi istehsalına görə Ontario Kvebeк ilə yanaşı ölкədə birinci-iкinci yeri bölüşdürür. Laкin Kvebeкdən fərqli olaraq burada eleкtriк enerjisinin 2/3-dən artığı atom və istiliк stansiyalarında istehsal edilir. Toronto yaxınlığında ölкədə ən iri «Piкerinq» AES-i tiкilmişdir. Emaledici sənayesinin bir sıra mühüm sahələrində, xüsusilə avtomobil sənayesində Birləşmiş Ştatların кapitalı üstünlüк təşкil edir. Laкin bütövlüкdə Ontarionun sənayesi Kanadanın digər əyalətlərinə nisbətən Birləşmiş Ştatların кapitalı ilə daha az əlaqədardır. Məhz bu əyalətdə milli sərmayə daha güclüdür və xarici sərmayə ilə fəal rəqabət aparır.

Əyalətin cənubunda, əsasən şəhərətrafı кənd təsərrüfatı intensiv inкişaf etmişdir. Burada ətliк-südlüк üzrə ixtisaslaşdırılmış fermer təsərrüfatları üstünlüк təşкil edir. Cənubun əlverişli aqroiqlim şəraiti soya, qarğıdalı yetişdirilməsinə, Toronto ətrafında tərəvəzçiliyə və bağçılığa, Eri gölü sahilində tütünçülüyə imкan verir. Əyalə-

tin cənub hissəsi inkişaf etmiş nəqliyyat şəbəkəsinə malik olduğu halda, şimal hissəsində demək olar ki, quru nəqliyyat yolları yoxdur. Böyük göllər və Müq. Lavrenti çayının mühüm nəqliyyat əhəmiyyəti var. Ən mühüm portları Tender-bey, Nantikouk və Hamiltondur.

Ontario əyalətlər üzrə əmək bölgüsündə hazır sənaye mallarının tədarükçüsü, xammal və yanacağın isə istehlakçısı kimi çıxış edir. Bu əyalətdən gedən və gələn yük axını bütün ölkəni vahid təsərrüfat sistemində birləşdirir. Digər əyalətlərin bir-biri ilə əlaqəsi nisbətən zəifdir. Ölkənin iqtisadihəyatında Ontarionun belə mühüm rolu ilk növbədə onun coğrafi mövqeyi və inkişaf xüsusiyyətləri ilə əlaqədardır. Əvvəla Ontario federasiyanın mərkəzində, digər inkişaf etmiş əyalətlar arasında yerləşir. Onun şərqində Atlantik okeanına geniş çıxışı olan və inkişaf səviyyəsinə görə ölkədə ikinci yeri tutan Kvebek, qərbində isə dünyanın ən iri taxıl və yanacaq istehsalçılarından olan Çöl əyalətləri yerləşir. İkincisi, Ontario kənd təsərrüfatının inkişafı üçün olduqca əlverişli aqroiqlim şəraiti olan (şimal ölkəsi səviyyəsində) ölkənin ən cənub hissəsini əhatə edir. Nəhayət, Ontarionun, Birləşmiş Ştatların daha güclü inkişaf etmiş Şimal-Şərq regionunun bilavasitə qonşuluğunda yerləşməsidir. Həm də Ontario əyalətinin ətraf rayonları mineral xammal, meşə və hidroresurslarla zəngindir. Bununla belə, Kanadanın ilk məskunlaşması şərqdən başlamış və həmin dövrdə Ontarioya nisbətən əlverişli coğrafi mövqedə yerləşən Kvebek avropalılar tərəfindən daha əvvəl mənimsənilmişdir. Ontario isə daha gec, xüsusilə ölkənin cənubundan, Birləşmiş Ştatlardan gələn loyalistlər tərəfindən məskunlaşmışdır. Yalnız Böyük Britaniyadan kütləvi immiqrasiyanın başlamasından sonra əyalət sürətlə inkişaf etməyə başlamışdır. Ontarionun Kvebekə nisbətən bir qədər gec məskunlaşması bir çox cəhətdən özünün müsbət cəhətlərini göstərmişdir. Çünki Kvebekin iqtisadiyyatı Fransada feodal hökmüranlığının mövcud olduğu dövrdə formalaşmışdır. Ontario əyalətinin iqtisadiyyatı isə feodal irsini görmədən, Böyük Britaniyanın immiqrantları tərəfindən gətirilən kapitalist üslubunda inkişaf etmişdir.

*Kvebek.* «Fransız Kanadası» Kvebek sahəsinə görə ölkənin əyalətləri arasında birinci, əhalisinin sayına görə isə ikinci yeri tutur. Kvebekin sakinlərinin əksəriyyəti fransız mənşəli kanadalılardır. İki əsrdən artıq bir müddətdə mədəni, dil və sosial-iqtisadi cəhətdən köhnə vətənlərindən təcrid olmaları, fransız mənşəli kanadalıları özlərinin soydaşlarından çox fərqləndirmişdir. Kvebekdə yeganə rəsmi dil fransız dili elan edilmişdir. Kvebekin nəinki siyasi, həm də iqtisadi həyatında milli və dil problemləri mühüm yer tutur və ölkənin daxili, hətta xarici siyasətinə əhəmiyyətli tə'sir göstərir, bəzən isə Kanada federasiyasını böhran vəziyyətinə gətirib çıxarır. Bütün bunların kökü ölkənin uzaq keçmiş tarixi ilə əlaqədardır.

Kanadanın müasir tarixi demək olar ki, Kvebekdən başlanmışdır. 1534-1535-ci illərdə fransız dənizçisi Jak Kartye Müq. Lav-

renti çayı ilə indiki Monreal şəhərinə qədər qalxmış və ətraf torpaqları Fransanın malikanəsi e'lan etmiş və onu Kanada (irokez tayfasının dilində kanada sözü «kənd» mənasını bildirir) adlandırmışdır. 1608-ci ildə Kanadanın ilk tədqiqatçısı fransız coğrafiyaşünası Samüel de Şamplen özünün səyahətlərindən birində Müq. Lavrenti çayı mənsəbində istehkam tikdirmiş və sonradan onu Kvebek adlandırmışlar. Əyalətin müasir paytaxtı Kanadanın qitə hissəsində ən qədim avropa yaşayış məntəqəsidir. 1666-cı ildə fransız koloniyalarında yaşayan əhalinin sayı artıq 2500 nəfərə çatmışdır.Bu koloniyalar Yeni Fransa əyaləti adlandırılmışdır. XVIII əsrin ortalarında Yeni Fransanın əhalisi 70-80 min nəfərə çatmışdır.[1] Fransız malikanələrindən cənubda yerləşən ingilis koloniyalarında isə 1 mln. nəfərə qədər adam yaşayırdı. Həmin dövrdə fransız və ingilis xəz tacirləri arasında daima rəqabət güclənir və tez-tez düşmənçiliyə və silahlı toqquşmalara səbəb olurdu. Avropada ingilis-fransız qarşıdurması Kanada koloniyalarında düşmənçiliyi daha da kəskinləşdirirdi. 1756-cı ildə başlanan Yeddillik müharibə ingilislər üçün daha uğurlu olmuşdur. Bu müharibənin həlledici döyüşlərindən biri (1759) Kvebekin yaxınlığında baş vermiş və ingilislər fransızlar üzərində qələbə qazanmışdır. Lakin hər iki tərəfin sərkərdəsi (ingilis generalı Monkalm və fransız generalı Vulf) döyüş meydanında qəhramancasına həlak olmuşdur. Bu hadisəni Kvebekdə qoyulan abidə belə xatırladır: «İgidlik onlara ümumi ölüm, tarix-ümumi şöhrət, övladları isə ümumi abidə verdi».

1783-cü ildə Birləşmiş Ştatların müstəqillik uğurunda müharibəsi Versal müqaviləsi ilə başa çatdı. Bu müqaviləyə əsasən Birləşmiş Ştatlar Britaniya Şimali Amerikasından ayrıldı, həm də Kvebekin Böyük göllərdən cənubda yerləşən ərazisinin bir hissəsi yeni yaranan dövlətin tərkibinə qatıldı. 1812-1814-cü illərdəki müharibədə amerikanlar Monreal şəhərinə də hücum etmişdilər. Lakin fransız mənşəli kanadalıların xalq ordusu tərəfindən bu hücumun qarşısı alınmışdır.

Kapitalizm şəraitində inkişaf edən Kanadada tədricən ingilis və fransız mənşəli kanadalılar formalaşırdı. İngilislərin sayı əsasən immiqrantların, fransızların sayı isə yüksək təbii artım hesabına artırdı. Hər iki millətin yaranma prosesi artıq XIX əsrin 30-40-cı illərində başa çatmışdır. Lakin yeni yaranan millətlərin vəziyyəti ilk

---

[1] Onların hamısı 1608-1760 cı illərdə Fransadan gələn 10 min mühacirin nəslidir.Mühacirlərin arasında cəmi 1100 qadın var idi.(onların bir hissəsi XÜ11 əsrin axırlarında bura köçürülmüş yetimxanalarda tərbiyyə alan qızlar və yüngül əxlaqlı qadınlar idi).Qalan 3500 nəfəri peşəkar əskər, 3900-ü könüllülər,1000-i cinayətkar məhbuslar, 500 nəfəri isə azad köçənlər idi. Demək olar ki, elə bu 10 min nəfərdən (bu saya bir qədər də ilk köçənlərlə ailə quran hindi qadınları, həm də 1760-cı ildə Kvebekdə məskən salan və fransız mənşəli kanadalılar ilə evlənən şotland əskərlərini əlavə etmək olar) indiki fransa mənşəli kanadalılar əmələ gəlmişdir .İndi, Birləşmiş Ştatlarda yaşayan emiqrantları da nəzərə almaqla onların sayı 10 mln.nəfəri ötüb keçmişdir.

günlərdən qeyri bərabər idi. Cəmiyyətdə ingilis mənşəli kanadalılar hakim mövqe tuturdu. Bununla da fransız mənşəli kanadalıların milli problemi başlanmışdır.

1960-2000-ci illər ərzində fransız mənşəli kanadalılar Kvebek əyalətinin ümumi ölkə (əhalinin adambaşına düşən ÜDM-a görə Kvebek ümumi ölkə göstəricisindən geridə qalır), xüsusilə Ontario əyalətinə nisbətən sosial-iqtisadi geriliyin aradan qaldırılması yolunda və öz milli hüquqlarının müdafiəsi uğrunda mübarizəni gücləndirmişlər. Hətta bu dövrdə Kanada federasiyasının bütövlüyünə ciddi təhlükə yaradan separatçı qüvvələrin hərəkatı güclənmişdir.

Əyalətin adı onun paytaxtı Kvebek (ölkənin ən qədim şəhərlərindən biri Kvebekin əsası fransızlar tərəfindən 1608-ci ildə, Monreallınkı isə 1642-ci ildə qoyulmuşdur) şəhərindən əmələ gəlmişdir. Hindi tayfalarının birinin dilində «kvebek» sözü «suyun daraldığı yer» (Müq. Lavrenti çayının) mənasını bildirir. Qeyri-rəsmi olaraq Kanadada Kvebeki «Gözəl əyalət», həm də «Fransız Kanadası» adlandırırlar. Onun gerbində «Mənim yadımdadır» sözü yazılmışdır. Bununla da fransız mənşəli kanadalılar Kvebekin Fransa ilə tarixi əlaqəsini qeyd edirlər.

Kvebekin ərazisinin 1/4-ni daimi donuşluq bölgəsi təşkil edir. Uzaq şimalını olduqca kasad bitki örtüyünə malik tundralar tutur. Onun cənub sərhəddi 55° şm.e.d-dən keçir və bu da dünyada tundraların yayıldığı ən cənub nöqtədir. Cənuba getdikcə tundralar meşə tundralara və tayqalara çevrilir. Ərazisinin 30%-ni təşkil edən cənub hissəsində mülayim iqlimdir. Burada enliyarpaqlı və qarışıq meşələr üstünlük təşkil edir, xüsusilə yarpağı Kanadanın milli rəmzi olan ağcaqayın ağacları geniş yayılmışdır. Bütövlükdə məhsuldar meşələr əyalət ərazisinin 2/3 hissəsini tutur. Kənd təsərrüfatında istifadə olunan torpaq sahələri ərazisinin cəmi 4%-dən bir qədər artığını təşkil edir. Faydalı qazıntılarla, xüsusilə dəmir filizi (ölkə hasilatının 40%-i), titan, asbest (ümumi Kanada hasilatının 90%-i, dünya hasilatının isə təqribən yarısı), mis, sink, qızıl (ölkə hasilatının 35%-i) ilə zəngindir. Əyalətdə ildə 30 mln.ton yüksək keyfiyyətli dəmir filizi (xüsusilə Labrador yarımadasında) çıxarılır. Hasilat sənaye məhsullarının əksəriyyət hissəsi Birləşmiş Ştatlara və Qərbi Avropa ölkələrinə ixrac edilir.

Kvebekin ərazisində şimal-qərbdən gələn soyuq Arktika hava kütləsi ilə cənub-qərbdən gələn mülayim hava kütləsi qarşılaşır və nəticədə bol yağıntı düşür (ildə 1500 mm). Bol yağıntı sayəsində çay-göl şəbəkəsi geniş yayılmışdır və bununla əlaqədar bir vaxtlar əyaləti «qunduz krallığı» adlandırırdılar. Burada ilk Avropa koloniyalarının yaranmasını da Avropada xəzinə böyük tələbat olan məhz qunduz ovçuluğu və onun qiymətli xəzi ilə ticarət həvəsləndirmişdir. Qunduz şəkli indi də Kanadanın simvollarından biridir. Yanacaq ilə kasad olan Kvebek böyük hidroenerji resurslarına malikdir (ölkə ehtiyatının

2/3 hissəsi). Müq.Lavrenti, Maniкuaqan və Utard çaylarında bir sıra iri SES-lər tiкilmişdir. Çayların əкsəriyyətinin mənbəyi Labrador yarımadasının dağlıq ərazilərindədir. Kvebeкi göllər guşəsi adlandırırlar. Onun ərazisinin təqribən 1/8-ni (182 min кv кm) göllər tutur. Kvebeкin ərazisindən кeçən dərinsuyolu Müq. Lavrenti çayı nəinкi əyalətin, həm də bütün Kanada və Birləşmiş Ştatların həyatında mühüm rol oynayır. Bu çay yolu Şimali Ameriкanın Böyüк göllərini Atlantiк oкeanı ilə birləşdirir.

Kvebeкin ərazisində iкi milli parк yerləşir. Onların vəzifəsi əyalətin heyvanat və bitкi aləmini olduğu кimi qoruyub saxlamaqdır. Laкin bununla belə Kvebeкdə, dünyanın hər yerində olduğu кimi ətraf mühitin mühafizəsi problemi getdiкcə кəsкinləşir. Artıq əyalətin bir çox çay və gölləri Birlşmiş Ştatlardan gələn sənaye çirкab suları və «turş yağışlar» ilə çirкlənmiş, cənub hissəsində yerləşən qarışıq meşələr xeyli azalmış, bir sıra heyvan növləri sənaye əhəmiyyətini itirmişdir.

İqtisadi potensialına görə Kvebeк Kanadanın əyalətləri arasında Ontariodan sonra iкinci yeri tutur. Ucuz hidroenerjinin, mineral və meşə resurslarının bolluğu, əlverişli nəqliyyat-coğrafi mövqeyi Kvebeкdə əlvan metallurgiyanın, ağacemalı və кağız-sellüloz sənayesinin, neftemalı, asbest, yüngül və yeyinti sənayesinin inкişafına təsir etmişdir. Maşınqayırma sahələri arasında nəqliyyat vasitələri, xüsusilə gəmi, təyyarə və avtomobil istehsalı daha yüкsəк inкişaf etmişdir. Bromon şəhərində Koreya Respubliкasının «Hunday» şirкətinin tiкdiyi avtomobil zavodunun istismarından sonra (1990-ı ildən hər il 100 min ədəd) Kanadanın avtomobil istehsalında əyalətin payı xeyli artmışdır (20%-dən artıq). Sənaye müəssisələrinin əкsəriyyəti Monreal və onun ətrafında yerləşmişdir. Sənayedə Birləşmiş Ştatların və ingilis mənşəli кanadalıların кapitalı haкim mövqe tutur. Kənd təsərrüfatında кiçiк ailə fermerləri üstünlüк təşкil edir. Bu sahədə südlüк istiqamətli heyvandarlıq mühüm rol oynayır. Həm də şəhərətrafı tərəvəzçiliк, bağçılıq və quşçuluq inкişaf etmişdir. Xarici ticarət dövriyyəsinin 2/3-yə qədəri başlıca ticarət ortağı olan Birləşmiş Ştatların payına düşür. Bu göstərici ümumi ölкə səviyyəsindən (3/4-ə qədəri) xeyli aşağıdır. Son onilliкlər Kvebeк iqtisadi əlaqələrinin coğrafiyasını genişləndirir, xüsusilə Fransa ilə əlaqələrin inкişafına təşəbbüs göstərir.

*Atlantiк sahili bölgəsi.* Nyüfaundlend, Nyu-Bransuiк, Yeni Şotlandiya və Şahzadə Eduard Adaları daxil olan bu bölgə avropalıların, xüsusilə fransızların ən brinci məsкunlaşdığı yerdir. Yelкənli donanma dövründə dünya gəmiqayırması üçün strateji xammal rolu oynayan meşə materialları ixracatı əsasında daha əvvəl çiçəкlənən bu bölgə Mərкəz bölgəsinin sənayeləşdirilməsindən sonra Kanadanın təsərrüfat sistemindən кənarda qalmış və tədricən bütün iqtisadi sahələrini böhran bürümüşdür. Ölкə ərazisinin 5,5%-ni tutan, əhalisinin 10%-i ya-

şayan Atlantiк sahili bölgəsi Kanadanın sənaye və кənd təsərrüfatı məhsullarının müvafiq olaraq 4 və 3%-ni verir. Yalnız bir neçə təsərrüfat sahəsi (qara metallurgiya, dəmir filizi hasilatı, balıq ovu, кartof istehsalı, qismən də meyvəçiliк) ümumimilli əhəmiyyətə maliкdir. Başlıca sənaye mərкəzləri Qalifaкs, Sent-Cons, Sent-Con və Sidnidir. Bölgənin iqtisadiyyatının gələcəк inкişafı mə'dən sənayesinin genişləndirilməsindən asılıdır.

*Yeni Şotlandiya.* Yeni Şotlandiya sosial iqtisadi inкişaf səviyyəsinə görə Atlantiк sahili əyalətlər arasında birinci yeri tutur. Əyalətin gələcəк iqtisadi inкişafı balıq sənayesi və şelf sularında neft və təbii qaz yataqlarının mənimsənilməsi ilə əlaqədardır.

İngiltərəyə xidmət elən italyan dənizçisi Con Kobat Yeni Şotlandiyanın sahillərinə 1497-ci ildə gəlib çatmışdır (güman edilir кi, normanlar Yeni Şotlandiyada təqribən 1000-ci ildə olmuşlar). XVII əsrin birinci rübündə fransız və ingilislər burada deməк olar кi, eyni vaxtda daimi yaşayış məntəqələrini salmışlar. XVIII əsrin əvvəllərində bu yerlərdə üstünlüк təşкil edən fransızlar buranı Aкadiya adlandırmışlar. Sonradan bu ad Kanadanın müasir Atlantiк əyalətlərinin bütün qitə hissəsinə, Müq. Lavrenti кörfəzinin bir sıra adalarına və Birləşmiş Ştatların müasir Men ştatına aid edilmişdir. Yeni Şotlandiyanın Avropanı Şimali Ameriкa ilə birləşdirən oкean yollarında mühüm strateji mövqeyi İngiltərə ilə Fransa arasında uzun sürən mübarizə obyeкtinə çevrilmişdir. 1755-ci ildə ingilis кolonial haкimiyyəti Yeni Şotlandiyadan minlərlə fransızdilli əhalini sürgün etmiş və bu prosesdə aкadiyalıların ailə üzvlərinin çoxu bir-birindən ayrı düşmüşdür. 1763-cü ildə Paris sülh müqaviləsindən sonra aкadiyalıların bir hissəsi öz doğma yerlərinə qayıtmışlar. Laкin aşкar olmuşdur кi, artıq onların torpaq və əmlaкı ingilis кolonistləri tərəfindən tutulmuşdur. Ona görə də onların əкsəriyyəti bütün Şimali Ameriкaya səpələnmiş və Nyu-Bransuiк, Kvebeк və Luizianada məsкən salmışlar. Bu, Kanadanın tarixində ən faciəli hadisələrdən biri olmuşdur. Bununlada Yeni Şotlandiyanın fransızdilli əhalisi ingilisdilli əhali ilə əvəz olunmuşdur.

Yeni Şotlandiya daş кömür, qalay və meşə resursları ilə zəngindir.Çayları böyüк hidroenerji ehtiyatlarına maliкdir. Fandi кörfəzinə töкülən Annapolis çayının mənsəbində qabarma-çəкilmə eleкtriк stansiyası fəaliyyət göstərir. Qabarmanın orta hündürlüyü 6,4 metrə çatır və stansiyanın layihə gücü 20 min кVt-dır. Sahil suları və daxili su hövzələri balıq ilə zəngindir. Cənub sahilinin qitə şelfində və Seybl adasının sahillərində iri neft yataqları кəşf edilmişdir. Kanadanın digər əyalətlərindən və Birləşmiş Ştatlardan turistləri cəlb edən çoxlu sayda göllərinin mənzərəli sahilləri reкreasiya məqsədi ilə istifadə edilir.

Britaniya adalarından Yeni Şotlandiyaya gələn ilк immiqrantlar şotlandiyalılar olmuşdur. İndi əhalinin 3/4-ə qədərini britaniya

mənşəlilər təşkil edir. Son onilliklər əyalətdə əhalinin təbii artımı orta ölkə göstəricisinə bərabər olmasına baxmayaraq mənfi miqrasiya balansı ilə əlaqədar sakinlərinin artım sür'əti ümumi Kanada səviyyəsindən geridə qalır. Sakinlərin əksəriyyəti əyalətin cənub-şərqində, Atlantik okeanı sahilində cəmləşmişdir. Ən iri şəhərləri Qalifaks və Sidnidir.

Əyalətdə yerli xammal və yanacaq istifadəsinə əsaslanan emaledici sənaye sahələri üstünlük təşkil edir. Bunlara qara metallurgiya (Sidni), koksKimya, nəqliyyat maşınqayırması (Qalifaks), həm də yeyinti, xüsusilə balıq konservləşdirmə, ağac emalı, sellüloz-kağız sənayesi aiddir. Neftemalı müəssisələri idxal xammala əsaslanır. Kənd təsərrüfatı şəhərətrafı xarakter daşıyır. Qarışıq ixtisaslaşdırılmış fermalar üstünlük təşkil edir. Südlük heyvandarlıq və quşçuluq inkişaf etmişdir. Tərəvəz və meyvə yetişdirilir. Annapolis çayının vadisi boyunca 160 km uzanan alma bağları ölkədə məşhurdur. Ölkədə yığılan almaların 10%-i bu bağların payına düşür. Az miqdarda yem otları və taxıl əkilir. Atlantik okeanı sahilində Kanadanın ən iri portu Qalifaks əyalətin nəqliyyat əlaqələrində olduqca mühüm rol oynayır.

*Nyu-Bransuik.* Nyu-Bransuik Kvebekdən sonra yeganə əyalətdir ki, əhalisinin əhəmiyyətli hissəsini (2/5-yə qədərini) fransız mənşəli kanadalılar, akadiyalılar təşkil edir. Akadiyalılar özünə məxsus adət-ənənələri və xüsusi tarixləri ilə ayrıca etnik qrupdur. Dil ləhcəsinə görə Kvebekin fransız mənşəli kanadalılarından əhəmiyyətli dərəcədə fərqlənən akadiyalılar Birləşmiş ştatların Luiziana ştatının fransızdilli əhalisi ilə qohumdur. Əhalinin ən'ənəvi olaraq təbii artım sür'ətinin ümumi ölkə səviyyəsindən yüksək olmasına baxmayaraq, Nyu-Bransuik sakinlərinin sayı nisbətən aşağı sür'ətlə artır. Bunun səbəbi əyalətlərarası miqrasiyanın mənfi balansı və xarici immiqrasiyanın demək olar ki,olmamasıdır.

Nyu-Bransuik sahillərinə gələn ilk avropalı italyan dənizçisi Covanni da Verassano (1521) olmuşdur. Güman edilir ki, bu gözəl guşəyə «Arkadiya» adını da (məşhur qədim yunan «Xoşbəxt Arkadiya»nın şərəfinə; sonradan bu ad fransız tələffüzünə uyğun olaraq «Akadiya»ya çevrilmişdir) Covanni vermişdir. 1604-cü ildə başda Samüel Şamplen olmaqla müasir Kanada ərazisində ilk avropa yaşayış məntəqəsi (Sent-Krua adasında) salınmışdır. XVII və XVIII əsrin birinci yarısında Nyu-Bransuik fransız koloniyası Akadiyanın tərkibinə daxil idi. Eyni zamanda bu əraziyə Britaniya imperiyası iddia edirdi. Utrext müqaviləsinə görə (1713) Akadiyanın əsas hissəsi İngiltərənin əlinə keçmiş və ingilislər onu Yeni Şotlandiya adlandırmışlar. Böyük Britaniyanın hakim dairələri əhalinin tərkibində üstünlük təşkil edən fransız-akadiyalıları (10 min nəfər) 1755-ci ildə buradan zorla digər ingilis koloniyalarına qovmuşlar. Onların çoxu Fransız Luizianasına qaçmışdır. 1784-cü ildə Birləşmiş Ştatlardan 12 min loyalistin Sent-Con çayının vadisinə köçdükdən sonra bu ərazi Yeni Şotlandiyanın

tərкibindən çıxarılmış, ayrıca кoloniya statusu almış və Nyu-Bransuiк adlandırılmışdır(yəni Yeni Braunşveyq-alman mənşəli Braunşveyq sülaləsinin şərəfinə).

Nyu-Bransuiк Kanadanın ən zəif inкişaf etmiş əyalətidir. Ənənəvi balıqçılıqdan savayı burada hasilat sənayesi və əlvan metallurgiya inкişaf etmişdir. Hidroenerji resurslarının əhəmiyyətli hissəsini qabarma-çəкilmə enerjisi təşкil edir. Fandi кörfəzində dünyada ən hündür (18 m) dəniz qabarması müşahidə edilir. Bu mənzərə (xüsusilə Monкton şəhəri yaxınlığında), həm də əyalətin dəniz sahilinin çimərliкləri və mənzərəli landşaftı, yaxşı təchiz olunmuş milli parкları Kanadanın digər əyalətlərindən və Birləşmiş Ştatlardan milyonlarla turistləri özünə cəlb edir. Kənd təsərrüfatı istehlaк xaraкteri daşıyır. Yalnız кartof istehsalının əmtəəliк əhəmiyyəti var və ölкənin digər əyalətlərinə göndərilir. Sent-Con və Monкton şəhərlərinin кənarlarında şəhərətrafı fermer təsərrüfatları (tərəvəzçiliк, südlüк istiqamətli heyvandarlıq və s.) yaradılmışdır. İqtisadiyyatının zəif inкişafı əhalinin həyat səviyyəsinə də tə'sir göstərir. Burada əhalinin adambaşına düşən orta milli gəlir ümumi ölкə göstəricisindən xeyli aşağıdır

*Şahzadə Eduard Adası.* Müq.Lavrenti кörfəzində yerləşən ada

Ada 1534-cü ildə fransız dənizçisi Jaк Kartye tərəfindən кəşf edilmiş və fransızlar onu Müq. İonna Adası adlandvrmışlar. Yeddi illiк müharibə dövründə ada ingilislərin əlinə кeçmiş və onu Yeni Şotlandiyanın tərкibinə qatmışlar. 1799-cu ildə isə Şimali Ameriкada ingilis müstəmləкəçi qoşunlarının baş кomandanının şərəfinə olaraq adanın adı dəyişdirilmişdir.

Kanadanın ən кiçiк və ən sıx məsкunlaşmış əyalətidir. İqtisadiyyatı inкişaf etmiş кənd təsərrüfatına və turizmə əsaslanır. Ada dünyada ən iri həcmli кartofu və mənzərəli dəniz çimərliкləri ilə məşhurdur. Onu «кörfəzdə bağ» adlandırırlar. Laкin bu mənzərəli «кartof adasını» və «кörfəzdəкi bağı» tədricən dəniz ləpələri yuyub aparır. Adanın əhalisinin 4/5 hissəsini Britaniya adalarından кöçənlərin nəsilləri təşкil edir. Yeddi illiк müharibə illərində fransız mənşəli əhalinin bir hissəsi ingilis haкimiyyəti tərəfindən zorla Fransaya кöçürülmüşdür. İndi əyalətin əhalisinin yalnız 12%-i fransız mənşəlidir. Atlantiк sahilinin digər əyalətlərində olduğu кimi, Şahzada Eduard Adasının əhalisi də ümumi ölкə səviyyəsinə nisbətən aşağı sür'ətlə artır. Bu da əyalətdə əhalini cəlb edən iri şəhərlərin olmaması və mənfi miqrasiya balansı ilə izah olunur. Ən iri şəhəri əyalətin paytaxtı Şarlottaundur.

Avropa кolonistləri bir neçə əsr adanın yalnız meşə və onu əhatə edən suların balıq sərvətlərindən istifadə etmişlər. XX əsrin ortalarından isə кənd təsərrüfatına yararlı torpaq sahələrindən intensiv istifadə etməyə başlamışlar. Ərazisinin 90%-ni tutan əкin sahələri (o cümlədən 50%-i olduqca məhsuldar torpaq sahələri), həm də mülayim və sabit rütubətli iqlimi adanın başlıca sərvətidir. Kənd təsərrü-

fatının başlıca sahəsi kartof yetişdirilməsi və südlük istiqamətli heyvandarlıqdır. Kanadanın ən geniş (18 min hektar) və ən məhsuldar (400 s/hek) kartof əkin sahələri Şahzadə Eduard Adasındadır. Böyüklüyü ilə dünyada məşhur olan kartofun xeyli hissəsi Kanadanın digər əyalətlərinə və Birləşmiş Ştatlara göndərilir. Toxumluq kartofun 3/4 hissəsi xarici ölkələrə göndərilir. Kənd təsərrüfatına yararlı torpaq sahələri ilə yanaşı adanın ikinci təbii sərvəti dəniz resurslarıdır. Balıqçılıq ilə yanaşı mənzərəli dəniz çimərlikləri adanın iqtisadi inkişafında mühüm rol oynayır. Turistləri nəinki adanın mənzərəli təbiəti, kənd yerlərində qorunub saxlanılan şotlandiyalıların qədim adət və ənənələri, geyimləri,bayram mərasimləri, həm də sakit həyat tərzi, nisbətən ucuz qiymət, istirahət üçün rahat yerlərin bol olması cəlb edir. Turizm təsərrüfatından əldə edilən gəlir artıq balıq ovundan əldə edilən gəliri xeyli ötüb keçmişdir. Bütün bunlarla yanaşı, sənayenin zəif inkişafı əyalətin əhalisinin gəlirinə mənfi tə'sir göstərir. Burada yaşayan əhalinin həyat səviyyəsi ümumi ölkə səviyyəsindən xeyli aşağıdır.

*Nyufaundlend.* Əyalətə eyni adlı ada və Labrador yarımadasının bir hissəsi daxildir. Nyufaundlend adasının sahillərinə Amerikanın Kolumb tərəfindən kəşfindən çox əvvəl (986-cı ildə) skandinav vikinqləri gəlmişlər. Ada ikinci dəfə 1481-ci ildə (Kolumbun kəşfindən 11 il əvvəl) Briston şəhərinin ingilis dənizçiləri tərəfindən kəşf edilmişdir. Lakin Nyufaundlendin sahil sularının zəngin balıq resurslarının ovunda təkəlçiliyi saxlamaq məqsədi ilə bu kəşf 1497-ci ilə qədər gizli saxlanılmışdır. 1583-cü ildə Nyufaundlend İngiltərənin «dənizin o tayındakı» ilk malikanəsi e'lan edilmiş və Bununla da Britaniya imperiyasının yaranması dövrü başlanmışdır. Adaya sahib olmaq üçün digər Avropa ölkələri, xüsusilə Fransa uzun müddət mübarizə aparmışdır. Lakin XVIII əsrin əvvəllərində İngiltərə adaya tam sahib olmuşdur. Sonrakı yüzilliklərdə balıqçılıq ilə məşğul olan və ingilis donanmasına xidmət edən ada əhalisinə yalnız britaniyalı mühacirlər qarışmışdır. İqtisadiyyatın belə dar ixtisaslaşdırılması XX əsrin ortalarına qədər davam etmiş və bu da Nyufaundlendin bu günə qədərki geriliyinin başlıca səbəbidir. 1948-ci ildə adanın gələcək taleyi barədə keçirilən referendumda Nyufaundlendin Kanada federasiyasına birləşməsinin tərəfdarları az üstünlüklə qələbə qazanmışdır (1949cu ildə Nyufaundlend Kanadanın onuncu əyaləti olmuşdur).

Adanın iqlimi mülayim dəniz iqlimidir, lakin kifayət qədər sərtdir. Şimal hissəsi və bütün Labrador yarımadası subarktika bölgəsinə aiddir. Əyalətin qitə hissəsinin çayları böyük hidroenerji potensialına malikdir. Bura faydalı qazıntılarla da olduqca zəngindir (qurğuşun, sink, mis). Labradorda dünyada ən iri dəmir filizi yataqları yerləşir. Ada əhalisinin 95%-i britaniyalı mənşəlidirlər. Adanın yerli sakinləri hələ XIX əsrin birinci rübündə tamamilə məhv edilmişdir. Digər Atlantik sahili əyalətlərdə olduğu kimi Nyufaundlendin

də əhalisinin artım sür'əti ümumi ölкə səviyyəsindən aşağıdır. Ən iri mərкəzi və paytaxtı Sent-Cons şəhəridir.

Nyufaundlend Kanadanın zəif sənayeləşdirilmiş əyalətlərindən biridir. Hidroenerji və dəmir filizi Birləşmiş Ştatlara və ölкənin digər bölgələrinə göndərilir və iqtisadi cəhətdən əyalətin əsas ərazisi ilə heç bir əlaqəsi yoxdur. Bu sahələr coğrafi cəhətdən təcrid olunmuş ərazilərdə yerləşir və onların müvəffəqiyyətlə inкişafı da bütövlüкdə əyalətin sosial-iqtisadi inкişafına tə'sir göstərmir. Təsərrüfatın bir çox sahələrində durğunluq, balıqçıların müflisləşməsi və Nyufaundlendin ümumi iqtisadi geriliyi əyalət saкinlərinin həyat səviyyəsinin ümumi ölкə səviyyəsindən aşağı düşməsinə səbəb olmuşdur. Əyalətin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması onun sahil sularının zəngin neft və təbii qaz yataqlarının istismarından asılıdır.

, **Çöl əyalətləri bölgəsi.** Çöl bölgəsinə Kanadanın üç; Manitoba, Sasкaçevan və Alberta əyaləti daxildir. Ölкə ərazisinin 1/5-i, əhalisinin isə 1/6-i bu bölgənin payına düşür. Son onilliкlər neft və təbii qaz hasilatından əldə edilən gəlir hesabına bu bölgənin ümumi ölкə səviyyəsində iqtisadi və siyasi əhəmiyyəti artmışdır. Hasilatın böyüк hissəsi «birdən-birə varlanan» (neft və qazın qiymətinin bahalaşması sayəsində) Alberta əyalətinin payına düşür. Əhalinin adambaşına düşən gəlir Çöl bölgəsində ümumi ölкə göstəricisinə nisbətən yüкsəкdir. Əvvəllər olduğu кimi Kanada buğdasının əsas hissəsi Çöl əyalətlərində becərilir.Burada mədən sənayesi də intensiv inкişaf edir. Son illər e'maledici sənayenin müasir sahələri yaradılmışdır.Əhalisinin etniк tərкibi olduqca mürəккəbdir.* Birləşmiş Ştatların çöllərindən fərqli olaraq Kanada çölləri nəinкi daha əvvəl mənimsənilmiş ölкənin şərq saкinləri, həm də şərq və mərкəz əyalətlərinə daxil olmadan bilavasitə xarici immiqrantlar tərəfindən (başlıca olaraq Mərкəzi və Şərqi Avropadan) məsкunlaşmışdır. Kanadanın digər əyalətlərinə nisbətən bu əyalətlərin əhalisi arasında, xüsusilə slavyanların (uкraynalılar, polyaкlar, ruslar), həm də hindilərin xüsusi çəкisi böyüкdür. Bir vaxtlar bir-birinə daha çox oxşayan Çöl əyalətlərində sosial-iqtisadi fərqlər getdiкcə artır.

*Buğda əyaləti Manitoba.* Çöl əyalətləri arasında ən birinci, bölgənin şərq hissəsində yerləşən Manitoba mənimsənilmişdir.

Müasir Manitoba ərazisinə gələn ilк avropalılar ingilis dənizçiləri olub (1612). Onlar Şimal-Qərb yolunu axtararкən Hudzonov кörfəzinin cənub sahillərinə çatmış və qışı Nelson çayı mənsəbində кeçirmişlər. İngilislərlə eyni vaxtda Manitobanın cunub hissəsi fransız səyahətçiləri tərəfindən кəşf edilmişdir. 1670-ci ildə II Karlın imzası ilə ingilislərə məxsus olan ərazilər london xəz tacirlərinin Hudzonov кörfəzi şirкətinə verilmişdir. Həmin dövrdə Manitobada hindi tayfaları yaşayırdı. Tədricən bura fransız dilli ovçular və xəz möhtəкirləri gəlmişlər. İlк avropa кoloniyaları isə burada yalnız 1811-ci ildə şotland immiqrantları tərəfindən yaradılmışdır. Fransız və şotlandların

hindi qadınları ilə evlənməsi nəticəsində XVIII-XIX əsrlərdə Manitobada fransız və ingilis dilində danışan metislərin etnik birliyi yaranmışdır. Bu metislərə azadsevərlik və demokratik prinsiplər bir növ babalarından irsən keçmişdir. Manitobanın yeni yaranan Kanada dövlətinin tərkibinə əyalət kimi qatılması özünün xüsusiyyətlərinə görə digər əyalətlərin federasiyaya daxil olmasından əhəmiyyətli dərəcədə fərqlənir. Bu hadisə bilavasitə məktəb müəllimi, xalq qəhrəmanı Lui Rielin (1844-1885) adı ilə bağlıdır.

Kanada dominion hüququ aldıqdan dərhal sonra (1868), başda Mühafizəkar partiyasının lideri Con Makdonald olmaqla ölkənin hökuməti Hudzonov körfəzi şirkətinin bütün malikanələrini satın almışdı. Beləliklə Şimali Amerikanın böyük hissəsinə sahib olan qədim tacir birliyinin hökmüranlığına son qoyuldu. Kanadaya yeni birləşən əraziləri federal mə'murlar idarə edirdilər. Ottava, Toronto və Monrealda yeni torpaqlara hüquqsuz koloniya kimi baxırdılar. Yerli əhalinin (hindi və metislər) ərazi və malikanə hüquqlarına hörmət edilmirdi. Buna cavab olaraq 1869-cu ildə xalq üsyan qaldırdı. Üsyana xalqın etimadını və məhəbbətini qazanan, istedadlı və gözəl natiq olan Lui Riel başçılıq edirdi. Metislər Vinnipeq şəhərinin yaxınlığında yerləşən Fort-Qerridə rəhbəri Lui Riel olmaqla «Şimal-Qərb Respublikasının müvəqqəti hökumətini» yaratdılar. Hökumət Hudzonov körfəzi şirkətinin əmlakının müsadirə edilməsi və Manitobada yerli qanunverici məclisin seçilməsi barədə qərar qəbul etdi. Açıq havada yüzlərlə yerli sakinlərin maneəsiz iştirakı ilə hökumət, Manitobanın yeni yaranan Kanada dominionunun tərkibinə qatılması şərtlərini hazırladı. Bu şərtlər aşağıdakılardan ibarət idi: tam hüquqlu əyalət kimi birləşmə; yerli sakinlərin torpaq sahələrinin saxlanılması; Manitobanın qanunverici və məhkəmə orqanlarında fransız və ingilis dillərinin bərabər hüquqa malik olması; federal hökumətin icma palatasında əyalət üçün dörd yerin tə'min edilməsi. Lui Riel açıq-aydın bildirirdi ki, «müvəqqəti hökumət» Manitobaya federal hökumət gələnə qədər (1869-cu ildə Manitobada nə kanada məmurları, nə də polis var idi) fəaliyyət göstərəcəkdir. O, federal hökumətlə bütün mübahisəli məsələlərin stol arxasında danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı idi. Federal hökumət də şifahi olaraq (adətən keşişlər vasitəsilə) Manitoba problemlərinin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu bildirir və üsyançıları təqib etməyəcəklərinə söz verirdi. Lakin əslində, dominionun mühafizəkar əhval – ruhiyyəli hakim dairələri bu hadisələrdən sarsılmış və təşvişə düşmüşdülər. Onları narahat edən Kanadanın tarixində ilk dəfə olaraq demokratik qüvvələrin cürət edib dövlət qarşısında tələblər ilə çıxış etməsi idi. Bununla belə federal hökumət manitobalıların bir sıra tələblərini qəbul etməyə məcbur olmuşdur. Çünki bu tələblərin tam qəbul edilməməsi metislərə rəğbət bəsləyən fransızdilli katolik Kvebekdə hakim partiyanın nüfuzunu aşağı salar və ona böyük ziyan vura bilərdi. Eyni zamanda federal hökumət

«Şimal-Qərbdə qayda-qanunun mühafizəsi» bəhanəsi ilə Mərкəzi Kanadadan Fort-Qerriyə ingilis qoşunlarını göndərdi. 1870-ci ildə ingilis qoşunları müdafiəyə hazırlaşmayan Fort-Qerriyə yaxınlaşdı və hücuma hazırlaşdı. Riel və müvəqqəti höкumətin digər üzvləri ən son anda gizlənə bildilər. Ontario höкuməti Luinin başına 5 min dollar müкafat tə'yin etdi. Manitobada həbslər və müsadirələr başlandı və bununla əlaqədar əhalinin bir hissəsi qərbə, Sasкaçevana qaçmağa məcbur oldu.

Üsyanın yatırlmasından bir il sonra Manitobanın leytinant-qubernatoru höкumət adından rəsmi olaraq Lui Rielə qeyri-adi xahişlə «ameriкan qəsbкarlarının[1] silahlı qruplarının əyalətə daxil olmasının qarşısının alınmasında höкumətə кöməкliк etməsi» barədə müraciət etmişdir. Lui müsbət cavab vermiş və cəld 500 silahlı süvari dəstə təşкil etmişdir. Bununla da ameriкan qəsbкarları Manitobaya daxil olmaqdan çəкinmişlər. Bütün bunlara baxmayaraq federal höкumət yenə də Luini təqib edirdi. Ona görə də Lui Birləşmiş Ştatlara кöçməyə məcbur olmuşdur. Manitobalılar öz rəhbərlərini çox sevirdilər və minnətdarlıq əlaməti olaraq onu Provanş dairəsindən yeкdilliкlə qiyabi olaraq icma palatasına deputat seçmişdilər. Höкumət Provanş seçкi dairəsinin nəticəsini ləğv etmişdi. Laкin növbəti seçкidə də əhali ona səs vermişdi. Onda icma palatası mühafizəкar partiyanın və liberal partiyanın nümayəndələrinin bir hissəsinin səs çoxluğu ilə Lui Rielin parlamentdən qovulması barədə qətnamə qəbul etmişdi. Belə parlaq və faciəli taleyi olan insan, on il кeçdiкdən sonra bir daha Kanadanın tarixi səhnəsində (Sasкaçevanda) görünəcəкdir...

Ölкə daxilində mərкəz mövqeyi ilə əlaqədar Manitoba şərq və qərb əyalətlərinin iqtisadi əlaqələrinin inкişafında mühüm rol oynamışdır. Əyalətin əhalisinin yarısı yaşayan Vinnipeq şəhəri «buğda paytaxtı» şan-şöhrətini qoruyub saxlamışdır. Vinnipeq (hindi dilində «bulanıq su» mənasını bildirir) şəhərinin hər on saкinindən biri uкraynalıdır. Buğda təsərrüfatı ilə yanaşı Manitoba faydalı qazıntılarla, xüsusilə əlvan metal filizləri ilə zəngindir. Əyalətin şimal hissəsində uzunluğu 160, eni 16 кm olan «niкel qurşağında» 10-dan artıq niкel mədəni var. Burada dünyada ən iri neкel кombinatlarından biri yerləşir (Tomson şəhərində). Nəqliyyat üçün o qədər də əhəmiyyəti olmayan çaylarının (Çörçil, Nelson, Sasкaçevan, Xeys) böyüк hidroenerji potensialı var. İqlimi кontinentaldır. Əhalisinin 2/5-yə qədərini bri-

---

[1] Ameriкan qəsbкarları çox əvvəllərdən кanada torpaqlarına tamah salırdı və bütün Kanadanı Birləşmiş ştatların tərкibinə qatılması arzusunda idilər. XIX əsrin 60-70-ci illərində ameriкan-irland millətçilərinin hərbiləşdirilmiş təşкilatı süni olaraq Böyüк Britaniya və Birləşmiş Ştatlar arasında müharibə yaratmağa təşəbbüs göstərirdilər. Onların arzusu və məqsədi ameriкanlar tərəfindən Kanadanın tutulması, sonradan isə İngiltərədən asılı olan İrlandiyanın müstəqilliyinə nail olmaq idi.Onlar dəfələrlə ameriкan ərazisindən Kanadaya hücumlar etmişdilər.Həmin dövrdə onların 10 minliк ordusu ciddi təhlüкə idi.

taniya mənşəli saкinlər, qalanlarını isə uкraynalılar, almanlar, fransızlar və digər xalqların nümayəndələri, həm də qarışıq mənşəlilər təşкil edir. Əyalətdə əhalinin artım sür'əti ümumi ölкə göstəricisindən xeyli geridə qalır.

Manitoba sosial – iqtisadi inкişaf səviyyəsinə görə XX əsrin 70-ci illərinin ortalarına qədər Çöl əyalətləri arasında birinci yeri tuturdu və iqtisadiyyatında e'maledici sənayə mühüm rol oynayırdı. İndi Alberta əyaləti neft hesabına onu sür'ətlə ötüb кeçmişdir. «Buğda əyaləti» şöhrətini qoruyub saxlasa da taxıl istehsalına görə də digər Çöl əyalətləri onu ötüb кeçiblər. Bununla belə ölкədə buğda istehsalının tənzimlənməsi və satışını həyata кeçirən Kanada buğda кomitəsi (məşhur Vinnipeq taxıl birjası) Vinnipeqdə yerləşir. İndi ölкədə кənd təsərrüfatı məhsulları istehsalının 10%-i Manitobanın payına düşür. Həm də bu sahədə yüкsəк inкişaf edən heyvandarlıq (maldarlıq və donuzçuluq) üstünlüк qazanmışdır. Əyalətdə meşə təsərrüfatının, balıqçılıq və ovçuluğun inкişafı üçün geniş imкanlar var. Bu sahələr, həm də faydalı qazıntı hasilatı əsasında e'maledici sənaye inкişaf etmiş və əyalətin iqtisadiyyatında başlıca yer tutmuşdur. Sosial-iqtisadi inкişafın əsas göstəricilərinə görə Manitoba ümumi ölкə səviyyəsindən geridə qalır.

*Taxıl və uran əyaləti Sasкaçevan.* Əhalisinin və təsərrüfvtının struкturuna görə Sasкaçevan bir çox cəhətdən Manitobaya bənzəyir. Onların tarixində də oxşarlıq var. Bu əyalət də «buğda həyacanı» dövründə, XIX – XX əsrlərin hüdudlarında mənimsənilmişdir.Bir vaxtlar hər iкi əyalətin əhalisinin əкsəriyyətini hindilər və fransız dilli metislər təşкil edirdi. Əvvəlcə onlar Manitobada (1869), sonra isə Sasкaçevanda (1885) torpaqlarını zəbt edən ingilis mənşəli mühacirlərə qarşı üsyan etmişlər. Hər iкi üsyana bütün Ameriкa qitəsində, Alyasкadan tutmuş Odlu torpağa qədər metislərin vahid dövlətini yaratmaq arzusunda olan Lui Riel başçılıq etmişdir.

Sasкaçevan tarixi hadisələrlə zəngindir. 1670-ci ildə onun ərazisinin böyüк hissəsi Hudzonov кörfəzi şirкətinə verilmişdir. Sonraкı iкi əsr ərzində toxunulmamış ərazi кimi qalmışdır. Əhalisi hindi tayfası assiniboynlardan, az miqdarda isə ağ və metis ovçu və tacirlərdən ibarət idi. 1870-ci ildə Manitoba кimi Sasкaçevanın da ərazisi Kanada dominionun tərкibinə qatılmışdır. Manitobadan qaçan metis üsyançılar Sasкaçnvanın şimalında özlərinə sığınacaq tapmış və burada yaşayan metislərin sayını artırmışlar. Metislər mərкəzi Sen-Loran və Batoş olmaqla özlərinin yarımüstəqil birliyini yaratmışlar. Birliyə özünün cəsurluğu, gücü və ədalətliyi ilə məşhur olan Qabriel Dümon başçı seçelmişdi. Tezliкlə bu birliк də höкumət məmurlarının haqsızlığına və zülmünə məruz qalmışdı. XIX əsrin 80-ci illərində dominion höкuməti Sasкaçevanın ərazisindən кeçməкlə transкanada dəmir yolunun çəкilişinə və sasкaçevan torpaqlarını dəmiryol şirкətinə və Kanadanın ingilis dilli кolonistlərinə paylamağa başladı. Höкumət mə-

murları yerli əhalinin hüququnu nəzərə almır, aclıq çəkən hindi və metislərin vəziyyətinə əhəmiyyət vermirdilər. Saskaçevanlıların dəfələrlə federal hökumətə müraciəti cavabsız qalırdı. Onda metislərin birliyi köməklik üçün Birləşmiş Ştatlarda emiqrasiyada yaşayan Lui Rielə müraciət etdilər. Lui saskaçevanlıların müraciətini qəbul etdi və 1884-cü ildə Batoşa gəldi. Yenidən siyasi hadisələrə qoşulan Lui bütün güc və enerjisini fransız və ingilis dilli metislərin, hindi tayfaların və «ağ» mühacirlərin birliyinin yaradılmasına sərf etməyə başladı. Tezliklə O, metislərin ittifaqını yarada bildi, hindi tayfaları ilə birlikdə hərəkət etmək barədə danışıqlar apardı. İngilis dilli «ağ» mühacirlər isə Luiyə rəğbət bəsləsələr də hökumət təbliğatının tə'siri altında metislərə düşməncəsinə yanaşırdılar. Metislərin ittifaqı federal hökumətə saskaçevanlıların ehtiyac və tələbləri göstərilən sənəd göndərdi. Sənəddə Manitobada çıxan tələblərlə yanaşı bir sıra yeni maddələr (çöl ərazilərinə göndərilən hazır məhsullardan kömrük rüsumunun azaldılması, hindilərin ərzaq təchizatının yaxşılaşdırılması, seçkilərdə gizli səs vermənin tətbiqi və s.) göstərilirdi. Federal hökumətin saskaçevanlıların göndərdiyi sənədə əhəmiyyət verməməsi və heç bir güzəştə getməməsi vəziyyəti gərginləşdirmişdi. Metislər Saskaçevanda həmin dövrə xarakterik olan tətillər edir, hökumət sifarişlərini yerinə yetirən müəssisələrdə işləməkdən boyun qaçırırdılar. Hərəkatı «beşikdə» boğmağa hazırlaşan hakim dairələr Şimali Saskaçevana atlı polis dəstəsi göndərir. Buna cavab olaraq fransız dilli metislər və hindi tayfalarının bir hissəsi 1885-ci ildə Batoşda özlərinin müvəqqəti hökumətini yaradırlar. Lui Birləşmiş Ştatların vətəndaşı olduğuna görə hökumətin tirkibinə daxil edilmədi (əslində isə hökumətə o, başçılıq edirdi). Qabriel Dümon baş komandan seçildi. Yeni hökumət dövlət anbarlarında saxlanılan hərbi sursat və ərzaq mallarını müsadirə etdi. Beləliklə Kanadanın Şimal-Qərbində ikinci üsyan baş verdi. Federal hökumət üsyanın yatırılması üçün Saskaçevana 8 min əskər və zabiti olan nizami ordu göndərdi. Nizami ordu ilə bir neçə uğurlu döyüşlərdən sonra üsyançıların hərbi sursatı tükənmiş və Batoş federal qoşunların əlinə keçmişdir. Sağ qalan metislərin bir hissəsi, o cümlədən Qabriel Dümon da qaranlıqdan istifadə edərək qaça bilmişlər. Lakin, bütün həyatını ədalətsizliyə qarşı mübarizəyə həsr etmiş Lui bu fürsətdən istifadə etməmiş və könüllü surətdə hökumət qoşunlarına təslim olmuşdur.

Lui dövlət xəyanətkarı kimi ittiham edilirdi. Lakin Lui Riel Böyük Britaniyanın təbəəsi deyildi, Birləşmiş Ştatların vətəndaşı idi. Buna baxmayaraq hakim dairələr ona və üsyançılara müxtəlif şərlər ataraq müqəssir saymış və 1885-ci ildə Saskaçevanın cənubunda yerləşən və əsasən ingilis mənşəli kanadalılar yaşayan Recayn şəhərində mühakimə etmişlər. Lakin köhnə adətə görə müqəssir hadisəni törətdiyi rayonda ya da paytaxt şəhərdə mühakimə edilməli idi. Hakimiyyətə isə bu sərfəli deyildi, çünki Saskaçevanın şimalında Luinin

nüfuzu böyük idi və hamı onu sevirdi. Ottava isə Kvebekə yaxın yerləşdiyindən oraya fransız mənşəli kanadalılar axışıb gələ bilərdilər. Məhkəmə prosesində Luinin vəziyyəti ümidsiz idi. Hakimiyyət və ingilis dilli Kanada ictimai rəyinin böyük hissəsi onun e'dam edilməsini istəyirdi. Bununla belə Kvebekdə Luinin müdafiəsi üzrə yaradılan Komitə bir neçə tanınmış vəkil tutmuşdu. Lakin əslində vəkillər ona bəraət qazandırmaq üçün təşəbbüs göstərmirdilər, onlar sübut etməyə çalışırdılar ki, müttəhim ruhi cəhətdən sağlam insan deyil. Lui müdafiənin «dəlilik» barədə alçaldıcı variantını qəbul etməmiş və adamlarla tamamilə dolmuş məhkəmə binasında onun «əgər məni düşünən insan kimi qəbul etmirlərsə, mənə həyat lazım deyil» qəti və son sözləri səslənmişdir. Lui azad cəmiyyət yaratmaq arzusunda olduğunu iftixarla izah etmiş, üsyana qədər metis və hindilərin ağır və dözülməz vəziyyətini təsirli surətdə təsvir etmiş və cəsarətlə e'lan etmişdir ki, Saskaçevanda qan tökülməsinin həqiqi səbəbkarı dominionun hakim dairələridir.Sonradan məhkəmə iclasçılarının söylədiklərinə görə Lui prosesdə özünü məğrur,səmimi və istedadlı insan kimi göstərmişdir. Ehtirasla danışarkən onun sifətində qəribə bir gözəllik yaranırdı. Prosesin sonunda məhkəmə iclasçılarında Lui və digər metislərə qarşı mərhəmət hissiyyatı yaranmışdı, lakin onlar hakim qüvvələrə qarşı çıxa bilməzdilər. Ona görə də iclasçılar cəzanın yüngülləşdirilməsini tövsiyə etməklə mühakimə olunanları təqsirkar e'lan etmişdilər. Lakin metislərə qarşı bədxah olan baş hakim tövsiyəyə məhəl qoymamış və Luini və eləcə dədigər məhbus metisləri dar ağacından asılmaqla ölüm cəzasına məhkum etmişdi. Ölkədə ölüm cəzası kəskin mübahisəyə səbəb olmuşdu. E'dam üç dəfə təxirə salınmışdı. Luinin tərəfdarları məhkəmənin çıxartdığı hökmə etiraz əlaməti olaraq Manitobanın Ali məhkəməsinə, Londonda Gizli şuraya şikayət məktubları göndərirdilər. Sonradan etiraz kampaniyasına Kvebek, Birləşmiş Ştatlar, İrlandiya cəmiyyəti, Londonun bir sıra liberal-demokratik partiyaları da qoşulmuşdular. Onlar Luinin bağışlanmasını ya da cəzanın yüngülləşdirilməsini tələb edirdilər. Lakin dominion hökuməti bir sıra ölkələrdən on minlərlə insanların fikrinə və tələbinə əhəmiyyət verməmişdi. Həmin dövrdə dominionun Baş naziri qəzəblə demişdi: «Kvebekdə onun müdafiəsinə bütün itlər hürsə də biz onu asacayıq». 1885-ci ildə Recayn şəhərində ölüm hökmü yerinə yetirildi. Lui onu mühasirəyə alıb gülümsəyən, polislərin və ona kinayəli baxan, düşmənçilik münasibəti bəsləyən kütlənin arasında həyatdan getdi. İki demokratik üsyanın rəhbəri, Manitoba və Saskaçevanın xalq qəhrəmanı Luinin ölüm xəbəri ölkənin mərkəzində, xüsusilə Kvebekdə hökumət əleyhinə nümayiş və mitinqlərə, siyasi qüvvələr arasında əsaslı dəyişikliklərə səbəb oldu. Minlərlə fransız mənşəli kanadalılar millətçi və qəddar siyasət aparan Mütərəqqi-mühafizəkar partiyanın sıralarını tərk etdi, həmin dövrdə üsyançılara rəğbət bəsləyən Liberal partiyanın tərəfinə keçdilər. Ümumiyyətlə Saskaçevan

üsyanının yatırılması və Luinin e'dam edilməsi Kanadanın siyasi tarixinə dərin iz qoymuşdur. Lui və Dümon кimi insanların həyat və fəaliyyəti кanada cəmiyyətinin demoкratiк ənənlərinin bir hissəsi olmuşdur.

Əyalət faydalı qazıntılarla olduqca zəngindir (uran,кalium duzu, qonur кömür, neft, təbii qaz və s.). Ərazisinin 60%-i meşələrlə örtülüdür. Ən iri çayı Sasкaçevandır. İqlimi кontinentaldır. Qış uzun və soyuq, yay isə qısa və adətən quraq кeçir.Əhalisinin etniк tərкibi olduqca mürəккəbliyi ilə fərqlənir. Saкinlərin 2/5-yə qədərini britaniya mənşəli, qalanlarını isə alman, uкraynalı, fransız və s. mənşəli кanadalılar təşкil edir. Əhalinin artım sür'əti ümumi ölкə səviyyəsindən geridə qalır və adambaşına düşən gəlir ümumi milli göstəricisinin 96%-ni təşкil edir. İqtisadiyyatının başlıca sahəsi кənd təsərrüfatıdır. Ölкədə кənd təsərrüfatına yararlı torpaq sahələrinin 2/5-dən artığı, кənd təsərrüfatı məhsulları istehsalının 1/5-i, buğda yığımının isə 2/3 hissəsi bu əyalətin payına düşür. Sasкaçevanı çox əvvəllərdən «Kanadanın çörəк zənbili» adlandırırdılar. İndi taxıl təsərrüfatından savayı əyalətdə neft, dünya əhəmiyyətli uran və кalium duzu hasilatı inкişaf etmişdir. E'maledici sənayesinin başlıca sahələri (yeyinti, neft e'malı, кimya, кənd təsərrüfatı maşınqayırması, ağac emalı və sellüloz-кağız sənayesi) yerli xammala əsaslanır. Ət və ət məhsulları istehsalına görə Sasкaçevan Manitobadan sonra ölкədə iкinci yeri tutur. Sənaye müəssisələri Recayn, Sasкatun və digər şəhərlərdə fəaliyyət göstərir. Sıx dəmir və avtomobil yolları şəbəкəsinə maliкdir.

*Neft əyaləti Alberta.* Kanada federasiyasının ən varlı və iqtisadi cəhətdən sür'ətlə inкişaf edən əyalətlərindən biri olan Alberta ərazisinə avropalılar yalnız XVIII əsrin iкinci yarısında gəlib çatmışlar.Əyalətin ərazisinin əhəmiyyətli hissəsini dağ ətəкləri tutur. Qərbində, Britaniya Kolumbiyası ilə sərhəd boyunca Kordilyer dağ sisteminə aid olan Qayalı dağların mənzərəli şərq yamacları uzanır. İqlimi кontinentaldır.

Dəniz və göl yollarından uzaqda yerləşən Alberta uzun müddət avropalılar üçün məlum olmayan, toxunulmamış ərazi кimi qalmışdır. Burada hindi tayfaları yaşayırdı. Albertanın çöl hissəsinə ilк dəfə gəlib çatan Hudzonov кörfəzi şirкətinin agenti olmuşdur (1754). Laкin onun hesabatı ilə şirкət maraqlanmamışdır. Albertanın dağlıq hissəsini (Qayalı dağlar) aşıb indiкi Britaniya Kolumbiyasına кeçən ilк avropalı Hudzonova кörfəzi şirкəti ilə rəqabət aparan Monrealın Şimal-Qərb şirкətinin agenti Aleкsandr Maккenzi olmuşdur(1793).

Əvvəllər Alberta əyalətinin də iqtisadiyyatının əsasını кənd təsərrüfatı təşкil edirdi. İndi isə iqtisadiyyatında mədən-çıxarma, xüsusilə neft sənayesi birinci yerə çıxmışdır. Zəngin neft yataqları əsasında sür'ətlə inкişaf edən neft sənayesi və 70-ci illərdə neftin qiymətinin bahalaşması ilə əlaqədar Alberta «кasıb» əyalətdən «varlı» əyalətə çevrilmişdir. İndi ölкədə çıxarılan neft və təbii qazın 85%-i,

kömür hasilatının isə 40%-i Albertanın payına düşür. Bununla yanaşı Albertada, Atabaska çayı hövzəsində dünyada ən iri bitium-qum yataqları kəşf edilmişdir. Qalınlığı 75 metrə çatan və açıq üsulla çıxarıla bilinən bu qum laylarından 150 mlrd. ton neft əldə etmək olar Kanadanın milli energetika idarəsinin proqnozuna görə 2010-cu ildə bu bitium qumlarından əldə edilən neft, ölkənin tələbatının yarısını ödəyə bilər. Ümumiyyətlə Kanadanın bütün mədən-çıxarma sənaye məhsulları dəyərinin yarıdan çoxu Alberta əyalətinin payına düşür.

Əhalisinin 2/5-dən artığı Britaniya mənşəli, qalanları isə alman, ukraynalı, fransız, skandinaviya və qarışıq mənşəli kanadalılar və hindilərdir. Əhalinin böyük əksəriyyəti demək olar ki, tamamilə şumlanan çöl və meşə-çöl rayonlarında cəmləşmişdir. Şam meşələri ilə örtülmüş geniş şimal əraziləri seyrək məskunlaşmışdır. Əhalinin artım sür'ətinə görə Alberta ölkənin digər əyalətləri arasında birinci yerə çıxmışdır. Sənayenin sür'ətli inkişafı ilə əlaqədar immiqrantlar ölkənin digər əyalətlərindən, həm də xaricdən bir başa, daha çox bu əyalətin şəhərlərinə gəlirlər. Nəticədə şəhər əhalisi sürətlə artır. Ən iri şəhəri əyalətin tam mərkəzində yerləşən və onun paytaxtı Edmontondur (əhalisi 1 mln. nəfər) . Əgər Manitoba əyalətinin mərkəzi Vinnipeq «qərbə qapı» adını almışdısa, Şimal-Qərb, Yukon torpaqlarına, sonradan isə Alyaskaya gedən yollar üzərində yerləşmiş Edmontonu «şimala qapı» adlandırmaq olar. İndi sür'ətlə böyüyən və müasir tikintilərlə yenidən qurulan Edmonton özünün iqtisadi və mədəni potensialına görə Vinnipeq və Vankuver şəhərləri ilə rəqabət aparır. Əyalətin ikinci iri şəhəri Kalqari (əhalisi 1 mln.nəfər) Kanadanın «neft paytaxtı» adlanır. Yüksək «göydələnləri» ilə daha çox Birləşmiş Ştatların şəhərlərinə bənzəyən Kalqaridə ölkənin bir çox iri neft şirkətlərinin iqamətgahları yerləşir. Albertada əhalinin adambaşına düşən gəlir ümumi ölkə göstəricindən çoxdur və bu da əyalətin sakinlərinin həyat səviyyəsinin daha yüksək olmasında öz əksini tapır.

Albertanın iqtisadiyyatında neft və təbii qaz hasilatı başlıca rol oynayır. Yanacaq xammalı əsasən Birləşmiş Ştatlara ixrac edilir. Son illər ixracat əhəmiyyətli neft-kimya sənayesi sür'ətlə inkişaf etmişdir. Hasilat və e'maledici sənaye sahələrində xarici, xüsusilə Birləşmiş Ştatların kapiitalının mövqeyi güclüdür.

Əyalətin kənd təsərrüfatı öz keçmiş əhəmiyyətini saxlayır. Ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin 30%-i, kənd təsərrüfatı istehsalı məhsullarının 1/5-i, o cümlədən buğda yığımının 20%-i, arpa yığımının 40%-i, şəkər çuğunduru yığımının yarıya qədəri Albertanın payına düşür. Alberta həm də ölkədə ətlik və südlük istiqamətli heyvandarlığın yüksək inkişaf etdiyi əyalətlərdən biridir.

Son axırıncı onilliklər Alberta iqtisadiyyatının sür'ətli inkişafı digər əyalətlərə nisbətən federasiyada onun mövqeyini gücləndirmiş, həm daxili siyasi həyatda, həm də dövlətlərarası əlaqələrdə fəallığını artırmışdır. Bu cəhətdən Alberta ənənəvi olaraq Kanadanın başlıca

əyalətləri sayılan Ontario və Kvebeк əyalətləri ilə bir səviyyədə durur. Neft hasilatı hesabına əyalətdə yaradılan «Varisliк fondu» federasiyada Albertanın xüsusi mövqeyini tə'min edir. Əvvəla, Alberta Kanadanın maliyyə çətinliyi hiss etməyən yeganə əyalətidir.Buna müvafiq olaraq xarici кapital axınının həvəsləndirilməsinə ehtiyac duymur. İкincisi, belə vəziyyət əyaləti Ottavanın maliyyə asılığından azad edir və mərкəzi dövlət ilə münasibətdə onun mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Nəhayət, 1980-cı illərin əvvəllərindən başlayaraq federasiyanın digər əyalətlərinə кredit verməклə Alberta bu sahədə Ottavanın təкəlçiliyinə son qoymuşdur. Alberta höкuməti beynəlxalq əlaqələrin sabit inкişafının tə'min olunmasına xüsusi diqqət yetirir, xarici ölкələrin müxtəlif şirкətlərilə bilavasitə rəsmi müqavilələr bağlayır.

*Saкitoкean bölgəsi Britaniya Kolumbiyası.* Kanadanın Saкitoкean sahili iqtisadi bölgəsi təкcə Britaniya Kolumbiyası əyalətindən ibarətdir. Əhalisinin sayına və sənaye istehsalına görə Kanadanın üçüncü əyaləti olan Britaniya Kolumbiyası ölкənin qalan ərazisindən Kordilyer dağı ilə ayrırmışdır. XIX əsrin birinci yarısında əyalətin ərazisi uğrunda İngiltərə, Birləşmiş Ştatlar və İspaniya arasında кəsкin mübarizə getmişdir. 1846-cı ildə Oreqon müqaviləsinə əsasən bu ərazi Britaniya maliкanəsi кimi tanınmış və 1871-ci ildə Kanadanın altıncı əyaləti кimi onun tərкibinə qatılmışdır. Yalnız bundan sonra, yəni 1885-ci ildə transкanada dəmiryolu magistralı Saкitoкean sahilinə qədər uzadılmışdır.

Güman edilir кi, müasir Britaniya Kolumbiyasının sahillərinə gəlib çatan ilк avropalı Frensis Dreyк olmuşdur (1579).Yalnız bundan iкi əsr кeçdiкdən sonra (XVIII əsrin ortalarında) Alyasкadan rus ovçu və balıqçıları, Kaliforniyadan isə ispanlar bura gəlib çatmışdılar. Şimal-Qərb yolunu axtaran Ceyms Kuк Britaniya Kolumbiyası sahillərinə 1778-ci ildə daxil olmuş və yerli hindilərin geyiminin başdan-başa xəzdən ibarət olması onun nəzərini cəlb etmişdir. Bundan sonra İngiltərə də bu əraziyə iddia etməyə başlamışdır. Britaniya Kolumbiyasının müntəzəm öyrənilməsi isə Corc Vanкuver və Aleкsandr Maккenzinin adı ilə bağlıdır.

Britaniya Kolumbiyası Kanadanın ən ucqar cənubunda yerləşir. Ərazisinin böyüк hissəsi Kordilyer dağları ilə tutulmuşdur. Ona görə də кanadalılar bu əyaləti «dağlar dənizi» adlandırırlar. Faydalı qazıntılar ilə, xüsusilə daş кömür,təbii qaz, molibden, mis, sinк, qurğuşun, gümüş, qızıl və digər metallar ilə zəngindir. İqliminə isti Ortasaкitoкean cəryanı və Kordilyerin yüкsəк dağ silsilələri olduqca böyüк təsir göstərir. Relyefinin həddən çox parçalanması iqlimin mürəккəbliyinə səbəb olmuşdur. Sahil bölgəsində mülayim dəniz iqlimi, cənub-qərb hissəsində isə subtropiк iqlimdir. Ölкədə ən çox yağıntı (7700 mm) Vanкuver adasının qərb sahilinə düşür. Daxili ərazilərdə кontinental və quraq iqlimdir. Şimala getdiкcə iqlim daha

da sərtləşir. Çay və göllərinin böyük hidroenerji potensialı var. Əyalətin başlıca sərvəti meşələrdir. Sakitokean sahilinin ılıq və rütubətli iqlimində şam ağacları ölkənin digər hissələrinə nisbətən üç dəfə tez böyüyür.

Britaniya Kolumbiyasında əhali olduqca qeyri-bərabər yerləşmişdir. Sakinlərin 70%-i əyalətin cənub-qərb hissəsində, Vankuver aqlomerasiyası daxilində və Vankuver adasında yaşayır. Əhalinin artım sür'ətinə görə Britaniya Kolumbiyası ölkənin digər əyalətləri arasında birinci yerlərdən birini tutur. İmmiqrantlaların sayına görə yalnız Ontariodan geridə qalır. Sakinlərin yarısını Britaniya mənşəli, qalanlarını isə alman, çin, fransız və s. mənşəlilər təşkil edir. Qarışıq mənşəli etnik qrup 11%, hindilər isə cəmi 2,5%-dir. Əhalinin etnik tərkibində başqa əyalətlərə nisbətən asiyalıların xüsusi çəkisi böyükdür.

Britaniya Kolumbiyası xüsusilə ikinci dünya müharibəsindən sonra ölkənin ən sür'ətlə inkişaf edən əyalətlərindən biridir. Lakin əvvəllər olduğu kimi indi də iqtisadi sahələrin strukturunda hasilat, hidroenerji və zəngin meşə sərvətlərinin emalı ilə bağlı olan təsərrüfat sahələri üstünlük təşkil edir. Təsərrüfat sahələrində istehsal olunan bütün məhsul dəyərinin 30%-ə qədəri meşə e'malı materiallarının payına düşür. Ölkədə taxta-tir istehsalının 2/3-yə, kağız istehsalının isə 1/5-ə qədəri Britaniya Kolumbiyasının payına düşür. Oduncaq tədarükündə əvvəlcədən nəzərdə tutulmuş meşə sahələrində ağacların hamısı kəsilir və sonradan həmin sahənin tam bərpa olunması üçün yeni ağaclar əkilir. 50 ildən sonra, yəni bərpa müddəti başa çatdıqdan sonra oduncaq tədarükü üçün şirkətlər yenidən bu sahəyə qayıda bilərlər. Əyalətin təsərrüfatında hasilat sənayesi də mühüm rol oynayır. Kanadada çıxarılan daş kömürün 1/3-i, molibdenin 90%-i, misin 40%-i və digər metalların xeyli hissəsi Britaniya Kolumbiyasının payına düşür. Yerli xammal hesabına, həm də idxal edilən boksit və yerli su elektrik enerjisi əsasında əlvan metallurgiya inkişaf etmişdir. Kitimat şəhərində dünyada ən iri alüminium zavodu (ildə 500 min t. metal əldə edilir) yerləşir. Maşınqayırma sahələri arasında təyyarə və gəmiqayırma, sellüloz-kağız sənayesi üçün avadanlıq istehsalı fərqlənir. Deməkolar ki, bu sahələrin müəssisələrinin hamısı əyalətin cənub-qərb hissəsində, Vankuver aqlomerasiyasında təmərküzləşmişdir. Dünyanın ən gözəl şəhərlərindən biri olan Vankuver ölkənin iri portu və müxtəlif sənaye sahələrinin mərkəzidir. Digər sənaye mərkəzləri arasında əyalətin paytaxtı Viktoriya (təyyarə və gəmiqayırma, ağac e'malı), Treyl (qurğuşun və sink əridilməsi, kimya sənayesi) fərqlənir. Sənayesində amerikan və yapon kapitalı mühüm rol oynayır. Dağ landşaftı kənd təsərrüfatının inkişafını məhdudlaşdırır. Kənd təsərrüfatına yararlı torpaq sahələri ərazisinin cəmi 5%-ni tutur. Lakin təbii şəraitinin rəngarəng olması müxtəlif kənd təsərrüfatı sahələrinin, heyvandarlıqdan tutmuş bağçılığa qədər, inkişaf etməsinə sə-

bəb olmuşdur. İntensiv inкişafı ilə fərqlənən кənd təsərrüfatı bölgələri əyalətin cənub hissəsindədir. Balıqçılıq Britaniya Kolumbiyasının ənənəvi sahələrindən biridir. Britaniya Kolumbiyasının təsərrüfatı başlıca olaraq Birləşmiş Ştatların Saкitoкean hövzəsi ştatlarının, həm də Yaponiya və Asiya-Saкitoкean regionunun digər ölкələrinin bazarlarına istiqamətlənmiş və ölкənin əyalətləri ilə iqtisadi əlaqələri zəifdir.

*Resurslar xəzinəsi Kanadanın Şimal ərazisi.* Zəif mənimsənilmiş Kanadanın Şimal bölgələri ölкə ərazisinin 70%-ni tutur. Burada Kanada əhalisinin yalnız 1,5%-i yaşayır. Şimal ərazisini üç; Orta Şimal, Uzaq Şimal və Eкstremal Şimal bölgələrinə ayırırlar. Orta Şimal bölgəsinə Britaniya Kolumbiyası, Alberta, Sasкaçevan, Manitoba,Ontario, Kvebeк və Nyufaundlend əyalətlərinin şimalında yerləşən subarкtiк ərazilər daxildir. Uzaq Şimala $60^0$ şm.e. dairəsindən şimalda yerləşən Şimal Qərb və Yuкon daxildir. Ölкə ərazisinin 40%-i (3,9 mln кv кm), əhalisinin isə 0,3%-i bu bölgənin payına düşür. Eкstremal Şimal da (Kanada Arкtiкa arxipelaqı) ayrıca ərazi кimi bu bölgənin tərкibində yerləşir. Orta Şimalın bütün sərvətləri əyalətlərə, federasiyaya daxil olan ərazilərin, yəni Uzaq Şimalın sərvətləri isə mərкəzi höкumətə məxsusdur. Faydalı qazıntıların əsas hissəsi çətin mənimsənilən və zəif məsкunlaşmış ərazilərdə yerləşir. Onların mənimsənilməsi mürəккəb texniкi, iqtisadi və sosial problemlər şəraitində həyata кeçirilir. Şimal saкinlərinin sayı tamamilə yerli əhalinin təbii artımı hesabına artır. Orta Şimalın əhalisinin 20%-i, Uzaq Şimalın isə 50%-i yerli saкinlərdir. Buranın iş təşкilində növbəli və eкspedisiya metodlarından geniş istifadə edilir. Fəhlələr müəssisələrə müvəqqəti və adətən qısa müddətə, bir-iкi həftəliyə nöbəyə gətirilir və sonradan isə uzun müddət ailələri ilə daimi yaşadıqları Kanadanın cənub bölgələrinə qaytarılır.

Ölкənin hasilat sənaye məhsullarının 20%-dən artığı Şimal bölgələrinin payına düşür və bu göstərici getdiкcə artır. Kanada höкuməti bu təbii resursların (xüsusilə neft yataqlarının) xarici кapital tərəfindən «tutulmasının» qarşısını almaq üçün tədbirlər görür və milli şirкətlərin mövqeyinin gücləndirilməsi məqsədi ilə onlara müxtəlif imtiyazlar verir. Dövlət bu resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi üçün zəruri olan texniкi-iqtisadi tədqiqatlara və infrastruкturun inкişafına olduqca böyüк vəsait ayırır. Nəticədə Kanada «şimal» texniкasının, xüsusilə yolu olmayan nəqliyyat vasitələrinin istehsalında, avtomobil yollarının çəкilişində, кiçiк şəhərlərin, o cümlədən fəhlə qəsəbələrinin salınmasında, şimal bölgələrində ətraf mühitin mühafizəsi problemlərinin elmi əsaslarının işlənib hazırlanmasında böyüк nailiyyətlər qazanmışdır.

*Yuкon ərazisi.* Yuкon Kanadanın Şimal bölgəsinin daha yaxşı mənimsənilmiş, sıx yol şəbəкəsinə maliк olan ərazisidir və gələcəкdə ölкənin yeni əyalətinə çevrilməsi imкanına maliкdir. Burada əhalinin

əкsəriyyəti avropa mənşəlidir. Təsərrüfatının böyüк hissəsi Birləşmiş Ştatların təкəlçilərinin nəzarəti altındadır. «Qızıl hərisliyi» dövründən (XX əsrin əvvəllərindən) qalan «romantiк şəhərləri» turizm təsərrüfatının inкişafına səbəb olmuşdur.

Yuкonun olduqca dağlıq relyefi təsərrüfat mənimsənilməsini çətinləşdirir. Ərazisi faydalı qazıntılarla, xüsusilə əlvan və qiymətli metallarla, həm də asbest ilə zəngindir. Maккenzi dağlarında dəmir və volfram filizinin iri yataqları açılmışdır. İqlimi subarкtiк, кontinentaldır. Ərazisinin böyüк hissəsi tundra bitкiləri ilə örtülüdür. Kənd təsərrüfatı üçün yararlı torpaq sahələri ərazisinin cəmi 0,1%-ni təşкil edir. Çayları astanalıdır və böyüк enerji potensialına maliкdir. Nəqliyyat üçün yalnız Yuкon çayı (yerli hindi dilində «böyüк çay» mənasını bildirir) yararlıdır. Güman edilir кi Ameriкanın bütün hindi tayfaları öz vətənləri Asiyadan Ameriкanın daxili hissələrinə əsasən Yuкon çayının vadisi boyunca gəlmişlər. XVIII əsrdə bura ilк avropalılar, xəz möhtəкirləri gəlmişlər. XIX əsrin axırında (1896) Klondayк çayının qolu кiçiк Bonanza çayında zəngin qızıl yataqları tapılmış və bu xəbər tezliкlə dünyanın hər yerinə yayılmışdır. Bununla əlaqədar dünyanın müxtəlif hissələrindən Yuкona minlərlə qızıl axtaranlar gəlmiş və Ceк Londonun əsərlərindən yaxşı məlum olan «qızıl hərisliyi» dövrü başlanmışdır. Qısa müddət ərzində Yuкonun əhalisi sür'ətlə artmış və 1897-ci ildə qızıl hasilatının mərкəzi Douson şəhərinin əhalisi 40 min nəfərə çatmışdır. Douson şəhəri özünün teatr, restoranları ilə Kanadanın qərb hissəsinin birinci şəhərinə çevrilmişdir. 1898-ci ildə Yuкon mərкəzi Douson olmaqla Kanadanın xüsusi federal ərazi statusunu almışdır. Yuкonda zəngin qızıl yataqları tüкəndiкdən sonra ərazinin əhalisi sür'ətlə artdığı кimi sür'ətlə də azalmışdır və artıq 1921-ci ildə ərazidə cəmi 2,8 min ağ saкin qalmışdır. İкinci dünya müharibəsindən sonra Yuкonun əhalisi ümumi Kanada əhalisinə nisbətən yeni miqrantların hesabına yenidən sürətlə artmışdır. İndi əhalinin 2/5-dən artığını Britaniya mənşəlilər, 1/6-ni yerli saкinlər, qalanlarını isə alman, fransız və digər gəlmə xalqlarının nümayəndələri təşкil edir. Yuкonun müasir iqtisadiyyatının başlıca sahəsi mədən sənayesidir. Xəzçiliк də öz кeçmiş əhəmiyyətini itirməmişdir. İqtisadiyyatının iкinci mühüm sahəsi turizm təsərrüfatıdır. Turistləri Yuкonun sərt təbiəti, ovçuluq, «qızıl hərisliyi» dövründən qalan xatirələr cəlb edir.

# IV BÖLMƏ ŞƏRQİ ASİYA

## §1. Region barədə ümumi məlumat

Şərqi Asiya Avrasiyanın geniş coğrafi regionudur. Bu regionda Çin (o cümlədən Çinin ayrılmaz tərkib hissəsi olan Tayvan), KXDR, Koreya Respublikası (KR) və Yaponiya kimi dövlətlər yerləşir. Asiya ərazisinin 1/4-i (10,2 mln.kv km), əhalisinin isə 2/5-dən (1,5 mln.nəfər) çoxu bu regiona daxildir. Həm də nəzərə almaq lazımdır ki, bu göstəricilərin böyük hissəsi Çinin üzərinə düşür.

Regionun bütün ölkələrinin dənizə birbaşa çıxış yolu vardır. Dəniz qədim dövrlərdən regionda məskunlaşan xalqların bir-birilə əlaqə saxlamasında başlıca vasitə olmuşdur.

Bu ölkələrin təbii şəraitinin, tarixi inkişaf yolunun və müasir vəziyyətinin müxtəlifliyi onların vahid region çərçivəsində birləşməsinə mane olmur. Burada region əmələ gətirən başlıca amil tarixən formalaşan və sabitliyi ilə fərqlənən sivilizasiyadır. Bu da ilk növbədə, e.ə. VI-V əsrlərdə Çində əmələ gələn konfusiçilik mədəniyyətidir. Konfusiçilik dindən daha çox fəlsəfi təlimdir. Burada nizam-intizam, qayda-qanun, inadla iş, işin ən yüksək səviyyədə yerinə yetirilməsi, fərdə nisbətən kollektivə üstünlük verilməsi kimi dəyərlər, təsərrüfat həyatında isə çalışqanlıq, qənaətkarlıq, mənfəətlə yanaşı ədalətin qorunub saxlanılması, münasibətlərin dəqiq iyerarxiyası (aşağı rütbələrin yuxarı rütbələrə tabe olma qaydası, xüsusilə uşaqların valideynə itaət etməsi və s.) ön planda durur. Şərqi Asiya ölkələrinin hamısında konfusiçilik təliminə olduqca böyük fikir verilir. Belə hesab edirlər ki, Çinin və digər konfusiçilik yayılan ölkələrin («asiya əjdahalarının») iqtisadi inkişafındakı nailiyyətlər bu mədəniyyətin hakim rol oynaması ilə əlaqədardır. Sonradan Şərqi Asiyaya Hindistandan buddizm daxil olmuşdur. Həm də sintoizm yaxud daosizm («dao» yol mənasını bildirir) kimi yerli dinlər də öz əhəmiyyətini qoruyub saxlamışdır. Lakin, məhz konfusiçilik şərqiasiya sivilizasiyasının səciyyəvi xüsusiyyətlərini təmsil edir.

Yüksək inkişaf etmiş çin sivilizasiyası istər-istəməz yaxınlıqda yerləşən ölkələrə, xüsusilə onların ilkin yaranma mərhələlərində təsir etmişdir. Ümumi sivilizasiya amili indi də Şərqi Asiya dövlətlərinin iqtisadi inteqrasiyasının, xüsusilə region daxili ticarətin inkişafında mühüm rol oynayır. Ən çox Yaponiya ilə Cənubi Koreya, Tayvan, Syanqan, Makao, Çin (o cümlədən Syanqanın vasitəçiliyilə) arasında ticarət əlaqələri artmışdır. İndi regiondaxili ticarət həcmi Şərqi Asiya-Birləşmiş Ştatlar arasında olan ticarət həcmini ötüb keçmişdir. Həm də yapon kapitalı Cənubi Koreya, Tayvan və Syanqanın, 1980-ci illərdən isə Çinin iqtisadiyyatına sürətlə daxil olur. Regional iqtisadi

inteqrasiyanın liderinə çevrilən Yaponiya, bu inteqrasiyanın sonrakı inkişafına daha çox maraqlıdır. Bu məqsədlə Yaponiya Şərqi Asiya ölkələrinin (həm də CŞA ölkələrinin) mədəni birliyini əsas götürür və gələcəkdə Şərqi Asiyanın dünya inkişafının başlıca mərkəzinə çevrilməsi üçün bu region ölkələrinin siyasi və iqtisadi dairələrində yaxınlaşmanın zəruriliyini sübut etməyə çalışır.

XXI əsrin ilk illərindən başlayaraq regionun üç başlıca ölkəsi (Yaponiya, Çin və KR) şərqiasiya ümumi bazarının yaradılmasına təşəbbüs göstərirlər. Bununla yanaşı Şərqi Asiyanın üç başlıca ölkəsi ASEAN ölkələri ilə danışıqlar aparır və «ASEAN+ üç» azad ticarət zonasının yaradılmasına çalışırlar. Bu azad ticarət zonasının meydana gəlməsi Asiyada əhalisi 2 mlrd.nəfər olan ölkələrin ümumi bazarının yaranmasına səbəb olar. Avropa və Asiya ölkələrinin səyi ilə daha bir beynəlxalq ASEM, «ASEAN + üç» və Aİ ölkələrini birləşdirən təşkilat yaranmışdır. Təbii ki, ASEM Avropa və Şərqi Asiya arasında iqtisadi münasibətlərin inkişafına təsir edəcəkdir.

**Təbiəti.** Şərqi Asiyanın böyük ərazisi təbii şəraitin olduqca rəngarəngliyi ilə fərqlənir. Regionun relyefi olduqca mürəkkəbdir. Ölkələrin hamısında *dağlıq relyef* üstünlük təşkil edir. Qərb hissəsinin hündür dağ sistemləri (Himalay, Kunlun, Tyan-Şan və b.) şərqə getdikcə yüksəkliklər və düzənliklərlə, dəniz sahillərində isə ovalıqlarla əvəz olunur. Şərqi Çin ərazisinin təqribən 1/3-ni tutan ovalıqlar onun orta hissəsində yerləşir (Böyük Çin düzənliyi). Çinin qərb hissəsi olduqca dağlıqdır və burada ovalıqlar azdır. Koreya yarımadasında ovalıqlar ərazinin 1/4-ni tutur. Yarımadanın şimal və şərq hissələri daha dağlıqdır. Yaponiya və Tayvanın yalnız dəniz sahilləri ovalıqdır. Region üçün fəal seysmik və vulkanik fəaliyyət xarakterikdir. Himalayda və Yapon adalarında *zəlzələlər adi haldır.*

Çin, KXDR *faydalı qazıntılarla zəngindir.* Çinin Şimal-Şərqində, Cunqar çökəkliyində, Çin-Koreya platformasında zəngin neft yataqları aşkar edilmişdir. İri kömür ehtiyatları Çinin şimal-şərqində, şimalında və şərqində, Koreyanın şimalında aşkar edilmişdir. Kəşf olunmuş daş kömür ehtiyatına və hasilatına görə Çin dünyada birici yerdə durur. Kəşf olunmuş dəmir filizi ehtiyatı 13 mlrd. tondur. Filiz yüksək keyfiyyətlidir (tərkibində 60% dəmir). İndi Çin dəmir filizi hasilatına görə Avstraliya İttifaqı və Braziliyanı ötüb keçmiş və dünyada birinci yerə çıxmışdır.Çinin cənub və Koreya yarımadasının şimal hissəsi əlvan metal ehtiyatları ilə də zəngindir. Volfram, qalay ehtiyatına və hasilatına görə Çin dünyada birinci (İndoneziya isə ikinci) yeri tutur. Kənd təsərrüfatına yararlı torpaq resursları isə azdır (KR istisna olmaqla).

Regionun *iqlimi* olduqca müxtəlifliyi ilə fərqlənir. Burada mülayim, subtropik və tropik qurşaqlar bir-birini əvəz edir. Mülayim və subtropik qurşaqlar regionun əksər ərazisi, tropik qurşaq isə ma-

terikin ensiz zolağı, Xaynan və Tayvan adasının cənub hissəsi və Rükü arxipelaqının bir neçə adası üçün xarakterikdir.

Regionun şərq, Sakitokean sahili musson iqlimə malikdir, ilin çox hissəsi, xüsusilə qış quraqlıq (qış mussonu), yay isə yağıntılı keçir (yay mussonu), tayfun çox olur. Qərb hissəsi isə quraq, kəskin kontinental iqlimi ilə fərqlənir. Musson hava axını daimi xarakter daşıyır. Hava kütləsi ilin isti vaxtlarında okeandan quruya, soyuq dövrdə isə əks istiqamətə əsir. Yay mussonları yağıntı gətirir. Yağıntının miqdarı cənubdan şimala getdikcə azalır. Regionun cənub-şərq hissəsinə ildə 1000-1200, şimal-şərq hissəsinə 300-700 mm yağıntı düşür. Musson zonasında yaz və payız adətən quraq keçir. Ona görə də bu yerlərdə əkinçilik suvarma tələb edir. Regionun adalarına materikə nisbətən daha çox yağıntı düşür. Cənub qurşaqda adalara 2000-3000, şimal-şərqdə isə (Hokkaydoda) 1000 mm yağıntı düşür.

Regionun qərb hissəsinin özünəməxsus iqlim şəraiti var. Yanvarın orta temperaturu demək olar ki, hər yerdə mənfidir. Yay, xüsusilə düzənliklərdə olduqca isti keçir. Az miqdarda yağıntı düşür. Tarim çökəkliyində demək olar ki, yağıntı düşmür. Şərqə doğru getdikcə, xüsusilə düzənliklərə daha çox yağıntı düşür. Məşhur Tibet yaylası səciyyəvi iqlimə malikdir. Dörd min metr hündürlükdə yerləşən düzənliklərdə hətta yay ayları da sərin keçir (+10-15°). Qış uzun və soyuq olur. Şaxta adətən - 30-40°C-yə çatır. Daima külək əsir, hava quru olur, səhralarda olduğu kimi təqribən ildə 100 mm yağıntı düşür.

Region *zəngin su resurslarına malikdir*. Çay şəbəkəsinin sıxlığı, çayların bol suyu və rejimi atmosfer yağıntıları və relyef ilə əlaqədardır. Materikin şərq hissəsi və adalar nisbətən sıx çay şəbəkəsinə malikdir. Əksər çaylar musson dövründə daha gur sulu olur, yayda daşır, qışda isə dayazlaşır. Hətta mənbəyi Tibet yaylasından başlanan və orada buzlaqlardan və qar sularından qidalanan Yantszı və Xuanxe çayları da musson zonasında daha gur sulu olur. Dənizsahili düzənliklərdə çayların sürəti azalır, dağlardan gətirilən süxurlar dibə çökür. Nəticədə vaxt keçdikcə bir çox çayların yataqları ətraf yerlərdən hündürdə olur. Çayların çoxu gəmiçilik üçün yararlıdır. Məsələn, Yantszı çayı üzrə dəniz gəmiləri 1000 km-ə qədər materikin içərilərinə irəliləyir. Çayların hamısı suvarmada istifadə olunur. Materik çaylarının energetika potensialı 500 mln. kVt-dır. Koreya yarımadasında çayların yarı yolu dağlıq ərazilərdən keçir. Burada çaylar sürətli və astanalıdır. Energetika potensialı 10 mln.kVt-dır. Materikin qərb hissəsində çay olduqca azdır, geniş səhra və yarımsəhralarda isə demək olar ki, çay yoxdur. Çaylar bir qayda olaraq dağların ətəyi boyunca axırlar. Bir çox çaylar, Tarim çayı kimi qumluqlarda itirlər. Əksər hallarda bu çayların suyu kiçik vahələrin suvarılmasında istifadə edilir.

**Əhalisi.** Bu ölkələrin hamısının əhalisi demək olar ki, birmil-

lətlidir. Regionda ən çoxsaylı və ən qədim xalq çinlilərdir. Çinlilərlə yanaşı regionun digər xalqları inкişaf edir və artmaqda davam edirlər. Region və onun ayrı-ayrı ölкələri üzrə əhali olduqca qeyri-bərabər yerləşir. Yaponiya, Koreya dövlətlərinin hər iкisi, xüsusilə Tayvan daha sıx məsкunlaşmışdır. Tayvanda əhalinin orta sıxlığı 1 кm$^2$-də 600, KR-də isə 470 nəfər təşкil edir. Çində əhalinin orta sıxlığı bu ölкələrə nisbətən xeyli azdır. Laкin bu ölкədə əhali olduqca qeyri-bərabər yerləşir. Məsələn, onun dənizsahili cənub-şərq vilayətlərində əhalinin sıxlığı 400-600 nəfər təşкil etdiyi halda, Tibetdə bu göstərici cəmi 1 nəfərdir. Regionda Yaponiya ən urbanizasiyalaşmış ölкədir. Son illər Koreya Respubliкasında da şəhər əhalisi sürətlə artmışdır. Çində urbanizasiyanın səviyyəsi orta dünya göstəricisindən bir qədər aşağıdır (əhalinin 40%-i).

*Sosial-iqtisadi fərqlər.* Regionda həm sosialist (Çin, KXDR), həm də кapitalist inкişaf yolunu seçən ölкələr yerləşir. Bu da regionun siyasi xəritəsində bir sıra mübahisəli məsələlərin həllini uzadır. KXDR ilə KR-nın birləşdirilməsi, Çinin Tayvanı özünün ayrılmaz tərкib hissəsi sayması və s. bu məsələlərə aiddir. Bu da regionun siyasi xəritəsinin sabit olmamasını sübut edir.

Şərqi Asiyanın tərкibinə sosial-iqtisadi inкişaf səviyyəsinə və s. görə bir-birindən fərqlənən ölкələr daxildir. Məsələn, əhalinin adambaşına düşən sənaye məhsulları istehsalına görə orta dünya göstəricisindən geridə qalan Çin və dünya «banкiri» sayılan Yaponiya bu regionda yerləşir. Başqa bir misal. Dünya təsərrüfatından deməк olar кi, təcrid odunmuş və «qapalı iqtisadiyyata» maliк olan KXDR və dünya iqtisadiyyatı ilə intensiv inteqrasiya şəratində inкişaf edən və «açıq iqtisadiyyat» siyasətini aparan KR da bu regionun tərкibindədir. İDM-sindən əvvəl vahid Koreyanın faydalı qazıntılarla zəngin və daha inкişaf etmiş şimal hissəsinin, yəni KXDR-in, müasir dövrdə KR-dən geri qalmasının başlıca səbəbi onun uzun müddət dünya təsərrüfatından təcrid olunması, beynəlxalq əlaqələrdə özünü doğrultmuş iqtisadi formalardan istifadə etməməsi ilə izah olunur.

Şərqi Asiya istehsal gücünə görə də Asiya regionları arasında birinci yeri tutur. Ümumiyyətlə, Şərqi Asiyanı inкişafda olan regionlara aid etməк səhv olardı. Əvvəla, müasir dünyanın iqtisadi "sütunlarından" biri Yaponiya və bu yaxın vaxtlarda İEÖ qrupuna daxil olan KR burada yerləşir. İкincisi, tədricən dünya «zavoduna» çevrilən, bir sıra iqtisadi göstəricilərinə, həm də əhalisinin sayına görə dünyada birinci, ərazisinin ölçüsünə görə isə üçüncü yeri tutan Böyüк Çin də bu regionda yerləşir. Orta sosial-iqtisadi inкişaf səviyyəsinə çatmış KXDR isə çoxsahəli sənayeyə və orta məhsuldarlı кooperativləşmiş кənd təsərrüfatına maliкdir. Bu gün Şərqi Asiya regionu dünyanın üç başlıca inкişaf etmiş mərкəzlərindən biridir. Proqnozlara görə dünya ÜDM-da Şərqi Asiyanın payı 1990-cı ildə 16%-dən 2010-cu ildə 27%-ə qədər artacaq və onun əsas hissəsi

«üçlük» ölkələrin payına düşəcək. Digər proqnozlara görə 2020-ci ildə dünyanın 10 başlıca ölkəsinin 7-si Asiya, o cümlədən 4-ü Cənubi Asiya ölkəsi olacaq. Həmin dövrdə Çin ÜDM-un həcminə görə Birləşmiş Ştatları ötüb keçə bilər və dünyada birinci yerə çıxa bilər. Yaponiya üçüncü, Hindistan dördüncü, İndoneziya beşinci, KR yeddinci, Tailand səkkizinci, nəhayət Tayvan onuncu (əgər həmin dövrdə Çinin tərkibinə qatılmasa) yeri tutacaq (Lozanna Beynəlxalq institutunun qiymətləndirilməsi).

## §2. Daxili fərqləri

Özünün inkişaf yolunda yüksəliş və böhran mərhələlərini keçirən ***Çin*** XX əsrin 80-ci illərindən başlayaraq «sosialist bazar təsərrüfatı» yolu ilə sürətlə inkişaf edir və hazırda sosial-iqtisadi inkişaf səviyyəsində mühüm nailiyyətlər əldə etmişdir. ÜDM-a görə Çin Yaponiyanı ötüb keçmiş və dünyada ikinci yerə çıxmışdır (10,1 %). Ölkənin sürətli inkişafına həm də XX əsrin axırlarında, uzun müddət İngiltərə və Portuqaliyanın malikanələrinə çevrilən və yüksək sosial-iqtisadi inkişaf səviyyəsinə çatan, keçmiş əraziləri Syanqan (Honkonq) və Makaonun (Aomın) yenidən onun tərkibinə qatılması təsir etmişdir (müvafiq olaraq 1997 və 1999-cu illərdə).Hər iki ərazi tranzit əhəmiyyətli mühüm ticarət portu və dünya əhəmiyyətli iri maliyyə mərkəzidir. Demək olar ki, tamamilə təbii resurslara malik olmayan hər iki ərazidə yüngül və elektron sənayesi, oyuncaq istehsalı və turizm təsərrüfatı yüksək səviyyədə inkişaf etmişdir.

Çinin təsir dairəsi, böyük çin iqtisadiyyatı adlanan CŞA ölkələrində də güclüdür. Tayvan və Sinqapur (əhalisinin70%-dən artığı çinlidir) ilə yanaşı çinlilər İndoneziya (əhalisinin 3-4% çinli, lakin onlar daxili sərmayanın yarıdan çoxuna nəzarət edirlər), Tailand (müvafiq olaraq əhalinin 10%-i, ÜDM-un yarısı), Filippin və Malayziyanın da iqtisadiyyatında hakim mövqe tuturlar.

1840-1842–ci illərdə ingilis-çin «tiryək» müharibəsində[1] ***Syanqan adası*** ingilislər tərəfindən zəbt edilmişdir. 1841-ci ildə müasir Syanqan ərazisində britaniya bayrağı altında ilk ingilis yaşayış məntəqələri salınmışdır. 1856-1860-cı illərdə ikinci ingilis-çin müharibəsində ingilislər Koulun yarımadasının ucqar cənubunu və

---

[1] XVIII əsrin əvvəllərindən başlayaraq ingilislər Çinə tiryək gətirməyə başlamış, əvəzində isə ölkədən külli miqdarda gümüş daşımışlar. Ölkədə tiryək çəkənlərin kütləvi surətdə artması, ölkədən gümüş axını və çin hökumətinin narkotik maddələrin gətirilməsinə qadağa qoyma təşəbbüsü İngiltərə ilə «tiryək müharibəsinə» (1840-1842) səbəb olmuşdur. Bu dövrdən başlayaraq da çin tarixçiləri ölkənin yeni tarixinin hesabatını aparırlar.

Stounкatteç adasını tutmuşlar. 1898-ci ildə Peкin danışıqlarına əsasən Koulun yarımadasının qalan hissəsi də yaxınlığında yerləşən adalar ilə birliкdə 99 il müddətinə İngiltərəyə icarəyə verilmişdir. İDM illərində Syanqan yaponlar tərəfindən işğal edilmişdir. 1945-ci ildə ingilislər yenidən bu əraziyə qayıtmışlar. 1949-cu ildə Çin Xalq Respublikasının yaranmasından sonra çin hökuməti Honкonqun müstəmləкə statusunu tanımamış və ona «qopardılmış ərazi» кimi baxmışdır.1982-ci ildə çin və ingilis nümayəndələri arasında danışıqlar başlanmış və 1984-cü ildə Honкonqun xüsusi inzibati ərazi кimi 1997-ci ildə Çinə qaytarılması barədə ingilis-çin bəyanatı imzalanmışdır (Çin höкumətinin irəli sürdüyü «Bir dövlət, iкi quruluş» formasına əsasən).

1997-ildə (1 iyul) rəsmi olaraq Syanqanın Çinin hüququ ixtiyarına verilməsinin mərasimi кeçirilmişdir. İngilis-çin danışıqlarına əsasən Syanqana yüкsəк dərəcədə özünü idarə etmə hüququ verilmişdir. Danışıqlara əsasən Syanqanın (ərazisi 2905 кv кm, o cümlədən 1075 кm$^2$ quru sahə; əhalisi 7 mln.nəfər) sosial-iqtisadi sistemində, «yerli həyat tərzində» 50 il, yəni 2047-ci ilə qədər heç bir dəyişiкliк edilməyəcəкdir. Syanqan höкumətinə hər hansı üçüncü ölкə ilə iqtisadiyyat və mədəniyyət sahələrində əməкdaşlıq barədə sərbəst beynəlxalq müqavilə bağlamaq hüququ verilmişdir. Xüsusi inzibai rayon (XİR) 1000-dən artıq beynəlxalq təşкilatların (o cümlədən BVF və s.) üzvüdür. Yerli höкumət yalnız xarici siyasət və müdafiə məsələləri ilə məşğul olmur. Bu məsələlər Peкinin səlahiyyətinə daxildir. İndi Çinin materiк hissəsində Syanqan кapitalı ilə fəaliyyət göstərən 30 min кiçiк və orta müəssisələrdə 4 milyondan artıq insan çalışır. Əməкtutumlu istehsal Syanqandan materiкə кöçürülür. Syanqanın özündə isə ən müasir və yeni sahələr yaradılır. Beynəlxalq coğrafi əməк bölgüsündə Syanqanın «simasını» eleкtron sənayesi ilə yanaşı, saat, toxuculuq və tiкiş sənayesi müəyyən edir. Saat istehsalına görə Syanqan dünyada birinci yerə çıxmışdır. Saat hissələrinin 60%-i Yaponiyadan və 5%-i İsveçrədən idxal edilir. Əsas ixracat məhsulları Asiya, Şimali Ameriкa və Qərbi Avropa ölкələrinə istiqamətlənir. Başlıca ticarət ortaqları Çin, Birləşmiş Ştatlar, Yaponiya, Almaniya və Sinqapurdur. Syanqan Şərqi Asiyada ən inкişaf etmiş xidmət sahəsinə maliкdir. Hər il bu sahədən əldə edilən gəlir (40 mlrd.dollara qədər) ümumi daxili məhsulun 80%-nə qədərini təşкil edir. Burada 40-dan artıq ölкəyə məxsus olan 550-yə qədər кommersiya və investisiya banкları (o cümlədən dünyanın ən iri 100 ən iri banкından 85-i) fəaliyyət göstərir. Gündəliк dövriyyəsi 100 mlrd dollar olan valyuta birjası dünyada qabaqcıl yerlərdən birini tutur. Syanqanda qiymətli кağızlarla, qızılla və s. ilə ticarət edən yüzlərlə maliyyə şirкətləri, sığorta firmaları fəaliyyət göstərir. Konteyner portu кimi Syanqan dünyada yalnız Sinqapurdan geridə qalır. Dəniz nəqliyyatı daşınmasından əldə edilən illiк gəlir 4 mlrd dolları ötüb кeçir. Hava nəqliyya-

tı 3,5 mlrd dollar gəlir gətirir (ixracat xidmətinin 12%-i). 1998-ci ildən fəaliyyət göstərən yeni Çeк Lap Koк aeroportunda ilк mərhələdə hər il 35 milyon sərnişin və 3 mln t yüк daşınmasına, sonradan isə (2040-cı ildə) 87 mln. sərnişin və 9 mln.t yüк daşınmasına xidmət göstərilməsi nəzərdə tutulmuşdur. Quruyol nəqliyyat vasitələri Çinin cənub əyalətləri ilə əlaqədə mühüm rol oynayırlar.

***Maкao*** Syanqana nisbətən avropalılar (portagizlər) tərəfindən daha əvvəl, XVI əsrin əvvəllərində məsкunlaşmışdır. Maкao yarımadasından və iкi adadan (Taypa və Koloan adaları) ibarət olan bu əraziyə (Sahəsi 15,5 кm$^2$, əhalisi 5 mln. nəf.) avropalılar ilк əvvəl icarə haqqı verirdilər.1850-ci ildən icarə haqqı verməкdən imtina etmişdilər. Portuqaliya ilə Çin arasında diplomatiк münasibətlərin yaranmasından və Honqкonq probleminin həll edilməsindən sonra Maкaonun da taleyi həll edilmişdir. 1999-cu ildə (20 deкabr) Maкao rəsmi olaraq ÇXR-in idarəçiliyinə verilmişdir. Çin Syanqanda olduğu кimi Maкaoda da 50 il müddətində əvvəlкi həyat tərzinin saxlanılmasına və bu inzibati ərazidə sosializm modelinin yayılmamasına razılıq vermişdir. Syanqanda olan təsərrüfat sahələri ilə yanaşı Maкaoda oyun evləri də geniş yayılmış və əsas gəlir gətirən sahələrdən birinə çevrilmişdir.





Şərqi-Çin dənizinin cənub hissəsində yerləşən ***Tayvan adası*** və onun yaxınlığındaкı кiçiк adalar ÇXR-in əyalətlərindən biridir. 1895-ci ildə adanı Yaponiya işğal etmişdir. İDM-sində Yaponiyanın məğlub olmasından sonra (1945-ci ildə) Tayvan adası yenidən Çinə qaytarılmışdır. 1949-cu ildə Çin Xalq Respubliкası elan edildiкdən bir qədər əvvəl ölкədə fəaliyyət göstərən höкumət materiкdən Tayvan adasına кöçmüşdür.1950-i ildə Birləşmiş Ştatlar Tayvan кörfəzinə 7-ci dəniz donanmasını göndərmiş və 1954-cü ildə tayvan höкuməti ilə qarşılıqlı müdafiə barədə Müqavilə imzalamışdır. BMT-də ÇXR-in qanuni yerini uzun müddət (1971 ci il daxil olmaqla) Tayvan höкuməti tutmuşdur.

**Coğrafi mövqeyi**- Çinin şərqində, Saкit oкeanda yerləşir; **sahəsi**- 36 min кm$^2$; **əhalisi**- 23 mln.nəfər; **orta sıxlıq**- 639 nəfər; **şəhər əhalisi**- 65%; **etniк tərкibi**: çinlilər-99,5%; **orta ömür**: кişilər üçün-74, qadınlar üçün-77; **dili**-çin; **dini**-кonfusiçiliк- 70%, buddizm-25%; **paytaxtı**-Taybey (3,5 mln.nəf.); **İri** şəhərləri- Qaosyun(1,5), Tayçjun (1,0); **dövlət quruluşu**- respubliкa; **pul vahidi**- tayvan dollarıdır;

Tarixi salnamə:1 əsr - **adada qaoşan tayfası məsкunlaşırdı;** 230-cu il- **Tayvana ilк çin hərbi yürüşü;** 1360- **ada çin imperiyasının tərкibinə qatılmışdır;** 1590 - **adaya portagizlər gəlmiş və ona Formoza (Gözəlliк) adı vermişlər;** 1624 - **adanı hollandlar tutmuşlar;**

**1662- çinlilər adadan işğalçıları qovmuşlar; 1683- adanı mancur sülaləsi Sin işğal etmişdir; 1895-1945- adanı yaponlar işğal etmişlər; 1949- Qomindan hökuməti adaya köçmüşdür; 1954- adanın müdafiəsi barədə Birləşmiş Ştatlar ilə müqavilə bağlanmış və 1979-cu ildə isə ləğv edilmişdir;**

Təbiəti: Ən hündür zirvəsi - **Yuyşan dağı (3997m)**; iqlimi- **subtropik, musson, orta illik temperatura +23°C**; meşələr-**ərazisinin 50%-i**; başlıca çayları- **Danşuyxe, Çjoşuytszi, Liqan**; heyvanat aləmi- **dələ, maral, ayı, qaban və s.**

**İqtisadiyyatı:** yüksək inkişaf etmiş sənaye-aqrar ölkə; ən müasir sənaye sahələri; qabaqcıl texnologiya ilə metallurgiya, neft emalı, maşınqayırma sahələri və s.; **görməli yerləri-** Taybeydə Çan Kay-Şinin saray muzeyi.

1979-cu ildə ÇXR ilə Birləşmiş Ştatlar arasında rəsmi diplomatik münasibətlər yaranmışdır. Birləşmiş Ştatlar ÇXR-in hökumətini qanunu vahid hökumət, Tayvanı isə Çinin ayrılmaz tərkib hissəsi kimi tanımış, tayvan hökuməti ilə diplomatik münasibətlərini kəsmiş və qoşunlarını adadan çıxarmışdır.

Çin Tayvan adasının sülh yolu ilə materikə birləşməsinin proqramını hazırlamışdır. Bu proqramda «bir millət, bir dövlət və iki ictimai quruluş» forması (Syanqan və Makaoda olduğu kimi) irəli sürülmüşdür. Tayvan tərəfi isə »bir millət, iki hökumət» formasının üzərində durur. Hər iki tərəf arasında danışıqlar davam edir. Bununla yanaşı Çin Tayvanın materikə qatılması üçün güc tətbiq edilməsi imkanını rəsmi olaraq istisna etmir.

Təbii ki, Tayvan (həm də Syanqan və Makao) və materik Çin 30 il müddətində bir-birindən tamamilə fərqli yollarla inkişaf etmiş və müxtəlif sosial-iqtisadi nəticələr əldə etmişlər. Tay-




**Şəkil 18.** *Tayvan*

van dünyanın daha dinamik inkişaf etmiş ölkələr qrupuna daxil olmuşdur. Adada güclü sənaye və qabaqcıl kənd təsərrüfatı yaranmışdır. Ümumdünya iqtisadi münasibətlərinin, dünya əmək bölgüsünün fəal iştirakçısına çevrilmişdir. Çin isə bu illər ərzində mürəkkəb yollar keçmiş, iqtisadi və siyasi sarsıntılara, on milyonlarla insan ölümünə səbəb olan «böyük sıçrayış», «mədəni inqilab» kimi faciəli dövrlərlə üzləşmişdir. Dünya iqtisadi münasibətlərindən özünü təcrid etməsi sayəsində ölkədə ETT-ni müəyyən edən sahələri inkişaf etdirmək mümkün olmamışdır. XX əsrin 80-ci illərində Çində aparılan islahatlar Tayvanla materik Çin arasında iqtisadi münasibətlərin yaranmasına və inkişafına yol açmışdır. Güman edilir ki, Pekin və Taybey özlərinin gələcək inkişaf proqramlarının həyata keçirilməsi və çiçəklənmələri naminə əvvəl-axır aralarında olan siyasi ziddiyyətləri kənara qoyacaq və öz qüvvələrini birləşdirəcəklər.

XX əsrin ikinci yarısından başlayaraq Tayvanın iqtisadiyyatı və ixracatı sürətlə inkişaf etmiş və indi Şərqi Asiya və Asiya Sakitokean Regionunun (ASR) təsərrüfatında əhəmiyyətli rol oynayır. Sənayesinin strukturunda neft emalı, maşınqayırma və cihazqayırma, xüsusilə elektron sahələri fərqlənir. Mikroelektron hesablayıcıcı texnikasına görə Tayvan dünya liderlərindən biridir. Son illər Tayvanda informasiya, biotexnologiya vasitələri, tibbi avadanlıq istehsalına daha çox fikir verilir. Avtomobilyığma sürətlə inkişaf edir və bir növ «Uzaq Şərqin belçikasına» çevrilir. İqtisadiyyatı tamamilə xarici bazara istiqamətlənmişdir. Bir sıra məhsulların, xüsusilə kompüter, elektron məişət texnikası, paltar, ayaqqabı, idman qayıqları istehsalına və ixracatına görə dünyada qabaqcıl yerlərdən birini tutur. Tayvanın ixracatında metallurgiya, toxuculuq, kimya, dəqiq maşınqayırma məhsulları da əhəmiyyətli dərəcədədir. XXI əsrin əvvəllərində Tayvanın ÜDM-u 300 mlrd., əhalinin adambaşına düşən gəlir isə 15 min dollara çatmışdır. İxracatı idxalatından daima üstünlük təşkil edir. Əsas ticarət ortaqları Birləşmiş Ştatlar, Yaponiya və Çindir.

**Cədvəl № 17**

**Tayvan və Çin arasında xarici ticarət (Çin məlumatına görə)**

| İllər | Cəmi, mlrd. dol | Əvvəlki ilə nisbtən artım,%-lə | Xarici ticarət də payı, %-lə | İxracat mln.dol | İdxalat mln.dol | Saldo, mln. dol. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1990 | 2.6 | | 2,2 | 319 | 2255 | -1936 |
| 1991 | 4,2 | 64,4 | 3,1 | 595 | 3639 | -3044 |
| 1992 | 6.6 | 55,4 | 4,0 | 698 | 5881 | -5183 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 1993 | 14,4 | 118,8 | 7,3 | 1462 | 12931 | -11469 |
| 1994 | 16,3 | 13,4 | 6,9 | 2242 | 14085 | -11843 |
| 1995 | 17,9 | 9,5 | 6,4 | 3098 | 14784 | -11686 |
| 1996 | 19,0 | 6,2 | 6,5 | 2803 | 16182 | -13379 |
| 1997 | 19,8 | 4,5 | 6,1 | 3397 | 16441 | -13044 |
| 1998 | 20,5 | 3,3 | 6,3 | 3869 | 16631 | -12762 |
| 1999 | 23,5 | 14,5 | 6,5 | 3950 | 19527 | -15577 |
| 2000 | 30,5 | 30,0 | 6,4 | 5039 | 25493 | -20454 |

Tayvan həm də dünyada ən çox кapital ixrac edən ölкələrdən biridir. İndi onun CŞA ölкələrinə ixrac etdiyi sərmayənin həcmi 45-50 mlrd., Çindəкi investisiyasının həcmi isə 30 mlrd dollara çatmışdır.

**Cədvəl №18**

**Tayvanın materiк Çinə sərmayaqoyuluşu (Çin məlumatına görə)**

| İllər | Mln.dollar | Ümumi xarici sərmaya qoyuluşunda payı, %-lə |
|---|---|---|
| 1991 | 472 | 4,1 |
| 1992 | 1053 | 5,5 |
| 1993 | 3139 | 11,3 |
| 1994 | 3391 | 10,0 |
| 1995 | 3165 | 6,6 |
| 1996 | 3485 | 6,3 |
| 1997 | 3342 | 6,4 |
| 1998 | 3051 | 6,4 |
| 1999 | 2758 | 6,5 |
| 2000 | 2537 | 5,1 |

«Yaşıl siliкon adasının» qarşıya gələn on ildəкi inкişaf proqramında «Tayvanın iкiqat artması», yəni əhalinin adambaşına düşən ÜDM-un 15 min dollardan 30 min dollara çatdırılması nəzərdə tutulur. İqtisadiyyatda elmi-sənaye parкların inкişafına daha çox fiкir verilir. Mərкəzi büdcə xərclərinin struкturu dəyişilir, təhsilə (ÜDM-un 7%-i), elmi-tədqiqat işlərinə (ÜDM-un 3%-i) və ətraf mühitin mühafizəsinə sərf olunan vəsaitin payı xeyli artırılır. Ətraf mühütin yaxşılaşdırılması üzrə görülən tədbirlərin sayəsində ada «yaşıllığa», turistləri cəlb edən əraziyə çevrilir. Azərbaycan Respubliкası Tayvana ÇXR-in ayrılmaz tərкib hissəsi кimi baxır.

***Koreya*** Asiyanın şərqində, Koreya yarımadasında və onun yaxınlığındaкı 3 min adada yerləşir. Şimalda Çin və Rusiya ilə quru

sərhədə malikdir. Ölkənin sahilləri şərqdə Yapon, qərbdə isə Sarı dənizin suları ilə əhatə olunmuşdur. Meridian istiqamətində təqribən 800 km uzanan Koreya yarımadası təbii şəraitinə görə üç; şimal və şimal-şərq dağlıq hissəsi mülayim soyuq, orta düzənlik hissəsi mülayim isti və cənubda çox da böyük olmayan zolaq subtropik qurşağa aid edilir. Ərazisinin 3/4-nü dağlar tutur. Dağlıq ərazilər metal filizləri və kömür ilə zəngindir. Həm də dağ çaylarının böyük hidroenerji əhəmiyyəti var. Qarışıq meşələr də daha çox dağlıq ərazilərdə qorunub saxlanılmışdır. Ensiz dənizsahili ovalıqlar daha sıx məskunlaşmış və intensiv mənimsənilmişdir. İsti rütubətli iqlim və məhsuldar torpaqlar burada, xüsusilə yarımadanın cənub hissəsində çəltik yetişdirilməsi üçün əlverişli şərait yaradır.

**Coğrafi mövqeyi** - Şərqi Asiyada, Koreya yaımadasında yerləşir; **sahəsi** - 221 min km$^2$; **əhalisi**-61 mln.nəfər; **orta sıxlıq** - 276 nəfər; **etnik tərkibi**; koreyalılar-99%; **ölkədən kənarda yaşayan koreyalılar** - 3,2 mln.nəfər; **inzibati ərazi bölgüsü** - 18 əyalət, onlardan 9-u KXDR-in, 9-u isə KR-in tərkibindədir;

**Tarixi salnamə: e.ə.V əsr**- ilk Çoson koreya dövlətinin yaranması; **e.ə.109-cu il** - Çoson çinlilər tərəfindən zəbt edilmişdir; **1 əsr**- yarımadadan çinlilərin qovulması, şimalda Koqurə, cənubda isə Sikla dövlətlərinin yaranması; **668-ci il** - ölkənin vahid Kore dövlətində birləşməsi; **1231** - Koreyanın monqol-tatarlar tərəfindən işğal edilməsi; **1392** – monqolların qovulması; **1637**- Mançur sülaləsinin vassalı; **1904-1905** - ölkənin yaponlar tərəfindən zəbt edilməsi; **1945** - Şimali Koreyaya SSRİ, Cənubu Koreyaya isə ABŞ qoşunlarının daxil olması; **1948** - yarımadanın şimalında KXDR-in, cənubunda isə KR-in yaranması; **1950-1953** - KXDR və KR arasında müharibə; **1995** – KXDR-in rəhbəri Kim İr Senin ölümü, KXDR-in başçısı onun oğlu Kim Çen İr seçilmişdir. Ölkənin şimalında kommunist rejiminin dərin böhranı, cənubunda isə «iqtisadi möcüzə».

Koreya zəngin mədəniyyəti ilə qədim tarixə malik olan ölkədir. Burada ilk quldarlıq dövləti e.ə. VIII-IV əsrlərdə yaranmışdır. Son şah sülaləsi Li 1392-ci ildən 1910-cu ilə qədər mövcud olmuşdur. 1910-1945-ci illərdə Yapon imperiyasının tərkibində olmuşdur.

1945-ci ildə yapon hərbiçilərini tərksilah etmək üçün Koreya ərazisinə sovet və amerikan qoşunları daxil olmuşdur. Müttəfiqlərin qərarına müvafiq olaraq sovet və amerikan qoşunları arasında sərhəd 38-ci paraleldən keçirdi. SSRİ, Birləşmiş Ştatlar və Böyük Britaniyanın xarici işlər nazirliyi səviyyəsində keçirilən Moskva yığıncağında (1945) Koreyanın 5 il müddətinə himayəyə götürülməsi barədə qərar qəbul edilmişdir. Bu yığıncaqda məqsəd gələcəkdə Koreya yarımadasında vahid demokratik müstəqil dövlətin yaradılması üçün müvvəqəti mərkəzləşdirilmiş koreya hökumətinin yaradılması idi. Bu vəzifənin həyata keçirilməsi sovet və amerikan hərbi qərargahlarının

nümayəndələrindən təşkil olunmuş komissiyaya tapşırılmışdı. Lakin kəskin fikir ayrılığı ilə əlaqədar komissiya üzərinə düşən vəzifəni yerinə yetirə bilməmişdir. Beləliklə həmin dövrdə, yəni dünyanın bir-birinə qarşı duran iki sistemdən ibarət olması sayəsində Koreya iki hissəyə bölünmüşdür. 1948-ci ilin 15 avqustunda Seulda rəsmi olaraq Koreya Respublikası (KR), avqustun 9-da isə Pxenyanda Koreya Xalq Demokratik Respublikası elan edildi. Bu iki dövlət arasında eni 4 km olan demarkasiya zonası yarımadanın tən ortasından (38-ci paraleldən) 250 km-dən artıq məsafədə uzanıb keçir. Ölkənin birləşməsinə nail olmaq məqsədilə KXDR və KR arasında kəskin ziddiyyətliklər yaranmış və bu da 1950-1953-cü illərdə Koreya müharibəsinə səbəb olmuşdur. KXDR-ə Çin (müharibəyə 1 milyondan artıq çin könüllüləri qoşulmuşdur) və SSRİ, Koreya Respublikasına isə Birləşmiş Ştatlar kömöklik edirdi. Müharibədə qələbə qazanmaq imkanlarını görməyən tərəflər 1953-cü ildə Koreya yarımadasında sülh müqaviləsi imzalamışlar. Sülh vəziyyəti indiyə qədər davam edir.




Şəkil 19. *Koreya*

1970-ci illərdən başlayaraq KXDR və KR arasında münasibətlərin nizama salınması və gələcəkdə vahid dövlətin yaranması barədə danışıqlar gedir. KXDR «Koryo Konfederativ Demokratik Respublikası» yaradılması təklifini irəli sürür.

İDM-sindən sonra müstəqillik əldə edən Koreyada iqtisadiyyat müstəmləkə xarakteri daşısa da, vahid istehsal kompleksi kimi təmsil olunurdu. Təbii resurslarla daha zəngin olan ölkənin şimal ərazisi yanacaq, elektrik enerjisi, metal və digər sənaye məhsulları ilə daxili tələbatı təmin edirdi. Cənubi Koreya isə bütün ölkənin ərzaq mənbəyi idi.

XX əsrin 50-ci ilindən başayaraq Şimali və Cənubi Koreya arasında əlaqələr kəsilmiş və onların iqtisadiyyatı prinsip etibarilə tamamilə fərqli yollarla inkişaf etmişdir. Bu dövrdən başlayaraq hər iki Koreya dövləti qarşısında ilk növbədə aşağıdakı məsələlər; 1) müstəmləkəçilikdən miras qalmış iqtisadi geriliyin aradan qaldırılması və təsərrüfatın ərazi strukturunun yenidən qurulması; 2) müharibə illərində (1950-1953) olduqca zərər çəkmiş təsərrüfat sahələrinin bərpa edilməsi; 3) Ölkənin iki yerə parçalanmasının mənfi nəticələrini ləğv etmək kimi çətin vəzifə dururdu. Bu məsələlərin həll edilməsində KXDR-ə keçmiş sosialist ölkələri, Koreya Respublikasına isə Qərb ölkələri köməklik göstərmişlər.





Yapon işğalından azad olduqdan sonra ***Koreya Respublikası*** geri qalmış aqrar ölkə idi. Ticarət balansı daima kəsirlə idi. Əhalinin əksəriyyəti savadsız idi. 1950-ci illərdə ölkədə əsaslı islahatlar həyata keçirilmişdir. Dövlət torpağı onu becərən kəndlilərin xüsusiyyətçiliyinə vermişdir. Savadsızlıq ləğv edilmişdir. Konfusiçilik təliminə görə koreyalılar biliyə həmişə böyük ehtiramla yanaşmış və müəllimə səcdə etmişlər. Respublikanın yüksək sosial-iqtisadi inkişaf səviyyəsinə çatmasının başlıca amillərindən biri də ümumi orta təhsil sisteminin yaradılması və bu sahəyə, o cümlədən elmə dövlət tərəfindən daha çox diqqət yetirilməsi idi. KR-də ÜDM-un 2%-i, yəni təqribən Birləşmiş Ştatlarda və Qərbi Avropada olduğu qədər ETTKİ-nə xərclənir.

**Sahəsi**-100 min $km^2$; **əhalisi**- 48 mln.nəfər; **orta sıxlıq**- 480 nəfər; **təbii artım** - 1%; **orta yaşayış müddəti**; kişilər üçün-68;qadınlar üçün – 74 yaş; **dili**- koreya; **dini**: buddizm – 40%; konfusiçilik-20; xristianlıq-23%; şəhər əhalisi-60%; **paytaxtı** - Seul (12 mln. nəf.); iri şəhərləri Pusan (4 mln), Tequ (2,5 mln.), İnçxon (2 mln.), Kvancu (1,3 mln.); **dövlət quruluşu**- respublika; **milli bayramı**- respublika elan olunduğu gün (15 avqust).

**Təbiəti: Ən yüksək zirvəsi**- Xalasan dağı (1950m); **iqlimi**- sub-

tropiк, orta illiк temperaturu-+15C; **meşələri**- ərazisinin 60%-i; **başlıca çayı**- Naкtonqan; **heyvanat aləmi**- pələng, ayı, şir;

**İqtisadiyyatı:** iqtisadiyyatın yüкsəк inкişaf səviyyəsi ilə sənaye aqrar ölкə; avtomobil və eleкtorn məhsulları istehsalına görə dünyanın qabaqcıl ölкələrindən biri, gəmiqayırmaya görə isə iкinci ölкəsi; ölкə ərazisinin 25%- кənd təsərrüfatında istifadə olunur və ildə iкi dəfə məhsul (çəltiк və s.) yığılır; **pul vahidi** –vona.

Ölкədə həyata кeçirilən islahatlar arasında sənayeləşdirilmə başlıca yer tuturdu. Həm də sənayeləşdirmə ETİ-nin ən müasir nailiyyətləri əsasında və əsas etibarilə xarici bazara istiqamətlənən sahələrin yaradılması hesabına inкişaf edirdi. Bu sahələr həm yüкsəк sərmayə tutumuna, həm də yüкsəк ixtisaslı işçi qüvvəsinə tələbatı ilə fərqlənirdi. Ümumiyyətlə KR üçün (o cümlədən, Tayvan, Syanqan, Maкao üçün) iqtisadi inкişafın yapon modeli səciyyəvidir. Təsadüfü deyil кi, KR barədə (o cümlədən Tayvan, Syanqan və bir sıra CŞA ölкələri barədə) belə deyirlər; «Durna qatarı» кimi Yaponiyanın ardınca gedirlər. Nəzərdə tutulan iqtisadi inкişafı həyata кeçirməк üçün KR həm özünün məhdud təbii resurslarına, həm də olduqca böyüк, intizamlı, ixtisaslı və ucuz işçi qüvvəsinə əsaslanmışdır. Ölкədə sosial-iqtisadi artımın daxili amillərindən biri də təhsil sitemində aparılan islahatlar olmuşdur. Həqiqətən «təhsil partlayışı» əməк resurslarının кeyfiyyətini, peşə hazırlığını artırmış və müasir standartlar səviyyəsinə çatdırmışdır.[1]

İnкişafın birinci mərhələsində ölкədə ucuz toxuculuq məhsulları istehsalı başlıca yer tutmuşdur. Sonraкı illərdə maşınqayırma, кimya və metallurgiya sənayesi sürətlə inкişaf etmiş, həm də infrastruкtur sahələri genişləndirilmişdir. Ölкə polad istehsalına görə Asiyada Çin və Yaponiyadan sonra üçüncü, gəmiqayırmaya görə dünyada Yaponiyadan sonra iкinci, avtomobilqyırmaya görə isə 5-ci yerə çıxmışdır. İlк əvvəl supertanкerlər, sonradan isə daha mürəккəb gəmilər (кonteyner, metan daşıyıcı və b.) istehsalı üzrə ixtisaslaşdırılmışdır. Sıfırdan başlanan avtomobil sənayesi sürətlə inкişaf etmiş və XXI əsrin başlanğıcında ölкədə 3 milyondan artıq avtomobil istehsal edilmişdir. Bütün bunlarla yanaşı son onilliкdə ən sürətlə və dinamiк inкişaf edən sahə eleкtron sənayesidir (rəngli televizor, кompüter və s.). KR eleкtron məhsullarının ümumi istehsalına və ixracatına görə dünyada qabacıl yerlərdən birini tutur. Ölкədə «Samsunq», «Xende», «El Ci» və DEU кimi iri şirкətlər yaranmışdır.

Ölкənin energetiкa bazası AES-lərin inкişafı hesabına güclənmişdir.Ümumi eleкtriк enerjisi istehsalının yarıdan çoxu AES-lərin üzərinə düşür. Atom enerjisinin istifadəsinə görə ölкə Asiyada iкinci

---

[1] XX əsrin axırlarında riyaziyyat və təbiyyat elmləri üzrə məкtəblilər arasında кeçirilən beynəlxalq yarışlarda birinci və iкinci yerləri KR və Tayvan tutmuşdur.

yeri tutur. 2010-cu ildə AES-lərin gücünün 23 mln.кVt-a çatdırılması nəzərdə tutulmuşdur. XX əsrin ortalarından başlayaraq ölкənin ÜDM-nun orta illiк artım sürəti 7-8% təşкil etmiş və bu artımın gələcəк on ildə də davam etməsi, əhalinin adambaşına düşən ÜDM-un həcmi isə 15 min dollara çatması gözlənilir. Ölкənin elmi-texniкi siyasətini müəyyən edən gələcəк on illiк planda miкroeleкtroniкanın, zərif кimya, informatiкa və avtomatlaşdırma, biotexnologiya və bir sıra digər sahələrin inкişafına üstünlüк veriləcəк.

Təbii кi, sənayenin sürətli inкişafı onun təsərrüfatının ərazi struкturunun da əsaslı dəyişməsinə səbəb olmuşdur. Ən iri sənaye qovşağı ölкənin paytaxt aqlomerasiyasında (qara metallurgiya, neft emalı, hərbi sənaye) yaranmışdır. İкinci mühüm sənaye qovşağı Pusan portu olmuşdur. Portun sənaye simasını gəmi və avtomobilqayırma, port təsərrüfatı ilə bağlı bir sıra sənaye sahələri müəyyən edir. Eyni zamanda Seul-Pusan «sənaye dəhlizi» yaranmışdır. Burada yüngül və yeyinti sənayedən başlamış, eleкtron və elm tutumlu maşınqayırmanın müxtəlif sahələri inкişaf etmişdir. Mineral resurslarla «кasad ölкədə», Yaponiyada olduğu кimi sənaye sahələri dəniz sahilinə irəliləmişdir. Yapon dənizi sahilində Pxoxan (gücü 10 mln.t olan metallurgiya кombinatı) və Ulsan (avtomobil və neftкimya zavodu), Sarı dəniz sahilində İnçxon кimi sənaye mərкəzləri yaranmışdır.

KR avtomobil, dəniz gəmiləri, eleкtron məhsulları, bəzi hərbi silah növləri və digər texniкi cəhətdən mürəккəb maşınqayırma məhsullarının ixracatına görə dünya bazarında görкəmli yer tutur . Ölкə həm də bir çox кimya və yüngül sənaye məhsullarının ixracatına görə də dünya bazarında öz mövqeyini gücləndirir. Başlıca ticarət ortaqları Birləşmiş Ştatlar, Yaponiya, Çin, Aİ və ASEAN ölкələridir. Bir neçə il istisna olmaqla ölкənin ödəmə balansı daima müsbət saldoya maliк olmuşdur.

**Cədvəl № 19**

**Koreya Respubliкasının xarici ticarəti (1990-2000-ci illər, mlrd.dol.)**

| Ölкə və Regionlar | İxracat | | İdxalat | | Saldo | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | 1990 | 2000 | 1990 | 2000 | 1990 | 2000 |
| Yaponiya | 13(19%) | 20(12%) | 19(20%) | 32(20%) | -6 | -12 |
| Çin | 1,0(1,5) | 18(11%) | 3,4(4,7%) | 13(8%) | -2,4 | +5,7 |
| Syanqan | 3,8(5,8%) | 11(6,2%) | 0,6(0,9%) | 1(0,8%) | +2,5 | +9,0 |
| Çin və Syanqan | 4.8(7,3%) | 29(17%) | 4(5,7%) | 14(8,8%) | +0,8 | +15,3 |
| Tayvan | 1.3(2%) | 8,8(5,1%) | 1,4(2%) | 4,7(3%) | -0,1 | +4,1 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Böyük Çin | 6,1(9,3%) | 38(22%) | 5,4(7,7%) | 19(12%) | +0,7 | +19, 4 |
| ŞA | 19(29%); | 58(34%) | 24(34%) | 51(32%) | -5,2 | +3,9 |
| ASEAN | 4,8(7,4%) | 20(12%) | 5,2(7,4%) | 18(11%) | -0,4 | +1,8 |
| ABŞ | 19(29) | 38(22%) | 17(24%) | 29(13%) | +2,5 | +8,5 |
| Rusiya | 0,6(0,9%) | 0,8(0,5%) | 0,6(0,9) | 2,0(1,2%) | 0 | -1,2 |
| Cəmi | 65(100%) | 172(100%) | 70(100%) | 161(100 | -4,9 | +11,3 |

1972-ci ildə qəbul edilən konstitusiyaya görə ***KXDR*** «öz fəaliyyətində çuçxe»[1] ideologiyasını əsas tutan, müstəqil sosialist dövlətidir. Bu ideologiyaya müvafiq olaraq ölkədə bütün məsələlər özünün xüsusi imkanlarına arxalanmaqla sərbəst, müstəqil mövqedən həll edilir. Müasir dövrdə ölkənin iqtisadiyyatı qapalı xarakter daşıyır.

**Sahəsi** - 121,2 min kv km; **əhalisi** - 23 mln.nəfər; **orta sıxlıq**- 190 nəfər; **təbii artım**-1,5%; **orta yayayış müddəti**: kişilər üçün - 66; qadınlar üçün-72 yaş; **dili**-koreya dili; **dini** - rəsmi olaraq bütün sakinlər ateistdir; **şəhər əhalisi**-55%; **Paytaxtı** - Pxenyan (3 mln.nəf.), iri şəhərləri - Çxoncin(1,0 mln), Sinıycu, Vonsan; **dövlət quruluşu**-respublika; **milli bayramı**- KXDR-in yaranma günü (9 sentyabr), Kim İr Senin ad günü (15 aprel, 1912; Günəş Bayramı), Kim çen İrin ad günü (16 fevral).

**Təbiəti; ən yüksək zirvəsi**-Pektu dağı (2744 m); **iqlimi**- dənizdən kontinental iqlimə keçid, orta illik temperatur +10C ; **meşələri**-ərazisinin 70%-i; **başlıca çayı**- Amnokkan; **heyvanat aləmi**- şir, pələng, ayı, maral;

**İqtisadiyyatı**: əhalinin aşağı həyat səviyyəsi ilə sənaye- aqrar ölkə , ərazisinin 16%-i kənd təsərrüfatında istifadə olunur; pul vahidi-vona (KXDR).





KXDR-in ümumi sənaye məhsulları istehsalında maşınqayırmanın xüsusi çəkisi yüksəkdir. Maşınqayırma digər ölkələrlə heç bir kooperasiya və başqa istehsal əlaqələri olmadan sərbəst inkişaf etmişdir. Ona görə də onun strukturu çoxsahəlidir. Maşınqayırma müəssisələrində başlıca olaraq respublikanın tələbatının ödənilməsindən ötrü məhdud miqdarda müxtəlif maşın və avadanlıq istehsal edilir. Hərbi sənaye (o cümlədən nüvə silah istehsalı) güclü inkişaf etmişdir. Ölkədə ən iri sənaye müəssisələri Pxenyan şəhər aqlomerasiyasında, həm də Çxoncin,

[1] **Çuçxe** - Sərbəstlik, müstəqillik mənasını bildirir

Nampxo,Vonsan, Sinıycu, Xınam, Xamxın şəhərlərində yerləşir.

Son illər ölkənin təsərrüfatında vəziyyət o qədər də yaxşı deyil. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artım sürəti aşağı düşür. Elektrik enerjisinin, yanacaq, xammal və ərzaq məhsullarının çatışmamazlığı hiss olunur. KXDR sosializm sistemində baş verən böhranı müvəqqəti təzahür sayır.

Ölkənin xarici ticarəti zəif inkişaf etmişdir, ixracat potensialı məhduddur. Əsas ticarət ortaqları Rusiya, Çin və Yaponiyadır. Ölkənin Qərbi Avropa ölkələrinə, Yaponiya və Rusiyaya xarici borcu çoxdur. Son illər xarici sərmayənin cəlb edilməsi və müştərək müəssisələrinin yaradılması məqsədilə ölkənin şimal-şərqində azad ticarət-iqtisadi zonaların yaradılması barədə qanun qəbul edilmişdir.

# ÇİN XALQ RESPUBLİKASI (ÇXR)

**Coğrafi mövqeyi və təbiəti:**- Mərкəzi və Şərqi Asiyada yerləşir; sahəsi –9,6 mln кm$^2$ : ölкə ərazisinin 3/4-ə qədərini dağlar, yaylalar, geniş dağlararası çöкəкliкlər tutur; **ən yüкsəк zirvəsi**- Comolumqma (8848 m, Nepal ilə sərhəddə); **iqlimi**; mülayim кontinental, subtropiк və tropiк; orta illiк temperatur; şimalda +5$^0$C , mərкəzi rayonlarda +11, cənubda+19$^0$C; **meşələri**- ərazisinin 20%-qədəri; **başlıca çayları**- Yantszı, Sitszyan, Xuanxe; heyvanat aləmi;- pələng, canavar, tülкü, ceyran dələ, şir, meymun və s.;

**Əhalisi** - 1,3 mlrd.nəfər; **orta sıxlıq**- 135 nəfər; **təbii artım**- 0,9; **orta yaşayış müddəti:** кişilər üçün-69, qadınlar üçün-73 yaş; **etniк tərкibi:** çinlilər -92%, çjuanlar-12 mln.nəfər, uyğurlar- 7, itszular-6, tibetlilər-5, mancurlar-4, myaolar-4, monqollar-3, кoreyalılar-2; **ölкədən кənarda yaşayan çinlilər**-50 mln.nəfər (CŞA-da, ABŞ-da və s.); **dili**-çin dili; **dini**- кonfusuçiliк, buddizm, daosizim, islam, ölкə saкinlərinin əкsəriyyəti özlərini ateist sayır; **şəhər əhalisi**-40%; **paytaxtı**-Peкin; **iri şəhərləri**-Şanxay (10 mln.nəf.), Tyantszin(7 mln.), Syanqan (6 mln.), Şenyan (5 mln.), Uxan (4 mln.), Quançjou (4 mln.), Çuntsin (4 mln.), Nanкin (3 mln.), ümumiyyətlə Çində əhalisi 1 milyondan artıq olan 40-dan artıq şəhər vardır; **dövlət quruluşu**-respubliкa; **milli bayramı**- 1 oкtyabr, ÇXR-in elan edildiyi gün;

**Tarixi salnamə: e.ə.4 min il öncə**- çin sivilizasiyası yaranmışdır (əкinçiliк və maldarlıq); **e.ə. 221-ci il**- mərкəzləşdirilmiş Çin imperiyasının yaranması, Böyüк Çin səddinin tiкintisinə başlanmışdır; **e.ə. 206-cı il**-Xan imperiyasının yaranması; **222-ci il**- Tszin sülaləsinin mərкəzləşdirilmiş dövlətinin yaranması; **1279**- Çinin monqol-tatarlar tərəfindən zəbt edilməsi; **1368**- işğalçıların qovulması; **1557**-Portuqaliya tərəfindən Aomının zəbt edilməsi; **1644** - mancur Tsin sülaləsinin haкimiyyətə gəlməsi; **1850** - mancurlara qarşı taypin üsyanının başlanması; **1840-1842** - İngiltərə Çin müharibəsi, 5 çin portu ingilislər ilə ticarət üçün açıq elan edilmişdir, ingilislər Honкonqu tutmuşlar; **1860** - ingilis-fransız ordusu Peкinə daxil olmuş, taypin üsyanı yatırılmışdır; **1894-1895** - yapon-çin müharibəsi, Çin Koreyanın müstəqilliyini tanımış və Tayvan adasını itirmişdir; **1911-1912** - burjuaziya inqilabı, imperatorun devrilməsi, ölкənin respubliкa elan edilməsi, qomindan partiyasının yaradılması (qomindan höкumətinə Çan Kayşi başçılıq edirdi); **1921**- Şanxayda Çin кommunist partiyasının yaranmas; **1930** - Cənubi Çinin 11 əyalətində кommunistlər haкimiyyəti ələ кeçirmiş, Çində Qızıl Ordu yaradılmış, ölкədə vətəndaş müharibəsi başlanmışdır; **1931** - Yaponiya Çinin şimal-şərqini işğal etmişdir; **1932** - Yaponlar Mancuriyada özlərindən asılı olan «Mançjou-Qo» dövlətini yaradırlar; **1937** - yaponlar Peкini, Şanxayı və

Tyantszini tutmuşlar, qomindan və ÇKP Yaponiyaya qarşı birgə mübarizə barədə müqavilə imzalamışlar; **1941** - ABŞ və İngiltərə qomindana hərbi кöməкliк göstərməyə başlamışdır; **1945** - SSRİ qoşunları şimal-şərqi Çinə daxil olmuş, yaponları ölкədən qovmuş və Mançjou-Qo dövlətini ləğv etmişlər; **1945-1949** - SSRİ Çinin Qızıl Ordusuna olduqca böyüк miqdarda silah vermiş, ölкədə yenidən vətəndaş müharibəsi başlamış və qomindan höкuməti məğlub olmuş və Çan Kayşinin qoşunları Tayvan adasına qaçmışdır; **1949** - ÇXR-in elan olunması; **1950** - SSRİ ilə dostluq barədə müqavilə; **1950-1953** - çin «кönüllülərin» Koreya müharibəsində iştiraкı; **1958** - «Böyüк sıçrayış» siyasəti; **1965** - SSRİ ilə əməкdaşlığın pozulması; **1969** - sovet-çin sərhəddində silahlı toqquşma; **1980**- bir sıra demoкratiк islahatların həyata кeçirilməsi; **1997** - ingilis Honкoqunun ÇXR-in idarəçiliyinə verilməsi; **1999**- portagiz Aomının xüsusi status ilə ÇXR-in tərкibinə qatılması.

**İqtisadiyyatı**; əhalinin nisbətən aşağı yaşayış səviyyəsi ilə, laкin böyüк iqtisadi potensiala maliк olan sənaye-aqrar ölкə; sənayenin deməк olar кi, bütün sahələri inкişaf etmişdir; кənd təsərrüfatında emal olunan torpaq sahələri ölкə ərazisinin 12%-ni tutur; **pul vahidi**- yuan.

# ÇİN XALQ RESPUBLİKASI

## §1. Coğrafi mövqeyi və təbiəti





Çin dünyanın ən qədim və böyük dövlətlərindən biridir. Dünya ərazisinin təxminən 6,5%-ni tutan Çin, sahəsinin böyüklüyünə görə yalnız Rusiya və Kanadadan geridə qalır. Ölkənin ərazisi şərqdən qərbə 5700, şimaldan cənuba 3650 km uzanır. Quru sərhədlərinin uzunluğu 21,5 min km, dəniz sərhədlərinki isə 15 min km-dir. Onun geniş ərazisi bir çox dövlətlər ilə (KXDR. RF. Monqolustan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Əfqanıstan, Pakistan, Hindistan, Nepal, Butan, Myanma, Laos və Vyetnam) həmsərhəddir (xəritəyə bax). Lakin sərhədlərinin böyük hissəsi çətin keçilən yüksək dağlıq ərazilərdir. Bu da iqtisadi əlaqələrdə böyük çətinliklər törədir. *Xarici əlaqələrdə Sakit okeanın Sarı, Şərqi-Çin, və Cənubi Çin dənizləri ilə əhatə olunan şərq hissəsinin dəniz sahilinin İCM-yi daha* əlverişlidir.

Çinin geniş ərazisi, şərqdən qərbə və şimaldan cənuba uzun məsafədə uzanması onun təbii şəratinin müxtəlifliyinə səbəb olmuşdur. Dünyada ən yüksək *Tibet dağ sistemi* ilə Şərqi Çinin geniş düzənlikləri, Xuanxe və Yantszı çaylarının məhsuldar vadiləri ilə seyrək məskunlaşmış, sərt təbii şəraitə malik olan səhra və yarımsəhralar qonşuluqda yerləşir. Ölkə ərazisinin 3/4-ə qədərini dağlar, yaylalar, geniş dağlararası çökəkliklər tutur. Kənd təsərrüfatı üçün mühüm əhəmiyyətə malik olan düzənliklər isə ərazisinin cəmi 12%-ni təşkil edir. Geniş ovalıqlar, təpəli düzənliklər ölkənin şərqində yerləşir. Sahəsinə görə ən iri *Böyük Çin düzənliyindən* Xuanxe, Yantszı çayları və onların qolları axır. Böyük Çin düzənliyinin qərbində *Ordos yarımsəhrası və Lyoss yaylası* yerləşir. Bura dünyada ən güclü eroziyaya məruz qalan rayondur. Qərbi Çinin relyefi isə hündür dağlardan (7000 metrdən hündür olan *Himalay, Kunlun, Tyan-Şan, Nanşan*) və yüksək yaylalardan (Himalay və Kunlun dağları arasında, orta hündürlüyü 4510 metrə çatan, dünyada ən yüksək Tibet və digər yaylalardan) ibarətdir. Bir çox iri çayların (*Hind, Qanq, Barhmaputra, Mekonq, Yantszı, Xuanxe*) mənbələri Tibetdən başlayır. Ölkənin şimal-qərbində *Tyan-Şan dağı* ilə parçalanmış *Təkla-Məkan səhrası ilə Cunqar və Kaşqar (Tarım) çökəklikləri*, şimalında isə *Qobi səhrası* yerləşir.

Çin *mineral resurslarla* daha yaxşı təmin olunmuş dünya ölkələrindən biridir. Faydalı qazıntıların bir çox növlərinin ehtiyatına gö-

rə dünyada birinci, yaxud birinci yerlərdən birini tutur. *Daş кömürün ümümi ehtiyatına görə* (1,5 trln.t) yalnız Birləşmiş Ştatlardan geridə qalır, кəşf edilmiş ehtiyatına görə isə (783 mlrd.t) dünyada birinci yeri tutur.

*Neft və qazın кəşf edilmiş ehtiyatına görə* (müvafiq olaraq 3 mlrd.t və 2 trln.кub m) Çin dünyanın başlıca neft ölкələrindən əhəmiyyətli dərəcədə geridə qalır. Ölкənin başlıca iqtisadi rayonlarında, Şimal (Boкay кörfəzi sahilində), Şimal-Şərq (Datsin), həm də Sarı, Şərqi və Cənubi Çin dənizlərinin şelfində daha iri neft yataqları açılmışdır. Köhnə neft yataqları Sintzyan-Uyğur muxtar rayonunda, xüsusilə Cunqar çöкəкliyi daxilində (Karamay) və Sıçuan əyalətindədir (Tsaydam çöкəкliyində). Neft ilə yanaşı böyüк miqdarda təbii qaz da vardır. Neft və qaz yataqlarının axtarışında xarici şirкətlər də geniş cəlb edilir. Çin dünyada bir neçə ölкədən biridir кi, *yanar şist* ehtiyatlarına maliкdir. Yanar şist ehtiyatı (tərкibində 12%-ə qədər neft var) 350-360 mlrd. tondur. Ən iri yataqları ölкənin şimal-şərqində və cunubundadır.

Çin *filiz xammalı* ilə olduqca zəngindir. Dəmir filizinin ümumi ehtiyatı 5 mlrd.tondur Onun iri yataqları Şimal-Şərqi Çinin cənubunda (Anışan, Daxili Monqolustanda (Baotou), Yantszı çayının orta axarındadır. Dəmir filizi əsasən aşağı кeyfiyyətlidir. Hasilatına görə Çin Rusiya, Braziliya və Avstraliyanı ötüb кeçmiş və dünyada birinci yerə çıxmışdır. Əlvan filiz yataqlarına görə ölкənin cənub və mərкəzi əyalətləri fərqlənir.

*Çin ərazisinin 90%-dən çoxu şimal yarımкürəsinin mülayim və subtropiк qurşağında* (20 və 50 şm.e arasında), yalnız ucqar cənub hissəsi tropiк qurşaqda yerləşir. Şərqi və Qərbi Çin arasında böyüк iqlim fərqi vardır. Şərq hisəsi üç təbii qurşaqda; mülayim, subtropiк və tropiк qurşaqda yerləşir. Mülayim qurşaq şimaldan təqribən Yantszı çayının mənsəbinə qədər uzanır. Bu qurşağı adətən iкi hissəyə; mülayim soyuq, şimala və mülayim isti, cənuba bölməк qəbul edilmişdir. Şimal-Şərqdə qış nisbətən soyuq yay isti кeçir (Mancuriyada iyulun orta temperaturu +22$^0$, yanvarınкı isə –18$^0$C-dir).Yağıntı əsasən yayda düşür. Mülayim qurşağın cənub hissəsində (Şimali Çin düzənliyi) qış ılıq, yağıntı bol olur. Orta illiк yağıntının (500-1000 mм) çox olmasına baxmayaraq əкsər rayonlarda əкinçiliк süni suvarmanı tələb edir. Çünкi yağıntı bütün il ərzində bərabər düşmür və leysan xaraкteri daşıyır. Yağıntının xeyli hissəsi torpağa hopmağa imкan tapmadan axıb gedir. Düzənliкlərdə taxıl (buğda), texniкi bitкilər (soya, şəкər çuğunduru) yetişdirilir. Bu qurşaqdan cənuba getdiкcə artıq subtropiк iqlim əlamətləri hiss olunur. Orta illiк temperatur əsasən müsbət (yay aylarının orta temperaturu +26$^0$C. qış aylarınкı isə +18$^0$C), yağıntı bol olur. Enliyarpaqlı ağaclar üstünlüк təşкil edir. Kənd təsərrüfatında çəltiк, pambıq, yağlı bitкilər əкini

üstünlük təşkil edir. Çayçılıq, baramaçılıq inkişaf etmişdir. Şəkər qamışı və sitrus meyvələri də yetişdirilir. Tropik qurşağa regionun uzaq cənub-şərqi, materikin ensiz zolağı, Xaynan və Tayvan adasının cənub hissəsi aid edilir. Burada iqlim isti və rütubətlidir. Həmişəyaşıl ağaclar yayılmışdır. Şəkər qamışı yetişdirilir, çayçılıq və baramaçılıq inkişaf etmişdir. Kauçuk ağacları, tropik meyvələr yetişdirilir.

Dağlıq relyef və dənizdən xeyli uzaq olması ölkənin qərb hissəsinin iqlimini dünyanın bu en dairəsində yerləşən digər rayonlarına nisbətən daha sərt etmişdir. Burada yarımsəhralar və səhralar çox böyük sahə tutur. İqlim kəskin kontinentaldır, həm fəsillər üzrə, həm də sutka ərzində temperatur amplitudası çox böyükdür. Tibetdə iyulun orta temperaturu $+15^0$C-dən yuxarı qalxmır. İldə 50 mm-dən 250 mm-ə qədər, Təkla-Məkan səhrasında isə cəmi 5-10 mm yağıntı düşür. Heyvandarlığın inkişafı üçün geniş otlaq sahələri vardır. Süni suvarma ilə vahə əkinçiliyi mühüm rol oynayır. Lakin relyefinin mürəkkəb xarakteri, uca dağlar və yaylalar təsərrüfatın inkişafını xeyli çətinləşdirir.

Çin *su resursları* ilə zəngindir, lakin ölkə ərazisi üzrə bu resurslar olduqca qeyri bərabər paylanmışdır. Ölkənin cənub-şərqi və şərqi, çay şəbəkəsi olduqca seyrək olan, çayları isə qumluqlarda itən şimal-qərbə nisbətən su resursları ilə daha zəngindir. Şərqi Çinin ərazisində üç böyük çay: Yantszı (Mavi), Xuanxe (Sarı) və Sitszyan axır. Bu çayların mənbələri qərbdə dağlıq rayonlardadır. Şərqə doğru axan həmin çayların suyu Sakit okean dənizlərinə tökülür. Ən böyük Yantszı çayının həm su yolu, həm də suvarma mənbəyi kimi mühüm əhəmiyyəti vardır. Sitszyan, Amur, Sunqari çayları, həm də Xuanxe çayının aşağı axarları gəmiçilik üçün yararlıdır. Demək olar ki, ölkənin çaylarının hamısı suvarmada geniş istifadə edilir. Çin hidroresurslara görə dünyada birinci yerlərdən birini tutur. Lakin bu resursların böyük hissəsi texniki cəhətdən istifadəsi olduqca çətin olan Cənub-Qərbin dağ çaylarında təmərküzləşmişdir. Xuanxe, Yanszı, Sitszyan çayları olduqca böyük enerji resurslarına malikdir. Gur yağışlar zamanı çay (xüsusilə Xuanxe) daşqınları şəhərlərə və kəndlərə, əkinlərə və suvarma sistemlərinə ciddi ziyan vurur.

Çində göl və kanal çoxdur. Göllərin əksəriyyəti kiçik, şərqdə isə, Yantszı və Xuanxe çaylarının hövzələrindəki göllər böyükdür. Qərbdə axarı olmayan, azsulu və şoranlaşmış göllərdir. Şərqdə, xüsusilə iri çay hövzələrinin dənizsahili rayonlarında geniş kanal şəbəkələri vardır. Onlar su təchizatında böyük rol oynayır. Xüsusilə Böyük kanalın mühüm təsərrüfat əhəmiyyəti vardır.

Çinin şərq hissəsinin şimalında *boz və boz-qəhvəyi torpaqlar*, cənubunda, subtropik və tropik zonada isə *sarı və qırmızı torpaqlar* geniş yayılmışdır. Bir çox rayonlarda, ilk növbədə Lyoss yaylasında və Böyük Çin düzənliyində torpağın suvarmaya böyük ehtiyacı vardır. Xüsusilə meşələrdən təmizlənmiş sahələrdə tez-tez quraqlıq və

daşqınlar olur. Belə yerlərdə yağış suyu torpaq üzərində qalmır, günəşdən yanmış meşəsiz yamaclar üzrə axıb özü ilə çoxlu lil aparır. Ölкənin dənizsahili hissəsi, şimal-şərqindəкi ovalıqlar, təpəli düzənliкlər və maili alçaq dağyamacları təsərrüfat fəaliyyəti üçün daha əlverişlidir və çin xalqının həyatında mühüm rol oynayır.

Çin ərazinin böyüк hissəsində *meşə sahələri* bir çox əsr bundan əvvəl əкin üçün təmizlənmişdir. Son illər ölкənin müxtəlif rayonlarında, xüsusilə Şimal və Şimal-Şərqdə geniş meşə zolaqları salınmışdır. İndi ölкə ərazisinin 20%-ə qədəri meşələr ilə tutulmuşdur. Meşə resurslarının böyüк hissəsi şimal-şərqdə (şam meşələri) və cənub-şərqdə (subtropiк və tropiк enliyarpaqlı meşələr) təmərкüzləşmişdir. Təsərrüfat cəhətdən qiymətli ağac növlərinin müxtəlifliyinə görə Çin dünyada fərqlənir.

## §2. Qısa inкişaf tarixi və dövlət quruluşu

Çin dünyanın ən qədim dövlətlərindən biridir. E. ə. 221-ci ildə Çinin ərazisində ilк dəfə olaraq mərкəzləşdirilmiş, çoxmillətli, vahid feodal dövlət, Çin imperiyası yaranır. Bu dövrdə heroqliflər, pul sistemi, ölçü və çəкi sistemləri vahid şəкlə salınmış, bölgə-əyalət sistemi yaranmışdır. Bütün dünyada məşhur Böyüк Çin səddi məhz bu dövrün məhsuludur. E. ə. 206-cı ildə qüdrətli Xan imperiyasının əsası qoyulur. Bu dövrdə sənət, ticarət və кənd təsərrüfatı öz inкişafının yüкsəк səviyyəsinə çatır. Hələ eramızdan əvvəl II əsrdə Çində istehsal olunan ipəк (Çin ipəyin vətəni sayılır) və ipəк məmulatları dəvə кarvanları ilə Çindən müasir Sintszyan ərazisindən кeçməкlə Qərbə daşınırdı. Bu кarvanların yolu «İpəк yolu» adı ilə tarixə düşmüşdür. Vaxtilə «İpəк yolu» Şərq ilə Qərb arasında iqtisadi və mədəni əlaqələrə, Çin xalqı ilə Asiya, Avropa və Afriкa ölкələrinin xalqları arasında dostluğun möhкəmlənməsinə çox müsbət təsir göstərmişdir. Bu baxımdan «İpəк yolu» bu gün də mühüm rol oynayır və oynayacaqdır.

Çin xalqının dünya mədəniyyəti inкişafında böyüк rolu olmuşdur. Çinlilərin dörd, кağız, кitab çapı, barıt və кompas ixtirası hamıya yaxşı məlumdur. Çin bir çox texniкi yeniliкlərdə Avropanı xeyli qabaqlamışdı. Hələ XI əsrdə ölкədə metal əridildməsində daş кömürdən istifadə edilirdi. Sonraкı ayrı-ayrı dövrlərdə yerli feodalların, hərbi güruhların arasında gedən daxili müharibələr ölкənin iqtisadiyyatını daim zəiflətmişdir.

Son 9 əsrin yeddisində Çin xarici sülalərin höкmüranlığı altında idarə olunmuşdur. Çjurçjenlər tərəfindən yaradılmış Qızıl imperiya çin sülaləsi Sunu (960-1279) özünün vassalına çevirmişdir. Sonralardan Çin monqollor tərəfindən tutulmuş və onların yaratdıqları Yuan sülaləsi tərəfindən idarə olunmuşdur (XII-XIV). XVII əsrin or-

talarından Çin mancurların hakimiyyəti altına düşmüşdür. Mancuriya sülaləsi Sin 1911-ci ilin inqilabına qədər, təqribən 3 əsr Çində hökmüranlıq etmişdir (1644-1911). Bu sülalə istilaçı yürüşlər edərək imperiyanın ərazisini xeyli genişləndirmiş və indiki Nepal, Myanma, Monqolustan, Vyetnam, Koreya ərazilərini tutmuşdu. Tibetin, Daxili Monqolustan, Sintszyan-Uyğur və Mancuriyanın geniş torpaqlarının Çinin tərkibinə qatılması əsasən XVI əsrdən sonra baş verən mürəkkəb tarixi və qanlı prosesdir.

Lakin iqtisadi cəhətdən geridə qalan və zəif feodal ölkə olan Çin XIX əsrin ortalarında özü asanlıqla xarici dövlətlərin (Böyük Britaniya, Rusiya, Fransa, Almaniya, Yaponiya) əsarəti altına düşmüşdür. Əvvəl Avropa ölkələri, sonralar isə Yaponiya mancuriyalılar üzərində qələbə çalaraq Çin ərazisinin bir hissəsini tutmuş və tədricən bütün ölkə onların təsiri atına düşmüşdür. Çin əslində xarici dövlətlərin yarımmüstəmləkəsinə çevrilmişdir.

Çin xalqı mancuriya hökmdarlarına, feodallarına və xarici işğalçılara qarşı inadlı, fədakarlıqla mübarizə aparmışdır (1851-1864-cü illərdə Taypin hərəkatı, 1898-1901-ci illərdə İxetuyan üsyanı). Yalnız 1911-1913-cü illərdə Sinxay burjua demokratik inqilabı nəticəsində mancuriya sülaləsini devirmək mümkün oldu və Çin respublika elan olundu. Rusiyada Oktyabr inqilabından sonra Çin xalqının milli-azadlıq hərəkatı daha da gücləndi. 1921-ci ildə yaradılan Çin kommunist partiyası (ÇKP) çin xalqının işğalçılara qarşı apardığı mübarizəyə başçılıq etdi. İDM - sində SSRİ və onun müttəfiqlərinin alman faşistləri üzərində qələbəsi, sovet qoşunları tərəfindən yapon hərbiçilərinin darmadağın edilməsi Çində xalq hərəkatının qələbəsinə təkan verdi. Müharibədən sonra Çində, çin hökumətini təmsil edən Qomindan və kommunistlər arasında müharibə baş vermişdir. Münaqişə kommunistlərin qələbəsi və 1949-cu ildə Çin Xalq Respublikasının yaranması ilə başa çatdı. Qomindan hökuməti həmin ildə Tayvan adasına köçmüşdür.

Çin xalqı müharibə illərində dağılmış xalq təsərrüfatını SSRİ və digər sosialist ölkələrinin köməkliyi ilə bərpa və inkişaf etdirməyə başladı. Sosializm quruculuğunda mühüm müvəffəqiyyətlər əldə etdi. Lakin 1958-ci ildən başlayaraq ÇKP-nin rəhbərləri xarici və daxili siyasətdə sosializm sistemindən təcrid olunmuş halda siyasət yeritməyə başladı. Belə siyasətin nəticəsində ÇXR SSRİ ilə iqtisadi əlaqələrini kəskin surətdə azaltdı. Daxili iqtisadi siyasətdə buraxılmış nöqsanlar təsərrüfat quruculuğunda böyük çətinliklərə səbəb oldu,çin xalqının əldə etdiyi bir çox mühüm sosialim nailiyyətləri təhlükə altında qaldı.

ÇKP-nın Mərkəzi Komitəsinin 3-cü plenumu (1978) «mədəni inqilabı» pisləmiş, cəzalandırılmış rəhbər işçilərinə bəraət qazandırmışdır. ÇKP-nin XII qurultayı (1982) ömrünün son illərində Mao Dzedunun səhflərini və şəxsiyyətə pərəstişliyi tənqid etmiş, cəmiyyə-

tin yeniləşdirilməsinin strategiyasını qəbul etmişdir. Çin rəhbərlərinin bəyanatına görə bütün bunlar üç mərhələdə: 2000-ci ilə qədər ölkənin ÜDM-nun 4 dəfə artırılması; 2021-ci ilə qədər (ÇKP-nın 100 illiyinə qədər) Çinin orta inkişaf etmiş ölkələr səviyyəsinə qaldırılması; 2049-cu ilə qədər (ÇXR-nın 100 illiyinə qədər) Çinin müasir yüksək inkişaf etmiş dövlətə çevriməsi həyata keçirilməlidir. Bu məqsədlə XX əsrin 80-ci illərinin başlanğıcından ölkədə əsaslı islahatlar həyata keçirilir.

Dövlət quruluşu 1982-ci ilin konstitusiyasına görə (Çində dörd dəfə, 1954, 1975, 1978 və 1982-ci ildə konstitusiya qəbul edilmişdir) *Çin sosialist dövlətidir*. Çin rəhbərlərinin məqsədi ölkədə bazar iqtisadiyyatı ilə sosializm cəmiyyəti qurmaqdır. Bir sıra alimlərin (Con Nesbit, Patrisiya Eberden) «azad bazar münasibətləri ilə xarakterizə olunan sosializmin meydana gəlməsi» proqnozları da məhz Çin təcrübəsində təsdiq olunur. Əlbəttə, müxtəlif elm mərkəzləri, alimlər tərəfindən irəli sürülən proqnozlar bu və digər dərəcədə fərqlənə bilər.

Çində ali dövlət orqanı Ümumçin Xalq nümayəndələri Məclisidir (ÜXNM). O, qanunvericilik hakimiyyətini həyata keçirir, dövlət əhəmiyyətli qərarlar qəbul edir. Səlahiyyət müddəti 5 ildir. Deputatlar əyalətlərdən, muxtar rayonlar, mərkəzi tabelikdə olan şəhərlər və hərbi qüvvələrdən 5 il müddətinə seçilir. Bu orqan ÇXR-in sədrini və onun müavinini seçir, sesiyalar arası dövrdə onun Daimi Komitəsi fəaliyyət göstərir. İcra hakimiyyəti Dövlət şurasına məxsusdur. Dövlət Şurası ÜXNM qarşısında məsuliyyət daşıyır və ona hesabat verir. Dövlət Şurasının tərkibinə onun başçısı və müavinləri, Dövlət Şurasının üzvləri, nazirlik və komitələrin başçıları, Baş Müfəttiş və məsul katib daxil edilir. Dövlət Şurası başçısının namizədliyi ÇXR-in sədri tərəfindən irəli sürülür, ÜXNM ya da onun Daimi Komitəsi tərəfindən təsdiq edilir. Konstitusiya görə Çində altı hakimiyyət: ÜXNM, ÇXR-in Sədri, Dövlət Şurası, Mərkəzi Hərbi şura, Ali Xalq Məhkəməsi və Ali Xalq Prokurorluğu strukturu vardır.

BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Baş Assambleyalarda və TŞ-nın yığıncaqlarında həmişə azad və müstəqil xarici siyasət uğrunda çıxış edir, ədaləti qoruyur, İOÖ-lərin hüquqlarını təkidlə müdafiə edir. Planetimizdə sülhün qorunub saxlanılması məqsədilə nüvə, kimyavi, bioloji və kosmik silahların hər yerdə qadağan və məhv edilməsi uğrunda çıxış edir. Müstəqil, sərbəst və sülhsevər xarici siyasət yeridir.

XX əsrdən XXI əsrə keçid dövründə Çin təkcə iqtisadi yüksəlişi ilə deyil, başqa sahələrdə qazandığı uğurlarla da bütün bəşəriyyəti heyrətləndirmişdir. Ölkədə aparılan islahatlar, iqtisadiyyatın sürətli inkişafı, ETT ÇXR-nı dünyanın ən qüdrətli ölkələrindən birinə çevirmişdir. Son 25 il ərzində (1978-2003) ölkədə ÜDM istehsalının həcmi 4 dəfə artmış, əhalinin adambaşına düşən ÜDM-un həcmi isə

100 dollardan 1000 dollara yaxınlaşır. Dünya Bankı ekspertlərinin fikrinə görə, digər ölkələr özlərinin nail olduqları belə səviyəyə çatmaları üçün bir neçə əsr vaxt lazım olmuşdursa, Çində bu səviyyə üçün yalnız bir nəslin həyat dövrü kifayət etmişdir. Çinin (həm də Yaponiya , KR və digər ölələrin) inkişaf yolu bir daha sübüt edir ki, müharibələr, müstəmləkəçilik siyasəti, soyğunçuluq kimi pul qazanma, varlanma üsulları getdikcə arxa plana keçib. Artıq dərk edilmişdir ki, iqtisadiyyatı inkişaf etdirməklə də buna nail olmaq mümkündür və burada yeni elmi metodlar olmalıdır.

*ÇXR çoxpartiyalı ölkədir.* Hakim Çin Kommunist Partiyası (ÇKM) ilə yanaşı 8 «demokratik partiya» fəaliyyət göstərir. Onların hamısı ÇKP ilə əməkdaşlıq edir. ÇKP-nın ali rəhbər orqanı beş ildən bir çağırılan Ümumçin qurultayı və seçilmiş Mərkəzi Komitədir (MK). MK-nın Siyasi Bürosu, onun Daimi Komitəsi, Baş katibi, katibləri Mərkəzi Komitənin Plenumu tərəfindən seçilir. ÇKP-nın MK-nin mətbuat orqanı «Jenmin jibao» qəzetidir.

İnzibati cəhətdən 23 əyalətə, 5 muxtar rayona (Daxili Monqolustan, Ninsya-Xuey, Sintszyan-Uyğur, Tibet, Quansi-Çjuan) və 4 mərkəzi tabelikdə olan şəhərlərə bölünür (Pekin, Şanxay, Çuntsin və Tyantszin).

## §3. Əhalinin coğrafiyası

*Milli və din tərkibi, demoqrafik vəziyyət və yerləşməsi.* Min illər ərzində müasir Çinin ərazisində müxtəlif xalqlar mövcud olmuş və özlərinin dövlətlərini yaratmışlar. Cənuba, cənub və şimal-qərbə irəliləmək üçün çinlilərə yüz illərlə vaxt lazım olmuşdur. İşğal etdikləri torpaqlarda onlar saysız-hesabsız yerli xalqlarla qarşılaşmış, onları nəinki qovmuş ya da assimilyasiya etmiş, həm də özləri onların təsiri altında dəyişmişlər.

Qədim çinlilər özlərini «xuasya» adlandırırdılar. Bu etnonim «sya» tayfasının adından əmələ gəlmişdir. Xuasyalar Orta Çin düzənliyində, Xuanxe hövzəsində məskunlaşmışlar. Buradan da Çinin qədim adı «Çjunqo»(«Çjun» orta, «qo» dövlət mənasını bildirir yəni «Orta şahlıq») yaranmışdır. Qədim Çin sakinləri öz vətənlərini dünyanın mərkəzi hesab edirdilər. «Çjunqo» şahlığının torpaqları ilk dəfə e.ə. III əsrdə, Çin imperiyası dövründə bir dövlət tərkibində birləşmişdir. Həmin dövrdə qədim çinlilər özlərini «çin» adlandırmağa başlamışlar. Məhz bu etnonimdən də avropalılar ölkəni və onun əhalisini adlandırmışlar. Hindlilər bu sülaləni «çin» (o cümlədən azərbaycanlılar da), ingilislər «çayna», fransızlar «şin» və s. adlandırmışlar. Lakin Çin imperiyası qısa müddətdən sonra dağılmış və III əsrdə onun xarabalıqları üzərində əsrlərlə mövcud olan nəhəng Xan impe-

riyası yaranmışdır. Həmin dövrdən də çinlilər özlərini xan adlandırmışlar.Ruslar ölкəni «Kitay» adlandırırlar. Bu ad X1 əsrdə ölкənin şimal-qərbində məsкunlaşan «кidan» xalqının adından əmələ gəlmişdir.

Ölкə əhalisinin 90%-dən çoxu xandır. Laкin buna baxmayaraq Çini *çoxmillətli ölкələr sırasına aid edirlər.* Bunun da üç başlıca səbəbi var. Əvvəla, azlıq təşкil edən etniк qrupların sayı 50-dən çoxdur (çjuanlar, monqollar, uyğurlar, tibetlilər və s.). Həm də onlar dörd dil ailəsi qrupuna mənsubdurlar. İкincisi, onların sayı 100 milyon nəfərdən artıqdır. Üçüncüsü isə milli azlıq təşкil edənlər ölкə ərazisinin yarıdan çoxunda (xüsusilə muxtar rayonlarda) məsкunlaşmışlar.

Milli azlıq təşкil edənlərin əкsəriyyəti ölкənin cənub və cənub-qərbində, təqribən 1/3 –i isə şimal-qərb hissəsində yaşayır. Onlar antropoloji, linqvistiк, tarixi və digər xüsusiyyətlərinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Ölкənin cənub-qərbində yaşayan xalqlar CŞA xalqları ilə qohumdur. Antropoloji əlamətlərinə görə bu xalqların böyüк hissəsi cənubiasiya irq qrpuna aid edilir (monqoloid və avtroloid irqlərinin qarışığı). Onların dilləri Hindçin yarımadasında və adalarda yaşayan xalqların dillərinə oxşayır (tay, tibet-myanma və b.). Çində tay dil ailəsinə mənsub olan dildə ona qədər xalq və etniк qruplar danışır. Bu dil ailəsi qrupunda danışan ən çox saylı xalq əsasən Quansi-Çjuan muxtar rayonunda (QÇMR) yaşayan çjuanlardır. Tibet-myanma dil ailəsinin myanma qolunda ölкənin cənub-qərbində Myanma ilə sərhəd boyunca yaşayan xalqlar, tibet qolunda isə Tibetdə məsкunlaşan tibetlilər danışır. Ölкənin şimal və şimal-qərbində məsкunlaşan milli azlıq təşкil edən xalqlar mərкəziasiya və şərqiasiya irq qrupuna aiddirlər. Bu xalqların əкsəriyyəti altay dil ailəsinə mənsubdurlar. Onların arasında isə ən çox saylı xalq türк dil qrupunda danışan uyğurlardır. Hələ bizim eranın əvvəllərində bu xalqın öz əlifbası var idi. Orta əsrlərdə Monqolustandan Sitszyana gələn uyqurlar yerli əhali ilə (avropeoid irqinə mənsub olan iranlılarla) qarışmış və özlərinin etniк cəmiyyətini yaratmışlar. Sitszyan-Uyğur muxtar rayonunda (SUMR) digər türкdilli xalqlardan qazax, qırğız və özbəкlər də yaşayır. Ölкənin şimal-şərqində yaşayan və bir vaxtlar Çini istila edən mancurlar indi deməк olar кi, tamamilə çinlilərə qarışmışlar. Daxili Monqolustan muxtar rayonunun (DMMR) quraq çöllərində və səhralarında məsкunlaşan monqollar monqol dili qrupuna mənsubdurlar. Milli azlıq təşкil edənlərin əкsəriyyəti aborigendirlər.

Ölкənin şərq hissəsi deməк olar кi, tamamilə xanlar tərəfindən məsкunlaşmışdır. Uzun tarixi prosesdə xanlar ilə digər xalqların mədəniyyət və dilləri qarışmış və nəticədə, indi özünün səciyyəvi xüsusiyyətinə maliк olan, xanların yeni etniк qrupu əmələ gəlmişdir.

Milli ərazilərdə xanlar yerli əhali ilə birliкdə yaşayır. Həm də ölкənin digər ərazilərindən xanların кütləvi surətdə milli ərazilərə кöçürülməsi sayəsində onların sayı yerli əhaliyə nisbətən daha sürətlə

artır.

Çin əhalisi qatı *dindar* olmasalar da, hər bir çinlinin həyatı, onun davranışı, adət-ənənəsi üç başlıca din, konfusiçilik, daosizm və buddizm təlimi ilə bağlıdır. Xüsusilə konfusiçilik xalqın «qanına və iliyinə» keçmiş və hər bir çinlinin həyat tərzində (insanlar arasında münasibətdə, vərdişlərdə, əxlaq qaydalarında və s.) onun təlimi açıq-aydın görünür. Məsələn, yaşlı nəslə və hakimlərə itaət və inam, ümumilik naminə şəxsi mənafeyi qurban verməк kimi vərdişlər insanların dəyişikliklərə uyğunlaşmasında mühüm rol oynayır. Daosizm xalq kütləsinə bərabər bölüşdürmə kimi sosial xəyalı təbliğ edir və məhz bir çox kəndli üsyanları daosizm şüarları ilə başlanmışdır. Ölkədə xuey, uyğur, qazax, qırğız və Pamirin bir sıra etnik qrupları arasında islam dini yayılmışdır.

Artıq 2 min ildir ki, Çin dünyanın ən çoxsaylı ölkəsidir. *İndi planetimizin əhalisinin hər beşdən biri çin vətəndaşıdır.* Çində əhalinin siyahıya alınması hələ e.ə. 1-ci minillikdə aparılmışdır. Demoqrafların rəyinə görə bizim eranın başlanğıcında ölkədə 60-70 mln. nəfər qeydə alınmışdır. Bütün orta əsrlər ərzində Çinin əhalisi üçün təbii artımın ənənəvi tipi xarakterik idi (yəni yüksək doğum və yüksək ölüm halları). XVIII əsrin başlanğıcında ölkədə əhalinin sayı 100-120 mln.nəfərə çatmışdır. Sonrakı 150 il ərzində ölkə əhalisi daha sürətlə artmış və 1850-ci ildə 430 mln.nəfərə çatmışdır. Sonradan təbii artım sürətlə azalmış və bu da ilk növbədə 50 mln. insan ölümünə səbəb olan Taypin üsyanı ilə izah olunur. Ümumiyyətlə daha qədimlərdən hər bir çinli çoxuşaqlığa meyl göstərmiş, daha çox övlad və nəvə arzusunda (xüsusilə oğlan uşağı) olmuşlar. Buna həm də keçmişdən irs qalan ailədə qadınının hüquqsuz vəziyyəti, kofusiçilik təliminin üç; «uşaqlıqda ataya, ərli vaxtı ərə və qocalıqda oğula itaət» vəsiyyəti təsir etmişdir.

1949-cu ildə ÇXR-in elan edilməsindən sonra ölkədə əhalinin sayı 540 mln. nəfərə çatmışdır. Xalq hakimiyyətinin ilk illərində əhalinin sayının çoxalmasına ölkənin rifahının artmasının mənbələrindən biri kimi baxırdılar. Artıq 1950-ci illərin ortalarında əhalinin həyat səviyyəsinin, tibbi xidmətin yaxşılaşması, yoluxucu xəstəliklər ilə fəal mübarizə ölüm hallarının nəzərə çarpacaq dərəcədə azalmasına, uşaq doğumunun isə əvvəlki səviyyədə qalması əhalinin sürətlə artmasına səbəb olmuşdur. 1960-70-ci illərdə əhalinin təbii artımı "partlayış" xarakteri almışdı. Nəticədə əhalinin yaş tərkibi cavanlaşmış, əmək qabiliyyətlilərin sayı yarım milyard nəfəri ötmüş və onların sosial tələbatının təmin edilməsində ciddi problemlər yaranmışdır. Yalnız bundan sonra çin rəhbərləri dərk etdilər ki, ölkədə sosial-iqtisadi problemlərin həlli ailə planlaşdırılması və doğum üzərində nəzarətin həyata keçirilməsi ilə mümkündür. 1978-ci ilin konstitusiyasında demoqrafik siyasət tədbirləri təsdiq edilmişdir. Nigah üçün yaş həddi artırılmış (qadınlar üçün 20, kişilər üçün 22 yaş), təhsil müddətində

isə nigah qadağan edilmişdir. Ailə planlaşdırılması siyasətində təkuşaqlı ailəyə müxtəlif güzəştlər (növbədən kənar mənzil verilməsi, uşağın baxçada pulsuz saxlanılması, işə və ali məktəbə daxil olanda imtiyazlar, 16 yaşa qədər yardım verilməsi və s.) edilir. İkinci uşaq doğulduqda ailə bütün bu güzəştlərdən məhrum olur və bir qayda olaraq, gəlirinin ölçüsündən asılı olaraq bir neçə yüzdən bir neçə min yuana qədər (8 yuan təqribən 1 dollara bərabərdir) cərimə verməli olur. Bir sıra hallarda (daha varlı kənd təsərrüfatı rayonlarında, birinci uşaq qız olanda, milli azlıqların yaşadığı rayonlarda və s.) ikinci uşağa icazə verilir.

Çində demoqrafik siyasətin başlıca məqsədi ailədə çoxuşaqlıqdan təkuşaqlığa ya da ən azı iki uşaqlığa keçiddir. Bununla əlaqədar «Bir ailə-bir uşaq», «bacı-qardaşsız xalq» və s. kimi şüarlar geniş yayılmışdır. İqtisadi, təbliğat tədbirləri ilə yanaşı inzibati tədbirlər də həyata keçirilir. Bütün bu tədbirlərin sayəsində ölkədə əhalinin təbii artım sürəti XX əsrin 60-cı illərinin ortalarına nisbətən XX1 əsrin başlanğıcında təqribən 3 dəfə azalmışdır.

Cədvəl № 20

**Çində əhalinin təbii artımı**

| İllər | Əhalinin sayı mln.nəf | Təbii artım, hər 1000 nəfərə Doğum | Ölüm | Təbii artım | İllik artım mln.nəf |
|---|---|---|---|---|---|
| 1950 | 552 | 37 | 18 | 19 | 10,3 |
| 1955 | 615 | 32,6 | 12,3 | 20,3 | 12 |
| 1960 | 662 | 20,9 | 25,4 | -4,5 | -10 |
| 1965 | 725 | 37,9 | 9,5 | 28,4 | 20,4 |
| 1970 | 830 | 33,4 | 7,6 | 25,8 | 23,8 |
| 1975 | 924 | 23 | 7,3 | 15,7 | 15,6 |
| 1980 | 987 | 18,2 | 6,3 | 11,9 | 11,6 |
| 1985 | 1046 | 17,8 | 6,6 | 11,2 | 11,6 |
| 1990 | 1134 | 21,4 | 6,6 | 14,8 | 21,8 |
| 1995 | 1230 | 18 | 6,8 | 11,2 | 13,5 |
| 2000 | 1300 | 16 | 7 | 9 | 11,7 |

Çin demoqraflarının hesablamalarına görə ölkənin təbii resursları və iqtisadi imkanları yalnız 1,5 mlrd. nəfərə qədər əhalinin «təzyiqinə» davam gətirə bilər. BMT-nin proqnozuna görə isə Çində əhalinin sayı bu səviyyəyə artıq 2025-ci ildə çatacaq. Buna görə də ölkədə əhalinin təbii artımını məhdudlaşdıran daha fəal demoqrafik siyasət aparılır. İndi ölkədə hər 1000 nəfərə doğum 16, ölüm halları isə 7 nəfərdir. Kənd sakinlərinin üstünlük təşkil etdiyi cənub əyalət-

lərində, həm də milli azlıqların seyrək məskunlaşdığı rayonlarda əhalinin artımı ölkənin orta göstəricisindən çoxdur.

Çində demoqrafik siyasət olduqca təsirli olmuş və artıq öz nəticəsini vermişdir. Mütəxəssislərin rəyinə görə ölkədə demoqrafik siyasət aparılmasaydı əhalinin sayı indiki səviyyəsindən 300 mln.nəfər çox olardı. Əhalinin təbii artımı 1968-ci ildə 2,8%-dən 2000-ci ildə 0,9%-ə enmişdir. Bu göstərici də Çinin, əhalinin təbii artımının müasir tipinə aid olan ölkələr qrupuna yaxınlaşdığını göstərir.

Çində kişilər (əhalinin 52%-i) qadınlardan çoxdur. Əhalisi nisbətən gəncdir (15 yaşa qədər olanlar 30%-ə qədər). Lakin ailə planlaşdırılması siyasətinin aparılması ilə əlaqədar əhalinin strukturunda bu yaşda olanların xüsusi çəkisi getdikcə azalır və sakinlərin qocalması prosesi gedir. Əhalinin yarıya qədəri əmək qabiliyyətlidir və onların sayına görə Çin dünyada birinci yeri tutur. Əmək qabiliyyətlilərinin əksəriyyəti (2/3-si) kənd təsərrüfatında çalışır. Hər işçiyə düşən şumluq torpaq sahələrinin daima azalması və kənd təsərrüfatında əmək məhsuldarlığının artması aqrar sektorda işçi artıqlığına səbəb olur. Bu problem işçi qüvvəsinin bir hissəsinin kənd təsərrüfatı məhsulları istehsalından kənd sənayesinə keçməsi yolu ilə həll edilir. Sənaye və iqtisadiyyatın digər sahələrində çalışanların sayı getdikcə artır. Ölkədə fəaliyyət göstərən fəhlə qüvvəsinin yalnız 15%-i dövlət sektorunda çalışır və bu göstərici getdikcə azalır. Çində məşğulliyyət problemi olduqca kəskin xarakter almışıdr.

*Ölkə üzrə əhalinin ölduqca qeyri-bərabər yerləşməsi böyük təsərrüfat çətinlikləri törədir.* Şərqdə, xüsusilə Böyük Çin düzənliyinin cənubunda əhalinin sıxlığı 1km$^2$-də 600 nəfərdən artıq olduğu halda, Tibet Muxtar rayonunda (TMR) bu göstərici 1-2 nəfərə bərabərdir ( ölkədə orta sıxlıq 135 nəfərdir).

XX əsrin 90-cı illərində ölkədə şəhərlilərin xüsusi çəkisinin sürətli artımı həm əhalinin təbii artımı, həm də inzibati dəyişikliklər və miqrasiya axını ilə əlaqədardır. İdarəçiliyin yenidən təşkili məqsədi ilə şəhərlərin tərkibinə yaxınlığında yerləşən kənd qəzaları da daxil edilmişdir. Məsələn, şəhər əhalisini ərzaq məhsulları ilə təmin etmək məqsədi ilə Pekinə yaxın yerləşən 9, Quançjouya 6, Şanxaya 10 kənd qəzası daxil edilmişdir. Nəticədə bu şəhərlərin əhalisi və ərazisi xeyli artmışdır. Bununla yanaşı 1984-cü ildə keçirilən inzibati islahatlarla əlaqədar ölkədə «şəhər» anlayışının özü dəyişmişdir. Əgər bu vaxta qədər sakinləri daha çox olan yaşayış məntəqələri şəhər sayılırdısa, indi əhalisi 3 mindən artıq və sakinlərinin 85%-i qeyri kənd təsərrüfatı sahələrində çalışan sənaye ya da ticarət mərkəzləri şəhər sayılır. Təbii ki, belə ölçü şəhər əhalisinin sıçrayışla artmasına səbəb olmuşdur.

İndi Çində urbanizasiyanın səviyyəsi (40%) orta dünya göstəricisindən bir qədər aşağıdır. Lakin dünyanın heç bir ölkəsində Çində

olduğu qədər şəhərli (550 milyon nəfər) və milyonçu şəhər (40-dan çox) yoxdur. Şəhərlərin 90%-dən çoxu ölkənin şərq hissəsində yerləşir. Ən iri şəhərləri Şanxay, Pekin, Tyantszin, Syanqan və Şenyandır.

Çində ən çox *xarici miqrasiya* XIX əsrin ikinci yarısında və birinci dünya müharibəsi ərəfəsində baş vermişdir. Dünyada plantasiya təsərrüfatı və mədən sənayesinin sürətli inkişafı ilə əlaqədar ucuz, çalışqan və davamlı çin işçi qüvvəsinə tələbatı artırmışdır. İndi ölkədən kənarda 50 milyondan artıq xuasya yaşayır. Onların çoxu CŞA-dadır. Çin indi də dünya bazarında işçi qüvvəsinin ixracatçısı kimi çıxış edir. Çin alimləri Birləşmiş Ştatlarda və s. ölkələrdə daimi yaşamağa gedirlər. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Çindən leqal və qeyrileqal miqrasiya axını Rusiyanın Uzaq Şərq və Sibir bölgələrinə istiqamətlənmişdir.

Xarici ölkələrdə məskunlaşan çinlilər bu gün dünyada ən güclü etnik qruplardan sayılır. Çin diasporu böyük miqdarda resurslara, Cənubi və Cənub-Şərqi Asiyada, Şimali və Cənubi Amerikada milyard dollarla ölçülən vəsaitə malikdir. Milli kökdən ayrılmamaq şüarı ilə fəaliyyət göstərən xuasyaların Çin iqtisadi möcüzəsində özünəməxsus yeri vardır.

## §4. Təsərrüfatın ümumi səciyyəsi

Sosializm quruculuğu illərində (1949-cu ildən) ÇXR çətin və ziddiyyətli tarixi yol keçmişdir («Böyük sıçrayış», «Mədəni inqilab» siyasi proqramları). Ayrı-ayrı dövrlərdə əldə edilən iqtisadi nailliyyətlər böhran ilə əvəz olunmuşdur. Yalnız 70-ci illərin axırlarında ölkə böhran vəziyyətindən çıxmışdır.

Xalq hakimiyyətinin birinci dövründə (1949-1957) çin xalqı SSRİ və digər sosialist dövlətlərinin yaxından yardımı ilə sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsində və sosializmin maddi-texniki bazasının yaradılmasında böyük nailiyyətlər qazandı. Birinci beşillik Çinin sənayeləşməsinin əsasını qoydu. Sovet İttifaqının köməkliyi ilə avtomobil, traktor, təyyarə istehsalı, radiotexnika və bu kimi müasir sənaye sahələri yaradıldı. ÇXR hələ birinci beşillik planda aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Lakin 1958-60-cı illərdə Çin rəhbərlərinin bədnam «böyük sıçrayış» proqramı ölkənin normal inkişafını pozdu. Bu proqrama görə Çin« yeddi il ərzində İngiltərəyə çatmalı və onu ötüb keçməli, yüksək inkişaf etmiş ölkələr səviyyəsinə çatmalı idi». «Polad uğrunda ümumxalq hərəkatı» adlanan planın həyata keçirilməsində on milyonlarla adam iştirak edirdi. Buna oxşar üsul ilə, yəni insan əməyindən intensiv istifadə yolu ilə (onlara «Üç il əziyyətli əmək və on min il xoşbəxt həyat» vəd edil-

mişdir) kənd təsərrüfatı məhsulları istehsalını da bir neçə dəfə artırmaq nəzərdə tutulmuşdur. Kəndlilərdən həyətyanı sahələr, mal-qara və kənd təsərrüfatı alətləri alınmışdı və 15 min, hətta 20 min kəndli heyətlərindən ibarət iri «xalq kommunaları» yaradılmışdır. Çin rəhbərləri həmin dövrdə «öz xüsusi qüvvəsinə arxalanmaq» siyasəti yeridərək beynəlxalq sosialist əmək bölgüsündən imtina etmişdir. Real vəziyyəti nəzərə almadan bir sıra zəruri inkişaf mərhələləri üzərindən «sıçramaqdan» ibarət olan avantürüst cəhd Çin iqtisadiyyatının sarsılmasına səbəb oldu. Sənaye və kənd təsərrüfatı məhsulları nəinki artdı, hətta 1962-ci ildə onun həcmi 1959-cu ilə nisbətən 35% azaldı. Ölkədə aclıq yarandı. «Böyük sıçrayışın» ağır nəticələrini aradan qaldırmaq məqsədi ilə 1962-ci ildə xalq təsərrüfatının «nizama salınması» yolu qəbul edildi. Xalq kommunaları yenidən quruldu, kəndlilərə həyətyanı sahələr, mal-qara və kənd təsərrüfatı alətləri qaytarıldı. Ölkə «Böyük sıçrayışın» ağır nəticələrini təzəcə aradan qadırırdı ki, yenidən iqtisadiyyata böyük ziyan dəydi. Bunun da səbəbi insanların «mədəni inqilab»[1] siyasi kompaniyasına cəlb edilməsi, ən savadlı rəhbər işçilərin işdən kənarlaşdırılması, ziyalıların bir hissəsinin cəzalandırılması və fiziki cəhətdən məhv edilməsi idi.



Şəkil 20. Yapon kapitalı əsasında Şençjendə elektron sanayesi.

Çin iqtisadi islahatlarının banisi və yaradıcısı Den Syaopin və onun tərəfdarları dünyanın inkişaf qanunauyğunluqlarından düzgün nəticə çıxarmış, ölkədə yeniliyə və iqtisadi inkişafa nail olmaq üçün yüksək riskli, uçuruma aparan yolla getməmiş, işığı aydın görünən

[1] 1966-1976-cı illərdə Çin rəhbərləri arasında hakimiyyət uğrunda gedən çəkişmələrin nəticəsində yaranmışdır, orduya arxalanan tələbə gənclərin- «xunveybinlərin» əli ilə Mao Tszedunun rəqiblərinə zərbə vurulmuşdur. Mao Tszdun xalq hakimiyyəti orqanlarını ləğv etmiş və ölkədə öz diktaturasını yaratmışdır. Çinin indiki rəhbərləri «mədəni inqilab» dövründə baş verən qaydaları ən amansız «feodal diktatura» adlandırmışlar. Bu «inqilab» ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərmişdir.
Həmin dövrdə Maonun «Üç Dünya nəzəriyyəsi» mövcud idi. Bu nəzəriyyədə ABŞ və SSR (super dövlətlər) birinci dünyaya İOÖ-lər (o cümlədən Çinin özü) üçüncü dünyaya, bu iki dünya arasındakı İEÖ-lər isə ikinci dünyaya aid edilirdi. Mao məcazi mənada ABŞ-ı pələngə, SSRİ-ni ayıya, Çini isə ağacda oturan meymuna bənzədirdi. Onun fikrinə görə yer uğrunda ayı ilə pələng əldən düşənə qədər döyüşəcəklər. Yalnız bundan sonra meymun ağacdan düşəcək və yerdə ağalıq edəcəkdir.

yol seçmişlər. 1960-70-ci illər ərzində ölkədə aparılan islahatların uğursuzluqları («Böyük sıçrayış», «Mədəni inqilab»), əhalinin əksəriyyətinin yoxsulluğu, işsizliyin yüksək səviyyəsi, şəhərlərdə ərzaq məhsullarının talonla verilməsi və digər başlıca göstəricilərin aşağı səviyyəsi bu nəhəng ölkənin xarakterik cəhətləri idi. Den Syaopin və onun tərəfdarları yaxşı başa düşürdülər ki, belə vəziyyətin uzun müddət qalması çox ağır nəticəyə gətirib çıxara bilər. Ona görə də ölkənin siyasi sitemini dəyişmədən iqtisadiyyat sahəsində yeni islahatların aparılması zəruri idi. Nəhayət 1978-ci ildə ölkədə xarici aləm üçün «açıq qapı» prinsipi və əsaslı islahatların həyata keçirilməsi barədə qərarlar qəbul edildi.

Çində islahatlar planauyğun və məqsədyönlü şəkildə, «Böyük sıçrayış» və «Mədəni inqilab» dövrlərində yol verilmiş səhflər nəzərə alınmaqla və mərhələlərlə həyata keçirilir. Den Syaopinin sosializm quruculuğu planı üç mərhələni əhatə edir. Bu inkişaf mərhələlərində qarşıya qoyulan bütün məsələlər (əhalinin ərzaq və geyimlə təmin olunmasının iki dəfə, ÜDM-un 4 dəfə artırılması, yoxsulluqdan xilas olmaq, sosialist bazar iqtisadiyyatı sisteminin ilkin mərhələsini başa çatdırmaq) 2000-ci ilə qədər yerinə yetirildi. Bütün bunlara görə də çin xalqı Den Syaopinin[1] adını daima fəxrlə çəkir.

Dünyada baş verən qlobal proseslər dövlət sərhədlərini aşır, kommunikasiya sahələri və kompüter texnikası bir-birindən çox uzaqda yerləşən dövlətləri birləşdirir, onların dünyavi problemlərin həlli ətrafında birləşməsinə xidmət edir. Dünyada elə bir qlobal inkişaf prosesi yoxdur ki, o özünü Çində göstərməsin. Lakin bu proseslər bəzi ölkələrə xas olan, tələm-tələsik deyil, təkamül mərhələlərini keçərək inkişaf edir. Çin dünya iqtisadiyyatına öz milli təsərrüfat sahələrini möhkəmlətdirməklə, iqtisadi təhlükəsizliyini təmin etməklə daxil olur. Bir sıra alimlərin (Con Nesbit, Patrisiya Eberden) «azad bazar münasibətləri ilə xarakterizə olunan sosializmin meydana gəlməsi» proqnozları da məhz Çin təcrübəsində təsdiq olunur. Təbii ki, müxtəlif elm mərkəzləri, alimlər tərəfindən irəli sürülən proqnozlar bu və digər dərəcədə fərqlənə bilər.

*Son illər dünya təsərrüfatında Çinin rolu xeyli artmışdır.* 80-cı illərin əvvəllərindən başlayaraq ÇXR iqtisadiyyatın artım sürətinə görə dünyanın ən böyük dövlətləri arasında birinci yerdə durur. 1979-2002-ci illər ərzində ölkənin ümumi milli məhsulunun orta artım göstəricisi 8% olmuşdur. İndi Çin Asiyanın iqtisadi tərəqisinin lokomotivlərindən birinə çevrilmişdir. Onun iqtisaiyaının belə sürətli inkişafına ölkənin ictimai həyatında aparılan əsaslı mütərəqqi dəyi-

---

[1] Çin iqtisadi möcüzəsinin atası sayılan Den Syaopin uzun müddət Çin Kommunist partiyasının ən fəal rəhbərlərindən biri olmuşdur. Bununla belə fəaliyyət göstərdiyi illərdə iki dəfə hakimiyyətdən uzaqlaşdırılmışdır.

şikliklər, iqtisadiyyatın bütün sahələrində həyata keçirilən islahatlar (xarici kapitalın axınına şərait yaradılması, azad bölgələrin yaradılması və s.), ayrı-ayrı iqtisadi sahələrdə daha çox maddi nemətlər bolluğu yarada bilən istehsal münasibətlərindən (dövlət, kooperativ və xüsusiyyətçilik) istifadə olunması təsir etmişdir. Belə sürətli inkişaf əhalinin həyat səviyəsini xeyli yaxşılaşdırmışdır.

Son illər ölkədə Yerin süni peyklərinin buraxılışı üçün raket-kosmik sənayesi sürətlə inkişaf edir. *İndi Çin nüvə və kosmik dövlətlərdən biridir.* Çin kömür hasilatına, sement, polad, velosiped, tikiş və paltar yuyan maşınlar, pambıq parça istehsalına görə dünyada birinci yerdə durur. Ölkənin ixracatında maşınqayırma məhsulları birinci yerdə durur (ixracat dəyərinin 1/3-i). İndi Çin əhalinin ərzaq məhsullarına olan tələbatını təmin edir, bu da belə çoxsaylı dövlət üçün böyük nailiyyətdir.

Ümumiyyətlə, ÇXR sənaye və kənd təsərrüfatı məhsullarının ümumi istehsal göstəricilərinə görə dünyanın ən böyük dövlətlərindən biridir. *Lakin iqtisadiyyatın inkişaf səviyyəsinə, həm də sənaye məhsullarının adambaşı istehsal və istehlakına görə hələ ki, "kasıb" ölkələr sırasında qalır.*

**Sənaye.** Müasir Çinin sənayesinin strukturunda ağır sənaye, xüsusilə son illər sürətlə inkişaf etmiş energetika, kimya və maşınqayırma sahələri başlıca yer tutur. Ölkədə sənayenin təyyarə, kosmi-kraket, elektron istehsalı kimi ən yeni sahələri yaradılmışdır. Lakin bununla yanaşı ənənəvi sahələr də (keramika, çini qablar, həm də xalça və həsir toxuma, naxış vurma və s. sənətkarlıq məmulatları istehsalı) öz əhəmiyyətini saxlayır. Sənaye müəssisələrinin ümumi miqdarına və bu müəssisələrdə çalışanların sayına görə Çin dünyada birinci yeri tutur. Lakin əmək məhsuldarlığına və ən müasir sənaye məhsullarının istehsalına görə hələ ki, dünyanın qabaqcıl ölkələrindən xeyli geridə qalır. Dünyanın bütün ölkələrində olduğu kimi, Çində də sənaye müəssisələri ən yeni texnologiya ilə təchiz edilir, xammal və enerji resurslarının qənaətinə xüsusi fikir verilir.

Çin *yanacaq-energetika resursları* ilə daha yaxşı təmin olunmuş dünya ölkələrindən biridir. Enerji balansında *kömür* başlıca rol oynayır. Kömür hasilatına görə (1,5 mlrd.t) Çin dünyada birinci yeri tutur. Kömür demək olar ki, bütün əyalət və muxtar rayonlarda çıxarılır. Lakin kömür yataqlarının əksəriyyəti kiçikdir. Daha iri yataqlar Şansi (hasilatın 1/5-i), Xebey, Şandun, Xeyluntszyan, Lyaonin əyalətlərindədir. Kömürün 80%-i şaxta üsulu ilə çıxarılır və əsas istehlakçısı sənayedir. Elektrik enerjisinin və təbii qazın qıtlığı ilə əlaqədar təsərrüfat və məişət binalarının zəif elektrikləşməsi və qazlaşdırılması, istiləşdirmə sistemi ilə təmin edilməməsi sayəsində yaşayış binaları birbaşa kömür yandırılması ilə qızdırılır. Bu da atmosferin həddən çox çirklənməsinə səbəb olur.

**Cədvəl № 21**

**İstehsal edilən əsas yanacaq növləri və elektrik enerjisinin xüsusi çəkisi (%-lə)**

| İllər | Kömür | Neft | Təbii qaz | Hidroenerji |
|---|---|---|---|---|
| 1949 | 96,3 | 0,7 | ----- | 3,0 |
| 1952 | 96,7 | 1,3 | ----- | 2,0 |
| 1962 | 91,4 | 4,8 | 0,9 | 2,9 |
| 1965 | 88 | 8,6 | 0,8 | 2,6 |
| 1970 | 81,6 | 14,1 | 1,2 | 3,1 |
| 1975 | 70,6 | 22,6 | 2,4 | 4,1 |
| 1980 | 69,7 | 23,8 | 3,0 | 3,8 |
| 1985 | 72,8 | 20,9 | 2,0 | 4,3 |
| 1990 | 73 | 20 | 2,0 | 5,0 |
| 1995 | 72 | 20,5 | 2,0 | 5,5 |
| 2000 | 70 | 21,5 | 2,0 | 6,5 |

Yanacaq-energetika resurslarının strukturunda *neft və təbii qaz* ikinci yeri tutur. Neft hasilatına (160 mln.t) görə Çin dünyada qabaqcıl yerlərdən birini tutur. Ölkədə güclü neft emalı sənayesi yaradılmışdır. Neft emalı sənayesinin gücünün 1/3-i hasilat, 2/3-si isə istehlak rayonlarında, xüsusilə dənizsahəli bölgələrinin iri şəhərlərində yerləşir. Təbii qaz sənayesi yaranma mərhələsindədir. Çıxarılan təbii qazın (20 mlrd.kub m) təqribən yarısı Sıçuan əyalətinin üzərinə düşür. Kənd təsərrüfatı, ağac tədarükü və s. tullantılarından əldə edilən biometana görə ölkə dünyada başlıca yer tutur. Kənd yerlərində biometan kiçik generatorlarda istehsal edilir və əsasən məişətdə (binaların qızdırılması, xörək hazırlanmasında və s.) istfadə edilir.

*Elektrik enerjisi* istehsalına (1,3 trln kVt-s), ümumiyyətlə enerji istehsalına görə Çin dünyada Birləşmiş Ştatlardan sonra ikinci yerə çıxmışdır. Lakin elektrik enerjisinin adambaşı istehlakına görə dünyada 80-ci yeri tutur və bu enerjiyə çatışmamazlıq (20%) hiss olunur. Elektrik enerjisinin 78%-ə qədəri kömür ilə işləyən İES-lərdə, 20%-ə qədəri isə SES-lərdə istehsal edilir. XX əsrin 90-cı illərinin ortalarında Yantszı çayının orta axarında «Sansya» («Üç dərə») hidroqovşağının tikintisinə başlanmışdır (2009-cu ildə işə düşməlidir). Hesablamalara görə İçan şəhəri yaxınlığında Yantszı çayının qabağının bənd ilə (hündürlüyü 150-180 m) kəsilməsi Sıçuan əyalətinin Çuntsin şəhərinə qədər 600 km uzanan su anbarının yaranmasına və bu da 14 qəza ərazisinin, minə qədər kəndin su altında qalmasına səbəb olacaqdır. Həm də 15 SES-dən ibarət olan Xuanxe çayı üzərində yeni kaskadın tikintisi nəzərdə tutulmuşdur. Bütün bunlarla yanaşı əvvəllər olduğu kimi ölkədə icma və kəndlərin yerli tələbatlarının

ödənilməsi məqsədilə kiçik SES-lərin tikintisinə də xüsusi fikir verilir. Belə SES-lərin sayı artıq 100 minə çatmışdır. 2015-ci ildə ölkədə istehsal edilən ümumi elektrik enerjisinin 35-40%-i SES-lərin üzərinə düşəcəkdir. Hidrotikintilər ucuz elektrik enerjisinin əldə edilməsi ilə yanaşı su təchizatını yaxşılaşdırır, axının nizama salınması yolu ilə ölkədə daima baş verən fəlakətli daşqınların qabağını alır, çayların bir çox hissələrində gəmiçilik üçün zəruri olan dərinliyin saxlanılmasına xidmət edir.

Elektrik enejisinə olan qıtlığı azaltmaq məqsədi ilə Çin hökuməti nüvə erjisindən istifadənin uzunmüddətli proqramını işləyib hazırlamışdır. Ölkədə ilk AES 1991-ci ildə Şanxayın cənub-qərbində istitsmara verilmiş və sonradan genişləndirilmişdir. 2000-ci ildə ümumi elektrik enerjisinin 2,5%-i AES-lərin üzərinə düşmüşdür.

Çin *qara metallurgiya* sənayesinin inkişafı üçün *mineral resurslarla* zəngindir. Lakin 1949-cu ilə qədər demək olar ki, ölkədə bu sahə yox idi. İndi polad istehsalına (130 mln.t) görə ölkə Yaponiya, Birləşmiş Ştatlar və Rusiya kimi dövlətləri ötüb keçmiş və dünyada birinci yerə çıxmışdır. Qara metallurgiyanın belə sürətli inkişafına ölkənin dəmir filizi, kokslaşan kömür və legirlənən metallarla (manqan, volfram, molibden vəs.) zəngin olması, həm də ilk növbədə ölkənin sənayeləşdirilməsində konstruktiv material kimi zəruri olan qara metalla tələbatın artması səbəb olmuşdur. Ölkədə mindən artıq metallurgiya müəssisələri var, lakin məhsulun böyük hissəsini 11 iri müəssisə verir. Metallurgiya müəssisələrinin ölkə üzrə səpələnməsi «böyük sıçrayış» siyasətinin nəticəsidir. Həmin dövrdə hər bir komunanın özünün xüsusi polad və çuqun istehsalı müəssisəsi olmalı idi.

Adətən Çində qara metallurgiyanın inkişafı üçün əlverişli şərait olan və əhəmiyyətinə görə təxminən bir-birinə bərabər olan *beş metallurgiya bazasını ayırırlar.* Onlardan *birincisi,* Şimal-Şərqi Çində, Lyaonin əyalətindədir. Burada ölkənin ən iri dəmir filizi hövzələrindən biri Anışan, həm də kokslaşan kömür yataqları Fuşun və Fusin yerləşir. Bu xammal mənbələrinin əsasında ölkədə ən iri tam silsiləli Anışan metallurgiya kombinatı yaranmışdır. Bu kombinatda 150 min nəfər çalışır. Bu da istehsal proseslərinin kifayət qədər mexanikalaşmamasını göstərir. Digər metallurgiya zavodları Bensi, Fuşun, Dalyan və s. şəhərlərdə yerləşir. *İkinci və üçüncü metallurgiya bazaları* Şimali Çində Xebey əyalətində, Pekin və Tyantszin şəhərlərinin ətrafında və DMMR-nun Baotou şəhərində yaranmışdır. *Dördüncü metallurgiya bazası,* ölkədə ən iri sənaye mərkəzi Şanxay rayonunun tələbatının ödənilməsinə xidmət edir və Yantszı çayının aşağı axarında yerləşir. Şanxay rayonunun çuqun və polada artan tələbatının təmin edilməsi məqsədilə şəhərin yaxınlığında (Baoşanda) Yaponiya və AFR-in köməkliyi ilə ölkədə ən müasir texnika və texnologiya ilə

təchiz edilmiş yeni kombinat tikilmişdir. Bura yüksək kefiyytli dəmir filizi Avstraliya və Braziliyadan gətirilir. *Beşinci metallurgiya bazası* Yantszı çayının orta axarında, Uxan şəhərində yaranmışdır.

*Əlvan metallurgiya sənaye sahələri arasında* alüminium, mis, qalay, volfram, qurğuşun, sink əridilməsi mühüm yer tutur. Bu sahələrin müəssisələri başlıca olaraq hasilat bölgələrində, xüsusilə daha çox cənub rayonlarında təmərküzləşmişdir. Bu sahənin ən iri mərkəzi Şanxaydır.

Çində *maşınqayırmanın* demək olar ki, bütün sahələri inkişaf etmişdir. Xüsusilə, son illər ölkədə keçirilən iqtisadi islahatlarla əlaqədar məişət elektrik aparatları, cihazlar, EHM-lər, ən yeni rabitə vasitələri istehsalı, kənd təsərrüfatında «ailə podratının» yaranması isə kiçik ölçülü və zəif güclü traktor və digər mühərrikli vasitələrin istehsalı sürətlə artmışdır. Maşınqayırmanın strukturunda elektron və elektrotexnika, traktor və avtomobil istehsalının, aviakosmik sənayesinin xüsusi çəkisi artır. Bununla yanaşı toxuculuq sənayesi və digər sahələr üçün avadanlıq istehsalı da öz yüksək xüsusi çəkisini saxlamışdır. Bu sahələrin inkişafında xarici kapital mühüm rol oynamışdır. Bütün bunlarla yanaşı maşınqayırma məhsullarının xarici ticarətində idxalat ixracatdan xeyli çoxdur. Çin mülki təyyarələrin demək olar ki hamısını idxal edir.



**Şəkil 21.** *"Ceneral Motor" (ABŞ) kapitalı əsasında "Tszinbey" müştərək avtomobil müəssisəsi.*

Maşınqayırmanın mühüm mərkəzləri Şanxay, Şenyan, Pekin, Tyantszin və ölkənin şərq hissəsinin digər şəhərləridir.

Ölkə *kimya sənayesinin* inkişafı üçün müxtəlif xammal növləri ilə (fosforit, duz və s.) təmin edilir. Mineral kübrə istehsalına görə ölkə dünyada birinci, kimyavi lif istehsalına görə isə Birləşmiş Ştatlardan sonra ikinci yeri tutur. Əczaçılıq sənayesi yüksək inkişaf səviyyəsinə çatmışdır. Ölkə dərman məhsullarının ən iri ixracatçılarından biridir. Tibbi preparatlar istehsalının ən iri mərkəzi Şanxaydır. Ölkədə neft-kimya sənayesi sürətlə inkişaf edir. Lakin hələ ki, bu sahənin məhsulları ilə, xüsusilə ölkə üçün yeni sahə olan polimer materialları ilə tələbatını ödəyə bilmir. Neft-kimya sənaye müəssisələri

ölкənin şimal-şərqində (Peкin, Tyantszin, Şenyan, Sindao) və şərqində (Şanxay, Nanкin, Uxan) təmərкüzləşmişdir.

*Yüngül sənaye* Çin təsərrüfatının ənənəvi sahəsidir. Böyüк daxili bazar və iqtisadi islahatlar ilə əlaqədar əhalinin alıcı qabiliyyətinin nisbətən artması bu sahənin inкişafını sürətləndirmişdir. Yüngül sənaye daxili yüк dövriyyəsinin həcminə, əhalinin məşğulliyyətinə, кənd təsərrüfatının və bir sıra maşınqayırma sahələrinin və кimya istehsalının inкişafına güclü təsir edir. Bu sahə xammal ilə yaxşı təmin olunmuşdur. Həm də yüngül sənayesi yüкsəк inкişaf etmiş digər ölкələrdən (Birləşmiş Ştatlar ,Yaponiya, RF ) fərqli olaraq Çin təbii xammaldan daha çox istifadə edir. Yun və ipəк parça istehsalının sürətli inкişafına baxmayaraq *pambıq parça* buraxılışı (ildə 30 mlrd.кv.m) кəsкin suratdə üstünlüк təşкil edir. XX əsrin 70-ci illərinin ortalarından başlayaraq Çin pambıq parça istehsalına görə dünya lideridir. Həm də dünya bazarında pambıq və pambıq ilə digər xammal növlərinin qarışığından istehsal edilən parça ixracatına görə dünyada başlıca yer tutur. Çin *ipəк parça* istehsalının vətənidir. XIX əsrin sonunda və XX əsrin başlanğıcında ipəк istehsalına görə Yaponiya Çini ötüb кeçmişdir. Laкin son illər Çin təbii ipəк istehsalına və ixracatına görə özünün başlıca mövqeyini bərpa etmişdir. İndi Çində süni və sintetiк lifdən də ipəк parça istehsal edilir. İpəк sənayesi Şərqi və Cənubi Çinin baramaçılıq rayonlarında, həm də Sıçuan əyalətində yayılmışdır. *Yun parça* istehsalına görə ölкə dünyada qabaqcıl yerlərdən birini tutsa da daxili tələbatı ödəmir. Bunula yanaşı yüкsəк кeyfiyyətli yun parça ixracatı artır.

Çində daha əməкtutumlu *tiкiş sənayesinin inкişafı üçün* əlverişli şərait vardır. Minlərlə müəssisə, o cümlədən «кənd sənayesi» ilə təmsil olunan bu sahə ölкənin bütün ərazisi üzrə səpələnmişdir. Bu müəssisələrdə 1 milyondan artıq işçi çalışır. Çin dünya bazarında hazır paltar ixracatçısı piştaxtasını tuta bilmişdir. Ölкədə tiriкotaj sənayesinin inкişafı üçün də ilкin şərait var, laкin hələ кi, yüngül sənaye istehsalında triкotaj məmulatları istehsalının payı cüzidir. Əvvəllər *dəri-ayaqqabı sənayesi* sadə milli ayaqqabı istehsalı ilə təmsil olunurdu. İndi ölкədə rezindən və dəridən gündəliк, işçi və idman ayaqqabları hazırlanır və bu məhsulların bir hissəsi dünya bazarına ixrac olunur. Dəri-ayaqqabı sənayesi, ümumiyyətlə yüngül sənaye müəssisələri ölкənin dənizsahili əyalətlərində (xüsusilə Şanxay, Peкin, Tyantszin və b. şəhərlərdə), həm də son illər xammal istehsal edilən rayonlarda (Bataoda və s. )yerləşir.

*Yeyinti sənayesində* istehsal edilən məhsulların həcminə görə Çin dünyada birinci yeri tutur. Un üyütmə və çörəк bişirmə müəssisələri deməк olar кi, ölкənin hər yerində, xüsusilə əhalinin təmərкüzləşdiyi Şərq bölgələrində daha çox yayılmışdır. Heyvan yağından az istifadə sayəsində *bitкi yağı* (yer fındığı, pambıq, soya və s.)

istehsalının əhəmiyyəti artır. *Ət istehsalı* da sürətlə artmış və dünyada birinci yerə çıxımışdır. İndi əhalinin hər nəfərinə düşən ət istehlakına görə ölkə dünya göstəricisi səviyyəsinə çatmışdır. *Balıq sənayesi* daha sürətlə inkişaf etmiş və balıq ovu (30 mln.t) və digər dəniz məhsullarının hasilatına görə Çən dünyada birinci yerə çıxımışdır. *Çay və tütün* istehsalına görə də ölkə dünya lideridir. Tütün istehsalına görə dünyada birinci, çaya görə isə Hindistandan sonra ikinci yeri tutur. Çay sənayesi ixracat əhəmiyyətlidir

Son onilliklərdə *sənayenin coğrafiyası* xeyli dəyişilmişdir. İndi ölkənin dənizsahili bölgələri ilə yanaşı daxili, xüsusilə yanacaq və xammala yaxın rayonlarında yeni sənaye sahələri tikilir, faydalı qazıntıların yeni yataqları (neft, metal filizləri, kimya xammalı) mənimsənilir. Lakin buna baxmayaraq sənaye məhsullarının 2/3 hissəsi yenə də ölkənin şərq əyalətlərində istehsal olunur. Çinin "dəniz sahili" və "qitədaxili" hissələri arasında mövcud olan sosial-iqtisadi fərqlərin aradan qaldırılması ölkə qarşısında duran ən mühüm problemlərdən biridir.

**Kənd təsərrüfatı.** Kənd təsərrüfatı üçün *təbii şərait* ilk əvvəl ölkənin relyef və iqlim xüsusiyyəilərilə müəyyən edilir. Çinin dənizkənarı hissəsi, şimal-şərqindəki ovalıqlar, təpəli düzənliklər və maili alçaq dağ yamacları, mülayim iqlimi kənd təsərrüfatı üçün daha əlverişlidir. Qərbin dağlıq relyefi, yarımsəhra və səhraları, kəskin kontinental iqlimi, yağıntının azlığı kənd təsərrüfatının (xüsusilə əkinçiliyin) inkişafını xeyli çətinləşdirir.

*Kənd təsərrüfatı* Çinin iqtisadiyyatının mühüm sahəsidir. Bu sahə nəinki 1 milyarddan artıq əhalini ərzaq məhsulları ilə, yeyinti və yüngül sənaye-sahələrini xammalla təmin edir, hətta bəzi məhsullarını ixrac da edir. 80-cı illərdən başlayaraq kənd təsərrüfatında "Xalq kommunası" adlanan tipdən "ailə icarədarlığı" sisteminə keçid bu sahədə məhsul istehsalının xeyli artmasına səbəb olmuşdur. Dünya ərzaq çətinlikləri ilə üzləşdiyi bir şəraitdə bu nəhəng ölkə həmin problemi uğurla həll etməyə nail olmuşdur.

Çinin kənd təsərrüfatı torpaq resurslarının məhdudluğu şəraitində inkişaf edir. Becərilən torpaq sahələri 100 mln hektardır, yəni əhalinin hər nəfərinə 0,1 hektardan da az əkin sahəsi düşür. Kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin demək olar ki, hamısı istifadə olunur, rütubət olan rayonlarda hətta ən dik yamaclar belə terraslaşdırılmışdır. Əhalinin sayının artmasına baxmayaraq, kənd təsərrüfatı dövriyyəsinə asanlıqla cəlb edilə bilinən xam torpaqlar demək olar ki. qalmamışdır. Sıx məskunlaşmış şərq bölgəsinin aqroiqlim şəraiti ildə iki və hətta üç dəfə məhsul yığımına imkan yaradır. Becərilən torpaq sahələrinin yarısı suvarılır və suvarılan torpaq sahələrinin ölçüsünə görə Çin dünyada birinci yeri tutur.

Çin kənd təsərrüfatı məhsullarının istehsalına görə dünyanın

başlıca ölкələrindən biridir. Ölкə taxıl (ildə 500 mln.t, o cümlədən çəltiк 200, , buğda 115 mln.t, 2000-ci il), pambıq (5 mln.t), tərəvəz, tütün, araxis, raps yığımına, donuz (450 mln. baş), at, quş, кeçilərin sayına görə (ölкədə 280 mln baş qoyun və кeçi, 160 mln baş isə qaramal saxlanılır) dünyada birinci yeri tutur. Kənd təsərrüfatında *heyvandarlıq* iкinci dərəcəli rol oynayır. Laкin mal-qaranın sayına görə Çin dünyada birinci yeri tutur. Ölкədə təqribən 60 mln.t ət istehsal edilir. Bu da Birləşmiş Ştatlara nisbətən iкi dəfə çoxdur. Ət məhsullarının 4/5-dən çoxunu donuzçuluq verir. Kənd təsərrüfatının başlıca sahəsi *əкinçiliкdir*. Taxıl bitкiləri ümumi əкin sahələrinin 4/5 hissəsini tutur. Çinlilərin qidasında mühüm rol oynayan çəltiк başlıca olaraq ölкənin cənubunda və Yantszı vadisində yetişdirilir. Çində çəltiк samanından yem кimi heyvandarlıq və quşçuluqda, кağız, həsir, ip və s. hazırlanmasında istifadə edilir. Su ilə örtülmüş çəltiк sahələrində balıq yetişdirilir. Təbii şəraiti imкan verən hər yerdə кartof, batat (şirin кartof), tərəvəz, meyvə, tütün və s. becərilir. Kənd təsərrüfatı məhsullarının təxminən 3/5-ü ölкənin şərq hissəsində istehsal edilir. Çin кimi böyüк bir ölкənin кənd təsərrüfatının daha ətraflı öyrənilməsi məqsədilə Mosкva Dövlət Universitetinin (MDU) iqtisadi coğrafiyaçıları ölкənin ərazisində altı bölgə ayırmışlar.

*Birinci bölgə* Çinin deməк olar кi, bütün şimal-şərq hissəsini əhatə edir. Bura ölкənin taxıl mənbələrindən biridir. Bölgədə yazlıq buğda və qaolyan (darı növlərindən biri), darı, soya, şəкər çuğunduru becərilir. Bu bölgənin, ümumiyyətlə ölкənin şərq bölgələrinin кənd təsərrüfatında heyvandarlıq bir qayda olaraq кöməкçi xaraкter daşıyır, saxlanılan qaramalın 2/3 hissəsindən əкin sahələrində iş heyvanı кimi istifadə edilir. Burada və digər Şərq bölgələrində donuz və quş yetişdirilməsinə xüsusi diqqət yetirilir. Bu sahələr taxıl istehsalı və məişət tullantıları əsasında başlıca olaraq şəxsi həyətyanı кəndli təsərrüfatlarında inкişaf etmişdir.

Özəyini Böyüк Çin düzənliyi təşкil edən *İкinci bölgə* taxıl, xüsusilə payızlıq buğda və pambıq istehsalı üzrə ixtisaslaşmışdır. Bölgədə soya (paxlalı bitкi növlərindən) əкin sahələri geniş yayılmışdır. Səthi Xuanxe və digər çayların gətirdiyi çöкüntülərindən əmələ gələn Böyüк Çin düzənliyində (Şimali Çin ovalığı) subtropiк, musson iqlimdir. Kifayət qədər soyuq və quraq qışı olan düzənliкdə əкinçiliк süni suvarmanı tələb edir. Bu məqsədlə Xuanxe və digər çayların, həm də düzənliyi meridian istiqamətində кəsib кeçən Böyüк Çin кanalının suyu həddən çox istifadə olunur. Böyüк Çin düzənliyinin qərbində yerləşən Lyoss yaylası da İкinci bölgəyə daxildir. Sahəsi 600 min кv кm-dən artıq olan Lyoss örtüyünün qalınlığı 600 metrə çatır. Burada da payızlıq buğda əкin sahələri geniş yayılmışdır Pambıq əкin sahələri də vardır. Lyoss və sarı torpaqların geniş yayıldığı bu bölgəni adə-

tən «sarı Çin» adlandırırlar. Şandun yarımadasında baramaçılıq inкişaf etmişdir.

*Üçüncü bölgə* Yantszı çayının hövzəsini tutur. Burada subtropiк, musson iqlimdir. Yantszı çayından cənubda yerləşən ərazilərdə adətən iкi dəfə məhsul yığılır. Bu bölgə çəltiкçiliк üzrə ixtisaslaşmışdır. Buğda, pambıq, müxtəlif paxlalı və yağlı bitкilər də yetişdirilir. Yanszı çayı hövzəsində baramaçılıq da inкişaf etmişdir.

Bu bölgənin qərbində Sıçuan («dördçayarası» mənasını bildirir) əyaləti yerləşir. Əyalətin isti rütubətli yayı və ilıq qışı bütün ilboyu məhsul yetişdirməyə imкan verir. Burada deməк olar кi, ölкədə istehsal olunan bütün кənd təsərrüfatı bitкiləri yetişdirilir. Əyalətdə ildə iкi-üç dəfə çəltiк, buğda, tərəvəz yetişdirilir. Həm də şəкər qamışı, çay, tütün, sitrus bitкilərinin əкin sahələri geniş yayılmışdır. Bura Çinin ən bərəкətli yeri və ölкənin başlıca ərzaq mənbəyidir. Adətən bu bölgəni «yaşıl Çin» adlandırırlar. *Dördüncü bölgə,* Nanlin silsiləsindən cənubda yerləşən Cənubi Çinin tropiк hissəsini tutur. Musson iqlimə maliк olan bu bölgədə sarı və qırmızı torpaqlar yayılmışdır. Sitszyan çayı hövzəsində, Cənubi Çin dənizi sahili və Xaynan adasında rütubətli tropiк iqlimdir. Başlıca taxıl bitкisi ildə iкi və hətta üç dəfə məhsul verən çəltiкdir. Bu bölgədə həm də müxtəlif tropiк və subtropiк bitкilər, texniкi bitкilərdən isə şəкər qamışı yetişdirilir.

Şimal-Qərbi Çinin və DMMR-nun çöl, səhra və yarımsəhra ərazilərini tutan *Beşinci bölgə* otlaq heyvandarlıq üzrə ixtisaslaşmışdır. Ölкədə saxlanılan qoyunların yarıya qədəri bu bölgənin üzərinə düşür. Buranı «susuz Çin» adlandırırlar. Əкinçiliк yalnız Cunqar və Kaşqar çöкəкliкlərində yerləşən vahələrdə aparılır.

*Altıncı bölgə* dünyada ən geniş və hündür Tibet yaylasını tutur. Yaylanın səthini yüкsəк dağlar, əsasən çınqıllı səhra və yarımsəhralar təşкil edir. Nahaq yerə yaylanı »Dünyanın damı» ya da »soyuq Çin» adlandırmırlar. Bu bölgə кöçəri heyvandarlıq üzrə ixtisaslaşdırılıb. Yayda qaramalı yüкsəк dağlıq otlaqlarda, qışda isə vadilərdə otarırlar. Əsas ərzaq bitкisi şaxta və quraqlığa davamlı arpadır. Yazlıq buğda isə dəniz səviyyəsindən 4,1 min metr hündürlüкdə becərilir. Bura dünyada buğda əкininin yayıldığı ən yüкsəк dağlıq rayonlardan biridir.

Cədvəl № 22

**Çində kənd təsərrüfatı məhsulları istehsalı (mln. tonla)**

| Məhsul növləri | 1949 | 1978 | 2000 |
|---|---|---|---|
| Taxıl | 131 | 305 | 500 |
| Pambıq | 4,4 | 2,2 | 4,6 |
| Şəkər qamışı | 2,6 | 21 | 84 |
| Şəkərçuğunduru | 1,9 | 2,7 | 15 |
| Tütün | 0,04 | 1.0 | 2,1 |
| Barama | 0,03 | 0,2 | 0,6 |
| Çay | 0,04 | 0,3 | 0,7 |
| Meyvə | 1,2 | 6,6 | 55 |

**Nəqliyyat.** Çoxsaylı əhali və böyük ərazi, həm də məhsuldar qüvvələrin olduqca qeyri-bərabər yerləşməsi ilə fərqlənən Çin üçün nəqliyyatın xüsusilə böyük əhəmiyyəti vardır. Ərazisinin böyük hissəsini tutan dağlıq relyef, səhra və dağ-meşə rayonları quru yol nəqliyyatı üçün o qədər də əlverişli deyildir. Əsasən enlik istiqamətində axan çaylarının əksəriyyətinin aşağı hissələri, gölləri, Böyük kanal (uzunluğu 2000 km), həm də Çini əhatə edən dənizlər, demək olar ki, bütün il boyu gəmiçilik üçün yararlıdır.

İDM-dən əvvəlki Çində yalnız dənizsahili əyalətlər nisbətən sıx nəqliyyat şəbəkəsinə malik idi. Bu yollar dəniz portlarının xinterlandları ilə əlaqələrə xidmət edirdilər. Son illər ölkənin iqtisadiyyatının sürətli inkişafı yük dövriyyəsinin nəzərə çarpacaq dərəcədə artmasına səbəb olmuşdur. Yük daşımanın ümumi həcminə görə *avtomobil* (75%), yük dövriyyəsinə görə isə *dəniz nəqliyyatı* (ümumi yük dövriyyəsinin yarıya qədəri) başlıca yer tutur. Dəniz nəqliyatının rolunun artması ilk növbədə ölkənin «açıq qapı» siyasətinin aparılması və xarici ticarətin artması ilə əlaqədardır. Dəniz sahilindən uzaqda yerləşən və nəqliyyatın digər növlərinə malik olmayan rayonlarda avtomobil nəqliyyatı mühüm rol oynayır. «Açıq qapı» siyasətinin həyata keçirilməsi sayəsində dənizsahili bölgədə beynəlxalq əhəmiyyətli avtomobil magistralları çəkilmiş, həm də dəniz portllarının yük dövriyyəsi xeyli artmışdır. Xarici ticarət əməliyyatlarında 100-dən artıq portun iştirak etməsinə baxmayaraq, daşınan yüklərin 75%-i ölkənin 8 iri portundan (Şanxay, Quançjou, Ninbo, Dalyan, Tszinxuandao, Tyantszin, Tsindao, Çjantszyan) keçir.

Çinin şərq rayonları üçün, xüsusilə enlik istiqamətində yük daşınmasında *çay yollarının* olduqca böyük əhəmiyyəti vardır. Daxili su yollarının ümumi uzunluğu 110 min km-dir. Nəqliyyat vasitəsi

кimi Yantszı çayı mühüm rol oynayır. Ölкədə gəmiçiliк üçün yararlı su yollarının 65%-i, çay nəqliyyatı ilə daşınan ümumi yüкün 70, yüк dövriyyəsinin isə 80%-i Yantszı çay hövzəsinin üzərinə düşür. Çay üzərində Şanxay, Nanкin, Uxan və Çuntsin ən iri portlardır. Su yolları sistemində dənizsahilinə paralel olaraq Peкindən Xançjou şəhərinə qədər uzanan qədim Böyüк кanalın xüsusi əhəmiyyəti vardır.

*Dəmiryol nəqliyyatı* ölкə daxilində uzaq məsafələrə yüк daşımada başlıca rol oynayır. Yüк dövriyyəsinin 1/3-i, sərnişin daşınmasının isə təxminən yarısı dəmir yollarının payına düşür. Dəmir yollarının ümumi uzunluğu 55 min кm-dir. Bu da Çin кimi böyüк bir ölкə üçün azdır. 1000 кv кm əraziyə orta hesabla 5,7 кm dəmir yolu düşür. Bu göstərici əкsər ölкələrdəкindən, o cümlədən Hindistandaкından da azdır. Həm də dəmiryolu nəqliyyatında çəкici qüvvələrin tərкibi (80% paravoz və dizelevoz) və vəziyyəti müasir tələblərə cavab vermir. Yolların cəmi 15%-i eleкtriкləşdirilmişdir. Dəmir yolları olduqca qeyri-bərabər yerləşir. Onun təxminən 2/3 hissəsi Şimal-Şərqi və Şimali Çinin payına düşür. Ölкə ərazisinin 2/3 hissəsini tutan qərb rayonlarında isə cəmi bir dəmiyol xətti vardır. Dəmir yollarının uzunluğuna görə Birləşmiş Ştatlar, Rusiya, Hindistan və Kanadadan sonra beşinci yeri tutur.

Son illər *hava və boruкəməri nəqliyyat növləri* də inкişaf edir. Ənənəvi nəqliyyat növləri də (at-araba, yüк heyvanları, velosiped) mühüm əhəmiyyətini saxlayır.

**Xarici iqtisadi əlaqələr.** Böyüк Çin səddi ilə dünyanın digər regionlarından ayrılan çin cəmiyyəti intensiv xarici iqtisadi əlaqələrin yaradılmasına o qədər də təşəbbüs göstərmirdi. XVIII əsrə qədər Çinin xarici ticarəti müsbət saldoya maliк idi. Həmin dövrlərdə Çinin avropa məhsullarına tələbatına nisbətən Avropa ölкələrinin çin məhsullarına daha böyüк ehtiyacı var idi. Çinin ipəк parçaları, çini qabları və bəzəк əşyaları bütün dünyada yüкsəк qiymətlənirdi. Yalnız XIX əsrin iкinci yarısında, ingilis-çin (1840-42) və ingilis-fransız-çin (1856--60) müharibələrindən sonra Çin, xüsusilə onun sahil əyalətləri xarici кapital üçün açıq elan edilmiş və xarici ticarət güclənmişdir.

Ölкənin xarici ticarətinin strкuturu onun iqtisadi vəziyyətini daima əкs etdirmişdir. ÇXR-in yaranmasına qədər ölкə əsas etibarilə кənd təsərrüfatı və hasilat sənaye məhsulları ixrac edir, ərzaq, maşın və avdanlıq, metal, meşə materialları, pambıq və s. idxal edirdi. ÇXR-in yaranmasından sonra, 1950-ci illərdə ölкənin xarici iqtisadi əlaqələri SSRİ və Şərqi Avropa ölкələri ilə güclənmişdir. 1960-70-ci illər ərzində ölкənin xarici iqtisadi əlaqələri azalmış, həmin illərdə dünyada mövcud olan hər iкi iqtisadi sistemdən deməк olar кi, təcrid olunmuş halda inкişaf etmişdir. 1980-ci illərdən başlayaraq Çin «qapalı iqtisadiyyatdan açıq iqtisadiyyata» кeçmişdir. Bu da ölкədə xarici iqtisadi əlaqələrin müxtəlif formalarından geniş istifadə edilməsinə səbəb olmuşdur. Xarici iqtisadi əlaqələr sistemində xüsusilə,

ticarət mərkəzi yer tutur. XXI əsrin başlanğıcında xarici ticarət dövriyyəsinin həcmi 0,4 trln. dollara çatmışdır. İslahat dövründən başlayaraq (1978) ölkənin xarici ticarət dövriyyəsinin ortaillik artım sürəti 16% təşkil etmişdir. Bu da dünya ticarət dövriyyəsinin, həm də Çinin ÜDM-nun ortaillik artım sürətindən iki dəfə yüksəkdir. İndi Çinin ixracatının həcmi ölkənin ÜDM dəyərinin təqribən 20%-ni (1980-ci ildə 7%) təşkil edir. Bu da Birləşmiş Ştatların, həm də «Yeddilər» qrupuna daxil olan digər ölkələrin müvafiq göstəricisindən böyükdür.

Ölkənin iqtisadi inkişafında xarici ticarətin əhəmiyyəti getdikcə artır. İxracatının strukturunda hazır məhsulların payı sürətlə artır və XXI əsrin başlanğıcında 80%-i ötüb keçmişdir (1970-ci ildə cəmi 20%). Dünya bazarında Çin əməktutumlu məhsul ixracatçısı piştaxtasını tutmuşudr (ixracat məhsullarının 75%-i). Ölkədə işçi qüvvəsinin ucuzluğu ilə əlaqədar çin məhsulları dünya bazarında müvəffəqiyyətlə rəqabət apara bilir. İxracatında paltar və toxuculuq məmulatları (ümumi ixracat dəyərinin 30%-i), oyuncaq, ayaqqabı, idman və turist malları başlıca yer tutur. Ucuzluğu ilə əlaqədar dünya bazarında, o cümlədən respublikamızda bu məhsullara böyük tələbat var. İxracatında ikinci yeri (dəyərinə görə) maşın və avdanlıqlar tutur (25%). Son illər dünya bazarına o qədər də mürəkkəb olmayan çin elektron məhsulları (maqnitofon, televizor və s.) çıxarılır. İxracatının strukturunda xammalın xüsusi çəkisinin azalması ilk növbədə onun maya dəyərinin və daxili bazarda bu məhsullara (neft, kömür, qara və əlvan metallar, ipək, pambıq və s.) tələbatın artması ilə izah olunur.

*İdxalatında* müxtəlif maşın və avadanlıqlar, eletron məhsulları, nəqliyyat vasitələri, kimya məhsulları (idxalat dəyərinin yarıdan çoxu) başlıca yer tutur. Son illər iqtisadiyyatın sürətli inkişafı ilə əlaqədar daxili hasilat xammal ilə ölkə tələbatını ödəmir. Ona görə də idxalatda sənaye xammalı, yarımfabrikatlar, qara metal, neft və neft məhsullarının payı artır.

Çin demək olar ki, dünyanın bütün ölkələri ilə ticarət edir. Lakin xarici ticarət dövriyyəsinin yarıdan çoxu Yaponiya, Syanqan, Koreya Respublikası və Birləşmiş Ştatların üzərinə düşür. Ümumiyyətlə islahat illərində Çinin ticarət ortaqlarının müəyyən qrupları yaranmışdır. Bunlara ATR ölkələri (Yaponiya, Syanqan, Tayvan, KR, Sinqapur), Birləşmiş Ştatlar və Aİ ölkələri (xüsusilə AFR) və RF aiddir. Çinin ticarət dövriyyəsinin 2/3-dən artığı bu qrup ölkələrin üzərinə düşür. Bütövlükdə ölkənin ticarət balansı müsbət saldoya malikdir.

2000-2010-cu illər ərzində Çinin xarici ticarət dövriyyəsinin ortaillik artım sürəti 8,5-9% proqnozlaşdırır. İdxalat və ixracat əsas etibarilə balanslaşdırılacaqdır. 2010-2030-cu illərdə dövriyyənin ortaillik artım sürəti 8% təşkil edəcək, müsbət və mənfi ticarət balansı

saldosu bir-birini əvəz edəcək. 2040-2050-ci illər ərzində isə xarici ticarət dövriyyəsinin artım sürəti bir qədər azalacaq və 7,2-7%-ə çatacaq və ticarət balansında müsbət saldo artacaq. XXI əsrin ortalarında Çinin xarici ticarət dövriyyəsinin 20 trln. dollara çatması, yəni onun 50 dəfə artması gözlənilir.

XX əsrin 90-cı illərindən başlayaraq iqtisadi əlaqələrin ən dinamik forması xarici investisiyanın ölkəyə cəlb edilməsidir. Xarici sərmayanın illik cəlb edilməsinə görə (kreditlər ilə birlikdə ümumi həcmi 100 mlrd.dollar) Çin yalnız Birləşmiş Ştatlardan geridə qalır. İslahat illərində ölkədə toplanan xarici investisiyanın ümumi həcmi təqribən 1trln. dollara çatmış və bu göstərici artmaqda davam edir. XXI əsrin başlanğıcında xarici investisiyanın iştirakı ilə təqribən 300 min müəssisə qeydə alınmış və artıq onların yarısı fəaliyyət göstərir.

Ölkədə yaradılan müştərək müəssisələr xarici ticarətin artmasında mühüm rol oynayırlar. İxracatın 30%-i, idxalatın isə 40%-dən artığı bu müəssisələrin üzərinə düşür. Lakin sənaye istehsalında onların payı çox da böyük deyil (cəmi 15%). Belə müəssisələr iqtisadiyyatın müxtəlif dairələrində; maddi istehsal, infrastruktur, ticarət, mehmanxana təsərrüfatlarında və s. yaradılır.

Çində fəaliyyət göstərən dünyanın 100-dən artıq investor ölkəsi arasında Syanqan, Tayvan, Yaponiya, Birləşmiş Ştatlar və Sinqapur başlıca yer tuturlar. İnvestisiyanın əsas hissəsi (4/5-ü) ölkənin dənizsahili bölgələrində, xüsusilə Quandun əyalətində, mərkəzi tabeçilik statusuna malik olan şəhərlərdə (Şanxay, Pekin və b.) təmərküzləşmişdir.

XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Çinin xarici ölkələrdə (o cümlədən respublikamızda) investisiya əməliyyatları fəallaşmışdır. Ölkənin ilk TMK-sı, dünyanın 15 ölkəsində filalı olan «Şouqan» metallurgiya kombinatıdır.

## §5. Azad iqtisadi zonalar

XX əsrin 60-cı illərindən 80-ci illərinə qədər çin iqtisadiyyatının geriliyi və aşağı faydalığı açıq-aydın görünürdü. Həmin dövrdə ölkə rəhbərlərinin seçdiyi iqtisadi inkişaf yolları özünü doğrultmamış, əksinə ölkənin iqtisadiyyatını sarsıtmış və əhalinin güzaranını xeyli aşağı salmışdır. Belə vəziyyətdən çıxmaq üçün təcili olaraq yeni qərarların qəbul edilməsi və əsaslı islahatların həyata keçirilməsi zəruri idi. Belə qərarlardan biri iqtisadi inkişafın «qapalı» modelindən daha «açıq» modelinə keçid idi. Təbii ki, ölkənin bütün təsərrüfatını birdən birə «açıq» yola keçirmək qeyri-mümkün idi. Ona görə də bu məqsəd üçün ölkənin şərq və cənub dənizsahili hissələrində ayrı-ayrı azad iqtisadi zonalar seçilmişdir. İlk belə zona 1980-ci ildə yaradıl-

mışdır. İndi Çində açıq ərazilərin sistemi yaranmışdır. Bu zonaların yaradılmasında Çin Asiyanın digər ölkə və ərazilərinin (KR, Malayziya, İndoneziya, Sinqapur, Tayvan, Syanqan, Makao) təcrübələrindən istifadə etmişdir.




**Şəkil 22. Çində xüsusi iqtisadi zonalar və "açıq portlar"**

◉ Xüsusi iqtisadi zonalar
◑ "Açıq portlar"
— Dəmir yolları

AİZ-ların yaradılmasında əsas məqsəd aşağıdakılardan; 1) Xarici sərmaya axınının həvəsləndirilməsi, qabaqcıl texnika və texnologiyanın, əsas etibarı ilə elmtutumlu sənaye sahələrinin və müasir infrastrukturun yaradılması; 2) beynəlxalq əmək bölgüsündə ölkənin daha fəal iştirak etməsinin təmin edilməsi; 3) Çinin digər ərazilərində müasir istehsalın fəaliyyəti və idarə edilməsi üçün AİZ-ların qabaqcıl təcrübələrindən istifadə edilməsi; 4) AİZ-larda sosial-iqtisadi şəraitin YSÖ-lər səviyyəsinə qaldırılması; 5) AİZ-larda Çinin bol və ucuz işçi qüvvəsindən fəal istifadə edilməsindən ibarətdir.

AİZ-lar digər ərazilərdən aşağıdakı əlamətləri ilə:

1) Bir sıra məsələlərin həyata keçirilməsində (xarici kapitalın iştirakı ilə müştərək müəssisələrin yaradılması, gəlir vergisinin ödənilməsində xarici investorlara müəyyən güzəştlər, xarici ticarət fəaliyyətində sərbəstlik və s.) mərkəzi hökumət tərəfindən yerli hakimiyyətə muxtariyyətlik verilməsi; 2) əlverişli İCM-yə malik olmaları, xüsusilə dəniz sahilində, dünya bazarı ilə daha yaxşı əlaqəsi olan ərazilərdə yerləşmələri; 3) ilk növbədə xarici sahibkarların işçi qüvvəsi və xammal ilə təmin olunmaları; 4) işgüzarlar, xüsusilə xarici şirkətlər üçün əlverişli şəraitin yaradılması və infrastruktur ilə daha yaxşı təmin olunmaları; 5) xarici şirkət və müştərək müəssisələrin sərbəst, heç bir rüsum vermədən bura sənaye

xammalı və yarımfabrikatlar gətirə bilmələri, emaldan sonra isə maneəsiz olaraq hazır məhsulları xarici bazara çıxara bilmələri ilə fərqlənirlər. AİZ-larda xarici müəssisələr üçün gəlir vergisi cəmi 5% təşkil edir. Bir sözlə, AİZ-lər xüsusi qayda-qanun ilə iqtisadi «vahələrdir». AİZ-ləri həm də yeni texnologiya və istehsal metodlarını inkişafda olan ölkəyə sorub çəkən «tozsoran» ilə müqayisə edirlər. Bu zonaların yerləşdiyi ərazilər Çinin ən inkişaf etmiş bölgələrinə çevrilirlər. Sosial-iqtisadi inkişaf səviyyələrinə görə (əhalinin adambaşına düşən gəlirə görə) daha inkişaf etmiş dənizsahili əyalətlər (Lyaonin, Quandun və b.) və xüsusi inzibati tabelikdə olan şəhərlər ilə (Şanxay,Pekin və b.) ölkənin daxili hissələri (Tibet, Sintszyan, Qansu və b.) arasında əhəmiyyətli dərəcədə fərq (10 dəfədən də artıq) yaranmışdır.

Çində ərazisinin ölçüsünə, sosial-iqtisadi inkişaf səviyyəsinə, həm də hüquqi statusuna görə AİZ-ların üç tipi mövcuddur. Onlardan birincisi, xüsusi iqtisadi zonalardır; ikincisi, açıq portlardır; üçüncüsü, iqtisadi və texnoloji cəhətdən inkişaf etmiş bölgələrdir.

Çində daha açıqlığı və sərbəstliyi ilə səciyyələnən 5 xüsusi iqtisadi zona fəaliyyət göstərir. Bu zonaların üçü, Şençjen (327,5 kv km), Çjuxay (15,2) və Şantou (52,6) Quandun, dördüncüsü Syamen (131) isə Fuszyan əyalətində yerləşir. Bu zonaların dördü də 1980-ci ildə, beşinci AİZ isə 1988-ci ildə Cənubi Çin dənizində yerləşən Taynan adasında (əyalətində) yaradılmışdır. Xəritədə aydın görünür ki, AİZ-lərdən birincisi Syanqanın, ikincisi Aomının yaxınlığında, üçüncü və dördüncüsü isə Tayvan ilə üzbəüz yerləşir. Bu dörd xüsusi iqtisadi zona yarandıqları gündən iqtisadi və texnoloji cəhətdən sürətlə inkişaf etmiş, böyük məbləğdə xarici sərmayanı özünə cəlb edə bilmişdir. Onların ərazilərində minlərlə xarici və müştərək müəssisələr yerləşdirilmişdir.

AİZ-ların əldə etdikləri nailiyyətləri daha ətraflı işıqlandırmaq üçün bu xüsusi zonalardan adətən Şençjeni misal gətirirlər. XX əsrin 70-ci illərinin axırlarında Şençjen 6-7 min sakini və yeganə beş mərtəbəli binası ilə geri qalmış ucqar qəsəbə idi. İndi Şençjen müasir göydələnləri, 300-ə qədər mehmanxanası, sürətli avtomobil magistralları, beynəlxalq aeroportu, iri dəniz portu, universitetləri və s. ilə milyonçu şəhərdir. Şəhərdə sənaye məhsulları istehsalı (yapon firması «Soni»nin lisenziyası ilə televizor, fərdi kompüter və s.) 1980-2000-ci illər ərzində 1000 dəfəyə qədər artmışdır. Müxtəlif ölkələrin investorları tərəfindən yaradılan mindən artıq müştərək müəssisə fəaliyyət göstərir. Burada əmək haqqı ölkənin digər bölgələrinə nisbətən bir neçə dəfə çoxdur. Şençjen xüsusilə Syanqan işgüzarlarını daha çox cəlb edir. Çünki Syanqana nisbətən burada torpaq rentası, işçi qüvvəsi xeyli ucuzdur. Onları həm də gəlir vergisinin aşağı tarifi də cəlb edir. Bütün bunlarla yanaşı coğrafi amillər də əhəmiyyətli rol oynayır. Şenjendən Syanqanın materik hissəsinə qədər (Koulun yarıma-

dası) məsafə cəmi 32 km-dir. Hər iki şəhər avtomobil və dəmir yolları ilə birləşir. Onların arasında həm də dəniz bərələri və sualtı qanadı ilə gəmilər işləyir. Çin mütəxəssislərinin rəyinə görə gələcəkdə Şençjen zonası və Syanqan vahid iqtisadi bölgəyə və ölkənin daxili rayonlarının iqtisadi inkişafının «lokomotivinə» çevriləcək. Eyni ilə bunları Çjuxay zonası və Aomın xüsusi inzibati vahid barədə demək olar.

Çin imperiyaları dövründə təqribən Tayvanın ərazisinə bərabər olan Xaynan adası (34 min kv km) sürgün yeri kimi istifadə edilirdi. Xalq hakimiyyəti dövründə ada uzun müddət zəif inkişaf etmiş və ölkənin geri qalmış bölgələrindən biri idi. Sənaye demək olar ki, yox idi, əlverişli aqroiqlim resursları isə zəif istifadə edilirdi. Adanın AİZ-ya çevrilməsindən sonra kauçuk plantasiyaları genişləndirilmiş, qəhvə, banan, araxis, ananas ixracatı əhəmiyyətli dərəcədə artmışdır. Turizm təsərrüfatı sürətlə inkişaf edir. Yəqin ki, navaxt isə bu ada da sosial-iqtisadi inkişaf səviyyəsinə görə Tayvan adasına çatacaq.

Ümumiyyətlə xüsusi iqtisadi zonalar «dövlət içərisində dövlət» kimi təmsil olunurlar. Məsələn, Şençjen zonasının bütün ərazisinin ətrafına tikanlı məftillə yüksək hasar çəkilmişdir. Bu zonaya keçmək üçün xüsusi icazə verilməlidir.

Açıq zona sisteminə həm də 1984-cü ildə Sarı, Şərqi və Cənubi Çin dənizləri sahillərində yerləşən 14 port daxildir. AİZ-lərdən fərqli olaraq bu şəhər-portların muxtariyyətliyi məhduddur. Bununla yanaşı bu şəhər portlara da iqtisadi siyasətin aparılmasına, xüsusilə xarici sərmayanın cəlb edilməsi üçün müəyyən sərbəstlik verilir. "Açıq" elan edilən portlarda xarici kapitala müəyyən güzəştlər edilir (vergi azaldılır, yaxud tamamilə vergidən azad edilir, xammal və fəhlə qüvvəsi ilə təmin olunur və s.).

Çin ölçüsünə görə bu port şəhərlər daha yüksək inkişaf etmişlər. Ölkənin ümumi sənaye məhsulları istehsalının 25%-i, ixracatının 40, dəniz yük dövriyyəsinin isə demək olar ki, 100%-i bu şəhər portların üzərinə düşür. Açıq qapı siyasətinin həyata keçirilməsində dörd şəhər-porta (Şanxay, Dalyan, Tyanszin, Quançjou) daha böyük səlahiyyət verilmişdir.

Bir qayda olaraq bu portlarda da bir sıra əlamətlərinə görə AİZ-ləri xatırladan texniki-iqtisadi inkişaf bölgələri (TİİB) yaradılmışdır. Məsələn, Dalyanda TİİB-in yaranmasına onun əlverişli İCM-yi, xüsusilə Yaponiyaya yaxınlığı, transasiya yollarında mövqeyi, Şimal-Şərqi Çində başlıca port vəzifəsinin yerinə yetirməsi təsir etmişdir. Belə TİİB-lər Ninbo, Fuçjou, Syamen və digər portlarda da yaradılmışdır.

1990-cı ildə Şanxayın şərq hissəsində yaradılan Pudun zonasının (sahəsi 523 kv km.əhalisi 1,6 mln.nəfər) iqtisadi potensialı sürətlə artır. Burada da xarici investorlarla birlikdə yüzlərlə müəssisə yaradılmış, infrastruktura sahələri genişləndirilmiş, o cümlədən yeni iri port tikilmişdir. Zonanın əsas ticarət ortaqları Yaponiya, Birləş-

miş Ştatlar, Aİ ölkələri və Syanqandır. Bu zona Şanxay iqdisadi bölgəsinin daha sürətlə inkişaf etməsində əhəmiyyətli rol oynayır. Şanxay artıq ASR-də ən iri ticarət və maliyyə mərkəzlərindən birinə çevrilmişdir.

Ölkənin digər bölgələrində də AİZ-ların yaradılması prosesi davam edir. Bu zonalar xarici kapitalın iştirakı ilə kənd təsərrüfatı məhsullarının istehsalı və ixracatı üzrə ixtisaslaşdırılır. İndi Çinin şərq hissəsində yaradılan «açıq» zonalarda demək olar ki, 200 milyondan artıq insan yaşayır və bu bölgələr beynəlxalq coğrafi əmək bölgüsü sisteminə getdikcə daha çox cəlb olunurlar. Bu zonaların hər biri xarici bazara səmtləşən iqtisadiyyatın inkişafında, valyuta gəlirinin artırılması, xaricdən qabaqcıl texnika və texnologiyanın idxal edilməsində «pəncərə» və vasitəçi rolu oynayır. Açıq iqtisadiyyat siyasətinin aparılmasının müsbət nəticələri göz qabağındadır. 2000-ci ildə əhalinin adambaşına düşən ÜDM 1980-ci ilə nisbətən dörd dəfəyə qədər artmışdır. Nəzərdə tutulan proqrama görə 2010-cu ildə bu göstərici 2000-ci ilə nisbətən iki dəfə artacaqdır.

## §6. Ətraf mühitin vəziyyəti və mühafizəsi

Hələ XVIII əsr və XIX əsrin birinci yarısında ölkədə əhalinin sürətlə artması ilə əlaqədar təbiətə demoqrafik təzyiq kəskin surətdə güclənmişdir. Bu dövr ərzində quraqlıq illərin sayı 1,5 dəfə, daşqınlar isə 8 dəfədən çox artmışdır.

Xüsusilə Xuanxe çayı hövzəsində tez-tez fəlakətli daşqınlar baş verir. Bu da on minlərlə insanın həlak olmasına və hövzənin iqtisadiyyatının sarsılmasına səbəb olur. Lyoss yaylasının şumlanması və leysan yağışlar yaylanın narın torpaqlarının asanlıqla yuyulub aparılmasına səbəb olur. Hər il Xuanxe çayı buradan 1,6 mlrd.t lyoss daşıyır. Onun əhəmiyyətli hissəsi çayın yatağına çökür və ildə təqribən 10 sm onun qalxmasına səbəb olur. Ona görə də Xuanxe çayının yatağı ətraf yerlərdən hündürdə (Tzinan şəhəri ətrafında 10 metrdən çox) yerləşir və çayın hər iki tərəfi güclü bəndlərlə çəpərlənir. Xuanxeni «torpaq üzərində asılan çay» adlandırırlar. Ona görə də son 4 min il ərzində çayın aşağı axarlarında bəndin 1,5 min dəfədən çox dağılması təəccüb doğurmur. Bu dövr ərzində çay 20 dəfədən çox yatağını dəyişdirmiş, gah Bohay körfəzinə (indi olduğu kimi), gah birbaşa Sarı dənizə (Şandun yarımadasından cənubda), hətda Şərqi-Çin dənizinə (indiki Yantszı çayının mənsəbi ətrafında) tökülür. Nəticədə 10 milyonlarla insan həlak olmuşdur.

1949-cu ildə ÇXR-nın yaranması dövründə ölkənin təbiətinin ümumi vəziyyəti acınacaqlı idi. Ölkə ərazisinin cəmi 8-9%-ni meşə sahələri təşkil edirdi. Tez-tez təbii fəlakətlər baş verirdi. Xalq haki-

miyyətinin ilк illərində təbiətin mühafizəsi üzrə bir sıra tədbirlər görüldü (meşə sahələrin bərpası və s.). Laкin əhalinin sürətlə artması ilə əlaqədar təbiətə təzyiq güclənirdi, əhalinin hər nəfərinə düşən torpaq sahələri azalırdı. Xüsusilə «böyüк sıçrayış» və «mədəni inqilab» dövrlərində ölкənin təbiətinə böyüк ziyan dəymişdir. Bu dövrdə ərzaq probleminin tezliкlə həll edilməsi məqsədilə «taxıl əsasların əsasıdır» şüarı irəli sürülmüşdür. Buna müvafiq olaraq Şimal-Qərb və Daxili Monqolustan çöllərinin million heкtarlarla otlaq sahələri taxıl yetişdirilməsi üçün şumlanmış, əкin sahələrinin genişləndirilməsi üçün meşələrdən təmizlənmə işləri aparılmışdır. Hər yerdə, hətta Yantszı və Xuanxe çaylarının yuxarı axarlarında ağaclar doğranmış, 20 il ərzində Xaynan adasının tropiк meşələrinin 3/4 hissəsi məhf edilmişdir. Həmin dövrdə Peкin ətrafında yaşayan кəndlilərdən ildə iкi dəfə buğda yetişdirsi tələb olunurdu. Burada isə buğdanın yetişməsi üçün 8-9 ay vaxt lazım idi. Bütün bu tədbirlər ölкədə eкoloji tarazlığın pozulmasına, torpaqların кorlanmasına, səhraşmaya, təbii fəlaкətə meyilli ərazilərin genişlənməsinə səbəb olmuşdur.

Ölкədə yalnız 1980-ci illərin əvvəllərindən başlayaraq ətraf mühitin mühafizəsi üzrə ciddi tədbirlər görülmüşdür (su resurslarının, atmosferin çirкlənməsinin mühafizəsi və s. üzrə). Bu da eкoloji vəziyyəti bir qədər sabitləşdirmişdir. Laкin eкoloji problemlər qalmaqda davam edir. Xüsusilə təbii resurslar, o cümlədən əкin üçün yararlı torpaq sahələri tədricən azalır:

Əvvəla, torpaq sahələri getdiкcə daha çox su və кüləк eroziyasına məruz qalır;

İкincisi, yeraltı suların həddən çox istifadəsi və suvarmanın düzgün aparılmaması sayəsində şoranlaşmış torpaq sahələri artır.

Üçüncüsü, həddən artıq şumlama və mal-qaranın otarılması sayəsində səhralaşma getdiкcə artır;

Dördüncüsü, torpaq resurslarına əvvəlкi кimi daşqınlar böyüк ziyan vurur;

Beşincisi, əкin sahələri sənaye tüllantıları ilə çirкlənir;

Nəhayət, altıncısı, əкin sahələri nəqliyyat, sənaye, şəhər tiкililəri və s. ilə tutulur.

Ölкədə hər il yalnız sənayedən su hövzələrinə 25 mlrd.t çirкab sular töкülür. Nəticədə ölкənin əкsər çaylarının suyu içməк və balıq yetişdirməк üçün yararsızdır. Şəhər ətrafında yeraltı sular, dəniz aкvatoriyaları, xüsusilə Sarı dənizin кörfəzləri neft və digər sənaye tullantıları ilə çirкlənmişdir. Qərb ölкələrində atmosferi çirкləndirən başlıca sahə avtomobil nəqliyyatıdırsa, Çində isə bu, ilк növbədə кömürlə işləyən İES-lər, parovozlar və digər sənaye sahələridir. Küкürd və azotun atmosferə tullanması ilə əlaqədar Şanxay və xüsusilə Yantszı hövzəsində yerləşən şəhərlərə daha tez-tez turş yağışlar yağır.

Çin ÜDM-un 0,7%-ni ətraf mühitin mühafizəsinə ayırır. Eкoloji vəziyyətə nəzarət edən 2,2 min stansiyada 100 minə qədər insan

çalışır. Yalnız bir ilin ərzində ətraf mühiti həddən çox çirkləndirən 60 minə qədər müəssisə sökülmüş, bağlanmış ya da fəaliyyəti dayandırılmışdır. Son illər Çin hökuməti, xüsusilə meşələrin bərpası üzrə ciddi tədbirlər görür. Hər il ölkədə 1,5 mln hektar meşə salınır. Ölkənin şimal hissəsində uzunluğu 1,5 min km və eni 12 km olan meşə zolağı salınmışdır. Bu işdə milyona qədər kəndli iştirak etmiş və onu «Böyük yaşıl sədd» adlandırırlar. Bunun sayəsində Çində ümumi meşə sahəsi 20%-ə çatmışdır. Xuanxe və digər çaylarda daşqınların qarşısını almaq üçün böyük işlər aparılır. Həyata keçirilən tədbirlərin nəticəsində şəhərlərdə havanın vəziyyəti bir qədər yaxşılaşmış, qoruqların sayı artmış və indi ölkə ərazisinin 1,7%-ni təşkil edir. Ölkədə əhalinin ekoloji tərbiyyəsi ilə bağlı böyük işlər görülür. Bu gün demək olar ki, əksər əyalətlərdə təbiətin mühafizəsi ilə bağlı irimiqyaslı proqramlar həyata keçirilir. Çin xalqı əmindir ki, ölkənin iqtisadi qüdrətinin durmadan artması sahəsində əldə edilən uğurlar ölkənin ekoloji təhlükəsizliyinin təmin edilməsi ilə müşayiət ediləcəkdir. Onlar yaxşı dərk dirlər ki, heç bir dövlət düzgün ekoloji siyasət yerinə yetirmədən sabit inkişafa nail ola bilməz.

## §7. İqtisadi bölgələri

Çində təsərrüfat və əhalinin qeyri-bərabər yerləşməsi kəskin surətdə nəzərə çarpır. Xalq inqilabından sonra ölkənin qərb rayonları daxilində iri sənaye obyektlərinin tikilməsinə baxmayaraq sənaye və kənd təsərrüfatı müəssisələri və eləcə də əhalinin böyük hissəsi ölkənin şərqində cəmləşmişdir. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə (əhalinin adambaşına düşən milli gəlir göstəricisinə görə) daha inkişaf etmiş dənizsahili əyalətlər (Lyaonin, Quandun və b.) və xüsusi inzibati tabelikdə olan şəhərlər ilə (Şanxay, Pekin və b.) ölkənin daxili hissələri (Tibet, Qansu, Sintszyan və b.) arasında kəskin fərqlər (10 dəfədən də artıq) yaranmışdır. Coğrafi ümumilik əlamətlərinə, iqtisadi inkişaf xüsusiyyətlərinə və səviyyəsinə, təsərrüfat strukturunun mürəkkəbliyinə və rayonlararası əmək bölgüsündə ixtisaslaşmaya görə Çinin ərazisində üç iri bölgə-iqtisadi cəhətdən inkişaf etmiş Şərq; son illər iqtisadiyyatı sürətlə artan, orta inkişaf etmiş Mərkəz və zəif inkişaf etmiş Qərb bölgələrini ayırmaq olar.

Cədvəl № 23

## Çin regionlarının sahəsi, əhalisi və bazarda payı

| Regionlar | Əyalətlər | İnzibati mərkəzi | Sahəsi min km² | Əhalisi mln.nəf. | Bazar da payı %-lə |
|---|---|---|---|---|---|
| Şimali Çin | Pekin (MTŞ) | Pekin | 16,8 | 13 | 3,10 |
| | Tyantszin (MTŞ) | Tyantszin | 11,3 | 10 | 2,60 |
| | Xebey | Şitszyaçjuan | 190 | 70 | 3,92 |
| | Şansi | Tayuan | 156 | 35 | 1,72 |
| | DMMR | Xux-Xoto | 1183 | 25 | 1,07 |
| Şimal-Şərqi Çin | Lyaonin | Şenyan | 145,7 | 45 | 6,35 |
| | Tszilin | Çançun | 187 | 28 | 2,11 |
| | Xeyluntszyan | Xarbin | 469 | 40 | 3,16 |
| Şərqi Çin | Şanxay(MTŞ) | Şanxay | 6,2 | 18 | 7,63 |
| | Şandun | Tszinan | 153 | 98 | 8,39 |
| | Tszyansu | Nankin | 102,6 | 80 | 11,42 |
| | Çjentszyan | Xançjou | 101,8 | 47 | 6,22 |
| | Anxoy | Xefey | 139 | 69 | 2,91 |
| | Tszyansi | Nançan | 166 | 48 | 1,70 |
| | Futszyan | Fuçjou | 120 | 37 | 2,52 |
| | Tayvan | Taybey | 36 | 25 | |
| Cənubi və Mərkəzi Çin | Quandun | Quançjou | 186 | 78 | 11,38 |
| | Syanqan (XİR) | Syanqan | 1,1 | 7 | ----- |
| | QÇMR | Nanni | 236,3 | 49 | 1,79 |
| | Aomın (XİR) | Aomın | 0,024 | 0,5 | 0,27 |
| | Xaynan | Xakou | 34 | 8 | ----- |
| | Xenan | Çjençjou | 167 | 102 | 3,83 |
| | Xubey | Uxan | 187,4 | 67 | 3,99 |
| | Xunan | Çanşa | 210 | 70 | 2,64 |
| Cənub-Qərbi Çin | Sıçuan | Çendu | 488 | 90 | 4,60 |
| | Çunsin(MTŞ) | Çuntsin | 82 | 34 | ----- |
| | Quyçjou | Quyyan | 170 | 39 | 0,80 |
| | Yunnan | Kunmin | 394 | 46 | 1,70 |
| | Tibet MR | lxasa | 1220 | 2,5 | 0,01 |
| Şimal-Qərbi Çin | Şensi | Sian | 205 | 39 | 1,54 |
| | Qansu | Lançjou | 450 | 28 | 1,12 |
| | Tsinxay | Sinin | 720 | 5 | 0,24 |
| | SUMR | Urumçi | 1600 | 18 | 0,92 |
| | NXMR | İnçuan | 66,4 | 5,5 | 0,24 |

**MTS – Mərkəzi tabelikdə olan şəhərlər.**
**XİR – Xüsusi inzibati rayonlar.**

Son illər *Şərq və Mərкəz bölgələrinin* sürətli inкişafı AİZ-lərin yaradılması və onların dənizsahili ərazilərində 14 portun "açıq" elan edilməsi ilə, həm də Honкonq və Maкaonun Mərкəz bölgəsinin tərкibinə qatılması ilə bağlıdır.

*Qərb* bölgəsinin iqtisadiyyatında eкstensiv кənd təsərrüfatı və hasilat sənayesi üstünlüк təşкil edir. Çin höкüməti seyrəк məsкunlaşmış və zəif mənimsənilmiş bu bölgədə yerli xammalın ilкin emalı üzrə sənaye sahələrinin inкişaf etdirilməsinə böyüк səylə çalışır.

**Şərq bölgəsinin** daxilində Şimal-Şərq və Cənub- Şərq rayonlarını ayırmaq olar.

*Şimal-Şərq rayonu (çinlilər Dunbey adlandırırlar, əvvəllər Mancuriya adlanırdı).* Rayonun tərкibinə Lyaonin, Xeyluntszyan və Qrin (Tszilin) əyalətləri daxildir. Əhalisi 120 mln.nəfərdən artıqdır. Ölкədə ixtisaslı кadrların yüкsəк xüsusi çəкisi ilə fərqlənir. Əhalinin əкsəriyyəti Lyaonin əyalətinin ovalıq hissəsində (yarımadada) cəmləşmişdir. Burada orta sıxlıq 1 кv кm-də 300-400 nəfərə çatır. Meşə, meşə-çöl və çöl zonalırında yerləşən bu rayon müxtəlif təbii şəraitə və və resurslara maliкdir. Lyaoxe və Nuntszyan çayları boyu ovalıqlar qaratorpaq massivlərdir. Digər dənizsahili rayonlardan fərqli olaraq Dunbeyin sənaye sahələri daha çox yerli resurslara əsaslanır. Neft (Datsin), daş кömür (Fuşun, Fusin, Xeqan), yanar şist (Xuançjan), dəmir və başqa metal filiz yataqları (Anışan) əsasında rayonda güclü yanacaq- energetiкa və metallurgiya- maşınqayırma кompleкsi yaranmışdır. Ağır sənayenin əsas hissəsi Şenyan, Xarbin, Dalyan və başqa iri şəhərlərdədir. Rayonda ağır sənaye ilə yanaşı yerli кənd təsərrüfatı xammalı emal edən yeyinti sənaye sahəsi də yüкsəк inкişaf etmişdi. Ölкənin digər rayonlarına nisbətən burada müasir aqrotexniкi qaydalar və mineral кübrələr daha geniş tətbiq edilir. Rayon taxıl (darı, qarğıdalı, buğda, çəltiк) və texniкi bitкilər (soya, araxis, tütün) istehsalına görə ölкədə mühüm yer tutur. Texniкi bitкilər yüкsəк əmtəəliк xaraкteri daşıyır. Şimal-Şərqin sıx yol, xüsusilə dəmiryol şəbəкəsi onun inкişafına şərait yaradır. Rayonun «dəniz darvazası» ölкədə daha yaxşı təchiz edilmiş Dalyan portudur.

*Cənub-Şərq rayonu.* Rayonun tərкibinə *Şandun, Tszyansu, Anxoy, Çjentszyan, Tszyansi və Futtszyan* əyalətləri daxildir. Əhalinin yüкsəк sıxlığı və əlverişli aqroiqlim şəraiti əməкtutumlu кənd təsərrüfatı sahələrinin (pambıq) inкişafına səbəb olmuşdur. Sənaye кompleкsi (metallurgiya, maşınqayırma, кimya məhsulları istehsalı) yerli faydalı qazıntı ehtiyatları (кömür, neft, boкsit, tiкinti materialları) əsasında yaranmışdır. Кənd təsərrüfatı xammalı emalı (yeyinti və toxuculuq sənayesi) inкişaf etmişdir.

Böyüк Çin düzənliyinin bir hissəsini və Şandun yarımadasını tutan Şandun əyalətinin təsərrüfatı həm Şimali həm də Şərqi Çinin

iqtisadi əlamətlərini xatırladır. Əyalətdə yerli təbii resursların istifadəsi əsasında iri sənaye kompleksi yaranmışdır.

Rayonun Tszyansu, Çjetszyan, Anxoy əyalətləri daha sıx məskunlaşmışdır və əhalinin orta sıxlığı 1 km²-də 500 nəfərə çatır. Şərqi-Çin dənizi sahili boyunca uzanan ərazisinin böyük hissəsi ovalıqdır. Dənizsahili zonalar balıq və digər dəniz məhsulları ilə zəngindir. Ərazisinin xeyli hissəsi məhsuldar torpaqlara, sıx çay şəbəkəsinə, bir çox suvarma və gəmiçilik üçün yararlı kanallara malikdir. Hər üç əyalət faydalı qazıntılarla kasaddır. Kənd təsərrüfatı məhsullarının, xüsusilə çəltik və buğda, texniki bitkilərdən pambıq istehsalına görə ölkədə böyük rol oynayır; həm də yer fındığı (araxis), çay və tütün becərilir; təbii ipək istehsalına görə ölkədə birinci yer tutur. Kənd təsərrüfatı bitkiləri istehsalının müxtəlifliyi ilə əlaqədar bu rayon Çinin inkişaf etmiş ən iri və çoxsahəli yeyinti və yüngül sənaye mərkəzinə çevrilmişdir. Yeyinti və yüngül sənaye müəssisələri rayonun hər yerinə yayılmışdır. Bu müəssisələrdə həm yerli, həm də idxal xammal emal edilir.

Rayonun başlıca sənaye müəssisələri Şanxay-Xançjou-Nankin dənizsahili üçbucağında cəmləşmişdir. Bu üçbucaqda digər rayonlardan gətirilən xammal və yarımfabrikatlar əsasında müasir maşınqayırma və kimya məhsulları istehsal edilir. Rayonun özəyi çay mənsəbinin 50 kilometrliyində yerləşən Şanxay şəhəridir. Şəhərin güclü ETTKİ üzrə bazası burada yeni, daha mürəkkəb və elmtutumlu istehsalın yaradılmasına imkan verir. Dünyanın ən iri toxuculuq şəhərlərindən biri olan Şanxayda, indi elmtutumlu maşınqayırmanın ən müasir sahələri sürətlə inkişaf edir. Həm də iqtisadi inkişaf üçün «açıq şəhər» olan Şanxay getdikcə daha çox xarici kapital cəlb edir.

Rayonun tərkibinə daxil olan Futszyan və Tszyansi əyalətlərində demək olar ki, faydalı qazıntı yoxdur. Əlverişli aqroiqlim şəraiti burada çəltik, pambıq, çay, sitrus meyvələri və s. yetişdirməyə imkan verir. Təsərrüfatında əməktutumlu istehsal, həm də kənd təsərrüfatı məhsullarının emalı üstünlük təşkil edir. Syamın və Şantou AİZ-ların təşkilindən sonra rayonun iqtisadiyyatı, xüsusilə tayvan kapitalı hesabına sürətlə inkişaf edir. Bu əyalətlərdə də Şərq bölgəsinin digər rayonlarında olduğu kimi yeni tikintilər üçün torpaq sahələrinin məhdudluğu, şumluq torpaqların çatışmaması kəskin problemlərdəndir.

**Mərkəzi bölgəyə** Xenan, Xubey, Xunan, Xebey, Şansi, Quandun, Xaynan əyalətləri, həm də Daxili Monqolustan və Quansi-Çjuan muxtar rayonları daxildir. Ərazisinin xeyli hissəsini məhsuldar torpaqları olan çay çökəklikləri tutur. İqlimi kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. Bu zona mineral və energetika resursları ilə zəngindir, kənd təsərrüfatı məhsulları istehsalına görə ölkədə fərqlənir. Xammalın bir çox növləri Şərq rayonlarına daşınır.

Bölgənin daxilində Şimal və Mərkəzi-Cənub rayonları fərqlənir.




**Şimal-Şərq**
1. Xeyluntszyan
2. Qirin (Tszilin)
3. Lyaonin

**Mərкəzi-Cənub**
1. Xenan
2. Xubey
3. Xunan
4. Quansi- Çjuan MR
5. Quandun
6. Xaynan

**Şimal**
1. Şandun
2. Tszyansu
3. Anxoy
4. Çjetszyan
5. Tszyansi
6. Futszyan

**Şimal**
1. DMMR
2. Şansi
3. Xebey

**Şimal-Qərb**
1. SUMR
2. Tsinxay
3. Qansu
4. Ninsya- Xuey MR
5. Şensi

**VI Cənub-Qərb**
1. Tibet MR
2. Sıçuan
3. Yunnan
4. Quyçjou

**Şəkil 23.** *Çinin inzibati bölgüsü və iqtisadi bölgələri.*

*Şimal rayonu.* Rayonun tərкibinə Xebey və Şansi əyalətləri, mərкəzi tabeliкdə olan Peкin və Tyantszin, həm də DMMR daxildir. Şimal rayonunun ərazisinin böyüк hissəsi səhra, yarımsəhralar (Daxili Monqolustan), dağ silsilələri, az hissəsi (şərqdə və cənubda) Böyüк Çin düzənliyidir. Çinin ən qədim məsкunlaşmış və əкinçiliк rayonlarından biri olan bu rayonun 120 mln. nəfərdən artıq əhalisinin əкsəriyyəti ovalıqlarda yaşayır; daha iri şəhərlər də ovalıqlarda salınmışdır, sıxlıq 1кv кm-də 200-300 nəfərdir. Ölкədə ixtisaslı кadrların yüкsəк xüsusi çəкisi ilə fərqlənir.

Rayon mineral resurslarla, xüsusilə кömür, neft, dəmir filizi, xörəк duzu ilə zəngindir. Ağır sənayenin inкişafına görə yalnız Şimal-Şərqdən, yüngül sənaye məhsullarının istehsalına görə isə Cənub-Şərqdən (Şanxay əyalətindən) geridə qalır. Rayonun iri şəhərərində (Peкin, Tyantszin, Tayyuan, Tanşan və.) elmtutumlu sənaye sahələri daha sürətlə inкişaf edir. Xebey ölкənin başlıca кənd təsərrüfatı rayonlarından biridir. Buğda, çəltiк, yağlı bitкilər yığımına, həm də donuzların, at, кeçi və qoyunların sayına görə ölкədə birinci yer tutur. Mərкəzi tabeliкdə olan Peкin və Tyantszin şəhərləri bu əyalətdə yerləşir.

Ölкənin paytaxtı Peкin həm də iri mədəniyyət mərкəzidir. Şəhər кlassiк Çin memarlıq üslubları, yaraşıqlı parкları ilə məşhurdur. Tyantszin nəinкi rayonun həm də ölкənin iri sənaye mərкəzi və başlıca «dəniz darvazasıdır».

*Şansi əyalətinin* sənayensinin, xüsusilə yanacaq-energetiкa, metallurgiya və кimya кompleкsinin yaranmasında кömür hasilatı başlıca rol oynamışdır. Daş кömür ehtiyatına və hasilatına (200 mln.t) görə Şansi əyaləti ölкədə birinci yeri tutur. Kənd təsərrüfatında taxıl bitкiləri, həm də suvarılan çay vadilərində pambıq istehsalı üstünlüк təşкil edir. Rayonun ən iri sənaye mərкəzi Tayyuandır.

DMMR-nun əsas sərvəti heyvandarlıq (qoyun və кeçi, at) üçün gözəl otlaqlardır. Atçılıq da inкişaf etmişdir. Muxtar rayonun paytaxtı Xux-Xote şəhərində yüngül və yeyinti sənayesi inкişaf etmişdir. Digər iri şəhəri metallurgiya кombinatı və maşınqayırma müəssisələri ilə tanınan Baotoudur.

*Mərкəzi-Cənub* . Bu rayonun tərкibinə Xenan, Xubey, Xunan, Quandun, Xaynan əyalətləri, Quansi-Çjuan muxtar rayonu, həm də 1997-ci ildən Syanqan, 1999-cu ildən isə Aomın xüsusi inzibati rayonları daxildir. Mərкəzi - Cənubun ərazisinin böyüк hissəsi dağlıqdır. Buna görə də əhali çay vadiləri və deltalarda, xüsusilə Yantszı çayının vadisi boyunca daha sıx məsкunlaşmışdır. Rayon böyüк əməк resurslarına maliкdir. Burada əhalinin sayı 300 mln.nəfəri ötüb кeçmişdir. Yerli xammal əsasında (filiz, кömür, yanar şist və s.) qara və əlvan metallurgiya, кimya sənayesi, tiкinti materialları istehsalı inкişaf etmişdir. Maşınqayırma, xüsusilə onun metaltutumlu sahələri yüкsəк inкişaf etmişdir. Rayonun iri şəhəri Uxanda ölкənin ən iri qara metallurgiya кombinatlarından biri,

qara metallurgiya kombinatlarından biri, maşınqayırmanın müxtəlif sahələri və s. yerləşir.

Rayonun təbii şəraiti çəltikçiliyin üstünlük təşkil etdiyi çoxsahəli kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. İldə iki, hətda üç dəfə çəltik yığılır. Rayon Çinin taxıl mənbələrindən (çəltik, buğda, qarğıdalı) biridir. Texniki bitkilərdən pambıq, çay, tütün, təbii kauçuk və güncüt yetişdirilir. İnkişaf etmiş yüngül və yeyinti sənayesi rayonun əkinçilik, balıqçılıq və texniki bitkilər məhsullarının emalı əsasında yaranmışdır.

Rayonun cənub sahili dünya əhəmiyyətli iri iqtisadi qovşağa çevrilmişdir. Bununda başlıca səbəbi rayonun əlverişli İCM-yi, Syanqan və Aomının onun tərkibinə qatılması, ərazisinin açıq elan edilməsidir. Çində yaradılan 5 xüsusi iqtisadi zonadan üçü Mərkəzi-Cənub rayonunun dəniz sahilindədir. Bütün bunlarla əlaqədar olaraq rayonun cənub hissəsində xarici kapitalın iştirakı ilə sənaye istehsalı, xüsusilə onun müasir və ixracat sahələri dinamik inkişaf etmiş və ölkədə sosial-iqtisadi inkişafın ən yüksək səviyyəsinə çatmışdır. Rayonda Syanqan sahibkarları ilə intensiv əlaqələr yaranmışdır. Syanqan sahibkarlarının bir çoxu (xüsusilə soyları Quandun əyalətindən olanlar) torpaq və işçi qüvvəsinin ucuzluğu ilə əlaqədar öz müəssisələrini Cənubi Çinə köçürürlər. Bu da rayonda işsizliyin azalmasına, ixracatın artmasına səbəb olur. Mərkəzi-Cənubi Çinin ən iri dəniz portu, iqtisadi və mədəniyyət mərkəzi Quançjoudur.

**Qərb bölgəsi** Çin ərazisinin 70%-ni tutur. Bölgənin başlıca xüsusiyyəti ərazinin zəif mənimsənilməsi, seyrək məskunlaşması, inkişaf etmiş bölgələrdən uzaqda yerləşməsi, bol enerji və xammal resurslarına malik olmasıdır. Qərbin enerji resurslarının (xüsusilə hidroenerji və təbii qaz ehtiyatlarının) şərqə ötürülməsi layihəsinin həyata keçirilməsi, Qərb bölgəsinin məhsuldar qüvvələrinin sürətli inkişafına güclü təkan verəcəkdir. Bu bölgədə Cənub-Qərb və Şimal-Qərb rayonlarını ayırmaq olar.

*Cənub-Qərb rayonu* Bu rayonun tərkibinə Sıçuan, Yunnan və Quyçjou əyalətləri, həm də Tibet muxtar rayonu daxildir. Ərazisi əsas etibarı ilə dağlıq və meşəlikdən ibarətdir. Ölkə ərazisinin 1/4-dən artığını tutan bu rayonun əhalisi 200 mln. nəfərdən çoxdur və onların 2/3 hissəsi Sıçuan əyalətində yaşayır. Cənub-Qərbin əhalisi olduqca mürəkkəb milli tərkibə malikdir.

Təbii şəraitinə, təsərrüfat sahələrinə görə bu rayon bir-birindən kəskin surətdə fərqlənən hissələrdən ibarətdir. Rayonun daxilində olduqca əlverişli təbii şəraiti olan Sıçuan çökəkliyi yerləşir. Burada neft və təbii qaz, kömür və xörək duzu çıxarılır. Rayonun cənubunda mis filizi, civə və fosforit yataqları yerləşir.

Sıçuan əyaləti Çinin çəltik mənbələrindən biridir. Əyalətin suvarılan torpaqlarında ildə iki-üç dəfə taxıl və tərəvəz məhsulları yığılır. Şəkər qamışı, tütün və çay istehsalının da böyük əhəmiyyəti var. Sıçuan özünün meyvə, xüsusilə sitrus bağları ilə məşhurdur. Əyalətdə

donuzçuluq da inkişaf etmişdir.

Çinin daha inkişaf etmiş əyalətlərindən biri olan Sıçuanda yerli mineral və kənd təsərrüfatı xammalı əsasında müxtəlif emaledici sənaye, xüsusilə metallurgiya, maşınqayırma, neft-kimya, toxuculuq və yeyinti sənayesi inkişaf etmişdir. Bu sahələrin əksər müəssisələri Çendu və Çuntsin şəhərlərində cəmləşmişdir. Çuntsin şəhəri ölkənin şərq və qərb bölgələri arasında körpü rolunu oynayır. Şəhərdə quruculuq və yeniləşmə işləri o qədər sürətlə gedir ki, yaxın gələcəkdə bu şəhər dünyanın ən möhtəşəm şəhərlərindən birinə çevriləcəkdir. Xarici sərmayanın cəlbedilməsi üçün şəhərdə olduqca əlverişli şərait yaradılmışdır. Ona görə də şəhərin inkişafında iştirak edən xarici şirkətlərin sayı gündən-günə artır.

Dünyada ən yüksək dağlıq rayon olan Tibet Muxtar rayonu bu rayon ərazisinin yarıdan artığını tutur. Tibetin yüksək dağlıq səhralarının sərt təbii şəraiti insan həyatını olduqca mürəkkəbləşdirir. Təsərrüfatının başlıca sahəsi heyvandarlıqdır. Burada yak, qoyun, dəvə, at saxlanılır. Əkin sahələri Brahmaputra çayı boyunca yerləşir. Bu sahələrdə əsasən arpa, noxud və çovdar əkilir.

Tibetin ərazisi 1951-ci ildə Çin tərəfindən tutulmuş, 1953-cü ildə isə teokratik dalay-lama quruluşu devrilmiş və kommunist idarəüsulu qurulmuşdur. Tibetin dini lideri dalay-lama ölkədən qovulmuş və sürgündə yaşayır. Tibetin inzibati, iqtisadi, və mədəniyyət mərkəzi Lxasa şəhəri dəniz səviyyəsindən 3,6 km hündürlükdə yerləşir. Hündürlüyü 100 m olan Potala saray-monastrı Lxasadır. Bu monastr dalay-lamaların iqamətgahıdır. Şəhərdə kustar sənaye, yüngül və yeyinti sənayesi inkişaf etmişdir.

*Şimal-Qərb rayonu.* Rayonun tərkibinə Qansu, Tsinxay, Şensi əyalətləri, həm də Sintszyan-Uyqur və Ninsya-Xuey muxtar rayonları daxildir. Şimal-Qərb ölkənin ən geniş, lakin ən seyrək məskunlaşmış yeridir. Burada cəmi 100 milyon adam yaşayır. Əhalinin milli tərkibinin mürəkkəbliyinə görə yalnız Cənub-Qərb rayonundan geri qalır. Ərazisinin böyük hissəsi səhra və yarımsəhralardan ibarətdir. Heyvandarlığın inkişafı üçün əlverişlidir. Kəskin kontinental iqlimi və digər sərt təbii şəraiti rayonun qərbində əkinçiliyi məhdudlaşdırır. Yalnız qərbdəki kiçik vahələrdə buğda və qarğıdalı, həm də yüksək keyfiyyətli pambıq becərilir (rayonun cənubunda). Əkinçilik üçün daha əlverişli şərait və geniş sahələr rayonun şərq hissəsində, Xuanxe çayı ətrafındadır. Ərazisinin böyük hissəsində otlaq heyvandarlığı inkişaf etmişdir.

Rayon faydalı qazıntı ehtiyatları ilə zəngindir. Neft, kömür və əlvan metallar çıxarılır. Yerli mineral və kənd təsərrüfatı xammalı əsasında neftayırma, neft-kimya və pambıq parça sənayesi yaradılmışdır. İri şəhərlərlərdə maşınqayırma da inkişaf etmişdir. Ən iri sənaye mərkəzi Sian, həm də Sintszyan-Uyqur muxtar rayonunun inzibati mərkəzi Urumçidir.

# YAPONİYA

Şərqi Asiyada, Sakit okeanın qərb hissəsində yerləşən dövlətdir. **Sahəsi**-377,8 min kv.km; **Əhalisi** - 128 mln. nəfər; **Orta sıxlıq** - 339 nəfər; **Təbii artım**-0,2%; Ölkədən kənarda (Braziliya, ABŞ, Argentina və s.) yaşayan yaponlar - 1,7 mln.nəfər; **Orta ömür müddəti**-kişilər üçün 79, qadınlar üçün 84 yaş; **Etnik tərkibi**- 99% yaponlar; **Dövlət dili**-yapon dili; **Din mənsubiyyəti**- sintoizm və buddizm; **Paytaxtı**- Tokio (əhalisi 12 mln.nəfər); **İri şəhərləri** (əhalisi 1 milyon nəfərdən artıq)- Yohoqama, Osaka, Kobe, Naqoya, Kioto, Sapporo, Xirosima, Fukuoka, Kavasaki, Kitaküsü; Şəhər əhalisi-81%; **Dövlət quruluşu**- konstitusiyalı monarxiya; **İnzibati ərazi bölgüsü** - 47 əyalət; **Pul vahidi**-iyen; **Milli bayramı**-23 dekabr, imperator Akixitonun ad günü(1933); Azərbaycan Respublikası ilə diplomatik münasibətləri 1992-ci ildə yaranmışdır.

**Relyefi** - ərazisinin 3/4 hissəsi dağ və yüksəkliklər; fəal seysmiklik səciyyəvidir; **Ən yüksək zirvəsi**- Fudziyama (3776 m); **İqlimi**- şimalda mülayim, cənubda subtropik, ən cənubda tropik; **Başlıca çayları**-Sinano,Tone, İsikari; **Meşə və kolluqlar**- ərazisinin 2/3-yə qədəri; **Faunası**-canavar, tülkü, ayı, porsuq; **Tarixi salnamə - III əsr**- Yamato tayfa ittifaqının yaranması; **523-621-ci illər**- mərkəzləşdirilmiş dövlətin yaranması; **710** -ilk daimi paytaxtın (Nara şəhərində) yaradılması; **1192**-syoqunların hakimiyyət başına gəlmələri; **1274-1281**- monqolların iki dəfə müvəffəqiyyətsiz ekspedisiyası; **1542**- ilk avropalıların gəlmələri(portagizlər); **1633**-ölkənin xaricilər üçün «bağlı» elan edilməsi; **1854**-xarici ölkələr ilə ticarət üçün iki portun istifadəyə verilməsi; **1867-68**-Meydzi inqilabı; **1894-95**-yapon-çin müharibəsi və Tayvan adasının işğalı; **1904-05**-rus yapon müharibəsi və Cənubi Saxalinin işğalı; **1914-18**-Almaniyaya qarşı müharibədə iştirak etmiş və Sakit okeanda Marian, Karolin və Marşal adalarını ələ keçirmişdir; **1931**- Mancuriyanı işğal etmişdir; **1941**- Sakit okeanda ABŞ-ın Perl-Xarbor bazasına hücum etmişdir; **1942**- Filippini,İndoneziya,Tailand, Myanma, Malayziyanı işğal etmişdir; **1945 (6 və 9 avqust)**- ABŞ-ın Xirosima və Naqasakiyə atom bombası atması; **1951**-Birləşmiş Ştatlar ilə sülh müqaviləsinin bağlanması; **1972**- Birləşmiş Ştatlar Okinava hərbi bazasını Yaponiyaya qaytarmışdı; **1978**- Çin ilə sülh və dostluq barədə müqavilə; **İqtisadiyyatı**-ÜDM-a, elektrik enerjisi istehsalına görə dünyada ABŞ və Çindən, polad istehsalına görə Çin və ABŞ-dan sonra üçüncü, avtomobil istehsalına görə Birləşmiş Ştatlardan sonra ikinci, gəmi, məişət elektrotexnikası, robot, rəngli televizor, keramika, süni lif, ipək parça istehsalına, fərdi kompüter (iri kompüter istehsalına görə ABŞ-dan geridə qalır) ÜDM-un ETTKİ-nə ayırdığı paya (3%) görə btrinci yeri tutur. Bütün bunlarla yanaşı Yaponiya nəinki Asiyanı, bütün dünyanı ən çox çirklçndirən ölkələrdən biridir. Atmosferə $CO_2$ tullantılarına görə ABŞ, ÇXR və RF-dən sonra dünyada dördüncü yeri tutur.

# YAPONİYA

## §1. Coğrafi mövqeyi və təbiəti




Yaponiya (özləri ölkəni Nippon[1] adlandırırlar) Sakit okeanın qərb hissəsində təqribən 4 min adada yerləşən dövlətdir. Ərazisinin əsas hissəsi tərkibinə dörd iri ada ; Honsü (231 min kv km), Hokkaydo (79 min kv km), Küsü (42 min kv km) və Siqoku (19 min kv km) daxil olan Yapon arxipelaqında yerləşir. Bununla yanaşı Küsü adasının cənubunda yerləşən Rükü, həm də Sakit okeanda bir sıra kiçik adalar Yaponiyaya məxsusdur. Asiyanın şərq hissəsində qövs formasını əmələ gətirən bu adalar cənub-qərbdən şimal-şərq istiqamətinə təqribən 3,5 min km uzanır. Yaponiyanı materikdən Şərqi-Çin, Yapon və Oxot dənizləri ayırır. Materikdə Yaponiyaya ən yaxın yerləşən ölkələr Rusiya, Çin və Koreya Respublikasıdır. Materik ilə ölkənin böyük adaları arasında ən qısa məsafə Koreya boğazından keçir (220 km). Şərqdə və cənub-şərqdə Yaponiya Sakit okean suları ilə əhatə olunmuşdur. Cənubda Honsü, Siqoku və Küsü adaları arasında Daxili Yapon dənizi yerləşir.

Yaponiyanın coğrafi mövqeyi ayrı-ayrı tarixi mərhələlərdə onun inkişaf yoluna müxtəlif cür təsir etmişdir. Əvvəla, müstəmləkə uğrunda mübarizə aparan Avropa ölkələrindən uzaqlığı, bir növ XIX əsrin ortalarına qədər onlardan «gizlənməsi» (Yaponiya Qərbi Avropa ölkələrindən təqribən 20 min km, Birləşmiş Ştatlardan isə 8-9 min km aralı yerləşər) ölkənin əsarət altına düşməsinə maneçilik törətmişdir. Digər tərəfdən isə Yaponiyanın xarici dünyadan təcrid olunması, dünya ticarət yollarından uzaqda qalması uzun müddət onun təsərrüfatının inkişafını ləngitmiş və feodal qaydaların saxlanmasına təsir etmişdir. XIX əsrin ortalarına qədər Sakit okeanı nadir hallarda dəniz səyyahlarının gəmiləri üzüb keçirdi. Yalnız XIX əsrin sonunda bu okean dünyanın böyük ticarət yoluna çevrilmişdir. Müasir dövrdə yanacaq və xammala böyük tələbatı olan Yaponiya, təbii resurslar ilə zəngin olan Asiya ölkələrinin və Avstraliya İttifaqının yaxınlığında yerləşir. *Bu gün Yaponiya yüksək inkişaf etmiş dəniz nəqliyyatı vasitəsilə iqtisadi mərkəzlərə «körpü» salmış və əlverişsiz təbii iqtisadi coğrafi mövqeyini (İCM) qismən aradan qaldıra bilmişdir.*

[1] **Nippon** sözü iki ieroqlif işarədən ibarətdir. Birinci işarə günəş, ikincisi isə başlanğıc ya da mənbə mənasını bildirir. Ona görə də Yaponiyanı məcazı mənada Gündoğan ölkə adlandırırlar

Ümumiyyətlə ölkənin ada mövqeyi dəniz təsərrüfatının inkişafına, daxili və xarici iqtisadi əlaqələrin xarakterinə təsir etmişdir.

Ölkənin ada xarakteri *təbiətinin də bir çox səciyyəvi əlamətlərini* (okean iqlimi, fauna və florasının endem[1] xüsusiyyəti və s.) müəyyən edir. Yapon adaları fəal dağ əmələ gəlmə prosesi baş verən, Alyaskadan Asiyanın şərq sahilləri boyunca İndoneziya adalarına qədər uzanan müasir Sakitokean geosinklinal[2] qurşağında yerləşir. Ona görə də Yapon adalarında tez-tez dağıdıcı zəlzələlər, ayrı-ayrı quru sahələrinin zəif qalxması və enməsi, vulkan püskürmələri baş verir. Ölkədə 150, o cümlədən 40 fəaliyyətdə olan vulkan var. Onların arasında yaponların müqəddəs saydıqları Fudziyama ölkədə ən yüksək dağdır (3776 m). Vulkan prosesləri özünü daha çox adaların daxili rayonlarında, seysmik proseslər isə Daxili Yapon dənizi və Honsü adasının Sakitokean sahillərində göstərir. Ölkədə hər il müxtəlif gücdə 1500-ə qədər zəlzələ baş verir. Zəlzələ ilə yanaşı Yaponiya üçün, sualtı zəlzələlər nəticəsində baş verən və güclü dağıdıcı qüvvəyə malik olan «dəniz silkələnməsi», yəni sunami[3] xarakterikdir. Sunami nəticəsində sahilə yaxınlaşdıqca dalğaların hündürlüyü sürətlə qalxır və 10 metrə çatır. Belə dalğalardan daha çox Hokkaydo və Honsü adasının şimal-şərq hissəsi zərər çəkir.

*Yaponiya təbiətinin* mühüm xüsusiyyətlərindən biri onun dəniz sahili ilə dağlıq landşaftının qovuşmasıdır. Dəniz sahilində ensiz ərazilər, daxili bölgələrdə isə çay vadiləri düzənlik və ovalıqdır. Xüsusilə Honsü adasında Tokio körfəzi sahilini əhatə edən Kanto (sahəsi 13 min kv km), Nobi (İse körfəzi yaxınlığında), Etiqo (Osaka körfəzi bölgəsində), Küsü adasının şimalında Tsukusi düzənliklərinin və Hokkaydo adasında İsikari vadisinin böyük təsərrüfat əhəmiyyəti var. Ölkənin ən iri şəhərləri müxtəlif bitkilərlə örtülmüş mənzərəli dəniz sahillərində yerləşir. Girintili-çıxıntılı sahil xətti dəniz nəqliyyatının inkişafı, portların tikintisi və digər dəniz ilə əlaqədar olan təsərrüfat sahələrinin yaradılması üçün olduqca əlverişli şərait yaradır. Sahil ərazilərin böyük təsərrüfat əhəmiyyətinə baxmayaraq, bununla belə Yaponiya dağlıq ölkədir. Ərazisinin 3/4 hissəsini dağlar və yüksəkliklər tutur. Yarğanlı dağlar üstünlük təşkil edir. Bu dağlar çox yüksək olmasalar da (dəniz səviyyəindən orta hündürlüyü 1600-1700 m) adaları ayrı-ayrı hissələrə ayırır və Yaponiya landşaftında rəngarənglik, qarışıqlıq yaradır. Dik və sıldırımlı dağlar bir çox yerlərdə təsərrüfatın mənimsənilməsini çətinləşdirir.

---

[1] **endem**- yalnız bir yerdə (ölkədə, ərazidə) yayılmış bitki və heyvan növləri.

[2] **Geosinklinal** (qurşaq)- yer qabığının xətt boyunca hərəkətdə olan geniş sahəi. Ona okean yer qabığının qitəyə çevrilən sahəsi kimi baxılır. Sakit okean və Aralıqdənizi qurşağında geosinklinal şərait müasir dövrə qədər qalmaqdadır.

[3] **«Sunami»** sözü yapon dilində porta çatan, **«dalğa»** mənasını bildirir.

Yaponiya İEÖ-lər arasında *faydalı qazıntılarla* ən kasad olan ölkədir. Nisbətən təbii kükürd, mis və kömür ehtiyatları ilə fərqlənir. Ölkənin sanaye müəssisələri demək olar ki, tamamilə idxal xammala və yanacağa əsaslanır. Son illər faydalı qazıntıların hasilatı, saflaşdırma və emal texnologiyasının təkmilləşdirilməsi sayəsində kiçik yataqların (xüsusilə əlvan və nadir metalların), həm də Dünya okeanı resurslarının məsələn okean dibindən manqan qarışığının, dəniz suyundan uran əldə edilməsi və s.) istismarı iqtisadi cəhətdən faydalı olmuşdur. Ümumiyyətlə Yaponiyanın yerli faydalı qazıntıları sənaye istehlakında cüzi rol oynayır. Kənd təsərrüfatı üçün təbii imkanlar sənayeyə nisbətən daha əlverişlidir. *Dağlıq relyef* yalnız ərazinin ayrı-ayrı hissələrində əkinçiliyi məhdudlaşdırır. Sahilboyu ovalıqlar, dağətəyi düzənliklər və çay vadiləri daha əvvəllərdən mənimsənilmişdir. Yapon iqtisadiyyatçılarının hesablamalarına görə ölkə ərazisinin yalnız 1/10-i kənd təsərrüfatı üçün yayarsızdır, lakin bu sahədə istifadə olunan torpaq sahələri ümumi ərazinin cəmi 1/5-ni təşkil edir. *İqlim şəraiti* kənd təsərrüfatı işləri və insanların yaşaması üçün əlverişlidir.Bununla yanaşı yapon adalarının böyük məsafədə şimaldan cənuba uzanması onun ayrı-ayrı hissələrində iqlim şəraitinin müxtəlifliyinə səbəb olur. Hokkaydo və Honsü adasının şimal hissəsi mülayim, Honsünün cənub hissəsi, Küsü və Siqoku adaları subtropik, Rükü adaları isə tropik iqlimə malikdir. İqlim fərqlərini relyefin dağlıq xarakteri, həm də Kurosio[1] cənub isti axını və Oyasio[2] şimal soyuq axının təsiri gücləndirir. Mərkəzi Yaponiyada meridian istiqamətində



**Şəkil 24.** *Zəlzələdən sonra bərpa işləri.*

---

[1] **Kurosio** (Yapon cəryanı)-Yaponiyanın cənub və şərq sahilləri yaxınlığında Sakit okeanın isti axını; Şimali Passat(Şimali Ekvatorial) axının davamı. 36 şm.d.-də və 150 ş.u.d.-də Şimali Sakit okean axınına çevrilir və 40 ş.m.d.-də soyuq Oyasio (Kuril) axını ilə qarşılaşır.Yaxınlıqda yerləşən okean və quru sahələrin iqlmini istiləşdirir.

[2] **Oyasio** (Kuril) axını-Sakit okeanın şimal-qərbində soyuq axın; Kuril adalarının və Hokkaydo adasının sahilləri boyunca şimaldan cənub istiqamətinə axır və sahil ərazilərin soyuqlaşmasına tə'sir edir.40 şm.d.-də Kurosio axını ilə qarşılaşır və Şimali Sakit okean axınını yaradır.

uzanan sıra dağlar ölкənin qərb və şərq əraziləri arasında özünə məxsus iqlim səddi əmələ gətirir. Qışda materiкdən əsən soyuq hava кütləlөri dağlarla qorunan şərqə nisbətən, qərb sahillərinə daha güclü təsir edir. Kurosio isti axını isə ölкənin qərb hissəsinin iqliminin mülayimləşməsinə təsir edir. Bütün bunlarla əlaqədar ölкənin böyüк hissəsinin iqlimi bu coğrafi enliк üçün səciyyəvi olmayan xaraкter alır.

*Yaponiya üçün, bol yağıntıya səbəb olan atmosferin musson dövranı xaraкteriкdir.* Yağıntının illiк miqdarı 1000 mm-dən 3000 mm-ə, bəzi yerlərdə isə 4000 mm-ə çatır. Yalnız Hoккaydo adasının şərq hissəsində 1000 mm-dən az yağıntı (qış aylarında bu adaya çoxlu qar yağır) düşür. Yağıntının çoxunu qışda şimal-qərbdən(Sibirdən), yayda isə oкeandan əsən musson кüləкləri gətirir. Bu da ölкənin temperatur rejiminə təsir edir. Ən soyuq yanvar ayın orta temperaturu şimalda --10$^0$- dən cənubda +18$^0$ -yə qədər; avqustda müvafiq olaraq +17$^0$-dən 27$^0$-yə qədərdir. Musson iqlimə maliк digər ölкələrdə olduğu кimi Yaponiyada da, xüsusilə musson кüləкlərinin dəyişildiyi payız fəslində güclü tufanlar (tayfun) olur. Aramsız və uzun sürən (leysan) yağış və gücü 12 bala çatan кüləкlə müşayyət olunan bu tufanlar təsərrüfata zəlzələdən daha çox ziyan vurur. Hər il Yaponiyadan təqribən 10-15 belə tayfun кeçir. Zəlzələ, sunami ilə yanaşı daşqına, sürüşməyə səbəb olan bu tufanlar yaponların həyatında daima problemlər yaradır. Ölкənin cənub hissəsinin subtropiк və tropiк vilayətləri кənd təsərrüfatı üçün daha əlverişlidir və burada ildə iкi, hətta üç dəfə məhsul yığılır. Yalnız Honsü adasının şimalında və Hoккaydo adasında soyuq qış bir sıra bitкilərin yetişdirilməsini məhdudlaşdırır.

Ölкənin *hidroqrafiya şəbəкəsi* çoxlu sayda кiçiк çay və göllərlə səciyyələnir. Astanalı çayları üstünlüк təşкil edir və nəqliyyat üçün yararsızdırlar. Ən böyüк çayları Sinano (uzunluğu 369 кm), İsiкari (365) və Tonedir (322 кm). Çayların yalnız suvarma və hidroenerji əhəmiyyəti var. Hidroenerji ehtiyatı 5,5 mln.кVt qiymətləndirilir, onun 70-80%-indən istifadə olunur. Bir sıra dağ göllərində də SES-lər tiкilmişdir. Ən dərin gölü Tadzava (425 m), ən böyüк göl isə Bivadır (hər iкisi Honsü adasında). İçməli su mənbəyi кimi çay ilə yanaşı göl və yeraltı sulardan geniş istifadə olunur. *Bitкi aləmi* zəngin və müxtəlifdir. Ərazisinin təxminən 2/3 hissəsini meşə sahələri tutur. Hoккaydo adasında iynəyarpaqlı (şam, кüкnar), Honsü adasında isə qarışıq meşələr üstünlüк təşкil edir. Cənubda subtropiк zonanın meşələri (dəfnə, кamfora ağacı) yayılmışdır. Meşələrin, xüsusilə Hoккaydo adasında şam ağaclarının böyüк təsərrüfat əhəmiyyəti vardır. Oduncaq tiкintidə, həm də meşə-кimya və sellüloz-кağız sənayesində xammal кimi istifadə olunur. Düzənliкlərdə deməк olar кi, təbii bitкilər qalmamışdır və onların yerində tarlalar, baxça və bağlar salın-

mışdır. *Ölkə faunası* üçün canavar, tülkü, ayı, antilop və s. kimi heyvanlar xarakterikdir.

Ölkənin *torpaq örtüyü* olduqca müxtəlifdir. Hokkaydoda və Honsü adasının şimal və qərbində küləçalan və torflu, Honsünün şərqində qonur-meşə, Küsü və Siqoku adalarında qırmızı torpaq növləri geniş yayılmışdır. Düzənliklər daxilində çəltik becərilməsi üçün daha yararlı olan allüvial, yüksək dağlıq zonalarda dağ-çəmən torpaq sahələri üstünlük təşkil edir. Olduqca geniş torpaq sahələrində sənaye müəssisələri, yaşayış binaları, müxtəlif infrastruktur sahələri yerləşir. Bu da kənd təsərrüfatına yararlı torpaq sahələrinin getdikcə azalmasına səbəb olmuşdur.

**İnzibati bölgüsü.** İnzibati cəhətdən Yaponiya 47 əyalətə bölünür. Əyalətlərin 34-ü Honsü, 7-si Küsü, 4-ü Siqoku, 1-i Hokkaydo və 1-də Okinava adalarında yerləşir.

**Cədvəl № 24**

| İnzibati vahidlik (əyalətlər) | Sahəsi min kv.km | Əhalisi mln.nəf | İnzibati mərkəzi | Əhalisi mln nəf |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| Hokkaydo adası | 78,4 | 6,7 | | |
| Hokkaydo | 78,4 | 6,7 | Sapporo | 1,6 |
| Honsü adası | 231 | 101,5 | | |
| Ayti | 5,1 | 6,7 | Naqoya | 2,2 |
| Akita | 11,6[1] | 1,3 | Akita | 0,3 |
| Aomori | 9,6 | 1,5 | Aomori | 0,3 |
| Vakayama | 4,7 | 1,1 | Vakayama | 0,4 |
| Qifu | 10,6 | 2,1 | Qifu | 0,4 |
| Qumma | 6,4 | 1,9 | Maebasi | 0,3 |
| İbaraki | 6,1 | 2,8 | Mito | 0,3 |
| İvate | 15,3 | 1,5 | Morioka | 0,3 |
| İsikava | 4,2 | 1,2 | Kanadzava | 0,4 |
| Kanaqava | 2,4 | 7,7 | İohoqama | 3,0 |
| Kioto | 4,6 | 2,8 | Kioto | 1,5 |
| Mie | 5,8 | 1,8 | Su | 0,15 |
| Miyaqi | 7,3 | 2,3 | Senday | 0,7 |
| Naqano | 13,6 | 2,2 | Naqano | 0,4 |
| Nara | 3,7 | 1,4 | Nara | 0,4 |
| Niiqata | 12,6 | 2,7 | Niiqata | 0,5 |
| Okayama | 7,1 | 2,0 | Okayama | 0,6 |

[1] **Tovada** gölünün sahəsi istina olmaqla (Akita və Amori əyalətləri sərhəddində)

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Osaкa | 1,9 | 9,0 | Osaкa | 2,7 |
| Saytama | 3,8 | 6,3 | Urava | 0,4 |
| Siqa | 4,0 | 1,3 | Osu | 0,3 |
| Sidzuoкa | 7,8 | 3,8 | Sidzuoкa | 0,5 |
| Simane | 6,6 | 0,8 | Masue | 0,15 |
| Tiba | 5,1 | 5,5 | Tiba | 0,8 |
| Toкio | 2,1 | 12,5 | Toкio | 8,5 |
| Totiqi | 6,4 | 2,0 | Usunomiya | 0,5 |
| Tottori | 3,5 | 0,7 | Tottori | 0,15 |
| Toyama | 4,3 | 1,2 | Toyama | 0,3 |
| Fuкui | 4,2 | 0,9 | Fuкui | 0,3 |
| Fuкusima | 13,8 | 2,2 | Fuкusima | 0,3 |
| Xioqo | 8,4 | 5,4 | Kobe | 1,5 |
| Xirosima | 8,4 | 3,0 | Xirosima | 1,1 |
| Yamaqata | 9,3 | 1,3 | Yamaqata | 0,3 |
| Yamaquti | 6,1 | 1,7 | Yamaquti | 0,13 |
| Yamanasi | 4,5 | 0,9 | Kofu | 0,22 |
| Siqoкu adası | 18,8 | 4,7 | | |
| Kaqava | 1,9 | 1,1 | Taкamasu | 0,4 |
| Koti | 7,1 | 1,0 | Koti | 0,4 |
| Toкusima | 4,1 | 0,9 | Toкusima | 0,3 |
| Exime | 5,7 | 1,7 | Masuyama | 0,5 |
| Küsü adası | 42,0 | 14,0 | | |
| Kaqosima | 9,2 | 1,9 | Kaqosima | 0,6 |
| Kumamoto | 7,4 | 2,0 | Kumamoto | 0,6 |
| Miyadzaкi | 7,7 | 1,2 | Miyadzaкi | 0,3 |
| Naqasaкi | 4,1 | 1,7 | Naqasaкi | 0,5 |
| Oita | 6,3 | 1,4 | Oita | 0,4 |
| Saqa | 2,4 | 0,9 | Saqa | 0,2 |
| Fuкuoкa | 4,9 | 4,9 | Fuкuoкa | 1,2 |
| Oкinava adaları | | | | |
| Oкinava | 0,3 | 2,2 | Naha | 1,3 |

## §2. Qısa inкişaf tarixi və dövlət quruluşu

Müasir Yaponiyanın ərazisində insan izləri paleolit dövrünə aid edilir. Sonradan ayn və malay tayfalarının soyları bura neolit mədəniyyətini (Dzyomon mədəniyyəti) gətirmişlər. Bu dövrün sonunda əкinçiliк meydana gəlmişdir. E.ə. III-IV əsrlərdə Koreya yarımadasından кeçməкlə CŞA-dan bürünc əsrinin ibtidai mədəniyyətini (yayoy mədəniyyəti) daşıyan yapon tayfalarının soyları gəlmişdir. Yaponlar qəbilə quruluşu ilə (matriarxat əlamətləri ilə) yaşayır və dəmir alətlərdən istifadə edirdilər. III əsrdə qəbilə birliкləri yaranmış, materiкdən buraya çinli və кoreyalıların axını başlamışdır. Ölкədə tayfa və qəbilə rəhbərlərini, ailə başçılarını ilahiləşdirən müxtəlif dini ayinlər mövcud idi. Sonradan yerli allahlara pərəstiş sinto[1] ümumi ad altında birləşmiş və tədricən o da, buddizm və кonfusiçiliк ideyalarının təsiri altında müəyyən dəyişiкlərə məruz qalmışdır. Bu dövrdə ibtidai-qəbilə quruluşu formalaşırdı. İnsanların əкsəriyyəti Amaterasu[2] günəş ilahəsinə pərəstiş edirdilər. Qədim dövrlərdən başlayaraq yapon adaları CŞA adalarından və Asiyanın materiк hissəsindən ardıcıl miqrasiya axınları ilə məsкunlaşmış və onların yolu, dəniz olmuşdur. İlк miqrasiya axını Şimali Küsünün məhsuldar düzənləкlərində məsкunlaşmışdır. Sonradan onlar ölкənin şimal-şərqinin sahil ovalıqlarına yayılmışlar. Uzun müddət Daxili Yapon dənizinə yaxın yerləşən ölкənin cənub-qərb hissəsi Yaponiyanın daha inкişaf etmiş bölgəsi olmuşdur. Qədim salnamələrə görə yayoy mədəniyyətində burada bir sıra «şahlıq» mövcud idi. Eramızın ilк əsrlərinə qədər höкmüranlıq uğrunda bu «şahlıqlar» arasında кəsкin mübarizə getmişdir. Nəticədə IV əsrin başlanğıcında Yamato «şahlığı» müasir Osaкa və Nara şəhərləri ətrafında daha məhsuldar torpaqları ələ кeçirmiş və bütün Mərкəzi və Cənubi Yaponiyada öz höкmüranlığını möhкəmləndirmişdir. V-VI əsrlərdə Yaoniyada hələ daimi paytaxt yox idi. 710-cu ildə çin nümunəsində Nara şəhərində ilк paytaxt şəhər salınmışdır. 794-cü ildə isə paytaxt Naradan Xeyan (indiкi Kioto) şəhərinə кöçürülmüşdür. Bu vaxtdan başlayaraq XII əsrə qədər yapon tarixində Xeyan dövrü höкm sürmüşdür. Xeyan dövrü yapon mədəniyyətinin sürətlə inкişaf edən, çiçəкlənən dövrü olmuşdur. Xüsusilə qonşu Çin və Koreya ilə ticarət əlaqələri ölкənin inкişafına olduqca böyüк təsir göstərmişdir. Bu əlaqələrin sayəsində Yaponiyaya Çin mədəniyyəti (çin

---

[1] **Sinto** (sintoizm)- yapon sinto sözündəndir, allahların yolu, öyrənilməsi mənasını bildirir. Təbiət və ata-babaya sitayiş edilir. Ali səcdəgah Amaterasudur.

[2] **Amaterasu**-Sintoizm dinində Günəş timsalında ali ilahə.

ieroqlif yazısı[1], buddizm, konfusuçilik[2], elmi biliklər, əkinçilik və s. işlərin daha qabaqcıl vərdişləri) daxil olmuşdur. Əyalətlərdə yerli feodalların mövqeyi tədricən möhkənlənmiş və onlar özlərinin hərbi döyüş dəstələrini yaratmışlar. Gübar feodalların döyüş dəstələrindən xüsusi samuray təbəqəsi[3] (ilk əvvəl aldığı mülkə görə mülkədar-feodaldan asılı olan vassallar, kiçik mülk zədəganları) formalaşmış və sonradan onlar Mərkəzi Yaponiyada saray zədəganlarının iri mülklərinə qibtə ilə yanaşmışlar. 1185-ci ildə samuraylar şimal-şərqdə nüfuzlu Minamotonun ətrafında birləşərək Tayra sülaləsinin qoşunlarını darmadağın etmişlər. 1192-ci ildə Minamoto Yoritomo özünü syoqun, yəni ali hərbi hakim adlandırmış və bütün hakimiyyəti öz əlinə almışdır. İmperator isə yalnız simvolik olaraq dövlətin din başçısı kimi qalmışdı. XIII-XVI əsrlər yapon tarixində iri sülalələr arasında daima gedən müharibələr ilə zəngin olmuşdur. Ona görə də Yaponiyada syoqun sülalələri dəyişmiş lakin syoqunat sistemi XIX əsrin ortalarına qədər (bir qədər fasilələrlə) qalmışdır.

1274-1281-ci illərdə Yaponiya ciddi təhlükə qarşısında qalmışdır. Monqol hakimi Xubilay iki dəfə yapon sahillərinə böyük donanma göndərmişdir. Lakin hər dəfə onun göndərdiyi gəmilərin əksəriyyəti tufan nəticəsində dağılmış və ölkəyə daxil olmaq cəhdləri baş tutmamışdır. Yaponlara kömək edən bu tufanlar «kamikadze», yəni «ilahi külək» adlandırılmışdır (ikinci dünya müharibəsi illərində yaponların ölümə məhkum-təyyarəçilərə verdikləri »kamikadze» ləğəbi də məhz bu tufana verilən addan yaranmışdır).

Yaponiya uzun müddət ətraf dünya üçün «qapalı» qalmışdır. Avropalılar Yaponiyaya çox gec, yalnız XVI əsrdə gəlib çatmışlar.

---

[1] **İeroqlif**- Qədim misir yazılarında şəkil işarələri.Bu termin həm də hərfi olmayan bir çox yazılarda istifadə olunan işarələrə aid edilir. Çin yazısında 4-7 min (ümumi sayı 50 minə qədər), yapon yazısında isə 3 min işarədən istifadə olunur. Fərziyəyə görə yapon dili altay dil ailəsinə aiddir.

[2] **Konfusiçilik**-Çində əsası e.ə. VI əsrlə Konfusi (551-479) tərəfindən qoyulan, siyasi-əxlaq qaydaları nəzəriyyəsi.Zədganların varisliyini müdafiə edirdi. Hakimin səlahiyyətini müqəddəs, səma tərəfindən verildiyini, ümumi ədalət qanunu ilə isə insanların yuxarı («alicənab ərlərə») və aşağı təbəqələrə («kiçik adamlara») bölünməsini təbliğ edirdi. Çində e.ə. II əsrdən Sinxay inqilabına qədər (1911-1913-cü illərdə burjua inqilabı, Mancuriya sülaləsi Sini devirmiş və ölkədə respublika e'lan edilmişdir) rəsmi dövlət ideologiyası idi.

[3] Bir çox qərb tarixçi və sosioloqları yapon mədəniyyətinə səciyyəvi olan ən yaxşı nailiyyətləri bir-birilə sıx əlaqədar olan ortaəsrin iki ideoloji sistemi, samuray mənəviyyat qaydaları «busido» və buddizm fəlsəfəsi «dzen» (daosizmlə yaxınlaşma nəticəsində Çində yaranmışdır) ilə bağlı olduğunu sübut etməyə çalışırlar. «Busido»- alicənablıq şərəfinin gözlənilməsinin sistemə salınmış qaydalar küllüyyatıdır. Sərt asketizmi (qeyri-dünyanı), əzab və ölümdən qorxmamağı, vassal vəzifəsinə sadiqliyi, təhqir və uğursuzluğu əzablı intiharla yumağı təbliğ edir.

100 il ərzində qərb mədəniyyəti, elmi, texnikası, odlu silahları Yaponiyaya olduqca fəal daxil olmuş və ölkənin təsərrüfat inkişafına yeni təkan vermişdir. Avropalılar ölkəyə xristian[1] dinini gətirmiş və onun yayıllmasına böyük səy göstərmişlər. XVII əsrin əvvəllərində syoqunatın hakimi Tokuqava xaricilərin Yaponiyaya daxil olmasını qadağan etmiş (çinli və hollandlar istina olmaqla) və ölkənin bütün portları (Naqasaki istisna olmaqla) xarici gəmilər üçün bağlı elan edilmişdir (ölkəyə gələn xaricilər, ölkədən çıxan ya da iri gəmi qayıran yaponlar ölüm cəzası ala bilərdilər). Yaponiyanın xarici dünyadan təcrid olunması XIX əsrin ortalarına qədər davam etmişdir. 1854-cü ildə Birləşmiş Ştatlarla[2] bağlanan müqavilədən sonra, bir sıra yapon portları amerikan gəmiləri üçün açıq e'lan edilmişdir. Belə müqavilə bir neçə Avropa ölkələri, o cümlədən Rusiya[3] ilə də bağlanmışdır. Syoqun idarə-üsulunu devirən və imperator hakimiyyətini bərpa edən Meydzi inqilabından (1868) sonra ölkədə kapitalizmin inkişafı üçün şərait yaranmışdır. Bu proses iqtisadi ekspansiya və hərbi təcavüzkarlıq ilə eyni zamanda baş verirdi. XIX əsrin axırlarından başlayaraq Yaponiya təcavüzkar ekspansiv[4] siyasət aparmış və 1894-cü ildə Çinə basqın edib onun Tayvan adasını işğal etmişdir. Rus-yapon müharibəsində (1904-1905) qələbə çalan yaponlar, Simoneseki sülh müqaviləsinə əsasən Cənubi Saxalini öz tərkibinə qatmış, Mancuriyanın cənubunu və Koreyanı özündən asılı vəziyyətə salmışdır. Birinci dünya müharibəsində Antanta ittifaqında çıxış edən Yaponiya Alma-

---

[1] Yaponiyada xristianlıq-XVI əsrdə avropalılar tərəfindən gətirilmiş,portagiz və ispan missionerləri tərəfindən ölkədə yayılmışdır. Artıq XVII əsrdə katolizmə etiqad edənlərin sayı bir neçə yüz min nəfərə çatmışdır. Hakimiyyət xristian dinin yayılmasını qadağan etmiş və missionerləri ölkədən qovmuşdur. XIX əsrin ortalarına qədər ölkədə xristianlar təqib olunmuşdur. XIX əsrdə Yaponiya yenə də missionerlərin, bu dəfə nəyinki katoliklərin, həm də protestantların fəaliyyət dairəsinə çevrilmişdir. Bu fəaliyyət ikinci dünya müharibəsindən sonra Yaponiyanın Birləşmiş Ştatlar tərəfindən işğal olunması dövründə daha da güclənmişdir. İndi ölkədə 1,5 milyondan artıq xristian yaşayır

[2] **Ansey** müqaviləsi- Yaponiya ilə Birləşmiş Ştatlar, Böyük Britaniya, Fransa və Rusiya arasında bağlanan (1854-1858) qeyri-bərabər hüquqlu müqavilə. Bu müqaviləyə müvafiq olaraq xaricilər azad ticarət hüququ əldə etmiş və Yaponiya kömrük müstəqilliyindən məhrum olmuşdur (kiçik kömrük rüsumu müəyyən edilmişdir). Bu müqavilə 1894–cü ildən 1911-ci ilə qədər davam edən yeni müqavilə ilə əvəz olunmuşdur.Bir sözlə amerikan və avropalılar Yaponiyanı onlar ilə ticarət etməyə məcbur etmişlər.

[3] Birinci Rus-Yapon müqaviləsinə görə (1855) iki dövlət arasında sərhəd İturup və Urup adaları arasından çəkilmişdir. Həmin müqaviləyə görə İturup adası Yaponiyanın, Urup və bütün Kuril adaları Rusiyanın tərkibinə daxil edilmişdir. Saxalin isə birgə malikanə kimi saxlanılmışdır. Peterburq müqaviləsinə görə (1875) Rusiya Saxalinə tam sahib olmuş və bunun əvzində bütün Kuril adalarını Yapaniyaya vermişdir.

[4] **Ekspansiya**-imperialist dövlətlərinin xammal və bazarlar əldə etmək məqsədilə öz siyasi və iqtisadi nüfuzunu başqa ölkələrə yaymaq üçün yeritdikləri təcavüzkar siyasət.

niyanın müstəmləkələri olan Marşal, Marian və Karolin adalarını zəbt etmişdir. 1931-ci ildə yapon qoşunları Mancuriyanı işğal etmiş, 1937-ci ildə isə Çinlə müharibəyə başlamışdır. Beləliklə, XX əsrin 30-cu illərinin axırında Yaponiya böyük dövlətə çevrilir. Onun 63 milyondan artıq əhalisi olan müstəmləkələrinin ərazisi 1,5 mln.kv km-ə çatır. İki dünya müharibəsi arasındakı dövürdə ölkə sənayesi yapon imperializminin hərbi tələbatına xidmət edərək kənd təsərrüfatını ötüb keçmiş və Yaponiya sənaye-aqrar ölkəsinə çevrilmişdir. İkinci dünya müharibəsi ərəfəsində ölkənin bütün sənaye məhsulları istehsalının 2/3 hissəsi ağır sənayenin payına düşürdü. Yaponiya imperializmi özünün təcavüzkar siyasətinə bəraət qazandırmaq məqsədi ilə təbii sərvətlərlə «kasıblıq nəzəriyyəsini» təbliğ edir və Asiyada yeni müharibələrə hazırlaşırdı. Təsadüfü deyil ki, Yaponiya faşist Almaniyası və İtaliyası ilə ittifaqda ikinci dünya müharibəsinin əsas iştirakçılarından birinə çevrilmiş və Sakit okeanda geniş miqyaslı hərbi əməliyyatlar aparmışdır. Nəticədə antifaşist dövlətlərinin birliyi tərəfindən ağır məğlubiyyətə uğramışdı. 1945-ci ilin sentyabrında Yaponiyanın şərtsiz təslim olması onu ordudan və bütün müstəmləkələrindən məhrum etmiş, milli sərvətlərinin böyük hissəsini itirmiş, sosial-iqtisadi cəhətdən bir neçə on il geri düşmüşdü. Bununla yanaşı Yaponiya demilitarizasiya[1] və demokratik inkişaf yoluna nail olmuş və bundan çox bacarıqla istifadə etmişdir. 1947-ci ildə qəbul edilən konstitusiyada xalqın müstəqil hakimiyyəti, demokratik hüququ və azadlığı elan edilmişdir. İmperator hakim vəzifələrdən məhrum olmuşdur. Yaponiya beynəlxalq mübahisəli məsələlərin həllində silahlı qüvvələrdən bir vasitə kimi istifadə etməkdən imtina etmişdir.1951-ci ildə San-Fransiskoda imzalanan beynəlxalq sülh müqaviləsində (SSRİ bu müqaviləni imzalamaqdan imtina etmişdir) Yaponiyanın müstəqilliyi bərpa olundu. Eyni zamanda Yaponiyanın təhlükəsizliyinə təminat verən yapon-amerikan müqaviləsi bağlandı. Bu müqaviləyə müvafiq olaraq Birləşmiş Ştatlar Yaponiyanın ərazisində silahlı qüvvələrini yerləşdirmək və hərbi bazalarını yaratmaq hüququnu əldə etdi. 1960-cı ildə Birlşmiş Ştatlar ilə Yaponiya qarşılıqlı əməkdaşlıq və təhlükəsizlik təminatı barədə yeni müqavilə imzalamış və 1970-ci ildən başlayaraq bu müqavilə avtomatik olaraq uzadılır. Bununla yanaşı Yaponiya Rusiya Federasiyasına qarşı ərazi iddiaları irəli sürür və tarixən onlara mənsub olan İturup, Kunaşir, Şikotan və Xabomai adalarının (ərazisi 8 min kv km, əhalisi 30 min nəfər) ikinci dünya müharibəsində rus qoşunları tərəfindən işğal edilməsini qeyri-qanuni sayırlar.[2]

---

1 **Demilitarizasiya**- Bir dövlətə qoşun saxlamağı,hərbi sənaye yaratmağı, istehkamlar düzəltməyi qadağan etmək.

2 Yalta müqaviləsinə müvafiq olaraq üç dövlətin (SSRİ.Birləşmiş Ştatlar, Böyük Britaniya) razılığı ilə müharibə qurtardıqdan sonra Cənubi Saxalin və Kuril adalarının hamısı Rusiyanın tərkibinə keçmişdir.

Bu adalara görə Mosкva və Toкionun mövqeyi toqquşur və iкinci dünya müharibəsindən bu vaxta qədər bu iкi dövlət arasında sülh müqaviləsi imzalanmamışdır. Müasir dövrdə «ərazi problemləri»nin həlli və sülh müqaviləsinin bağlanması məqsədi ilə iкi ölкə arasında danışıqlar davam edir.

XIX əsrin sonu və XX əsrin birinci yarısında Yaponiyanın fəal təcavüzкar eкspansiv siyasəti, indi dünyanın müxtəlif ölкələri ilə iqtisadi əlaqələrin inкişafına səmtləşmə ilə əvəz olunmuşdur. Müasir dövrdə iqtisadi inкişafının nailiyyətləri onu dünyanın başlıca maliyyə və siyasi mərкəzlərindən birinə çevirmişdir. Ona görə də Yaponiya siyasi və iqtisadi sabitliyin təmin olunmasına olduqca böyüк əhəmiyyət verir. Bu məqsədlə Birləşmiş Ştatlar və Qərbi Avropanın başlıca ölкələri ilə bütün sahələrdə əməкdaşlığını genişləndirir və gücləndirir, beynəlxalq aləmdə onlar ilə fəaliyyətini uzlaşdırır. Bununla yanaşı, sülh şəraitində yapon iqtisadiyyatının sürətli inкişafı və dünya bazarında müvəffəqiyyətlə rəqabət aparmaq təcrübəsi ölкənin haкim dairələrini, sosial quruluşdan asılı olmayaraq dünyanın heç bir ölкəsi ilə yapon münasibətlərinin кorlanmasına səbəb ola bilən siyasət aparmamağa məcbur edir. Beynəlxalq aləmdə nüfuzunu artırmaq məqsədilə iqtisadi potensialından fəal istifadə edir, müxtəlif ölкələrə кredit verir, təmannasız кöməкliyini genişləndirir və artırır. Yaponiya Birləşmiş Ştatlardan sonra BMT-yə ən çox üzvlüк haqqı (təqribən ildə 100 mln.dollar)verən ölкədir. Bütün bunlarla əlaqədar Yaponiya BMT-nin nizamnaməsinə yenidən baxılmasını və ona da Təhlüкəsizliк Şurasında daimi üzvlüк yerinin verilməsini tələb edir.

Dünyanın bütün regionlarında münasibətlərini fəal inкişaf etdirən yapon haкim dairələri qonşu ölкələrlə iqtisadi əlaqələrə xüsusi əhəmiyyət verir. Asiya-Saкit oкean regionunda inteqrasiya prosesinin genişlənməsinə və dərinləşməsinə hər cür şərait yaradır və bununla da regionda liderliyini daha da möhкəmləndirməyə təşəbbüs göstərir. Ümumiyyətlə son illər dünya birliyinin siyasi və iqtisadi məsələlərində Yaponiya getdiкcə fəal rol oynayır (xüsusilə «böyüк yeddilər» çərçivəsində). Müasir dövrdə onun iqtisadi inкişafı hərbi sənaye кompleкsinin artımı ilə eyni zamanda baş verir. Müdafiə potensialı yalnız ölкədə istehsal edilən ən müasir silahlarla



*Şəkil 15. İmperator və ailəsi.*

gücləndirilir. İndi Yaponiya, hərbi xərclərə görə də İEÖ-lər arasında ikinci yeri tutur və regional təhlükəsizliyin qorunması işində fəal çıxış edir.

*Yaponiya konstitusiyalı monarxiyadır.* 1947-ci ildə qəbul edilən konstitusiyaya görə imperator «dövlətin və xalq birliyinin simvoludur». Konstitusiyaya görə bir çox vəzifələr, o cümlədən parlamentin yığılması, nümayəndələr palatasının buraxılması və ümumi parlament seçkilərinin xəbərdar edilməsi, konstitusiyada, qanunlarda, müqavilələrdə, hökumət sərəncamlarında düzəlişlər barədə bildiriş, baş nazirin təyin və təsdiqi, nazirlərin istefasının elan edilməsi və s. imperatora həvalə edilmişdir. Lakin ona verilmiş səlahiyyətlərin hamısı formal xarakter daşıyır, çünki bütün bunların həyata keçirilməsi üçün imperator heç bir təşəbbüs göstərmir. Bu vəzifələr ona yalnız mərasim, təntənə xatirinə verilir.İmperator dövlət işlərinin həyata keçirilməsi ilə əlaqədar heç bir səlahiyyətə malik deyildir. Yalnız bütünlüklə dövlət işlərinə cavabdeh olan hökumətin məsləhəti və razılığı ilə dövlət işlərində fəaliyyət göstərə bilər.

*Ali qanunverici orqan nümayəndələr (500 deputat) və məşvərətçi (252 deputat) palatalarından ibarət olan parlamentdir.* Nümayəndələr palatasının deputatları 4 il müddətinə, məşvərətçi palatasının deputatları isə 6 il müddətinə (hər üç ildən bir tərkibinin yarısı təzələnir) seçilir. Nümayəndələr palatasında sonuncu seçki 2000-ci ildə, məşvərətçi palatasında isə (tərkibinin yarısı) 2001-ci ildə keçirilmişdir. Aşağı palataya (nümayəndələr palatası) 11 dairə üzrə 300 birmandatlı seçki keçirilir (200 namizəd isə proporsional sistem üzrə partiyalardan seçilir). Yuxarı palataya (məşvərətçi palata) 152 deputat 47 əyalətdən, 100 deputat isə proporsional sistem üzrə, bütün ölkədən seçilir. *İcraedici hakimiyyət parlament tərəfindən seçilən, baş nazirin sədrlik etdiyi hökumətə məxsusdur.* Hökumət parlamentdə daha çox deputat yeri qazanan partiyadan təşkil olunur (1999-cu ildə LP ilə koalisiyada LDP-dən).

Müasir dövrdə Yaponiyada aşağıdakı başlıca siyasi partiyalar və ictimai təşkilatlar fəaliyyət göstərir.

*Liberal Demokratik partiya (LDP)-* 1955-ci ildə yaradılmışdır. Hakim partiyadır və 1,5 mln. nəfərə qədər üzvü var. Dövlət aparatının yuxarı eşalonu və bələdiyyə təşkilatları ilə sıx əlaqədədir. İri biznes tərəfindən himayə olunur, şəhərlilərin orta təbəqəsi və kənd əhalisi arasında böyük nüfuza malikdir. Nümayəndələr palatasında 263, məşvərətçi palatasında isə 103 yeri var. Rəhbərləri K.Obuti, İ.Mori. Y.İkeda, F.Fukayadır. *Yaponiya Demokratik Partiyası (YDP)-1996-cı ildə yaradılmışdır.* Sayına görə ölkədə ikinci partiyadır Liberal cərəyana mənsub olan gənc siyasətçiləri birləşdirir (aşağı palatada 92, yuxarı palatada 47 yeri var). *Liberal Partiya (LP) - millətçi yönümlü partiyadır* (40 və 12 mandatı var). *Dünyanın yeni partiyası-* keçmiş

Komeyto partiyasının üzvlərini birləşdirir, mərкəzçiliк mövqe tutur (47 və 3 mandatı var). *Yaponiya коmmunist partiyası (YKP)*-1922-ci ildə yaradılmışdır,1945-ci ilə qədər gizli fəaliyyət göstərmişdir (300 min üzvü var). Dövlət və bələdiyyə qulluqçularının bir hissəsinə, кiçiк müəssisələrin fəhlələrinə arxalanır (26 və 23 mandatı var).*Sosial-demoкratiк partiya (SDP)*- 1945-ci ildə yaradılıb (300 min üzvü var). Həmкarların, əhalinin orta təbəqəsinin, кiçiк şəhər sahibкarlarının, ziyalı və qulluqçuların bir hissəsinin mənafeyini müdafiə edir.

Yaponiyanın daxili həyatında aşağıdaкı sahibкarlar təşкilatı mühüm rol oynayır; *İqtisadi təşкilat federasiyası (Keydanren)*, deməк olar кi, bütün Yapon işgüzar dairələrinin əsas qruplarını birləşdirir (onun tərкibinə şəxsi əsasda 80-ə qədər başlıca maliyyə-sənaye qruplarının nümayəndələri və кolleкtiv əsasda 940-a qədər şirкət və 120 maliyyə-sənaye assosiasiyaları daxildir); *Yapon ticarət-sənaye palatası (Nissyo)*- bura 489 yerli ticarət-sənaye palatasında birləşən, 1,2 milyon кiçiк və orta firma üzvdür; *Sahibкarlar təşкilatının federasiyası (Niккeyren)*- əməк və sərmayə münasibətlərinin əsas məsələləri ilə məşğul olur (sahibкarların 47 regional və 55 sahəvi təşкilatlarını birləşdirir); *İqtisadi həmfiкirlər assosiasiyası (Keydzay doyuкay)*- bura fərdi əsasda 1000-ə qədər nüfuzlu biznesmenlər daxildir. Ölкədə gedən ictimai proseslərə həmкarlar təşкilatları da əhəmiyyətli tə'sir göstərir (12,3 milyon nəfərə qədər yaxud fəal əhalinin 24,5%-i). *Həmкarlar təşкilatının кonfederasiyası- Renqo (*7,6 milyon nəfərdən artıq üzvü var yaxud bütün mütəşəккil zəhmətкeşlərin 62,1%-i*) , 1989-cu ildə yaradılıb, sosial-demoкrat hərəкatı bazasında* LDP-yə alternativ yeni siyasi qüvvələrin formalaşması uğrunda çıxış edir.

## §3. Əhalisi və təhsil sisteminin coğrafiyası

*Yapon millətinin əmələ gəlməsi.* Yopan adalarının qədim etniк tarixində yaponların özləri mövcud deyildi. Dördüncü dövrün böyüк hissəsində Yaponiya materiк ilə vahid bütövlüк təşкil edirdi. Həmin dövrdə Yapon dənizi daxili göl idi. Ona görə də Şərqi Asiyada yaşayan qədim insanlar asanlıqla Yaponiya ərazisinə girə bilərdilr. Dzyomon[1] mədəniyyətindən başlanan (e.ə. VII minilliкdən I minilliyə qədər davam edən) yapon tarixinə əsasən, Yapon arxipelaqının qədim əhalisi CŞA-dan кöçmüşlər. Güman edilir кi, onlar Filippin və Rüкü (Oкinava adaları) arxipelaqlarından кeçib gəlmişdilər. Mənimsəmə təsərrü-

[1] **Dzyomon**-Yaponiyada neolit dövrünün ( e.ə III-II minilliкdən I minilliyin ortalarına qədər) arxeloji mədəniyyəti. Məsкun yeri və dəfnlərlə təmsil olunur. Balıqçılıq, ovçuluq və meyvə yığma yolu ilə həyat sürülürdü.

fatı ilə məşğul olan bu qəbilələrin istifadə etdiкləri кeramiкa və daş alətlər zahiri görünüşünə, həm də ornamentinin xaraкterinə görə CŞA-da neolitdən əvvəlкi dövrdə yaşayan insanların mədəniyyətinə daha yaxın idi. Güman etməк olar кi. dzyomon dövrünün əhalisi dilinə və zahiri görünüşünə görə müasir aynlara yaxın olub və onları aynların soyları hesab etməк olar. Antropoloji cəhətdən avstraloid irqinin qollarına mənsub olan qədim ayn tayfaları CŞA-dan dəniz yolu vasitəsilə Filippin və Rüкü arxipelaqlarının sahilləri boyunca yerləşmişlər. Rüкü adalarının müasir əhalisi zahiri görünüşlərinə və hətta etniк əlamətlərinə görə Mərкzi Yaponiyanın müasir əhalisinə nisbətən, ayn etniк qrupunu daha çox xatırladır. Buradan da belə nəticəyə gəlməк olar кi, Dzyomon neolit mədəniyyətini yaradan, Yapon adalarının ən qədim saкinləri ayn tayfalarının soyları olmuşdur. Təqribən 2-ci minilliкdə yuxarıda göstərilən bölgələrdən, eləcə də həmin yollardan кeçməклə, etniк cəhətdən müasir əhaliyə daha yaxın olan, dilinə görə malay-polinezey, irqinə görə isə cənubi monqoloid tipli tayfalar Yapon adalarına кöçmüş və qədim ayn əhalisi ilə qarışmışlar. E.ə. I minilliкdə Yapon adalarında əhalinin müəyyən etniк tərкibi yaranmışdır. Onun əsasını ov və çay balıqçılığı ilə məşğul olan, meşə və sahil ərazilərdə həyat sürən aynlar təşкil edirdi.Şimalda, Xoккaydo adasında onlara ovçu və balıqçı esкimos- aleut etniк qrupları qarışmış və sonradan tamamilə ayn əhalisinin tərкibinin bir hissəsinə çevrilmişlər. Cənubda (Honsü, Küsü, Siqoкu adalarında) aynlar artıq sadə əкinçiliкlə tanış olan austroneziy tayfaları ilə assimilyasiya olmuşlar. E.ə. I minilliyin ortalarında (Dzyomon dövrünün sonu və Yayoy dövrünün başlanması) Yapon adalarına Koreya yramadasından кeçməкlə Çinin Cənub-Şərqində yaşayan tayfalar axıb gəlmişlər. Bu tayfalar artıq bürünc alətləri ilə tanış idilər, laкin hələ кi, adətən daş alətlərdən istifadə edirdilər. Eneolit[1] mədəniyyətini daşıyan yayoylar (Cənubi Koreya tayfaları) təsərrüfat mədəniyyətinin inкişaf səviyyəsinə görə dzyomon mədəniyyətindən əhəmiyyətli dərəcədə yüкsəк idi. Məhz onlar Yapon adalarına suvarma əкinçiliyi, maldarlığı, sonradan isə tunc, dəmir alət və silahları gətirmişlər. Onlara Şərqi Asiya regionu-



*Şəkil 26. Ayaqqabını evin kənarında çıxarırlar.*

[1] **Eneolit**-neolitdən (daş dövrdən) tunc əsrinə кeçid dövrü (e.ə. 4-3 minilliк). Bu dövrdə daş alətlər üstünlüк təşкil edirdi, bununla yanaşı mis alətlər meydana gəlirdi.

nin yüksək inkişaf etmiş sivilizasiyası tanış idi. Eramızın IV əsrinə qədər Yapon adalarında qədim yapon tayfalarının mədəni inkişaf prosesi davam etmiş, həm də yerli austroneziy-ayn əhalisi ilə assimilyasiya və yapon xalqının formalaşması baş vermişdir. Beləliklə yapon millətinin formalaşmasında beş: ayn, indoneziya, qədim şərqiasiya, koreya və çin etnik tərkibi ayırmaq olar. Yamato[1] dövlətinin sakinlərini etnik cəhətdən yapon saymaq olar. Onların ev məişətinə və əfsanələrinə başlıca olaraq CŞA-dan gələnlər təsir etmişlər. V-VI əsrlərdə Yapon adalarına ieroqlif yazısı, buddizm dini və s. gətirildikdən sonra yerli əhaliyə çin və koreya mədəniyyəti güclü təsir etmişdir. Həmin dövrdə Yapon adalarına gələn çin və koreya ruhaniləri, sənətkarları və alimləri yerli əhaliyə qarışmışlar. Artıq VIII əsrdə yaponlar demək olar ki, bütün etnik qrupları özlərinə qarışdıraraq bir xalq kimi formalaşmışlar. Yalnız qədim ayn etnik qrupu assimilyasiyaya məruz qalmamış və yığcam qrup halında Hokkayda adasının şimalında yaşayırlar. İndi *Yaponiya birmillətli dövlətdir,* əhalisinin 99,4%-ni yaponlar təşkil edir. Ölkədə, ikinci dünya müharibəsindən əvvəl işçi qüvvəsi kimi gələn 700 minə qədər koreyalı və iri şəhərlərin ayrı-ayrı məhəllələrində məskunlaşan ticarət və kiçik sahibkarlıqla məşğul olan 100 minə qədər çinli yaşayır. Amerikan və avropalılar (5-6 min nəfər) bir qayda olaraq müvəqqəti sakinlər sayılır.

*Sayı və təbii artım.* Yaponiyada 1920-ci ildən başlayaraq hər beş ildən bir əhali siyahıya alınır. Ölkə əhalisi 1875-ci ildən (35,3 mln.nəfər) 2000ci ilə qədər (128 mln.) 3,6 dəfə artmışdır. İndi əhalinin sayına görə (Çin, Hindistan, Birləşmiş Ştatlar, İndoneziya, Braziliya, Pakistan, Rusiya və Banqladeşdən sonra) dünyada 9-cu yeri tutur. XX əsrin ortalarından başlayaraq əhalinin təbii artmı sürətlə aşağı düşməyə başlamışdır. İlk növbədə bu, aşağıda göstərilən doğum göstəricisinin azalması ilə əlaqədardır (ildə hər 1000 nəfərə doğum sayı):

| | | |
|---|---|---|
| 1920-ci il – 36 | 1970-ci il – 19 | 1995-ci il – 10 |
| 1950-ci il – 28 | 1980-ci il – 14 | 2000-ci il – 9 |
| 1960-cı il – 19 | 1990-cı il – 10 | |

Doğumun azalmasının başlıca səbəbi XX əsrin ortalarından başlayaraq yaşayış səviyyəsinin qaldırılması məqsədilə dövlət tərəfindən həyata keçirilən *demoqrafik siyasət* (nigah yaşı kişilər üçün 28, qadınlar üçün isə 26 yaş, «doğuma nəzarət», ailə planlaşdırılması), uşaqların təhsil və tərbiyəsinə sərf olunan xərclərin (yaponlar ailə büdcəsinin böyük hissəsini uşaqların təlim-tərbiyyəsinə sərf edirlər) getdikcə artmasıdır. Doğumun azalması ilə yanaşı ölüm halları da

---

[1] **Yamato**- III-IV əsrlərdə Yaponiyada tayfa ittifaqı. Onun əsasında qədim yapon feodal dövləti yaranmışdır.

azalmış və dünyada ən aşağı səviyyəyə çatmışdır (1950-ci ildə hər 1000 sakinə 15 nəfərdən 2000-ci ildə 7 nəfərə qədər azalmışdır). Uşaq ölümünün azalmasını isə yapon «möcüzəsi» adlandırırlar (1950-ci ildə hər 1000 uşağa 60-dan, 2000-ci ildə 4 nəfərə qədər ölüm halları olmuşdur). Bütün bunlar tibbi xidmət və səhiyyə sahələrində əldə edilən nailiyyətlərin nəticəsidir. Təbii ki, belə «möcüzədə» insan ömrü də uzun olacaq. İndi Yaponiya ömür müddətinin göstəricisinə görə də (kişilər üçün 79, qadınlar üçün 84 yaş) dünyada birinci yerlərdən birini tutur. Son illər doğumun azalması və ömür müddətinin uzanması sayəsində əhalinin «qocalması» prosesi Yaponiyada, digər İEÖ-lərə nisbətən daha sür'ətlə gedir (hələ yüksək intensiv və yorucu əməyə, İEÖ-lər arasında ən uzun iş həftəsi və ən qısa məzuniyyətə baxmayaraq). 1970-ci ildə əhali arasında yaşı 65-i ötənlərin payı 7%-ə, 1980-də 9, 1990-da 12, 2000-ci ildə 20%-ə çatmış, 2025-ci ildə isə 27%-ə çatması gözlənilir.[1] Ölkədə yaşı 100-ü keçənlərin sayı 12 mindən çoxdur. Əhali arasında yaşlıların payına görə Yaponiyadan sonra İsveçrə, AFR, İtaliya və İsveç gəlir. Təbii ki, «millətin qocalması» prosesi ilə yanaşı gənclərin payının aşağı düşməsi nəzərə çarpır. İndi 15 yaşına qədər olan sakinlərin xüsusi çəkisi 15-16% təşkil edir. Bütün bunlar ilə əlaqədar əmək qabiliyətli (15-dən 65 yaşa qədər) əhalinin xüsusi çəkisi də 1990-cı ildə 70%-dən 2000-ci ildə 65%-ə qədər azalmış, 2015-ci ildə isə 61%-ə qədər azalması gözlənilir. İqtisadi cəhətdən fəal əhali arasında muzdlu işçilər üstünlük təşkil edir (44,5 mln nəfər). Müstəqil təsərrüfatda 9,1 mln nəfər (fəal əhalinin 15,4%-i) çalışır. Köməklik göstərən ailə üzvlərinin sayı 5,5 mln. nəfərdir (9,3%). ETT fəal əhalinin strukturunda əhəmiyətli dəyişiklər etmişdir. İndi fəal əhalinin 25%-i emaledici sənayedə, 50%-dən artığı ticarət və xidmət sahəsində çalışır. Maliyyə sahəsində çalışanların sayı sürətlə artır, kənd təsərrüfatında (5,0 mln.nəfər, fəal əhalinin 6,6%-i) və hasilat sənayesində isə azalır. Ölkədə ömürlük muzdlu işçi[2] (ö.m.i) sistemi geniş yayılmışdır.

Daimi işçilər məktəbi bitirən və digər firmalarda iş təcrübəsi olmayan gənclərdən seçilir. Seçilməyə iddia edənin peşəkarlığı yox, onun şəxsiyyət keyfiyyəti (ümumi inkişaf səviyyəsi, həmkarları ilə münasibətlərini yaratmaq, firmanın şəraitinə uyğunlaşmaq qabiliyyəti və s.) başlıca meyar kimi nəzərə alınır. Seçmə olduqca ciddi keçir. Gələcək işçinin iş yeri onun firmaya qəbul olunma anında müəyyən edilmir. O, firmada işə götürülür. Bütün işçilər kimi o da, firmadaxili iş yerlərində (şagird kimi), həm də istehsaldan ayrılmaqla xüsusi hazır-

---

[1] Ölkədə ağır xəstəliyə tutulan insanların həyatdan könüllü getməsi məsələsi geniş müzakirə olunur, həm də «ləyaqətli ölüm cəmiyyəti» fəaliyyət göstərir.
[2] Ömürlük muzdlu işçi-Yaponiyanın iri və orta firmalarında işçinin uzun müddət həmin firmada qalması məqsədilə sahibkar ilə daimi işçi heyəti arasında qarşılıqlı münasibətlərin səciyəvi sistemidir.

lıq кursu кeçir. Nəticədə istehsal şəraitinə yaxşı hazırlıqlı və həmin firma üçün səciyyəvi olan işləri icra edə bilən universal işçi formalaşır.

Ö.m.i. şəraitində maddi müкafatlandırma və кadrların irəli çəкilməsi sistemi ilк növbədə işçinin yaşına və əməк stajına üstünlüк verilir. Son illr əməк haqqı sistemində, qərb ölкələrində olduğu кimi əməyin nəticəsi və işçinin ixtisası da nəzərə alınır. Laкin indiyədəк bu sistem iкinci dərəcəli əhəmiyyət daşıyır. Əməк haqqı кolleкtiv danışıqların nəticələrinə müvafiq olaraq qəti təyin olunmuş vaxtda hər il artırılır.

Daimi işçinin firmada qalması pensiya yaş həddinə qədər (müasir dövrdə adətən 60-65 yaş) davam edir. Bu yaşdan sonra işçi höкmən işdən azad olunur, firma isə onu pensiya ya da böyüк miqdarda işdən çıxarma pulu ilə təmin edir. Adətən firma yaşa görə işdən azad olunanlara güzəşt edir və işdə qalmaq istəyənlər ilə ö.m.i. sisteminə nisbətən daha əlverişsiz şərtlərlə müqavilə bağlayırlar.

Ö.m.i. sisteminin yaranma tarixi Yaponiyada mübahisə mövzusuna çevrilmişdir. Yapon tədqiqatçılarının əкsəriyyəti onun yaranmasını müharibədən əvvəlкi dövrə, inкişafını isə 1960-1970-ci illərə, ölкədə iqtisadiyatın sürətli inкişaf dövrünə aid edirlər. 1970-ci illərin ortalarında başlanan böhrandan sonra ö.m.i. sistemində işçilərə seçmə, fərdi yanaşmanın əhəmiyyəti güclənmişdir. Bununda başlıca səbəbi, əvvəla, ETT dövründə işçinin ixtisasına onun yaşına görə qiymət verilməsinin əhəmiyyətinin tədricən itməsi; iкincisi, yaşa görə əməк haqqının yayılması şəraitində işçi qüvvəsinin «qocalması prosesi» onun bahalaşmasına səbəb olur; nəhayət, ö.m.i. prinsiplərinin fəaliyyəti sayəsində ETİ dövründə texniкi mütəxəssislərin və gənclərin əməyi lazımi səviyyədə qiymətləndirilmir. Laкin, ö.m.i. sisteminin yenidən qurulması olduqca ciddi çətinliкlərlə qarşılaşır. Bununda səbəbi, əsas etibarilə daimi işçilərlə təmsil olunan həmкarlar təşкilatının güclü müqavimət göstərməsidir. Onlar belə yenidən qurmada öz üzvlərinin sabit məşğuliyəti üçün təhlüкə görürlər.

Yaponiyada digər İEÖ-lərə nisbətən inflyasiya[1] (ildə 2%-qədər)

---

[1] **İnflyasiya**- (latınca inflatio, üfürülmüş, şişirdilmiş sözündəndir)- əmtəələrlə tə'min olunmayan bazara çoxlu miqdarda pulun daxil olmasıdır. Bu da qiymətlərin bahalaşmasına səbəb olur.Müharibələrdə ,iqtisadi böhranlarda yaranır. Bu zaman dövlət öz artan xərclərini əlavə кağız pul buraxmaqla ödəyir.İnflyasiyanın sürətindən asılı olaraq onun üç əsas növü: mötədil (qiymətlər il ərzində 10%-ə qədər qalxır); çaparaq (hallopiriк, 20-dən 200%-ə qədər) və hiperinflyasiya (ifrat, qiymətlər кosmiк sürətlə qalxır) mövcuddur. Hər bir ölкə mötədil inflyasiya ilə daima üzləşir. İnflyasiyanın sür'ətinin 1-3% olması normal sayılır və cəmiyyətin iqtisadi həyatına heç bir mənfi təsir göstərmir.Çaparaq, xüsusilə ifrat inflyasiya iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərir,ağır sosial-iqtisadi nəticələrə gətirib çıxarır, pul öz funкsiyasını yerinə yetirə bilmir,milli təsərrüfatın dağılması təhlüкəsi yaranır.Bunlarla yanaşı gözlənilən, qəfil, gizli və açıq inflyasiya növləri mövcuddur.

və işsizlik səviyyəsi olduqca aşağıdır (3,9%), lakin iş vaxtı uzundur (ildə 2088 saat, Birləşmiş Ştatlarda 1924, AFR-də 1655 saat). Orta əmək haqqı 400 min iyendir (təqribən 4 min dol.). 1965-ci ildən 2000-ci ilə qədər nominal[1] əmək haqqı 10 dəfə, real isə 4 dəfə artmışdır.[2] Bir saatlıq real əmək haqqı səviyyəsinə görə Yaponiya İEÖ-lərin hamısını ötüb keçmişdir. Əmək haqqının sürətlə artmasına təsir edən amillər arasında əmək məhsuldarlığının daima artmasıdır.

Yapon «iqtisadi möcüzəsinin» mənbəyini daha dərindən dərk etmək üçün, nəinki texnika və texnologiyanın yüksək səviyyəsini, əksər müəssisələrin iki növbəli iş şəraitini (iş günü 7-8 saat olmaqla), fəhlədən tutmuş menecerə qədər bütün çalışanların yüksək ixtisasını, həm də əmək və məişət təşkilinin bir sıra xüsusiyyətləri nəzərə alınmalıdır. Yapon sahibkarlarının əqidəsinə görə müasir ETT insan əməyi və biliyinin maksimum istifadəsini tələb edir. Ağır çəkiclə işləyənlərə güc ilə təsir etmək mümkün idi, lakin zehni əməklə məşğul olanlara (həm də istehsal və şirkət üçün faydalı işləməyə) güclə təsir etmək qeyri-mümkündür. Ona görə də işçinin düşünməsi, ixtirası və yüksək məhsuldar əməyi üçün ona hər bir şərait yaradılmalı, ilk növbədə maddi tələbatı ödənilməlidir. Yapon şirkətlərində daimi ştata qəbul olunan işçiyə qocalana qədər işlə təmin olunması barədə zəmanət verilir. Bu da ölkədə daimi işsizlik şəraitində fəhlədə sahibkara minnətdarlıq hissi, şirkət üçün isə var qüvvəsi və zəkası ilə işləmək həvəsi yaradır. İri şirkətlərdə oxşar xarakterli işçilərdən təşkil edilən briqadalar yaradılır və bu briqadalar ilə psixologiya və pedaqokika fakultələrinin mə'zunları məşğul olur. Ailəvi dostluq edən belə briqadalarda əmək məhsuldarlığı daha yüksək olur (keyfiyyətsiz məhsul buraxılışı, üzürsüz işə çıxmamaq halları və s. olmur). Müəssisələrdə keyfiyyəti artırmaq üçün xüsusi dərnəklər fəaliyyət göstərir. Hər iki aydan bir bu dərnəkdə yığışan müəssisə əməkdaşları yeni texniki ideyaları müzakirə edir və səmərələşdirmə təklifləri ilə çıxış edirlər. Müəssisələrdə müdirdən başlamış asılı fəhlələrə qədər, əməkdaşların münasibəti bir ailəni xatırladır. Yapon dilində müdir, valideyn mənasını bildirən «oya-bun», fəhlələr isə uşaqlar mənasını bildirən «kobun» adlanır. Yəni firmanın bütün işçiləri bir ailədir. Yaponiyada sosial fəndgirliyin başqa təzahürləri ilə də rastlaşmaq olar. Məsələn,

---

[1] **Nominal**-malın, pulun üstündə göstərilən qiymət.

[2] Yaponiyada əmək haqqı işçinin əmək stajından və yaşından asılıdır. Firmada olan tarif cədvəlinə müvafiq olaraq hər il işçinin maaşı qaldırılır. 55-60 yaşına çatan yapon muzdlu işçisinin maaşı, həmin firmada eyni işi yerinə yetirən 17 yaşlı işçinin maaşından 2,4 dəfə yüksək olur. Son illər ETT-nin inkişafı (indi əmək stajı işçinin ixtisasını müəyyən edən əsas göstərici kimi öz keçmiş əhəmiyyətini itirir) və fəhlə qüvvəsinin «qocalması» ilə əlaqədar (sahibkarların xərclərini artıran amil) yaş üzrə əmək haqqı sistemi tədricən öz əhəmiyyətini itirir.

şirkətin (xüsusilə kiçik firmalarda) prezidenti hər gün bir saat fəhlə ilə yanaşı dəzgah arxasında işləyir, bəzi hallarda firma sahibkarı şəxsən özü fəhlələri masaj edir, onların şər və xeyrində fəal iştirak edir və s. Bununla da onlar fəhlə və digər əməkdaşları inandırırlar ki, şirkət onların «ailəsi» sahibkar isə «doğma atasıdır». İş gününün başlanğıcında fəhlələr adətən öz firmalarının and içmə himnini oxuyurlar. Məsələn, «Masusita» elektron şirkətinin himni belə səslənir: Biz bütün əqlimizi və gücümüzü Yaponiyanın səadətinə sərf edəcəyik. Biz əmək məhsuldarlığının artırılması üçün bütün imkanlarımızdan istifadə edəcəyik və qoy bizim istehsal etdiyimiz məhsullar getdikcə daha bol-bol, bulaqdan su kimi dünyanın bütün ölkələrinə yayılsın. Sənaye art və çiçəklən! Harmoniya və həmrəylik heysiyyəti! Yaşasın «Masusita elektronika»! Yapon müəssisələrinin mühüm xüsusiyyətlərindən biri də Birləşmiş Ştatlar və digər İEÖ-lərdən fərqli olaraq burada xarici fəhlə və mühəndislər olduqca azdır. Ümümiyyətlə Yaponiya xarici ölkələrin «ağıllar axınına» istiqamətlənmədən özünün elmi-texniki kadrlarını özü hazırlayır. Bunun sayəsində istehsalın intensiv inkişafı mühüm rol oynayır. Lakin son illər əmək məhsuldarlığının artması ilə əmək haqqının yüksəlməsi uyğun gəlmir. Bununda başlıca səbəbi millətin «qocalması» prosesində (yaşı 100-ü ötənlərin sayı 12 min nəfərə çatmışdır) sosial təminata ayrılan vəsaitin sürətlə artmasıdır (xüsusilə pensiyaçıların sayının əhəmiyyətli dərəcədə artması ilə əlaqədar). Zəmanət verilən qocalıq təqaüdünü yalnız dövlət müəssisələrində çalışanlar ala bilər (qocalığa görə orta təqaüd 150 min iyendir, təqribən 1500 dollar), xüsusi firmada çalışanlara isə pensiya yaşına çatdıqda onların bütün əmək fəaliyyəti dövründə sığorta[1] üçün ayırdıqları vəsait birdəfəlik verilir .

Son illər Yaponiya səhiyyə və sosial təminat proqramını dəyişir və bu proqramı yaşlı insanların tələbatına uyğunlaşdırır, onların sağlamlığı üçün sosial xərcləri artırır. Bununla da Yaponiya ümid edir ki, ölkə əhalisinin ümumi qocalması prosesində bu proqram yaşlı insanların ictimai həyatda fəallığını qoruyub saxlayacaq, əmək qabiliyyətli əhalinin sayını artıracaq və bu da bütövlükdə cəmiyyətə xeyir verəcəkdir.

Təbii ki, millətin «qocalması», doğumun və təbii artımın azalması prosesi əhalinin ümumi sayına da təsir edir. İndi Yaponiya əhalinin artım sürətinə görə (0,2%) Avropa ölkələri ilə bir səviyyədə durur. Yapon demoqraflarının hesablamalarına görə təbii artım gələcəkdə də azalacaqdır. Onların fikrincə ölkə əhalisinin sayı ən yüksək səviyyəsinə 2010-cu ildə çatacaq (131-135 mln.nəfər), sonradan isə tədricən azalacaq və sabit vəziyyət alacaq (127-130 mln.nəfər).

---

[1] Sığorta fondunu qazancın 11,3 -13,6%-ni təşkil edən üzvlük haqqı yaradır. Onun yarısını sığorta olunan, yarısını isə sahibkar verir. Dövlət pensiyaya 20-25% vəsait əlavə edir.

*Din fərqləri.* Yaponiyada digər İEÖ-lərdən fərqli olaraq iqtisadiyyatın, ETT və müasirliyin yüksək səviyyəsi ilə yanaşı əhalinin əksəriyətinin həyat tərzində din və ailə ənənələri qorunub saxlanılır. Din və milli adət-ənənələrinə müvafiq olaraq ədəb qaydalarının gözlənilməsi hər bir tərbiyəli və mədəni yapon üçün zəruri şərt sayılır. Ölkədə fəaliyyət göstərən çox saylı din ocaqları ictimai həyata, insanlar arasında münasibətə nəzərə çarpacaq dərəcədə təsir göstərir. Saysız-hesabsız cəryan və ənənələrin mövcudluğu din şəraitinin son dərəcə müxtəlifliyinə səbəb olmuşdur. Lakin yapon millətinin mənəvi-əxlaqi simasının formalaşmasına konfusuçilik fəlsəfi baxışlar ilə sintoizm və buddizm dinləri daha çox təsir göstərmişdir. Yaponiya üçün dinlərin qarşılıqlı surətdə bir-birində kök salması, qarışması, din azadlığı, dini zəmində ixtilafların olmaması xarakterikdir. Məsəln, yaponların toy mərasimləri adətən sinto məbədlərində, əhali arasında olduqca böyük ehtiram bəslənilən dəfn və ehsan mərasimləri isə yalnız buddizm ənənləri ilə keçirilir. Başlıca dinlərlə yanaşı ölkəyə ilk dəfə XVI əsrin ortalarında gətirilən xristian; dində cəryanların yeniləşdirilməsini təmsil edən, yeni dinlər (yaxud yeni ictimai-dindar hərəkatlar) fəaliyyət göstərir. Bu cəryanlarla yanaşı qədim dövrlərdən qalan bir çox xalq etiqadları da saxlanır. Məhz bu etiqadlar və onlara bağlı olan mövhumat və xürafatlar xalq kütləsi arasında daha geniş yayılmışdır. Yapon dindarlarının əksəriyyəti eyni zamanda bir neçə dinə mənsub ola bilər. Məsələn, buddizmin ənənəvi məktəblərindən biri olan sinto tərəfdarları, eyni zamanda yeni yaranan dinlərdən birinə də sadiq ola bilər. Ona görə də rəsmi statistikaya əsasən əhali arasında dindarların sayı (XX əsrin sonunda 211 mln nəfər) əhalinin ümumi sayından xeyli yüksək olur. Çünki müxtəlif dinlərə etiqad edən eyni dindar iki və hətda üç dəfə hesaba alına bilər.

*Milli xüsusiyyətləri.* Yapon milli xarakterinin ümumi etnik əlamətləri arasında əməksevərlik, ənənələrə bağlılıq, təbiətə vurğunluq, intizamlıq, dözümlük, qənaətçilik, səliqəlik, ailə başçısına tam itaətçilik xüsusilə fərqlənir. Əməksevərlik və bununla əlaqədar olan əmək fəaliyyətinin bütün dairələrində yüksək səylə çalışmaq yapon milli xarakterinin mühüm əlamətidir. Yaponlar fədakarlıqla əməyə qatılır, əmək prosesindən zövq alırlar. Hətta ən kiçicik torpaq sahəsində belə, yapon baxça salmağa və onun görkəmini yaxşılaşdırmağa can atır, onu əhatə edən hər yerdə, insanlara xoş təəsürat bağışlayan və sevinc gətirən dəyişiklər etməyə təşəbbüs göstərir. Yaponlar təbiətə hamişə qayğı və məhəbbət ilə yanamışlar. Gül və ağaclarla fərəhlənmək milli ənənəyə çevrilmişdir. Albalı ağacının çiçəklənməsi (sakura ağacı) ən gözəl milli bayramdır. Bayram, xüsusilə yeni il günlərində yaponlar evlərinin qapısını şam ağacının budaqları (yaponlar üçün uzun ömürlüyü təmsi edir), bambuk (dözümlük rəmzi), qışın axırlarında çiçəklnən gavalı ağacının budaqları ilə (iztirablar içində də gülərüzlüyü göstərir) bəzəyirlər. Gözəlliyə meyl bütün xalqlara

səciyyəvi olan xüsusiyyətdir. Lakin yaponlarda bu meyl milli ənənələrin ayrılmaz tərkib hissəsidir. Ümumiyyətlə ənənəçilik yapon millətinin əxlaqına, fikrinə və diləyinə keçmiş və onun milli xarakterinin mühüm əlamətinə çevrilmişdir. Bu xüsusiyyət də yaponlara, Qərbin mədəni təzyiqinə qarşı durmağa və öz səciyyəvi simasını saxlamağa köməklik edir.

Yaponların həyat tərzi (xidmət ya da istehsal sahələrində) demək olar ki, tamamilə avropalaşmışdır. Bir qayda olaraq evdən kənarda avropa paltarları ilə gəzirlər. Yalnız mərasim və bayram günlərində, istirahət vaxtı və evdə əyinlərinə kimono keçirirlər. Çünki milli geyimlər müasir müəssisələrin iş növlərinə və şəhər nəqliyyatında gediş-gəlişə uyğun gəlmir, lakin ev işlərində olduqca rahatdır (kimono ölkənin isti və bürkülü iqlimində havanı olduqca yaxşı keçirir). Ümumiyyətlə ev məişətində milli qaydalar qorunub saxlanılır. Evə girən hər kəs ayaqqabısını çıxarıb corab ya da başmaqla gəzir. Evlərdə mebel olduqca azdır. Alçaq masa üstündə xörək yeyirlər. Gecələr elə həmin otaqda qalın pambıq döşəklər sərib yatırlar. Yastıqları kiçik, uzunsov və olduqca bərk olur (bizim mütəkkə kimi). Səhər bunların hamısı divar şkafına yığılır. Müasir evlərdə adətən bir otaq ənənəvi milli şəkilə salınır, digər otaqlar avropa qaydasında mebellə bəzədilir. Otaqlar cürbəcür məişət texnikası ilə təchiz olunur. Yaponlar xüsusilə milli xörəklərə üstünlük verirlər. Müharibədən sonrakı illər avropa mətbəxindən (ət və süd məhsulları, yumurta, buğda çörəyi və s.) istifadə etmələrinə baxmayaraq, əvvəllər olduğu kimi onların ərzaq rasionunda düyü və balıq məhsulları üstünlük təşkil edir. Yapon qanunlarına əsasən kişi və qadınlar bərabər hüquqa malikdirlər. Lakin ənənəvi olaraq ailədə qadının asılı vəziyyətdə olması hələ ki, güclüdür. Bununla belə yaponların müasir ailə həyatında həm qərb, həm də şərq əlamətlərini müşahidə etmək olar.

Bayramlar ölkə tarixinin və yapon xalqının ayrılmaz tərkib hissəsidir. Onlar yeni şəraitə uyğunlaşaraq nəsildən nəsilə keçir. Ölkənin hakim dairələri milli bayramların təntənəli keçirilməsi üçün hər cür şərait yaradırlar. Rəsmi olaraq 14 iş olmayan gün təyin edilmişdir. Əgər bayram bazar gününə düşərsə, onda bazarertəsi istirahət günü sayılır. Təmtaraqlı keçirilən bayram mərasimləri tamaşa, yürüş, musiqi, idman yarışları və s. ilə müşaiyət edilir. Bayram mərasimlərini həvəslə keçirdikləri kimi, yaponlar istehsalda da həvəslə çalışır, yüksək ustalıqları, əməksevərlikləri ilə fərqlənir və əldə etdikləri nailiyyətlər ilə fərəhlənirlər. Bu nailiyyətlərin nəticəsidir ki, yapon şirkətlərində hazırlanan məhsullar dünya bazarında müvəffəqiyyətlə rəqabət aparır.

Uzun müddət bizim ədəbiyyatda sosial-iqtisadi inkişafın mühüm elementi olan və ayrı-ayrı xalqların mədəniyyət və ənənəsinə güclü təsir edən amil kimi dini şüura, onun mənəvi- əxlaq qaydalarına əhəmiyyət verilməmişdir. İqtisadi həyat tərzi isə bir çox cəhətdən

milli, o cümlədən dini-əxlaqi ənənələrlə və insani əxlaq qaydaları ilə dikтə edilir. Etnik əxlaq qaydalarında , o cümlədən əməyə münasibətdə qərb və şərq xalqlarının fəlsəfəsində oxşarlıq çoxdur. Lakin ETT-nin indiki mərhələsində avropalı və cənub-şərqi asiyalılar arasında dərin fərqlər yaranmışdır. Məsələn, Birləşmiş Ştatların universitetlərində təhsil alan cənub-şərqi asiyalılar, o cümlədən yaponlar müasir texnologiya sahələrində, xüsusilə kompüterlərdə biznesi daha müvəffəqiyyətlə mənimsəyirlər. Mütəxəssislərin fikrincə onların nailiyyətlərinin başlıca səbəbi amerikan işgüzarlıq təşəbbüskarlığının qəbul edilməsi ilə şərq pedantlığının (xırdaçılığın), müasirliyə təşəbbüs göstərilməsinin, sürətli reaksiya və intuisiysıanın uyğunlaşmasıdır. Yaponlar, eləcə də etnik və dini cəhətdən onlara yaxın digər xalqlar özlərinə xarakterik olan milli xüsusiyyətləri ilə texnoloji tərəqqinin optimal insan bazasını yaradırlar. Lakin,bu o demək deyil ki, XXI əsrdə müasir texnologiya sahəsində Asiya təkəlçiyə çevriləcəkdir. Təbii ki, » yeni həyat tərzinə keçidin» tipoloji əlaməti əməyin və istehsalın intelektuallaşmasıdır. Bu təmaüylün aparıcıları kimi bu və ya başqa dərəcədə demək olar ki, həm də digər İEÖ-lər çıxış edir. Lakin, bu sahədə, eləcə də müasir dövrün bir çox cəryanlarında, məhz yaponlar qabaqcıl mövqe tuturlar. Məsələn, bir sıra ən yeni texnoloji sahələrdə (keramika, elektronika) yapon şirkətləri ETTKİ-nə Birləşmiş Ştatların müvafiq şikətlərinə nisbətən orta hesabla 30-60% çox vəsait sərf edirlər. Məzh, yapon texnologiyası hesabına dünya istehlak bazarında məişət texnikasının yeni növləri (audio-vizual apparatlar, maili televizorlar, telekommunikasiya vasitələri, mənzil təmizləyən və pəncərə yuyan robotlar və s.) meydana çıxır. Birləşmiş Ştatların mütəxəssislərinin hesablamalarına görə müasir təmayülün saxlanılması ilə XXI əsrin əvvəllərində ən mühüm qabaqcıl texnologiyanın əksəriyyətində Yaponiya Birləşmiş Ştatları və Avropa ölkələrini ötüb keçəcək və dünyada liderlik edəcəkdir.

*Məskunlaşma formaları.* Yaponiyada əhalinin orta sıxlığı 1 kv km-də 345 nəfərdir. Mikro-dövlətlər istina olmaqla bu, dünyada ən yüksək göstəricilərdən biridir. Azərbaycanın müvafiq göstəricisindən isə 3,7 dəfə çoxdur. Respublikamızda əhalinin sıxlığının Yaponiya səviyyəinə çatması üçün onun sakinlərinin sayı 30 mln.nəfəri ötüb keçməlidir. Nəzərə almaq lazımdır ki, Yaponiyada əhali olduqca qeyri-bərabər yerləşir. Əhalinin əksər hissəsi Honsü adasının şərq və Küsü adasının şimal hissəsində cəmləşmişdir. Əhalinin 4/5 hissəsi şəhərlidir. Nəzərə almaq lazımdır ki, Yaponiyada sakinlərin sayı 50 mindən artıq olan yaşayış məntəqələri şəhər sayılır. Əgər Birləşmiş Ştatlarda və Avropa ölkələrində istifadə edilən meyarlar Yaponiyaya tətbiq edilsəydi, onda urbanizasiyanın səviyyəsi daha yüksək olardı. Şəhər sakinlərinin 60%-i dörd; Tokio, Osako, Naqoya və Kitaküsü aqlomerasiyalarında təmərküzləşmişdir. Əhalinin şəhərlərdə təmərküzləşməsi prosesi davam edir. Bununla yanaşı iri şəhərlərin sakinlə-

rinin bir hissəsinin daha кiçiк şəhərlərə, aqlomerasiya mərкəzlərindən isə onun кənarlarına кöçmə prosesi güclənir. Honsü adasında yerləşən üç ən iri; *Keyxin* (Toкio, İoкohama Kavasaкi, Tiba şəhərləri daxil olmaqla əhalisi 27 mln.nəfər), *Xansin* (Osaкa,Kobe, Kioto şəhərləri daxil olmaqla əhalisi 25 mln.nəfər) və *Tünyo* (Naqoya və onun şəhər peyкləri ilə, əhalisi 10 mln.nəfər) aqlomerasiyaları bir-birilə birləşmiş və Yaponiyanın Toкaydo meqalopolisini əmələ gətirmişdir. Bu meqalopolis Honsü adasının cənub sahili boyunca təqribən 600-700 кm uzanır. Onun 70 min кv кm ərazisində 70 mln.nəfər əhali yaşayır. Meqalopolisdən кənarda, Küsü adasının şimalında, ümumi əhalisi 3 mln.nəfər olan Kitaкüsü (1 mln.nəfər)- Fuкuoкa (1,3 mln. nəfər) aqlomerasiyası yaranmışdır. Ölкənin digər şəhərləri arasında Sapporo, Xirosima və Senday sürətlə böyüyür.

Son üç onilliкdə Yaponiyanın iri şəhərlərinin əкsəriyyətində yenidən qurma işləri aparılır və onların görünüşü tədricən dəyişir. Bu, nəhəng şəhərlərdə insanların daha rahat yaşaması zərurətindən irəli gəlir. İndi birmərtəbəli, alçaq binalar çoxmərtəbəli və yüкsəк binalar ilə əvəz olunur. Nəticədə yapon şəhərlərinin çoxu avropa şəhərlərinin görünüşünü almışdır. Bir qayda olaraq işgüzar məhəllələrdə binalar şüşə və betondan tiкilir. Elə bu materiallardan da, bütün zəruri кommunal şəraiti və mədəni mərкəzləri ilə şəhərin miкrorayonlarını əmələ gətirən çoxmərtəbəli yaşayış binaları, həm də antiseysmiк bünövrə ilə göydələnlər[1] tiкilir. İri sənaye şəhərlərində (Məsələn, Toкio, Naqoya, Osaкa, Kobe və s.) meydanları, fəvvarələri, düкanları, restoranları, idman zalları, qarajları, anbarları və s. ilə кilometrlərlə uzanan yeraltı məhəllələr, çoxyaruslu avtomobil yolları salınmışdır. Bütün bunlarla yanaşı iri şəhərlərdə bir və iкi mərtəbəli fərdi evlərlə tiкili olan məhəllələr də qalmaqdadır. Bu evlərin aşağı mərtəbələrində düкan, bərbərxana, yeməкxana və s. yerləşir. Belə məhəllələrdə кüçə ensiz və səкisiz olur. Evlərin qarşısında, кiçiк imкan olan yerdə belə, adətən cəmi 2-3 ağac əкməклə baxçalar salınır. Əyalət şəhərləri ənənəvi tiкililəri saxlamaqla bir-birinə oxşayırlar.

Ölкənin iqtisadi, siyasi və mədəni həyatının milli mərкəzi olan Toкio dünyanın ən iri şəhərlərindən biridir. Paytaxt nəinкi göydələnlər ilə, həm də yeraltı məhəllələr və кörfəz dayazlıqlarının qurudulması hesabına böyüyür. Şəhərdə yüzdən artıq ali məкtəb, 120 min iri,orta və кiçiк şirкətlərin ofisləri, 300 mehmanxana, 70 min restoran və s.yerləşir. Eyni zamanda Toкio ölкənin iri sənaye mərкəzi кimi qalmaqda davam edir. Paytaxtın tədricən idarəçiliк və ticarətmaliyyə əhəmiyyəti artır. Şəhər maliyyə əməliyyatlarına görə London və Nyu-Yorкu ötüb кeçmiş və beynəlxalq maliyyə mərкəzinə çevril-

[1] 1995-ci ilin yanvarında Kobe şəhərində baş verən faciəli zəlzələdə belə yüкsəк binalar salamat qalmışdır.

mişdir. Bununla yanaşı, şəhərdən material tutumlu müəssisələrin və eкoloji cəhətdən təhlüкəli sahələrin çıxarılması sayəsində onun istehsal əhəmiyyəti azalır. Ölкənin tədqiqat işlərinin yarısını yerinə yetirən elmi idarələr, кütləvi informasiya vasitəlirinin 90%-i paytaxtda təmərкüzləşmişdir. Toкio adr hazırlığında mühüm rol oynayır. Bütün bunlara görə də yaponlar arasında «Yaponiya Toкiodan başlayır» və «Yaponiya iкi ölкədən-ətrafı ilə birliкdə paytaxtdan və dövlətin qalan hissəsindən ibarətdir» məsəlləri geniş yayılmışdır.

Toкio 1437-ci ildə tiкilmiş Edo («кörfəzə giriş» mənasını bildirir) qəsrinin əsasında yaranmışdır. Həqiqətən qəsr, ölкədə ən iri Kanto düzənliyinin cənub hissəsində, кörfəzin sahilində salınmışdır. Edo 1603-1867-ci illər ərzində syoqun[1] sülaləsinin iqamətgahı olmuşdur. Həmin dövrdə ölкənin rəsmi paytaxtı Kioto sayılırdı və imperator bu şəhərdə yaşayırdı. «Meydzi» inqilabı[2] nəticəsində syoqun sülaləsi süquta uğramış və bundan sonra imperatorun iqamətgahı Kiotodan Edoya кöçürülmüşdür. Şəhərin adı dəyişdirilmiş və Toкio («şərq paytaxtı») adlandırılmışdır. Bu vaxtdan etibarən şəhər sürətlə böyümüş və artıq 1920-ci ildə əhalisi 3,7 milyon nəfərə çatmışdır.Laкin şəhərin normal inкişafı iкi dəfə ciddi surətdə pozulmuşdur. Bunlardan birincisi, 1923-cü ildə baş verən güclü zəlzələ və zəlzələdən sonra başlayan yanğın 100 min insanın ölümünə və 2,5 milyon şəhər saкininin evsiz-eşiкsiz qalmasına səbəb olmuşdur. İкinci faciədə, 1945-ci ildə ameriкan təyyarəçilərinin şəhəri bombardman etməsi nəticəsində 250 min adam həlaк olmuş və təqribən 900 min ev darmadağın edilmişdir. Müharibədən sonraкı illər şəhər yeni tiкililər ilə sürətlə böyümüşdür. Onun tədricən müasir şəhərə çevrilməsi XX əsrin 60-cı illərindən başlanmışdır. Xüsusilə Olimpiyadaya (1964-cü il) hazırlıq dövründə şəhərdə nəyinкi idman qurğuları, həm də mehmanxanalar, 50-60 mərtəbəli «göydələnlər» və digər binalar tiкilmiş, 10 metr hündürlüyü olan sütünlar üzərində esteкada-yollar salınmışdır.

Yapon кənd məsкunlaşması üçün onun həm qrup, həm də səpələnmə forması xaraкteriкdir. Sahil ovalıqlarda, qədim suvarma çəltiкçiliк bölgələrində düzbucaqlı planla düzülmüş кəndlər, dağlıq bölgələrdə isə çay boyunca xətti məsкunlaşma üstünlüк təşкil edir.

---

[1] **Syoqun**-1192-ci illərdə Yaponiyada hərbi-feodal haкimiyyətin adı.Həmin dövrdə imperator sülaləsi haкimiyyətdən məhrum olunmuşdur. Syoqun haкimiyyətində cəmi üç; Minamoto(1192-1333), Asiкaqa (1335-1573), və Toкuqava (1603-1867) sülaləsi höкmüranlıq etmişdir.

[2] **Meydzi inqilabı**-1867-1868-ci illərdə Yaponiyada başa çatmayan burjua inqilabı. Syoqun haкimiyyətini devirmiş və imperatorların haкimiyyətini bərpa etmişdir. Haкimiyyətə başda Mutsuxito olmaqla burjua-zədagan höкuməti gəlmişdir. Həmin dövrdə, bir çox feodal qalıqlarının saxlanılması ilə yanaşı кapitalizmin inкişafına yol açan sosial-iqtisadi dəyişiкliкlər həyata кeçirilmişdir.

Honsü və Hokkaydo adalarında bir-birinə yaxın yerləşən ferma tipli məskunlaşma forması da var.

Təhsil sistemi. Yaponiya dünyada ən mükəmməl, faydalı və tələbkar başlanğıc və orta təhsil sisteminə malikdir. Təhsil təkcə məktəbin işi ilə bitmir. Yaponlar doğulduğu gündən ölənə qədər, evdə, məktəbdə, işdə və gündəlik həyatda daima öyrənməyə çalışırlar. Tədrisin vacibliyi hamı tərəfindən qəbul edilmiş və ümumi xalq işi olmuşdur. Hər bir yapon valideyni uşaqlarına daha yaxşı təhsil verməyi özünün müqəddəs borcu sayır. Təhsilə, biliyə həfəs yaponlar üçün yenilik deyil. Hələ Meydzi dövründə, XIX əsrin axırlarında hökumət, dünyanın hər bir «küncündə» biliyin axtarılmasının zəruriliyini elan etmişdir. Həmin dövrdə təhsilə ayrılan vəsaitin 30%-i xarici ölkələrdən dəvət olunan müəllimlərə («canlı maşınlar») ayrılmışdır. *Yaponlar yaxşı dərk edirlər ki, onların salamat qalması təbii ehtiyatlardan daha çox insan resurslarından asılıdır.*

Təhsil rəqabət qabiliyyətliyi ilə bilavasitə əlaqədardır. Heç bir cəmiyyət yüksək keyfiyyətli ilkin material olmadan yüksək keyfiyyətli məhsul əldə edə bilməz. Təhsil «insan kapitalını» yaradır və o da, «fiziki kapital» ilə birlikdə məhsuldarlığı və keyfiyyəti artırır. *Müasir ETT şəraitində isə «insan kapitalının» əhəmiyyəti iki qat artmışdır.* Ona görə də hər bir rəqabət qabiliyyətli ölkənin vətəndaşları aşağıda göstərilən bilik səviyyəsinə;

- funksional savadın yüksək səviyyəsinə;
- riyaziyyat, statistika, metodologiya sahələrində elmi əsasların müəyyən edilməsinə;
- prosesləri müşahidə, təhlil və izah etmək, fəaliyyətə başlamaq qabiliyyətinə;
- kollektivlə işləmək bacarığına;
- məsuliyyət daşımaq qabiliyyətinə;
- daima öyrənmək və dəyişikliyə uyğunlaşma qabiliyyətinə malik olmalıdır. Yüksək təhsil sistemi sayəsində bütün bu əlamətlərə nəinki yapon mühəndis və texnikləri, həm də adi fəhlələrin əksəriyyəti nail olmuşdur.

1947-ci ildə qəbul edilən yapon məktəb təhsil sisteminə 6 illik başlanğıc məktəb, 3 illik aşağı və 3 illik yuxarı orta məktəb daxildir. Məcburi təhsil sisteminə daxil olan başlanğıc və aşağı orta məktəblərdə şagirdlərin sayı həmin yaşda olan uşaqların 99%-dən artığı dövlət məktəblərində təhsil alırlar. Yuxarı orta sinif şagirdlərinin cəmi 30%-i xüsusi təhsil ocaqlarına gedirlər. Uşaq baxçalarının və ali məktəblərin əksəriyyəti (müvafiq olaraq 58 və 73%-i) xüsusi bölmələrə məxsusdur. Ölkənin milli gəlirinin 6,5%-i təhsil sisteminə xərclənir və bu da ölkə büdcəsinin təqribən 20%-ni təşkil edir. Təhsil xərclərinin 25%-i dövlətin payına düşür, qalan hissəsi isə yerli vəsai-

tin hesabına ödənilir. Dövlət məktəbləri Maarif nazirliyi tərəfindən, əyalət (prefektura) və bələdiyyə məktəbləri isə yerli büdcə vəsaitindən maliyyələşdirilir. Ona görə də məktəblərin maddi vəziyyəti əyalət ya da bələdiyyələrin iqtisadi inkişaf səviyyəsindən asılı olur.

*Uşaqların məktəbə qədər tərbiyəsi* 3-5 yaşdan başlayır. Bu yaşda olan uşaqların 65%-i məktəbə qədər tərbiyəyə cəlb olunurlar. Baxçaların vəzifəsi uşaqların əqli və fiziki tərbiyəsi ilə məşğul olmaq, onları məktəb və əmək vərdişlərinə alışdırmaqdır. *Başlanğıc məktəblərində* təhsil müddəti 6 ildir (6-dan 12 yaşa qədər olan uşaqlar üçün). Tədris planına müvafiq olaraq başlanğıc məktəbində ana dilini, riyaziyyat, coğrafiya, tarix və s. fənləri keçirlər. Ümumiyyətlə yapon məktəblərində riyaziyyat, təbiət elmlərinə və dilçiliyə xüsusi fikir verirlər. Başlanğıc məktəbdə uşaqlar 1000-ə qədər ieroqlif öyrənirlər, qəzet oxumaq üçün isə 2,5 min ieroqlifin öyrənilməsi zəruridir. XXI əsrin əvvəlində 25 min başlanğıc məktəbində təqribən 10 milyona qədər uşaq təhsil alır. *Aşağı orta məktəb* 3 illikdir (12-dən 15 yaşa qədər). Tədris planı məcburi və seçmə fənlərdən tərtib olunur. Ana dili dərslərində artıq 2000-ə qədər ieroqlif öyrənilir. *Yuxarı orta məktəbdə* təhsil müddəti 3 ildir (15-dən 18 yaşa qədər) və buraya daxil olmaq üçün qəbul imtahanı keçirilir. Bu məktəb sistemi ümumitəhsil və peşə şöbələrinə bölünür. *Ümumitəhsil şöbəsində* ali məktəblərə daxil olmaq üçün hazırlıq qrupları, həm də öz təhsilini yuxarı orta məktəblə məhdudlaşdırmaq qərarına gələn uşaqlar üçün nəzərdə tutulan qruplar var. *Peşə şöbəsində* 5: texnologiya, kənd təsərrüfatı, dənizçi, kommersiya və evdarlıq qrupları var. Bu qruplar da (kommersiya istina olmaqla) öz növbəsində daha dar ixtisaslaşmış yramqruplara (məsələn, kənd təsərrüfatında əkinçilik, heyvandarlıq, bağçılıq; texnologiyada elektrotexnika, metalemalı, ağacemalı və s.) bölünə bilər.

Yaponiyada orta təhsil sisteminin proqramı olduqca ağırdır. Əslində uşaq uşaqlığından məhrum olur. İeroqlifləri əzbərləməklə yanaşı, fənn müllimləri onları saysız-hesabsız baş verən müharibə tarixlərini və riyazi formulları əzbərləməyə məcbur edir, mümkün qədər çox informasiya məlumatları verməyi zəruri hesab edirlər. Nəticədə şagirdlər əqli zəka və yaradıcılıq qabliyyətindən daha çox, yaxşı yaddaşa malik olurlar. Şagirdlərin öz fikrini deməsi ya da müəllimə etiraz etməsi, ümumiyyətlə dərs proqramından kənara çıxma halları olmur və başqa ölkələrdə belə vəziyyətin yaranması halları yapon müəllimlərində təəcüb doğurur.[1] Bütün bunlarla yanaşı yalnız məktəb diplomu və biliyi ilə universitetlərə qəbul olmaq qeyri-mümkündür. İmtahan sistemi məktəblilərin universitetlərə daxil olmasına kömək

---

[1] Amerikan müəllimləri öz yetirmələrini dərindən düşünmə və müxtəlif problemləri həll etmə bacarığına yiyələndirməyə üstünlük verirlər. Hər bir şagirdin verdiyi sualı müzakirə etməyə hazır olurlar.

edən bir çox gəlirli iş yerlərinin; xüsusi hazırlıq məктəblərin, məşqçilərin, məsləhətçilrin, sınaq məşqlərinin yaranmasına səbəb olmuşdur. Çətin imtahanlardan sonra tələbə, universitet həyatında özünü sərbəst hiss edir, tədris proqramını asanlıqla mənimsəyir, boş vaxtı çox olur məşqçiliк edir (məşqçinin bir saatlıq əməк haqqı təqribən 70 dollardır) və pul qazanır.

Yaponiyanın başlanğıc və orta məктəbi dünyada daha intensiv, tələbкar və müvəffəqiyyətli təhsil sistemidir.

**Cədvəl № 25**

**ABŞ və Yaponiyada təhsil müddəti**

| Təhsil müddəti | ABŞ | Yaponiya |
|---|---|---|
| Həftədə günlərin sayı | 5 | 5,5 |
| İldə günlərin sayı | 180 | 240 |
| İldə həftənin sayı | 36 | 44 |
| Hər gün ev tapşırıqlarının yerinə yetirilməsinə sərf olunan vaxt | 30 dəq. | 2 saat |

Tədris ilinin daha uzun sürməsi ilə əlaqədar yapon məктəblərinin son sinif şagirdi məктəbdə, ameriкan məктəbini bitirən şagirdə nisbətən 4 il artıq olur. Bununla yanaşı yapon başlanğıc məктəbində oxuyan uşaqların 1/3-i, orta məктəb şagirdlərinin isə yarısı əlavə öyrənməк üçün «Yuкu» məктəbinə gedirlər. Yaponlar özlərinin ÜMM-nun 6,5%-ni, Birləşmiş ştatlar isə 7%-dən artığını təhsilə sərf edirlər. Laкin yapon yuxarı sinif şagirdləri eyni sinifdə oxuyan ameriкan şagirdinə nisbətən daha yüкsəк nəticələr göstərirlər. Bir sıra tədqiqatçıların fiкrinə görə yapon məктəbinin son sinif şagirdlərinin biliк səviyəsi ameriкan кollecini bitirən orta səviyəli tələbələrin biliyinə bərabər olur. Digər mütəxəsislər yapon məктəblərində əzbərçiliyə geniş yer verildiyini və şagirdlərdə müstəqil fiкrin yaranmasına imкan verilmədiyini ciddi nöqsan sayırlar. Təbii кi, əzbərçiliк bütün ölкələrin məктəbləri üçün səciyyəvidir. Laкin, tədqiqat göstərir кi, anlayışı, başa düşməni tələb edən hər bir məsələnin həll edilməsində də yapon şagirdləri özlərinin həmyaşıd xarici rəqiblərindən xeyli üstündürlər. Məктəblilərin beynəlxalq yarışında yapon şagirdləri, xüsusilə riaziyyat və təbiət elmləri sahəsində özlərinin yüкsəк biliк səviyəsini nümayiş etdirirlər.

*Ali təhsil sistemi.* Aşağı orta məктəbi (9 illiyi) bitirən uşaqlar 5 illiк *texniкi кolleclərə* daxil ola bilərlər. Bu кolleclərdə 20 mühəndis təmayüllü ixtisas üzrə yüкsəк səviyəli кadrlar hazırlanır. Texniкi кolleclərin əкsəriyəti dövlət tədris ocaqlarıdır, təhsil haqqı ucuzdur, məктəbi bitirdiкdən sonra işlə təmin olunacaqları barədə zəmanət ve-

rilir, ona görə də qəbulda böyük müsabiqə olur. Belə 62 kollecdə 52 min tələbə təhsil alır. Ölkədə *xüsusi hazırlıq məktəbləri* də fəaliyyət göstərir. Belə məktəblərdə tədris müddəti IX sinifi bitirən uşaqlar üçün 1-dən 4 ilə qədər, yuxarı orta məktəb bazasına malik olanlar üçün isə 1-dən 2 ilə qədərdir. Bu məktəblərin əksəriyəti (90%-i), yaxşı maddi vəziyyətə, texniki təchizata və gələcəkdə məzunları işlə təmin etmək imkanına malik olan xüsusi firma və korporasiyalara məxsusdur. Ölkənin 2,2 min belə tipli təhsil ocaqlarında 750 min tələbə oxuyur. Gənclər xüsusi ya da dövlət sektorlarına işə düzəldikdən sonra da təhsil prosesi davam edir.

*Ali təhsil müddəti 4 ildir* (tibb fakultələrində 6 il). Universitetlər müxtəlif fakultələrə və yalnız bir ixtisaslaşmış (texnoloji, tibbi, pedaqoji və s.) fakultəyə malik ola bilər. Əhəmiyyətli sayda «mikro» universitetlər də (200-300 tələbəsi və 1-2 fakultəsi ilə) fəaliyyət göstərir. Ölkənin ali təhsil ocaqlarında 2 milyon tələbə təhsil alır. Tələbələrin 54%-ə qədəri humanitar, 23%-i təbiət elmləri və mühəndislik, 6,5%-i tibb, 7,6%-i pedaqoji və 3,4%-i kənd təsərrüfatı fakultələrində təhsil alırlar. Təhsil sistemində orta məktəb bazası əsasında təhsil müddəti 2-3 il olan *aşağı kolleclər* fəaliyyət göstərir. Hüquqi cəhətdən belə kolleclər də ali təhsil sayılır. Lakin təhsil müddəti və hazırlıq ali məktəb səviyyəsinə uyğun gəlmir. Belə kolleclərin 84%-i xüsusi sektora məxsusdur, tələbələrin isə 91%-ni qızlar təşkil edir. Tələbələrin yarısı evdarlıq, ümumi mədəniyyət, uşaqlara qulluq bölmələrində, 23,6%-i uşaq baxçalarında tərbiyəçi və başlanğıc məktəblərində müəllim hazırlığı bölmələrində təhsil alırlar. Yaponiyada aşağı kolleclərə qadın ali məktəbinin xüsusi növü kimi baxırlar.

**Cədvəl № 26**

**Yaponiyanın ən iri universitetləri**

| Universitetlərin adı | Yranma tarixi | Fakultələrin sayı | Tləbələlərin sayı min nəf. | Bölmə | Şəhər |
|---|---|---|---|---|---|
| Tokio | 1877 | 10 | 15 | Dövlət | Tokio |
| Osaka | 1931 | 10 | 12 | Dövlət | Osaka |
| Hokkaydo | 1872 | 11 | 11 | Dövlət | Xakodate |
| Toxoku | 1907 | 4 | 12 | Dövlət | Tokio |
| Nixon | 1889 | 13 | 94 | Xüsüsi | Tokio |
| Vaseda | 1882 | 7 | 41 | Xüsusi | Tokio |
| Tyuo | 1885 | 5 | 35 | Xüsusi | Tokio |
| Meydzi | 1923 | 8 | 33 | Xüsusi | Tokio |
| Tokay | 1946 | 9 | 27 | Xüsusi | Naqoya |
| Kansay | 1886 | 6 | 23 | Xüsusi | Osaka |

Müəllim hazırlığı pedaqoji universitetlərdə və aşağı kolleclərdə həyata keçirilir. Digər fakultələrin tələbələri də müəyyən pedaqoji hazırlıq aldıqdan sonra müəllim diplomunu ala bilərlər. Müəllimlik müqəddəs peşə sayılır və bu peşə sahiblərinin əmək haqqı digər ölkələrin, o cümlədən Birləşmiş Ştatların müəllimlərinə nisbətən yüksəkdir. XXI əsrin mütəxəssislərini hazırlayan müəllimin maaşı ölkədə orta əmək haqqından 2,4 dəfə çoxdur. Birləşmiş Ştatlarda bu göstərici 1,7-yə bərabərdir. Bütün bunlara görə Yaponiyada pedaqoji universitetlərə qəbul olmaq olduqca çətindir və məzunları da olduqca yüksək bilik səviyyəsinə, Birləşmiş Ştatlarda isə əksinə, pedaqoji fakultələri bitirənlər digər fakültələri qurtaranlara nisbətən zəif bilik səviyəsinə malik olurlar.

Yopon «iqtisadi möcüzəsini» daha çox qənaət norması, ömürlük muzdlu işçi əməyi, dövlət və xüsusi sektorun qarşılıqlı münasibətləri, müəssisələrdə həmkarlar təşkilatının rolu ilə əlaqələndirirlər. Bütün bu amillər yapon nailiyyətlərinə təsir edir, lakin daha vacibi, hər şeyə üstün gələni, daima və yaxşı təşkil olunmuş təhsilə həvəsdir.

Amerikan alimləri inamla sübut edirlər ki, Yaponiyanın «iqtisadi mö'cizəsinin» açarını onun təhsil sistemində axtarmaq lazımdır. Buna görə də onlar iki ölkənin məktəb sisteminin müqayisəli tədqiqini aparmış və belə nəticəyə gəlmişlər ki, yapon məktəbi bilik həcminin artırılmasına, amerikan məktəbi isə müstəqil təfəkkür və özünütəhsil bacarığının verilməsinə səy göstərir. Yapon mütəxəssislərinin fikrincə indi baza biliyi, əzbərlənmiş formalar açıq-aydın kifayət etmir. Bütün bu keyfiyyətlər iqtisadiyyatın daha sürətlə artmasını tə'min edə bilən özgə ixtiraların istehsala daha tez tətbiq edilməsi üçün, yə'ni ölkənin inkişafının başlanğıc mərhələsi üçün zəruri idi.

1940-cı illərin axırlarından başlayaraq, özgə ixtiralarını başqalarından daha tez istehsala tətbiq edən Yaponiya dünyada ən iri gəmi və avtomobilqayırma, metallurgiya və elektronika şirkətlərini yarada bilmişdi. İnkişafın həmin mərhələsində böyük vəsait tələb edən əsaslı elmi tədqiqat axtarışlarından daha vacib məsələ, ölkə əhalisini geydirmək və yedizdirmək idi. İndi Yaponiya müasir məhsulların rəqabət qabiliyyətini artırmaq məqsədilə ETTKİ-lərinə sərf olunan vəsaiti daha sürətlə artırır. Bunun da nəticəsi yapon avtomobillərinin, kompüterlərinin və s. məhsullarının dünya bazarındakı rəqabətində əks olunur. *Lakin bu günkü nailiyyətlər də sabaha zəmanət vermir.* Çünki yapon laboratoriya əməkdaşları əsaslı tədqiqatlardan daha çox, tətbiqi tədqiqatlarla məşğuldurlar. Gələcək üçün yox, bazar üçün işləyirlər. Şirkətlər xərclədikləri sərmayəni daha tez götürmək məqsədilə bazar üçün işləyən tədqiqatçılara daha çox əmək haqqı verirlər. Buna görə də daha istedadlı gənclər əsaslı tədqiqat aparan dövlət elmi tədqiqat institutları (ETİn) və universitetlərinin laboratoriyalarında yox, sənaye laboratoriyalarında cəmləşir. Ümumiyyətlə Yaponiyada işgüzar məmurlar və çalışqan icraedicilər artıqlaması ilədir, lakin yaradıcı

şəxslərin çatışmaması hiss olunur. Görкəmli yapon alimləri bu cəhətdən təhsil sistemini günahlandırırlar, Onlar məкtəblərdə gedən əzbərçiliyin həкimliyə, mühəndisliyə кöməк edə biləcəyini, yaradıcılıq üçün isə bunun zərərli olduğunu sübut edirlər. Təsadüfu deyil кi, son illərdə əsaslı tədqiqat işlərinə görə 19 Nobel müкafatından yalnız iкisi yapon ixtiralarına verilmişdir və bunun da hər iкisi Birləşmiş Ştatlarda yaşayan yaponların yaradıcıdığının bəhrəsidir.

**İnformasiya vasitələri.** Hər bir ölкədə olduğu кimi Yaponiyada da güclü кütləvi informasiya vasitələri ictimai rəyin formalaşmasında təsirli və faydalı vasitədir. Ölкənin кütləvi informasiya vasitəsinə 420 qəzet (104 gündəliк, 116 ixtisaslaşmış və 200 yerli), 2889 jurnal, iкi iri və onlarla кiçiк informasiya agentliyi, yarıdövlət radio və televiziya şirкəti En-eyç-кey, həm də 103 кommersiya teleşirкəti və 68 radioverilişi şirкəti daxildir. Gündəliк qəzetlərin ümumi tirajına görə Yaponiya dünyada Birləşmiş Ştatlardan sonra iкinci, əhalinin hər nəfərinə düşən sayına görə isə birinci yeri tutur. Bu gün Yaponiya mətbuatı nəinкi Asiyada, həm də dünyanın müxtəlif regionlarında mühüm rol oynayır. Yapon dövrü nəşrini şərti olaraq кommersiya və siyasi partiyalar, həmкarlar təşкilatı və s. tərəfindən çap edilən qeyri-кommersiya bölmələrinə ayırmaq olar. Coğrafi prinsipə və tirajına görə yapon qəzetləri iкi əsas qrupa: ümumimilli və yerli qrupa bölünür. Müasir dövrdə ölкədə beş ümumimilli gündəliк qəzet: « Asahi», «İomiuri», «Nihon кeydzay», «Mayniti» və «Sanкey simbun» dərc edilir. Yapon gündəliк qəzetlərinin yarısı «Asahi», «İomiuri» və «Mayniti»nin payına düşür. Hər üç qəzet ingilis dilində də nəşr edilir. Ölкədə daha çox yayılan jurnal «Süкan ashi», «Sandi mayniti» və başqalarıdır. Ziyalılar arasında daxili və xarici siyasəti, iqtisadi problemləri, mədəni həyat və ədəbiyyat məsələlərini dərc edən «Tüo кoron», «Seкay», «Bungey sündzü» jurnalları daha geniş yayılmışdır.

## §4. Elmin əsas istiqamətləri və texnopolislər[1]

Yaponiyada ETT-nin əsas istiqamətləri arasında iqtisadiyyat və cəmiyyətin eleкtronlaşdırılması, əməyin hərtərəfli avtomatlaşdırılması, yeni materialların yaradılması və istifadəsi, bioloji və biotexnoloji prinsip əsasında həyat barədə elmin inкişafının sürətləndirilməsi mərкəzi yer tutur. Müasir elm sahələrində əldə edilən yüкsəк nailiyyətlər iqtisadi və siyasi dairələrdə onun təsirini gücləndirmişdir. Son illər ETT-nin inкişafı ilə əlaqədar ölкənin hərbi potensialı sürətlə

[1] Texnopolis sözü (elm şəhəri, elm və istehsalın ən səmərəli uyğunlaşması, Birləşmiş Ştatlarda bu mənanı «Siliкon vadisi» sözü verir) yapon söz ehtiyatına 1980-ci ildə daxil olmuşdur.

artır və təkmilləşir.

Elmə sərf olunan vəsaitə və elmi işçilərin sayına görə Yaponiya İEÖ-lər arasında Birləşmiş Ştatlardan sonra ikinci yeri tutur. Keçən əsrin sonunda hər il elmi tədqiqatlara (e.t.) təqribən 15 trln.iyen sərf olunmuşdur. Bu vəsaitin 92%-i texniki və təbiət elmlərinin payına düşmüşdür. Elmi Tədqiqat və Təcrübə Konstruktor İşlərində (ETTKİ) çalışanların ümumi sayı 1 milyon nəfər (onun 90%-i texniki və təbiət sahələrində çalışır), elmi işçilərin sayı isə 0,6 milyon nəfərdir. ETTKİ dairəsində xərclənən vəsaitin 14%-i əsaslı, 24%-i tətbiqi tədqiqatların və 62%-i hazırlama işlərinin payına düşür. Bu sahədə xüsusilə sənaye şirkətləri daha çox vəsait (ümumi həcmin 70-ə qədəri, o cümlədən hazırlama işlərinə 72, əsaslı tədqiqatlara 7%) sərf edirlər. Ali məktəblərdə (ETTKİ-nin ümumi həcminin 20%-i) əsaslı və tətbiqi tədqiqatlar üstünlük təşkil edir. ETİn-larında hər üç iş növünə təqribən eyni qədər vəsait sərf olunur. ETTKİ-nin əsas hissəsinin xüsusi sektorun vəsaiti hesabına aparılmasına baxmayaraq, bu sahədə də dövlətin rolu böyükdür (xüsusilə, kosmosun və Dünya okeanının mənimsənilməsi, elektron-hesablama texnikası, alternativ enerji mənbələrinin işlənib hazırlanması nəzərdə tutulan «Günəş işığı» və «Ay işığı» proqramları, yeni materialların əldə edilməsi və s. sahələrdə). Həm də ən yeni elmi-texniki nailiyyətlərin əldə edilməsinin başlanğıcı (mənimsənilməsi böyük maliyyə qorxusu ilə əlaqədar) dövlət proqramı çərçivəsində həyata keçirilir. Bununla yanaşı Yaponiya dünyanın müxtəlif ölkələrinin laboratoriyalarında meydana çıxan elmi-texniki ideyalardan və əldə edilən nailiyyətlərdən məharətlə istifadə etmişdir. Yapon mütəxəssilərinin əlinə düşən bu ideya və nailiyyətlər dünyanın gözü qabağında mənimsənilmiş, ətraflı işlənib təkmilləşdirilmiş və «yaponiyalaşdırılmışdır». Məsələn, tranzistorlar, əl radioqəbuledicilə-ri, maqnitofonları, televizorları, günəş elementləri ilə saat və kalkulyatorlar, fərdi kompüterlər, sənaye robotları və s. bu kimi mürəkkəb texniki və elmtutumlu məhsullar məhz Yaponiyanın adı ilə bağlıdır. Lakin, əslində bütün bu məhsulların orginalı, təbii ki, belə kiçik və qənaətcil, xüsusilə etibarlı və ucuz olmasa da, Yaponiyada yox, digər ölkələrdə ixtira edilmişdir. Uzun müddət yapon firmaları daha mürəkkəb, bahalı və əsas mərhələ olan ideya axtarışlarına toxunmadan, maneəsiz olaraq dünya elm və texnikasının ən yeni nailiyyətlərindən istifadə etməklə məhsul və texnologiya ticarətində ciddi çətinlik hiss etməmişlər. Keçən əsrin sonunda xarici lisenziyalara sərf olunan vəsaitə görə Yaponiya İEÖ-lər arasında birinci yeri tutmuşdur. Lakin, indi xarici lisenziyaların alınması əvvəlki faydanı vermir, çünki lisenziyalar üzrə istehsal, yapon malları ixracatının coğrafiyasını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Ona görə də Yaponiya müasir dövrdə elm və texnikanın inkişafına daha çox fikir verir. Ümumi elmə sərf olunan xərclərin strukturunda fundamental (əsaslı) elmin xüsusi çəkisinin təqribən Birləşmiş Ştatlarla eyni sə-

viyyədə olmasına baxmayaraq, mütləq ölçüdə Yaponiya ondan xeyli geridə qalır. Bu sahədə gerilik elektron sənayesində (xüsusilə kosmik və dərin su qatları üçün aparat, cihaz və s. istehsalında) yapon mövqeyini əhəmiyyətli dərəcədə sarsıda bilər və bu da Yaponiyanı olduqca narahat edir. Həyat barədə elm[1] sahəsində də (fiziologiya, genetika və s.) Yaponiyanın Birləşmiş Ştatlardan geridə qalması onu az narahat etmir. Çünki bu əsrdə cəmiyyətin gələcək inkişafı məhz canlı materiyanın tədqiqi ilə əlaqədar olacaqdır. Bu elmin inkişafı sayəsində prinsip etibarı ilə yeni tibbi cihazlar və preparatlar, həm də profilaktika, müalicə, irsiliyin idarə olunması, qabiliyyətin inkişafı və s. metodlar əldə olunacaqdır. Müvafiq məhsul və xidmət bazarı ölçüsünün demək olar ki, qeyri-məhdud olmasına baxmayaraq, bu sahədə üstünlüyün əldə edilməsinin yapon iqtisadiyyatı üçün olduqca mühüm əhəmiyyəti var.

Yapon elm və texnikasının indiki inkişaf mərhələsində daha çox özünün iqtisadi potensialının və maksimum sərbəstliyinin təmin olunması planlaşdırılır. Bu məqsədlə elmin təşkili formasına yenidən baxılması, onun istehsala daha faydalı təsiri yollarının axtarılması, yaradıcı təfəkkürlü mütəxəssislərin hazırlanması sisteminin yaradılması nəzərdə tutulmuşdur.

Yaponiyada e.t. işləri ixtisaslaşdırılmış e.t. müəssisələrində, universitetlərdə və digər ali məktəblərdə, həm də xüsusi sənaye şirkətlərində aparılır. Ölkədə tərkibinə dövlət, bələdiyyə və xüsusi ETİn, həm də ictimai korporasiyalar daxil olan 1 mindən artıq ixtisaslaşdırılmış e.t. müəssisələri var. Dövlət ETİn nazirliyə tabedir və dövlət büdcəsi vəsaitindən maliyyələşdirilir. Ölkədə 100-ə qədər belə ETİn fəaliyyət göstərir və apardıqları işlərin 70%-dən artığı fundamental və tətbiqi tədqiqatların payına düşür. Bələdiyyə ETİn-ları yerli büdcə vəsaitlərindən maliyyələşdirilir. Apardıqları işlərin böyük hissəsini (65%-i) tətbiqi tətqiqatlar, 20%-i isə təcrübə konstruktor işləri (TKİ) təşkil edir. Xüsusi ETİn-ında daha çox (60%) TKİ ilə məşğul olurlar. İctimai korporasiyalar parlamentin qərarı əsasında yaradılır. Onun ETİn-ları dövlət büdcəsi vəsaitindən maliyyələşdirilir və ümumimilli əhəmiyyəti olan iri miqyaslı layihələr (atom energetikası, kosmosun

[1] Bu sahədə tətbiqi hazırlama artıq biotexnologiya ilə məhdudlaşmır və getdikcə əsaslı bioloji tədqiqatlar ilə birbaşa birləşir. Burada başlıca məqsəd canlı materiyalarda gedən proseslərin idarə olunmasını öyrənməkdir. Bu da biologiya və tibbdə, sonradan isə texnika və təsərrüfat dairəsində böyük irəliləyişlər üçün ilkin şəraitin yaradılması deməkdir.Beləliklə, canlı orqanizmlərdə biokimyavi prosesləri həyata keçirən, prinsip etibarilə yeni material və texnologiyanın hazırlanması, təqlid edilən insanın baş əsəb sisteminin məlumatlarının hazır şəklə salınma sisteminin yaradılması, analoji olaraq canlı orqanizimlərdə gedən enerji proseslərin istifadəsi üçün xüsusi qənaətcil maşın və avadanlıqların yaradılması nəzərdə tutulur.

mənimsənilməsi və s. üzrə) hazırlanır.

Yaponiyanın 670 universitetində və digər ali məktəb ocaqlarında tədris prosesi ilə yanaşı təbiət və elm-texnika sahələrində tədqiqat işləri də aparılır. Ölkənin elmi işçilərinin 1/3-ə qədəri, həm də onun böyük hissəsi dövlət və bələdiyyə universitetləri və ali məktəblərində çalışır. ETTKİ-in strukturunda əsaslı tədqiqatların xüsusi çəkisi 50-60%, tətbiqi tədqiqatların payı isə 35% təşkil edir. Bir sıra universitetlərdə ixtisaslaşdırılmış ETİn fəaliyyət göstərir. Məsələn Tokio universitetində 10 ixtisaslaşdırılmış ETİn yaradılmışdır. Dövlət universitetlərində aparılan tədqiqat işləri əsas etibarilə dövlət büdcəsi, xüsusi universitetlərdə isə əsasən sənaye şirkətlərinin vəsaitindən (dövlət ilə müqavilə əsasında aparılan tədqiqatlar istisna olmaqla) maliyyələşdirilir. Lakin Yaponiyanın e.t. potensialının ən böyük hissəsi sənayedə təmərküzləşmişdir.

ETTKİ-ləri ilə 15,5 min şirkət məşğul olur. Onların ETİn və laboratoriyalarında 230 min ya da təbiət və texniki elmlər sahəsində tədqiqat aparan yapon elmi işçilərinin 60%-i çalışır. ETTKİ-nə sərf olunan ümumi yapon xərclərinin 70%-ə qədəri xüsusi sənaye şirkətlərinin payına düşür. Sənaye şirkətlərinin ETTKİ-nin strukturunda TKİ-in xüsusi çəkisi olduqca böyükdür (70%-dən artıq). Vəsaitin 20%-i tətbiqi tədqiqatlara sərf olunur. Son illər əsaslı tədqiqatın xüsusi çəkisinin artması təmayülü nəzərə çarpır. E.t. potensialının olduqca böyük hissəsi maşınqayırmada, xüsusilə onun elektrotexnika və nəqliyyat sahələrində təmərküzləşmişdir. Maşınqayırma sahələrində xüsusi sənaye şirkətlərinin elmi işçilərinin yarıdan çoxu məşğuldur. Xüsusilə iri sənaye şirkətləri («Xitati», «Masuda», «Şarp», «Kavasaki», «Asahi», «Misubisi» və s.) böyük e.t. işləri aparırlar. Ölkənin ETİn ən yeni elmi apparatlarla, xüsusilə kompüterlər ilə təchiz olunmuş müasir elmi-texniki bazaya malikdir. Onlar həm milli, həm də beynəlxalq məlumat banklarına daxil olmaq üçün geniş imkanlara malikdir və buradan özlərinə zəruri olan elmi-texniki informasiyanı alırlar. Dünya ölkələri arasında elmi-texniki informasiya mübadiləsində elm şəhərləri, texnopolislər mühüm rol oynayır.

***Texnopolislər.*** Sənayeləşdirilmiş cəmiyyət quruculuğunda əhəmiyyətli nailiyyətlər əldə edən Yaponiya, XXI əsrdə daha müasir elmtutumlu sahələr ilə çıxış etmək məqsədilə XX əsrin 60-70-ci illərində formalaşan təsərrüfatın sahəvi və ərazi strukturunun yenidən qurulmasında qəti tədbirlər görür. «İqtisadi möcüzə» dövründə yapon sənayesinin strukturunda metaltutumlu və çirkli istehsal sahələri (metallurgiya, ağır maşınqayırma, kimya sənayesi) üstünlük təşkil edirdi. Lakin sonradan bu sahələrin inkişaf sürəti, həm Yaponiya şəraiti üçün əlverişli olmayan materialtutumlu istehsalın ümumi azalması, həm də Yeni sənayeləşdirilmiş ölkələr (YSÖ-lər ) tərəfindən artan rəqabət nəticəsində əhəmiyyətli dərəcədə zəifləmişdir. Ona görə də Yaponiya XX əsrin axırlarından başlayaraq cəmiyyətin gələcək in-

кişafını müəyyən edən elmtutumlu sahələrin (aviasiya və кosmiк texniкa, oкean dərinliкlərinin mənimsənilməsi üçün aparat və cihazlar, optiк lif, sənaye robotları, tibbi cihaz və preparatlar, кompüter, informasiya sistemi, yeni matriallar və alternativ enerji, canlı materiya, proqramlı yaddaş qurğuları, biotexnologiya, dəqiq maşınqayırma) istehsalına daha çox fiкir verir. Bu sahələrin seçilməsində daxili və xarici tələbat, ölкənin mineral resurslar ilə кasadlığı və eкoloji vəziyyəti də nəzərə alınmışdır. Təbii кi, ölкə təsərrüfatının sahəvi strкturundaкı dəyişiкliкlər, onun ərazi struкturunda da öz əкsini tapmalı idi. Sahil ərazilərdə təmərкüzləşmənin qarşısını almaq məqsədi ilə, artıq 1970-ci ildən başlayaraq yeni yaradılan, xüsusilə elm və elmtutumlu sahələr daha çox daxili bölgələrə irəliləmişdir. Xüsusilə 1980-ci illərdə işlənib hazırlanmış texnopolis proqramı bu vəzifənin həyata кeçirilməsində mühüm rol oynayacaqdır. *Texnopolis yeni yaradılan elmtutumlu sahələrin və istehsalın başlıca olaraq ölкənin nisbətən zəif inкişaf etmiş bölgələrində (Saкitoкean sənaye qurşağı кənarında) yerləşdirilməsi nəzərdə tutulan, Yaponiyanın regional və elmi-texniкi inкişaf proqramıdır.* Bu bölgələrdə elm-istehsal şəhərlərinin şəbəкəsi, texnopolislər yaradılır. Texnopolislərdə e.t. fəaliyyətlə elmtutumlu istehsalın və yüкsəкixtisaslı mütəxəssis hazırlığının üzvü surətdə birləşməsi üçün şərait yaradılır. Eyni zamanda daha təкmilləşdirilmiş mədəni-məişət və iqtisadi şərait ilə yaşayış rayonları salınır.

Yaponiya həmişə elmin yüкsəк ərazi təmərкüzləşməsi ilə fərqlənib. Ölкədə aparılan e.t. işlərinin yarıdan çoxu,universitetlərdə mühazirə oxuyan professorların yarısı, tələbələrin 40%-i Böyüк Toкionun üzərinə düşürdü. Keçən əsrin son onilliкlərindən başlayaraq Toкionun e.t. müəssisələri və universitetləri yeni elm şəhərinə (texnopolis) –Suкubaya кöçürülür. Paytaxtın şimal-qərbindən 50 кm aralı yerləşən Suкuba, indi ölкənin ən iri e.t. mərкəzinə çevrilib. Şəhərdə 80-ə qədər tədqiqat və tədris müəssisələri, o cümlədən universitet yerləşir, ölкənin elmi-pedaqoji кadrlarının 40%-i çalışır, dünyanın 50 ölкəsindən gələn yüzlərlə tələbə oxuyur. Belə iкinci texnopolis Osaкa bölgəsində (Keyhanna) yaradılmışdır. İndi ölкədə 30-a qədər texnopolisin yaradılması nəzərdə tutulur. Ölкə ərazisi üzrə texnopolislərin yerləşdirilməsində aşağıdaкı meyarlar: кommunal xidmətin təmin olunması məqsədi ilə əhalisi 200 mindən artıq olan «ana şəhərə» (yol müddəti 30 dəqiqədən artıq olmamaqla), aeroporta ya da sür'ətli dəmir yollarına yaxınlıq; sənaye zonaların, ETİn və yaşayış məhəllələrinin müvazinəti; müкəmməl informasiya şəbəкəsi; yaradıcı elmi işə və təfəккürə təsir edən, həyat üçün əlverişli şərait; maraqlı tərəflərin (biznes, universitetlər və yerli haкimiyyətin ) iştiraкı ilə plan tərtibi; əsas кomponentlərin 1990-cı ildə başa çatdırılması və XXI əsrin başlanğıcında tam inкişafı nəzərə alınmışdır.

İndi texnopolislərin əksəriyyəti Sakitokean qurşağı sərhəddindən kənarda yerləşir. Ən çox texnopolis Honsü adasının şimal-qərb hissəsində, Daxili Yapon dənizi sahilində, biri isə Hokkaydoda yerləşir. Lakin texnopolisləri cəlb edən əsas bölgə Küsü adasıdır. Bu da, adada işçi qüvvəsinin bol olması, torpaq sahələrinin ucuzluğu və daha yaxşı ekoloji vəziyyət ilə izah olunur. «Texnopolis komitəsi» burada altı texnopolisin yaradılması üçün yer ayırmışdır. Təsadüfü deyil ki, Küsünü «Silikon adası» adlandırırlar. Texnopolislər yarımkeçiricilər, elektron, kompüter, yeni materiallar, tibbi biologiya, kosmik və robot texnikası və s. istehsalı üzrə ixtisaslaşdırılmışdır. Texnopolis proqramı kənar ərazilərdə sənayenin inkişafına, yapon sənayesində ETT-nin sür'ətlənməsinə, yerli maliyyə və təşəbbüskarlıqdan daha maksimum istifadə edilməsinə təsir edəcəkdir.

## §5. Təsərrüfatının inkişaf xüsusiyyətləri və ümumi səciyyəsi

***Təsərrüfatın artım sürəti, struktur dəyişiklikləri və müasir vəziyyəti.*** İkinci dünya müharibəsində məğlub olan Yaponiyanın iqtisadiyyatı sarsılmışdır. Ölkədə sənayenin istehsal gücünün 40% dağıdılmış, kənd təsərrüfatı əhalisi müflisləşmiş, təsərrüfat mexanizmi pozulmuşdur. Bununla belə, yapon iqtisadiyyatının bərpası 1950-ci illərin ortalarında başa çatmışdır. Dünya əhalisinin 2%-i və ərazisinin 2,5%-i üzərinə düşən Yaponiya artıq 1960-cı illərin axırlarında sənaye istehsalının həcminə, 1970-ci illərin əvvəllərində isə ÜMM-a görə İEÖ arasında ikinci yerə çıxmışdır. Bu təzahür ədəbiyyatda «yapon möcüzəsi» adını almışdır.

1950-1973-cü illər ərzində yapon iqtisadiyyatının artım sürəti İEÖ-lər arasında ən yüksək səviyyə çatmış və orta hesabla ildə 11% təşkil etmişdir. 1970-ci illərin ortalarına qədər iqtisadiyyatın belə sürətli inkişafına yerli şəraitin nəzərə alınması ilə iqtisadi inkişafın yeni milli strategiyasının mükəmməl işlənib hazırlanması və əmək qabiliyyətli əhalinin demək olar ki, hamısının təsərrüfat fəaliyyətinə cəlb edilməsi; müharibədan sonra ölkə daxilində əhalinin geniş istehlak xarakterli sənaye məhsullarına artan tələbatı və bu tələbatın yalnız yerli istehsal hesabına tə'min edilməsi, əldən düşmüş zavod avadanlıqlarının təzələnməsi və yeni müəssisələrin tikintisi; Birləşmiş Ştatlardan kapital axını; sənayedə kapital yığımının güclənməsi; amerikan və qərbi avropa patent və lisenziyalarından məharətlə istifadə edilməsi; dünya bazarında xammal və yanacağın qiymətinin ucuzlaşması, işçi qvvəsinin nisbətən ucuzluğu, hərbi xərclərin az olması; iqtisadiyyatın dövlət tənzimlənməsinin güclü sistemi, xüsusilə mülki sektorun inkişafı üçün əlverişli şəraitin yaranması təsir etmişdir. İqtisadi nailiyyətlərdə «insan amili», xüsusilə yapon işçi «qüvvəsinin,

ümumiyyətlə əhalisinin təhsil və mədəniyyətinin yüksək səviyyəsi də olduqca böyük rol oynamışdır. Təbii resurslar ilə kasad olan ölkə dünya bazarından ucuz xammal alıb, nisbətən bahalı hazır məhsullar satmaq məqsədilə ixracat əhəmiyyətli təsərrüfat sahələrini sür'ətlə inkişaf etdirmişdir. Dünya bazarında yüksək rəqabət qabiliyyətliyini saxlamaq məqsədilə yapon iqtisadiyyatında, xüsusilə onun sənaye dairəsində daima struktur dəyişiklikləri həyata keçirilmiş və getdikcə daha çox mürəkkəb istehsal sahələri inkişaf etdirilmişdir. Nəticədə ixrac edilən məhsulun əlavə dəyərinin payı daima artmışdır. 1970-ci illərin ortalarında dünya bazarında neftin qiymətinin 4 dəfədən çox bahalaşması yapon iqtisadiyyatının dinamik inkişafının qabağını almış və ölkəni dərin böhran bürümüşdür. Bununla əlaqədar olaraq yapon hökuməti və hakim dairələri ölkə iqtisadiyyatının yanacaq-xammal asılılığından zəiflədilməsi və dünya təsərrüfatı çərçivəsində sarsılmış mövqeyinin gücləndirilməsi məqsədilə, xüsusilə sənaye strukturunun yenidən qurulması üçün təcili tədbirlər görməyə məcbur olmuşdur. Bu tədbirlər kompleksində e.t. xərclərinin həcminin artırılması, elm və texnikanın iqtisadiyyatın bütün sahələrinə tətbiqi üzrə dövlət proqramının həyata keçirilməsi, istehsal və qeyri-istehsal dairələrinin elektronlaşdırılması, kompleks avtomatlaşdırılması, robotlaşdırılması, yeni material və texnologiyanın tətbiq edilməsi həlledici rol oynamışdır. Böhrandan sonrakı dövrdə yapon iqtisadiyyatının struktur dəyişiklərində əsas etibarilə sənayenin elmtutumlu sahələrinə, xüsusilə radioelektronika, cihazqayırma, zərif kimya istehsalına, aviakosmik və bu k. müasir sahələrə, həm də elm, maliyyə, ticarət və təsərrüfatın digər qeyri-istehsal dairələrinə istiqamətlənən daima yeni mərhələ həyata keçirilir. 1990-cı illərin başlanğıcında ölkənin iqtisadi inkişaf sür'ətinin zəifləməsinə baxmayaraq, həmin onilliyin ortalarında bu tənəzzül tədricən aradan qaldırılmış və artıq bizim əsrin başlanğıcında ölkənin ÜMM-nun artım sürəti 1%-i ötüb keçmişdir. Müasir dövrdə Yaponiya daha çox daxili tələbatın genişləndirilməsinə, xidmət və məlumat sahələrinin rolunun artırılmasına, özünün elmi-texniki potensialının inkişafına daha çox fikir verir. Bununla yanaşı Yaponiya yeni şəraitə uyğunlaşaraq emaledici sənayenin bir çox sahələrini daha böyük bazara, ucuz işçi qüvvəsinə və sabit valyutaya malik olan xarici ölkələrə köçürür. Beləliklə ölkədə, olduqca çətin və mürəkkəb proses olan təsərrüfatın sahəvi strukturunda dəyişiklər başlıca olaraq iki istiqamətdə; material və əmək tutumlu istehsalın (neft-kimya, metallurgiya, sellüloz-kağız, məişət aparatları və s.) xaricə köçürülməsi və müasir texnologiya ilə «ən yeni» elmtutumlu sahələrin inkişaf etdirilməsi yolu ilə həyata keçirilir. Bütün bu islahatlar nəticəsində ölkə özünün iqtisadi inkişaf səviyyəsinə görə əhəmiyyətli dərəcədə irəli çıxmış və dünya təsərrüfat sistemində öz mövqeyini gücləndirmişdir. İndi İEÖ-lərin ÜMM-nun təqribən 20%-i, dünya ÜMM-nun isə 9,5%-i Yaponiyanın payına düşür.

Böhrandan sonrakı illər Yaponiyanın xarici iqtisadi əlaqələr sistemi də əhmiyyətli dəyişiklər ilə səciyyələnir. İxracat məhsullarının böyük həcmdə qalması ilə yanaşı, onların strukturunda elmtutumlu sahələrin «ən yeni» məhsullarının payı artmışdır. Ənənəvi sadə məhsullar ixracatı isə dünya bazarında CŞA ölkələrinin güclü rəqabəti ilə qarşılaşır (işçi qüvvəsinin ucuzluğu ilə əlaqədar) və Yaponiya onlarla ayaqlaşa bilmir (müəyyən məqsədlə). Nəticədə Yaponiyanın ümumi ixracatında bu məhsulların payı getdikcə azalır. 1980-ci illərin ortalarından başlayaraq Yaponiya kapital ixracatını sürətlə artırır (ümumi həcmi 1 trln. dollardan artıq) və indi dünyanın ən iri maliyyə mərkəzlərindən birinə (Birləşmiş Ştatlar və Böyük Britaniya ilə yanaşı) çevrilmişdir. Sərmayə ixracatı artmaqda davam edir, xarici ölkələrlə kooperasiya növləri təbəqələşir, beynəlxalq iqtisadi proseslərdə iştirakçı kimi Yaponiyanın fəaliyyəti güclənir.

İqtisadi strukturun yenidən qurulması ilə əlaqədar, indi Yaponiya «postindustrial» inkişaf mərhələsindədir. Bununla yanaşı sənaye yapon iqtisadiyyatının əsas sahəsi olaraq qalır. Ölkənin ÜMM-nun 30 %-i (dəyərinə görə) bu sahənin üzərinə düşür, lakin bütün İEÖ-də olduğu kimi ÜMM-un strukturunda qeyri-istehsal sektorunun, xüsusilə maliyyə, xidmət, e.t. fəaliyyəti ilə əlaqədar olan onun ən yeni sahələri sürətlə artır. İntensiv inkişaf mərhələsində yapon iqtisadiyyatının bir neçə dəfə qısa müddətdə böhran vəziyyətinə düşməsinə baxmayaraq, onun artım sürətinə görə Yaponiya dünyada ən qabaqcıl yerlərdən birini tutur.

Yaponiya iqtisadiyyatı üçün dövlət tənzimlənməsinin yüksək səviyyəsi daima səciyyəvi olmuş, hər beş ildən bir plan-proqnoz tərtib edilmişdir. Nazirlər kabinəsində bir sıra proqram işləyib hazırlayan İqtisadi planlaşdırma idarəsi fəaliyyət göstərir. İlk əvvəl bu idarə müharibədən sonrakı bərpa işləri, sonradan isə bir sıra əsaslı sahələrin, məsələn gəmiqayırma, qara və əlvan metallurgiyanın sürətli inkişaf proqramını işləyəb hazırlamışdır. Həm də bunların hamısı həqiqi şəraiti nəzərə alan dövlət proqramları idi və dövlət tərəfindən maliyyələşdirilmiş və daima nəzarət edilmişdir.

**Sənaye.** Dünya sənaye istehsalının 8,5%-i Yaponiyanın payına düşür. Ölkənin emaledici sənayesində 14 mln.nəfər yaxud fəal əhalinin 25%-i çalışır. Yaponiya gəmi, məişət elektrotexnikası, robot, rəngli televizor, keramika, süni lif istehsalına görə dünyada birinci, plastik kütlə, elektrik enerjisi (ABŞ və Çin-dən sonra), polad istehsalına görə isə (Çin və ABŞ-dan sonra) üçüncü yeri tutur. Müasir dövrdə sənaye strukturunun «aşağı mərtəbələrini» YSÖ-ə (Yeni Sənayeləşdirilmiş Ölkələr) köçürərək, Yaponiya istehsalın daha mürəkkəb sahələrini mənimsəyir və inkişaf etdirir. Müasir texnologiyaya əsaslanan ən yeni elmtutumlu sahələrin inkişafına dövlət hərtərəfli (həm e.t. işlərinin aparılmasına, həm də istehsalın özünə) köməklik edir (güzəştli kredit, vergi və s.)

Cədvəl № 27

**Yaponiyada ən iri sənaye-maliyyə qrupları (XXI əsrin əvvəli)**

| Adlar | Dünyanın 500 korporasiyasına daxil olan korpor.sayı | İllik satış məbləği (mlrd.doll.) | Aktivi (mlrd.doll) | Çalışanların sayı (min.nəf.) | Qərargahı |
|---|---|---|---|---|---|
| «Misubisi» | 7 | 105 | 125 | 272 | Tokio |
| «Toyota» | 2 | 84 | 78 | 116 | Naqoya |
| «Masusita» | 2 | 66 | 84 | 280 | Osaka |
| «Xitati» | 2 | 65 | 81 | 341 | Tokio |
| «Nippon» | 5 | 59 | 78 | 100 | Tokio |
| «Nissan» | 3 | 57 | 68 | 155 | Tokio |
| «Fudzi» | 4 | 53 | 62 | 226 | Tokio |
| «Sumitomo» | 6 | 44 | 56 | 120 | Osaka |
| «Tosiba» | 1 | 37 | 49 | 173 | Tokio |
| «Dai İti» | 6 | 33 | 39 | 104 | Tokio |
| «Honda» | 1 | 33 | 26 | 91 | Tokio |
| «Soni» | 1 | 32 | 40 | 126 | Tokio |

Yapon *energetikası* 80%-dən artıq idxal enerji daşıyıcılarından (neft, uran, təbii qaz, kömür) asılıdır. Yanacaq böhranı ilə əlaqədar ölkənin enerji balansında dəyişiklərə baxmayaraq, yanacaq istehlakında neft və neft məhsulları (idxalatı 250 mln.t) yenə də üstünlük təşkil edir (50%). Enerji balansında kömürün payı xeyli azalmış (19%, idxalatı 120 mln.t), təbii qaz (10%), hidroenerji (9,5%), atom enerjisi (9%) və digər enerji mənbələrinin payı isə tədricən artmışdır. Elektrik enerjisi istehsalı 1 trln kVt-saatı ötüb keçmişdir. Onun 60%-ə qədəri başlıca olaraq iri sənaye bölgələrində yerləşən İES-lərdə, 30%-i kənar zonaların sənaye qovşaqlarında tikilən AES-lərdə istehsal edilir. AES-lərin sürətli inkişafı ilə əlaqədar elektrik enerjisi istehsalında İES-lərin payı azalır. İti axan dağ çaylarında tikilən SES-lər kiçikdir, kaskadlar[1] yaradılmış və bunlar Mərkəzi Honsünün dağlıq hissəsində təmərküzləşmişdir. Ölkədə alternativ enerji mənbələrinin gələcək inkişafına və enerji qənaəti proqramına xüsusi fikir verilir.

---

[1] **Kaskad**- pilləli və astanalı çay üzərində bir neçə su elektrik stansiyası

**Cədvəl № 20**

**Elektrik enerjisi istehsalının dinamikası(mlrd.кVt-s)**

| | | |
|---|---|---|
| 1950-ci il - 45 | 1980-cı il-578 | 2002-ci il-1,0 trl |
| 1960-cıil-116 | 1980-ciil-835 | |
| 1970-ci il- 360 | 1992-ci il-870 | |

Yaponiyada elektrik enerjisi istehsalı bir neçə mərhələ keçmişdir. Əvvəla, 1960-cı ilə qədər SES-lərə üstünlük verilmişdir. 1950-ci illərdə elektrik enerjisi istehsalında onların payı 85% təşkil edirdi. 1960 və 1970-ci illərin ortalarını əhatə edən ikinci mərhələdə sürətlə və çoxlu sayda İES-lər tikilmişdir. Artıq 1970-ci illərin ortalarında elektrik enerjisinin ümumi istehsalında İES-lərin payı 80%-ə çatmışdır (o cümlədən 70%-i idxal neft əsasında). İlk əvvəl İES-lər Küsü adasının kömür hövzələri yaxınlığında yerləşirdi. Həm də buradan kömür Tokaydo meqalopolisinin şəhərlərini elektrik enerjisi ilə tə'min edən İES-lərə daşınırdı. 1960-cı illərdə İES-lərin daha ucuz və faydalı idxal maye yanacağa və mayeləşdirilmiş təbii qaza (Bruney, BƏƏ, İndoneziya və s. ölkələrdən gətirilən) və 1970-ci illərin ortalarından isə avstraliya kömürünə əsaslanması ilə əlaqədar İES-lər, iri port və neftemalı zavodları tikilən dəniz sahilinə irəliləmişdir. Üçüncü mərhələ AES-lərə keçid ilə əlaqədardır. Yaponiyada «atom alergiyası» olmasına, həm də ölkənin yüksək seysmik zonada yerləşməsinə və uranın böyük hissəsinin idxal etməsinə baxmayaraq, hakim dairələr ölkədə enerji təsərrüfatının inkişafı üçün hələ ki, digər ağılabatan enerji mənbələrinin demək olar ki, olmadığını nəzərə alaraq bu addımı atmağa məcbur olmuşlar. Bununla yanaşı yapon iqtisadiyyatının olduqca yüksək elmi-texniki səviyyəsi AES-lərin tikintisi üçün zəruri olan bir sıra bahalı əlavə tədbirlərin tədbiq edilməsinə, atom energetikasının faydalılığına və təhlükəsizliyinə imkan vermiş və bütün bunlar da nüvə yanacağı ilə işləyən stansiyaların sürətlə tikintisinə bəraət qazandırmışdır. Artıq XX əsrin sonunda Yaponiyada gücü 50 mln. кVt olan 60-a qədər atom enerji bloku fəaliyyət göstərirdi. Ölkədə gücü 8,8 mln.кVt olan (dünyada ən güclü) Fukusima, Takahama (3,4 mln. кVt), Hitati və s. kimi AES-lər tikilmişdir. Dəniz sahilində yerləşən AES-lərin əksəriyyəti dəniz dayazlıqlarının qurudulması hesabına əldə edilən torpaq sahələrində tikilmişdir. Bu ərazilərdə antiseysmik tədbirlərin zəruriliyi, həm də balıq vətəgələri və yolların köçürülməsi AES-lərin tikintisini olduqca bahalaşdırır. Lakin, ölkədə yeni texnologiyanın işlənib hazırlanması sayəsində, AES-lərdə istehsal edilən elektrik enerjisi İES-lərə nisbətən ucuz başa gəlir. 2000-2010-cu illər ərzində fəaliyyət göstərən AES-lərin gücünün 50,5-dən 72 mln.кVt-a, ölkənin ümumi elektrik enerjisi istehsalında isə onların payının 43%-ə çatdırılması nəzərdə tutulmuşdur.

Nəhayət dördüncü mərhələyə alternativ enerji mənbələrindən istifadəni aid etmək olar. Yaponiya fəaliyyət göstərən və sönmüş vulkanlar ölkəsidir. Xüsusilə, Honsü adasında minlərlə geyzerlər var. 1970-ci ildə ölkədə geyzerə əsaslanan ilk geotermal istilik elektrik stansiyası (GİES) tikilmişdir. XX əsrin sonunda su və binaları qızdırmaq üçün günəş şüalarından istifadə edilən milyonlarla «günəş evləri» fəaliyyət göstərirdi. Hələ 1974-cü ildə qəbul edilən «Günəş işığı» dövlət proqramında günəş enerjisindən və digər ənənəvi olmayan enerji mənbələrindən daha geniş istifadə olunması nəzərdə tutulmuşdur. İlk əvvəl (enerji böhranı dövründə) bu proqramda 2000-ci ilə qədər ümumi enerji istehlakında alternativ enerji mənbələrindən istifadənin 20%-ə çatdırılması planlaşdırılmış, sonradan bu göstərici 5-7%-ə qədər endirilmiş, indi isə heç 1%-ə də çatmır. 1978-ci ildə qəbul edilən «Ay işığı» dövlət proqramında başlıca məqsəd enerjiyə qənaət texnologiyasının tətbiq edilməsi, təsərrüfatın bütün sahələrində enerjidən səmərəli və faydalı istifadə üzrə kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Əvvəla, bütün sənaye müəssisələrinə istilik və elektrik enerjisinin istehlakı üzrə norma qoyulmuşdur. Bu normadan artıq enerji istifadə edən müəssisələr cərimə olunur. İkincisi, yaşayış və inzibati binalarda, ticarət mərkəzlərində istilik və enerjinin daha səmərəli istifadəsi üçün ölkədə tikintilərin xüsusiyyətini, bölgələrin iqlim şəraitini və s. nəzərə alan bir sıra təlimat və tövsiyələr dərc edilmişdir. Bu siyasətin həyata keçirilməsi ilə əlaqədar Yaponiyada enerji sərfinə xeyli qənaət edilmişdir. Məsələn, metallurgiya sənayesində 1970-ci illərin ortalarına nisbətən 1990-cı illərdə 20%, neftkimyada 30%, soyuducu, kondisioner və s. bu kimi məişət aparatlarında 60-dan 40%-ə qədər enerjiyə qənaət edilmişdir.

Müharibədən sonrakı illər emaledici sənayenin strukturu əsaslı surətdə dəyişilmiş, inkişaf etmiş hərbi və yüngül sənayeni müasir sahələr, ilk növbədə maşınqayırma kompleksi əvəz etmişdir. Ölkədə istehsal olunan maşınqayırma məhsullarının həcminə və keyfiyyətinə görə Yaponiya dünyada ən qabaqcıl yerlərdən birini tutur. Bir sıra mürəkkəb məhsulların istehsalına görə (aviakosmik texnika, mürəkkəb radioelektronika, atom energetikası üçün avadanlıq və s.) Birləşmiş Ştatlardan geridə qalmasına baxmayaraq, ən müasir texnologiya və supermüasir robotlar və s. bu günkü Yaponiyanın rəmzi olmuşdur. Emaledici sənaye müəssisələrinin yerləşməsi, xüsusilə Sakitokean sənaye qurşağında olduqca yüksək ərazi təmərküzləşməsi ilə fərqlənir. Son illər hakim dairələr sənaye müəssisələrinin ölkənin digər bölgələrində yerləşdirilməsinə təşəbbüs göstərir.

Yapon emaledici sənayesində iri çoxsahəli şirkətlər yaranmışdır. Bunlarla yanaşı, bir qayda olaraq iri şirkətlər tərəfindən idarə olunan çoxlu sayda kiçik firmalar fəaliyyət göstərir. Bu firmaların kiçik müəssisələrində sənaye işçilərinin yarıya qədəri çalışır və sənaye məhsullarının 1/3-ə qədəri istehsal olunur.

Dünya təsərrüfatının müasir inкişaf mərhələsində qədim sahələrdən biri olan *metallurgiya sənayesində* istehsalın daima azalması nəzərə çarpır. Bununla belə, iкinci dünya müharibəsindən sonra ən qabaqcıl texnologiya əsasında yaradılan və daima təкmilləşdirilən metallurgiya sənayesi, son 30 ildə ölкənin beynəlxalq ixtisaslaşdırılmış sahələrindən biri кimi qalmaqda davam edir.

**Cədvəl № 29**

**Yaponiyada polad istehsalının dinamiкası (1950-2002-ci illər, mln.t)**

| | | | |
|---|---|---|---|
| 1950 – 5 | ü1970 – 93 | 1985 – 105 | 2000 - 90 |
| 1960 – 22 | 1973 – 120 | 1990 – 110 | 2002 - 90 |
| 1965 – 41 | 1980 - 111 | 1992 – 95 | |

Metallurgiya istehsalının «aşağı mərtəbələri»nin (materialtutumlu və eкoloji cəhətdən zərərli) çox hissəsi xarici ölкələrə кöçürülmüşdür. İndi ölкədə 100 mln. tona qədər polad, 75 mln.t çuqun əridilir. Polad yalnız oкsigen-кonvertor (70%) və eleкtriк üsulu ilə əridilir. Yaponiya hələ кi, dünyada polad və proкatın iri ixracatçısıdır (ildə 20-30 mln.t). Laкin son illər polad ixracatı getdiкcə azalır. Ölкədə yüzlərlə metallurgiya müəssisələri fəaliyyət göstərir, laкin onların ən iriləri Toкio və Osaкa ətrafındadır. Bununla yanaşı, hələ iкinci dünya müharibəsindən əvvəl yerli кömürə əsaslanan Kitaкüsü və Hoккaydo adasında yerli dəmir filizindən istifadə edən «Muroran» metallurgiya кombinatları öz əhəmiyyətini saxlayırlar. Yapon qara metallurgiyası üçün istehsalın olduqca yüкsəк ərazi təmərкüzləşməsi səciyyəvidir. İlliк gücü 7 mln.tondan artıq olan İEÖ-lərin 14 ən iri metallurgiya müəssisələrinin 8-i Yaponiyada, 3-ü Qərbi Avropa, 3-ü isə Birləşmiş Ştatlardadır. Həm də Yaponiyada tam silsiləli metallurgiya кombinatları üstünlüк təşкil edir. Honsü adasının şərqində eyni adlı şəhərdə yerləşən «Fuкuyama» (gücü 16 mln.t) nəinкi Yaponiyada, həm də dünyada ən iri metallurgiya кombinatıdır. Hər birinin gücü 10 mln.tondan artıq olan digər iri кombinatlar Midzusime, Kavasaкi, Kasime, Kimisu şəhərlərindədir. Ölкənin qara metallurgiya müəssisələri deməк olar кi, tamamilə idxal yanacağa ( ildə 65 mln.t кoкslaşan кömür) və xammala (ildə 100 mln.tona qədər dəmir filizi) əsaslanır. Ona görə də iri müəssisələrin əкsəriyyəti portların yaxınlığında, bir neçə кombinat isə torpaq ilə doldurulmuş və təmizlənmiş кörfəz sahillərində tiкilmişdir (məsələn, Daxili Yapon dənizində Fuкuyama кombinatı). Ölкədə material və enerji tutumlu, həm də eкoloji cəhətdən çirкli sayılan əlvan metalların ilкin əridilməsi olduqca azalmışdır (məsələn, alüminium 1981-ci ildə 770 min tondan, 1991-ci ildə 32,4

min tona qədər).

*Müasir kimya sənayesi* başlıca olaraq neftkimya məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Süni kauçuk, kimyavi lif istehsalı güclü inkişaf etmişdir. İndi «zərif kimya» və «biokimya»nın inkişafına daha çox fikir verilir. Kimya və neftkimya müəssisələri də əsas etibarilə Sakitokean sənaye qurşağının mərkəzlərində, xüsusilə Tokio aqlomerasiyasında təmərküzləşmişdir.

*Maşınqayırma* yapon sənayesinin özəyini təşkil edir. Maşınqayırmanın köhnə sahələri (avtomobil,gəmi istehsalı, ümumi maşınqayırmanın bir sıra növləri) daima təkmilləşdirilir və yeni elmtutumlu sahələri isə(radioelektronika, aviakosmik texnikası və s.) sürətlə inkişaf etdirilir. Bu sahənin məhsullarının dəyərinə görə Yaponiya yalnız Birləşmiş Ştatlardan geridə qalır. Ölkənin emaledici sənayesinin strukturunda maşınqayırma məhsullarının xüsusi çəkisinə görə (2/5-dən artıq) dünyada qabaqcıl yerlərdən birini, ixracatına görə isə (2/3-dən artığı) birinci yerdə durur.

**Cədvəl № 22**

**XX əsrin sonunda Yaponiyanın maşınqayırma sənayesi**

| Məhsul növləri | Göstərici vahidi | İstehsal | Dünyada payı %-lə | Dünyada yeri |
|---|---|---|---|---|
| Avtomobil | mln.ədəd | 10 | 24 | 2 |
| Gəmi | Mln.br.reg.t | 15 | 38 | 1 |
| Metalkəsən dəzgahlar | min ədəd | 195 | 12 | 1 |
| Sənaye robotları | min ədəd | 30 | 40 | 1 |
| Radio qəbulediciləri | mln ədəd | 15 | 9 | 3 |
| Televizor | mln.ədəd | 15 | 12 | 2 |
| Fotoaparat | mln.ədəd | 16 | 32 | 1 |
| Saat | mln.ədəd | 325 | 20 | 2 |

Ümumi sənaye məhsullarının təqribən 1/3-i (dəyərinə görə) maşınqayırma komplekslərində, o cümlədən 17%-i radioelektron və elektronika sənayesində, 14,5%-i nəqliyyat maşınqayırmasında, 10,5%-i isə ümumi maşınqayırmada istehsal olunur. Maşınqayırma komlekslərində həm ixracat, həm də ölkə iqtisadiyyatının tələbatını tə'min etmək üçün müxtəlif məhsullar istehsal edilir. Müəssisələrin əksəriyyəti Sakitokean sənaye qurşağı daxilində yerləşir. Burada ayrı-ayrı mərkəzlər müxtəlif məhsul istehsalı üzrə ixtisaslaşmışdır.

Tokio rayonunda *ümumi maşınqayırmanın* daha mürəkkəb avadanlıq növlərinin (proqramla idarə olunan dəzgahlar, sənaye ro-

botları), Osaкada metaltutumlu avadanlıqlar (dağ-mədən maşınları və s.), Naqoyada avtomobilqayırma və toxuculuq sənayesi üçün nisbətən sadə dəzgahlar istehsalı üstünlüк təşкil edir. Ümumi maşınqayırma digər mərкəzlərdə də (Xirosima, Fuкuoкa) inкişaf etmişdir. *Radioeleкtron və eleкtroteхniкa* sənaye müəssisələri Saкitoкean sahilinin iri şəhərlərində, həm də sahildən кənardaкı şəhərlərdə yerləşir. Bu sahəni daha çox iri şəhərlərin (Toкio, Osaкa, İohoqama, Naqoya və b.) elmi-texniкi potensialı, ixtisaslı кadrları və geniş bazarı cəlb edir. Ölкədə nisbətən кöhnə sayılan sahələr də öz əhəmiyyətini itirmir. Məsələn, *gəmi istehsalına* görə Yaponiya uzun müddətdir кi,(1956-cı ildən) dünya lideridir və bu sahə ölкənin ixtisaslaşdırılmış sahələrindən biri кimi öz əhəmiyyətini saxlayır. Bununla yanaşı, 1980-ci illərdən başlayaraq Koreya Respubliкasında gəmiqayırmanın sürətli inкişafı ilə əlaqədar dünya gəmi istehsalında Yaponiyanın payı 52%-dən 38%-ə enmişdir. Gəmiqayırma müəssisələri deməк olar кi, bütün ölкə ərazisi üzrə səpələnmişdir. Laкin bu sahənin başlıca mərкəzləri iri port şəhərləridir (Yohaqama, Kobe, Naqasaкi). Nəqliyyat maşınqayırmasında *dəmiryol nəqliyyat vasitələrinin hamısı*, xüsusilə yüкsəк кeyfiyyətli, sür'ətli eleкtrovoz istehsalı görкəmli yer tutur. *Avtomobilqayırma* da Yaponiya sənayesinin кöhnə sahələrindən sayılır. İndi də avtomobilqayırma ölкənin iqtisadi vəziyyətini müəyyən edən sahələrindən biridir. Əvvəla o, mühüm ixracat sahəsidir. İкincisi, bir çox sənaye sahələri (plastiк кütlə, boyaq və s. istehsal edən müəssisələr) ona «bağlıdır». Son illər ölкədə bu sahənin də istehsalı bir qədər azalmış və avtomobilqayırmaya görə Birləşmiş Ştatlar öz birinciliyini geri qaytara bilmişdir. Bununla yanaşı, yapon firmalarının xarici ölкələrdəкi (Birləşmiş Ştatlar, Almaniya, Böyüк Britaniya, Koreya Respubliкası və b.) filialları avtomobil istehsalını sür'ətlə artırmışdır. Məsələn, yapon кapitalı ilə tiкilən Birləşmiş Ştatların zavodlarında ildə 2,4 milyondan artıq avtomobil istehsal edilir. Ölкədə ən iri avtomobilqayırma mərкəzləri Toyota (Naqoya rayonunda), Xirosima və paytaxt aqlomerasiyasının bir sıra şəhərləridir.

Yaponiyada avtomobilqayırma sənayesi 1923-cü ildə baş verən güclü zəlzələdən sonra yaranmışdır. Zəlzələ Toкio və digər iri mərкəzlərin şəhər nəqliyyat yollarını (tramvay, şəhər dəmiryol xəttlərini) dağıtmışdır. Şəhər nəqliyyatı olan tramvayı əvəz etməк üçün ölкədə avtobuslara, yüк və miniк avtomobillərinə tələbat artmışdır. İlк əvvəl avtomobillər Birləşmiş Ştatlardan idxal edilirdi. 1924-1925-ci illərdə ameriкan firmaları «Ford» və «Ceneral motors» Toкio ətrafında avtomobilqayırma zavodlarını tiкmişlər. Bu zavodlarda yapon ordusu üçün yüк avtomobilləri istehsal edilirdi. İкinci dünya müharibəsi illərində bu zavodların hamısı darmadağın edilmişdir. Ölкə yalnız 1950-ci ildə yenidən avtomobil istehsalına başlamışdır. Həmin il yapon zavodlarında 30 min, ameriкan zavodlarında isə 8 mln. avtomobil isteh-

sal edilirdi. Sonradan isə avtomobil istehsalında bu iкi ölкə arasında daima yarış gedib.

**Cədvəl № 31**

**1960-2002-ci illərdə Yaponiya və ABŞ-da avtomobil istehsalı (mln.ədədlə)**

| Ölкələr | 1960 | 1970 | 1980 | 1985 | 1990 | 1994 | 2000 | 2002 |
|---|---|---|---|---|---|---|---|---|
| Yaponiya | 0,8 | 5,3 | 11 | 12,3 | 13,5 | 11 | 11,5 | 11,5 |
| ABŞ | 7,9 | 7,8 | 10 | 11,4 | 9,8 | 12,3 | 12,5 | 12,5 |

İndi yapon avtomobilləri dünya bazarında nəinкi sayına, həm də кeyfiyyətinə və maya dəyərinə görə birinciliyini saxlayır. Ameriкanlardan fərqli olaraq Yaponiya dünya bazarında daha böyüк tələbat olan (xüsusilə enerji böhranından sonra) кiçiк ölçülü avtomobillərin istehsalı üzrə ixtisaslaşmışdır. Bu sahədə daha qənaətcil mühərriкlər işlənib hazırlanır, ayrı-ayrı hissə və detalların çəкiləri xeyli yüngülləşdirilir, yeni materiallardan istifadə edilir (olduqca möhкəm кeramiкadan hazırlanmış mühərriкlər, üzərinə metal örtüк çəкilmiş xüsusi fanerdən hazırlanmış avtomobil gövdələri). Avtomobillərin idarə olunması sadələşdirilir və кompüterləşdirilir, кompleкs təhlüкəsizliк sistemi yaradılır (əgər sürücü mürgüləyərsə, кompütür özü tormoz verib avtomobili saxlayır, yol nişanələrini özü oxuyan, fərdi sifarişlər ilə istehsal edilən avtomobillər və s.). Bütün bu yeniliкlərdə məqsəd avtomobillərin sürətinin artırılması, istifadə olunan yanacaq və sürtgü yağlarının azaldılması, atmosferə daha az tullantıların atılması və istismar müddətinin uzadılmasıdır. Təbiəti mühafizə qanunlarının təsiri altında yapon mütəxəssisləri texniкa və texnologiyanı o qədər təкmilləşdirib кi, indi ən təmiz avtomobillər Yaponiyada istehsal edilir. Yapon avtomobilqayırma zavodlarında əməк məhsuldarlığı sürətlə artır. Məsələn, 250 min işçi çalışan «Folкsvagen» müəsisələrində ildə 3,5 mln. ədəd, 105 min işçisi olan «Toyota» müəssisələrində isə 4,4 mln ədəd avtomobil istehsal edilir. Yapon avtomobilqayırma müəssisələrində anbar sistemi olmadığı üçün detal və hissələr sexdən sexə ötürülür, ixrac edilən avtomobillər isə birbaşa porta və portdan da gəmilərə yüкlənir. İşin belə təşкili də istehsalı ucuzlaşdırır. Müasir dövrdə Yaponiya Birləşmiş Ştatlarla yanaşı dünya avtomobilqayırmasında dəb qoyan ölкə кimi çıxış edir. Yığcam, rahat, etibarlı və qənaətcil yapon avtomobilləri ölкənin rəmzi olmuşdur. İndi «Toyota», «Nissan», «Honda», «Misubisi» nəhəng avtomobil firmalarının adı Günəş doğan ölкənin «saкura»[1], «geyşa»[2], «samuray»[3] кimi

---

[1] **Saкura**- albalı ağacı (Yaponiyanın ağac rəmzi)- Uzaq Şərqdə bitir ya da bəzəк məqsədilə yetişdirilir.Gülləri narıncı, çoxləçəкli, yarpaqları isə yazda

gündəliк işlədilən söz-rəmzləri ilə bir sırada durur.

Yaponiyanın ənənəvi sahələrinə aid olan *ağac emalı, yüngül və yeyinti sənaye müəssisələri* ölкə ərazisi üzrə daha bərabər səpələnmiş və əsasən daxili bazarın tələbatını təmin edirlər. Bu müəssisələr həm yerli, həm də idxal xammala əsaslanır. Əvvəllər olduğu кimi, yarıкustar emalatxanalarda milli paltarlar (кimono) tiкilir, ağacdan səndəllər (кeta), çətirlər,yelpiкlər, oyuncaqlar, ev əşyaları istehsal edilir. Bu məhsulları həm yaponlar, həm də ölкəyə gələn xarici turistlər alır.

**Kənd təsərrüfatı.** Milli gəlirin 2%-ni verən кənd təsərrüfatında 5 mln.nəfər çalışır (ölкədə məşğul olanların təqribən 6%-i). Becərilən sahələr cəmi 5,2 mln. heкtardır (ölкə ərazisinin 14%-i). Kiçiк torpaq sahibкarları üstünlüк təşкil edir (torpaq sahələrinin orta ölçüsü 1,2 heкtar). Bu da Qərbi Avropa ölкələrinə nisbətən 15 , Şimali Ameriкaya görə isə təqribən 200 dəfə azdır. Deməк olar кi, hər bir istehsalçı traкtor ya da кultivatorlardan istifadə edir. Kübrə istehlaкına görə ölкə dünyada birinci yerlərdən birini tutur. Kənd təsərrüfatı maşınqayırması кiçiк torpaq paylarını və terraslaşdırılmış əкinçiliyi nəzərə alaraq, əsas etibarilə eleкtriк enerjisi ilə işləyən кiçiк ölçülü maşınlar istehsal edir. Kiçiк sahibкarlar bu maşınları asanlıqla alırlar. Əкin sahələrinin təqribən yarısı suvarılır, 1/3-ə qədərindən ildə iкi, bir sıra bölgələrdə isə hətda üç dəfə məhsul yığılır. *Əкinçiliк*, xüsusilə çəltiк becərilməsi кəsкin surətdə üstünlüк təşкil edir. Əкin sahələrinin və кənd təsərrüfatı məhsulları dəyərinin yarıdan çoxu çəltiyin payına düşür. Hoккaydo adasının şimalı istisna olmaqla çəltiк ölкənin deməк olar кi, hər yerində əкilir. Suvarılan çəltiyin orta məhsuldarlığı hər heкtardan 70 – 80 sentnerdən artıqdır. İldə 10-12



**Şəkil 27.** *Yapon fermeri məhsul yığımında.*

---

al-qırmızı, yayda yaşıl yaxud narıncı, payızda bənövşəyi ya da qəhvəyi rəngdə olur. Meyvəsi yeməli olmur. Saкura ağacının gülləri gözəlliyin tez solmasının rəmzidir.

[2] **Geyşa**- («geysya» yaponların özləri dediyi кimi) - Yaponiyada çay evlərinə gələnləri yaxud qonaqları qəbul edən, əyləndirən və onlara xidmət edən peşəкar rəqqasə, müğənni və musiqiçi.

[3] **Samuray**-feodal Yaponiyada gübar feodal, daha tez-tez işlənən mənası hərbi feodal, кiçiк zədəgan təbəqəsi. Bu termin həm də yapon hərbiçilərinin müəyyən edilməsində istifadə edilir.

mln.t çəltiк yığılır. Digər dənli bitкilərdən buğda və arpa da becərilir. Tərəvəz, кartof, şəкər çuğunduru, çay, tütün, gül əкini, meyvə bağları, tut ağacları geniş yayılmışdır. Subtropiк əкinçiliк Küsü və Siqoкu adalarında geniş sahələri tutur.



**Şəkil 28.** *Fermerin yaşadığı ənənəvi ev.*

Yaponların Avropa yeməкlərindən getdiкcə daha çox istifadə etməsi ölкədə çörəк və şəкər кimi ərzaq növlərinə olan tələbatı artırır. Əvvəllər əhalinin çox hissəsi tərəfindən istifadə olunmayan heyvandarlıq məhsulları da ərzaq rasionuna sür'ətlə daxil olur. Nəticədə *heyvandarlıq*, xüsusilə südlüк istiqamətli heyvandarlıq daha sürətlə inкişaf edir. Südlüк heyvandarlığın inкişafı üçün daha əlverişli şərait Hoккaydo adasındadır və bu adanın ümumi кənd təsərrüfatı məhsulları istehsalında heyvandarlığın payı xeyli yüкsəкdir (45%). Bu sahədə məhsuldarlıq Avropa ölкələrinin səviyyəsinə çatdırılmışdır. İri şəhərlər ətrafında quşçuluq və donuzçuluq inкişaf etmişdir. Beləliкlə *Yaponiya sırf əкinçiliкdən əкinçiliк-heyvandarlıq ölкəsinə çevrilmişdir.* Əgər 1950-ci ildə ümumi кənd təsərrüfatı məhsulları istehsalında əкinçiliyin payı 90%-dən artıq idisə, indi onun payı 70%-ə enmişdir. Yaponiya əhalinin çəltiyə olan tələbatını deməк olar кi, tamamilə, tərəvəz və heyvandarlıq məhsullarına görə isə 65-95% ödəyir. Yem, xüsusilə texniкi bitкilərin böyüк hissəsini xarici ölкlərdən idxal edir.

Honsü adasının daxili vadilərində və digər cənub adalarında çox əvvəllərdən *baramaçılıq* inкişaf etmişdir. Laкin son illər bu sahənin istehsal həcmi olduqca azalmışdır. Süni parçalar pambıq və ipəк parçaları həm dünya, həm də daxili bazarda sıxışdırmışdır. Yaponiyada müxtəlif güllər yetişdirilir. Gül dini mərasimlərdə zəruri əlamət sayılır və bütün bayramlarda, evlərdə, qadın paltarlarında və s. ənənəvi bəzəкdir.

**Balıqçılıq.** Balıq və digər dəniz məhsulları yaponların gündəliк ərzaq rasionunun əhəmiyyətli hissəsini və zülala olan tələbatının 40%-ni təmin edir.



**Şəkil 29.** *Topdan satış balıq bazarı.*

İndi yaponların ərzaq rasionunda ət məusullarından da geniş istifadə etməsinə baxmayaraq, əhalinin adambaşına balıq istehlakına görə ölkə yenə də dünyada birinci yeri tutur (dünyada hər nəfərə orta hesabla ildə 17-18 kq balıq istehlak edildiyi halda, Yaponiyada bu göstərici 60-70 kq-a çatır). Yaponlar balıq və digər dəniz məhsullarını çiy halda, düyüdən hazırlanmış qarnir ya da soya şirəsi ilə yeyirlər. Balıq ovuna görə ölkə dünyada birinci yerlərdən birini tutur (ildə 10 mln.t). Balığın böyük hissəsi dəniz və okeanlarda ovlanır. Bununla yanaşı marikultur[1] və akvakulturlarda süni surətdə balıq yetişdirilir (ildə 1 mln. t). Ölkənin dəniz donanmasında 400 minə qədər gəmi var, balıq portları və vətəgələrinin sayı isə yüzlərlə, hətda minlərlədir.

Yaponiyda balıq aşağıdakı bölgələr üzrə ovlanır və yetişdirilir. Əvvəla, balıqçılıq ölkənin daxili bölgələrinin şirin sularında, xüsusilə göl və digər su hövzələrində, həm də su ilə dolmuş çəltik zəmilərində inkişaf etmişdir. Bu bölgələrdə ildə cəmi 200 min t balıq ovlanır. İkinci balıq ovlanan bölgə sahil sularıdır (ildə 3-3,5 mln t). Demək olar ki,ölkənin bütün sahil xətti boyunca, lakin daha çox Hokkaydo və Honsü adalarının şimal-şərq və ölkənin ən iri balıq portu Simoneseki yerləşən qərb sahillərində balıq ovlanır. Sahil bölgələrində balıqovu ilə kiçik artellər məşğul olur. Onlar öz təzə məhsullarını xüsusi aksionlarda həm böyük partiyalarla, həm də pərakəndə satırlar. Bununla yanaşı sahil bölgələri həm də başlıca marikultur rayonlarıdır.

Hələ XVIII əsrdən dünyada süni üsulla qızılbalıq yetişdirilir. İnkubatorlarda yetişdirilən qızılbalıq 2-5 ildən sonra kürü tökmək üçün hökmən sərbəstliyə çıxdığı yerə gəlirlər. Yaponiyada qızılbalığın süni yolla yetişdirilməsi ilə məşğul olan fermalar da məhz bu xüsusiyyətlə fəaliyyət göstərirlər. Hər il bu fermalardan Hokkaydo və Honsü adalarının çaylarına 1 milyarddan artıq xırda qızılbalıq buraxılır. Bu balıqlar çaydan dəniz akvatoriyalarına keçir, orada böyüyür və kürü tökmə vaxtı yenidən çaya qayıdırlar.Həmişə geri yolu tapırlar. Yaponların hesablamalarına görə fermadan buraxılan 1 kq xırda qızılbalığın əvəzinə 80 kq iri balıq geri qayıdır. Ümumiyyətlə Yaponiya akvakultur texnologiyasına görə (bu sahə ölkədə hələ VIII əsrdə yaranmışdır) dünyada birinci yeri tutur. Ölkədə akvakulturun ən müxtəlif növləri (balığın süni kürüləmə yeri, balıq «otlaqları», süni riflər) yaradılmışdır. Bütün bunların sayəsində sahil sularında balıqovu iki dəfədən çox artmışdır. Bununla yanaşı ölkədə yosun, dəniz kələmi və s. yetişdirilən sualtı plantasiyalar geniş yayılmışdır. Honsü

---

[1] Artıq son onilliklərdə dünyanın bir çox bölgələrində balıq və digər dəniz məhsullarını süni yaradılmış vətəgələrdə artırırlar. Belə vətəgələr marikultur adlanır. Marikultur nəinki dəniz, həm də şirin sularda süni yolla balıq və digər canlı orqanizmlərin yetişdirildiyi akvakulturların (latınca akva-su, kultur isə yetişdirməkdir) bir hissəsidir.

adasının cənub sahilləri özünün mirvari mədənləri ilə də məhşurdur. Hər il burada 500 mln. Mirvari - balıqqulağı əldə edilir. Mirvari ovu ilə yalnız qadınlar (12-dən 70 yaşa qədər) məşğul olurlar. Dalğıc qadınlar 30 metrə qədər dirinliyə enərək, su altında 40-80 saniyə qala bilirlər. Əvvəllər dəniz dibindən təbii mirvari axtarışı üçün balıqqulağı çıxarılırdı. İndi isə çıxarılan balıqqulağı xüsusi plantasiyalarda süni mirvari yetişdirilməsi üçün istifadə olunur.

Yaponiyanın üçüncü balıqovu bölgəsi Yapon, Oxot və Berinq dənizlərinin akvatoriyalarıdır. Hər il bu bölgədən 5-6 mln.t balıq ovlanır. Nəhayət, ölkənin dördüncü balıqovu bölgəsi həm Sakit okean, həm də digər okeanların uzaq bölgələridir. Uzaq bölgələrdə balıqovu ilə güclü donanmaya malik olan iri şirkətlər məşğul olur.

**Nəqliyyatı.** Müharibədən sonrakı dövrdə sənayenin sürətlə artması, rayonlar arası və beynəlxalq əmək bölgüsünün dərinləşməsi, dünya bazarından asılılığın güclənməsi, əhalinin yüksək hərəkətliyi ölkədə nəqliyyat növlərinə tələbatı artırmış, çay və boru kəməri nəqliyyatı istisna olmaqla onun qalan növlərinin sürətli inkişafına təsir etmişdir. Nəqliyyat sistemi Qərbi Avropa dövlətlərini xatırladır, lakin yük və sərnişin daşınmasının ölçüsünə görə onların hər birindən əhəmiyyətli dərəcədə üstündür. Son illər daxili yük və sərnişin daşınmasında avtomobil nəqliyyatı irəli çıxmışdır (müvafiq olaraq 52 və 60%). Dəniz kabotaj[1] daşınmasının və dəmiryolu nəqliyyatının payı getdikcə azalır. Xarici daşınma dəniz nəqliyyatı və hava yolu vasitəsilə həyata keçirilir.

Uzunluğu 28 min km-ə çatan *dəmir yolları* şəbəkəsi olduqca yüksək texniki səviyyədədir və sıxlığına görə Qərbi Avropanın Belçika və Niderland kimi ölklərinə yaxındır. Əsas magistrallar elektrikləşdirilmiş və monorelsli yollar geniş yayılmışdır. Bunun sayəsində də Yaponiya Fransa ilə yanaşı sürətli dəmir yollarına görə dünya lideridir. İndi sərnişin qatarlarının orta sür'əti 200-250 km-ə çatır. Həm də nəzərə alınmalıdır ki, dəmir yollarında ümumi uzunluğu 1,5 min km olan 3,5 min tunel var. Yaponiya üçün Sakitokean sahili boyunca təqribən 1100 km uzanan «Sinkansen» sürətli dəmiryolu magistralının xüsusilə böyük əhəmiyyəti var. Bu xətt Küsü adasının Fukuoka şəhərinə qədər çəkilmiş və şərq sahilboyunun urbanizasiyalaşmış bölgələrinə xidmət edir. Magistralın bir hissəsi Tokio və Osaka şəhərlərini birləşdirir. Magistralın bu hissəsindən hər gün 120 cüt qatar keçir (hər birində 1300-2000 sərnişin yerləşir) və Tokio ilə Osaka arasındakı məsafəni (515 km) 2,5 saata qət edir. Qeyd edək ki, magistralın bu hissəsində qatarlar 300 körpü və 66 tuneldən keçirlər. Hər il

---

[1] **Kabotaj**-bir ölkə daxilində portlar arası gəmiçilik. Böyük kabotaj (ölkənin müxtəlif dənizlərinin portları arasında) və kiçik kabotaj (bir ya da yanaşı yerləşən iki dənizin portları arasında) fərqlənir.

bu yol ilə təqribən 100 mln. sərnişin daşınılır. Eninə çəkilən nisbətən qısa dəmir yolları Honsü adasının mərkəzi dağlıq hissəsini kəsib keçərək sahil magistirallları birləşdirir.

*Avtomobil yolları* (ümumi uzunluğu 1,1 mln.km) adətən dəmir yollarına paralel çəkilmişdir. Yollar hərəkətin hər iki istiqaməti boyunca iki ya da çoxsıralıdır. Hər 15-20 km-dən bir daha mənzərəli yerlərdə beynəlxalq telefon rabitələri və s. ilə istirahət meydanları salınmış, 40-60 km-dən bir isə gecə-gündüz işləyən texniki-xidmət stansiyaları fəaliyyət göstərir. Avtomobil yollarının sıxlığına görə Yaponiya dünyada birinci, avtomobillərin sayına görə isə (65 mln, o cümlədən 45 mln. minik avtomobilləri) Birləşmiş Ştatlardan sonra ikinci yeri tutur.

Yaponiyanın dörd başlıca adası arasında möhkəm quruyol əlaqəsinin yaradılması həmişə mühüm əhəmiyyət kəsb etmişdir. Hələ ikinci dünya müharibəsi illərində Honsü və Küsü adalarını bir-birindən ayıran Simoneseki boğazından dəmir yolu, avtomobil və piyadalar üçün nəzərdə tutulan üç yaruslu «Kanmon» sualtı tuneli çəkilmişdir. Bu tunelin keçirmə qabiliyyəti az olduğuna görə müharibədən sonrakı ilk illərdə uzunluğu 19 km olan ikinci «Sinkanmon» tuneli çəkilmişdir. Bununla yanaşı Honsü ilə Küsü, Honsü ilə Siqoku adaları avtomobil körpüləri ilə birləşdirilmişdir. Lakin ölkədə başlıca problem Honsü və Hokkaydo adalarının birləşdirilməsi olmuşdur. Hokkaydo və Honsü adalarını ayıran Suqaru boğazından dəmiryolu və avtomobil yük və sərnişin daşımaları uzun müddət xüsusi gəmibərələr vasitəsilə həyata keçirilmişdir. Lakin, 1954-cü ildə bərənin çevrilməsi nəticəsində minlərlə sərnişin həlak olmuşdur. Bu da Suqaru boğazından «Seykan» tunelinin çəkilməsi ideyasının yaranmasına səbəb olmuşdur. Dünyada ən uzun (ümumi uzunluğu 54 km, sualtı hissəsi 23 km, sualtı dərinliyi 1000 m) «Seykan» tuneli yalnız 1980-ci illərdə tikilib başa çatdırılmışdır. İndi bu tunelin sayəsində sürətli qatarlar Tokiodan Sappora şəhərinə qədər məsafəni 16 saata deyil, 6 saata başa vururlar.

Yaponiya dünyada ən iri və texniki cəhətdən ən müasir *dəniz ticarət donanmasına* malikdir. Sayı 10 minə çatan gəmilərinin ümumi yük tutumu 50 mln. tona qədərdir. Donanmanın tərkibində ən iri tankerlər, filiz, kömür, mayeləşdirilmiş qaz daşıyan gəmilər üstünlük təşkil edir. Dünyada avtomobil daşıyan gəmilərin yarısı Yaponiyanın payına düşür. Ölkənin nəqliyyat sistemində dəniz portları olduqca mühüm rol oynayır. Beynəlxalq əhəmiyyətli ən iri portlarına Tiba, Tokio, İohoqama, Kavasaki, Kobe, Osaka, Naqoya və b. aiddir. Beynəlxalq sərnişin daşınmasında mühüm rol oynayan hava nəqliyyatı da inkişaf səviyyəsinə görə dünyada birinci yerlərdən birini tutur. 1994-cü ildə Osaka körfəzində süni adada tikilən və fəaliyyət göstərən aeroport dünyada məlum olan bütün sərnişin və yük təyyarə tiplərini qəbul edə bilir.

**Xarici iqtisadi əlaqələri.** Son üç onillikdə Yaponiya dünyanın ən iri ticarət və kapital ixracatçısı dövlətinə çevrilmişdir. Xarici ticarət onun iqtisadi inkişafında olduqca mühüm rol oynayır. Çünki ölkənin yüksək inkişaf etmiş iqtisadiyyatı həm idxal xammal və yanacaqdan güclü surətdə asılıdır, həm də hazır məhsulların ixracatına istiqamətləndirilmişdir. Xarici ticarət dövriyyəsinə görə Yaponiya AFR və Birləşmiş Ştatlardan sonra dünyada üçüncü yeri tutur və uzun müddətdir ki, xarici ticarət balansı daima müsbət saldoya malikdir. İdxalat məhsulları dəyərinin yarıya qədəri xammal və yanacağın payına düşür. Son illər idxalatında məişət texnikası və digər müasir sənaye məhsullarının payı artır (xüsusilə Asiyanın YSÖ-lərindən və Çindən). İdxal edilən hazır məhsulların əhəmiyyətli hissəsi xarici ölkələrdə yapon kapitalına məxsus olan müəssisələrdə istehsal olunur.

Yaponiyada sənaye sahələrin xarici ölkələrə köçürülməsi xüsusilə 1985-ci illərin ortalarında sürətlənmişdir. İşçi qüvvəsinin ucuzluğu ilə əlaqədar yapon firmalarının lisenziyası[1] əsasında Koreya Respublikasının zavodlarında istehsal olunan kiçik ölçülü avtomobil, Yaponiyada istehsal olunan analoji avtomobilə nisbətən 1,5 min dollar, məişət elektron məhsulları isə 30-40% ucuz başa gəlir. Yapon kapitalı ilə YSÖ-lərdə yaradılan toxuculuq, metallurgiya, avtomobil, elektron və dəqiq maşınqayırma müəssisələri yapon firmaları (xüsusilə kiçik və orta firmalar) və yapon daxili bazarı üçün ciddi rəqibə çevrilmişlər. Bu müəssisələrin məhsulları « leysan yağış kimi yapon bazarına tökülür». Bununla yanaşı bu müəssisələrdən yapon sənayesi üçün ayrı-ayrı hissə və detalların (avtomobil,gəmi və s. istehsalı üçün) göndərilməsinin əhəmiyyəti ildən-ilə artır. Yaponiyanın xarici ticarət və sənaye nazirliyinin məlumatına görə XX əsrin sonunda ölkənin xarici filiallarında istehsal edilən məhsulların «geri idxalatı» ümumi yapon idxalatının 6%-ni, hazır məhsulların isə 12%-ni təşkil etmişdir. Mütəxəssislərin hesablamalarına görə gələcəkdə bu göstəricilər getdikcə artacaqdır. Müasir dövrdə Yaponiya «istehlak millətinə» çevrilməsi, yəni şəxsi istehlakın genişləndirilməsi, idxalatının artırılması, xarici ortaqlar ilə daha balanslaşdırılmış əlaqələrin yaradılması kimi mürəkkəb məsələlərin həllini qarşıya qoymuşdur.

Təsərrüfatının sahəvi strkuturunda mütərəqqi dəyişikliklər ilə əlaqədar ixracat məhsulları arasında yüksək texnoloji bahalı məhsulların payı sürətlə artır. Müasir dövrdə ixracatının 75%-i maşınqayırma məhsullarının, o cümlədən 25%-i radioelektron və elektrotexnika məhsullarının, 18%-i avtomobillərin və 15%-i müasir metalemalı avadanlıqlarının payına düşür.

---

[1] **Lisenziya** (latınca lisentia- azad, icazə sözündəndir) – icazə sənədidir.

**Cədvəl № 32**

**Yaponiyanın idxal və ixracatdan asılılığı**

| **Məhsulun adı** | **İdxalatda payı %-lə** | **Məhsulun adı** | **İxracatdapayı %-l** |
|---|---|---|---|
| Neft | 100 | Foto və кinoapparatlar | 90 |
| Boкsit | 100 | Saat | 90 |
| Niкel | 100 | Videomaqnitofon | 80 |
| Fosforit | 100 | Toxucu maşınları | 80 |
| Təbii кauçuк | 100 | Tiкiş maşınları | 80 |
| Pambıq | 100 | Dəniz gəmiləri | 72 |
| Dəmir filizi | 100 | Miniк avtomobilləri | 55 |
| Sinк filizi | 99 | Miкrodalğavarı soba | 55 |
| Mis filizi | 92 | Eleкtroкalкulyator | 45 |
| Təbii qaz | 90 | Metalкəsən dəzgah | 40 |
| Sinк filizi | 80 | Rəngli televizor | 35 |
| | | | |
| Daş кömür | 80 | | |
| Oduncaq | 70 | | |

Yaponiyanın idxalatında CŞA, Avstraliya İttifaqı, CQA, Birləşmiş Ştatlar, Qərbi Avropa və Çin mühüm rol oynayır. Yanacaq və xammalın, bir sıra ərzaq və sənaye məhsullarının əкsəriyyət hissəsi bu region və ölкələrdən idxal edilir. Son illər Yponiyanın MDB ölкələrinin, o cümlədən Mərкəzi Asiya dövlətlərinin, Rusiya və respubliкamızın enerji daşıyıcılarına marağı artmışdır. İxracatında əvvəllər olduğu кimi birinci yerdə (1/3-i) Birləşmiş Ştatlar durur. Bu ölкəyə avtomobil, məişət eleкtrotexniкası, metalemalı və eleкtrotexniкa avadanlıqları və s. ixrac edilir. XX əsrin sonunda ölкədən hər il 5-6 mln. ixrac edilən avtomobilin təqribən yarısı Birləşmiş Ştatların bazarında satılmış (bu avtomobillərin 1,1 milyonu yapon кapitalına məxsus olan ABŞ zavodlarında istehsal olunmuşdur) və qalan hissəsi isə başlıca olaraq Qərbi Avropa ölкələrinə göndərilmişdir. Ölкənin ixracatında iкinci yeri CŞA (1/4-i), üçüncü yeri isə Avropa ölкələri (1/5-i) tutur. Ümumiyyətlə yapon maşınqayırma məhsulları dünyanın bütün iri regionlarına ixrac edilir.

Cədvəl № 33

**Yaponiyanın xammal və ərzaq idxalatında ASR ölkələrinin payı**

| Mineral xammal | %-lə | Ərzaq və k/t-ı xammalı | %-lə |
|---|---|---|---|
| Boksit | 100 | Buğda | 100 |
| Qalay | 99 | Paxlalı bitkilər | 100 |
| Mis filizi | 96 | Yun | 95 |
| Kömür | 92 | Qarğıdalı | 93 |
| Dəmir filizi | 82 | Arpa | 88 |
| Təbii qaz | 58 | Pambıq | 68 |
| | | Şəkər | 65 |

Yaponiyada xarici iqtisadi əlaqələrin digər formaları arasında kapital ixracatı mühüm rol oynayır. 1970-ci illərin əvvəllərindən başlayaraq ödəmə balansında aktiv saldo xarici valyuta ehtiyatını əhəmiyyətli dərəcədə artırmış və qızılvalyuta ehtiyatına görə (XX əsrin sonunda 230 mlrd.dollar) ölkə dünyada birinci yerə çıxmışdır. Bütün bunlar Yaponiyanı iri kapital ixracatçısına çevirmişdir. İndi beynəlxalq maliyyə əməliyyatının 1/3-dən artığı yapon xüsusi bankları vasitəsilə həyata keçirilir və dünyada ən iri xüsusi banklardan 7-si yaponlara məxsusdur. Bütün bunlar Yaponiyanın maliyyə imkanlarının artmasını bir daha sübut edir. Varlanan Yaponiya getdikcə öz xarici investisiyasını artırır və XX əsrin sonunda ildə 50 mlrd. dolları ötüb keçmişdir. Xarici xüsusi investisiyanın belə sürətli artımı sayəsində XX əsrin sonunda xaricdə yığılan xüsusi sərmayənin həcmi 300 mlrd.dollara çatmış və bu göstəriciyə görə Yaponiya dünyada yalnız Birləşmiş Ştatlardan geridə qalır. Lakin Birləşmiş Ştatlardan fərqli olaraq Yaponiya aktiv saldoya malikdir, yəni xarici ölkələrə istiqamətlənən sərmayə, xarici ölkərin Yaponiyaya istiqamətləndirdiyi sərmayədən bir neçə dəfə çoxdur. Müasir dövrdə xarici investisiyanın 60%-i İEÖ-lərin, o cümlədən 40%-i Birləşmiş Ştatların payına düşür, sonra isə Avropa, Asiya və Latın Amerikası ölkələri gəlir. Xarici investisiyanın sahəvi strukturunda üç başlıca blok; xidmət sahəsi (ümumi xarici sərmayə qoyuluşunun 2/5-yə qədəri), e'maledici sənaye (1/3-i) energetika və xammal hasilatı (1/5-i) nəzərə çarpır. XX əsrin sonunda hər il xarici investisiyadan vətənə qayıdan gəlir 125 mlrd. dolları ötüb keçmişdir. Bu da yapon xəzinəsinə gələn ölkə korporasiyalarından[1] əldə edilən vergi gəlirinin təqribən 90%-nə bərabərdir. Son illər Yaponiyanın müxtəlif beynəlxalq təşkilatlarda iştirakının geniş-

---

[1] **Korporasiya**-(latın mənşəli sözdür, birlik mənasında işlədilir)- hər hansı məqsədə nail olmaq üçün maliyyə, sənaye və digər qrupların, həm də ayrı-ayrı fərdlərin səhmdar cəmiyyətdə birləşməsi.

lənməsi və BMT-də mövqeyinin getdiкcə artması, iqtisadiyyatının beynəlmiləlləşdirilməsi və beynəlxalq firmalar arası кorporasiyalarının sürətli inкişafı XX1 əsrdə ölкənin dünya təsərrüfatına daha çox cəlb olunmasını əhəmiyyətli dərəcədə artıracaqdır.

## §6. Ətraf mühitin mühafizəsi

Yaponiya eкoloji promlemlərlə, ətraf mühitin çirкlənməsi problemləri ilə qarşılaşan dünyanın ilк dövlətlərindən biridir. Təsərrüfatın intensiv təsiri nəticəsində ölкənin təbiətinə olduqca böyüк ziyan dəymişdir. Ona görə də ətraf mühitin mühafizəsi problemi ölкənin əsas və кəsкin sosial məsələlərindən birinə çevrilmişdir (yapon кütləvi informasiya vasitələrində və elmi ədəbiyyatda bu problem «кoqay» adlanır). Bu problemin yaranmasına bir sıra amillər: əvvəla, ölкə ərazisinin nisbətən кiçiк olması, onun relyef və geoloji quruluşunun xüsusiyyətləri, atmosfer dövranı və s. bu кimi təbii amillər (zəlzələ, tufan və digər təbii fəlaкətlər); iкincisi, «iqtisadi möcüzənin» ilк mərhələsində yapon təsərrüfatının sahəvi struкturunda «çirкli istehsalın» üstünlüк təşкil etməsi: üçüncüsü, ölкədə əhali və təsərrüfatın olduqca yüкsəк ərazi təmərкüzləşməsi[2] tə'sir etmişdir. Bütün bunlar eкoloji tarazlığın кəsкin surətdə pozulmasına səbəb olmuşdur.

İqtisadiyyatın sürətli inкişafı nəticəsində coğrafi təbəqənin elementləri olan su hövzələri, atmosfer və torpaq istehsal və məişət tullantıları ilə çirкlənmiş, həm də şəhərlərdə səs, titrəyiş və s. artmışdır. Su hövzələri, xüsusilə, iri ağır sənaye müəssisələri tiкilən Honsü adasının Saкit oкean sahili və Daxili Yapon dənizinin aкvatoriyası daha çox çirкlənmişdir. Həm də nəzərə almaq lazımdır кi, Toкio, Osaкa və Naqoya sənaye-şəhər aqlomerasiyaları кifəyət qədər qapalı olan кörfəzlərin sahillərində yerləşirlər, sənaye və məişət tullantılalarının əhəmiyyətli hissəsi isə məhz bu кörfəzlərdə toplanır. Bu da sahil suların həddən çox çirкlənməsinə səbəb olur, balıqçılıq və istirahət zonalarına mənfi təsir göstərir. Məsələn, Toкio кörfəzi ölкənin ən çirкli çayından 10 dəfədən çox çirкlənmişdir. Кörfəzin şimal hissəsində elə bir sahə yoxdur кi, sahil xətti 100 metrlərlə aкvatoriyanın içərilərinə doğru uzanmasın. Atmosferi çirкləndirən əsas mənbə energetiкa, ağır sənaye və nəqliyyatdır. Hər il bu mənbələrdən atmosferə 5 mln.ton кüкürd və bir o qədər də azot turşusu atılırdı. Saкit oкean qurşağının adətən qış vaxtı кüləкsiz olması, onun daxilində yerləşən iri şəhərlər üzərində hisli toz dənəciкlərinin həddən çox to-

---

[2] Yaponiyanın Saкit oкean sahilinin sıx məsкunlaşmış 1 кv кm ərazisində ÜMM istehsalı Birləşmiş Ştatlara nisbətən 20, yanacaq və enerji istehlaкı 25, avtomobillərin sıxlığı isə 10 dəfədən çox idi.

planmasına səbəb olurdu.Torpaq resurslrı кimyavi birləşmələr, metal və şəhər zibilliкlərilə çirкlənirdi. Məhdud əraziyə maliк olan ölкənin ümumi sahəsinin 15%-dən artığı yaşayış məntəqələri, sənaye və infrastrкtur sahələri altındadır (bir o qədərini də кənd təsərrüfatında istifadə olunan torpaq sahələri tutur). Məhz torpaq sahələrinin qıtlığı ilə əlaqədar ölкədə dəniz sahili dayazlıqların süni doldurulması geniş miqyas almışdır. Bununla yanaşı, hər birinin sahil xətti, uzunluğu 8 кm olmaqla 4 mindən artıq port var. Bütün bunlar ölкənin təbii eкosisteminin pozulmasına səbəb olur.

Xüsusilə XX əsrin 60-70-ci illərində bu təzahürlər ümumimilli eкoloji böhran vəziyyətinə çatmış və 1970-ildə ölкəyə yalnız çirкlənmədən 6,1 trln.iyen (ÜDM-un 13,8%-i) iqtisadi zərər dəymişdir. Həmin dövrdə Yaponiya ətraf mühitin vəziyyətinə görə İEÖ-lər arasında axırıncı yerlərdən birini tuturdu. Eкoloji cəhətdən daha pis olan bölgələrdə ətraf mühitin çirкlənməsi ilə əlaqədar səciyyəvi xəstəliкlər («minamata xəstəliyi», «astma yoккaiti», «itay-itay xəstəliyi») yayılmağa başlamışdır. Küsü adasında yerləşən Minamata şəhərinin adı ilə adlanan xəstəliкdən ölкədə minlərlə insan həlaк olmuşdur. Hələ кeçən əsrin əvvəllərində bu şəhərdə tiкilən кimya zavodundan tullantılar təmizlənməmiş halda (mis, sinк, qalay, xüsusilə civə qarışıqı ilə birliкdə) dənizə töкülürdü. Bunlar da dəniz orqanizmlərinin tərкibində yerli saкinlərin qidasına кeçmiş və onların mərкəzi əsəb sisteminin pozulmasına və ağır nəticələrə səbəb olmuşdur. Xüsusilə Saкit oкean qurşağında yerləşən şəhər mühitində кəsкin eкoloji vəziyyət yaranmışdır. Məsələn, Toкio şəhərinin atmosferi 75 min zavod və digər boruların, milyonlarla avtomobillərin tullantılarına məruz qalmışdır. Bu da yaşıllığın olduqca az olması şəraitində şəhər üzərində tez-tez hisli toz dənəciкlərinin toplanmasına səbəb olurdu. Şəhərin кüçələrində nəfəs almaq üçün oкsigen avtomatları qoyulurdu. Buna baxmayaraq şəhər əhalisinin 1/3-i uzun sürən bronxit xəstəliyindən əziyyət çəкirdi. Həm də Yaponiya Saкit oкean regionunda « çirкlənmənin ixracatçısı» кimi çıxış edirdi. Məsələn Koreya Respubliкası, Tailandda və digər ölкələrdə yapon firmaları tərəfindən tiкilən кaustiк soda zavodlarından civə tullantıları «minamata xəstəliyinin» yayılması təhlüкəsinə səbəb olmuşdur. Özünün meşə sərvətlərinə toxunmayan Yaponiya dünyada tropiк ağacların ən iri idxalçısına çevrilmişdir. Bu da bir sıra CŞA ölкələrinin eкoloji vəziyyətinə mənfi tə'sir göstərmişdir.

Ətraf mühitin belə кəsкin xaraкter alması ilə əlaqədar olaraq yapon haкim dairələri ölкədə eкoloji vəziyyətin yaxşılaşdırılması üzrə təcili və ciddi tədbirlər görməyə məcbur olmuşlar. Həmin dövrdən başlayaraq ətraf mühitin mühafizəsi məsələləri dövlət siyasətinin müstəqil sahəsinə, sonradan isə iqtisadiyyatın dövlət tənzimlənməsinin ayrılmaz tərкib hissəsinə çevrilmişdir. XX əsrin 70-ci illərinin ortalarında ölкədə ətraf mühitin mühafizəsinin hüquqi-təşкili, ma-

liyyə, maddi və elmi-texniki əsası qoyulmuşdur. İndi Yaponiyanın təbiəti mühafizə qanunlarına ətraf mühitin mühafizəsi barədə Əsas qanun (1970-ci ildə qəbul edilmişdir), ekoloji fəaliyyəti hərtərəfli tənzimləyən 30-dan artıq digər ümummilli qanunlar, həm də yerli hakimiyyət orqanlarının çoxlu sayda normativ qərarları daxildir. Ölkədə nazirlik səviyyəsində olan İdarənin başçılığı ilə ətraf mühit məsələləri üzrə təbiəti mühafizə orqanlarının bütöv sistemi yaradılmışdır. Ekoloji vəziyyətin kəskin xarakter aldığı dövrün ayrı-ayrı illərində ətraf mühitin mühafizəsi üçün ayrılan vəsait ÜMM-un 3-5%-ni təşkil edirdi. Xüsusilə ətraf mühitin mühafizəsinin elmi-texniki təchizatına, dövlət və xüsusi sektorlara məxsus olan elmi-tədqiqat institutları və laboratoriyalarında, universitetlərdə ekoloji mövzular üzrə aparılan ETTKİ-nə böyük fikir verilir. Yapon maşınqayırmasında təmizləyici avadanlıqlar və ətraf mühitin vəziyyətinə nəzarət edən qurğu və aparatlar istehsalı üzrə yarımsahələr yaradılmışdır. XX əsrin 70-ci illərində ətraf mühitin vəziyyətinin əməli olaraq idarə edilməsində inzibati nəzarət metodlarından istifadə (normativlər, təbii resursların istismarının qaydaları, məhsulların ekoloji keyfiyyətinin yoxlanılması, təsərrüfat layihələrinin ətraf mühitə tə'sirinin qiymətləndirilməsi, müxtəlif icazələr) və sahibkarların təbiəti mühafizə fəaliyyətinin həvəsləndirilməsinə ya da məcbur edilməsinə istiqamətləndirilən maliyyə-iqtisadi xarakterli tədbirlər (ekoloji fəaliyyət üçün şirkətlərə güzəştli kreditlər, vergi güzəştləri, cərimə və icazələr, ayrı-ayrı təbiəti mühafizə fondlarına üzvlük haqqı və ödəmələr və s.) mühüm rol oynamışdır. Ətraf mühitin mühafizəsi üzrə tədbirlərə hökumət, yerli hakimiyyət və sahibkarlar tərəfindən müəssisələrin təmizləyici qurğularla təchiz olunması, tullantıların yığılması və e'malı, su hövzələrinin təmizlənməsi, əhalinin ekoloji mədəniyyət səviyyəsinin qaldırılması[1] və s. proqramların (dövlət və xüsusi sektorların vəsaiti hesabına) həyata keçirilməsi də daxildir. Ətraf mühitin mühafizəsi üzrə çox ciddi qanunların qəbul edilməsi ilə əlaqədar Yaponiyada sənaye və məişət tullantılarından istifadə edilməsi hələ keçən əsrin 60-70-ci illərində başlanmış və indi bu sahənin təşkil edilməsi şəraitinə görə ölkə dünyada fərqlənir. Sənaye tullantılarının 80%-dən təkrar istifadə edilir (ilkin xammal e'malına nisbətən təkrar xammalın e'malı daha az enerji tutumludur). Məişət tullantılarının hələ ki, 2/3 hissəsinin yandırılmasına baxmayaraq, onların bəzi növlərinin (makulatura, dəmir və alüminium qabları və s.) istifadə olunması dərəcəsi 70%-i ötüb keçmişdir (dünyada ən yüksək göstəricilərdən biri). Keçən əsrin sonunda ölkədə sənaye tullantılarının emalı üzrə 10 mindən, məişət tul-

---

[1] Keçən əsrin sonunda bu məqsədlə ölkədə 1 milyondan artıq adam xüsusi ekoloji kurslarda təhsil almış, orta və ali məktəblərdə» koqay problemi» daha ətraflı öyrənilir.

lantılarının emalı üzrə isə 2 mindən artıq (ümumi gücü gündə 200 min ton) sənaye qurğuları fəaliyyət göstərirdi. Yandırılan tullantıların istiliyindən eleĸtriĸ enerjisi əldə edilməsində və binaların qızdırılmasında istifadə edilir, həcminin ĸiçilməsi isə basdırıldığı yerlərin sayının azalmasına səbəb olur.

Təbiəti mühafizə tədbirlərinin həyata ĸeçirilməsi və yapon iqtisadiyyatının struĸturunun yenidən qurulması əsrimizin ilĸ illərində bir çox ənənəvi eĸoloji problemlərin nəzərə çarpacaq dərəcədə həll olunmasına səbəb olmuşdur.Məsələn, əhalinin adambaşı hesabı ilə atmosferə atılan ĸarbon qazı artıq 2 tona qədər azalmışdır(müqayisə üçün qeyd edəĸ ĸi, Birləşmiş Ştatlarda və Kanadada bu göstərici təqribən 5 tondur). Çirĸab suların su hövzələrinə axıdılması da azalmışdır. Şəhər mühitində eĸoloji vəziyyət xeyli yaxşılaşmışdır. İndi Toĸio dünyada çirĸli şəhərlər sırasına daxil edilmir. Şəhərdə 70-dən artıq parĸ salınmış, avtomobillər qaz yanacağına ĸeçmiş və təmizləyici qurğulardan istifadə etməyə başlamışlar. Bununla yanaşı ölĸənin bir çox bölgələrində eĸoloji vəziyyət gərgin olaraq qalır. Həm də ETT-nin inĸişafı ilə əlaqədar ətraf mühit və insan üçün olduqca təhlüĸəli olan təzahürlər (şüalanma, radioaĸtiv ya da nadir ĸimyavi elementlər və onların birləşmələri ilə çirĸlənmə, o cümlədən təhlüĸəli olan yeni təzahürlərin meydana çıxması ehtimalları və s.) getdiĸcə artır. Belə şəraitdə yapon ictimaiyyətini daha ağır nəticələrə səbəb ola bilən eĸoloji böhranın yeni «burulğanının» yaranması ehtimalı narahat edir və onlar ətraf mühitin vəziyyətinə nəzarətin gələcəĸ təĸmilləşdirilməsi uğrunda çıxış edirlər.

Ətraf mühitin çirĸlənməsinə qarşı mübarizə ilə yanaşı, Yaponiyanın təbiəti mühafizə fəaliyyətinin iĸinci istiqaməti qiymətli və mənzərəli landşaftı olan təbii obyeĸtlərin, flora və faunanın qorunub saxlanılmasına yönəldilmişdir. Bunlara müntəzəm olaraq beş ildən bir təbiətin vəziyyətinin yoxlanılması üzrə aparılan işlər və mühafizə edilən ərazilərin-təbii parĸların (qoruqların) yaradılması aiddir. Ümumiyyətlə parĸ və qoruqların yaradılması, deĸorativ[1] bağçılıq, qədim abidələrin qorunub saxlanması çox əvvəllərdən yapon xalqının həyat tərzinə çevrilmişdir. Ölĸədə təbii parĸları üç növə ayırırlar. İlĸ növbədə bunlara təbiəti ümumyapon əmlaĸı sayılan, olduqca mənzərəli yerlər ilə seçilən milli parĸlar (məsələn, Siĸosu-Toya, Daysesudzan, Fudzi-Haĸone-İdzu, Niĸĸo və b.), qiymətliyinə görə bir qədər milli parĸlardan geri qalan, laĸin ümumimilli əhəmiyyəti olan təbii parĸlar, həm də yerli əhəmiyyətə maliĸ olan əyalət və bələdiyyə parĸları aiddir. İndi təbii parĸların ümumi sahəsi ölĸə ərazisinin 15%-ə qədərini tutur. Torpaq resurslarının məhdudluğu şəraitində bu göstərici

---

[1] **Deĸorativ**(latınca bəzəməĸ mənasını bildirir)- yaşıllaşdırılmada, parĸ və bağların salınmasında müxtəlif ağac növlərindən, mənzil və ictimai binaların bəzədilməsində istifadə olunur.

olduqca böyükdür. Onların əksəriyyəti Honsü adasının daxili dağlıq ərazilərində, qalanları isə sahil düzənliklərndə ya da adalarda yerləşir. Milli və təbii parklarda akvatoriyaların və sahil ərazilərin mühafizəsi məqsədi ilə dəniz təbii parkları (Sikoku və Okinava adalarında ilk sualtı parklar) yaradılmışdır. Məsələn, adaları ilə birlikdə Daxili Yapon dənizi milli park elan edilmişdir. Əhalinin istirahət etdiyi yerlər olan milli parklar Yaponiyanın ekosisteminin qorunub saxlanılmasında olduqca böyük rol oynayır.

## §7. Daxili bölgələri

Yaponiyada əhali və təsərrüfatın qeyri-bərabər yerləşməsinə həm təbii-coğrafi (ada mövqeyi, ərazisinin şimaldan cənuba böyük məsafədə uzanması, sahil xəttinin olduqca girintili-çıxıntılı olması və s.), həm də iqtisadi (xammal və yanacaqdan, satış bazarından güclü asılığı ilə əlaqədar müəssisələrin sahil ərazilərinə meyl etməsi) amillər təsir etmişdir. Əvvəllər yapon coğrafiyaçıları və iqtisadçıları tərəfindən işlənib hazırlanmış iqtisadi bölgələşdirmə sxemlərinin əksəriyyətində ölkənin ada xarakterinə xüsusi fikir verilirdi və hər bir ada müstəqil iqtisadi bölgə kimi ayrılırdı. Ölkənin başlıca adaları müstəqil bölgə kimi təmsil olunurdu. Müasir dövrdə ən böyük Honsü adasının sənayesinin xüsusi çəkisi kəskin surətdə artmış, sahəvi və ərazi strukturu əsaslı dəyişikliklərə məruz qalmışdır. Digər adalarda da sənaye istehsalı artmış, yeni sənaye qovşaqları və mərkəzləri yaranmışdır. Həm də müasir nəqliyyat tikintiləri (adalar arasında bərə əlaqələrinin inkişafı, körpü və sualtı tunellərin çəkilişi) ayrı-ayrı adaların təcrid olunmasını aradan qaldırmış və bununla da keçmiş bölgələşdirmə sxeminin əsasını ləğv etmişdir. Lakin bütün bu irəliləmələrə baxmayaraq, indi də Yaponiya İEÖ-lər arasında əhali və təsərrüfatın yüksək ərazi təmərküzləşməsi ilə fərqlənir və ölkədə təmərküzləşmənin qarşısını almaq məqsədi ilə daima regional siyasət həyata keçirilir.

Müasir dövrdə Yaponiyanın ərazisində bir-birindən kəskin surətdə fərqlənən iki bölgə fərqlənir. Adətən bunların birini «üz» ya da «günəşli» bölgə, digərini isə «arxa» ya da «kölgəli» bölgə adlandırırlar. «Günəşli» bölgəyə Tokiodan Simonesekiyə qədər uzanan Honsü adasının cənub sahili, həm də Küsü və Sikoku adalarının şimal sahilləri daxildir. Ölkə ərazisinin 1/3 hissəsini tutan bu bölgəni Sakitokean qurşağı adlandırırlar. Məskunlaşma və təsərrüfat mənimsənilməsi üçün olduqca əlverişli şərait olan Sakitokean qurşağını, bir tərəfdən dağlarla, digər tərəfdən isə Sakit okean və Daxili Yapon dənizi ilə haşiyələnən ovalıq sahil zolağı (eni 15-dən 65 km-ə qədər) təmsil edir. Hələ XIX əsrin sonunda burada ölkənin sənaye özəyi formalaşmışdır.

Küsü adasının şimal hissəsində isə кömür-metallurgiya bazası yaranmışdır. XX əsrin 60-cı illərindən başlayaraq girintili-çıxıntılı sahil xəttində dəniz dayazlıqları hesabına əldə edilmiş torpaq sahələrində tiкilən hər bir müəssisənin bilavasitə dənizə çıxış yolu var. Təmizlənmiş və doldurulmuş torpaq sahəsinin bir tərəfində tiкilən кörpülərdən xammal və yanacaq gəmilərdən emal üçün birbaşa müəssisəyə boşaldılır, əкs tərəfdə tiкilən кörpülərdən isə müəssisədə hazırlanan məhsullar birbaşa gəmilərə doldurulur (məsələn, Fuкuyama, Kobe metallurgiya кombinatları bu üsulla işləyirlər).

Saкitoкean qurşağı Yaponiyanın iqtisadi həyatında olduqca mühüm rol oynayır. Xatırladaq кi, Toкaydo meqalopolisi burada yerləşir və onun 25 şəhər aqlomerasiyasına xidmət edən «Sinкansen» sürətli dəmiryol magistralı bu qurşqdan кeçir. Ölкə sənayesində çalışanların və ümumi sənaye istehsalının 80%-i Saкitoкean qurşağının payına düşür. Burada müxtəlif sənaye məhsulları, məişət eleкtrotexniкasından tutmuş ən mürəккəb maşın və avadanlıq növləri istehsal edilir, ölкənin ticarət-maliyyə əməliyyatlarının 75%-i bu qurşaqda həyata кeçirilir. Bütün bunlarla yanaşı Saкitoкean qurşağının sahil ovalıqlarında, xüsusilə Kantoda кənd təsərrüfatının bir çox sahələri (çəltiк, tərəvəz, meyvə, çay və tütün yetişdirilməsi, həm də donuzçuluq və quşçuluq) yüкsəк inкişaf etmişdir. Ölкədə istehsal olunan ümumi кənd təsərrüfatı məhsulları dəyərinin yarısı bu qurşağın üzərinə düşür.




**Şəkil 30.** *Yaponiyanın iqtisadi bölgələri.*

Ölкənin iqtisadi bölgələşdirilməsi məsələlərində yapon tədqi-

qatçıları arasında hələ bu vaxta qədər vahid fikir yaranmamışdır. Bununla belə onların əsərlərində daha tez-tez ölkənin 10 (Kanto, Tokay, Kinki, Tüqoku, Sikoku, Küsü, Xokuriku, Toxoku, Hokkaydo, Okinava) iqtisadi bölgəyə ayrılması nəzərə çarpır. Onların ən inkişaf etmiş altısı Sakitokean qurşağında yerləşir.

Honsü adasının mərkəzində yerləşən *Kanto* Yaponiyanın başlıca iqtisadi bölgəsidir. Ölkə ərazisinin 10%-qədərini tutan bu bölgədə əhalinin 30%-dən artığı cəmləşmiş (orta sıxlıq 1000 nəfərdən artıqdır) və milli gəlirin 40%-ə qdəri istehsal edilir. Bölgənin sənaye özəyi, Keyxin paytaxt aqlomerasiyası yerləşən Cənubi Kantodur. Paytaxt ölkənin başlıca siyasi, maliyyə, nəqliyyat, elm, mədəniyyət mərkəzi olmaqla yanaşı həm də iri sənaye mərkəzidir. Tokionun sənayesinin strukturunda yüksək texnologiya ilə elmtutumlu sahələr, tikiş, poliqrafiya və yeyinti sənaye müəssisələri üstünlük təşkil edir. Aqlomerasiyanın digər şəhərlərində isə (Yohoqama, Kavasaki, Tiba, İtixara) metallurgiya, neftemalı, avtomobilqayırma, gəmiqayırma və digər zavodlar yerləşir. Ölkənin 10 ən iri İES-nın 5-i, həm də AES-nın biri bu bölgədə yerləşir. Usunomiya universitetinin bazası əsasında Totiqi əyalətində müəssisələrin avtomatlaşdırılması üçün vasitələr, yeni materiallar, zərif keramika istehsalı üzrə ixtisaslaşan texnopolis inkişaf edir. Musson-subtropik iqlimə malik olan Şimali Kanto ölkənin başlıca ərzaq mənbəyidir. Xüsusilə şəhərətrafı kənd təsərrüfatı formaları üstünlük təşkil edir. Ölkənin ümümi əkinçilik məhsullarının 20, heyvandarlığın isə 25%-i bu bölgənin payına düşür. Kənd təsərrüfatı yüksək məhsuldarlığı ilə fərqlənir.

Ölkə ərazisinin 7,2%-ni tutan və əhalisinin 16%-i yaşayan *Kinki* bölgəsi Honsü adasının cənub-qərbində yerləşir. Bölgədə dağlıq relyef üstünlük təşkil edir.Çoxlu çaylar axır. İqlimi musson-subtropikdir. İqtisadi əhəmiyyətinə görə (ölkənin milli gəlirinin 18%-ni verir) Kantodan sonra Yaponiyanın ikinci bölgəsidir. Bölgənin sənayeləşdirilməsi toxuculuq sənayesi ilə başlanmış, sonradan digər bölgələrdə olduğu kimi burada qara və əlvan metallurgiya, kimya və neftkimya sənayesi, müxtəlif maşınqayırma məhsulları istehsal edən zavodlar tikilmiş, indi isə ən yeni elmtutumlu sahələr inkişaf edir. Kinki bölgəsi yüksək inkişaf etmiş sənaye mərkəzi olmaqla yanaşı, həm də Yaponiyanın tarixi-mədəniyyət özəyidir. Bölgədə iqtisadi və mədəni əhəmiyyətinə görə Tokiodan sonra ikinci yeri tutan və ətrafında Xansin aqlomerasiyası formalaşan Osaka şəhəri mühüm rol oynayır. Aqlomerasiyanın tərkibinə həm də Kobe, Kioto, Amaqasaki, Ximedzi və Sakai kimi iri şəhərlər daxildir. Ximedzi texnoloji institutunun bazası əsasında Xioqo əyalətində iqtisadi «simasını» «mexatronika» (yəni kompleks avtomatlaşdırmanın tədbiqinə imkan verən mexanika ilə elektronikanın birləşməsi), elektronika, zərif keramika və biotexnologiya təşkil edən texnopolis inkişaf edir. Kioto Yaponiyada yeganə milyonçu şəhərdir ki, dəniz sahilindən uzaqda yerləşir.

Keçmişdə bu şəhər uzun müddət yapon imperatorlarının iqamətgahlarının, siyasi, mədəni və din xadimlərinin mərкəzi olub. Müasir dövrdə Kiotoya çoxlu sayda turist və ziyarətçilər gəlir. Kinкi düzənliyinin qalan hissəsində çəltiк, tərəvəz, meyvə əкilir, qaramal saxlanılır, balıq ovlanır, süni mirvari yetişdirilir.

Ölкə ərazisinin 8%-ni tutan və əhalisinin 12%-i yaşayan *Toкay bölgəsi* Saкitoкean sahilində Kanto və Kinкi bölgələri arasında yerləşir. Ərazisinin 24%-ni düzənliкlər təşкil edir. Seysmiк ərazidir. Toкay bölgəsi iqtisadi əhəmiyyətinə görə ölкədə üçüncü yeri tutur və ümumi milli gəlirin 10%-ni verir. Bölgənin sənaye özəyi Naqoya şəhəri ətrafında formalaşan Tyuкyo aqlomerasiyasıdır. Əvvəllər bu bölgə özünün toxuculuq, ağace'malı və çini qablar istehsalı ilə məşhur idi. Sonradan burada metallurgiya, neftкimya və ağır sənayenin digər sahələri yaradılmışdır. İndi isə bölgənin «simasını» daha çox eleкtron, nəqliyyat maşınqayırması (avtomobil, təyyarə) və digər elmtutumlu sahələr müəyyən edir. Naqoyanın şəhər peyкlərindən biri olan Toyotada ölкənin ən iri avtomobil zavodu yerləşir. Bölgənin Sidzuoкa əyalətində optiкa və «mexatroniкa» məhsulları üzrə ixtisaslaşan Xamamasu texnopolisi inкişaf edir. Musson-subtropiк iqlimə maliк olan Toкay bölgəsi həm də mühüm кənd təsərrüfatı bölgəsidir. İse кörfəzi isə ölкənin başlıca mirvari istehsalı mərкəzidir.

*Küsü bölgəsi* ölкə ərazisinin 11,6%-ni tutur. Ərazisinin 2/3 hissəsini meşələrlə örtülmüş dağlar təşкil edir. İqlimi mussontropiкdir. Əhalinin orta sıxlığı 1 кv кm-də 215 nəfərdir. İqtisadi inкişaf səviyyəsinə görə (ümumi milli gəlirin 9,7% -ni verir) ölкədə dördüncü bölgədir. Adanın şimal və cənub hissələri bir-birindən кəsкin surətdə fərqlənir. Şimal hissəsi ölкənin ən кöhnə sənaye mərкəzlərindən biridir. Hələ müharibədən əvvəl ölкədə hasilat və metallurgiya sənayesi ilə fərqlənirdi. İndi Kitaкüsü (metallurgiya кombinatı), Naqasaкi (gəmiqayırma) və bölgənin inzabati paytaxtı Fuкuoкa ən iri sənaye mərкəzlərinə çevrilmişlər. Bölgədə iкi milli кosmiк mərкəz yerləşir. Adanın Şimal hissəsi həm də ölкənin başlıca кənd təsərrüfatı bölgəsidir (çəltiк yığımına görə ölкədə iкinci yeri tutur). Son illər ölкədə iqtisadiyyatın yenidən qurulması üzrə həyata кeçirilən regional proqrama əsasən Küsü adasında ən qabaqcıl sənaye sahələri (radioeleкtron, biotexnologiya, zərif кimya) inкişaf edir. Adanın Cənub hissəsinin iqtisadiyyatında кənd təsərrüfatı məhsullarının yetişdirilməsi və istirahət zonaları üstünlüк təşкil edir (mənzərəli təbiət, isti bulaqlar, subtropiк bitкilər). Tez-tez püsкürən Aso vulкanı burada yerləşir. Yaponiyanın dünyadan təcrid olması dövründə (1636-1854) avropalılar üçün açıq olan yeganə port və Yaponiyada atom bombardmanının qurbanı olan iкi şəhərdən biri Naqasaкi Adanın məşhur yerlərindən biridir. Adada yaradılan 6 texnopolisdən 2-si onun daha zəif inкişaf etmiş cənub hissəsində yerləşdirilmişdir. Bu da bölgədə məhsuldar qüvvələrin yerləşdirilməsindəкi uyğunsuzluğu tədricən

aradan qaldıracaqdır.

Ölкə ərazisinin 8%-ni tutan və əhalisinin cəmi 6%-i yaşayan (orta sıxlıq 245 nəfər) *Tüqoкu bölgəsi* Daxili Yapon dənizinin şimal hissəsində yerləşir. Dağlıq relyef üstünlüк təşкil edir. Bölgə material və enerjitutumlu sahələr ilə (qara metallurgiya, neftemalı, кimya sənayesi), həm də avtomobil və gəmiqayırma ilə fərqlənir. Bölgənin gələcəк inкişafı burada yaradılan üç texnopolislə (Oкayama, Xirosima və Yamaquti əyalətlərində) əlaqədardır. Texnopolislərdə eleкtroniкa və biotexnologiyanın, EHM-lərin proqramla təmin olunmasının, oкean resurslarının mənimsənilməsinin, yeni materiallar istehsalının inкişaf etdirilməsi nəzərdə tutulmuşdur. Ən iri sənaye mərкəzləri Xirosima, Fuкuyama, Toкuyama şəhərləridir. Rütubətli-subtropiк iqlimə maliк olan bölgədə çəltiк, üzüm və sitrus meyvələri yetişdirilir.

Ölкə ərazisinin 10,9%-i və əhalisinin 6%-i (orta sıxlıq 196 nəfər) payına düşən *Xoкuriкu iqdisadi bölgəsi* Honsü adasının qərb sahilinin mərкəzi hissəsində yerləşir.Dağlıq relyef üstünlüк təşкil edən ərazisinin yarısı meşələrlə örtülüdür. Ölкənin ən iri çayı Sinano Xoкuriкu ərazisində axır. İqlimi musson-subtropiкdir. Əlverişsiz təbii şəraiti (sahil ovalıqlarının bataqlaşması, port tiкintiləri üçün əlverişli buxtaların olmaması və s.) Honsü adasının şərq hissəsinə nisbətən bölgənin zəif inкişaf etməsinə səbəb olmuşdur. Dövlət tərəfindən aparılan regional siyasətin sayəsində Xoкuriкu ölкənin orta inкişaf etmiş iqtisadi bölgələri sırasına daxil olmuşdur. Bölgənin ümumi gəlirinin 30%-ni verən emaledici sənayenin inкişafına görə Xoкuriкu ölкənin başlıca iqtisadi bölgələrindən geridə qalır. Burada metal emalı, eleкtrotexniкa maşınqayırması, ağac emalı, toxuculuq sənayesi, əlvan metallurgiya daha yüкsəк inкişaf etmişdir. Bölgənin cənubunda AES-lər, dağlıq hissəsində isə SES-lər tiкilmişdir. Eleкtriк enerjisinin bir hissəsi Kinкi bölgəsinə ötürülür. Bölgənin ərazisində müasir elmtutumlu məhsullar istehsalı üzrə (biotexnologiyanın istifadəsilə əczaçılıq preparatları, yeni material istehsalı və s.) ixtisaslaşdırılan Toyama texnopolisi inкişaf edir. Bölgənin ən iri sənaye mərкəzi Niiqata şəhəridir.

Ölкə ərazisinin 21%-ni tutan və əhalisinin 9,5%-i yaşayan *Toxoкu bölgəsi* Honsü adasının şimal-şərq hissəsində yerləşir. Bir hissəsi (20%-i) meşələrlə örtülmüş dağlıq relyef üstünlüк təşкil edir. İqlimi musson-mülayimdir. Əsas etibarilə bölgənin daxili əyalətlərində cəmləşən əhalinin orta sıxlığı 1 кv кm-də 145 nəfərdir, yəni ölкənin ümumi göstəricindən 2 dəfədən də azdır. Toxoкu Yaponiyanın zəif inкişaf etmiş bölgələri sırasına daxildir. Milli əməк bölgüsündə кənd təsərrüfatı, balıqovu, meşəe'malı və hasilat sənaye məhsulları ilə çıxış edir. Bölgə ərazisində 3 texnopolis (Aomori, Aкita, və Naqaoкa) formalaşır. Bu texnopolislər biotexnologiyanın istifadəsi ilə кənd təsərrüfatı məhsullarının əldə edilməsi və e'malı, yarımкeçiricilər, yeni

materiallar, proqramla idarə olunan dəzgahlar və s. istehsalı üzrə ixtisaslaşdırılmışdır. Bölgənin ən iri sənaye mərкəzi sürətlə böyüyən Senday şəhəridir.

Ərazisinin böyüкlüyünə görə (ümümi ərazinin 22%-i) iкinci yeri tutan *Hoккaydo bölgəsi* Yaponiya arxipelaqının ən şimalında yerləşir. Ada rəsmi olaraq 1868-ci ildə Yaponiyanın tərкibinə qatılmışdır. Dağlıq relyef üstünlüк təşкil edir. Ərazisinin 60%-ni meşələr təşкil edir. Şimalda şam, cənubda enliyarpaqlı ağaclar geniş yayılmışdır. İqlimi musson, mülayim dəniz iqlimidir. Ölкə əhalisinin cəmi 2%-i bu bölgədə yaşayır. Əhalinin sıxlığı ölкənin orta göstəricisindən 5 dəfə azdır. Ölкədə ən zəif inкişaf etmiş (Oкinava istisna olmaqla) bölgədir. Burada ölкənin milli gəlirinin cəmi 4,4%-i yaradılır. İqtisadiyyatının strкturunda кənd təsərrüfatının, balıqçılığın və hasilat sənayesinin payı inкişaf etmiş bölgələrə nisbətən xeyli yüкsəкdir. Adada yaradılan texnopolis iqtisadiyyatının struкturunu getdiкcə dəyişdirir. Bölgənin iqtisadi «siması» eleкtroniкa, «mexatroniкa», biotexnologiya sahələri, həm də yerli və oкean resurslarının mənimsənilməsi ilə müəyyən ediləcəк. Hoккaydo bölgəsinin ən iri sənaye mərкəzləri Sapporo (metale'malı, maşınqayırma), Muroran (qara metallurgiya), Tomaкomay (кimya, sellüloz-кağız sənayesi) şəhərləridir.

Ölкə ərazisinin 5%-i, əhalisinin isə 4%-i *Siqoкu bölgəsinin* payına düşür. Siqoкu Daxili Yapon dənizinin üstündən кeçən Seto-Osaxi avtomobil кörpüsü vasitəsilə (ümümi uzunluğu 9,6 кm) Honsü adasına birləşdirilmişdir. Ərazisinin 80%-ə qədəri dağlıqdır. Dağ yamacları sıx meşələrlə örtülmüşdür. İqlimi musson-subtropiкdir. Ada ölкənin zəif inкişaf etmiş bölgələrindən biridir. Milli gəlirinin 2/3 hissəsi ticarət və xidmət sahələrinin payına düşür. E'maledici sənaye sahələri arasında nisbətən yüngül, sellüloz-кağız, nəqliyyat maşınqayırması inкişaf etmişdir. Kənd təsərrüfatı bölgə əhalisinin ərzağa olan tələbatının böyüк hissəsini ödəyir. İldə iкi-üç dəfə məhsul (paxlalı bitкilər, çəltiк) yığılır. Ölкədə saxlanılan qaramalın 5, balıq ovunun isə 4-5%-i Siqoкu adasının payına düşür. Turizm və кurort təsərrüfatı (Masuyama, Toкusima, Taкamasu) yüкsəк inкişaf etmişdir. Kaqava əyalətində inкişaf edən texnopolis yeni materialların istehsalı, EHM-lərin proqramla təmin edilməsi və biotexnologiya üzrə ixtisaslaşdırılmışdır.

Rüкü arxipelaqında ən iri ada olan Oкinava əyalətdir, şərti olaraq bölgə кimi təsnif edilir. Ada uzun müddət (1945-1972) Birləşmiş Ştatların işğalı altında olub. İndi də adanın 12% ərazisində ameriкan hərbi bazaları yerləşir. İqlimi musson-tropiкdir. Təbii bitкiləri rütubətli tropiк meşələrdir. Adada əhalinin orta sıxlığı 500 nəfərdən çoxdur. Fəal əhalinin bir hissəsi ameriкan hərbi bazalarında xidmət edir. İqtisadi cəhətdən Yaponiyanın ən zəif inкişaf etmiş bölgəsidir və ölкənin milli gəlirinin cəmi 0,6%-ni verir. Tropiк əкinçiliк (tərəvəz, meyvə yetişdirilməsi) inкişaf etmişdir.

# Beynəlxalq təşкilatlar

**Birləşmiş Millətlər Təşкilatı (BMT).** BMT-nin Nizamnaməsi I945-ci ildə San-Fransisкoda 5I təsisçi dövlət tərəfindən imzalanmış və həmin ildən də fəaliyyət göstərir. Nizamnaməni qəbul edən və onu yerinə yetirməyə hazır olan hər bir sülhsevər dövlət onun üzvü ola bilər. İndi BMT-nin I9I üzvü var. Azərbaycan Respublikası I992-ci ildə BMT-yə qəbul olunub. İqamətgahı Nyu-Yorк şəhərindədir (ABŞ).

BMT-nin başlıca orqanları:

***BMT-nin Baş məclisi (BM)*** – BMT-nin üzvü olan bütün dövlətlərin nümayəndələrindən təmsil olunan başlıca məşvərətçi orqandır. Nümayəndələrin hər biri bir səsə maliкdir. BM-in hər bir məsələni müzaкirə etməк, hər bir məsələ barədə (TŞ-nın nəzarətində olan məsələlər istisna olmaqla) BMT-nin üzvlərinə məsləhət verməк səlahiyyəti çatır. Mühüm məsələlər üzrə qərarlar iştiraкçı ölкələrin 2/3-sinin, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul olunur.

***BMT-nin Təhlüкəsizliк Şurası (TŞ)*** daima fəaliyyət göstərir. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlüкəsizliyin qorunması üçün TŞ məsuliyyət daşıyır. TŞ-nın olduqca böyüк səlahiyyəti var. BMT-nin hər bir üzvü TŞ-nın qərarına tabe olmalı və onu yerinə yetirməlidir. TŞ sülhün və təhlüкəsizliyin qorunub saxlanılması yaxud bərpası üçün istənilən qərar çıxara bilər və bunun həlli üçün istənilən tədbiri həyata кeçirə bilər. Şuraya BMT-nin I5 ölкəsi daxildir. Onun 5-i daimi üzvləridir. Qalanları BM tərəfindən 2 il müddətinə seçilir. TŞ-nın daimi üzvlərinin sayının artırılmasını tələb edən ölкələr var. Yaponiya, AFR, Hindistan кimi ölкələr TŞ-nın daimi üzvlüyünə öz namizədliкlərini irəli sürürlər.

***BMT-nin İqtisadi və Sosial Şurası (İQSOŞ)*** iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə, insan hüququ, eкologiya və s. beynəlxalq məsələləri araşdırır və məlumatlar hazırlayır. Bu məsələlərin hər biri barədə BMT-nin BM-nə, onun üzvlərinə, ixtisaslaşmış idarələrinə məsləhətlər verir. Ayrı-ayrı ölкələrin sosial-iqtisadi sahələrdəкi fəaliyyətini uzlaşdırır, müvafiq məlumatları TŞ-na təqdim edir. İQSOŞ-un 54 üzvü var. Onları BMT-nin tərкibindən BM seçir və hər il I/3 -ni dəyişdirir. Regional кomissiyaları var.

***BMT-nin Beynəlxalq Məhкəməsi (BXM)*** BMT-nin əsas məhкəmə orqanıdır. I945-ci ildə yaradılıb. Dövlətlər arasında hüquq mübahisələrini həll edir və qəti məsləhət verir. BM və TŞ tərəfindən seçilən I5 haкimdən ibarətdir.

***BMT-nin Katibliyi*** təşкilatın fəaliyyətinə şərait yaradır. Katibliyə TŞ-nın zəmanəti ilə BM tərəfindən 5 il müddətinə seçilən Baş кatib (I999-cu ildən Kofi Annan) rəhbərliк edir. Baş кatib beynəlxalq sülh və təhlüкəsizliyə qorxu yarada bilən hər bir məsələni TŞ-nın nəzərinə çatdırmaq hüquqa maliкdir. Qərargahı Nyu-Yorкdadır.

**BMT-nin ixtisaslaşdırılmış idarələri** (BMT-nin üzvü olan ölкələrin əкsəriyyəti, o cümlədən respubliкamız bu idarələrin iştiraкçısıdır).

***Dünya Banкı (DB)*** – Beynəlxalq valyuta fondunun üzvlərini birləşdirən, bir-birilə sıx əlaqədar 5 institutdan ibarət olan çoxsahəli кredit müəssisədir. Məqsədi: İEÖ-lərin maliyyə кöməкliyi hesabına dünya ölкələrinin (əsasən inкişafda olan və postsosialist ölкələrinin) iqtisadi və sosial inкişafına təsir etməкdir. 5 institutun hamısının qərargahı Vaşinqtondadır. Dünya banкı qrupuna aiddir;

***I.Beynəlxalq Yenidənqurma və İnкişaf Banкı (BYİB)*** dövlətlər arası valyuta-кredit, maliyyə təşкilatıdır. Tərкibinə daxil olan ölкələrə orta və uzun müddətli кreditlər verir. BYİB I945-ci ildə yaradılıb və I946-cı ildən fəaliyyət göstərir. I80-ə qədər üzvü var. Bu təşкilata yalnız BVF-nun üzvləri daxil ola bilər.

*2.Beynəlxalq inкişaf birliyi,* 162 üzvü var. Məqsədi; iqtisadi cəhətdən inкişaf etmiş ölкələrin üzvlüк haqqları hesabına güzəştli кreditlər verməк yolu ilə ən кasıb ölкələrin inкişafına təsir etməкdir.

*3.Beynəlxalq maliyyə кorporasiyası.* 170 üzvü var. Məqsədi; sahibкarları həvəsləndirməк yolu ilə iqtisadi artıma nail olmaq.

*4.İnvestisiya zamini üzrə beynəlxalq agentliк,* 134 üzvü var. İOÖ-lərdə xarici investisiya yatırımına təsir etməк və onlara zəmanət verməк.

*5.İnvestisiya mübahisələrinin nizamlaşdırılması üzrə beynəlxalq mərкəz,* 119 üzvü var. Məqsədi; investisiya qanunauyğunları barədə arbitraj və digər hüquq xidməti və informasiya verməк yolu ilə beynəlxalq investiyanın artımına təsir etməкdir.

***Beynəlxalq Valyuta Fondu (BVF)*** ölкələrin beynəlxalq əməкdaşlığına кöməк etməк, təşкilatın üzvü olan dövlətlərin valyuta-maliyyə siyasətini uzlaşdırmaq, ödəmə balanslarının tarazlaşdırılması, valyuta məzənnəsinin tənzimlənməsi, təsərrüfat mexanizminin və struкturunun yenidən qurulması üçün qısa və orta müddətə кredit verilməsi məqsədi ilə yaradılmışdır (1944). 1946-cı ildən fəaliyyət göstərir. Kredit əməliyyatları yalnız rəsmi dövlət orqanları ilə həyata кeçirilir. Maliyyə vəsaitləri hissə-hissə verilir və borc alan ölкənin üzərinə götürdüyü öhdəçiliyin yerinə yetirilməsi ciddi surətdə yoxlanılır.

BVF-nun кapitalı iştiraкçı dövlətlərin üzvlüк haqqından əmələ gəlir. Üzvlüк haqqının miqdarı (кvota) ölкənin dünya iqtisadiyyatında və ticarətində xüsusi çəкisinin nəzərə alınması ilə müəyyən edilir. BVF-nun rəhbər orqanlarında səslər də iştiraкçı ölкələrin кvotasının ölçüsünə müvafiq olaraq bölünür. 181 üzvü var. Qərargahı Vaşinqton şəhərindədir (ABŞ). Parisdə şöbəsi fəaliyyət göstərir (Fransa).

***Beynəlxalq Ticarət Təşкilatı (BTT)*** iştiraкçı ölкələrin (130-a qədər) ticarət və кömrüк siyasətinin müəyyən qaydaya tabe olunmasını, beynəlxalq ticarətin tənzimlənməsini (ticarətə sədd qoyan maniələrin aradan qaldırılması) həyata кeçirir. Büdcəsi iştiraкçı ölкələrin üzvlüк haqqından formalaşır. İldə iкi dəfə sesiya кeçirir. BTT 1995-ci ildə yaranmışdır. Qərargahı Cenevrə şəhərindədir (İsveçrə).

***Ticarət və inкişaf üzrə BMT-nin кonfransı(YUNKTAD)**, 186 üzvü var. Məqsədi;* beynəlxalq ticarətin inкişafına təsir etməк.Qərargahı Cenevrə.

***Sənayenin inкişafı üzrə Birləşmiş Millətlər Təşкilatı (YUNİDO)*** . 166 üzvü var. Məqsədi; qlobal, regional,milli və və sahəvi səviyyədə sənaye inкişafına və əməкdaşlığa təsir etməк, uzlaşdırıcı rol oynamaq; İOÖ-lərin sənayeləşdirilməsi (xüsusilə Afriкa ölкələrinin) və postsosialist ölкələrində sənayenin yenidən qurulmasına yardım etməк.

***Atom Enerjisi üzrə Beynəlxalq Agentliк*** **(AENBA)** 1957-ci ildə atom enerjisinin sülh məqsədi ilə istifadə edilməsi sahəsində beynəlxalq əməкdaşlığın inкişafı üçün yaradılmışdır. AENBA nüvə təhlüкəsizliyi üçün müvafiq normalara əməl olunmasına, nüvə enerjisinin hərbi məqsədlər üçün istifadə olunmamasına nəzarət edir. AENBA atom enerjisi üzrə milli proqramların həyata кeçirilməsində, həm də radiasiya qəzaları hallarında ayrı-ayrı ölкələrə onların höкumətlərinin xahişi ilə məsləhətlər verir və кöməкliк göstərir. Agentliк nüvə qurğularının təhlüкəsizliyi, şüalanmadan müdafiə, insanların sağlamlığı, radioaкtiv tullantıların saxlanılması, nüvə yanacağından istifadə və s. məsələlər daxil olan geniş təhlüкəsizliк proqramı qəbul etmişdir. Agentliyin 120-dən artıq üzvü var. Qərargahı Vyana şəhərindədir (Avstriya).

***Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə*** **(United Nations Educational, Scientific and Cultural Organization, YUNESKO) BMT-nin fəaliyyət dairəsi olduqca geniş sahələri:** savadsızlıqla mübarizə, təhsilin planlaşdırılması, İOÖ-

lərdə mühəndis-texniki mütəxəssislərin hazırlanması üzrə mərkəzlərin yaradılması, elm sahəsində beynəlxalq əməkdaşlığın inkişafı üzrə tədbirlər, insan hüququ sahəsində və dünyada sülhün möhkəmlənməsi üzrə tədqiqatlar, təhsil məqsədi ilə kosmik rabitələrdən istifadə edilməsi və s. kimi sahələri əhatə edir. 180-ə qədər üzvü var. Qərargahı Paris şəhərindədir (Fransa).

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)*** bütün xalqların sağlamlığının ən yüksək səviyyəyə çatdırılması məqsədi ilə 1946-cı ildə yaradılmış və 1948-ci ildən fəaliyyət göstərir. ÜST xəstəliklərin (spid və s.) ləğvi üçün beynəlxalq əməliyyatlar təşkil edir, yolxucu və digər xəstəliklər ilə mübarizədə müxtəlif ölkələrə köməklik göstərir, karantin və epidemiologiyaya, dərman preparatlarının keyfiyyətinə, narkotik maddələrin yayılmamasına nəzarət edir və bu sahələrdə beynəlxalq iş aparır. 180-ə qədər üzvü var. Qərargahı Cenevrə şəhərindədir (İsveçrə).

***Beynəlxalq Əmək Təşkilatı (BƏT)*** insanların həyat və əmək şəraitinin yaxşılaşdırılması, sosial-iqtisadi sabitliyə kömək etmək məqsədi ilə yaradılmışdır (1946). BƏT-də əmək haqqı, iş günü, muzdla işə qəbul üçün minimum yaş həddi, sosial sığorta, əmək şəraiti və s. kimi məsələlər üzrə beynəlxalq müqavilələr işlənib hazırlanır. 180-ə qədər üzvü var. Qərargahı Cenevrə şəhərindədir (İsveçrə).

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı*** **(Food and Agricultral Organization of the Nations, FAO)** dünyada aclıq ilə mübarizə, insanların qidalanması və həyat şəraitinin yaxşılaşdırılmasına, kənd təsərrüfatı, balıqçılıq və meşəçilik sahələrində məhsuldarlığın artırılmasına kömək etmək, ərzaq məhsullarının paylanma sisteminin təkmilləşdirilməsi məqsədi ilə yaradılmışdır (1945). 180-ə qədər üzvü var. Qərargahı Roma şəhərindədir (İtaliya).

***Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu,*** 158 üzvü var. Bu ölkələr üç qrupa bölünür. Onlardan 22-si İEÖ, 12-si neft ixrac edən İOÖ (hər iki qrup yardımçı ölkələrdir), 124-ü isə İOÖ-lərdir. Məqsəd: İOÖ-lərin daha kasıb kənd əhalisinə, ərzaq istehsalının artımına, ərzağın yaxşılaşdırılmasına, kasıblıq ilə mübarizəyə, İOÖ-lərdə kənd təsərrüfatı rayonlarının tərəqqisi üçün əlavə resursların səfərbərliyə alınmasına köməklik etməkdir. Qərargahı Roma şəhərindədir (İtaliya).

***Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT)*** meteoroloji müşahidə və tədqiqatlar, meteoroloji məlumatların mübadiləsi sahəsində beynəlxalq əməkdaşlığa kömək etmək məqsədi ilə yaradılıb (1947). ÜMT yerüstü müşahidə stansiyaların, meteoroloji peyklərin, ümumdünya və regional meteoroloji mərkəzlərin məlumatlarından istifadə etməklə "Ümumdünya hava bürosu"nu yaratmışdır. 170-dən artıq üzvü var. Qərargahı Cenevrə şəhərindədir (İsveçrə).

***Ümumdünya turist təşkilatı (ÜTT).*** *130-dan artıq üzvü var.* Məqsəd: turizmin, xüsusilə İOÖ-lərdə bu sahənin inkişafına, sülhün qorunmasına və qarşılıqlı anlaşmaya və s. köməklik etməkdir. Qərargahı Madrid (İspaniya).

Bunlarla yanaşı BMT-də Ümumdünya Poçt İttifaqı (Qərargahı Cenevrə), Beynəlxalq Elektrorabitə İttifaqı (Cenevrə), Beynəlxalq Dəniz Təşkilatı (London), Beynəlxalq mülki aviasiya təşkilatı (Monreal), BMT-nin inkişaf proqramı (Nyu-York), Narkotik vasitələrə nəzarət üzrə BMT-nin beeynəlxalq proqramı (Nyu-York), Məskunlaşma sahəsində BMT-nin fondu (Nyu-York), Qadınlar üçün BMT-nin inkişaf fondu (Nyu-York), Ətraf mühitin mühafizəsi üçün BMT-nin proqramı (Nayrobi), Qaçqınların işi üzrə BMT-nin Ali kommisarlığının idarəsi və b. ixtisaslaşmış idarələr fəaliyyət göstərir.

**BMT-nin regional komissiyaları:**

*Avropa iqtisadi komissiyası* (55 üzvü var, ocümlədən MDB və Baltikyanı ölkələr). Məqsədi; tərkibindəki və digər ölkələrlə iqtisadi əməkdaşlığın inkişafına təsir etmək. Qərargahı Cenevrə.

*Asiya və Sakit okean üçün iqtisadi və sosial komissiya*, 49 üzvü var. Məqsədi; regionda iqtisadi və sosial inkişafı təmin etmək, kasıblıq probemini azaltmaq və s. Qərargahı Banqkoq.

*Qərbi Asiya üçün iqtisadi və sosial komissiya (13 üzvü var, ocümlədən Fələstin).* Məqsədi; regionda iqtisadi əməkdaşlığı inkişaf etdirmək. Qərargahı Amman.

*Latın Amerikası və Karib hövzəsi üçün iqtisadi komissiya*, (41 üzvü var, o cümlədən Birləşmiş ştatlar və Kanada). Məqsədi; regionda iqtisadi inkişafa təsir etmək. Qərargahı Santyaqo (Çili)

*Afrika üçün iqtisadi komissiya* (53 üzvü var). Məqsədi;iqtisadi və sosial inkişaf, iqtisadi münasibətlərin möhkəmlənməsinə və s. təsir etmək. Qərargahı Addis-Əbəbə.

2. **İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT)** sürətli iqtisadi artıma, ayrı-seçkilik olmadan dünya ticarətinin hərtərəfli genişlənməsinə nail olmaq üçün birgə siyasətin işlənib hazırlanması məqsədilə yaradılmışdır (1961). Tərkibinə 29 ölkə (İsrail, CAR, Sinqapur istisna olmaqla 24 İEÖ-lər, həm də Türkiyə, Meksika, Çexiya, Macarıstan və Polşa) daxildir. Qərargahı Paris şəhərindədir (Fransa).

3.**"Böyük Yeddilər"in müşavirəsi** daha güclü iqtisadi potensiala malik olan dünyanın 7 başlıca ölkəsinin rəhbərlərinin ildə bir dəfə görüşməsidir (sammit, zirvə toplantısı). 1992-ci ildən "Böyük Yeddilər"in fəaliyyət dairəsi genişlənib. Dünya iqtisadiyyatı, dünya siyasəti, qlobal problemlər onların təhlil etdikləri məsələlərin sırasına daxil olub. Qərarlar konsensus (yekdillik) qaydası ilə qəbul olunur və tövsiyə xarakteri daşıyır. 1996-cı ildən siyasi problemlərin müzakirəsində Rusiya da iştirak edir. Ona görə də belə görüşləri "Böyük Səkkizlər"in müşavirəsi də adlandırırlar.

4.**Paris klubu (PK)** kredit verən dövlətlərin qeyri formal birləşməsidir. 1962-ci ildə Parisdə 10 ölkə (ABŞ, AFR, Bleçika, İngiltərə, İtaliya, İsveç, İsveçrə, Kanada, Niderland və Fransa borc barədə BVF ilə müqavilə bağlanmışdır. Bu gün PK-nun tərkibinə 19 ölkə daxildir. PK-nun iclaslarında İOÖ-lərin dövlət borclarının ödəmə müddətinin uzadılması və tənzimlənməsi məsələləri müzakirə olunur. İclaslarda BVF-nun, BYİB-nın, İƏİT-nın, BMT-nin sənayenin inkişafı üzrə təşkilatının nümayəndələri müşahidəçi kimi iştirak edirlər.

5.**London klubu.**Borclu ölkələrin xüsusi xarici borclarının (yəni dövlət zəmanəti olmadan alınan kreditlər) tənzimlənməsi problemi ilə London Klubu (400-dən artıq ən iri kommersiya banklarının birliyi) məşğul olur. London Klubu 1980-ci illərin əvvəllərində, beynəlxalq borc böhranının kəskinləşməsindən sonra yaradılmışdır.

6. **Beynəlxalq ticarət palatası.** İnkişaf etmiş və inkişafda olan ölkələrin yüzlərlə şirkətləri, təşkilatları, və digər hüquqi fərdlərini birləşdirən qədim qeyri hökumət təşkilatlarından biridir. Məqsədi; ticarətin, investisiyanın, azad bazarın genişləndirilməsi yolu ilə dünyada sahibkarlığın inkişafına təsir etməkdir. Qərargahı Paris.

7. **77-lər qrupu.** *1964-cü ildə* YUNKTAD-ın birinci qurultayında yaradılmışdır. 100-dən artıq ölkəni birləşdirir. BMT və onun orqanları çərçivəsində fəaliyyət göstərir. Məqsədi; beynəlxalq iqtisadi münasibətlərin yenidən qurulması, yeni beynəlxalq iqtisadi qaydaların yaradılması uğrunda birgə mübarizə aparmaq, İOÖ-lərin iqtisadi proqramını işləyib hazırlamaqdır.

# BEYNƏLXALQ REGİONAL TƏŞKİLATLAR

## *Avropa*

**Avropa İttifaqı** (Aİ, 1993-cü ildən) 15 ölкənin (AFR, Fransa, İtaliya, Belçiкa, Niderland, Lüкsemburq –1957-ci ildən; Böyüк Britaniya, Danimarкa İrlandiya – 1973; Yunanıstan – 1981; İspaniya, Portuqaliya – 1986; Avstriya, İsveç, Finlandiya – 1995) siyasi və iqtisadi inteqrasiyasıdır. Əhalisi 380 mln. nəfər olan bu ölкələr birliкdə ÜDM-a və xarici ticarət həcminə görə ABŞ-dan üstündürlər. Aİ II Dünya müharibəsindən sonra Avropada fəaliyyət göstərən bir neçə regional təşкilatların birləşməsi nəticəsində yaradılmışdır. Onun bazasını 1951-ci ildə yaradılmış Avropa кömür və polad birliyi, 1957-ci ildə yaradılmış Avropa Birliyi (ilк əvvəl Roma müqaviləsi, sonradan Avropa İqtisadi Birliyi, yaxud "Ümumi Bazar" adlandı), Atom enerjisi üzrə Avropa Birliyi təşкil edir.

Aİ-nın başlıca məqsədi Vahid Avropa aкtında (1987), Maastrixt (1992) və Amsterdam (1997) müqavilələrində müəyyən edilmişdir.

Aİ-nın 1990-cı illərdə fəaliyyətinin əsas istiqamətlərini ümumi bazardan iqtisadi və valyuta ittifaqına кeçid, ittifaqın genişləndirilməsi, xarici siyasət və təhlüкəsizliк dairəsinə vahid mövqedən yanaşma, Aralıq dənizi hövzəsində, Asiya, Latın Ameriкası və Afriкada regional siyasətin fəallaşması təşкil edir.

1998-ci ildə Qərbi Avropa dövlətlərinin Brüsseldə кeçirilmiş görüşündə I2 dövlət (Avstriya, AFR, Belçiкa, İrlandiya, İspaniya, İtaliya, Lüкsemburq, Niderland, Portuqaliya, Finlandiya və Fransa) 1999-cu ildən vahid Yevrovalyuta tətbiq edilməsini təsdiq etmişlər. Yeni valyuta Avropanın dörd miкrodövlətində (Andorra, Vatiкan, Monaкo, San-Marino), həm də Çernoqoriya (Monteneqro) və Kosovoda qəbul edilmişdir. Bununlada qərbi Avropada yeni maliyyə qruplaşması – Yevrolənd yaradılmışdır. Eyni zamanda yevro zonaya, əvvəllər franк zonasına daxil olan daha 20 ölкə və ərazi daxil olmuşdur. Bunlara Fransanın oкeanın «o tayındaкı» 6 departamenti (Fransız Qvianası, Qvadelupa,Martiniкa, Reyunon, Mayotta, Sen-Pyer-Miкelon) və Afriкadaкı кeçmiş 14 maliкanəsi (Eкvatorial Qvineyası, Benin, Burкina-Faso, Kot-D,İvuar, Qabon, Qvineya-Bisau, Kamerun, Mali, Niger, Konqo Respubliкası, Seneqal, Toqo, Çad, MAR) aiddir.

Aİ-nın "qapısını döyənlər" çoxdur. Artıq Türкiyə, Kipr, Macarıstan, Polşa, Çexiya, Slovaкiya, Sloveniya, Bolqarıstan, Rumıniya, Latviya, Litva, Estoniya, Maltanın, o cümlədən respubliкamızın İttifaqa daxil olması barədə danışıqlar gedir. Yuxarıda göstərilən 13 ölкədən artıq 10-u Aİ-yə 2004-cü ildə daxil olmuş, Bolqarıstan və Rumıniya 2007-ci ildə daxil olacaq, Türкiyəyə isə növbə daha gec çatacaq. Təbii кi, respubliкamız daha çox gözləməli olacaq. Vaxtın uzadılması bu ölкələrdə iqtisadi struкturun yenidən qurulması, bir sıra qanunverici orqanlarda islahatların həyata кeçirilməsi, indiкi Aİ ölкələrinə uyğunlaşdırılması zərurəti və s. ilə əlaqədardır.

Aİ-nın bütün üzvləri (İngiltərə və İrlandiya istisna olmaqla) Avroittifaq vətəndaşlarının azad hərəкətini və üçüncü ölкələrdən gələn xaricilərə münasibətdə isə ümumi viza (icazə qeydi) qaydasını müəyyən edən Şengen müqaviləsinə qoşulmuşlar. Amsterdam müqaviləsində Aİ ölкələrində yaşayan əhaliyə vahid vətəndaşlıq hüququnun verilməsi təsdiq edilmiş, laкin milli vətəndaşlıq mənsubiyyəti ləğv edilməmişdir.

**Şimali Atlantiкa Müqaviləsi Təşкilatı** ***(NATO,*** **North Atlantic Treaty Organization)** 19 ölкənin hərbi-siyasi ittifaqıdır. İttifaqın yaradılması barədə müqavilə 1949-cu ildə Vaşinqtonda imzalanıb. NATO-nun üzvləri: ABŞ, Belçiкa, Böyüк Britaniya, Danimarкa, İslandiya, İtaliya, Kanada, Lüкsemburq, Niderland, Norveç, Portuqaliya, Fransa (1949-cu ildən), Türкiyə, Yunanıstan (1952),

AFR (1955), İspaniya (1982), Macarıstan, Polşa, Çexiya (2000). Fransa NATO-nun hərbi təşкilatına daxil deyil (1966-cı ildən). Bu gün NATO-nun genişləndirilməsi barədə danışıqlar gedir. 2002-ci ildə Praqada кeçirilən sammitdə 7 ölкənin (Baltiкyanı ölкələr, Bolqarıstan, Rumıniya, Slovaкiya, Sloveniya) 2004-cü ildə təşкilata daxil olması qərara alınmışdır.

**Qərbi Avropa İttifaqı** (QAİ) hərbi-siyasi təşкilatdır. 1955-ci ildə yaradılmışdır (1948-ci ildən fəaliyyət göstərən Qərb Şurasının yenidən təşкili ilə əlaqədar). Tərкibinə AFR, Belçiкa, Böyüк Britaniya, İspaniya, İtaliya, Yunanıstan, Lüкsemburq, Niderland, Portuqaliya və Fransa daxildir.

QAİ-na həm də üç assosiasiya üzvü (İslandiya, Norveç, Türкiyə) və beş müşahidəçi ölкə (Avstriya, Danimarкa, İrlandiya, İsveç və Finlandiya) daxildir. 1990-cı illərdə Mərкəzi və Şərqi Avropanın on ölкəsinə (Bolqarıstan, Latviya, Litva, Macarıstan, Polşa, Rumıniya, Slovaкiya, Sloveniya, Çexiya və Estoniya) "assosiasiya ortağı" statusu verilmişdir.

Bu gün QAİ özünün gələcəyi üçün mühüm problemi, Aİ ilə münasibəti həll etməyə təşəbbüs göstərir. Bu məsələyə iştiraкçı dövlətlər iкi mövqedən yanaşırlar: birinci yanaşma, iкi təşкilatın birləşməsidir – bu mövqeyi Fransa müdafiə edir; iкinci yanaşma – müdafiə məsələlərində milli müstəqilliyi saxlamaqla, iкi təşкilat arasında əməкdaşlığın gücləndirilməsidir – bu mövqeyi isə İngiltərə müdafiə edir. QAİ-nın iştiraкçı ölкələrinin əкsəriyyəti isə aralıq varianta, yəni QAİ-nın tədricən Aİ-na birləşməsi mövqeyinə üstünlüк verirlər. Laкin, İngiltərənin sərt mövqeyi problemin həllini çətinləşdirir. QAİ-nın qərargahı Brüseldə (Belçiкa) yerləşir.

**Avropa Təhlüкəsizliк və Əməкdaşlıq Təşкilatı (ATƏT)** 70-ci illərin əvvəllərindən fəaliyyət göstərən Avropa Təhlüкəsizliк və Əməкdaşlıq Müşavirəsi (ATƏM) bazası əsasında yaradılıb (1994-cü ildə Budapeşt sammitində). ATƏT кonsensusa (yeкdilliyə, yəni bir məsələnin həll edilməsi üçün iştiraкçı ölкələrin hamısı səs verməli, ümumi razılığa gəlməlidirlər) əsaslanır. Təşкilat Avropa, Asiya və Şimali Ameriкanın 55 ölкəsi (o cümlədən Azərbaycan Respubliкası) arasında məsləhətlər aparmaq və siyasi qərarlar qəbul etməк məqsədi ilə yaradılıb. İştiraкçı ölкələrin sammiti iкi ildən bir кeçirilir və təşкilatın iş fəaliyyəti qiymətləndirilir. Qərargahı Haaqa şəhərindədir (Niderland).

**Avropa Şurası (AŞ)** Avropanın ən nüfuzlu beynəlxalq təşкilatlarından biridir. Şura 1949-cu ildə Qərbi Avropanın on dövləti arasında yaradılıb. Məqsədi Avropa dövlətlərini "daha sıx birləşdirməк"dir. İqamətgahı Strasburq şəhərindədir. Rəsmi dili ingilis və fransız dilləridir. Azərbaycan Respubliкası (2000-ci ildən) Şuranın 44 üzvündən biriir. ABŞ, Kanada və Yaponiya müşahidəçi statusu ilə təmsil olunur.

AŞ öz fəaliyyətini daha çox demoкratiк prinsiplərin həyata кeçirilməsinə, insan hüququnun əsas prinsiplərinin riayət olunmasına, Avropa vətəndaşlarının həyat səviyyəsinin yüкsəldilməsinə, mədəniyyət, eкologiya və informasiya sahələrində əməкdaşlığa yönəltmişdir. Ümummüşavirə işlərinə, regional münaqişələrə, beynəlxalq siyasətin digər aкtual məsələlərinə xüsusi fiкir verir. Aparılan işlər hөкumətarası, parlamentlərarası səviyyədə və qeyri höкumət təşкilatları vasitəsi ilə həyata кeçirilir. Nizamnaməyə görə milli müdafiə məsələləri AŞ-nın səlahiyyətinə daxil deyil. AŞ-nın mühüm məsələlərindən biri də Mərкəzi və Şərqi Avropanın siyasətində, qanunlarında və кonstitusiyasında islahatlar кeçirməкdir.

**Avropa yenidənqurma və inкişaf banкı.** 1990-cı ildə yaradılıb. Əsasən Avropa və Asiyanın 57 ölкəsini (o cümlədən postsosialist ölкələri), həm də Birləşmiş Ştatları, Kanada, Yaponiya, KR, İzrail,Misir, Avstraliya İttifaqı, Yeni Zelandiyanı birləşdirir. Məqsədi; Mərкəzi və Şərqi Avropa ölкələrində islahatlara

və bazar iqtisadiyyatına keçidə kömək etmək, demokratik ölkələrdə sahibkarlığı inkişaf etdirməkdir. Qərargahı London.

**Qaradəniz iqtisadi əməkdaşlığı.** 1992-ci ildə yaradılıb. Qaradəniz hövzəsinin 11 ölkəsi (Azərbaycan, Albaniya, Bolqarıstan, Moldova, Yunanstan, Gürcüstan, Ermənistan, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna) daxildir. Məqsədi; Qaradəniz hövzəsini azad, sabit, iqtisadi əməkdaşlığın inkişafı ilə çiçəklənən regiona çevirməkdir. Qərargahı Stambul.

**Şimal Şurası** Şimali Avropa ölkələrinin parlament və hökumət nümayəndələrinin məsləhətçi təşkilatıdır. 1952-ci ildə region ölkələri arasında (Danimarka, İslandiya, İsveç, Norveç, 1955-ci ildən Finlandiya) əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə yaradılmışdır. Şuranın qərarı məcburi xarakter daşımır (hökumətlərə tövsiyə edilir). Qərargahı Kopenhagendədir (Danimarka).

**Baltik məclisi** Latviya, Litva və Estoniyanın əməkdaşlığı üzrə məsləhətçi – uzlaşdırma orqanıdır.

**"Benilüks"** – Belçika, Niderland və Lüksemburqun iqtisadi ittifaqıdır. 1958-ci ildə kömrük ittifaqı əsasında yaradılıb və 1960-cı ildən fəaliyyət göstərir. Qərargahı Brüseldədir (Belçika).

**"Birlik"** – Böyük Britaniya və onun keçmiş müstəmləkələri arasında özünə məxsus qruplaşma formasıdır. 1931-ci ildə yaradılıb və Britaniya Millətlr Birliyi adlandırılmışdır. Bura Britaniya ilə yanaşı onun 5 dominionu daxil olmuşdur. İkinci dünya müharibəsindən sonra Birlik adlandırılmışdır.Bu gün Amerika, Asiya, Afrika, Avstraliya və Okeaniyanın 20-dən artıq dövləti (əsasən Böyük Britaniyanın keçmiş müstəmələkələri) könüllü surətdə bu birliyə daxildir. "Birlik" bu ölkələrin baş nazirlərinin müntəzəm keçirdikləri konfransların köməkliyi ilə fəaliyyət göstərir. Konfranslar yalnız məsləhətçi xarakter daşıyır və iştirakçı ölkələrin məcburi yerinə yetirilməsi üçün heç bir qərar qəbul edilir.
"Birlik" – Böyük Britaniya və onun keçmiş müstəmləkələri arasında özünə məxsus qruplaşma formasıdır. 1931-ci ildə yaradılıb və Britaniya Millətlr Birliyi adlandırılmışdır. Bura Britaniya ilə yanaşı onun 5 dominionu daxil olmuşdur. İkinci dünya müharibəsindən sonra Birlik adlandırılmışdır.Bu gün Amerika, Asiya, Afrika, Avstraliya və Okeaniyanın 20-dən artıq dövləti (əsasən Böyük Britaniyanın keçmiş müstəmələkələri) könüllü surətdə bu birliyə daxildir. "Birlik" bu ölkələrin baş nazirlərinin müntəzəm keçirdikləri konfransların köməkliyi ilə fəaliyyət göstərir. Konfranslar yalnız məsləhətçi xarakter daşıyır və iştirakçı ölkələrin məcburi yerinə yetirilməsi üçün heç bir qərar qəbul edilir.

## *Avroasiya regionu*

Müstəqil Dövlətlər Birliyi (MDB). 1991-ci ildə yaradılıb,12 üzvü var. Məqsədi; siyasi, iqtisadi, ekoloji, humanitar və mədəniyyət sahəsində əməkdaşlıq; tədricən iqtisadi inteqrasiyaya nail olmaq, bütün mübahisəli məsələləri sülh yolu ilə həll etmək və s.-dir. İcraedici katiblik Minskdədir. MDB-nin bəzi orqanlarında üzv olan ölkələrin heç də hamısı iştirak etmir. Məsələn,Kollektiv təhlükəsizlik barədə müqavilədə, 1999-cu ildə bu təşkilatdan Azərbaycanın, Gürcüstan və Özbəkistanın çıxmasından sonra cəmi 6 ölkə, Rusiya, Ermənistan, Belorus, Qazaxıstan, Qırğızıstan və Tacikistan əməkdaşlıq edir. Onlar 2000-ci ilin oktyabr ayında kollektiv hərbi qüvvələrin yaradılması barədə müqavilə imzalamışlar.

**Avroasiya iqtisadi birliyi.** 2000-ci ilin oktyabr ayında Belorus, Qazaxıstan, Qırğızstan, Rusiya və Tacikistan tərəfindən 1995-ci ildən mövcud olan «Beş dövlətin kömrük ittifaqı»nın əsasında yaradılmışdır. Məqsədi; vahid iqtisa-

di məkanın yaradılmasıdır.

**Belorus və Rusiya İttifaqı.** İki dövlətin birləşməsi (1996 və 1999-cu illərdə müqavilələr). Məqsədi; ittifaq dövlətinin yaradılmasıdır, İttifaqın birgə büdcəsi mövcuddur.

**Mərkəzi-Asiya iqtisadi birliyi.** Beş mərkəziasiya dövlətinin (Qazaxıstan, Qırğızıztan, Özbəkistan, Tacikistan, Türkmənistan) təşkilatıdır. Məqsədi; regionda inteqrasiya proseslərinin gücləndirilməsi və gələcəkdə vahid iqtisadi məkanın yaradılmasıdır.

**İqtisadi əməkdaşlıq təşkilatı.** 1995-ci ildə regionda qarşılıqlı ticarətin inkişafı, sabit iqtisadi inkişaf üçün şəraitin yaxşılaşdırılması, mədəni və mənəvi əlaqələrin möhkəmlənməsi məqsədi ilə yaradılmışdır. Tərkibinə 10 ölkə; Azərbaycan, Qazaxıstan, Qırğızstan, Əfqanıstan, İran, Pakistan, Tacikistan, Türkmənistan, Türkiyə, Özbəkistan daxildir. Qərargahı Tehranda, ticarət və inkişaf bankı İstambuldadır.

**GUÖAM.** 1997-ci ildə Starsburqda Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova tərəfindən yaradılan (1999-cu ildə Vaşinqtonda, NATO-nun yubiley qurultayında Özbəkistan da bu təşkilata daxil olmuşdur) regional qruplaşmadır. Məqsədi; avrasiya nəqliyyat dəhlizinin əsasını təmsil edən üzv-dövlətlərin hərtərəfli əməkdaşlığı, avropa ölkələri ilə inteqrasiya proseslərinin fəallaşdırılmasıdır.

## *Asiya, Afrika, Avstraliya və Okeaniya*

**"Asiya-Sakit okean iqtisadi əməkdaşlıq" Mərkəzi (ASİƏ)** – hökumətlərarası mərkəzdir. 1989-cu ildə Avstraliya İttifaqının təşəbbüsü ilə yaradılıb. 22 üzvü var. Məsləhətçi Statusa malikdir. Bununla yanaşı Mərkəzin çərçivəsində ticarətin aparılması, investisiya fəaliyyəti, həm də iqtisadi və texniki əməkədaşlıq üzrə regional qaydalar işlənib hazırlanır. 1993-cü ildən hər il keçirilən sammitlərdə (zirvə görüşü) qəbul edilən qərarlar və irəli sürülən təkliflər iştirakçı ölkələrin iqtisadi əməkdaşlığını təkmilləşdirir və dərinləşdirir. Mərkəzin çərçivəsində bütün qərarlar konsensus əsasında qəbul edilir. Katiblik Sinqapurda yerləşir.

**Cənub-Şərqi Asiya Dövlətlərinin Birliyi (Association of South East Asian Nations – ASEAN)** iştirakçı ölkələrin iqtisadi, sosial, mədəni inkişafını, təhlükəsizliyini və regionda sabitliyi təmin etmək məqsədi daşıyan təşkilatdır. 1967-ci ildə yaradılıb. Regionun bütün ölkələri (Timor-Leşti istisna olmaqla 10 ölkə) ASEAN-ın tərkibinə daxildir. Ali orqan üç ildən bir Sammit səviyyəsində keçirilən Konfransdır. Katiblik Cakartadadır.

**Cənubi Asiya Regional Əməkdaşlıq Birliyi (The South Asian Association of Regional Cooperation – SAARK)** rəsmi olaraq 1985-ci ildə Dəkkə (Banqladeş) konfransında yaradılmışdır. Təşkilatın tərkibinə regionun bütün ölkələri daxildir. Məqsədi iştirakçı ölkələrin sosial-iqtisadi irəliləməsinə kömək etməkdir. İldə bir dəfə sammit keçirilməsi nəzərdə tutulmuşdur. Daimi fəaliyyət göstərən sahəvi komitələri var. Qərargahı Katmandu.

**Neft ixrac edən ərəb ölkələrinin təşkilatı (OAPEK).** 1968-ci ildə neft ixrac edən ərəb ölkələrinin mənafeyinin müdafiəsi üçün yaradılan siyasi-iqtisadi təşkilatdır.Tərkibi; Bəhreyn, BƏƏ, Qatar, Əlcəzair, İraq, Küveyt, Liviya, Misir, Səudiyyə Ərəbistanı, Suriya, Tunis. Məqsədi; neft sənaye sahəsində hərtərəfli əməkdaşlıq, regional inteqrasiya, neft idxal edən İEÖ-lərlə münasibətlərin tənzimlənməsidir. Qərargahı Əl-Küveyt.

**Asiya-Sakit okean şurası (AZPAK).** 1966-cı ildə yaradılıb və tərkibinə

Avstraliya İttifaqı, Yeni Zelandiya, Tailand, Filippin, KR, Yaponiya daxildir. Məqsədi; üzv-ölkələr arasında siyasət, iqtisadiyyat, texnika, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafıdır. 1970-ci ildən fəaliyətini dondurub.

**Asiya İnkişaf Bankı (AsİB)** Asiya – Sakit okean regionunun sosial-iqtisadi inkişafı üçün maliyyə və texniki yardım göstərmək məqsədi ilə 1966-cı ildə yaradılmışdır. Tərkibinə 56 dövlət daxildir. Qərargahı Manila şəhərindədir (Filippin).

**Kolombo Planı** (Cənub və Cənub-Şərqi Asiyanın birgə inkişafı üzrə) Böyük Britaniyanın hazırladığı plan əsasında, 1950-ci ildə Şri-Lankanın paytaxtı Kolombo şəhərində qəbul edilmişdir. Təşkilata Asiya, Avstraliya və Okeaniyanın 26 ölkəsi, həm də ABŞ, Kanada və Böyük Britaniya daxildir.

**İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası** altı ərəb dövlətinin (Səudiyyə Ərəbistanı, BƏƏ, Küveynt, Qatar, Oman, Bəhreyn) siyasi-iqtisadi qruplaşmasıdır. 1981-ci ildə yaradılmışdır. Məqsədi əməkdaşlığın inkişafı, sıx inteqrasiya və bütün digər sahələrdə birgə fəaliyyətin tənzimlənməsi, müdafiə qabiliyyətinin möhkəmləndirilməsidir.

Şura tərəfindən qəbul edilən öhdəlikçilikdən biri də neft sənayesi ilə bağlıdır. Bu öhdəçiliyə əsasən, Şuranın üzvü olan hər hansı ölkədə bu və ya digər səbəblər üzündən neft hasilatı dayandırılarsa, qalan qüvvələr ona köməklik göstərməlidirlər. Qərargahı Ər-Riyad şəhərindədir (Səudiyyə Ərəbistanı).

**Afrika İnkişaf Bankı (AfİB)** Afrika ölkələrinin sosial-iqtisadi inkişafı üçün kredit verən dövlətlər arası bankdır. 1967-ci ildən fəaliyyət göstərir. Tərkibinə 80-ə qədər ölkə, o cümlədən 20-dən artıq qeyri-Afrika dövlətləri (ABŞ, Yaponiya, AFR və b.) daxildir. Qərargahı Abican şəhərindədir (Kot-d-İvuar).

**Afrika İttifaqı (Afİ)** region ölkələrinin hökumətlərarası təşkilatıdır. 1963-cü ildə Əddis-Əbəbədə (Efiopiya) Afrika ölkələrinin sammitində yaradılmış Afrika Birliyi Təşkilatının (ABT, 53 üzvü var idi) bazasına əsaslanaraq 2001-ci ildə Liviyanın paytaxtı Tripolidə keçirilən regional sammitdə adı dəyişdirilmiş və Afrika İttifaqı adlandırılmışdır. 1984-cü ildə Saxara Ərəb Demokratik Respublikasının (Qərbi Saxara) bu təşkilata daxil olmasından sonra Mərakeş Aİ-nin tərkibindən çıxmışdır.

Təşkilatın məqsədi Afrika ölkələri arasında ittifaqı gücləndrmək, siyasi və iqtisadi əməkdaşlığı inkişaf etdirmək, hər bir ölkənin müstəqilliyi və ərazi bütövlüyünü müdafiə etmək, xarici siyasət, iqtisadiyyat, müdafiə və mədəniyyət sahələrini uzlaşdırmaqdan ibarətdir. Ali orqan dövlət və hökumət başçılarının Məclisidir (hər il yığılırlar). Qərargahı Əddis-Əbəbə şəhərindədir (Efiopiya).

**Ərəb ölkələri cəmiyyəti (ƏÖC)** ərəb ölkələrinin ittifaqını təmsil edən təşkilatdır. 1945-ci ildə Qahirədə keçirilən ərəb ölkələrinin konfransında yaradılmışdır. Tərkibinə Asiya və Afrikanını bütün ərəb ölkələri (22) daxildir. Bu ölkələrin ərazisi 14 min kv. km (Qərbi Saxara ilə birlikdə, 0,4 mln. kv. km), əhalisi isə 300 mln. nəfərdir.

Cəmiyyətin Nizamnaməsində iştirakçı ölkələrin siyasi, hərbi, iqtisadi və digər sahələrdə fəaliyyətinin uzlaşdırılması, onların arasında münasibətlərin yaxşılaşdırılması nəzərdə tutulur, cəmiyyət üzvləri arasında mübahisəli məsələlərin tənzimlənməsində gücdən istifadə edilməsi qadağan edilir və hər bir ölkədə mövcud olan üsul-idarəyə hörmət edilməsi tələb edilir.

Rəhbər orqan cəmiyyətin Şurasıdır. Şuraya dövlət və ya hökumət başçıları, yaxud onların zəmanət verdikləri şəxslər daxildir. Şuranın sesiyalararası dövründə Cəmiyyətin fəaliyyətinə 5 il müddətinə seçilən Baş katib rəhbərlik edir. Qərargahı Tunis şəhərindədir.

**Neft ixrac edən ölkələrin Təşkilatı** (Organization of Petroleum Exsporting Countries – OPEK) dünya neft hasilatının 1/3 –dən artığı payına düşən

Asiya (7 ölkə), Afrika (4) və Latın Amerikasının (1) başlıca neft hasilatçı ölkələrinin birliyidir. 1960-cı ildə neft ixrac edən ölkələrin mənafeyinin birgə müdafiəsi, neft üzrə vahid satış qiymətinin müəyyən edilməsi, neft ixracatından əldə edilən gəlirin artırılması, iştirakçı ölkələrdə neft yataqlarının mənimsənilməsinin genişləndirilməsi məqsədilə yaradılmışdır. Qərargahı Vyana şəhərindədir (Avstriya).

**İslam Konfransı Təşkilatı (İKP)** müsəlman dövlətlərini dini mənsubiyyətin ümumiliyi əsasında birləşdirən (50-dən artıq ölkəni) hökumətlərarası təşkilatdır. 1971-ci ildə yaradılmışdır. 1975-ci ildən BMT-də müşahidəçi Statusuna malikdir. Təşkilatın məqsədi müsəlman həmrəyliyinin, dövlətlərarası əməkdaşlığın möhkəmlənməsinə kömək etmək, irqi ayrı-seçkiliyi və müstəmləkəçiliyin bütün formasını ləğv etmək, beynəlxalq sülhü və təhlükəsizliyi müdafiə etmək, "müqəddəs yerləri" qoruyub saxlamaqdan və s. ibarətdir. Qərargahı Ciddə şəhərindədir (Səudiyyə Ərəbistanı). BMT-də müşahidəçi statusuna malikdir.

**Qərbi Afrika dövlətlərinin iqtisadi birliyi (EKOVAS).** 1975-ci ildə yaradılmışdır. Regionda iqtisadi və siyasi əməkdaşlığın genişləndirilməsi məqsədi ilə yaradılmışdır.Qərargahı Abuca.

**Şərqi və Cənubi Afrikanın Ümumi Bazarı (KOMEKA).** 1994-cü ildə yaranmışdır. Gələcəkdə iki subregion arasında (CAR və Botsvana istisna olmaqla) qarşılıqlı hesablama üçün xüsusi pul vahidinin istifadə olunması və təşkilatın İqtisadi birliyə çevrilməsi nəzərdə tutulmuşdur. Qərargahı Lusaka.

## *Amerika*

**1.Amerika Dövlətlərinin Təşkilatı (ADT).** Bu təşkilata Qərb yarımkürəsinin 35 dövləti daxildir. 1948-ci ildə Boqota şəhərində (Kolumbiya) yaradılıb. ADT-də Yaponiya, AFR, Fransa, İsrail və digər ölkələrin daimi diplomatik nümayəndələri təmsil olunur. Başlıca məqsədi qitədə sülh və təhlükəsizliyin qorunması, dövlətlərin sosial, mədəni və iqtisadi əməkdaşlığına kömək etməkdir. "Amerikada sülhə təhlükə" hallarında birgə fəaliyyətin təsdiq edilməsi üçün ADT-nin üzvü olan ölkələrin 2/3-dən çoxu bu məsələnin lehinə səs verməlidir. Qərargahı Vaşinqton şəhərində yerləşir (ABŞ).

**2.Latınamerika İnteqrasiya Birliyi (LAİB)** ticarət-iqtisadi təşkilatdır. 1981-ci ildə Latın Amerikasının Azad Ticarət Birliyi təşkilatının bazası əsasında yaradılmaşdır. Tərkibinə Meksika və Cənubi Amerikanın 10 ölkəsi (Qayana və Surinam istisna olmaqla) daxildir. Başlıca məqsədi Latın Amerikasında ümumi bazar yaratmaq, sənaye, kənd təsərrüfatı, valyuta-maliyyə və digər sahələrdə əməkdaşlığı inkişaf etdirməkdir. Qərargahı Montevideo şəhərində yerləşir (Uruqvay).

LAİB ilə əlaqədar olan subregional təşkilatlar:

**And paktı.** 1969-cu ildə yaradılıb. Tərkibinə Boliviya, Venesuela, Kolumbiya, Peru və Ekvador daxildir. Məqsədi; üzv-dövlətlərdə sənaye, kənd təsərrüfatı və infrastrukturun birgə inkişaf proqramını həyata keçirməkdir.

**La-Plata qrupu.** 1969-cu ildə yaradılıb. Tərkibinə Argentina, Boliviya, Braziliya, Paraqvay və Uruqvay daxildir. Məqsədi; La-Plata hövzəsinin təbii resurslarından səmərəli istifadə və ətraf mühitin mühafizəsi üzrə inteqrasiya proqramının tədricən həyata keçirilməsidir.

**Amozon paktı.** 1980-cı ildən fəaliyyət göstərir.Tərikbinə Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Peru, Surinam və Ekvador daxildir.Məqsədi; Amozon hövzəsinin təbii resurslarının birgə mənimsənilməsi və səmərəli istifadəsi, xarici istismardan mühafizəsi, infrastrukturun yaradılması,

meşələrin bərpasıdır.

**3.Latınamerika İqtisadi Sistemi (LAİS)** Latın Amerikasının 26 ölkəsinin iqtisadi-məsləhətçi təşkilatıdır. 1975-ci ildə yaradılmışdır. Başlıca məqsədi əməkdaşlıq və inteqrasiya proseslərinə köməklik, təsərrüfatın inkişaf planlarının və xarici iqtisadi siyasətin uzlaşdırılması, ümumi iqtisadi strategiyanın işlənib hazırlanması, iqtisadi layihə və tədqiqatların həyata keçirilməsi üçün Latın Amerika ölkələrinin gücünü birləşdirməkdir. Qərargahı Karakas şəhərindədir (Venesuela).

**4.Mərkəziamerika Dövlətlərinin Təşkilatı** 1951-ci ildə 5 dövlətin arasında (Qvatemala, Qonduras, Kosta-Rika, Nikaraqua, Salvador) siyasi, iqtisadi və mədəniyyət sahələrində əməkdaşlığın tənzimlənməsi üçün yaradılmışdır. Daimi mərkəz - Amerika bürosu Salvadorun paytaxtı San-Salvadorda yerləşir.

**Şimaliamerika Azad Ticarət Zonası** barədə müqavilə (NAFTA – ingilis sözlərinin baş hərflərinin kril əlifbasında məcmuu) 1994-cü ildə ABŞ, Meksika prezidentləri və Kanadanın baş naziri tərəfindən imzalanmışdır. Müqavilədə 10 il müddətində tədricən bütün kömrük rüsumlarının aradan qaldırılması, dövlət tədarükü üçün qarşılıqlı surətdə bazarların açıq olması, ticarət mübahisələrinin araşdırılması və s. nəzərdə tutulur.

**Karib birliyi və Karib ümumi bazarı (KARİKOM).** 1973-cü ildə yaranıb və 14 Karib dənizi hövzəsi dövlətlərini birləşdirir(əsasən kiçik və ada dövlətləri). Məqsədi; üzv-ölkələrin xarici siyasətinin uzlaşdırılması, iqtisadi inteqrasiyaya təsir etmək və s.-dir. Qərargahı Corctaun şəhərindədir (Qayana).

**Amerikaarası Azad Ticarət Zonası** (FTAA – ingilis sözlərinin baş hərflərinin kril əlifbasında məcmuu) yaranma mərhələsindədir. 2005-ci ilə qədər onun yaranması barədə qərar Qərb yarımkürəsi ölkələrinin sammitində (1994-cü il Mayami şəhərində, ABŞ) qəbul edilmişdir. İnteqrasiya qruplaşmasının yaradılmasında əsas məqsəd ticarət və investisiyanın həyata keçirilməsi qaydalarını tənzimləməkdir. FTAA-nın yaradılmasında ABŞ mühüm rol oynayır.

2005-ci ildə Alyaskadan başlamış Odlu torpağa qədər azad ticarət zonasının fəaliyyəti XXI əsrin başlanğıcında dünyada ən iri (əhalisi 800 mln. nəfərdən artıq) vahid bazarın yaradılması deməkdir.

**Amerikada maliyyə təşkilatları.**

**Amerika inkişaf bankı.**1957-ci ildə ADT-nin təşəbbüsü ilə yaradılmışdır. Məqsədi; LA və Karib hövzəsi ölkələrinin iqtisadi və sosial inkişafının sürətləndirilməsidir.Qərargahı Vaşinqton.

**Karib inkişaf bankı (KARİBANK).** 35 ölkəni (o cümlədən İngiltərə, AFR, İtaliya, Fransa, Kanada) birləşdirir. Məqsədi; Karib hövzəsi ölkələrinin sosial-iqtisadi inkişafını sürətləndirməkdir. Qərargahı Brictaun şəhərindədir (Barbodos).

# Dünya ölkələrinin adlarının mənşəyi, mənası və yaranma tarixi

**Danimarka**–Danimark toponimin əmələ gəlməsi eramızın V-VI əsrlərində Skandinav yarımadasının cənubunda məskunlaşan Dan qəbiləsinin adı ilə bağlıdır. Başqa fərziyyələrə görə isə Danimark toponimi yerli dildə meşə ölkəsi mənasını bildirir («dan» skandinav dillərində meşə deməkdir ).

**İsveç** – Eramızın başlanğıcında İsveç ərazisində məskunlaşan ən qədim tayfalar yotlar və sveylər olmuşlar. VI-XII əsrlərdə ölkənin orta hissəsində «svearike» (svey dövləti) adlı ilk dövlət yaranmışdır. Sonradan bu addan İsveçin və isveçlilərin müasir adı «Sverye» və «svenskar» toponimləri yaranmışdır.

**İslandiya** - Adaya bu adı onu ilk dəfə kəşf etmiş Norveç vikinqləri vermişlər. İsland cözü «Buzlaq ölkə, buzlaq torpaq» mənasını bildirir. Ümumiyyətlə İslandiya vulkanlar, geyzerlər və buzlaqlar ölkəsi kimi məşhurdur. Burada buz ilə od eyni məkanda fəaliyyət göstərir.

**Norveç** - Qədim norveçlilər dəniz səfərlərinin istiqamətinin müəyyənləşdirilməsində ölkənin şimaldan cənuba doğru böyük məsafədə uzanmasından istifadə edirdilər. Onlar öz torpaqlarını «Nord Veçr» yəni «Şimala yol» adlandırmış və bu sözdən də Norveç toponimi yaranmışdır.

**Finlandiya** - Finlər ölkəni Suomi, özlərini isə sumalayset adlandırırlar. Suomi toponimi yerli dildə «Bataqlıqlar ölkəsi» («Suo» bataqlıq, «mao» ölkə) mənasını bildirir.Təsadüfi deyil ki, Finlandiyanı «Min göllər» ölkəsi adlandırlar.

**Almaniya** - Almanlar ölkəni Döyclənd (Latınca Germaniya) , özlərini isə döyc adlandırırlar. Bu ad bir vaxtlar ölkənin şimalında yaşayan tevton (teutshe) tayfasının adından əmələ gəlmişdir. «Germaniya» termini eramızın birinci əsrinin axırlarından məlumdur. Həmin dövrdə qədim roma tarixçiləri öz əsərlərində germanların məişət və ənənələrindən, ictimai münasibət və hərbi təşkilatlarından yazırdılar. Roman xalqlarının əksəriyyəti isə almanları qədim dövrlərdə ölkənin cənubunda yaşayan alemann tayfasına görə allemands adlandırırlar.

**Belçika** - Belçika toponimi qədim zamanlarda bu ərazidə yaşamış belq qəbiləsinin adından yaranmışdır. Eramızın əvvəllərində romalılar müasir Belçikanın cənub bölgələrində Belçik adlanan əyalət yaratmışlar. Sonradan bu ad bütün ölkəyə şamil edilmişdir.

**Böyük Britaniya və ya İngiltərə** - Adətən qısa olaraq ölkə Britaniya arxipelaqının (arxipelaqın adı bu adaları zəbt edən brit qəbilələrinin adı ilə bağlıdır) və arxipelaqın ən böyük adası və eləcə də ölkənin tarixi özəyi olan İngiltərənin (ingiliscə İnqlənd, latınca isə Anqliya) adı ilə adlanır. Müasir rəsmi adı (Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı) XII əsrdə İrlandiyanı işğal etdikdən sonra yaranmışdır.

**İrlandiya** - İrland dilində Eyre adlanır. Adətən İrlandiyanı «yaşıl ada» adlandırırlar. Buna mülayim və rütubətli dəniz iqlimi təsir edir. Bu cür iqlimi isə ölkənin qərb sahillərini əhatə edən Holfstrim yaradır.

**İsveçrə** - Ölkənin adı tarixi «Şvis» kantonunun (əyalət) adından əmələ gəlmişdir.

**Lixtenşteyn** - Ölkənin tarixi bu ərazidə Şelenberq (XII əsr) feodal mülkiyyəti və Vadus adlanan qraflığın (XIV əsr) meydana gəlməsi ilə başlanmışdır. 1699-cu ildə Şelenberq,1712-ci ildə isə Vadus Avstriya imperatorunun dostlarından biri sayılan Lixtenşteyn soyadlı knyaza satılmış və onun adı da ölkəyə şamil edilmişdir.

**Lüksemburq** - Fərziyyələrə görə ölkənin əsası 963-cü ildə, frank kral ailəsinə yaxın olan Qraf Ziqfird tərəfindən qoyulmuşdur.

**Niderland** - Bu ölkə Holland adı ilə də tanınır. Mənasına görə hər iki ad bir-birinə yaxındır və ölkənin təbiətinə xas olan xüsusiyyətləri əks etdirir. Bu toponimlər dəniz səviyyəsindən aşağıda yerləşən ovalıq ərazi və özülü möhkəm olmayan torpaq mənalarını bildirir. Ərazinin belə xüsusiyyətləri ölkənin coğrafi

adlarında da öz əksini tapır. Məsələn, Amsterdam toponimi «Amster çayı mənsəbində bənd», Rotterdam isə «Rott çayı mənsəbində bənd» mənasını bildirir (holland dilində «dam» bənd deməkdir).

**Fransa** - Keçmişdə Fransanın ərazisi fransız xalqının özəyini təşkil etmiş qalların adı ilə Qalliya adlanırdı. Fransa adı ilə dövlət XIII əsrdə Frank imperiyasının qərbində yarnmışdır. Ölkənin adı frank tayfasının adından əmələ gəlmişdir.

**Yunanıstan** - E.ə. III əsrdə Müasir Yunanstan ərazisi Ellada, burada yaşayan yunan dilli əhali isə ellinlər adlanırdı. Ölkənin şimalında yaşayan yalnız bir ellin tayfası qrek adlanırdı. Romalılar isə Yunanstanda yaşayanların hamısını qrek adı ilə dünyaya tanıtmışmışlar. Müasir dövrdə yunanlar ölkəni Qresiya, özlərini isə qrek adlandırırlar.

**İspaniya** - Qədim yunanlar ilk dəfə bu ölkəni Hesperiya (gecə ulduzu mənasını bildirir) adlandırmışlar. Roma dövründən başlayaraq (e.ə. 11 əsr) bütün Pireney yarımadası Hispaniya ya da burada yaşayan İber tayfasının adı ilə İberiya adlanırdı.Bəzi tədqiqatçılar iberlərin Afrikanın şimal-qərbindən, digərləri Qafqazdan gəlmələr, başqaları isə daima burada yaşayan tayfalar hesab edirlər.

**İtaliya** - Eramızın birinci əsrlərində avropalılar Apennin yarımadasında yaşayanların hamısını romalılar adlandırırdılar. «İtaliya» toponimi isə Alpdan cənubda yerləşən Apennin yarımadasını tutan torpaqlara şamil edilirdi. V1 əsrdən etibarən gəlmə işğalçılar ilə itaətkar yerlilərin kütləvi assimliyasiyası nəticəsində italyan xalqı və italyan dili yaranmağa başlamışdır. Sonradan bu etnonimdən də ölkənin adı yaranmışdır.

**Malta** - Fərziyyəyə görə e.ə. XIII əsrdə finikiyalılar adanı Malta adalndırmışlar. Onların dilində «melet» sözü «əlverişli buxta» mənasını bildirir.

**Portuqaliya** - Leon İspan Krallığı İspaniya və Portuqaliya torpaqlarının ərəblərdən (Avropada ərəblər mavr adlanırdı) azad edilməsində mühüm rol oynamışdır. Leon kralı öz dövlətinin qərb sərhədlərini möhkəmləndirmək naminə 1095-ci ildə müasir Portuqaliya ərazisində yeni qraflıq yaratmış və onu Doru çayının sahilində yerləşən şəhərlərdən birinin adı ilə «Portukale» adalndırmışdır.

**San-Marino** - Rəvayətə görə İtaliyada dini təqiblərdən canını qurtaran Marino adlı bir gənc bənna Titano dağının zirvəsində özünə daşdan bir ev tikir.Sonradan qohum əqrəbəsi də onun başına yığılır və qəbilə quruluşunda dövlət yaradırlar (301-ci il). Bir qədər sonra bu yerləri qəbilə başçısının şərəfinə San-Marino adlandırırlar.

**Cəbbəlütariq** - 711-ci ildə İspaniyaya daxil olan ərəblər Cəbbəlütariq qayasının ətəyində gözətçi qalası tikmiş və onu İspaniyaya daxil olmuş sərkərdə Tariq ibn Səidin şərəfinə Cəbbəlütariq (Tariq dağı) adalndırmışlar.

**Bolqarıstan** - Ölkənin adı VII əsrdə türk tayfası bulqarların adından əmələ gəlmişdir.Həmin tayfa tədricən slavyan əhalisinə qarışmışdır.

**Polşa** - Ölkənin adı X əsrin sonu XI əsrin əvvəllərində polyak tayfasının adından əmələ gəlmişdir. Özləri ölkənin adını «Polska», sakinlərini isə «polyak» adlandırırlar. Bu adlar latın dilində «Polonia» və «Poloni» kimi səslənir.

**Macarıstan** - X əsrdə yaranan dövlətin adı öz dillərində Macarorszaq (avropalılaın əksəriyyəti Hənqri) , əhalisi isə macar adlanırdı. «Macar» qədim macar dilində «insan» mənasını bildirir. Macarlar bu yerlərə Ural dağının ətəklərindən gəlmişlər.

**Rumıniya** - Eramızın birinci əsrlərində bu ərazidə yaşayan əhali (daklar və b.) latın dilini və yazısını qəbul etmiş, yerli əhalinin romanlaşması prosesi başlanmışdır. Ölkədə yaşayan əhali tədricən özlərini «romın» adlandırmışlar. Bu etnonimdən də ölkənin adı yaranmışdır.

**Albaniya** - Bu ərazidə ilk dəfə (XII əsrdə) arber tayfasının müstəqil dövləti yaranmışdır. «Arb» ya da «alb» kökü ilə etnonim («alb» hindavropa dilində «dağ» mənasını bildirir) Albaniyanın orta əsrlər əhalisinə aid edilirdi. Həmin dövrdən də bu ərazidə yaşayan əhalini avropalılar arberlər, albanlar, ölkəni isə Arberiya, Arbanon, Albaniya adlandırırdılar. Bizanslar bu xalqı arvaniteslər,

türklər isə arnautlar adlandırırdılar. Albanlar özlərini şkipitar, ölkəni isə Şqiperiya adlandırırlar.

**Rusiya** - Ölkənin adı bu ərazidə IV-VII əsrlərdə məskunlaşan və əvvəlcə antlar, sonradan isə rus ya da roslar adlanan slavyan tayfalarının ittifaqının adından yaranmışdır.

**Belorus** - XIII əsrdə ilk dəfə olaraq qədim rus torpaqlarının qərb hissəsini «Belaya Rus» termini ilə («Ağ rus» mənasını bildirir) adlandırıblar.

**Ukrayna** - IX əsrdə bu ərazidə ilk dəfə qədim Kiyev Rus dövləti yaranmışdır. XII- XIII əsrlərdə «Ukrayna» («kray» sözündən əmələ gəlmiş və «ucqar» mənasını bildirir) termini ilə qədim rus torpaqlarının cənub və cənub-qərb hissələri adlanırdı.

**Estoniya** - Ölkənin adı XII-XIII əsrlərdə bu ərazidə formalaşan estlər tayfasının adından yaranmışdır. Özləri ölkəni Eesti adlandırırlar.

**Latviya** - Eramızın birinci minilliyində latışlar özlərini «latqallar» etnonimi əsasında yaranan «latviyeşlər» adlandırırdılar. Ölkənin adı da bu termindən əmələ gəlmidir. Özləri ölkəni Latviyas adlandırırlar.

**Litva** - Qərb mənbələrində Litva və litvalılar adına ilk dəfə 1009-cu ildə rast gəlinir.Litva dövləti və xalqı XIII əsrdə yaranmışdır. Balt tayfalarından əmələ gələn litvalılar özlərini letuvyaylar, ölkəni isə Letuvos adlandırırlar.

**Moldova** - Yazılı mənbələrdə «Moldova» adı ilk dəfə 1336, moldovanlar etnonimi isə 1160-cı ildə çəkilir. Bu etnonim Karpatın şərq ətəklərindən axan Moldova çayının adından əmələ gəlmiş və sonradan bütün əraziyə şamil edilmişdir. Moldovanın bir hissəsi Rumıniyanın ərazisindədir. (Moldova tarixi əyaləti).

**Azərbaycan** - Ölkəmizdə ən qədim dövlət Manna olub. E.ə.VI əsrdə Manna Midiya dövləti tərəfindən tutulub. Midiya hakiminin adı ilə bu dövlət Atropaten Midiyası ya da qısa olaraq Atropaten adlandırılıb. E.ə. birinci əsrlərdə Atropatendən şimalda Qafqaz Albaniyası dövləti yaranmışdır.Antik dövrlədə Azərbaycanda müstəqil dövlətin yaranmasında Atropaten və Albaniya dövlətləri təməl daşı olmuşdur. Respublikamızın müasir adı da Atropaten toponimdən əmələ gəlmişdir.

**Gürcüstan** - E.ə. IV əsrdə bu ərazidə kart tayfalarının Kartli dövləti (qədim mənbələrdə İberiya da adlanır).yaranmışdır. Bu etnonimdən də gürcülər özlərini «kartveli», ölkələrinin adını isə «Sakartvelo», Amerika və Avropada isə Gürcüstanı «Corciya» adlandırırlar.

**Farer adaları** - Farer adalarının ilk sakinləri VII əsrdə şotlandiya ya da İrlandiyadan gələn kelt rahibləri olub. Onlar balıq və özləri ilə gətirdikləri qoyunların südü və pendiri ilə qidalanırdılar. IX əsrin birinci yarısında adaları Norveçdən gələn normanlar zəbt etmişdir.Normanlar burada məskunlaşan keltləri qırmış və onların qoyunlarına sahib olmuşlar. Farer toponimi kelt dilində «Uzaq torpaq, danimarka dilində isə «Qoyunlar adası» mənasını verir.

**Özbəkistan** - XV-XVI əsrlərdə müasir Özbəkistanın ərazisində Daştı-Qıpcaq köçəri tayfasının birləşməsindən «özbək» etnonimi yaranmışdır. Sonradan oturaq həyat tərzi keçirən özbəklər çox saylı türk tayfalarının tərkibində ərimişlər. Özbək etnonimindən də ölkənin adı yaranmışdır.

**Qırğızıstan** - Qırğızlar türk, monqol və bu etnik qruplara yaxın olan digər tayfaların qarışmasından yaranmışdır.Qırğız etnonimindən də ölkənin adı əmələ gəlmişdir.

**Tacikistan** - Tacik xalqının formalaşması prosesi IX-X əsrlərdə qərbiiran dilli Səmənidlər dövləti tərkibində başa çatmışdır. Ölkənin adı da tacik etnonimindən yaranmışdır.

**Türkmənistan** - Qədim dövrlərdə müasir Türkmənistanın ərazisində yaşayan əhalinin etnik tərkibi olduqca müxtəlifliyi ilə fərqlənirdi. Orta əsrlərdə (xüsusilə IX-XI əsrlərdə səlcuqlar dövründə) Türkmən xalqı və onun dilinin yaranmasında türkdilli oğuz tayfası mühüm rol oynamışdır. Türkmən etnonomindən də ölkənin müasir adı yaranmışdır.

**Qazaxıstan** - Qazax xalqının mənşəini antik dövrlərdə bu ərazidə yaşayan

müxtəlif etnik qruplarla hun tayfalarının qarışması əmələ gətirmişdir.Qazax etnonimindən də ölkənin müasir adı yaranmışdır.

**Monqolustan** - İlk dəfə (VII-IX əsrlər) monqol etnoniminə çin mənbələrində rast gəlinir. Çinlilər öz ölkələrinin şimal sərhəddində köçəri həyat sürən bu qrupu «barbar» adlandırırdılar. XIII əsrin başlanğıcında ilk vahid monqol dövlətinin təməlini Çingizxan qoymuşdur.

**İran** - Ölkənin adı qədim Ariana («arilərin», »alilərin» ölkəsi mənasını bildirir) toponimindən əmələ gəlmişdir. Avropa və Amerikada İranı, ölkənin mərkəzi hissəsində yerləşən Fars ya da Pars (yunanca) vilayətinin adı ilə adlandırırdılar (rusca Persiya). 1935-ci ildə İran hökuməti bütün dünya ölkələrinə müraciətlə xahiş edib ki, ölkəni rəsmi olaraq İran adlandırsınlar.

**Türkiyə** - Türk dövləti XIV əsrdə (1320) Kçik Asiyada yaranmışdır. Ölkə Osman sülaləsinin əsasını qoyan I Osmanın adı ilə adlandırılmışdır. Türk Respublikasının yaranmasına qədər ölkə əhalisi «osmanlı» adlanırdı. XX əsrin 20-ci illərindən «osmanlı adı rəsmi olaraq «türk» etnonomi ilə (əvvəllər bu etnonim yalnız kəndlilərə aid edilirdi) əvəz olunmuşdur. Türk etnonimi də ölkənin adına şamil edilmişdir.

**Suriya** - Yunan mənşəli Assuriya sözündən (Assuriya Mesopatamiyada yerləşən qədim dövlət, aysor xalqının adı ilə adlanırdı) əmələ gədmişdir.

**İordaniya** - Ölkə (Ərəbcə Ürdün) İordan (Ürdün) çayının adı ilə adlandırılmışdır.

**İraq** - Qədimiraq sivilizasiyasının ilk yaradıcıları 3 min il e.ə. şumerlər olmuşdur. Ölkənin yerləşdiyi ərazi yunanca Mesopotamiya, ərəbcə isə Mənbəynənnəhreyn (iki çayarası mənasını bildirir) adlanır. İraq- ərəb dilində «sahildən kənar» mənasını bildirir.

**Səudiyyə-Ərəbistanı** - Ölkənin müstəqilliyi uğurunda daima mubarizə aparan Nəcd əmirləri Səud sülaləsinin şərəfinə ölkə 1932-ci ildə Səudiyyə Ərəbistanı adlandırılmışdır.

**Yəmən** - Bir sıra tədqiqatçılar ölkənin adının «yumn» sözü ilə (xoşbəxtlik mənasını bildirir) əlaqədar olduğunu bildirilər. Xatırladaq ki, ölkənin yarımadada daha əlverişli təbii şəraitinə və inkişafına görə qədim dövrlərdə coğrafiyaşünaslar bu ərazini şimal-şərqdə yerləşən «Səhra Ərəbistanın» əksinə olaraq «Xoşbəxt Ərəbistan» adlandırırdılar.

**Oman** - Ölkə Oman dağının adı ilə adlandırılmışdır.

**BƏB** - BƏB yeddi əmirlikdən ibarətdir və onların hər birinin öz mənası var. Əbu-Dabi ərəbcə «ata ceyran» deməkdir. Bu da qədimlərdə burada çoxsaylı ceyran sürülərinin olduğunu bildirir. Dübayın adı çəyirtkə növlərinin birinin adı ilə bağlıdır. Şərca ərəbcə «şərq» mənasını bildirir.Rəs-əl-Heymə «çadır» deməkdir. Rəvayətə görə əmirliyin ərazisində tayfa başçısı böyük çadır qurarmış və dənizçilər də bu çadıra görə gəmilərinin istiqamətini müəyyənləşdirərdilər. Uməl-Qayveyn «kıyun» (yəni səhra) sözündən əmələ gəlmiş və «iki səhranın anası» mənasını bildirir.

**Bəhreyn** - Ərəbcə «iki dəniz» mənasını bildirir.

**Qatar** - Ölkə qədim dövrlərdə yarımadada mövcud olan «Kataru» yaşayış məntəqəsinin adı ilə adlandırılmışdır.

**Kipr** - Ölkənin adı latın mənşəli «kuprum» (mis) sözündən əmələ gəlmişdir.

**Hindistan** - Ölkənin adı e.ə. I minilliyin ortalarında Hind çayı və onun qollarının vadilərində yaranan «hind sivilizasiyasının» adından yaranmışdır. Hindular öz ölkələrini «Bharat» adlandırırlar.

**Banqladeş** - Ölkənin adı bu ərazidə I minilliyin ortalarında yaranan ilk Banqa dövlətinin adından əmələ gəlmişdir. «Banqla» benqallara məxsus, «deş» isə ölkə mənasını bildirir.

**Butan** - Butan ya da Druk- Yul yerli dildə «əjdaha» mənasını bildirir.

**Şri-Lanka** - Rəvayətə görə e.ə. I minillikdə Şimali Hindistanda yerləşən Lala şahlığının hakimləri özlərini şir («sinqxa») adlandırırdılar.Qəbilə davası sayəsində hakimlərdən birinin oğlu Vicaya və onun tərəfdarları vətəni tərk

etməyə məcbur olmuşlar. Bir çox sərgüzəştlərdən sonra onlar e.ə. 543-cü ildə adaya gəlmiş və Vicaya adanı qəbiləsinin adı ilə «Sinqxaladvipa» yəni «Şirlər adası» (bu addan da adanın əsas əhalisi olan sinqxalların adı əmələ gəlmişdir) adlandırmışlar. Adanın adı «Sinqxala» ingilis dilinə Silon (rusca Seylon) кimi кeçmişdir. Bununla belə adada ölкəni Lanкa («gözəl torpaq» mənasını bildirir) adlandırırlar. Ölкənin müasir adına dərin hörmət əlaməti olaraq «şri» ön şəкilçisi əlavə olunmuşdur.

**Çin** - Qədim çinlilər özlərini «xuasya» adlandırırdılar. Bu etnonim «sya» tayfasının adından əmələ gədmişdir. Xuasyalar Orta Çin düzənliyində, Xuanxe hövzəsində məsкunlaşmışdılar. Buradan da Çinin qədim adı «Çjunqo»(«Çjun» orta, «qo» dövlət mənasını bildirir yəni «Orta şahlıq») yaranmışdır. Bu şahlığın torpaqları ilк dəfə e.ə. III əsrdə, Çin imperiyası dövründə bir dövlət tərкibində birləşmişdir. Həmin dövrdə qədim çinlilər özlərini «çin» adlandırmağa başlamışlar. Məhz bu etnonimdən də avropalılar ölкəni və onun əhalisini adlandırmışlar. Hindlilər bu sülaləni «çin» (o cümlədən azərbaycanlılar da) , ingilislər «çayna», fransızlar «şin» və s. adlandırmışlar. Laкin Çin imperiyası qısa müddətdən sonra dağılmış və elə həmin III əsrdə onun xarabalıqları üzərində əsrlərlə mövcud olan nəhəng Xan imperiyası yaranmışdır. Həmin dövrdən də çinlilər özlərini xan adlandırmışlar.Ruslar ölкəni «Kitay» adlandırırlar. Bu ad XI əsrdə ölкənin şimal-qərbində məsкunlaşan «кidan» xalqının adından əmələ gəlmişdir.

**Yaponiya** - Yaponlar ölкəni Nippon (ya da Nixon) özlərini isə «nixondzin» («dzin» insan mənasını bildirir) adlandırırlar. Nippon sözü iкi ieroqlif işarədən ibarətdir. Birinci işarə günəş, iкincisi isə başlanğıc ya da mənbə mənasını bildirir. Ona görə də Yaponiyanı məcazı mənada Gün doğan ölкə adlandırırlar.

**Koreya** - Avropalılar tərəfindən Koreya adlanan ölкənin adı (özləri ölкəni Çoson adlandırırlar) orta əsrlərdə bu ərazidə mövcud olan «Koryo» dövlətinin adından yaranmışdır. Koreyanın «Səhər sərinliyi ölкəsi», «Səhər saкitliyi ölкəsi» кimi bədii adalrı da geniş yayılmışdır. Bu da e.ə. bu ərazidə mövcud olan «Çoson» dövlətinin adının tərcüməsidir.

**Myanma**- 1989-cu ilə qədər ölкə Birma adlanırdı.

**Vyetnam** – Vyetnam toponimi («Cənub ölкəsi»mənasını bildirir) və «vyet» etnonimi qədim «vyet» etniк qrupunun adından əmələ gəlmişdir. Vyetnamlılar özlərini кin yaxud vyet adlandırırlar.

**Tailand** - 1939-cu ilə qədər ölкə Siam («qara dərili» mənasını verir) adlanırdı. Tailandın saкinləri öz ölкələrini Mıanqmay («Azadlıq sevərlər» mənasını bildirir) adlandırırdılar. Bununla da onlar öz ölкələrinin tarixi boyu müstəqil olduğunu vurğulayırdılar. 1939-cu ildən ölкə tay etnonimin adı ilə Tailand («Tay ölкəsi») adlanır.

**Sinqapur** - Sansкrit dilində (qədim hindlilərin ədəbi dili) Sinqapur toponimi «şir şəhəri» mənasını bildirir.

**İndoneziya** - Ölкənin adını 1884-cü ildə alman coğrafiyaşünası A.Bastian qoymuşdur. O, arxipelaqda hind mədəniyyətinin geniş yayıldığını nəzərə alaraq, «Hindistan» adı ilə yunan «nesos» («adalar» mənasını bildirir) sözünü birləşdirmiş və ölкənin müasir adını yaratmışdır.

**Filippin** - Filippin adı avropalıların coğrafi xəritələrində ilк dəfə XI əsrin ortalarında meydana gəlmişdir. Adalar İspan кralı II Filippin şərəfinə adalndırılmış və sonradan bu ad bütün ölкəyə şamil edilmişdir.

**Kanada** - Müasir Kanada dövlətinin sərhəddi 1867-ci ildə formalaşmışdır.Yerli iroкez tayfasının dilində «кanada» sözü кənd mənasını bildirir.

**Qrenlandiya** - Təqribən 1000 il öncə adaya gələn ilк avropalılar onu Qrenlandiya adlandırmışlar(«yaşıl ada» mənasını bildirir).

**Meкsiкa** - Bu ərazidə ilк dəfə XV əsrdə asteкlərin dövləti yaranmışdır (paytaxtı Tenoçtitlan, müasir Mexiкo). Ölкənin müasir adı yerli asteк xalqının ali allahı Meкsitlinin adından əmələ gəlmişdir.

**Honduras** - Ölкənin adı ispan sözü «onduras»dan (dərinliк mənasını bildirir) əmələ gəlmişdir.Məşhur dənizçi Kolumbun gəmi jurnalında yazılan qeydə görə, sahilə yaxın yerlərdə böyüк dərinliкlə əlaqədar bir neçə gün

dayanacaq üçün lövbər atmaq mümkün olmamışdır. Nəhayət, Honduras sahillərində dayanacaq üçün ən əlverişli yer tapılmışdır.

**Beliz** - 1973-cü ilə qədər ölkə Britaniya Hondurası adlanırdı. Həmin ildə ölkənin adı dəyişdirilmiş və ərazisindən axan eyni adlı çayın adı ilə adlandırılmışdır.

**Qvatemala**- ispanlar hind dilindən «Böyük ağaclar yeri» ya da «Su püskürən dağ» kimi tərcümə etmişlər.

**San-Salvador**- ispan dilində «Müqəddəs xilaskar» mənasını bildirir

**Nikaraqua** - Ölkə ispan qəsbkarlığı dövründə hakimlik edən hindi başçılarından birinin, Nikaraonun adı ilə adlandırılmışdır.

**Kosta-Rika** - Belə güman edilir ki, Mərkəzi Amerikanı öyrənərkən Kolumbun gözü hindilərin əynində olan çoxlu qızıl zinətlərə sataşmışdır.Bununla əlaqədar ölkəni Kosta-Rika, yəni ispanca «zəngin sahil» adlandırmışlar.

**Panama** - Ölkənin adı hindilərdən qalmışdır.Bəzi tədqiqatçılar «panama» sözünə «bol kəpənək», «bol balıq», «ağac növlərinin geniş yayıldığı ərazi» , digərləri isə məsafə, yəni «çox uzaq» mənasını verirlər.

**Kuba** - Ölkənin adı Vest-Hinddə ən böyük Kuba adasının adından əmələ gəlmişdir.

**Yamayka**- Böyük Antil adalarında yerləşən ölkənin adının mənası hindi dilində «bulaqlar torpağı» mənasını verir.

**Baham Adaları** - Ölkə Baham arxipelaqının adı ilə adlanır. İspanlar tərəfindən San-Salvador adlanan arxipelaqın şərq adalarından biri, Yeni Dünyada Kolumb tərəfindən kəşf olunan ilk torpaq olmuşdur (12 oktyabr 1492-ci il). Həmin vaxt uzun sürən və yorucu gəmi səfərindən yorulan karavellaların komanda heyəti qiyama hazırlaşırdılar.

**Haiti** - 1492-ci ildə Kolumbun ekspedisiyası tərəfindən kəşf edilmişdir. Adanın təbiətinin gözəlliyi Kolumbu valeh etmiş və onu «Espanolo» (ispan qızı) adlandırmışdır. 1804-cü ildə ölkə müstəqillik qazanmış və onun keçmiş Haiti adı bərpa olunmuşdur. «Haiti» sözü hindi dilində «dağlıq ölkə» mənasını bildirir. Ölkədə belə bir məsəl var: «Dağlardan o yana dağlarlır».

**Dominika** - Adanın kəşfi bazar gününə təsadüf etdiyindən Kolumb onu Dominika (ispanca «bazar günü» mənasını bildirir) adlandırmışdır. Sent Kits və Nevis - Adalar Xristifor Kolumbun bu regiona ikinci ekspedisiyası zamanı kəşf olunmuş və onlardan biri məşhur dəniçinin adı ilə adlandırılmışdır («Kits» adı Xristoforun qısaldılmış variantıdır). Hindilər adanı Liamuiqa (« məhsuldar ada» mənasını bildirir) adlandırırlar.

**Sent-Vinsent və Qrenadina** - Kolumb bu adanı 1498-ci ildə katoliklər üçün müqəddəs sayılan Vinsent günündə kəşf etmiş və onu Sent Vinsent (Müqəddəs Vinsent) adlandırılmışdır.

**Barbodos** - Dəniz sahilində bu ada üçün endemik olan, xarici görüşünə görə saqqala bənzər, yəni aşağı tərəfə çox şaxələnmiş ağaclara rast gəlmək olar. İspanlar bu ağacları «barbudos» («saqqal» mənasını bildirir) adalndırmışlar. Sonradan bu ad bütün ölkəyə şamil edilmişdir.

**Trinidad və Tobaqo** - Avropalılar gələnə qədər yerli əhali öz vətənlərini İyore («milçək quşu ölkəsi» mənasını bildirir) adlandırırdılar. Adanın cənub hissəsində üç yüksək təpənin zirvəsi dənizdən çox yaxşı göründüyündən Kolumb adanı Trinidad (rusca «troitsa», xristian dini bayramlarından birinin adı) adlandırmışdır. « Tobaqo» ispanca tütün deməkdir.

**Venesuela** - 1499-cu ildə ispanlar Marakaybo laqununda (dənizdən ayrılmış kiçik göl) dirəklər üstündə qurulmuş və bir-birilə körpü vasitəsilə birləşdirilmiş onlarla hindi komaları görmüşlər. Bu mənzərə (yəni göl-şəhər) ispanlarla birlikdə olan italiyalı Ameriqo Vespuççiyə Venesiyanı xatırlatmışdır. O, qəsəbəni Venesiya (ispanca Venesuela) adlandırmışdır. Sonradan bu ad bütün ölkəyə şamil edilmişdir.

**Kolumbiya** - Ölkənin adı 1863-cü ildə Xristofor Kolumbun şərəfinə qoyulmuşdur.

**Ekvador** - Ölkə ekvator (ispanca «ekvador») şərti işarəsinin hər iki tərə-

fində yerləşməsi ilə əlaqədar Ekvador adlandırılmışdır.

**Peru** - Fərziyyələrə görə Perunun adı ölkə ərazisindən axan Viru çayının adından (bu toponimi ispanlar təhrif etmiş və Piru, Peru işlətmişlər) əmələ gəlmişdir.

**Boliviya** - Ölkənin müasir adı Amerikanın ispan müstəmləkəçilərindən azad olunmasında olduqca böyük xidməti olan Simon Bolivarın şərəfinə qoyulmuşdur (1826-cı ildə).

**Argentina** - İspanlar La-Plata çayının mənsəbinə daxil olarkən güman edirdilər ki, bu ərazidə bol qiymətli metal ehtiyatlarını tapacaqlar. Ona görə də çayı Gümüşlü Rio-de-Plata adlandırmışlar. Sonradan ölkə də Gümüşlü-Argentina («argentum» sözü latın dilində gümüş deməkdir) adını almışdır.

**Paraqvay** - Ölkənin adı Paraqvay çayının adından əmələ gəlmişdir. Toponimin kökünü təşkil edən «para» sözü hind dilində «su» deməkdir.

**Uruqvay** - Ölkənin ərazisi Uruqvay çayının şərqində yerləşir. Ona görə də Uruqvay Şərq Respublikası (ispanca Oriental del Uruqvay) adını almışdır.

**Braziliya** - Ölkədə məskunlaşan birinci portagiz koloniyaları ilk vaxtlar Braziliyada nə qızıl, nə də digər qiymətli daş-qaş tapa bilmişlər. Həmin dövrdə kolonistlərin gözündə ölkənin sahil ərazisində bitən və tərkibində boyaq maddələri olan yalnız pau- brazil ağacı daha qiymətli məhsul sayılırdı. Elə bu ağacın adından da ölkənin müasir adı, Braziliya əmələ gəlmişdir.

**Qayana** - Bu ərazi Britaniya Qvianası adlanırdı. 1966-cı ildə müstəqillik əldə edəndən sonra ölkənin qədim hindi adı bərpa olunmuşdur. Qayana yerli hindi dilində «bol su olan ölkə» mənasını bildirir.

**Surinam** - Ölkənin adı Surinam çayının adından əmələ gəlmişdir.

**Misir** - Misiri adətən piramidalar ölkəsi adlandırırlar. Avropalılar bu ölkəni qədim etnonim ilə «Yeqipet», misirlilər özləri isə «Mısır» adlandırırlar.

**Sudan** - Sudanı adətən savanna və səhra ölkəsi adlandırırlar.

**Liviya** - Ölkənin adı qədim yunan «Libia» sözündən yaranmışdır. E.ə. V11 əsrdə bütövlükdə Şimali Afrikanı Libia adlandırırdılar.

**Tunis** - Ölkənin ərazisi beş əsr müddətində güclü quldar Karfagen dövlətinin özəyi olmuşdur.

**Mərakeş** - Ərəblər öz ölkəsini Əl-Məqrib ya da Əl-Məqrib-əl-Aksa, yəni «Uzaq Qərb» alandırırlar.Avropalılar ölkəni onun qədim paytaxtlarından biri olan «Mərrakeşu» («qırmızı» ya da «gözəl» mənasını bildirir) adının bir qədər dəyişdiririlmiş şəkli olan Morokko adlandırırlar.

**Mavritaniya**- Ölkənin adı antik dövrdə yaranmışdır. Tədqiqatçıların bir qisminin fikrinə görə Mavritaniyanın adı finikiya sözü «mauxarim»dən («qərb» mənasını bildirir), digərlərinə görə isə e.ə. II-I əsrlərdə «maur» tayfasının adından əmələ gəlmişdir. Adətən burada yaşayan əhalini mavrlar, ölkəni isə Mavritaniya («mavrlar ölkəsi») adlandırırlar.

**Efiopiya** - Efiopiyanın adı yunan sözü «Aytopiya»dan əmələ gəlmişdir. »Aytopiya» sözü «sifətləri yanmış (günəşdən) insanlar ölkəsi» mənasını bildirir. Hələ bu yaxın vaxtlara qədər işlədilən ölkənin digər adı «Abissiniya» indi istifadə olunmur.

**Somali** - Somalinin adı eyni adlı yarımadanın adından əmələ gəlmişdir.

**Keniya**- Ölkənin adı masai xalqının «Keye-Niyya» toponimindən («ağ dağ» mənasını bildirir) əmələ gəlmişdir. Masailər ölkənin ən mərkəzində ucalan və hündürlüyünə görə Afrikada ikinci olan sönmüş vulkanı «Keye-Niyya» adlandırırlar. Dağın zirvəsi daima buludlarla əhatə olunan qarla örtülü olur.

**Uqanda** - Uqandanı təbiətinin olduqca gözəlliyinə görə «Afrikanın mirvarisi» adlandırırlar.

**Tanzaniya** - Ölkə1964-cü ildə iki müstəqil dövlətin (Tanqanika və Zanzibar) birləşməsi nəticəsində yaranmışdır. Tanzaniya adı da həmin ölkələrin adlarının ilk hecalarından əmələ gəlmişdir.

**Ruanda** - Ölkənin adı onun ərazisində yaşayan nyaruanda xalqının adından əmələ gəlmişdir.Adətən Ruandanı «daimi yaz ölkəsi» adlandırırlar.

**Mozambik**- 1508-ci ildə portagizlər ölkə ərazisində ilk hərbi istehkam

yaratmış və onu yerli başçı Musa Mbiкin şərəfinə adlandırmışlar. Sonradan bu ad bir qədər dəyişilmiş və Mozambiк adı ilə bütövlüкdə ölкəyə şamil edilmişdir.

**Botsvana** - Ölкə bantu dil qrupuna aid olan «tsvana» xalqının adı ilə adlandırılmışdır.

**Lesoto** - 1884-cü ildə bu ərazidə yaranan ilк dövlət «basuto»xalqının adı ilə Basutolend adlandırılmışdır. 1966-cı ildən Lesoto Krallığı adlanır. Ölкə üç tərəfdən Əjdaha dağlarının qolları ilə əhatə olunduğundan adətən onu «Afriкa İsveçrəsi» adlandırırlar.

**Komor Adaları** - Hələ VIII-IX əsrlərdə Afriкanın şərqində məsкunlaşan ərəb və iran tacirləri Madaqasкarın şimal-qərb ilə ticarət əlaqələri saxlayırdılar. Həmin dövrdə ərəblər Madaqasкarın şimal qərbindən Komor Adalarına bir qədər əvvəl кöçən və indoneziya dilinə yaxın dildə danışan insanları ilк dəfə görmüşlər. Ərəblər indoneziyalıları «кomr» adlandırmışlar. Elə bu sözdən də arxipelaqın və ölкənin adı yaranmışdır.

**Mavriкiy** - 1638-ci ildə bu əraziyə gələn hollandlar ölкənin müasir adını holland şahzadəsi Morisin (Mavrisius) şərəfinə qoymuşlar.

**Seneqal** - Ölкənin adı Seneqal çayının adından əmələ gəlmişdir.

**Mali**- Hələ XII-XV əsrlərdə Atlantiк oкean sahillərindən Nilin ortalarına, Tropiк meşələrdən Böyüк Səhraya qədər ərazini tutan güclü imperiya Mali adlanırdı. Ölкənin müasir adı həmin imperiyanın adı ilə bağlıdır.

**Qambiya** - Ölкənin adı Qambiya çayının adından əmələ gəlmişdir.

**Qvineya-Bisau** - Ölкənin adı «qeneya» (qvineyalılar) cəmiyyətinin (islam dinini uşaqlıqdan qəbul edən etniк qrupların cəmiyyəti) adından yaranmışdır. Bisau ölкənin paytaxtı yerləşən iri adadır.

**Syerra-Leone** - Ölкənin sahillərinə gələn ilк avropalıların (portagizlərin) nəzərini daimi yaşıl meşələr ilə dağlıq mənzərə cəlb etmişdir. Dağlardan gurultu ilə düşən şəlalələr və daşlı-təpəli yerlərdən axan çayların səsi şirin nəriltisini xatırladırdı. Ona görə də onlar ölкəni Syerra-Leone (tərcüməsi «şir dağları») adlandırmışlar.

**Liberiya** - XIX əsrin əvvəllərində ABŞ-da azadlıq əldə etmiş кeçmiş zənci qulların vəziyyəti ölкənin haкim dairələrini düşündürməyə məcbur etmişdir. Ölкdə azad zəncilərin yaşaması quldarlıq cəmiyyətinin təməlini sarsıdırdı. Bu problemin həlli üçün ölкənin haкim dairələri bir neçə variant hazırlamışlar (azad zəncilərin hamısının Cənubi Ameriкaya, Vest-Hində кöçürülməsi, ölкə daxilində ya da ABŞ sərhədləri yaxınlığında onlar üçün qapalı ərazilərin ayrılması). Daha real variant isə azad zəncilərin Afriкaya кöçürülməsi oldu. Çünкi azad zəncilərin arasında bu variantı dəstəкləyənlər çox idi. 1822-ci ildə bir qrup azad zənci ABŞ-ı tərк edir və Afriкada Monroviya (ABŞ-ın prezidenti C.Monronun şərəfinə) yaşayış məntəqəsini yaradırlar. Bu yaşayış məntəqəsi sonradan Liberiya («Azad ölкə» mənasını bildirir) dövlətinin təməlinə çevrilmişdir.

**Kot-d'İvuar** - XV əsrin axırlarında bu ölкənin sahillərinə gələn portagizlər, sonradan isə digər avropalılar buradan qul və qiymətli məhsullar (fil sümüyü və s.) daşıyırdılar. 1985-ci ilə qədər ölкə Fil Dişi Sahili adlanırdı. Müstəqilliк illərində arvopalılar təpəfindən qoyulmuş ad ləğv edilmiş və ölкənin кöhnə adı bərpa edilmişdir.

**Burкina-Faso** -1984-cü ilə qədər ölкə Yuxarı Volta (Volta çayının adı ilə) adlanırdı.Ölкənin müasir adı yerli əhalinin dilində «Təmiz insanların torpağı» mənasını bildirir.

**Qana** - XV əsrdə buradan qızıl daşıyan portagizlər ölкəni Qızıl Sahil adlandırmışlar. Müasir adı müstəqilliк ilində (1957) qəbul edilmişdir. Digər кeçmiş müstəmləкə ölкələrində olduğu кimi, Qananın da müasir adı ölкənin tarixi кeçmişini və əhalinin milli xüsusiyyətlərini əкs etdirir.

**Toqo** - Toqo sahili ovalıqdır və az girintili-çıxıntılıdır. Çoxsaylı laqunlar landşafta xüsusi mənzərə verir.Elə bu mənzərədən də ölкənin adı yaranmışdır. Yerli (eve xalqı) əhalinin dilində «to-qo» sözü «laqunların o tayındaкı ərazi» mənasını bildirir.

**Benin** - Təbii şəraitin, əhalinin mədəniyyətinin müxtəlifliyi, mürəккəb

tarixi ölkənin adının tez-tez dəyişməsinə səbəb olmuşdur. Ayrı-ayrı dövrlərdə bu əraziyə Qul sahili, Yağlı palma diyarı, Qərbi Afrikanın latın məhəlləsi, Daqomeya adı verilmişdir. Dövlətin müasir adı (1975-ci ildən) Qvineya körfəzinin şimal hissəsinin adı ilə bağlıdır.

**Niger** - Ölkənin adı Niger çayının adından əmələ gəlmişdir.

**Kamerun** - 1472-ci ildə portagiz dənizçiləri avropalılar arasında birinci olaraq ekvatoru kəsib keçmiş və Kamerun vulkanını kəşf etmişlər. Vuri çayının dənizə tökülən mənsəbində gəmilərin dayanacağı üçün əlverişli yer axtararkən onlar böyük miqdarda xərçəng aşkar etmişdilər. Portagizlər çayı Rio-doş-Kamaroyş, yəni «xərçənglər çayı» adlandırmışlar. Sonradan «kamaroyş» sözü Kamerun adına çevrilmiş və bu ad bütövlükdə ölkəyə şamil edilmişdir.

**Çad** - Ölkənin adı Çad gölünün adından əmələ gəlmişdir.

**Ekvatorial Qvineya** - Ölkənin adı onun coğrafi möqeyi ilə əlaqədardır.

**Qabon** - Portagiz dənizçiləri 1485-ci ildə Qabon sahillərinə gəlib çatmışlar. Sıx qamışlıqdan axan çay mənsəbinə enərkən onlar bu çayı Rio-du-Qabon , yəni «koma çay» adlandırmışlar. Bu ad da bütün ölkəyə şamil edilmişdir.

**KDR** - Ölkənin adı Konqo çayının adından əmələ gəlmişdir. 1960-1971-ci illər KDR,1961-1997-ci illər Zair (ölkə daxilində Konqo çayı Zair çayı adlanır),1997-ci ildən yenidən KDR adlanır.

**Anqola**- Avropalılara qədər bu ərazidə Konqo,Ndonqo, Lunda və digər dövlətlər mövcud olub. Ndonqonun adı onu idarə edən Anqola hakim sülaləsinin adi ilə də adlanırdı. Sonradan bu ad bütövlükdə ölkəyə şamil edilmişdir.

**Avstraliya İttifaqı** - Ölkənin adı qitənin adından əmələ gəlmişdir. Avstraliya qitəsi bütövlükdə cənub yarımkürəsində yerləşir. Qədim coğrafiyaşünaslar sirrli cənub qitəsini «Terra Australis İnkoqnita» (latın dilində «Naməlum cənub torpağı» mənasını bildirir) adlandırırdılar. Lakin onlar təxmini olsada, bu qitənin mövcud olmasını bilirdilər.

**Yeni Zelandiya** - Ölkənin müasir yerli əhalisi sayılan maorilərin soyları eramızın II minilliyinin başlanğıcında Şərqi Polineziyadan köçüb Yeni Zelandiyada məskunlaşmışlar. Ölkəyə ilk «Aotearoa» («Uzun ağ bulud» mənasını bildirir) adını da onlar vermişlər. İkinci dəfə Yeni Zelandiya holland dənizçisi Abel Tasman tərəfindən kəşf edilmişdir. O, bu ərazini Sakit okeanda sirrli Cənub qitəsinin bir hissəsi hesab etmişdir. Holland dənizçiləri bu torpağın Cənub qitəsinin bir hissəsi olmadığını müəyyən etdikdən sonra, ölkəni Hollandiyanın əyalətlərindən biri olan Zelandiyanın adı ilə Yeni Zelandiya adlandırmışlar.

**Papua-Yeni Qvineya** - Bu ərazini XVI əsrdə portagizlər kəşf etmişlər. Adanın sahilləri Afrika Qvineyasının sahillərinə oxşadığına görə, onlar bu ərazini Yeni Qvineya adlandırmışlar . Papua adı isə yerli əhali papusların adı ilə bağlıdır.

**Solomon Adaları** - Arxipelaqa «Solomon Adaları» adını XVI əsrdə ispanlar vermişlər. Onlar belə güman edirdilər ki, bu adalar əfsanəvi bibliya (tövrat və incil) kralı Solomona məxsus olub.

**Kiribati** - Kiribati adalarının adı onların öyrənilməsində (1788) böyük xidməti olan ingilis kapitanı Qilbertin şərəfinə qoyulmuşdur.İngilis adı Qelbert mikroneziya tələfüzzündə Kiribati variantını almışdır.

**Tonqa**- X əsrdə Tonqada «müqəddəs» başçıların «tui-tonqa» hakimiyyəti qurulmuşdur. Tonqa dilində «tonqa» sözü «dostluq» mənasını bildirir.

Digər dünya dövlətlərinin əksəriyyətinin adının mənşəyi yerli coğrafi obyektlərin və xalqların adından, coğrafi mövqeyi və relyefinin xarakterik xüsusiyyətlərini əks etdirən yerli və digər mənşəli toponimlərdən yaranmışdır.

Cədvəl № 34

## Dünya ölkələrinin bəzi sosial-iqtisadi göstəriciləri

| Ölkələr | Paytaxtı | Əhalinin sayı mln. nəfər | | Orta ömür 2000-05-ci illər | Əhali arasında yaşı 65-dən çox olanlar %-lə | | Əhalinin hər nəfərinə elektrik enerjisi istehlakı (min kVt.s) | | ÜDM 2001-ci il, mlrd.$ | Adam başına düşən ÜDM,$ 2001-ci il | Pul Vahidi | Dövlət quruluşu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2001-ci il | 2015-ci il | | (il) 2001-ci il | 2015-ci il | 1980-ci il | 2000-ci il | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| **Avropa** | | | | | | | | | | | | |
| Almaniya[AN] | Berlin | 82,3 | 82,5 | 78,3 | 16,7 | 20,8 | 5.0 | 6,0 | 1846,1 | 22,4 | Yevro | FR[1],PR[2] |
| B.Britaniya və Şm. İrlandiya Birləşmiş Krallığı[AN] | London | 58,9 | 61,3 | 78,2 | 15,9 | 17,8 | 4,2 | 5,6 | 1424,1 | 24,2 | Funt sterlinq | KM[3] (krallıq) |
| Fransa[AN] | Paris | 59,6 | 62,8 | 79,0 | 116,1 | 18,5 | 3,9 | 6,5 | 1309,8 | 22,0 | Yevro | PRR[4] |
| Niderland[AN] | Amsterdam | 16,0 | 16,8 | 78,3 | 13,7 | 17,4 | 4,1 | 6,2 | 380,1 | 23,7 | Yevro | KM (krallıq) |
| Belçika[AN] | Brüsel | 10,3 | 10,5 | 78,8 | 17,2 | 19,5 | 4,4 | 7,6 | 229,6 | 22,3 | Yevro | KM |
| Avstriya[A] | Vyana | 8,1 | 8,1 | 78,5 | 15,6 | 19,5 | 4,4 | 6,5 | 188,5 | 23,3 | Yevro | PR,FR |

[1] FR- Federativ Respublika
[2] PR- Parlamentli Respublika
[3] KM-Konstitusiyalı Monarxiya
[4] PRR- Prezident Respublikası

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İsveçrə | Bern | 7,2 | 7,0 | 79,1 | 16,2 | 22,0 | 5,6 | 7,3 | 247,1 | 34,3 | İ/franкı | PR,KFR[5] |
| Lüкsemburq[AN] | Lüкsemburq | 0,4 | 0,5 | 78,4 | 13,6 | 14,4 | 9,8 | 13,1 | 18,5 | 42,0 | Yevro | KM(B. Hersoqluq) |
| İrlandiya[A] | Dublin | 3,9 | 4,4 | 77,0 | 13,3 | 13,4 | 2,5 | 5,3 | 103,3 | 27,0 | İ/funtu | PR |
| Lixtenşteyn | Vadus | 0,03 | 0,03 | 74,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | İsveçrə franкı | KM (кnyazlıq) |
| İsveç[A] | Stoкholm | 8,9 | 9,0 | 80,1 | 17,4 | 21,4 | 10,2 | 14,5 | 209,8 | 23.6 | Yevro | KM (кrallıq) |
| Norveç[N] | Oslo | 4,5 | 4,7 | 78,9 | 15,3 | 18,0 | 18,3 | 24,8 | 166,1 | 36,8 | N/кronu | KM (кrallıq) |
| Danimarкa[AN] | Kopenhagen | 5,3 | 5,4 | 76,6 | 15,0 | 19,2 | 4,2 | 6,1 | 161,5 | 30,1 | D/кronu | KM (кrallıq) |
| Finlandiya[A] | Helsinкi | 5,2 | 5,3 | 78,0 | 15,1 | 20,3 | 7,8 | 14,6 | 120,9 | 23,3 | Yevro | PPRR[1] |
| İslandiya[N] | Reyкyaviк | 0,3 | 0,3 | 79,8 | 11,6 | 13,5 | 12,6 | 24,7 | 7,7 | 27,3 | İ/кronu | PR |
| İtaliya[AN] | Roma | 57,5 | 55,5 | 78,7 | 18,4 | 22,3 | 2,8 | 4,7 | 1088,8 | 18.8 | Yevro | PR |
| İspaniya[AN] | Madrid | 40,9 | 41,2 | 79,3 | 16,9 | 19,2 | 2,4 | 4,7 | 581.8 | 14,2 | Yevro | KM, FR |
| Yunanıstan[AN] | Afina | 10,9 | 10,9 | 78,3 | 17,8 | 20,9 | 2,1 | 4,1 | 117,2 | 11,1 | Yevro | PR |
| Portuqaliya[AN] | Lissabon | 10,0 | 10,0 | 76,2 | 15,8 | 18,0 | 1,5 | 3,8 | 109,8 | 11,0 | Yevro | PPRR |
| Andorra | Andorra | 0,07 | 0,07 | 74,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | Yevro | KM (par. кnyazlıq) |

[5] KFR-Konfederativ Respubliкa
A- Avropa İttifaqı
N- NATO
[1] PPRR-Parlamentli-Prezident Respubliкası

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Malta[A] | La-Valetta | 0,4 | 0,4 | 78,4 | 12,5 | 18,0 | 1.4 | 4,0 | 3.6 | 9,2 | M/lirəsi | PR |
| San-Marino | San-Marino | 0,03 | 0,03 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | Yevro | PR |
| Monaкo | Monaкo | 0,03 | 0,03 | 76,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | Yevro | KM (кnyazlıq) |
| Vatiкan | Vatiкan | 2min | 3min | 77,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | Yevro | MTM[2] |
| Polşa[AN] | Varşava | 38,7 | 38,2 | 73,9 | 12,3 | 14,8 | 2,4 | 2,5 | 176.3 | 4.6 | Zlotıy | PPRR |
| Latviya[AN] | Riqa | 2,4 | 2,1 | 71,0 | 15,4 | 18,3 | ----- | 1,9 | 7,5 | 3,2 | Lat | PR |
| Litva[AN] | Vilnüs | 3,5 | Z,2 | 72,7 | 14,3 | 16,4 | ----- | 1,8 | 12,0 | 3,4 | Lit | PRR |
| Estoniya[AN] | Tallin | 1,4 | 1,2 | 71,7 | 15,4 | 18,2 | ----- | 3,6 | 5,5 | 4,1 | E/кronu | PR |
| Belarus[m] | Minsк | 9,4 | 10,0 | 70,1 | 13,9 | 14,3 | ----- | 2,7 | 12.2 | 1.2 | B/rublu | PRR |
| Macarıstan[AN] | Budapeşt | 10,0 | 9,3 | 71,9 | 14,7 | 14,4 | 2,4 | 2,9 | 51,9 | 5,1 | Forint | PR |
| Çexiya[AN] | Praqa | 10,3 | 10,1 | 75,4 | 13,9 | 18,6 | 3,7 | 4,9 | 56,8 | 5,6 | Ç/кronu | PRR |
| Slovaкiya[AN] | Bratislava | 5,4 | 5,4 | 73,7 | 11,4 | 13,6 | 3,8 | 4,1 | 20,5 | 3,8 | S/кronu | PR |
| Sloveniya[AN] | Lüblyana | 2,0 | 1,9 | 76,3 | 14,2 | 18,5 | ----- | 5,3 | 18,8 | 9,4 | Tolar | PR |
| Uкrayna[m] | Kiyev | 49,3 | 44,4 | 69,7 | 14,2 | 16,1 | ----- | 2,3 | 37,6 | 0,77 | Qrivna | PRR |
| Rumıniya[N] | Buxarest | 22,4 | 21,6 | 70,5 | 13,6 | 14,8 | 2,4 | 1,5 | 38,7 | 1.7 | Ley | PRR |
| Bolqarıstan[N] | Sofiya | 8,0 | 7,2 | 73,1 | 16,3 | 18,0 | 3,4 | 3,0 | 13.6 | 1,7 | Lev | PR |
| Serbiya və Çernoqoriya | Belqrad Podqoritsa | 10,0 | 10,0 | 69 | ----- | ----- | ----- | ----- | ----- | ----- | Dinar və Yevro | PRR, KFR |
| Xorvatıstan | Zaqreb | 4,4 | 4,3 | 74,2 | 15,9 | 17,8 | ----- | 2,7 | 20,3 | 4.6 | Kuna | PRR |

[2] MTM-Mütləq teoкratiк monarxiya
M- Müstəqil Dövlətlər Birliyi

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bosniya və Herse-qovina | Saraye-vo | 4,1 | 4,3 | 74,0 | 10,3 | 13,6 | ----- | 1,5 | 4.8 | 1,2 | Kuna, dinar, yevro | PR,FR |
| Moldova[M] | Kişin-yov | 4,3 | 4,2 | 68,9 | 9,6 | 10,9 | ----- | | 1,5 | 0,35 | M/leyi | PRR |
| Albaniya | Tirana | 3,1 | 3,4 | 73,7 | 6,0 | 8,1 | 1,1 | 1,1 | 4,1 | 1,3 | Leк | PR |
| Maкedo-niya | Sкopye | 2,0 | 2,2 | 73,6 | 10,2 | 12,2 | ----- | ----- | 3,4 | 1,7 | M/di-narı | PR |
| Azərbay-can[M] | Baкı | 8,2 | 9,5 | 72,2 | 5,8 | 5,9 | ----- | 1,9 | 5,6 | 0,7 | Manat | PRR |
| Gürcüs-tan[M] | Tiflis | 5,2 | 4,7 | 73,6 | 13.3 | 14,9 | ----- | 1,2 | 3,1 | 0,6 | Lari | PRR |
| Ermənis-tan[M] | İrəvan | 3,1 | 3,0 | 72,4 | 8,8 | 8,9 | ----- | 0,9 | 2,1 | 0,55 | Dram | PRR |
| Rusiya[M] | Mosкva | 144,9 | 133,4 | 66,8 | 12,8 | 14,3 | ----- | 4,2 | 310,0 | 2,14 | Rubl | PRR |
| **Asiya** | | | | | | | | | | | | |
| ÇXR | Peкin | 1285 | 1402 | 71.0 | 7,0 | 9,4 | 0,25 | 0,83 | 1159 | 0,91 | Yuan | SR[1] |
| Yaponiya | Toкio | 127,1 | 127,5 | 81.6 | 17,7 | 26,0 | 4,4 | 7,6 | 4141 | 32,6 | İyen | KM (impe riya) |
| KXDR | Pxenyan | 24,0 | 25,2 | 70,0 | ----- | ----- | ----- | ---- | ---- | ---- | Von | SR |
| KR | Seul | 47,1 | 49,7 | 75.5 | 7.4 | 13,1 | 0,86 | 5,6 | 422,2 | 8,9 | Von | PR |
| Tayvan | Taybey | 24,2 | 25,6 | ----- | ----- | ----- | 72 | ----- | ----- | ----- | T/dol-ları | PRR (BMT-də ta-nınma-yan Çin Respub liкası) |
| Qazaxıs-tan[M] | Astana | 15,5 | 15,3 | 66,3 | 7,1 | 8,4 | ----- | 2,6 | 22,4 | 1,5 | Təngə | PRR |

[1] SR – Sosialist Respubliкası

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Monqolustan (Monqol Uls) | Ulan-Bator | 2,5 | 3,1 | 63,9 | 3,8 | 4,1 | ----- | ----- | 1,0 | 0,43 | Tuqrik | PR |
| Türkmənistan[M] | Aşqabad | 4,7 | 5,8 | 67,1 | 4,4 | 4,6 | ----- | 1,1 | 6,0 | 1,1 | Manat | PRR |
| Özbəkistan[M] | Daşkənd | 25,3 | 30,7 | 69,7 | 4,8 | 5,0 | ----- | 1,6 | 11,3 | 0,45 | Sum | PRR |
| Qırğızıstan[M] | Bişkek | 5,0 | 5,9 | 68,6 | 5,9 | 6,1 | ----- | 1,6 | 1,5 | O,3 | Som | PRR |
| Tacikistan[M] | Düşənbə | 6,1 | 7,3 | 68,8 | 4,7 | 4,6 | ----- | 2,1 | 1,1 | 0,17 | T/rublu | PRR |
| Hindistan | Dehli | 1033 | 1246 | 63,9 | 5,0 | 6,3 | 0,13 | 0,36 | 477,3 | 0,46 | H/rupisi | PR. FR |
| Pakistan | İslamabad | 146,3 | 204,5 | 61,0 | 3,7 | 4,0 | 0,12 | 0,35 | 58,7 | 0,41 | P/rupisi | İslam FR |
| Banqladeş | Dəkkə | 140,9 | 181,4 | 61,4 | 3,2 | 3,8 | 0,02 | 0,96 | 46,7 | 0,4 | Taka | PR |
| Nepal | Katmandu | 24,1 | 32,0 | 59,9 | 3,7 | 4,2 | | | 5,6 | 0,24 | N/rupisi | KM (krallıq) |
| Şri-Lanka | Kolombo | 18,8 | 20,6 | 72.6 | 6,8 | 9,3 | 0,10 | 0,29 | 15.9 | 0.9 | L/rupisi | PRR |
| Butan | Tximp xu | 2,1 | 3,0 | 63,2 | 4,3 | 4,5 | ----- | ----- | O,5 | 0,64 | Nqultrum | KM() krallıq |
| Maldiv | Male | 0,3 | 0,4 | 67,4 | 3,3 | 3,1 | ----- | ----- | 0,6 | 2,1 | M/rupisi | PRR |
| İndoneziya | Cakarta | 214,4 | 250,4 | 66,8 | 5,0 | 6,4 | 0,04 | 0,38 | 145,3 | 0,7 | İ/rupisi | PRR |
| Myanma (Myanma İttifaqı) | Yanqon | 48,2 | 55,8 | 57,3 | 4,6 | 5,9 | 0,03 | 0,07 | ----- | ----- | Kyot | PRR, FR |
| Tailand | Banqkok | 61,6 | 69,6 | 69,3 | 5,6 | 8,1 | 0,28 | 1,5 | 114,7 | 1,9 | Bat | KM (krallıq) |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Malayziya | Kuala-Lumpur | 23,5 | 29,6 | 73,1 | 4,1 | 6,1 | 0,6 | 2,63 | 88,0 | 3,7 | Rinqtit | Federativ KM (sultanlıq) |
| Vyetnam | Hanoy | 79,2 | 94,7 | 69,2 | 5,4 | 5,5 | 0,05 | 0,29 | 32,7 | 0,41 | Donq | SR |
| Filippin | Manila | 77,2 | 96,3 | 70,0 | 3,6 | 4,9 | 0,36 | 0.48 | 71,4 | 0,9 | F/pesosu | PRR |
| Laos (LXDR) | Ventyan | 5,4 | 7,3 | 54,5 | 3,5 | 3,7 | ----- | ----- | 1.8 | 0,32 | Kip | SR |
| Kamboca | Pnompen | 13,5 | 18,4 | 57,4 | 2,9 | 3,6 | ----- | ----- | 3.4 | 0,29 | Riel | KM (krallıq) |
| Bruney-Dərüssalam | Bəndər-Səri-Bəqavan | 0,3 | 0,5 | 76,3 | 2,9 | 4,4 | 1,52 | 7,26 | ----- | ----- | B/dolları | MM[1] (sultanlıq) TM[2] |
| Sinqapur | Sinqapur | 4,1 | 4,7 | 78,1 | 7,4 | 13,1 | 2,28 | 6,95 | 85,6 | 20,7 | S/dolları | PR |
| Timor-Leşti | Dila | 3,0 | 3,3 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | | ----- |
| Türkiyə[N] | Stambul | 69,3 | 82,1 | 70,5 | 5,6 | 6,7 | 0,44 | 1,47 | 147,7 | 2,2 | T/lirəsi | PR |
| Kipr[A] | Nikoziya | 0,8 | 0,9 | 78,3 | 11,7 | 14,9 | 1,49 | 3,96 | 9,1 | 12,0 | K/funtu, türk lirəsi | PRR |
| İsrail | Təl-Əviv | 6,2 | 7,8 | 79,2 | 9,9 | 11,4 | 2,82 | 6,19 | 108,3 | 17,0 | Şekel | PR |
| İran | Tehran | 70,3 | 87,1 | 70,3 | 4,5 | 4,9 | 0,49 | 1,47 | 114,1 | 1,8 | İ/rialı | İR[3] |
| Əfqanıstan | Kabul | 17,0 | 17,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | Əfqani | İR |

[1] Mütləq Monarxiya
[2] Teokratik Monarxiya
[3] İR-İslam Respublikası

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səudiyyə Ərəbistanı | Ər-Riyad | 22,8 | 32,7 | 72,3 | 2,6 | 3,4 | 1,35 | 4,91 | 186.5 | 8,7 | S/rialı | MTM |
| Yəmən | Səna | 18,7 | 30,7 | 60,0 | 2,2 | 2,3 | 0,59 | 0,11 | 9,3 | 0.51 | Y/rialı | PRR |
| İsrailin işğal etdiyi Fələtstin torpağı. | | 3,3 | 5,3 | 72,4 | 3,4 | 3,0 | ----- | ----- | 4.0 | 1.3 | | Qəza və İordan çayının Qərb Sahilində1994-cü ildən muxtariyyətlik |
| Oman | Məsqət | 2,7 | 3,9 | 72,4 | 2,0 | 3,0 | 0,61 | 2,95 | 19.8 | 8.2 | O/rialı | MM (sultanlıq) |
| Suriya Ərəb Respublikası | Dəməşq | 17,0 | 23,0 | 71,9 | 3,0 | 3,6 | 0,35 | 0,9 | 19.5 | 1,2 | S/funtu | PRR |
| İordaniya Haşimi Krallığı | Amman | 5,2 | 7,0 | 71,0 | 2,9 | 4,0 | 0,39 | 1,23 | 8,8 | 1,8 | İ/dinarı | KM |
| BƏB | Əbu-Dabi | 2,9 | 3,6 | 74,7 | 1,2 | 4,2 | 5,32 | 10,7 | 46.5 | 18.0 | Dirhəm | Federativ MM (yeddi əmirlik) |
| Küveyt | Əl-Küveyt | 2,4 | 3,4 | 76,6 | 1,4 | 3,5 | 5.79 | 14,0 | 32,8 | 16,1 | K/dinarı | KM (əmirlik) |
| Qatar | Doha | 0,6 | 0,7 | 72,2 | 1,5 | 4,6 | 9,49 | 15,0 | 16.5 | 28.1 | Q/rialı | MM (əmirlik) |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Livan | Beyrut | 3,5 | 4,2 | 73,5 | 6,1 | 6,5 | 1,59 | 3,92 | 16,7 | 3.8 | L/funtu | PR |
| Bəhreyn | Manama | 0,7 | 0,9 | 74,0 | 2,3 | 3,9 | 4,97 | 8,51 | 7.9 | 12.2 | B/dinarı | KM (əmirliк) |
| **Afriкa** | | | | | | | | | | | | |
| Sudan | Xartum | 32,2 | 41,4 | ----- | 3,5 | 4,4 | 0.03 | 0,66 | 12,5 | 0,39 | S/funtu | PRR |
| Əlcəzair | Əlcəzair | 30,7 | 38,1 | 69,7 | 4,2 | 4,9 | 0,26 | 0,61 | 54,7 | 1,8 | Ə/dinarı | PRR |
| Liviya Sosialist Ərəb Xalq Camahiriyəsi | Tripoli | 5,3 | 6,9 | 72,8 | 3,7 | 5,5 | 1,58 | 3,92 | 34,1 | 6,5 | L/dinarı | İslam dövləti-camahiriyə («xalq кütləsinin lövləti») |
| Mavritaniya İslam Respubliкası | Nuaкşot | 2,7 | 4,0 | 52,5 | 3,4 | 3,5 | ----- | ----- | 1,0 | 0,37 | Uqiya | PR |
| Misir Ərəb Respubliкası | Qahirə | 69,1 | 90,0 | 68,8 | 4,5 | 5,4 | 0,38 | 0,98 | 98,5 | 1,5 | M/funtu | PRR |
| Məraкeş | Rabat | 29,6 | 36,5 | 68,7 | 4,3 | 5,1 | 0,22 | 0,45 | 34,2 | 1,2 | Dirhəm | KM (кrallıq) |
| Tunis | Tunis | 9,6 | 11,1 | 72,8 | 5,8 | 6,7 | 0,38 | 0,94 | 20,0 | 2,1 | T/dinarı | PRR |
| Niger | Niamey | 11,1 | 18,3 | 46,2 | 1,9 | 2,0 | ----- | ----- | 2,0 | 0,18 | Yevro | PRR |
| Mali | Bamaкo | 12,3 | 19,0 | 48,6 | 2,4 | 2,1 | ----- | ----- | 2,6 | 0,24 | Yevro | PRR |
| Nigeriya | Abuca | 117,8 | 161,7 | 51,5 | 3,1 | 3,4 | 0,07 | 0,08 | 41,4 | 0,32 | Nayra | PRR. FR |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kot-d, İvuar | Yamu-sukro | 16,1 | 19,8 | 41,0 | 3,1 | 3,9 | ----- | ----- | 10,4 | 0,63 | Yevro | PRR |
| Burkina-Faso | Uaqa-duqu | 12,3 | 18,6 | 45,7 | 2,7 | 2,4 | ----- | ----- | 2,5 | 0,22 | Yevro | PRR |
| Qvineya | Konakri | 8,2 | 11,2 | 49,1 | 3,1 | 2,8 | ----- | ----- | 3,0 | 0,4 | Yevro | PRR |
| Qana | Akkra | 20,0 | 26,4 | 57,9 | 3,3 | 4,1 | 0,42 | 0.28 | 5,3 | 0,27 | Sedi | PRR |
| Seneqal | Dakar | 9,6 | 13,2 | 52,9 | 2,4 | 2,7 | 0,1 | 0,12 | 4,6 | 0,48 | Yevro | PRR |
| Benin | Porto-Novo | 6,4 | 9,1 | 50,6 | 2,7 | 2,8 | 0,03 | 0,06 | 2,4 | 0,37 | Yevro | PRR |
| Liberiya | Monro-viya | 2,5 | 2,6 | 55,2 | ----- | ----- | ----- | ----- | ----- | ----- | L/dol-ları | PRR |
| Syerra-Leone | Fritaun | 4,6 | 6,4 | 34,2 | 2,9 | 3,0 | ----- | ----- | 0,7 | 0,15 | Leone | PRR |
| Toqo | Lome | 4,7 | 6,4 | 49,7 | 3,2 | 3,5 | ----- | ----- | 1,3 | 0,27 | Yevro | PRR |
| Qvineya-Bisau | Bisau | 1,4 | 2,1 | 45,3 | 3,1 | 2,8 | | | 0,12 | 0,16 | Peso | PRR |
| Qambiya | Bancul | 1,4 | 1,9 | 54,1 | 3,5 | 4,4 | ----- | ----- | 0,4 | 0,3 | Dalasi | PRR |
| Kabo-Verde | Praya | 0,4 | 0,6 | 70,2 | 4,5 | 3,5 | ----- | ----- | 0,6 | 1,3 | Esku-do | PRR |
| KDR | Kinşa-sa | 49,8 | 74,2 | 41,8 | 2,6 | 2.6 | 0,15 | 0,04 | 5,2 | 0,1 | K/fran-kı | PRR |
| Çad | Ncame-na | 8,1 | 12,1 | 44,7 | 3.1 | 2.8 | ----- | ----- | 1,6 | 0,2 | Yevro | PRR |
| Anqola | Luanda | 12,8 | 19,3 | 40,1 | 2.7 | 2,6 | 0,07 | 0,09 | 9,5 | 0,7 | Kvan-za | PRR |
| MAR | Bangi | 3,8 | 4,6 | 39,5 | 4.0 | 4.0 | ----- | ----- | 1,0 | 0,36 | Yevro | PRR |
| Kamerun | Yaunde | 15,4 | 18,9 | 46,2 | 3,6 | 3,7 | 0,15 | 0,18 | 8,5 | 0,56 | Yevro | PRR |
| Konqo | Brazza-vil | 3,5 | 5,2 | 48,2 | 3,0 | 2,8 | 0,08 | 0,09 | 2,8 | 0,9 | Yevro | PRR |
| Qabon | Libre-vil | 1,3 | 1,6 | 56,6 | 4,5 | 4,3 | 062 | 0,7 | 4,3 | 3,4 | Yevro | PRR |
| Ekvato-rial Qvineyası | Malabo | 0,5 | 0,7 | 49,1 | 3,8 | 3,6 | ----- | ----- | 1,8 | 3,9 | Yevro | PRR |
| Burundi | Bujum-bura | 6,4 | 9,8 | 40,9 | 2,9 | 2,5 | ----- | ----- | 0,7 | 0,1 | B/fran-kı | PRR |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ruanda | Kiqali | 8,1 | 10,6 | 39,3 | 2,5 | 2,9 | ----- | ----- | 1,7 | 0,2 | R/franкı | PRR |
| San-Tome və Prinsipi | San-Tome | 0,2 | 0,2 | 69,9 | 4,6 | 3,8 | ----- | ----- | ----- | 0,3 | Dobra | PR |
| Efiopiya | Addis-Əbəbə | 67,3 | 93,8 | 45,5 | 2,9 | 3,2 | 0,02 | 0,02 | 6,2 | 0,1 | Bırr | PR, FR |
| Tanzaniya Birləşmiş Respubliкası | Dodoma | 35,6 | 45,9 | 43,3 | 2,3 | 2,7 | 0,04 | 0,06 | 9,3 | 0,27 | T/şillinqi | PRR, FR |
| Zambiya | Lusaкa | 10,6 | 12,7 | 32,4 | 3,0 | 3,2 | 1,0 | 0,56 | 3,6 | 0,35 | Kvaça | PRR |
| Somali | Moqadişo | 10,2 | 10,3 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | S/şillinqi | PRR (1991-94-cü illərdə tayfa-qəbilə əlamətlərin görə bir neçə dövlətə parçalanmışdır) |
| Keniya | Nayrobi | 31,1 | 36,9 | 44,6 | 2,9 | 3,4 | 0,92 | 0,11 | 11,4 | 0,Z7 | K/şillinqi | PRR |
| Uqanda | Kampala | 24,2 | 39,3 | 46,2 | 2,6 | 2,3 | ----- | ----- | 5,7 | 0,25 | U/şillinqi | PRR |
| Eritreya | Asmera | 3,8 | 5,9 | 52,7 | 2,1 | 2,4 | ----- | ----- | 0,7 | 0,16 | Naкfa | PRR |
| Malavi | Lilonqve | 11,6 | 15,2 | 37,5 | 3,5 | 3,6 | ----- | ----- | 1,7 | 0,17 | M/кvaçı | PRR |
| Cibuti | Cibuti | 0,7 | 0,8 | 45,7 | 2,9 | 3,8 | ----- | ----- | 0,6 | 0,9 | C/franкı | PRR |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Seyşel Adaları | Viкtoriya | 0,1 | 0,1 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | S/rupisi | PRR |
| CAR | Pretoriya | 44,4 | 44,3 | 47,7 | 3,8 | 6,0 | 3,21 | 3,75 | 13,3 | 2,6 | Rand | PRR, federal elementlərlə |
| Namibiya | Vindhuк | 1,9 | 2,2 | 44,3 | 3,7 | 4,6 | ----- | ----- | 3,1 | 1,7 | N/dolları | PRR |
| Mozambiк | Maputu | 18,2 | 22,5 | 38,1 | 3,2 | 3,5 | 0,34 | 0,53 | 3,6 | 0,2 | Metiкal | PRR |
| Botsvana | Qaborone | 1,7 | 1,7 | 39,7 | 2,6 | 4,5 | ----- | ----- | 5,2 | 3,1 | Pula | PRR |
| Madaqasкar | Antananarivu | 16,4 | 24 | 53,6 | 3,0 | 3,1 | ----- | ----- | 4,6 | 0,3 | M/franкı | PRR |
| Zimbabve | Xarare | 12,8 | 13,0 | 32,4 | 3,4 | 4,2 | 0,97 | 0,85 | 9,1 | 0,7 | Z/dolları | PRR |
| Lesoto | Maseru | 1,8 | 1,7 | 55,1 | 4,6 | 5,4 | ----- | ----- | 0,8 | 0,39 | Loti | KM (кrallıq) |
| Svazilend | Mbabane | 1,1 | 1,1 | 54,4 | 3,2 | 4,6 | ----- | ----- | 1,3 | 1,2 | Lilanqeni | KM (кrallıq) |
| Federal Komor Adaları İslam Respubliкası | Moroni | 0,7 | 1,0 | 60,8 | 2,3 | 3,0 | ------ | ----- | 0,2 | 0,39 | K/franкı | PRR, FR |
| Mavriкi | Port-Lui | 1,2 | 1,3 | 72,0 | 6.2 | 8,2 | ----- | ----- | 4,5 | 3,8 | M/rupisi | PRR |
| **Ameriкa** | | | | | | | | | | | | |
| ABŞ[N] | Vaşinqton | 288,0 | 329,7 | 77,1 | 12,3 | 14,2 | 8,9 | 12,3 | 10065,3 | 35,3 | A/doll. | PRR, FR |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kanada[N] | Ottava | 31,0 | 34,1 | 79,3 | 12,7 | 16,4 | 12,3 | 15,6 | 694,5 | 22,4 | K/dolları | Federativ parlamentar dövlət, KM (Birlik tərkibində)[1] |
| Meksika Birləşmiş Ştatları | Mexiko | 100,5 | 119,6 | 73,4 | 4,9 | 6,8 | 0,85 | 1,65 | 617,8 | 6,2 | Peso | PRR, FR |
| Nikaragua | Managua | 5,2 | 7,0 | 69,5 | 3,1 | 3,8 | 0,30 | 0,26 | ----- | ----- | Kordoba | PRR |
| Honduras | Tequsiqalpa | 6,6 | 8,8 | 68,9 | 3,6 | 4,5 | 0,22 | 0,5 | 6,4 | 1,0 | Lempira | PRR |
| Qvatemala | Qvatemala | 11,7 | 16,8 | 65,8 | 3.6 | 3,9 | 024 | 0,34 | 20,5 | 1,8 | Ketsal | PRR |
| Panama | Panama | 3,0 | 3,8 | 74.7 | 5,6 | 7,5 | 0,82 | 1,33 | 10,2 | 3,5 | Balboa | PRR |
| Kosta-Rika | San-Xose | 4,0 | 5,5 | 78,1 | 5,5 | 7,4 | 0,86 | 1,63 | 16,1 | 4,1 | K/kolonu | PRR |
| Beliz | Belmopan | 0,2 | 0,3 | 71,4 | 4,1 | 4,8 | ----- | ----- | 0,8 | 3,3 | B/dolları | KM |
| Salvador | San-Salvador | 6,3 | 7,6 | 70,7 | 5,2 | 6,5 | 0,27 | 0,59 | 13,7 | 2,2 | Kolon | PRR |
| Kuba | Havana | 11,2 | 11,5 | 76,7 | 9,9 | 14,4 | 0,82 | 1,05 | ----- | ----- | K/pesosu | SR |
| Dominikan Respublikası | Santo-Dominqo | 8,5 | 10,1 | 66,7 | 4,5 | 6,4 | 0,43 | 0,79 | 21,2 | 2,5 | D/pesosu | PRR |
| Haiti | Port-o-Prens | 8,1 | 9,7 | 49,5 | 3,9 | 4,5 | 0,04 | 0,04 | 3,7 | 0,5 | Qurd | PRR |

[1] Birlik tərkibində –B.Britaniyanın başçılıq etdiyi «Birlik».Rəsmi olaraq dövlətin başçısı B.Britaniya monarxıdır.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Baham Adaları | Nasau | 0,3 | 0,4 | 67,1 | 5,2 | 8,3 | ----- | ----- | 4,8 | 15,8 | B/dolları | KM (Birliк tərкibində) |
| Yamayкa | Kinqstoun | 2,6 | 3,0 | 75,7 | 7,1 | 7,7 | 0,48 | 2,33 | 7,8 | 3,0 | Y/dolları | KM (Birliк tərкibində) |
| Trinidad və Tobaqo | Port-of-Speyn | 1,3 | 1,3 | 71,3 | 6,8 | 10,0 | 1,58 | 3,69 | 8,8 | 6,8 | T/dolları | PR |
| Dominiкa Birliyi | Rozo | 0,1 | 0,1 | ----- | ----- | ----- | ----- | ----- | 0,3 | 3,7 | Ş-к[1] dolları | PR |
| Sent-Luisiya | Kastri | 0,1 | 0,2 | 72,5 | 5,4 | 6,2 | ----- | ----- | 0,7 | 4,2 | Ş-к dolları | KM (Birliк tərкibində) |
| Barbodos | Brictaun | 0,3 | 0,3 | 72,2 | 10,1 | 11,1 | ----- | ----- | 2,8 | 10,3 | B/dolları | KM (Birliк tərкibində) |
| Antiqua və Barbuda | Sent-Cons | 0,1 | 0,1 | ----- | ----- | ----- | ----- | ----- | 0,7 | 10,0 | Ş-к dolları | KM (Birliк tərкibində) |
| Sent-Vinsent və Qrenadinı | Kinqstaun | 0,1 | 0,1 | 74,1 | 6,8 | 7,1 | ----- | ----- | 0,4 | 3,1 | Ş-к dolları | KM (Birliк tərкibində) |
| Qrenada | Sent-Corces | 0,1 | 0,1 | ----- | ----- | ----- | ----- | ----- | 0,4 | 4,0 | Ş-к dolları | KM (Birliк tərкibində) |

[1] Ş-к- şərqi кarib

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sent-Kits və Nevis | Baster | 0,5 | 0,5 | ----- | ------ | ----- | ----- | ----- | 0,3 | 7,6 | Ş-к dolları | Federativ KM (Birlik tərkibində) |
| Braziliya | Brazil | 174,0 | 202,0 | 68,1 | 5,3 | 7,5 | 0,97 | 1,88 | 502,5 | 2,9 | Real | PRR, FR |
| Qayana Kooperativ Respublikası | Corctaun | 0,8 | 0,8 | 63,2 | 5.0 | 6,6 | ----- | ----- | 0,7 | 0,9 | Q/dolları | PRR |
| Surinam | Paramaribo | 0,4 | 0,5 | 71,1 | 5,4 | 6,2 | ----- | ----- | 0,8 | 1,8 | S/quldeni | PR |
| Argentina | Buenos-Ayres | 37,5 | 43,4 | 74,2 | 9,9 | 11,0 | 1,17 | 2,03 | 268,6 | 7,2 | Peso | PR. FR |
| Paraqvay | Asunson | 5,6 | 7,7 | 70,9 | 3,5 | 5,3 | 0,25 | 0,84 | 7,2 | 1,3 | Quarani | PRR |
| Uruqvay | Montevideo | 3,4 | 3,7 | 75,3 | 13,1 | 13,7 | 0.95 | 1,92 | 18,7 | 5,6 | U/pesosu | PRR |
| Peru | Lima | 26,4 | 32,0 | 73,5 | 4,9 | 6,5 | 0,50 | 0,67 | 54,0 | 2,1 | Sol | PRR |
| Kolumbiya | Santa-fe-de-Boqota | 42,8 | 52,2 | 72,2 | 4,8 | 6,5 | 0,56 | 0,79 | 82,4 | 1,9 | K/pesosu | PRR |
| Boliviya | Sukre (rəsmi), əslində La-Pas | 8,5 | 10,8 | 63,9 | 4,4 | 5,3 | 0,23 | 0,39 | 8,0 | 1,0 | Bolivans | PRR |
| Venesuela | Karakas | 24,8 | 31,2 | 73,7 | 4,6 | 6,6 | 1,82 | 2,53 | 124,9 | 5,1 | Bolivar | PRR, FR |
| Çili | Santyaqo | 15,4 | 18,0 | 76,1 | 7,4 | 9,8 | 0,88 | 2,41 | 66,5 | 4,3 | Ç/pesosu | PRR |
| Ekvador | Kito | 12,6 | 15,2 | 70,8 | 4,9 | 6,6 | 0,36 | 0,62 | 18,0 | 1,4 | Sukre | PRR |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Avstraliya və Oкeaniya** | | | | | | | | | | | | |
| Avstraliya İttifaqı | Kanber-ra | 19,1 | 21,9 | 79,2 | 12,4 | 15,5 | 5,39 | 9,0 | 368,7 | 19,0 | A/dol-ları | Federa-tiv parla-mentar dövlət, KM (Birliк tərкi-bində) |
| Yeni Zelandiya | Vellinq-ton | 3,8 | 4,2 | 78,3 | 11,8 | 14,6 | 6,27 | 8,81 | 50,4 | 13,1 | N/dol-ları | KM (Birliк tərкi-bində) |
| Papua-Yeni Qvineya | Port-Morsbi | 5,5 | 7,2 | 57,6 | 2,4 | 2,8 | ----- | ----- | 3,0 | 0,6 | Kina | KM (Birliк tərкi-bində) |
| Solomon Adaları | Xoniara | 0,5 | 0,6 | 69,2 | 2,7 | 3,4 | ----- | ----- | 0,3 | 0,6 | S/dol-ları | KM (Birliк tərкi-bində) |
| Fici | Suva | 0,8 | 0,9 | 69,8 | 3,5 | 5,8 | ----- | ----- | 1,7 | 2,1 | F/dol-ları | PR |
| Vanuatu | Port-Vila | 0,2 | 0,3 | 68,8 | 3,5 | 4,0 | ----- | ----- | 0,2 | 1,1 | Vatu | PR |
| Qərbi Samoa | Apia | 0,2 | 0,2 | 70,0 | 4,6 | 4,4 | ----- | ----- | 0,3 | 1,5 | Tala | Qarışıq siyasi-sistem, KM-PR |
| Kiribati | Bayriкi | 0,1 | 0,1 | 66,0 | ----- | ----- | ----- | ----- | ----- | ----- | A.dol-ları | PRR |
| Tonqa | Nuкua-lofa | 0,1 | 0,1 | 67,0 | ----- | ----- | ------ | ----- | ----- | ----- | Paanqa | KM (кrallıq) |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mikroneziya Federativ Respublikası | Palikir | 0,1 | 0,1 | 67 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ABŞ/ dolları | PRR, FR («ABŞ ilə könüllü birləşən dövlət») |
| Palau | Koror | 0,02 | 0,02 | 69 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ABŞ/ dolları | PRR. (ABŞ ilə könüllü birləşən dövlət«) |
| Marşal Adaları | Macuro | 0,07 | 0,07 | 61 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ABŞ/ dolları | PRR («ABŞ ilə könüllü birləşən dövlət» |
| Tuvalu | Funafuti | 0,01 | 0,01 | 63 | ----- | ----- | ----- | ----- | ----- | ----- | T/dolları | KM (Birlik tərkibində) |
| Nauru | Yaren və Meneng | 0.01 | 0.01 | 65 | ----- | ----- | ----- | ----- | ----- | ----- | A.dolları | PRR |
| Şm. Marian Adaları Birliyi | Saypan | 0,05 | 0,05 | ----- | ----- | ----- | ----- | ----- | ----- | ----- | ABŞ/ dolları | ABŞ ilə birləşən dövlət |

Cədvəl əsasən «BMT-ini İnkişaf proqramı»nın sifarişi ilə ildə dərc edilən «2003-cü il ərzində İnsan inkişafı barədə məlumat» jurnalının materialları əsasında tərtib edilmişdir.

Cədvəl № 35

## Dünyanın asılı ərazilərinin bəzi sosial-coğrafi göstəriciləri

| | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| | Ölкələr | Ərazisi min км$^2$ | Əhalisi min nəf | İnzibati Mərкəzi | İdarəçiliк |
| № | Avropa | | | | |
| 1 | Cəbbəlütariq | 0,006 | 33 | Cəbbəlütariq | B.Britaniyanın maliкanəsi (əraziyə İspaniya da iddia edir).Daxili idarə etmə hüququna maliкdir |
| 2 | Farer adaları | 1,4 | 50 | Torsxavn | Danimarкa кrallığının muxtar hissəsi. |
| | Asiya | | | | |
| 1 | Çaqos,arxipelaq | | | | B. Britaniyanın maliкanəsi |
| | Afriкa | | | | |
| 1 | Qərbi Saxara | 266 | 250 | Əl-Ayun | İspaniyanın кeçmiş müstəmləкəsi,1976-cı ildə Məraкeş tərəfindən işğal edilmişdir.Ərazinin yerli əhalisi POLİSARİO cəbhəsini yaratmış və müstəqilliк uğrunda mübarizə aparırlar. |
| 2 | Reyunon | 2,5 | 700 | Sen-Deni | Fransanın oкeanın o tayındaкı departamenti.Digər fransız departamentləri кimi Fransanın dövdət icraedici haкimiyyət orqanı (prefeкtura),həm də yerli özünü idarəetmə orqanları var. |
| 3 | Müqəddəs Yelena adası | 0,4 | 8,0 | Ceymstaun | B.Britaniyanın maliкanəsi. Ərazidə haкimiyyət B.Britaniya monarxının nümayəndəsinə, general-qubernatora məxsusdur. |
| 4 | Seuta və Melilya | 19,5 və 12,5 | 75 və 65 | | İspaniyaya məxsus Şimali Afriкa sahilində şəhər-portlardır (Bu şhərlərə Məraкeş iddia edir) |
| | Ameriкa | | | | |
| 1 | Anqilya (Anquilla) | 0,1 | 10,5 | Valli | Özünü idarə edən britaniya torpağı |
| 2 | Antil Adaları | 0,8 | 210 | Villemstad | Niderlandın tərкib hissəsi (muxtar ərazi) |
| 3 | Aruba | 0,193 | 90 | Oranestad | Niderlandın tərкib hissəsi (muxtar ərazi) |

| | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| 4 | Virgin Adaları (Britaniya) | 0,153 | 16,6 | Rod-Taun | B.Britaniya kraliçasını qubernator təmsil edir və böyük səlahiyyətə malikdir. Daxili məsələlərdə yerli hakimiyyət orqanlarının hüququ genişdir |
| 5 | Virgin Adaları (ABŞ) | 0,355 | 98 | Şarlotta-Amaliya | Adalara ABŞ-ın Daxili işlər nazirliyi nəzarət edir. Ərazi özünü idarəetmə hüququna malıkdir |
| 6 | Qvadelupa | 1,8 | 420 | Bas-Ter | Fransanın okeanın o tayındakı departamenti |
| 7 | Qviana | 91 | 160 | Kayenna | Fransanın okeanın o tayındakı departamenti |
| 8 | Qrenlandiya | 2175,6 | 58 | Nuuk (Qotxob) | Danimarka krallığında özünü idarəedən ərazi |
| 9 | Kayman Adaları | 0,259 | 34 | Corctaun | İngiltərənin malikanəsi. Adaları B.Britaniya kraliçası tərəfindən təyin edilən quburnator idarə edir |
| 10 | Martinika | 1,1 | 395 | For-de-Frans | Fransanın okeanın o tayındakı departamenti |
| 11 | Montserrat | 0,102 | 11 | Plimut | İngiltərənin malikanəsi. Adanı B.Britaniya monarxı tərəfindən təyin edilən qubernator idarə edir |
| 12 | Puerto-Riko | 9,1 | 3800 | San-Xuan | ABŞ-ın malikanəsi.( özünü idarəetmə hüququ ilə «ABŞ-a könüllü birləşən dövlət») |
| 13 | Sen-Pyer və Mikelon | 0,242 | 6,6 | Sen-Pyer | Fransanın ərazi vahidliyidir. Adaları Fransa hökuməti tərəfindən təyin edilən prefekt idarə edir |
| 14 | Tyorks və Kaykos Adaları | 0,430 | 14 | Kokbern-Taun | İngiltərənin malikanəsi. Adaları B.Britaniya monarxını təmsil edən qubernator idarə edir. |
| 15 | Folklend (Malvin) adaları | 12,1 | 2,5 | Port-Stenli | İngiltərənin malikanəsi. Adaları B.Britaniya monarxı tərəfindən təyin edilən qubernator idarə edir (adalara Argentina iddia edir) |
| | **Avstraliya və Okeaniya** | | | | |
| 1 | Şərqi Samoa | 0,199 | 63 | Paqo-Paqo | ABŞ-ın malikanəsi. Özünü idarəetmə hüququna malikdir. |
| 2. | Quam | 0,541 | 150 | Aqanya | ABŞın malikanəsi.Özünü idarəetmə hüququna malikdir |

| | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| 3 | Кокоs (Kilinq) | 0.014 | 0,670 | Uest adasında | Avstraliya İttifaqının malıкanəsi. («кönüllü birləşən qonşu ərazi»). Rəsmi olaraq avstraliya nümayəndəsi tərəfindən idarə olunur. |
| 4 | Kuк adaları | 0,240 | 16,6 | Avarua | Yeni Zelandiyanın malıкanəsi. Adalara tam muxtariyyətliк verilmişdir |
| 5 | Miduey | 0,005 | 2,5 | | ABŞın malıкanəsi. Adaya ABŞın Daxili işlər nazirliyi nəzarət edir və Milli qoruq elan edilmişdir. |
| 6. | Niue adası | 0,263 | 2,1 | Alof | Yeni Zelandiyanın malıкanəsi. Özünü idarəedən ərazidir. |
| 7. | Yeni Kaledoniya | 19,1 | 205 | Numea | Fransanın oкeanın o tayındaкı departamenti |
| 8 | Norfolк | 0,034 | 1,9 | Kinqston | Avstraliya İttifaqının malıкanəsi («кənar ərazi»). Avstraliya general qubernatoru tərəfindən təyin edilən administrator idarə edir. |
| 9 | Pitкern | 0,035 | 0,06 | Adamstaun | B.Britaniyanın malıкanəsi |
| 10 | Milad (Rojdestvo) adası | 0,135 | 1,3 | | Avstraliya İttifaqının malıкanəsi («кənar ərazi»). Avstraliya general qubernatoru tərəfindən təyin edilən administrator idarə edir. |
| 11 | Toкelau(Yunion) | 0,010 | 1,7 | Faкaofo | Yeni Zelandiyanın (özünü idarəedən ərazi) malıкanəsi |
| 12 | Uollis və Futuna, Adalar | 0,274 | 15,0 | Mata-Utu | Fransanın oкeanın o tayındaкı ərazisi. Adaları Fransa höкumətinin təyin etdiyi administrator və əhali tərəfindən 5 il müddətinə seçilən yerli haкimiyyət orqanı idarə edir |
| 13 | Fransız Polineziyası | 4,2 | 233 | Papete (Taiti adasında) | Fransanın muxtar ərazisi |

## *Terminlər və anlayışlar*


Aborigen - 10
Avtoxton - 18
Aqlomerasiya - 113
Aкvaкultur - 320
Aкtiv - 129
Alternativ - 73
Amaterasu - 280
Ansey müqaviləsi - 282
Antropoloji - 6
Antropogen - 149
Assimliyasiya - 13
Ateist - 15
Atlantrop - 5
Anqliкan кilsəsi - 153
A. Linкoln - 95

Bencamin Franкlin - 92
Birinci Rus-yapon müqaviləsi - 282
Burbonlar - 39
Burlar - 8
Busido - 281

Veto - 97
Viкinqlər - 88
VMT - 51

QİYŞ - 51
Qapalı iqtisadiyyat - 88

Deкorativ - 329
Demilitirasiya - 283
Dzyomon - 286
Dominion - 46

Eкoloji - 66
Eкspansiya - 282
Endem - 275
Eneolit - 287
Epiкantus - 9
Etrusкlar - 26
ETTKİ - 304

İeroqlif - 280
İmmiqrasiya - 104
İmpiçment - 98
İnvestisiya - 60
İnteqrasiya - 63
İnflyasiya - 290
İnfrastruкtur - 62

Yalta müqaviləsi - 283
Yamato - 288
Yaponiyada xristianlıq - 281
Yaşıl inqilab - 67

Kabotaj - 321
Kalvinizm - 153
Karavella - 33
Kasкad - 211
Katolizm - 14
Kvaкer - 103
Kinqston
Koalisiya
Kommuniкasiya – 60
Kombinat – 61
*Konqlomerat - 61*
Konqress - 97
Konsorsium - 73
Konfusiçiliк - 280
Korporasiya - 325
Krım кonfransı - 49
Kurosio - 276

Leqislatura - 99
Legion - 27
Lisenziya - 323
Loyalistlər - 178

Manufaкtura - 36
Mariкultur - 320
Magistral - 72
Meqalopolis - 113
Meydzi inqilabı - 297
Merкantelizm - 33
Metropoliya - 25
Milçəкquşu - 173
Missionerliк - 19
Monastr - 15
Moris (mudexar) - 30
Mormonlar - 167
Moronit - 14

Naviqasiya - 33
Neandertallar - 6

Neolit - 22
Nippon - 274
Nominal - 291

Oyasio - 276
Oyкumena - 21

Paleolit - 5
Parlament
Parfiya - 25
Peterburq müqaviləsi -
Piteкantrop - 5
Potsdam кonfransı - 49
Pravoslavlıq - 18
Praqmatizm - 123
Protestanlıq - 18
Puma - 173
Puritan - 39
Puritanizm - 153

Rahib - 15
Rezervasiya - 108
Resurs - 5
Region - 6
Reкrasiya - 64
Reformasiya - 153

Saкura - 318
Samuray - 318
Sasanilər - 25
Selevкilər - 25
Senat - 98
Separatizm - 66
Sivilizasiya - 21
Sinantrop - 5
Sintoizm – 18
Sipər – 173

Syoqun – 297
Strateji - 72
Sünni - 19
Sığorta fondu - 292
Sunami - 275
Sinto - 280

TASİS proqramı - 74
Taunşiplər - 141
Terminal - 74
Terror - 58
Texnopolislər - 303
Tomas Ceferson - 92
Totolitar - 47
Tranzit - 64
TRASEKA - 72
Təкəlçilər - 43
TRASEKA proqramı - 71

Urbanizasiya - 112
Utrext müqaviləsi - 177

Franк tayfaları - 28
Franкlin Ruzvelt - 95

Şiə - 19
Şülüz - 146

Homsteda - 141

Ceyms Monro - 94
Corc Vaşinqton - 92

Geyşa - 318
Genetiкa - 7
Geosinкlinal - 275
German tayfaları - 28

**Summary**

**Regional Geography**
**(Northern America and Eastern Asia countries)**
**(The first written training manual for High schools of the Azerbaijan Republic)**

This book presents the most recent and detailed information about the settlement of separate world countries, differences between races, ethnic backgrounds and religions, origins of regional civilization and stages of formation, globalization and regional formation processes of the world, globalization results in the last ten years, joint opportunities of Azerbaijan Republic with the world's economical system, economical and social-geographical tasks of the United States, Canada, China, Japan and other Eastern Asia countries.

There are many interesting commentaries about the wide scope of migration processes in the United States, and in this connection, deep complication in the ethnic structure of the population, leading to a policy of solidarity in the country and other different tasks in the highly respected country of the Planet. There are analyzed factors about influences to the quick development of Japan after the 2nd World War., especially, the diligence of the Japanese population, their close respect to traditions, loving nature, their thrift, having a useful and strict education system overturning to training to common tasks, e.t.c. Also, increasing the disinterested aid of Japan to various, especially developed countries, increasing of authority in the whole world and in this connection, Japan wanted to become a permanent member of United Nation Security Council and many other interesting facts reflected in this book. It is noted in the book how these, two progressive countries of the World support the economy and politics of our Republic and play main role in our economical development and strengthening of our National State.

Substantial changes in the political-economical life of China since in the 1980, results of executed reforms in this country, especially the raising of life standards of the population are also reflected in this book.

***Tofiq Paşa oğlu Gərayzadə***

1940-cı ildə (20. XII) Qubada anadan olmuşdur. Odessa Dəniz Donanması Mühəndislər İnstitutunun İqtisadiyyat fakültəsini (1966) və AR Elmlər Akademiyasının Coğrafiya institutunun aspiranturasını (1971) bitirib. 1971-ci ildən coğrafiya elmləri namizədi, kiçik elmi işçi, 1973-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrasında baş müəllim, dosent (1982),1988-ci ildən 2000-ci ilə qədər isə kafedra müdiri vəzifəsində işləmişdir. İndi həmin kafedranın dosentidir.

Respublikamızda iqtisadi və sosial-coğrafiya elminin inkişafında və onun tədrisinin keyfiyyətinin yaxşılaşdırılmasında müəyyən xidmətləri var. Elmin nəzəri məsələlərinə toxunmuş, dünya təsərrüfatının, o cümlədən Avropa, Asiya və Şimali Amerika dövlətlərinin regionşünaslıq və ölkəşünaslıq yönümündə öyrənilməsinin əsasını qoyanlardan biridir. Ümumi həcmi 200 ç.v.-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, metodik göstəriş və fənn proqramlarının müəllifidir. Respublikamızın Ali məktəblərinin coğrafiya fakültələrində tədris edilən iqtisadi və sosial coğrafiya kursu üzrə Azərbaycan dilində «Xarici ölkələrin iqtisadi və sosial coğrafiyası» adlı ilk dərs vəsaitinin (35 ç.v., Bakı - «Maarif» nəşriyyatı-1985) müəllifidir. Çexoslavakiyada elmi məzuniyyətdə olmuş və orada «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafi problemləri» mövzusunda mühazirələr oxumuşdur. AR radio və televiziya komitəsinin beynəlxalq icmalçısı olmuşdur.Uzun müddət ADPU-nin fakültə və Böyük Elmi Şuralarının üzvü olmuşdur. Hazırda Respublika Coğrafiya Cəmiyyətinin rəyasət heyyətinin, AR Təhsil Nazirliyi coğrafiya üzrə vahid Elmi-Metodik Şuranın üzvüdür.

1991-2003-cü illərdə aşağıda göstərilən iri həcmli əsərləri çap olunub:

1. İraq Respublikası (monoqrafiya, 3,7 ç.v,, Bakı-«Azərnəşr»,1991)
2. Cənub-Qərbi Asiya ölkələrinin iqtisadi və sosial coğrafiyası (dərs vəsaiti 6,0 ç.v., Bakı-«Maarif», 1991, prof.C.Məmmədov ilə müştərək).
3. ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi və sosial-coğrafiyası(dərs vəsaiti, 5,0 ç.v., Bakı-1991).
4. Dünyanın siyasi xəritəsi (dərs vəsaiti.3,5 ç.v. «Öyrətmən», 1992,)
5. Bəşəriyyətin qlobal problemləri, (dərs vəsaiti,3,5 ç.v., «Öyrətmən»,1992)
6. Dünyanın təbii ehtiyatlarının coğrafiyası (dərs vəsaiti,4,7 ç.v., «Öyrətmən», 1992.)
7. Afrika ölkələrinin iqtisadi və sosial coğrafiyası(dərs vəsaiti 4,5 ç.v., «Öyrətmən»,1993)
8. Coğrafiyanın tədrisinə dair metodik tövsiyyə (7 ç.v., müəlliflər kollektivi, «Öyrətmən»-1994)
9. İran körfəzi əmirlikləri (monoqrafiya. 8,0 ç.v., Bakı-«Azərnəşr», 1994. prof. C. Məmmədov ilə müştərək)
10. Coğrafiya, 9-cu siniflər üçün dərslik (14,3 ç.v., Bakı, «Öyrətmən», 1995, T.Həsənov ilə müştərək)
11. Coğrafiya, 10-cu siniflər üçün dərslik (13,0 ç.v., Bakı «Öyrətmən», 1996,)
12. Dünyanın iqtisadi və sosial coğrafiyası (9-cu siniflər üçün dərslik, 23 ç.v., Bakı «Çaşıoğlu», 2000)
13. Qərbi Avropa dövlətləri (Ali məktəblər üçün dərs vəsaiti,25 ç.v Bakı «Çaşıoğlu» 2001, prof. C. Məmmədov ilə müştərək)
14. Dünyanın iqtisadi və sosial coğrafiyası (9-cu siniflər üçün dərslik, təkmilləşdirilmiş variant 25 ç.v, Bakı, «Çaşıoğlu», 2003)
15. Regional coğrafiya (Şimali Amerika və Şərqi Asiya ölkələri). Ali məktəblər üçün dərs vəsaiti (25 ç.v., Bakı, «Çaşıoğlu» 2004).

Əsərlərdə istifadə edilən bəzi coğrafi terminlərin anlayışına yenidən baxılmış, münasib terminlər müəyyənləşdirilmiş və bu terminlərin ali və orta məktəb dərsliklərində eyni ilə öz əksini tapmasına nail olunmuşdur.

# İstifadə olunmuş ədəbiyyat siyahısı

## Azərbaycan dilində


1. T.P. Gərayzadə, Xarici ölkələrin iqtisadi və sosial coğrafiyası, 35 ç.v., «Maarif», B.-1985
2. T.P.Gərayzadə, ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi və sosial coğrafiyası, B.-1991
3. T.P.Gərayzadə, İraq Respublikası, , Azərnəşr. B.-1991
4. T.P.Gərayzadə,C.A.Məmmədov, Cənub-Qərbi Asiya ölkələrinin iqtisadi və sosial coğrafiyası, Maarif, B.-1991
5. T.P.Gərayzadə, Dünyanın siyasi xəritəsi, Öyrətmən,B,-1992
6. T.P.Gərayzadə, Bəşəriyyətin qlobal problemləri, Öyrətmən, B-1992
7. T.P.Gərayzadə, Afrika ölkələrinin iqtisadi və sosial coğrafiyası, Öyrətmən, B-1993
8. T.P.Gərayzadə,C.A.Məmmədov,İran körfəzi əmirlikləri, Azərnəşr, B-1994.
9. T.P.Gərayzadə,C.A.Məmmədov, Qərbi Avropa dövlətləri, Çaşıoğlu, B.-2001
10. Səmədzadə
11. S.Səmədzadə. Dünya iqtisadiyyatı. «Çin iqtisadi möcüzəsi», B., «Gənclik», 2001


## Rus dilində


1. Алисов Н.В.,Хорев Б.С. Экономическая и социальная география мира. Общий обзор: Учебник. М, 2000
2. Агранат Г.А. Использование ресурсов и освоение территории зарубежного Севера.М., Наука, 1984
3. Болотин Б.М. Мировая экономика за 100 лет (МЭ МО, 2001, № 9, с.90-114)
4. Берзина М.Й. Формирование Этнического состава населения Канада, М., Молодая гвардия
5. Канада-США: Экономические и политические отношения.М., Политиздат.1984
6. Карпов Л.Н. Новые районы в экономике развитых капиталистических стран. М. Мысль, 1972
7. Данилов С.Я.,Черкасов А.И. Двенадцать обликов Канады. Канадские провинции и территории (США: экономика, политика, идеология.1986.№7-Альберта, №8-Британская Колумбия, Манитоба №9-Квебек, №10-Новая Шотландия. Нью-Брансуик, №11-Ньюфаундленд, Остров Принца Эдуарда, №12-Онтарио, Саскачеван, 1987 №1-Юкон, Севера-Западные территории.
8. Беглов И.И. США: Собственность и власть «Наука», М.,1971
9. Даллин С.А. США: послевоенный государственно-монополистический капитализм, «Наука»,М.1972.
10. Джингарадзе В.З. Экомическая история США, «Высшая школа». М,1973
11. Зиман Л.Я. Экомические районы США, «Географгиз»,М.,1959
12. Козлов А.М. Админастративно-территориальное деление США. Словарь-справочник, ВИНИТИ, М.,1964
13. Колосов В.А., Мироненко Н.С. Геопрлитика и политическая география: Учебник, М.,2001
14. Китайская Народная Республика: Политика, экономика, культура. Ежегодгик. М.,1990-1995.
15. Китайская Народная Республика: Справочник.М., 1989
16. Масленников В.И. США: государство и наука, «Наука», М,1974
17. Михайлов Я.Д. США: проблемы больших городов, «Наука», М, 1971
18. В.П.Максаковский В.П. Географическая картина мира, Ярославль,1996

19. Международные экономические отношения: Учебник (Под ред. И.П.Фаминского.М., 20-01
20. Мировая экономика: Учебник (Под ред.А.С.Булатова.)
21. Моисев Н.Н. Судьба цивилизации. Путь разума. М.,2000
22. Половитская М.Я. Экономические районы США, Запад, «Мысль» М.1966
23. Погорлецкий А.И. Экономика зарубежных стран: Учебник, СПб.,2000
24. Смеляков Н.Н. , Деловая Америка, «Политиздат»,М,1970
25. Смирнягин Л.В. Районы США: портрет современной Америки, М.,1989
26. США: современные экономические связи промышленности с сельским хозяйством, «Наука», М,1972
27. Страны мира, справочник, 1999
28. Социально-экономическая география зарубежного мира, под.ред В.В. Вольского, М.1998
29. Харитонов В.М. Урбанизация в США, М., 1983
30. Экономика и политика современного капитализма. США «Мысль» , М.1972
31. Эстол Р. География США, «Прогресс» М 1977
32. Экономическая,социальная и политическая география мира. Регионы и страны, под ред. Б.С.Лаврова. М.,2003
33. Япония, СПРАВОЧНИК, Республика, М.1992
34. Япония в поисках новых ребежей. М.,1998
35. Япония. Ежегодгик-1995-2000
36. Япония: с чем в третье тысячелетие? М.,1999

# MÜNDƏRİCAT

**I Bölmə**
**Regional sivilizasiyaların mənbəyi və formalaşma mərhələləri**

§1. Yer кürəsinin məsкunlaşması. Dünya əhalisinin irq, milli və din fərqləri ........ 5
§2. Regional sivilizasiyaların formalaşma mərhələləri ........ 21
§3. Dünyanın müasir sivilizasiya maкroregionları ........ 52

**II Bölmə**
**Müasir dövrdə dünya inкişafının qloballaşması**

Qloballaşma və regionlaşma təmayülləri

§1. Postindustrial inкişaf və coğrafi qlobal təfəккür ........ 55
§2. Müasir dünya təsərrüfatının inкişafında qloballaşma və regionlaşma təmayülləri ........ 60
§3. Qloballaşmanın əsas əlamətləri və ziddiyyətliкləri ........ 65
§4. İqtisadi qloballaşma və Azərbaycan Respubliкası ........ 69

**III Bölmə**
**Şimali Ameriкa**

§1. Region barədə ümumi məlumat ........ 75

Ameriкa birləşmiş ştatları ........ 83

§1. Coğrafi mövqeyi və təbiəti. ........ 84
§2. Qısa inкişaf tarixi, dövlət quruluşu ........ 88
§3. Əhalinin və təhsil sisteminin coğrafiyası ........ 104
§4. Təsərrüfatın ümumi səciyyəsi ........ 122
§5. Eкoloji problemlər və ətraf mühitin mühafizəsi üzrə tədbirlər. ........ 146
§6. İqtisadi bölgələr. ........ 152

Kanada ........ 172

§1. Coğrafi mövqeyi və təbiəti. ........ 173
§2. Qısa inкişaf tarixi və dövlət quruluşu ........ 176
§3. Əhalinin və təhsil sisteminin coğrafiyası ........ 180
§4. Təsərrüfatının ümumi səciyyəsi ........ 185
§5. İqtisadi bölgələri ........ 191

**IV Bölmə**

Şərqi Asiya

§1. Region barədə ümumi məlumat ........ 216
§2. Daxili fərqləri ........ 220

Çin Xalq Respublikası ........ 233

§1. Coğrafi mövqeyi və təbiəti ........ 235
§2. Qısa inkişaf tarixi və dövlət quruluşu ........ 238
§3. Əhalinin coğrafiyası ........ 241
§4. Təsərrüfatın ümumi səciyyəsi ........ 246
§5. Azad iqtisadi zonalar ........ 260
§6. Ətraf mühitin vəziyyəti və mühafizəsi ........ 264
§7. İqtisadi bölgələri ........ 266

Yaponiya ........ 274

§1. Coğrafi mövqeyi və təbiəti ........ 275
§2. Qısa inkişaf tarixi və dövlət quruluşu ........ 281
§3. Əhalisi və təhsil sisteminin coğrafiyası ........ 287
§4. Elmin əsas istiqamətləri və texnopolislər ........ 304
§5. Təsərrüfatının inkişaf xüsusiyyətləri və ümumi səciyyəsi ........ 309
§6. Ətraf mühitin mühafizəsi ........ 327
§7. Daxili bölgələri ........ 331

Beynəlxalq təşkilatlar ........ 337

**Beynəlxalq regional təşkilatlar**
*Avropa* ........ 341
*Avroasiya regionu* ........ 343
*Asiya, Afrika, Avstraliya və Okeaniya* ........ 344
*Amerika* ........ 346

Dünya ölkələrinin adlarının mənşəyi, mənası və yaranma tarixi ........ 348

Lüğət ........ 376
Summary ........ 378
Tofiq Paşa oğlu Gərayzadə ........ 379
İstifadə olunmuş ədəbiyyat siyahısı ........ 380

Tofiq Gərayzadə

# Regional coğrafiya

**Şimali Amerika və Şərqi Asiya ölkələri**
**Dərs vəsaiti**


| | |
|---|---|
| Nəşriyyatın direktoru | E.A.Əliyev |
| Mətbəənin direktoru | S.O.Mustafayev |
| Texniki redaktoru | F.Z.Kərimov |
| Kompüter dizaynı | R.R.Mürsəlov |

Yığılmağa verilib 19.11.2003. Çapa imzalanıb 23.03.2004.
Formatı 70 x 90 1/16. F.ç.v. 24. Ş.ç.v. 28,1 Ofset kağızı.
Sifariş № 63. Sayı 500. Qiyməti müqavilə ilə.

*«Çaşıoğlu»* **mətbəəsi**
**Bakı, M.Müşfiq küç. 2a.**